بسم الله الرحمن الرحيم

# ZÜHUR ƏSRİ

MÜƏLLİF: ƏLİ KURANİ
MÜTƏRCİM: M. ƏLİZADƏ
REDAKTOR: İ. MƏHƏMMƏDOV

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzr ə Dövlət Komitəsi DK-427/ş saylı 12 may 2015-ci il tarixli məktubu ilə çap olunmasına razılıq verilmişdir.

Kitabın qiyməti: 5 manat

*Ey gözüm ağlama, Mövla gələcək*
*Qəm yemə Məhdiye vala gələcək*
*Ruhi-Taha gələcək, cani-Zəhra gələcək*

*Bir günün cilvəsi daim görünür*
*Sübhü sadiqdən əlaim[1] görünür*
*Təl`əti həzrəti Qaim görünür*
*Yari məhbubi dil ara gələcək*

*Kə`bədən zahir olan vəqti İmam*
*Verəcək aləmə e`lani qiyam*
*Dildə təkbiri Xuda əldə hisam*
*İnqilab etməyə bərpa gələcək*

*Ver bəşarət züəfayi zəmanə[2]*
*Xanidani şühədayi vətənə*
*Şəm`i nurun salacaq əncümənə*
*Cani pərvanəyə yara[3] gələcək*

*Ey Xuda şamə dönüb gündüzümüz*
*Kərbəlada qalıb ağlar gözümüz*
*Şühəda seyyidinə var sozumuz*
*Bəs haçan Müslihi-dünya[4] gələcək?*

*Ey Xuda, şiə düşübdür xətərə*
*Fərəcin salma bu gündən səhərə*
*Müztərik, müntəzirik xoş xəbərə*
*Bu xəbər hansı gün aya gələcək?*

*Ey səba bizdən apar yarə pəyam*
*Höccətibnil-Həsənə eylə salam*
*Düşmüşük müşkülə yox dildə davam*
*Dil deyər: Höccəti yekta gələcək!*

*Əlimiz çatmır o dildarımıza*
*Sərvərü qafilə salarımıza*
*Edə dərman dili bimarımıza*
*Çareyi dərdi əhibba[5] gələcək*

*De "Kəlami" bu sözü əhli dilə*
*Gəlir ol Şah verə əhrarə silə*
*Var yeri yollara azin çəkilə*
*Müjdə ver qətrəyə: dərya gələcək.*

---

[1] Əlamətlər
[2] Zamanın zəiflərinə
[3] Qüdrət
[4] Dünyanın islahatçısı
[5] Dostların dərdinin çarəsi

## MÜQƏDDİMƏ

### BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

İranda İslam inqilabının qələbəsindən sonra həzrət Sahibəz-Zaman (ərvahuna fidah)-a e'tiqadın nişanələri yalnız İslam xalqları arasında deyil, hətta qeyri-İslami xalqlar arasında da geniş şəkildə yayılmağa başlamışdır. Belə ki, pərəstişkarları onun barəsində danışmağa, axtarışlar aparmağa və müxtəlif kitablar yazmağa başlamış və bu kimi işlər son dərəcə sür'ətlənmişdir. Hətta belə bir lətifə də yayılmışdır ki, Amerikanın Təhlükəsizlik naziri İmam Məhdinin (ərvahuna fidah)-ın zühuru barəsində lazım olan bütün mə'lumatları bir yerə toplayıb tənzim etmiş, lakin yalnız o həzrətin zahiri (bədən) quruluşunun necəliyini deyə bilməmişdir.

Bəlkə də o həzrətə olan e'tiqadla əlaqədar baş verən siyasi hadisələrin ən böyüyü – 1400-cü hicri ilinin başlanğıcında Məkkə həramində Məhəmməd Əbdüllah Qürəşinin rəhbərliyi ilə baş vermişdir: O, öz köməkçiləri ilə birlikdə hərəmi ələ keçirdikdən sonra onun Cühəyman adlı köməkçisi hərəmin daxilindən e'lan vermiş və müsəlmanları Qürəşi ilə bey'ət etməyə çağırmışdı. Həmçinin onu Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) tərəfindən zühurunun və'dəsi verilən "Məhdi" adlandırmışdılar. Onların hərəmi işğal etməsi və oranı əldə saxlamaq üçün güclü müqavimət göstərmələri bir neçə gün davam etdi. Yerli hökumət yalnız fransız desant qoşunlarından kömək aldıqdan sonra onları məğlub edə bildi!

Həmçinin bu müddət ərzində həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş şərif)-in zühuruna olan e'tiqadla əlaqədar İslam düşmənlərinin apardığı ən böyük zəhərli əkstəbliğatların nümunəsi "Nostradamus" filmidir ki, dörd il bundan qabaq[1] Amerikanın televiziya şəbəkələrindən (üç ay ərzində) efirə buraxılmışdı. Bu film təqribən 500 il bundan qabaq yaşamış fransalı münəc-cim və həkim Mişel Nostradamusun həyatından bəhs edir. Bəşəriyyətin gələcəyi barəsində onun verdiyi proqnozların ən mühümü Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in nəvəsinin Məkkədə zühur edərək müsəlmanların arasında vəhdət yaratması, onları öz bayrağı altında bir yerə yığması, A vropaya qələbə çalıb yeni ölkənin (Amerikanın) böyük şəhərlərini məhv etməsi ilə əlaqədardır.

Bu filmdə göstərilir ki, Amerika və Avropanın həzrət Məhdi (ərvahuna fidah) tərəfindən məğlub edilməsindən, Vaşinqton kimi böyük şəhərlərin məhv edilməsindən sonra bu ölkələrin silahlı qüvvələri həm öz

[1] Kitabın yazılma tarixini nəzərə alsaq, indi (2005-ci ildə) təqribən 20 il bundan qabaq olur (müt).

aralarında, həm də Rusiya ilə müttəhid olub, nəhayət ona qələbə çalırlar!

Qeyd edək ki, bu kitabın həm elmi dəyəri, həm də müəllifinin şəxsiyyəti barəsində münaqişəli məsələlər çoxdur, çünki qədim Fransa (latın) dilində yazmış bir şəxs tərəfindən verilən proqnozlardan ibarətdir, özü də çoxlu rəmzlərlə, müəmmalı sözlərlə qarışıqdır, müxtəlif cür yozumlara və təfsirlərə qabildir.

Mənim nəzərimcə, bu kitabın müəllifi həzrət Məhdi ilə əlaqədar ya İslami mənbələrdən müəyyən qədər agahlıq əldə etmiş. ya da bizim alimlərimizdən bə'ziləri ilə görüşlər keçirmişdir. Xüsusilə. bunu nəzərə alaq ki, o, ömrünün bir hissəsini İtaliyada, Fransanın cənubunda, bə'zən də isə İspaniyada keçirmişdir. Amma bu kitab İranda İslam inqilabının qələbəsindən sonra çox sür'ətlə yayılmış, ona çoxlu şərhlər verilmiş, yüz minlərlə, hətta milyonlarla nüsxədə çap olunmuşdur.

Məhz bundan sonra sənədli film şəklinə salınaraq Fransanın televiziya şəbəkələrindən efirə buraxılmış və milyonlarla amerikalı və avropalı tamaşaçıya göstərilmişdir.

Münaqişəli məsələ qərblilərin həzrəti İsa, ya həzrət Məhdi -ın zühur etməsinə e'tiqadlı olub-olmamaları, Nostradamusun və yaxud başqa münəccimlərin öncədən verdiyi xəbərlərin düzgünlüyünə inanıb-inanmamaları deyildir. Əksinə, onlar inanırlar ki, İslam ölkələrindəki yeni hərəkatlar və dirçəlişlər, eləcə də onların İlahi əqidələr əsasında qurulan mədəniyyəti qərbin sırf maddi əsasda qurulan mədəniyyətlərini dəyişdirir və onların dünya xalqları üzərindəki istismarçı və zalımcasına hakimiyyətlərini təhdid edir. Məhz buna görə də mövcud olan hər bir xəbərdən istifadə edərək həyəcan siqnalını bütün xalqlara çatdırmaq istəyirlər. Onlar İslami inqilabın yeni hərəkatlarını, onun Məkkə, Misir və sair kimi İslam ölkələrində yaratdığı həyəcanlı dalğalarının inkişafını ciddi nəzarət altında saxlayırlar ki, özlərinin sırf istismarçı tədbirlərinin həyata keçməsində, bu və ya digər İslam ölkəsində yaranacaq hərəkata zərbə vurmaq istiqamətində xalqlardan istifadə etsinlər.

Deməli, İslam düşmənləri öz əqidələrinə əsasən həzrət Məhdi barəsində bu qədər əks-təbliğat aparmaq, hətta film çəkmək məcburiyyətində belə, qalmışlar. Onlar İslam ümmətinin və'dəsi verilən rəhbərlə əlaqədar agahlıq dalğaları ilə qarşılaşdıqlarına görə bu işdə daha ciddiyyətlə fəaliyyət göstərirlər ki, zühur məsələsinin səhih olduğu təqdirdə, eləcə də o həzrətin zühuru aşkar olduqda onunla qarşılaşa

bilsinlər.

Daha maraqlısı budur ki, onlar daxilən o həzrətdən vəhşət və qorxu hissi keçirdiklərinə görə, özləri də bilmədən onun zühuru üçün lazım olan şəraitləri hazırlayırlar: filmdə Peyğəmbərimiz həzrət Mühəmməd ibni Əbdillah (səlləllahu əleyhi və alihi və səlləm)-in nəvəsinin Kə'bənin yanında zühur etdiyini gördükdə onunla görüşə olan şövqümüz daha da artır. Müsəlman bir şəxs "Nostradamus" filmində İmam Məhdi (əleyhis-salam)-ı öz hərbi əməliyyat otağında yüksək rütbəli generallarının köməyi ilə (filmdə belə tə'bir olunur) oturaraq elə oradaca müharibəni idarə etdiyini, küfr başçıları ilə mübarizə apardığını, nəhəng raketləri Hicaz səhrasının qəlbindən Amerika və Avropadakı küfr və istismar düşərgələrinə atmaqla onları məhv etdiyini gördüyü zaman qəlbi ümid və şövqlə dolur.

Həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş şərif)-ə olan e'tiqada qarşı aparılan bu təbliğatlar əks-nəticə verməkdədir. Onun ən böyük nümunəsi İslam düşmənləri ilə mübarizə aparan İran İslam inqilabıdır ki, o həzrətin adı ilə, səadətli zühuruna hazırlıq üçün baş vermiş, bütün dünyada öz şö'lələrini saçmaqdadır. İranda hiss olunur ki, həzrət Məhdi (ərvahuna fidah)-ın hüzuru bütün inqilab başçılarından və hərəkatın rəhbəri olan alimlərdən daha artıqdır, o həzrət inqilabın və hökumətin həqiqi rəhbəridir, İmam Xomeyni (rizvanullahi taala əleyh) də onun nümayəndəsi və naibidir. Belə ki, o, həzrət Məhdi (ərvahuna fidah))-ın adını çox ehtiramla, müqəddəsliklə yad edərək deyir: "Ərvahuna liturabi məqdəmihil-fida", yə'ni ruhlarımız onun qədəmlərinin torpağına fəda olsun! Və ya deyir ki, "ölkəmiz İmam Zaman (ərvahuna fidah) ölkəsidir, bizim son arzu və istəyimiz də budur ki, onun əmanətdarı olaq və bu əmanəti əsl sahibinə tapşıraq."

Məhdi (ərvahuna fidah)-ın adı və xatirəsi İran xalqının qəlbində tam ehtiram və müqəddəsliklə canlanır; bu ad onların şüarlarında, övladlarının, müəssisələrin, xiyabanların, ticarət mərkəzlərinin adlarında təcəlli tapır və İslam döyüşçülərinin qəlblərində çox müqəddəsliklə yad olunur. Belə ki, onların vücudları o həzrətin görüşünə olan şövqdən şam kimi əriyib gedir, onun özünü yuxuda görür, o müqəddəs vücudun hüzuruna şərəfyab olmağı cani-dildən arzu edirlər.

Həzrət Məhdi (əleyhis-salam)-ın müsəlmanların, xüsusilə də şiələrin qəlbində malik olduğu müqəddəslik, məhəbbət və şövq indiyə qədər dünyada olan heç bir şəxsiyyətə qarşı olmamışdır. O həzrətin zühur məsələsinə diqqət və insanların ona olan məhəbbəti günbəgün artmaqdadır. Nəhayət, Allah Öz və'dəsini əməli olaraq həyata keçirəcək və Öz dinini bütün dünya dinlərinə qalib edəcəkdir.

Bir neçə il bundan qabaq sünnü və şiə mənbələrindən istifadə etməklə "Əl-muməhhidunə lil-Məhdi" (Həzrət Məhdi (əccələllahu təalı fərəcəhuş-şərif)-in zühurunun müqəddiməsini hazırlayanlar) adlı bir kitab yazmışdım ki, şərq ölkələrində iranlıların və Salman Farsiyə aid olan millətlərin, və'dəsi verilən hərəkat yaradıcıları olmaları, eləcə də Xorasan əhli və onların həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna müqəddimə yaratmaqda ifa etdikləri rol orada qələmə alınmışdır. Kitabın cəmiyyətdə özünə yer açmasına, müxtəlif ölkələrdə çap edilməsinə baxmayaraq, yenə də kifayət deyildi və həzrət Məhdi (əleyhis-salam)-a müştaq olan müsəlmanların qəlbindəki hərarətə dava-dərman etmirdi. Həmçinin, o həzrətin hərəkatının zamanı, onun özünün tanıtdırılması ilə əlaqədar müsəlmanları lazımınca mə'lumatlandırmırdı. Halbuki müsəlmanlardan böyük bir qrupu və o həzrətin aşiqləri onun başına gələcək əhvalatlardan külli bir təsəvvür əldə etmək istəyirlər. Əlbəttə, bu məs'uliyyətin yerinə yetirilməsi şiə və sünnü aləmində olan dindar fəzilət sahiblərinin və alimlərin öhdəsindədir ki, həzrət Məhdi (əccələllahu təalı fərəcəhuş-şərif) barəsində olan müxtəlif mətləbləri və təsəvvürləri müsəlman xalqların ixtiyarında qoysunlar, beləliklə də İslam millətlərinin zehinləri bu hərəkatın necəliyi ilə əlaqədar tamamilə aydınlaşsın.

Həzrət Məhdi (əleyhis-salam) barədə yazılan qədim kitablarla yanaşı, bu mövzuda olan müxtəlif rəvayətlər barəsində də elmi-təhqiqat işlərinə ehtiyac duyulur. Bu işin ilkin mərhələsi o həzrətlə əlaqədar nəql olunan rəvayətlərin bir yerə toplanmasıdır. Ən mö'təbər sənədə malik olan 50-yə yaxın mənbə – istər əlyazma olsun, istərsə də çap üslubu ilə – bunlar orta və son əsrin alimləri tərəfindən yazılan kitablardan ibarət olan ikinci dərəcəli mənbələrdən tamamilə ayrıdır. Bu məcmuənin xüsusiyyətlərindən biri də tədqiqatçıların həzrət Məhdi (ərvahuna fidah) barəsində İslami mənbələrə müraciət etməsinin asanlaşdırılması və ümumxalq kütlələrinin ixtiyarında qoyulmasıdır.

Bu dəyərli işi Qumda fəaliyyət göstərən "Bünyadi-məarifi-İslami" təşkilatı öz öhdəsinə almışdır. Hal-hazırda rəvayətlərin 100-dən artıq mənbədən çıxarılması və cəm olunması işi sona çatdırılmışdır. Bu məcmuədə həzrət Məhdi (əleyhis-salam) ilə əlaqədar olan rəvayətlər – mənbələri də qeyd olunmaqla bir yerə toplanmışdır. Daha sonra o həzrətlə əlaqədar mövzular, rəvayətdəki ayrı-ayrı kəlmələrin mə'nası, adların, məkanların və s.-nin hamısı, inşaallah, qeyd olunacaqdır.

Bu kitabın əsas məqsədi ayə və rəvayətlərdən istifadə etməklə İmam Məhdi (ərvahuna fidah)-ın əsr və zamanının, o həzrətin müqəddəs qiyamının külli

şəkildə bəyan edilməsidir.

Mən o rəvayətlərə və mənbələrə müraciət etməkdə çox ciddi-cəhd göstərdim. Təsadüfən Livanda çap olunub yayılan bir kitabla rastlaşdım ki, rəvayətlərinin çoxluğuna görə camaat arasında məşhur idi. Müəllifin vərəqaltı haşiyələrdə qeyd etdiyi onlarla mənbəyə müraciət etdikdə isə çox təəccübləndim, gördüm ki, onun qeyd etdiyi rəvayətlərlə mənbələr arasında, ümumiyyətlə, heç bir uyğunluq yoxdur. Üstəlik, müəllif rəvayətləri hissələrə bölmüş, bə'zilərinin bir hissəsini digərinin axırına əlavə etmiş və nəhayət, bə'zi sözləri də dəyişdirmişdir.

Əlbəttə, mən bir, yaxud iki mənbəni zikr etməklə kifayətlənmişəm, çünki kitabın əsas məqsədi rəvayətlərin düzgünlüyünü yoxlamaq deyil, yalnız İmam Məhdi (ərvahuna fidah)-ın zühurunun zamanı ilə əlaqədar olan ümumi bir təsəvvürü təqdim etmək olmuşdur.

Ümidvaram ki, bu kitabla (Zühur əsri) və'dəsi verilən rəhbərlərini tanımaq arzusunda olan müsəlmanlara – Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm)-in buyurduğu kimi – xidmət etmiş olaq, Mütəal Allah da bu işimizi Öz vəlisinin və höccətinin (ruhumuz ona fəda olsun!) zühuruna müqəddimə yaratmaq üçün bir xidmət hesab etsin. İnşallah!

*Əli Kurani, 24 şəvval, 1407-ci il (1987)*
*Qum şəhəri.*

## ZÜHUR DÖVRANININ ÜMUMİ SİMASI

Qur'ani-Kərim Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in əbədi mö'cüzəsidir və hər bir zamanda öz təravətini saxlamaqdadır. Bununla belə, həmişə təzə olan mö'cüzələrdən biri də, İslamın yenidən qayıtdığı dövrə (və'dəsi verilən vaxta) qədər insanların gələcəyinin və İslamın seyr xəttinin o həzrətin vasitəsi ilə bəyan edilməsidir. Bu elə bir əsrdir ki, Allah-taala Öz dinini bütün dünya dinlərinə və məktəblərinə – müşriklərin və kafirlərin xoşlarına gəlməsə belə – qalib edəcəkdir. Bu əsr həqiqi mə'nada zühur əsridir ki, kitabın mövzusu da elə bu barədədir. Zühur əsri dedikdə, həzrət Məhdi (əccələllahu təala fərəcəhuş şərif)-in zühur etdiyi dövr nəzərdə tutulur. Bunu Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) yüzlərlə rəvayətdə müjdə vermişdir, həmçinin, səhabələr, tabeinlər və "Sihah" müəlliflərinin bu iki əsr (İslam və zühur) barəsində nəql etdiyi rəvayət məcmuələrində yüzlərlə rəvayət vardır ki, fərq yalnız onların bəyan üslublarındadır. Əgər onlara mə'sum İmamlardan nəql olunan hədisləri də əlavə etsək, sayı mindən artıq olar. İmamlar (əleyhimus-salam) öz hədislərini həmişə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-ə istinad verməsələr də, dəfələrlə təkrar etmişlər ki, bəyan etdiklərini öz ata-babalarından, onlar da əziz ulu babaları Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql etmişlər.

Bu rəvayətlər dünyanın zühur əsrindəki vəziyyətindən, xüsusilə, o həzrətin zühur etdiyi məntəqə barəsində, o cümlədən Yəmən, Hicaz, İran, İraq, Şam, Fələstin, Misir, Məğrib (Mərakeş) kimi məntəqələr barədə oxuculara kamil bir təsəvvür yaradır. Belə ki, hadisələrdən bir çoxu, o cümlədən ayrı-ayrı şəxslərin və məkanların adları orada gəlmişdir. Mən çalışmışam ki, onları çoxlu rəvayətlər arasından seçərək mümkün olan qədər aşkar və dəqiq şəkildə müsəlmanların istifadəsinə verəm. Bu bölmədə həmin rəvayətləri şərh etməzdən qabaq onların xülasəsini bəyan edirik ki, zühur əsrinin ümumi siması aydın olsun.

Rəvayətlərdə göstərilir ki, həzrət Məhdi (əleyhis-salam)-ın zühur hərəkatı və inqilabı həm dünya, həm də məntəqə səviyyəsində hazırlıq və müqəddimə işlərinin baş verməsindən sonra, Məkkədən başlanmalıdır. Rəvayətlərin bəyan etdiyinə əsasən, dünya səviyyəsində romalılarla (qərblilərlə) türklər arasında, yaxud onların havadarları olan zahirən ruslar arasında ağır müharibə baş verəcək və dünya müharibəsinə səbəb olacaqdır.

Amma məntəqə səviyyəsindəki hadisələrə gəldikdə isə, həzrət Məhdi (ərvahuna fidah)-ın havadarı olan iki dövlət – biri İranda, digəri isə Yəməndə təşkil olunacaq, o həzrətin iranlı köməkçiləri zühurdan bir müddət öncə

öz hökumətlərini tə'sis edəcək, uzun müddətli müharibə başlandıqdan sonra, nəhayət qələbə çalacaqlar.

O həzrətin zühurundan azacıq öncə iranlılardan iki böyük şəxsiyyət – xorasanlı Seyyid siyasi rəhbər və Şüeyb ibni Saleh hərbi rəhbər ünvanında zahir olacaqdır. İranlılar bu iki şəxsin rəhbərliyi altında o həzrətin zühur hərəkatında mühüm rol ifa edəcəklər.

Həzrət Məhdi (əleyhis-salam)-ın yəmənli köməkçilərinə gəldikdə isə, onların qiyam və inqilabları zühurdan bir neçə ay öncə olacaq və zahirən onlar Hicazda yaranan siyasi böhranı sahmana salmaq üçün həmkarlıq edəcəklər. Bu siyasi boşluğa səbəb Hicazın axırıncı padşahı və "filan xanədandan" olan səfeh bir şəxsin öldürülməsi olacaqdır ki, sonra onun canişinlik məsələsində ixtilaf yaranacaq və bu ixtilaf həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş şərif)-in zühuruna qədər davam edəcəkdir.

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: *"Əbdüllahın əcəli gəlib çatanda, camaat heç kəsin onun canişini olması barədə razılığa gəlməz və bu hadisə Məhdinin zühuruna qədər davam edər. Bir neçə illik səltənətlərinin ömrü sona çatar, bir neçə aylıq və bir neçə günlük padşahlığın növbəsi gəlib çatar."* Əbu Bəkr soruşdu: Bu vəziyyət çox davam edəcəkdirmi? Həzrət buyurdu: "Əsla!"

Onun (Əbdüllahın) öldürülməsindən sonra Hicaz qəbilələri arasında çəkişmələr yaranacaqdır. *"Zühurun əlamətlərindən biri də bu hərəmlər (Məkkə-Mədinə) arasında baş verən hadisədir."* Soruşuldu: Hansı hadisə baş verəcəkdir? Buyurdu: *"İki hərəm arasında qəbilə təəssübləri yaranacaq və "filankəsin övladlarından olan bir şəxs" yuxarı (səviyyəli) qəbilənin böyük şəxsiyyətlərindən və başçılarından, yaxud öz müxaliflərinin övladlarından 15 nəfərini qətlə yetirəcəkdir."*

Bu zaman həzrət Məhdi (əleyhis-salam)-ın zühurunun əlamətləri aşkar olacaqdır. Bəlkə də bunun ən böyük əlaməti onun adı ilə Ramazan ayının 23-də eşidiləcək səmavi nidadır.

Seyf ibni Ümeyr deyir: Əbu Cə'fər Mənsurun yanında idim, o heç bir müqəddimə olmadan dedi: Ey Seyf ibni Ümeyr! Şübhəsiz, səmadan nida edən şəxs Əbu Talibin övladlarından birinin adı ilə nida edəcəkdir. Dedim: Sənə fəda olum, ey əmirəl-mö'minin! Bu sözünüz rəvayətdirmi? Dedi: Bəli, and olsun O kəsə ki, canım Onun əlindədir, bunu öz qulağımla eşitdim. Dedim: Ey əmirəl-mö'minin! Mən indiyə qədər belə bir hədisi heç kəsdən eşitməmişdim! O dedi: Ey Seyf, bu, haqq sözdür. Bu əmr vaqe olanda onun də'vətinə müsbət cavab verən ilk şəxslər bizik. Məgər o nida bizim əmioğlanlarımızdan bir kişini

çağırmırmı? Dedim: O kişi Fatimə -ın övladlarındandır? Dedi: Bəli, ey Seyf. Bu rəvayəti Əbu Cə'fər Mühəmməd ibni Əli – İmam Baqir – dan eşitdim. Əgər bunu yer üzündəki insanların hamısı desəydi, mən qəbul etməzdim, amma, o, Mühəmməd ibni Əli (İmam Baqir -dır."

Rəvayətlərə əsasən, bu səmavi nidadan sonra həzrət Məhdi öz köməkçiləri və havadarları ilə gizli rabitə bərqərar edəcəkdir. O həzrətin barəsində bütün dünyada çoxlu sözlər danışılacaq, onun adı dillər əzbəri olacaq və ona olan məhəbbət bütün qəlblərdə özünə yer açacaqdır.

Düşmənləri o həzrətin zühurundan bərk qorxuda olduqlarına görə onu ələ keçirmək üçün tam ciddiyyətlə sə'y göstərərlər. Camaat arasında şayiə salınar ki, o həzrət Mədineyi-Münəvvərədə yaşayır. Hicaz hökuməti, yaxud xarici qüvvələr daxili vəziyyəti nəzarət altında saxlamaq, qəbilə çəkişmələrinə son qoymaq üçün dövrün hökuməti ilə əlbir olub Suriyadan Süfyani ordusunu köməyə çağıracaqlar. Bu ordu Mədinəyə daxil olub tutduqları hər bir haşimi kişini qətlə yetirəcəklər. Onların əksəriyyəti və şiələrin çoxu öldürüləcək, qalanları isə zindana salınacaqdır: *"Süfyani öz qüvvələrindən bir hissəsini Mədinəyə göndərəcək, onlar da həmin yerdə bir kişini qətlə yetirəcəklər. Məhdi və Mənsur oradan qaçacaq, Peyğəmbər övladlarının böyüklü-kiçikli hamısı tutulacaqdır, belə ki, tutulub zindana salınmayan bir kəs qalmayacaqdır. Süfyani qüvvələri o iki nəfəri tə'qib edərək şəhərdən kənara çıxaracaq, həzrət Məhdi həzrət Musa kimi nigaran halda oradan çıxıb Məkkəyə yola düşəcək."*

Sonra o həzrət Məkkədə öz köməkçilərindən bə'ziləri ilə əlaqə yaradacaq, nəhayət özünün müqəddəs hərəkatını məhərrəmin 10-cu gecəsi, işa namazından sonra Məkkə hərəmindən başlayacaq camaat qarşısındakı ilk çıxışını Məkkədə söyləyəcəkdir. Bu zaman düşmənləri o həzrətə qarşı sui-qəsd etməyə çalışacaqlar. Amma o həzrətin köməkçiləri onu araya alaraq düşmənlərini uzaqlaşdıracaqlar. Onlar əvvəlcə Məscidul-Hərama, sonra isə Məkkə şəhərinə hakim olacaqlar.

Məhərrəmin 10-cu günü Məhdi dünya xalqlarını köməyə çağıracaq və Məkkədə qalacağını e'lan edəcəkdir. Nəhayət, əziz cəddi həzrəti Mühəmməd -in və'də verdiyi mö'cüzə baş verəcək: o həzrətin hərəkatını məğlub etmək üçün Məkkəyə doğru hərəkət edən Süfyani ordusu yerə batacaqdır: *"Süfyani ordusu Mədinə çölünə çatdıqda Allah-taala onları yerə batıracaqdır. Bu da Allah-taalanın buyurduğu aşağıdakı ayənin xarici nümunəsidir: "Ey Peyğəmbər, əgər*

*sən təxribatçıların ağır vəziyyətini müşahidə etsəydin... o zaman ki, qorxulu vəziyyətə düşərlər və onlar üçün heç bir əzab əsirgənilməz və yaxın bir yerdə müsibətə düçar olarlar". "Onlar səhraya çatdıqları zaman yerə batarlar, öndə gedənlər qayıdarlar ki, o qoşunun necə olduğunu görsünlər, bu zaman özləri də onların aqibətinə düçar olarlar. Arxada qalanlar da gəlib çatdıqları və onların vəziyyətlərini bilmək istədikləri zaman həmin bəlaya düçar olarlar."*

O həzrət düşmənlərin yerə batma mö'cüzəsindən sonra on mindən artıq olan ordu ilə Mədinəyə doğru yola düşər, düşmən qüvvələri ilə apardığı müharibədə qələbə çalar və orada qərarlaşar. Məkkə-Mədinəni azad etdikdən sonra isə Hicazı fəth edər və məntəqədə hakim olar.

Bə'zi rəvayətlərdə qeyd olunur ki, o həzrət Hicazın fəthindən sonra İranın cənubuna gələr, orada Xorasanlı Seyyidin və Şüeyb ibni Salehin başçılığı ilə olan iranlı qoşunla qarşılaşar. Onlar həzrətə bey'ət edər və çiyin-çiyinə düşmənlə vuruşar, nəhayət böyük və aşkar bir qələbəyə – fəthi-mübinə nail olarlar.

Sonra İmam (ərvahuna fidah) İraqa daxil olub oranın daxili vəziyyətini islah edər, Süfyani ordusunun oradakı qalıqlarını və qiyamçı qrupları tar-mar etdikdən sonra onların hamısını qətlə yetirər. Daha sonra İraqı mərkəzi hökumət, Kufəni isə paytaxt qərar verər, beləliklə Yəmən, İran, İraq, Hicaz və Fars körfəzindəki ölkələrin hamısı o həzrətin hakimiyyəti altına keçər.

İmam böyük bir ordunu Qüdsə göndərəcəkdir. Bu zaman Süfyani o həzrətin müqabilində geri çəkiləcəkdir. Nəhayət, o həzrətin ordusu Dəməşqin yaxınlığındakı Mərəc-Əzrada düşərgə salacaq, o həzrətlə Süfyani arasında müzakirələr başlanacaqdır. Amma o həzrətin müqabilində Süfyaninin tutduğu mövqe, xüsusilə ümumxalq kütlələrindən böyük bir hissəsinin o həzrətə qoşulacağı zaman, zəifdir. Belə ki, rəvayətlərin göstərdiyi kimi, Süfyani çarəsiz qalaraq qüdrəti o həzrətə həvalə edəcəkdir, amma onun yəhudi və qərbli himayəçiləri, eləcə də əlaltıları onu məzəmət edib danlayacaq, öz qüvvələrini səfərbər etməklə yenidən İmamın ordusu ilə şiddətli müharibəyə girişəcəklər. Belə ki, o müharibənin hüdudları Fələstindəki Əkkadan tutmuş, Türkiyədəki Antakiyaya qədər, daxildə də Təbəriyyədən Dəməşqə və Qüdsə qədərdir. (Təbəriyyə və onun məşhur dəryası Fələstində yerləşir.)

Nəhayət, Allahın qələbə və zəfəri həzrət Məhdi (əleyhis-salam)-a və müsəlmanlara nəsib olacaq və o həzrət qalib halda Qüdsə daxil olacaqdır. Xaçpərəst qərblilər gözlənilmədən yəhudilərin və onları himayə edən

qoşunların o həzrətin qüdrətli əlləri ilə məğlub olmasını müşahidə etdikdə qəzəbləri daha da şiddətlənəcək, İmamın əleyhinə müharibə e'lan edəcəklər. Lakin gözlənilmədən İsa (əleyhis-salam) səmadan Qüdsə nazil olacaq və öz sözləri ilə dünya xalqlarına, xüsusilə məsihilərə xitab edəcəkdir. Həzrəti İsa (əleyhis-salam)-ın nazil olma əlaməti bütün müsəlman və məsihi millətlərinin sevincinə səbəb olacaqdır.

İsa (əleyhis-salam) həzrət Məhdi (əleyhis-salam) ilə qərblilər arasında vasitəçilik edəcək, tərəflər arasında 7 illik sülh müqaviləsi imzalanacaqdır: *"Sizinlə rumlular (qərblilər) arasında dörd dəfə sülh müqaviləsi bağlanacaqdır ki, onların dördüncüsü Herqel sülaləsindən olan bir kişinin vasitəsi ilə baş verəcək və yeddi il davam edəcəkdir".* Əbdül-Qeys qəbiləsindən olan Məstur ibni Ğəylan soruşdu: "Ey Peyğəmbər! O gündə insanların rəhbəri kim olacaqdır?" Buyurdu: *"Mənim övladlarımdan olan Məhdi. Zahirdə qırx yaşlı nəzərə çarpır. Onun üzü parlaq bir ulduz kimi nur saçır, sağ yanağında xal vardır, iki Qətvan qəbası geymişdir (Qətvan Kufədə bir məntəqənin adıdır). Bəni-İsrailin böyük şəxsiyyətləri kimi cilvələnir. O, yerin xəzinələrini çıxaracaq və şirkə bulaşmış şəhərləri azad edəcəkdir."*

Bə'zi rəvayətlərdə qeyd olunur ki, qərblilər iki ildən sonra müqaviləni pozacaqlar. Bəlkə də bu işin səbəbi həzrət İsa (əleyhis-salam)-ın insanlar arasında yaratdığı həmrə'ylikdən törənən qorxu və vəhşət hissi olacaqdır. Çünki qərblilərdən çoxu müsəlman olaraq həzrət Məhdi (əccələllahu təala fərəcəhuş şərif)-i himayə edəcəklər. Buna görə də qərblilər gözlənilməz bir hücumla – bir milyona yaxın əsgərlə Şam və Fələstin üzərinə yürüş edəcəklər: *"O zaman sizinlə əhd-peymanı pozacaraq, 80 ordudan ibarət olan bir qoşunla hücum edəcəklər ki, hər bir ordu 12 min əsgərdən ibarətdir."*

İslam qüvvələri onlarla qarşılaşacaq və İsa (əleyhis-salam) həzrət Məhdi (əleyhis-salam)-a olan mövqeyini e'lan edəcək və Qüdsdə onun arxasında namaz qılacaqdır. Qüdsün azadlığı uğrunda qərblilərlə aparılan müharibə Əkkadan Antakiyaya, Dəməşqdən Qüdsə və Mərəc-Əzraya qədər (işğal olunmuş Fələstində bir məntəqənin adıdır) baş verəcəkdir ki, qərblilər çox ağır məğlubiyyətə düçar, müsəlmanlar isə böyük və aşkar qələbəyə nail olacaqlar.

Bu müharibələrdən sonra Avropanı və xristian aləmini fəth etmək üçün qapılar o həzrətin üzünə açılacaqdır. Zahirən, bə'zi ölkələr öz millətlərinin başladığı inqilab vasitəsilə fəth olunacaqdır, çünki onlar özlərinin həzrət Məhdi və Məsih (əleyhiməs-salam) ilə müxalif olan hökumətlərini

devirib o həzrətin tərəfdarı olan bir hökumət quracaqlar.

İmamın əli ilə qərbin fəth olunmasından, o ölkələrin həzrətə tabe olmasından və o yerlərin əhalisinin əksəriyyətinin İslamı qəbul etməsindən sonra həzrəti İsa (əleyhis-salam) vəfat edəcək, həzrət Məhdi (ərvahuna fidah) da müsəlmanlarla birlikdə onun cənazəsinə namaz qılacaqdır. Rəvayətlərdə buyurulduğu kimi, İmam (əleyhis-salam) o həzrətə qıldığı namazı və dəfn mərasimini camaatın gözləri önündə yerinə yetirəcəkdir ki, əvvəldə olduğu kimi onun barəsində əbəs sözlər danışmasınlar. Sonra onun pak cəsədini anası Müqəddəs Məryəmin toxuduğu parça ilə kəfənləyib anasının şərif məzarının yanında – Qüdsdə torpağa tapşıracaqdır.

O həzrətin dünyanı fəth etməsindən və bütün dünya dövlətlərinin vahid İslam hökuməti altında birləşməsindən sonra İmam (əccəlallahu təala fərəcəhuş şərif) müxtəlif sahələrdə öz İlahi məqsədinin gerçəkləşməsi üçün dünya xalqları arasında müəyyən işlər görəcək. O, cəmiyyətin maddi həyatında ciddi irəliləyiş edilməsi, hamının rifahının yüksəldilməsi, elm və mədəniyyətin geniş səviyyəli inkişafı və nəhayət insanların dini və dünyəvi azadlıqlarının tə’min edilməsi üçün çalışacaqdır.

Bə’zi rəvayətlərdə buyurulur ki, o həzrətin insanların mövcud elminə əlavə etdiyi elmin miqdarı 25-in 2-yə olan nisbətidir, yə’ni əvvəllər insanların malik olduğu və 2 hissədən ibarət olan elmə digər 25 hissə əlavə ediləcək, beləliklə bütün elm 27 hissədən ibarət olacaqdır. O həzrətin hakimiyyəti dövründə insanlar göylərə səyahət edəcək, hətta qeyb aləminin qapıları bizim yaşadığımız maddi aləmə açılacaq, behişt əhli yer üzünə gələcək və bir sıra mö’cüzəli işlər baş verəcəkdir.

O həzrətin dövründə və ondan sonra peyğəmbərlərdən və İmamlardan bə’ziləri yer üzünə qayıdacaq və Allahın iradə etdiyi müddət ərzində hakimiyyətdə olacaqlar ki, bu da Qiyamətin nişanələrindən, onun müqəddimə işlərindən hesab olunur.

Belə nəzərə çarpır ki, məl’un Dəccalın hərəkatı və onun törətdiyi fitnə-fəsadın səbəbi İmam Zaman (ərvahuna fidah)-ın dövründə bəşər cəmiyyətlərinin elmdən azğın yollarda istifadə etməsi və rifah içində yaşaması olacaqdır. Dəccal son dərəcə inkişaf etmiş gözbağlayıcılıqdan istifadə edərək öz ardıcıllarının əksəriyyətini təşkil edən qadınları, cavan qız və oğlanları aldadacaqdır. Buna görə də dünyanı fitnə-fəsad bürüyəcək, çoxları onun hiylələrinə inanacaqlar. Amma həzrət Məhdi (əleyhis-salam) onun hiylələrini ifşa edərək onun və havadarlarının həyatına son qoyacaqdır.

İmam Məhdi (ərvahuna fidah)-ın dünya səviyyəli hərəkatı barəsində olan ümumi mətləblər bundan ibarət idi. Amma bu hadisələrin baş verdiyi

dövrdə onun ən aşkar nişanələri rəvayətlərdə belə buyurulur:

Əvvəlcə İslam ümməti üçün bir fitnə qarşıya çıxacaq. Rəvayətlərdə o ən axırıncı və ən çətin fitnə kimi vəsf edilir ki, həzrət Məhdi (ع)-ın zühuru ilə aradan qaldırılacaqdır.

Diqqət yetirilməlidir ki, bu fitnə-fəsadın geniş və ümumi xüsusiyyətləri bu əsrin əvvəllərində qərblilərin və onlarla həmpeyman olan hegemon şərq ölkələrinin İslam ölkələrinə hakim kəsilməsi və fitnə-fəsad törətmələri ilə uyğun gəlir, çünki bu fitnələr bütün İslam ölkələrini və bütün müsəlman ailələrini bürümüşdür: *"(O dövrdə) elə bir ev yoxdur ki, fitnə ona daxil olmasın, elə bir müsəlman qalmayacaq ki, xəsarətə düçar olmasın."*

Həris və acgöz adam yağlı tikələr və cürbəcür yeməklər olan süfrəyə hücum etdiyi kimi, kafirlər də müsəlman ölkələrinə hücum edirlər: *"O fitnə-fəsad baş verən dövrdə bir qrup qərbdən, bir qrup da şərqdən gələrək mənim ümmətimə hökmranlıq edəcəklər."*

Bu fitnə Şamdan başlanacaqdır, o yer ki, bizim qatı düşmənlərimiz öz mənfur və istismarçı hakimiyyətlərini məhz oradan başlamış və oranı mədəniyyətin saçdığı yer adlandırmışlar. Nəticədə rəvayətlərdə *"Fələstin fitnəsi"* adı ilə qeyd olunan bir fitnə yaranacaqdır və bu fitnə nəticəsində Şam ölkəsi tuluqda çalxalanan su kimi bir-birinə qarışacaqdır: *"Fələstin fitnəsi qalxan zaman Şam məntəqəsi suyun tuluqda bir birinə qarışdığı kimi, qarışıqlığa düçar olacaqdır. Onun vaxtı sona çatdığı zaman sizdən az bir qrupu peşman olacaqsınız."*

Rəvayətlərdə müsəlmanların övladları və nəsilləri belə vəsf olunur ki, onlar bu fitnəli mədəniyyətdə böyüyüb boya-başa çatacaq, sair mədəniyyətlərdən xəbərsiz qalacaq, həva-həvəs əsasında hökmranlıq edən zalım hökmdarların ən ağır işgəncələri altında olacaqlar.

Şərif hədislər bu fitnəni törədənlərin rumlulardan (qərblilərdən) və ruslardan ibarət olduğunu bəyan edir. Zühur ilində baş verən böyük hadisələrdə onlar öz qüvvələrini Fələstinin Rəmlə məntəqəsində, Türkiyə-Suriya sərhəddində yerləşən Antakiyada və Suriya-İraq-Türkiyə sahillərindəki Cəzirədə yerləşdirəcəklər: *"Rumlular (qərb) və Rusiya sizin əleyhinizə qiyam etdikləri və bir-birləri ilə də müxalifətdə olduqları zaman dünya səviyyəli çəkişmələr və müharibələr başlayacaq, onların havadarları Cəzirədə və Rəmlədə qərarlaşmaq üçün hərəkət edəcəklər."*

Həmçinin qeyd olunur ki, o həzrətin zühuru İrandan başlanacaqdır: *"Onun zühurunun başlanğıcı şərq tərəfdəndir. O*

*zaman gəlib çatdıqda Süfyani xüruc (qiyam) edəcəkdir."* Yə'ni, o həzrətin zühurunun şəraiti və müqəddiməsi Salman Farsinin tərəfdarlarının əli ilə olacaqdır. Əllərində qara bayraqlar olan şəxslər tərəfindən başlanacaq, hərəkatları da Qumdan olan bir şəxsin əli ilə olacaqdır: *"Bir nəfər Qumdan qiyam edəcək və insanları haqqa doğru çağıracaqdır. Onun ətrafına toplaşanların qəlbləri polad parçaları kimi o qədər möhkəmdir ki, müharibə tufanından, güclü küləklərdən qorxmaz, müharibədən yorulub usanmaz, qəlblərində vəhşətə yol verməzlər. Onlar həmişə Allaha arxalanıb yalnız Ona təvəkkül edərlər. Yaxşı və xeyirli aqibət təqvalılara məxsusdur."*

Onlar qiyam etdikdən və inqilablarını qələbəyə çatdırdıqdan sonra öz düşmənlərindən (hegemon qüdrətlərdən) istəyəcəklər ki, onlarla işləri olmasın, onların işlərinə dəxalət etməsinlər. Lakin düşmənlər bu istəyə e'tina etməyəcəklər: *"Onlar haqqı axtarırlar, lakin onlara verilməz. Yenə də haqqı istəyəcəklər, bu dəfə də onlara verilməyəcəkdir. Bu vəziyyəti müşahidə etdikləri zaman əllərinə silah alıb, arzu və istəkləri həyata keçənə qədər mübarizəni davam etdirəcəklər, lakin bu dəfə bunlar qəbul etməyəcək və nəhayətdə qiyam başlanacaqdır. Hərəkatın bayrağını sizin sahibinizin əlinə (Həzrət Məhdi (əleyhis-salam)-a) tapşıracaqlar. Onların öldürülənləri haqq yolunun şəhidləridir."*

Rəvayətlərə görə, onlar uzun müddətli müharibədə qələbə çalacaqlar, və'dəsi verilən iki şəxs də onların arasında zahir olacaqdır. Onlardan biri fəqih və mərcə, yaxud siyasi rəhbər ünvanı ilə olan Xorasanlı Seyyid, digəri isə Rey əhalisindən olan buğdayı rəngli, seyrək saqqallı Şüeyb ibni Saleh, hərbi sərkərdə ünvanı ilə qeyd edilmişdir.

Bu iki şəxs İslam bayrağını həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş şərif)-ə təhvil verib öz qüvvələri ilə o həzrətin qoşununda iştirak edəcəklər. Şüeyb ibni Saleh o həzrətin bütün qüvvələrinin sərkərdəsi vəzifəsinə nail olacaqdır.

Həmçinin rəvayətlərdə digər bir hərəkatdan da söz açılır ki, Suriyada Osman ibni Süfyaninin vasitəsi ilə (o, rumluların havadarı və yəhudilərin həmpeymanıdır) başlanacaq və o, Suriyanı və İordaniyanı tamamilə öz hökmranlığı altına keçirəcəkdir. *"Süfyaninin xürucu labüd bir işdir ki, 15 ay davam edəcəkdir. Onun 6 ayı müharibə və kütləvi qırğınla yanaşı olacaq, beş məntəqənin ələ keçirilməsi ilə sona çatacaq və özü isə doqquz ay o məntəqələrə hökmranlıq edəcəkdir."*

Rəvayətlərə görə, bu beş məntəqə Suriya və İordaniyadan əlavə,

ehtimal üzrə, Livana da aiddir. Bu da Süfyani tərəfindən Şamda yaradılan xoşagəlməz bir vəhdətdir, çünki onun əsas məqsədi İsrail üçün (ərəblər qarşısında) müdafiə xətti, həzrət Məhdi (əleyhis-salam)-ın hökumətinə şərait yaradanlar və iranlılarla qarşılaşmaq üçün cəbhə xətti hazırlamaqdan ibarətdir. Buna görə də Süfyani İraqı işğal və öz qüvvələrini oraya daxil edəcəkdir. *"O, yüz otuz min nəfərlik qoşunu Kufəyə göndərəcək və onlar Rovha və Faruq adlı məntəqələrdə yerləşəcəklər. Sonra onlardan altmış min nəfərini Kufəyə göndərəcək və onlar həzrət Hud (əleyhis-salam)-ın məqbərəsinin yaxınlığında – Nüxeylədə düşərgə salacaqlar. Sanki mən Süfyanini (yaxud onun havadarlarını) görürəm ki, Kufədə geniş və yaşıl yerlərdə mövqe seçəcəklər; onun carçısı car çəkib deyir ki, "hər kəs Əli şiəsinin başını gətirsə, ona min dirhəm pul veriləcəkdir." Bu zaman qonşu öz qonşusuna hücum edərək "bu şəxs onlardandır!" - deyəcəkdir."*

Sonra Süfyanini Hicazda yaranan siyasi boşluğu doldurmağa vadar edəcək və adı dillərdə dolaşan, Məkkədə intizarı çəkilən həzrət Məhdi (ərvahuna fidah)-ın hökumətini devirmək üçün Süfyani hökumətini gücləndirəcəklər. Buna görə də Süfyani öz ordusunu Hicaza göndərəcəkdir. O, öz qoşunlarını Mədinəyə daxil etməklə orada fitnə-fəsad törətməyə başlayacaq. Sonra Məkkəyə yola düşəcək; o yer ki, həzrət Məhdi (əleyhis-salam) öz hərəkatını oradan başlamışdır. Daha sonra Peğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in və'də verdiyi kimi, Süfyaninin ordusu Məkkəyə daxil olmamışdan qabaq mö'cüzəli şəkildə yerə batacaqdır. *"Sığınacaq axtaran bir şəxs Allah evinə sığınar, ona doğru bir qoşun göndərilər. Onlar Mədinə çöllərinə çatdığı zaman yerə batarlar."*

***

Süfyani İraqda iranlıların və yəmənlilərin vasitəsi ilə, Hicazda isə o həzrətin əli ilə məğlubiyyətə uğradıqdan və ordunun yerə batmasından sonra geri çəkiləcək, Dəməşqə və Qüdsə tərəf yola düşməkdə olan İmamın qarşısını almaq üçün öz qüvvələrini yenidən nizama salaraq Şam ölkəsinə hücum edəcəkdir.

Rəvayətlərdə bu, ağır bir döyüş hesab edilmişdir ki, dəniz sahillərində Əkkadan Sura qədər, məntəqə daxilində isə Dəməşqdən Təbəriyyəyə və Qüdsə qədər olan bir ərazini əhatə edir. Bu zaman Allah Süfyaniyə və onun yəhudi və rumlu (qərbli) tərəfdarlarına qəzəb edər, ağır məğlubiyyətdən sonra Süfyani əsarətə alınıb qətlə yetirilər, sonra Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif) müsəlmanlarla birlikdə Qüdsə daxil olar.

Rəvayətlərdə o həzrətin zühuruna şərait yaradan və Yəməndə vücuda gələn digər bir hərəkatdan da söhbət açılır. Bu hərəkatın başçısı Yəməni adlı bir şəxsdir ki, ona kömək etmək müsəlmanlara vacib edilmişdir: *"Bayraqlar arasında heç bir bayraq Yəməninin bayrağı qədər hidayət edən deyildir. Belə isə, o xüruc (qiyam) etdiyi zaman camaata silah satmaq haramdır. Bu zaman onun köməyinə tələsin, çünki onun bayrağı hidayət bayrağıdır. Ona kömək etməkdən imtina etmək heç bir müsəlmana caiz deyildir. Əgər imtina edərsə, cəhənnəm əhli olacaqdır. Çünki Yəməni insanları haqqa və düzgün yola çağırır."*

Rəvayətlərdə yəmənli qüvvələrin İraqa daxil olub Süfyani ordusunun müqabilində iranlılara kömək etməyindən söhbət açılır. Onun ordusunda olanlar Hicazda həzrət Məhdi (əleyhis-salam)-a kömək yetirməkdə böyük və mühüm rol ifa edəcəklər.

Həmçinin Yəməninin hərəkatı və Süfyaninin xürucundan qabaq Misirdə bir sərkərdənin rəhbərliyi ilə olan hərəkatdan, eləcə də Misirin ətrafında qibtilərin hərəkatından söhbət gedir. Sonra qərbli, yaxud məğribli orduların Misrə daxil olması, bunun ardınca da Şamda Süfyaninin xürucu xatırladılmışdır.

Rəvayətlərdən aydın olur ki, həzrət Məhdi (ərvahuna fidah) Misirdə dünya səviyyəsində xüsusi təbliğat mərkəzi yaradacaq və oranı özünün çıxış yeri – minbəri seçəcəkdir. Sonra o həzrətin öz ardıcılları ilə Misrə varid olması belə bəyan olunur: *"Sonra onlar (Həzrət Məhdi (əleyhis-salam) və onun köməkçiləri) Misrə daxil olarlar. O həzrət minbərə çıxar və bütün insanlara xitab edər. Yer haqq-ədalət nəticəsində rövnəqlənər, asiman rəhmət yağışını nazil edər, ağaclar həddindən artıq barlı-bəhrəli olar, yer öz bitkilərini cücərdib öz sakinlərinə zinət verər, vəhşi heyvanlar o*

*qədər əmin-amanlıqda və asudəlikdə olarlar ki, əhliləşmiş heyvanlar kimi, hər yerdə asudə dolanarlar. Elm və bilik mö'minlərin qəlbində özünə o qədər yer açar ki, heç bir mö'min öz din qardaşına ehtiyac duymaz. O gün bu şərif ayə gerçəkləşər: "Allah hamını, Özünün sonsuz ehtiyacsızlığından qüvvətli və qüdrətli edər."*

Amma müsəlman ölkəsi olan Məğribə gəldikdə isə, rəvayətlərin dediyinə görə oradan müəyyən qüvvələr Şama və bəlkə də Misrə, bə'ziləri isə İraqa daxil olarlar. Onların mə'muriyyətləri ərəblərin, yaxud beynəlmiləlçi sülhməramlı qüvvələrin mə'muriyyəti kimidir ki, bu da İslamın və müsəlmanların xeyrinə olmayacaqdır. Onlar Şamda iranlı qüvvələrlə və həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif)-in dövlətinə şərait aradanlarla qarşılaşacaq və onların arasında şiddətli döyüşlər olacaqdır. Sonra İordaniyaya tərəf geri çəkiləcəklər. Onların qalıqları da Süfyaninin xürucundan sonra geri çəkiləcək, yaxud ona qoşulacaqlar. Daha sonra yerli əhalinin qiyamlarına mə'ruz qalan Misir hökumətininköməyinə gedəcək, yaxud Süfyaninin Şamdakı hərəkatından azacıq öncə Misrə daxil olan qərb qüvvələrinin köməyinə tələsəcəklər.

Həzrət Məhdi (əleyhis-salam)-ın əsr və zamanı ilə əlaqədar rəvayətlər göstərir ki, yəhudilər zəmanənin axırında yer üzündə fitnə-fəsad törədəcək, təkəbbürə, özünü böyük sanmağa düçar olacaqlar. Belə ki, Allah-taala Qur'anda onları vəsf etmişdir. Onların hegemonluq xislətləri Xorasandan xüruc edən bayraqlılar tərəfindən məhv ediləcəkdir. *"Çünki heç bir şey onları öz qət'i qərarlarından döndərə bilməz, nəhayət öz bayraqlarını Qüdsdə dalğalandırarlar."*

İranlılar bir qövmdür ki, tezliklə Allah-taala onları yəhudilərin əleyhinə qaldıracaqdır. *"Biz Öz tərəfimizdən olan güclü bəndələrimizi sizin (yə'ni yəhudilərin) əleyhinizə qiyam etdirəcəyik."*

Rəvayət yəhudilərin həzrət Məhdi (ərvahuna fidah)-ın zühurundan öncə, yaxud ondan sonrakı mərhələdə olan həlakətlərindən konkret şəkildə söhbət açmır, lakin onun son mərhələsini belə vəsf edir ki, onlar həzrət Məhdi (əleyhis-salam)-ın və onun köməkçilərinin qüdrətli əlləri ilə (onların əksəriyyəti iranlılardan ibarətdir) həlak olacaqlar. Bu da böyük və ağır bir müharibə surətində baş verəcəkdir ki, orada Şamın hakimi Osman Süfyani yəhudilərin və qərblilərin cəbhəsində və onların müdafiə xəttində olacaqdır.

Nəql olunduğuna görə İmam Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) Tövratın əsl nüsxələrini Antakiyadakı bir mağaradan və Fələstindəki dağdan, eləcə də Təbəriyyə dəryasından çıxarıb, ona istinadən yəhudiləri məhkum edəcək,

mö'cüzə və əlamətləri onlara göstərəcəkdir. Qüdsün azadlığı uğrunda aparılan döyüşlərdə salamat qalan yəhudilərdən bə'ziləri o həzrətə təslim olacaq, təslim olmayanlar isə Ərəb ölkələrindən çıxarılacaqlar.

Rəvayətlərdən mə'lum olur ki, o həzrətin zühurundan azacıq əvvəl rumlularla qərblilərlə ruslar arasında dünya səviyyəli bir müharibə baş verəcəkdir, onun başlanma səbəbi də məşriq tərəfdəndir. Bə'zi rəvayətlərdə də qeyd olunur ki, bu müharibə məntəqə daxilində olacaqdır. *"O həzrətin zühur etdiyi ildə yer üzündə çoxlu müharibələr baş verəcəkdir ki, onun da xəsarətləri Amerikaya və Avropaya dəyəcəkdir."; "Qərb ölkələrində müharibə atəşi odunların odda yandığı kimi şö'lə çəkəcəkdir. Şərq və qərb əhalisi, hətta müsəlmanlar arasında belə, ixtilaf yaranacaqdır. Camaat düçar olduqları qorxu və vəhşətdən dolayı çox çətinlik, giriftarçılıq və əzab-əziyyətdə yaşayacaqlar."*

Həmçinin rəvayətlərdə qeyd olunur ki, bu müharibənin vurduğu maddi xəsarətlər həm müharibədən əvvəl, həm də ondan sonra yayılan taun xəstəliyindən əlavə, dünya əhalisinin üçdə iki hissəsinin qırılmasına da səbəb olacaqdır. Bu da əsas e'tibarı ilə müsəlmanlara varid olmayacaqdır, yalnız bə'zi hallarda, müəyyən vasitələrlə onlara dəyəcəkdir. *"Bu hadisə yalnız o vaxt baş verəcəkdir ki, dünya əhalisinin üçdə iki hissəsi aradan getmiş olsun."* Ravi soruşdu: "Camaatın üçdə iki hissəsinin həlak olub aradan getdiyi zaman kim yaşayacaqdır?!" Buyurdu: *"Siz üçdə bir hissədən olmaq istəməzdinizmi?!"*

Bə'zi rəvayətlərdə deyilir ki, bu müharibə bir neçə mərhələdə baş verəcəkdir, onun son mərhələsi isə həzrət Məhdi " -ın zühuru, Hicazı azad etməsi və İraqa daxil olmasından sonradır. Əlbəttə, Hicazın azad edilməsi orada yaranan siyasi boşluqla və hökumət böhranı ilə əlaqədardır ki, sonrakı fəsillərdə əlavə olaraq izah ediləcəkdir.

**ŞƏRQLƏ-QƏRBİN MÜSƏLMANLARIN ƏLEYHİNƏ ƏLBİR OLMASI**

Qur'ani-Kərimdə və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) sünnəsində fitnə həm ümumi, həm də xüsusi mə'nada işlənmişdir. Onun ümumi mə'nası insan üçün qarşıya gələn hər növ imtahan və sınaqdan ibarətdir, istər insanın özünün tərəfindən, istər şeytan, istərsə də camaat tərəfindən olmuş olsun. Həmçinin istər bu imtahandan üzüaçıq çıxıb fitnələrdən qurtarsın, istərsə onda süqut etsin. Onun xüsusi mə'nası isə müsəlmanları imtahana çəkən və onları dindarlıq hüdudlarından çıxarıb yoldan azdıran hadisələrdən ibarətdir. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in "daxili və xarici fitnələr" - deyə buyurduğu və xəbərdarlıq etdiyi hadisələr məhz həmin

mə'naya yozulur. Əlbəttə, səhabələr və tabeinlərin bir-biri ilə təfavütlü nəql etdikləri çoxlu rəvayətlərdə Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm), ümmətini özündən sonrakı fitnələrdən çəkindirmişdir. Səhabələrin arasında Hüzeyfə ibni Yəman "fitnələr" barəsində olan rəvayətə agahlıq baxımından məşhur bir şəxs idi. Çünki o, gələcəkdə baş verəcək fitnələr haqqında Peyğəmbərdən daha çox rəvayət eşitmiş və əzbərləmişdi. Buna görə də fitnələrlə əlaqədar rəvayətlərin çoxu sənəd baxımından Hüzeyfənin vasitəsilə Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-ə, yaxud Əli (əleyhis-salam)-a istinad edilir. Çünki Hüzeyfə onların xas səhabələrindən idi. O, belə nəql edir: *"Qiyamət gününə kimi elə bir fitnəçi yoxdur ki, (onların sayı 300 nəfərə çatacaq), onların özlərinin və atasının adını, yaşadığı yeri sadalamaya bilməyim. Çünki onların hamısını Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) mənə öyrətmişdir."* Başqa bir yerdə belə deyir: *"Əgər bildiklərimin hamısını sizin üçün sadalasam, mənə bir gecə belə möhlət verməyib, dərhal qətlə yetirərsiniz."*[1]

Müsəlmanların fitnə ilə əlaqədar rəvayətlərə olan diqqətləri çox yüksək həddə çatdığından, rəvayət məcmuələrini bir yerə toplayanlar "fitən" (fitnələr), yaxud "məlahim" (fitnəli hadisələr) ünvanı altında müəyyən fəsillər yazmışlar. "Məlahim" kəlməsi Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in verdiyi mühüm hadisə və müharibələr mə'nasınadır. Buna görə də İslam raviləri və alimlərindən bir qrupu "Əl-fitənu vəl-məlahim" adlı ayrıca kitab yazaraq, bu barədə nəql olunan rəvayətləri bir yerə toplamışlar.

Burada olan ümdə məsələ fitnələrin və müharibələrin sayını araşdırmaq, onu müsəlmanların tarixi ilə uyğunlaşdırmaq deyildir; əksinə, əsas məsələ o fitnələrdən ibarətdir ki, həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif)-ın zühuru ilə eyni zamanda onların da tamamilə aradan gedəcəklərinə dair fikir birliyi mövcuddur. Həmin fitnələr və onun xüsusiyyətləri qərbin bu əsrdə müsəlmanlar əleyhinə törətdiyi fitnələrlə tamamilə uyğun gəlir ki, bunun ardınca da çoxlu problemlər və çətinliklər yaranır. Çünki qərblilər öz ölkəmizin daxilində bizimlə vuruşur, mə'nəvi və təbii sərvətlərimizə və müqəddəratımıza hakim kəsilmişlər. Bizim şərq blokundakı düşmənlərimiz də onlarla həmkarlıq edərək İslami ölkələrdən çoxunu istila altına almış, həmin yerlərdə İslamın mövcudiyyətini və onun əsərlərini aradan apararaq hökmranlıq edirlər.

İndi isə həmin rəvayətlərin bə'zilərini qeyd edirik. Peyğəmbər

[1] "İbni Həmmadın əlyazması", səh.1-2

(səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: *"Mənim ümmətimə 4 fitnə varid olacaqdır: birinci fitnədə qan axıdılacaq, ikincidə qanlar və mal-dövlətlər aradan gedəcək, üçüncüdə qan, mal-dövlət və qadınlar halal hesab olunacaqdır. Dördüncü fitnədə isə kar və korluq hamını əhatə edəcək, təlatümlü dəryada olan gəmiyə oxşayacaqdır. Belə ki, heç kəs sığınacaq tapa bilməyəcəkdir. O fitnə Şamdan başlayaraq İraqı (Cəzirəni) əhatə edəcək, bəla və giriftarçılıqlar insanları dabbağxanadakı dəri kimi əzişdirəcək, heç kəs: "Daha bəsdir, əl saxlayın!" – deməyə belə qadir olmayacaqdır. Əgər bu fitnəni bir nahiyədən dəf etsələr, başqa nahiyədən zahir olacaqdır."*[1]

Başqa rəvayətdə də buyurur: *"Fələstin fitnəsi baş verən zaman Şamın vəziyyəti suyun tuluqda çalxalandığı kimi olacaqdır. Vaxtı sona yetdiyi zaman bu fitnə də sona çatacaqdır. Sizdən az bir qrupu peşman olacaqdır."*[2]

Başqa bir rəvayətdə gəlmişdir: *"Bu fitnə Şamı əhatə edəcək, İraqı bürüyəcək və Cəzirəni təlatümə gətirəcəkdir."*[3]

Yenə buyurulur: *"O zaman elə bir fitnə yaranacaqdır ki, hər vaxt onun sona çatmasından söhbət açılarsa da, yenə davam edəcəkdir. Elə bir ev olmayacaqdır ki, fitnə oraya daxil olmamış olsun. Elə bir müsəlman qalmayacaq ki, fitnənin ona olan tə'sirini hiss etməmiş olsun. Nəhayət mənim xanədanımdan bir kişi zühur edəcəkdir."*[4]

Çoxlu rəvayətlərdə bu fitnə və onun xüsusiyyətləri barəsində müxtəlif mətləblərlə qarşılaşırıq. Bütün rəvayətlərin dediyinə görə, dördüncü fitnə axırıncı fitnədir. Onun xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1-Sünnü və şiə mənbələrində bu rəvayət "icmali təvatür" həddindədir, yə'ni kəlmə baxımından fərqli olsalar da, çoxlu ravilər onu bir mə'nada nəql etmişlər. Belə ki, əgər bir kəs azacıq diqqət edərsə, bu rəvayətlərin məzmununun Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və onun Əhli-beyti (əleyhimus-salam) tərəfindən deyilməsi barədə yəqinə çata bilər.

2-Bu fitnə çox geniş miqyaslı bir fitnədir, bütün vəziyyət və şəraitlərə – təhlükəsizlik, mədəniyyət, iqtisadiyyata aid olur. Məsələn, bütün haram şeylər halal olacaqdır. Başqa rəvayətdə fitnə korluq və karlıq kimi vəsf edilmişdir, yə'ni kardır, onunla söz danışmaq və bu yolla dəf etmək olmaz. Kordur, yə'ni heç bir şeyi görmür ki, bununla digəri

---

[1] "Əl-məlahimu vəl-fitən", səh.17.
[2] "İbni Həmmadın əlyazması", səh.63
[3] "İbni Həmmadın əlyazması", səh.9
[4] "İbni Həmmadın əlyazması", səh.10

arasında fərq qoysun. O hamıya şamildir və hər bir evə daxil olacaqdır. Hər bir müsəlmanın şəxsiyyətinə zərbə endirib xəsarət vuracaq, müsəlman cəmiyyətini, təlatümlü dəryanın üzərindəki gəmi kimi ağır dalğalara mə'ruz qoyacaqdır. Heç kəs bu fitnənin öz dininə və ailəsinə qarşı törətdiyi xətər müqabilində müqavimət göstərə bilməyəcək, eləcə də İslam ümmətinin rəhbərliyini öhdəsinə alan və zülmkarlığa adət etmiş şərq-qərb hamilərinin zülmündən amanda olmayacaqdır. Belə ki, bir rəvayətdə deyilir: *"O zaman şərqdən və qərbdən bir qrup gələrək mənim ümmətimə hökmranlıq edəcəkdir."*

3-Bu hərəkatın nəticəsində çoxlu şərlər, çətinliklər yaranacaq və onun başlanğıcı da Şamdan olacaqdır. *"Tətəyyərə biş-Şam"*, yə'ni bu, Şamdan başlanacaqdır. Ona görə də bizim düşmənlərimiz oranı "mədəniyyət günəşi" adlandırırlar. Əgər Şam ölkəsində İsrail kimi bir dövlətin icad edilməsini də buna əlavə etsək, bir görün vəziyyət necə olacaqdır?! Başqa bir rəvayətdə isə *"tətəyyəfə biş-Şam"* gəlmişdir, yə'ni fitnələr Şamı əhatə edəcək, daha sonra oradan sair müsəlman və ərəb ölkələrinə yayılacaqdır. Hətta bir rəvayətdə o, "Fələstin fitnəsi" adlanır ki, bunun da Şama göstərdiyi təzyiq və çətinliklər başqalarından daha artıq olacaqdır.

4-Bu barədə tökülən tədbirlərin və çıxış yollarının heç bir faydası olmayacaq və bu fitnə uzun müddət davam edəcəkdir. Çünki mədəniyyətə aid olan fitnə elə dərin köklərə malikdir ki, islahat yolu ilə ona heç bir çarə etmək olmaz. Digər tərəfdən, ümmətdə müqavimət dalğalarının zəifləməsi, eləcə də düşmənlərin öz düşmənçiliklərində inadkarlıqları nəticəsində bu çıxış yollarının heç bir faydası olmayacaqdır. Belə ki, bir rəvayətdə buyurulur: *"Hər hansı bir yerdə onu dəf edib aradan qaldırmaq fikrinə düşsələr, başqa yerdə zahir olacaqdır."*

Çünki onun çıxış yolu yalnız həzrət Məhdi " -ın hökumətinə ümmət arasında zəmin yaratmağa sə'y göstərməkdən ibarətdir, bu fitnənin kökünün kəsilməsi də məhz o həzrətin zühuru ilə mümkün olacaqdır.

Həmçinin çoxlu rəvayətlərdə qeyd olunur ki, bu fitnələrin axırıncısı o həzrətin zühuru ilə eyni zamanda olacaqdır. Bə'zi rəvayətlərdə də qeydsiz-şərtsiz gəlməsinə, o həzrətin zühurundan azacıq öncə baş verməsinə işarə edilməməsinə baxmayaraq, onu "axırıncı fitnə" adlandırmış və həmin xüsusiyyətlərlə vəsf etmişlər. Çünki məqsəd elə həmin

fitnədir ki, labüd olaraq "mütləq"i "müqəyyəd"ə nisbət verməliyik.[1]

Əlbəttə, bu fitnənin başqa hədislərdə gələn digər xüsusiyyətlərini də qeyd edəcəyik. Çünki bu xüsusiyyətləri İslam ümmətinin əvvəlindən indiyə qədər olan heç bir fitnə ilə – istər daxili, istərsə də xarici – bərabər hesab etmək olmaz, bunu yalnız qərbin törətdiyi fitnələrlə izah etmək olar. Çünki bu fitnə İslamın əvvəllərində, eləcə də ondan sonra baş verən müharibələrlə, hətta monqolların törətdikləri qarətçilik hərəkətləri, xristianların tərəfindən törədilən səlib yürüşləri ilə uyğun deyildir və onlarla müxtəlif cəhətlərdən fərqlənir.

Bəli, onun son mərhələsində qərblilər əlbir olaraq İslam ümmətinə hücum etdilər. Onların orduları İslam ölkələrinə daxil oldu, İslam ümmətini parçalayıb məhv etdilər və İslam ölkələrinin qəlbində öz yəhudi həmpeymanlarının qərargahlarını yerləşdirə bildilər.

Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) buyurur: *"Canım əlində olan Kəsə and olsun! Mənim ümmətimə elə bir qövm hakim kəsiləcəkdir ki, əgər (müsəlmanlar) səslərini çıxartsalar, onları öldürər, sükut etsələr, onların var-yoxunu mübah edər, mal-dövlətlərini öz ixtiyarlarına keçirər, namuslarını tapdalamaqla qanlarını axıdar, qəlblərini kin və vəhşətlə doldurar, onları daim qorxuda və qəm-qüssəli vəziyyətdə saxlayarlar. Bu zaman bir qrup şərqdən, bir qrup da qərbdən gələrək mənim ümmətimə hökmranlıq edərlər. Bu halda, vay olsun mənim ümmətimin zəiflərinin halına, zülmü özlərinə peşə edənlərin əlindən! Vay olsun zalımlara, İlahi əzabdan! Çünki onlar nə kiçiyə rəhm edər, nə böyüyün və qocanın hörmətini saxlayar; heç bir (çirkin və yaramaz) əməli əsirgəməzlər. Onların zahirləri adam, qəlbləri isə şeytan qəlbləridir."*[2]

Bu dəyərli rəvayət daxili zülmkarlıqla xarici istismarçılıq arasında olan iki yönlü əlaqəni ifşa edir, şərq-qərb kafirlərinin İslam ümmətinə hakim kəsilməsinin səbəbini daxili hakimlərin müsəlman millətlərə qarşı olan zorakılıqları və təzyiqlərində, irticaçı şəraitin hakim olması və onların azadlığının əlindən alınmasında görür. Çünki zalımcasına olan belə rəftarlar insanları öz hakimlərindən intiqam almağa sövq edir və onların bu daxili çəkişmələri də xarici düşmənlərin xeyrinə tamam olur. Nəticədə düşmənlər onları istismar etdikləri halda, "öz zalım hakimlərinin əlindən xilas etmək" bəhanəsi ilə İslam ölkələrinin sərvət-

---

[1] Mütləq, yə'ni o yer nəzərdə tutulur ki, "zühurdan əvvəl" adlı heç bir qeydə malik olmasın. Müqəyyəd, yə'ni o yerdədir ki, həmin qeydə malik olsun. Buna görə də mütləqi müqəyyədə nisbət verməklə o fitnəni zühurdan əvvəlki fitnə hesab etməliyik.

[2] "Bişarətul-İslam", səh.25, "Rovzətül-vaizin"dən nəqlən

lərini qarət edirlər. Bunun nümunəsini Napoleonun Misirə hücum etdiyi zaman görmək olar. Onun gəmiləri sahilə yaxınlaşdıqda, misirlilərə bir məktub yazıb İslamı tə'riflədi, bu dini sevdiyini və ona meylli olduğunu bildirdi, ora gəlməsinə, misirliləri qulların zülmündən xilas etmək adı ilə bəraət qazandırdı.

Bu hiyləgərlik siyasətini Misiri işğal etdikdən sonra da davam etdirdi, nəhayət yerli əhali kimi milli paltar geyməklə özünü müsəlman kimi göstərdi və Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in milad gününü bayram keçirtdi! Sonralar İngiltərə, Fransa, Amerika və Rusiya da buna oxşar üslublardan istifadə edərək iddia edirdilər ki, bizim yeganə məqsədimiz müsəlman xalqlarını azad etməkdir. Onlar İslam ölkələrində öz qanunsuz hakimiyyətlərini və istismarçılıq siyasətlərini davam etdirir və müsəlmanların daxili işlərinə qarışmaq üçün məhz bu yollara əl atırdılar.

Diqqət yetirilməlidir ki, hədislərdə bəyan olunan xüsusiyyətlər dəqiq şəkildə o dövlət başçılarına uyğun gəlir ki, hegemon dövlətlərin hakimiyyəti və istismarı, yaxud mövcud istismarçılıq şəraitinin davam etməsi üçün zəmin yaratsınlar. Bu xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

1-Azad düşüncə və vicdan azadlığı müqabilində irtica şəraitinin hakim olması, hətta haqq bir söz demək müqabilində belə öldürülmək;

2-Əgər sükut etsələr də belə, onların hər bir şeyi mübah (hədər) sayılır; çünki onların siyasəti budur ki, barələrində bir söz deyilməsə belə, yenə də insanların hüquqlarına təcavüz etməkdən əl çəkməsinlər;

3-İslam xalqlarının milli sərvətlərinin talan edilməsi təcavüzkar hakimlərin siyasətinin əsasını təşkil edir; belə ki, müsəlmanların mal-dövlətləri sanki irsən onların özlərinin, ailələrinin, yaltaq və ikiüzlü münafiqlərin və onların sarayında nökərçilik edənlərin mülkiyyətidir;

4-Müsəlmanların izzət, hörmət və toxunulmazlığının aradan getməsi; belə ki, bu onların canlarına təcavüz edilməsi, insani dəyərlərinin, azadlıqlarının və mal-dövlətlərinin aradan getməsi, abır, heysiyyət və namuslarına qarşı rəva görülən hörmətsizliyə şamildir;

5-Onların əleyhinə söz deyənlərin, həmçinin *"bizim Pərvərdigarımız Allahdır"* - deyənlərin qanının nahaq yerə axıdılması;

6-Müsəlmanların qəlblərinin kin və vəhşətlə doldurulması. Yə'ni, onların qəlbi zalım hökmranlara qarşı kin-küdurətlə dolar, yaxud belə bir zülm müsəlmanların bir-birlərinə qarşı kin-küdurətlərinə səbəb olar.

Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in qərblilər və şərqlilər barəsində buyurduğu:

*"O zaman bir qrup şərqdən, bir qrup da qərbdən gələrək mənim ümmətimə hakimlik edərlər"* - hədisi isə yalnız şərqin və qərbin hegemon qüdrətlərinə uyğun gəlir. Belə ki, onlar yaranan fürsətdən və zalım hakimlərin zülmündən yararlanaraq müsəlmanların ölkələrinə hücum edər və onların işlərini öz öhdələrinə alarlar.

Bə'ziləri demişlər ki, *"şərqdən və qərbdən gələn qruplar"* dedikdə, məqsəd abbasilərin hərəkatı ola bilər. Çünki onlar İslam hökumətinin şərqindən gəlmişdilər; habelə qərblilər dedikdə, İslam ölkələrinin qərbindən gələn qüdrətlər ola bilər ki, əməvi hakimlərinin zülmünün ardınca hakimiyyətə gəlmişdilər.

Belə bir ehtimal da verilir ki, onlardan məqsəd monqolların hücumlarıdır. Belə ki, onlar şərqdən hücuma keçmişdilər;, yaxud da səlib yürüşləri ola bilər ki, abbasilərin törətdikləri cinayətlərə və zülmlərə görə qərbdə yaranmış idi.

Amma rəvayətlərin zahiri mə'nasından belə mə'lum olur ki, onlar müsəlman deyil, qeyri-müsəlman qruplarıdır ki, müsəlmanların bütün işlərinə hakim kəsiləcəklər. Buna görə də abbasilər və fatimilərlə uyğun gəlmir. Eləcə də monqolların yürüşləri və səlib müharibələri ilə də uyğun gəlmir, çünki qərblilərin müsəlmanlara hakim kəsilmələri bu hücumların vasitəsilə olmamışdı, əksinə, onlar Şam ölkəsinin sahil məntəqələrində kiçik hökumətlər tə'sis etmiş və orada yaşamışdılar. Monqollar da müsəlmanlara qısa müddət ərzində hökmranlıq etmiş, daha sonra onların qalıqları İslam ölkələrinə gətirilmiş və İslam ümməti içərisində həll olub aradan getmişdilər.

Daha mühüm məsələ budur ki, monqolların istilaçılıq və xristianların səlib yürüşləri həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna gətirib çıxartmadı, halbuki başqa rəvayətlərin bəyanına görə, qərblilərin müsəlmanlara hakim kəsilməsi və onların törətdikləri fitnələr Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif)-in zühuru ilə sona çatacaqdır. Buna əsasən onların işləri sırf şəkildə müasir dövrdəki ruslar, avropalılar və amerikalılardan ibarət olan şərq-qərb hegemon dövlətlərinə uyğun gəlir. Xüsusilə, bunu nəzərə alaq ki, hədisin sonunda onların siyasətləri və şəxsiyyətləri dəqiq şəkildə qeyd edilmişdir. Hər bir halda, onlar şərqdəki monqolların və qərbdəki səlib yürüşçülərinin varisləridir, çünki daha üstün nəzərə görə, rəvayətlərdə ruslar və qərblilər (rumlular) deyilmişdir ki, onları tezliklə qeyd edəcəyik.

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə nəql olunur: *"Sizin işləriniz adi qaydada davam edəcək, nəhayət övladlarınız fitnə və zülm dövründə*

*dünyaya gələcək ki, fitnədən başqa bir şey tanımayacaqlar. Yer üzü zülm və haqsızlıqla o qədər dolacaqdır ki, Allahı çağırmağa heç vaxt cür'ət etməyəcəklər. Bu zaman Allah mənim zürriyyəmdən (nəslimdən) olan bir kişini seçəcək, yer üzü zülm və haqsızlıqla dolduğu kimi, onu haqq-ədalətlə dolduracaqdır."*[1]

Bu şərif hədis göstərir ki, sonuncu fitnələr nəsillər boyu davam edəcək, nəhayət müsəlmanların övladlarından elə bir nəsil yaranacaqdır ki, dindən azmaq fikrindən başqa bir fikirləri, zülmdən başqa bir siyasətləri olmayacaqdır. Bu da dəqiq bir tə'bir olub, qərb mədəniyyətinin hakim olduğu fəzadan, onların istismarçı siyasətlərindən və bizim ölkələrə hakim kəsilməyindən xəbər verir. Belə ki, müsəlman övladı o iyrənc mədəniyyətin tə'siri altında böyüyüb boya-başa çatacaq, İslam mədəniyyətindən və ədalətdən xəbərsiz olacaqdır. Yalnız o kəslər istisna olunur ki, Allah-taala onun hidayət olunması və azğınlıqdan amanda qalması üçün müəyyən şəraitləri vücuda gətirmiş olsun.

Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in buyurduğu *"Yer üzü zülm və haqsızlıqla o qədər dolacaqdır ki, bir kəs "Allah" deməyə belə qadir olmayacaqdır"* sözünün mə'nası budur ki, zülmkar hakimlərin siyasətləri və onların ədalətsiz qanunları həyatın bütün sahələrini əhatə edəcəkdir. Bu vəziyyət də qərblilərin İslam ölkələrinə hücum və oranı işğal etdikləri zaman yaranacaqdır. Çünki onların istilasından öncə olan zaman dövrlərində və müəyyən məntəqələrdə zülm və haqsızlıq müsəlmanların həyatına hakim deyildi. Lakin qərblilərin İslam ölkələrinə olan hücumlarından sonra, zülmə adət etmiş hakimlərin istismarçılıqları və zalımcasına olan siyasətləri get-gedə bütün mərkəzlərə və ölkələrə yayılmış idi. Belə ki, müsəlmanların səsi elə boğulmuşdur ki, öz müsəlmançılıqlarını belə izhar etməyə qadir deyildilər və "Pərvərdigarım Allahdır", "biz İslam hökmlərinin bərqərar olunmasını istəyirik", "Allah bizə göstəriş vermişdir ki, zülmdən uzaq olaq və onun əleyhinə qiyam edək", "filan hakim barəsində Allahın hökmü filan cürdür və gərək e'dam edilsin, yaxud işdən uzaqlaşdırılsın", yaxud "Allahın bu qanun barəsindəki hökmü budur ki, onun müqabilində dayanıb dəyişdirək" - kimi sözlər deməyə cür'ət edə bilmirlər. Bu o demək deyildir ki, heç bir kəs, ümumiyyətlə, Allahın adını çəkə bilməyəcəkdir. (Necə ki, bə'ziləri belə təsəvvür etmişlər.) Çünki Allahın zikri və adı kafirləri, zalımları və hətta dinsizləri belə o zaman təhrik edib

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh. 68

qəzəbləndirəcəkdir ki, bu adla onların küfrləri, zülmləri və istilaçılıqları ilə mübarizəyə qalxmış olsunlar. Bir rəvayətdə belə deyilir: *“Belə ki, heç kəs “La ilahə illəllah” deyə bilməyəcəkdir.”* Yə’ni heç bir kəs Allahın yeganəliyini və mütləq hakim olmasını e’lan və Onun hökmü və qanunu əsasında əməl etməyən zalımların və kafirlərin hökumətini rədd edə bilməyəcəkdir.

Əli (əleyhis-salam)-dan belə nəql olunur: “*Sizin Peyğəmbərinizin (səllallahu əleyhi və alihi və səlləm) Əhli beytinin müəyyən əlamət və nişanələrə malik olan hökuməti zəmanənin axırında vücuda gələcəkdir: ... Sonra türklər rumlularla müxalifətə qalxarlar, dünyada müharibə və çarpışmalar artar.”*[1]

Aydındır ki, İmam Əli (əleyhis-salam)-ın rumlularla türklər arasında baş verən çəkişmələr, eləcə də onların İslam ölkələri əleyhinə apardığı yürüşlər barəsindəki sözü həzrət Məhdi “ -ın zühurunun nişanələrindəndir. Rəvayətdəki *“isti’sarət”* ibarəsi çox dəqiq bir tə’birdir. Yə’ni onlar İslam ölkələrini istismar etmək və istila altına almaq üçün özünəməxsus hərəkətlərə əl atacaqlar. Həmçinin *“yətəxaləfut-turku vər-rum”* (yə’ni türklər və rumlular bir-biri ilə ixtilafa düşəcəklər) ibarəsi də həmpeyman olduqları halda onların arasında yaranacaq ixtilafları çatdırır ki, bu da öz nüfuzları dairəsində olan məntəqələrin bölüşdürülməsi və ələ keçirilməsi ilə əlaqədar baş verəcəkdir. Amma elə həmin halda müsəlmanlara qarşı müttəhid olaraq dünya xalqlarını onların əleyhinə təhrik edəcək, hərbi qüvvələrini döyüş sursatı ilə təchiz etməkdə (hazırkı dövrdə də göründüyü kimi) bir-birilə tam mə’nada əməkdaşlıq edirlər.

*“Və təksurul-hurubu fil-ərzi” (*yə’ni dünya səviyyəsində müharibələr və çarpışmalar artar) ifadəsi də o cürdür. Çünki gördüyümüz kimi, elə bir materik və qit’ə yoxdur ki, orada müharibə olmamış olsun. Bir müharibə qurtarmamış başqa bir müharibə başlanır. Bütün bunların səbəbi də rumluların intiqamçılıq hisləri və bir-biri ilə müxalifət etməsidir. Hər dövrdə müharibə odunu şö’ləndirən də elə onların yəhudi himayəçiləridir.

Əli (əleyhis-salam) buyurur: *“Ey insanlar! Nə qədər ki, məni əldən verməmişsiniz, nə istəyirsinizsə, məndən soruşun. Çünki sinəmdə çoxlu elmlər vardır. Məndən o fitnə-fəsad barəsində sual edin ki, öz cilovlarını ayaqları altına salan, qorxu və iztirabını artıran hürkmüş bir dəvə kimi, sizin ölkələrinizi ölüm və həyatından sonra əzər, öz iyrənc*

---

[1] “Biharul-ənvar”, 52-ci cild, səh.208

*kölgəsini ona salar, (eləcə də) qərbdən gələn və yanacağı çoxlu quru odunlar olan bir ataşdən xəbər verim ki, uca səslə nida edər. Vay olsun ona, intiqamçılıq cəhətindən! Ruzgarın gərdişi uzun olan zaman deyərsiniz ki, ya ölüb, ya da həlak olubdur. (Əgər diridirsə, onda) hara getmişdir?! Məhz bu zaman aşağıdakı ayə gerçəkləşər: Sonra onlar üzərində qələbəni sizə qaytararıq, mal və övladlarınızla kömək edərək sayınızı onlardan çox edərik" və bunun da müxtəlif əlamətləri vardır."*[1]

Həzrət bu rəvayətdə qərb əhalisinin kütləvi şəkildə həlak olmasından xəbər verir. *"Çoxlu quru odunlar"* ifadəsi *"çox şö'lənənən"* mə'nasını verir. Bu müharibənin əsl səbəbi elə bir fitnədir ki, şərqdə vücuda gələcəkdir. Bununla əlaqədar olan rəvayətlər "dünya müharibəsi rəvayətləri" sırasında qeyd olunacaqdır. Orada onun baş verməsi ilə əlaqədar hədislərin məzmunu və həzrət Məhdi (ərvahuna fidah)-ın zühur ilindəki nəzərimizi qeyd edəcəyik.

Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) belə buyurur: *"Axirüz-zamanda mənim ümmətimə onların soltanlarının nahiyəsindən (çoxlu) bəlalar baş verəcəkdir ki, bundan da ağır bəla və giriftarçılıq eşidilməmişdir. Belə ki, yer öz genişliyi ilə onlara dar gələcək, çoxlu zülm və haqsızlıq olacaq, mö'min zülmdən qaçmağa heç bir sığınacaq tapmayacaqdır. Nəhayət, Allah-taala mənim sülaləmdən olan bir kişini seçəcək. O, yer üzünü, zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə dolduracaqdır. Səmanın və yerin sakinləri ondan razıdırlar. Yer öz sərvətlərini çölə çıxarar, asiman rəhmət yağışını yağdırmaqdan əsirgəməz."*[2]

Hüzeyfə ibni Yəman deyir ki, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) belə buyurdu: *"Vay olsun bu ümmətə zalım padşahların əlindən ki, müsəlmanların hamısını – onlara itaət edənlərdən başqa – öldürüb özlərini ev-eşiklərindən didərgin salarlar. O zaman təqvalı mö'min dildə onlarla müvafiq olar, qəlbdə isə onlardan qaçar. Mütəal Allah İslamın izzətini iradə etdiyi zaman hər bir zalımın belini sındırar. O, istədiyi hər bir işə qadirdir. Məhz O, İslam ümmətini, ağır vəziyyətə düşdükdən sonra sahmana salar və islah edər. Ey Hüzeyfə! Əgər dünyanın axırına bir gündən artıq belə qalmamış olsa, Allah-taala həmin günü o qədər uzadacaqdır ki, mənim sülaləmdən olan bir kişi gəlsin, dünyaya hökmranlıq və İslamı aşkar etsin. Allah heç vaxt Öz və'dəsinə xilaf*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.272-273

[2] "Bişarətul-İslam", səh.28

*çıxmaz və O, hər bir şeyə qadirdir."*[1]

Yenə buyurmuşdur: *"Yaxın zamanlarda ümmətlər, bir süfrəyə də'vət olunanlar kimi, sizin əleyhinizə əlbir olarlar. Sizin sayınız çox olsa da, selin üzərində gedən çör-çöpə oxşayarsınız. Allah sizin heybət və əzəmətinizi düşmənlərinizin qəlbindən çıxarar, dünyaya məhəbbət bəslədiyinizə və ölümdən bezarlıq etdiyinizə görə zəifliyi və süstlüyü sizin qəlbinizə salar."*[2]

Bu rəvayətlər üzərinə nübüvvət nuru saçan kəlamlardır və İslam ümmətinin zalım rəhbərlər və istismarçı düşmənləri ilə olan vəziyyətini şərh edir, bununla da həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif)-ın zühurunu müjdə verir.

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in belə buyurduğu nəql edilir: *"Vay olsun ərəblərə onlara yaxın olan bir şərdən! Qanadlar... nədir o qanadlar?! Elə bir küləkdir ki, onun əsməsi məhv edəndir, elə bir külək ki, onun əsməsi qaldırandır və elə bir külək ki, onun əsməsi süstlük gətirəndir. Vay olsun onlara sür'ətli öldürmədən, ani ölümdən, dərdli aclıqdan, bəla və giriftarçılıqdan ki, hər tərəfdən onların başına tökülər."*[3]

Bəlkə də "qanadlar" dedikdə məqsəd indiki təyyarələrdir ki, sür'ətli küləklər kimi əsir, sonra sakit olaraq çoxlu qətlə, ani fəlakətə və ölümə səbəb olur, yaxud külək dedikdə güclü və ya zəif bombaların partlayışı nəticəsində əmələ gələn qüvvətli səs dalğaları ola bilər. Belə bir ehtimal da verilir ki, bu qanadlar dedikdə həzrət Məhdi (əleyhis-salam)-ın Beytül-müqəddəsi azad etmək üçün Süfyani, yəhudilər, rumlular və onların tərəfdarı olan ərəblərlə apardığı müharibəyə işarə olsun. Belə ki, İbni Həmmadın əlyazma nüsxəsində belə qeyd olunur: *"O zaman Allah-taala küləyi və quşları rumlulara hakim edər, öz qanadları ilə onların yanaqlarına elə güclü zərbə vurarlar ki, onun nəticəsində gözləri kor olar, yer paçalanar və onları öz daxilinə çəkər."*[4]

Mümkündür, qanadlar dedikdə qaranquş şəklində olan əbabil quşları kimi həqiqi quşların qanadı, yaxud Məhdi (əleyhis-salam)-ın istifadə etdiyi təyyarə kimi döyüş texnikası olsun. Bu barədə bəhs Qüdsün azad olunması uğrunda aparılan müharibədə qeyd olunacaqdır.

Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: *"Müşriklər müsəlmanları özlərinə xidmətçi edər və onları şəhərlərdə satarlar, yaxşı və ya pis əməl sahibi olan heç bir kəs bu işdən qorxmaz. Bu bəla və giriftarçılıq camaatı o*

---

[1] "Bişarətul-İslam", səh.9. "Yənabiul-məvəddə"dən nəqlən.
[2] "Əl-məlahimu vəl-fitən", səh.129.
[3] "İbni Həmmadın əlyazması", səh.52.
[4] Yenə orada, səh.124

*qədər narahat edər ki, hamı naümid, mə'yus və bədbin olar, təsəvvür edər ki, onlar üçün heç bir asudəlik, dinclik yoxdur. Məhz bu zaman Allah-taala mənim zürriyyəmin paklarından, yaxşı insanlarından olan adil, görkəmli və pak-pakizə bir şəxsi seçər, o, İslamın qanun və göstərişlərini icra etmək yolunda heç nəyi əsirgəməz. Allah dini, Qur'anı, İslamı və müsəlmanları onun əli ilə izzətli və başıuca, şirki və müşrikləri isə zəlil və xar edər. O həmişə Allahdan qorxan vəziyyətdədir, Allahın hökmlərini icra etməkdə qohumlar tərəfindən aldadıla bilməz. Özü üçün daşı-daş üstə qoymaz, bir imarət tikməz. Öz hakimiyyəti dövründə heç kəsi şallaqlamaz, yalnız şər'i hüdudları (cəza qanunlarını) icra edərkən şallaq vurar. Mütəal Allah bütün bid'ətləri onun vasitəsilə məhv edər, bütün fitnə-fəsadları aradan aparar, haqq qapıları onun vasitəsilə açılar, batil qapıları bağlanar. Allah həbsdə olan müsəlmanları – hər yerdə olsalar – onun vasitəsilə öz vətənlərinə qaytarar."*[1]

Bu rəvayətlər müsəlmanların riqqətli, acınacaqlı və zəif vəziyyətlərini, onların başqa ölkələrdə qul kimi alınıb-satılmasını və əsarətə alınmasını göstərir. Bu vəziyyət təkcə bizim zamanımıza və müşriklərə həqarət hissi ilə xidmət edən müsəlmanlara aid deyil, əksinə müsəlman xalqları ilə aparılan müharibələrdə öz vətənlərindən qovulub çıxarılan, müşriklər tərəfindən əsarətə alınan bütün müsəlmanlara şamildir. Bu rəvayətlərdə qeyd edilir ki, bəşəriyyət mə'yusluq və sərgərdançılıq vəziyyətində olarkən dahi xilaskar həzrət Məhdi (ərvahuna fidah) zühur edəcəkdir.

## RUMLULARIN ZÜHUR DÖVRÜNDƏ İFA ETDİYİ ROL

Axirəz-zamanda Məhdi (ərvahuna fidah)-ın zühuru ilə əlaqədar rəvayətlərdə Rum dedikdə məqsəd Avropa xalqları və son əsrdə onların Amerikada yayılmış nəsilləridir ki, romalıların övladları və qədim Roma imperatorluğunun varisləridir.

Bə'zən irad tutularaq deyilə bilər ki, Qur'anda yad edilərək barəsində ayə nazil olan və sonralar müsəlmanlarla müharibə aparan romalılar bunlardan tam başqadır. Çünki onlar bizanslılar idi, paytaxtları da İtaliyanın Roma şəhəri idi ki, sonralar Konstantinopola keçirildi. Müsəlmanlar (500 il bundan öncə) oranı fəth edərək "İslambul" adlandırdılar ki, sonralar "İstanbul" deyilməyə başladı.

Cavab: Düzdür ki, rumlular mübarək "Rum" surəsi nazil olan vaxtda, eləcə də onların barəsində rəvayət nəql olunan zaman Roma,

---

[1] "Əl-məlahimu vəl-fitən", səh.108

yaxud Bizans imperatorluğunun tərəfdarları idilər. Amma bugünkü qərblilər onlardan tamamilə ayrı millət deyildirlər; əksinə, onların siyasət və mədəniyyətlərinin davamçıları hesab olunur və onların bir qismi sayılırlar. Fransa, Britaniya, Almaniya və s. kimi ölkələrin xalqları mədəniyyət, siyasət və din baxımından Roma imperatorluğunun əsasları hesab olunur. Onların qədim Roma imperatorluğunun nəzarəti altındakı məntəqələrdə və oranın müstəmləkəsi olmasına gəldikdə isə, bu həqiqət inkar olmur. Əksinə, bizanslı Roma sərkərdələrinin paytaxtı 2000 il müddətində Roma və Konstantinopol olmuşdur, onların hamısı da italyan mənşəli irqdən olub vahid köklərə malikdir. Yunanıstan Roma imperatorluğunun tərkibinə keçdiyi zamandan bə'zən onların arasında yunanlar da görünürdü. Bəlkə də bu səbəbə görə Romanın irsi imperatorluğu zəiflədikdən, Konstantinopol və onun ətraf nahiyələrində məhdud olub müsəlmanlar tərəfindən (dəniz yolu ilə) mühasirəyə alındıqdan sonra avropalılar öz miraslarını qaytarmaq iddiası ilə Almaniya və başqa ölkələrin başçılarını Qeysər (Sezar, Çar) adlandırırdılar. Dövlətlərdə və imperatorluqlarda bu cür dəyişikliklər adi bir haldır. Çünki hökumət bir ölkədən başqa ölkəyə, bir millətdən başqasına nəql olunur. Bu da onların əsl xüsusiyyətləri və adlarının qalması ilə ziddiyyətli deyildir. Buna əsasən ərəblərin "Bəni-Əsfər" (sarı dərililər) adlandırdıqları romalıların gələcəyindən xəbər verən rəvayətlərdə məqsəd təkcə italiyalı (Bizans) romalılar deyil, əksinə onlara bağlı olan sair firəng (qərb) qəbilələrinə də şamildir. Buna görə də müsəlmanların tarix kitablarında bə'zən romalılar, bə'zən də firənglilər tə'biri ilə qeyd edilir. Amma eyni halda, onların hamısına rumlular deyilir. Rum kəlməsi də ərvam şəklində cəm bağlanır.

Bundan əlavə, mübarək "Rum" surəsinin 31 və 32, "Kəhf" surəsinin 11, 12, 21-ci ayələrində və s. kimi onların özləri, dəstə və ardıcıllarının Allah-taalaya şərik qoşmaları ilə əlaqədar nazil olan sair ayələrdən mə'lum olur ki, rumlular dedikdə məqsəd həzrət İsa (ələyhis-salam)-ın ardıcılı olduqlarını iddia edənlərdir. Aydındır ki, məsihi dinində olan millətlərə rəhbərlik əvvəllər İtaliya və Konstantinopol rumlularının əli ilə olmuş, sonra onlardan qərblilərə irs olaraq keçmişdir.

"Rum" adı zühur əsrinə aid olan rəvayətlərin çoxunda qeyd olunmuşdur. Belə ki, əvvəldə onların fitnə-fəsad törətmək və müsəlmanlara hakim kəsilməyi ilə əlaqədar rəvayətlər qeyd olundu. Digər rəvayətlər həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif)-ın zühurundan azacıq öncə onların hərbi dəniz

donanmasının ərəb ölkələri sahillərinə doğru hərəkət edəcəklərini göstərir. İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"Şam ölkəsində qarışıqlığı müşahidə etdiyin zaman bil ki, ölümdür; o zamana qədər ki, qərblilər hərəkət edərək ərəb ölkələrinə doğru yola düşərlər. Bu zaman onların arasında müəyyən hadisələr baş verər."*[1]

Zühur əsrinə aid olan rəvayətlərdə deyilən Şam fitnəsi yadellilərin İslam ümmətinə qarşı apardıqları istilaçılıq yürüşlərindən sonra baş verən hadisələrə aid edilir. Yə'ni Bəni-Əsvəd (qərblilər) hərbi müdaxiləyə məcbur olacaq və yerli əhalinin göstərdiyi müqavimətlər və onlarda cərəyan edən siyasi hərəkatlar nəticəsində özlərini Fələstin və ətraf məntəqələrə hakim kəsilməkdən aciz gördükləri, hərbi müdaxilə etmək fikrinə gəldikləri zaman, ərəb ölkələrindəki müsəlman xalqların ciddi müqaviməti ilə qarşılaşacaqlar.

Əli (əleyhis-salam)-dan belə nəql olunur: *"Ramazan ayında, sübh çağı şərq tərəfdən nida edilər və uca səslə belə deyilər: "Ey iman əhli! Bir yerə toplaşın." Qərb tərəfdən də, (axşamçağı) şəfəqin saraltısı aradan getdikdən sonra bir nəfər nida edib deyər: "Ey batil əhli. Bir yerə yığışın." Rumlular Əshabi-kəhf mağarasının yaxınlığındakı dəryanın sahilinə üz gətirərlər, Allah-taala o cavanları itləri ilə birlikdə (mağaradan) dirildər. Onların arasında Məlixa və Xəmlaha adlı iki nəfər vardır ki, onlar Qaimin əmrlərinə təslim olacaqlar."*[2]

Bəlkə də bu hərbi əməliyyatlar əvvəlkilərin davamı, yaxud elə həmin hərəkat olsun. Rəvayətlərdə deyilir ki, o hərəkatlar həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna yaxın vaxtlarda olacaqdır. Çünki bu hadisələr bir-birinin ardınca və mübarək Ramazan ayında eşidilən asimani nidanın ardınca baş verəcək və məhərrəm ayına qədər davam edəcəkdir. O həzrətin zühuru da məhərrəm ayının onuna keçən gecə və onun sabahı gündüz başlanacaqdır.

Bə'zi rəvayətlərdə deyilir ki, qərb qüvvələri əvvəlcə Şama doğru hərəkət edəcək, Əkka və Surda, bu rəvayətdə isə Əshabi-kəhf mağarasının yanında, yə'ni Suriya-Türkiyə sərhədlərində yerləşən Antakiyə məntəqəsində düşərgə salacaqlar.

Əshabi-kəhf cavanları barəsində buyurulan rəvayətdə qeyd olunur ki, Mütəal Allah onları axirəz-zamanda zahir edəcəkdir ki, insanlar üçün (axirətə dair) ayə və nişanə olsun. Onlar həzrət Məhdi (ərvahuna fidah)-in

---

[1] "Əl-məlahimu vəl-fitən", səh.107
[2] "Biharul-ənvar", 53-cü cild, səh.278.

köməkçilərindən olacaqlar. (Biz onu "həzrət Məhdi (əleyhis-salam)-ın köməkçiləri" başlığı altında qeyd etmişik.)

Onların belə bir həssas vaxtda, yə'ni qərb dövlətlərinin qüvvələrinin yürüş etdiyi zamanda zahir olmalarının səbəbi budur ki, bu, xüsusilə məsihilər üçün bir mö'cüzə olsun. Çünki rəvayətlərə əsasən həzrət Məhdi (əleyhis-salam)-ın köməkçiləri Tövrat və İncilin əsl nüsxələrini Antakiya mağarasından çıxaracaq, onun əsasında yəhudilərə və rumlulara dəlil gətirəcəklər. Ehtimal verilir ki, bu mağara məşhur Əshabi-kəhf mağarası, yaxud başqa bir mağara olsun.

Cabir Co'fi nəql edir ki, İmam Baqir (əleyhis-salam) belə buyurdu: *"Rum qiyamçıları tezliklə (İslam ölkələrinə tərəf) üz gətirib Rəmlədə düşərgə salarlar. Ey Cabir! Həmin ildə bütün yer üzündə – qərb tərəfdən çoxlu ixtilaflar yaranacaqdır."*[1]

Əlbəttə, bu qiyamçıların könüllü olaraq yəhudilərlə birlikdə müharibəyə gedən qərbli muzdurlar olması da mümkündür. Belə ki, onlar həmin məqsədlə Fələstinin Rəmlə məntəqəsində enəcəklər. Yəqin ki, rəvayətlərdə "Məğrib ölkəsindən, yaxud qərb nahiyədən yaranan ixtilaf" dedikdə elə qərbdə yerləşən İslam ölkələri nəzərdə tutulur. Çünki onun ardınca deyilir ki, Şama çatan ilk hadisə onun xarab olub dağılmasıdır. Onun dağılması da ehtimal üzrə qərblilərin əli ilə olacaqdır.

Burada diqqət yetiriləsi lazım olan mühüm məsələ Əhli-beyt (əleyhimus-salam)-dan "Rum" surəsinin ilk ayələri ilə əlaqədar nəql olunan rəvayətlərdir: *"And olsun bu hərflərə (Əlif, Lam, Mimə)! Rumlular yer üzünün ən yaxın yerində məğlub oldular. Onlar məğlub olduqdan sonra tezliklə – bir neçə il ərzində – qalib gələcəklər. Keçmişdə də, gələcəkdə də iş Allaha məxsusdur. O gün Allaha iman gətirənlər beləcə şad olarlar. İstədiyi şəxsə kömək edən də, qalib və mehriban da məhz Odur."*[2]

İmam Baqir (əleyhis-salam)-dan nəql olunan hədisdə *"Allah-taalanın mö'minlərə köməyi"* – Məhdi (əcəlallahu təala fərəcəhu-şərif)-ın zühuru kimi təfsir olunur, yə'ni Allah-taala o həzrəti rumlulara qalib edəcəkdir.[3]

Bu barədə mövcud olan rəvayətlərdən bə'ziləri də İsa (əleyhis-salam)-ın yer üzünə nazil olub məsihiləri İslama və həzrət Məhdi (ərvahuna fidah)-a tabeçiliyə də'vət etməsidir ki, aşağıdakı ayədən başa düşülür: *"İsa Qiyamət əla-*

---

[1] "Bişarətul-İslam", səh.102

[2] "Rum" surəsi, 1-5-ci ayələr.

[3] "Məhəccət" (Bəhrani), səh.170

*mətlərindən bir nişanədir."*[1], *"Kitab əhlinin hamısı ölümündən qabaq ona iman gətirərlər və Qiyamət günündə də onların şahidi olar."*[2]

*"O, Qiyamətin əlamətlərindən biridir"*, yə'ni Allah onu yer üzünə nazil etdiyi zaman bütün məsihilər və yəhudilər ona iman gətirər, dünyadan getməmişdən qabaq onun mö'cüzələrini görərlər.

Rəvayətlərdə qeyd olunur ki, İsa (əleyhis-salam) həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif)-ın vasitəsi ilə, eləcə də Allah-taalanın onun ixtiyarında qoyduğu mö'cüzələrdən istifadə edərək rumlularla mübahisə aparacaqdır.[3]

O həzrətin asimandan nazil olma mö'cüzəsindən sonra qərb millətlərinə hakim olan siyasi vəziyyət kökündən dəyişəcək və o xalqlar öz zalım hakimlərinin əleyhinə qiyam edəcəklər ki, "o həzrətin nazil olması" bölməsində qeyd edəcəyik.

Rəvayətlərin bir qismi də müsəlmanlarla rumlular arasındakı atəşkəslə əlaqədardır ki, o həzrət onlara qarşı hücum etməmək barədə bir müqavilə imzalayacaqdır. Ehtimal üzrə, bu əhd-peyman Qüdsdə baş verən ağır müharibədən sonra bağlanacaqdır. Belə ki, bu müharibə Əkka-Qüds-Antakiya hüdudlarında o həzrətin ordusu ilə Süfyaninin ordusu arasında (həm də yəhudilərin və rumluların köməyi ilə) baş verəcəkdir. Həzrət Məhdi (ərvahuna fidah)-ın qələbə çalıb Qüdsə daxil olmasından sonra həzrət İsa (əleyhis-salam) yer üzünə nazil olacaqdır.

Ehtimal üzrə həzrəti İsa (əleyhis-salam) bu müharibələrdə vasitəçilik rolu ifa edəcəkdir (gələcəkdə bu barədə söhbət olunacaqdır). Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-dən belə nəql olunur: *"Ey Ovf! Qiyamətdən qabaq altı hadisənin (mütləq) baş verməsini yadında saxla... Onlardan biri də fitnə-fəsaddır ki, hər bir ərəb evinə daxil olacaqdır. Sizinlə Bəni-Əsfər (qərblilər) arasında sülh imzalanacaqdır. Sonra onlar bu müqaviləni pozacaq, hər biri 12000 nəfər əskərdən ibarət olan səksən ordu ilə sizə hücum edəcəklər.*[4] Başqa hədisdə isə belə buyurmuşdur: *"Sizinlə rumlular arasında dörd sülh müqaviləsi imzalanlanacaqdır ki, onların dördüncüsü Herqel sülaləsindən olan bir kişinin vasitəsi ilə olacaq və bir neçə il (2 il) davam edəcəkdir."* Bu zaman Əbdul Qeys qəbiləsindən olan Su'dəd ibni Qəylan soruşdu: *"O zaman insanların rəhbəri kim*

---

[1] "Zuxruf" surəsi, ayə:61.
[2] "Nisa" surəsi, ayə:159.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.226.
[4] "Bişarətul-İslam", səh.235 (Sülləminin "Əqdud-durər"indən), Buxarinin "Səhih" kitabında dediyinə görə, Ovf ibni Malikdən nəql etmişdir.

*olacaqdır?" Həzrət buyurdu: "Mənim övladlarımdan olan Məhdi."*[1]

Bə'zi rəvayətlərdə bu müqavilənin müddəti 7 il qeyd olunur. Amma qərblilər elə bu iki ildən sonra bu əhd-peymanı ləğv edəcək, səksən bayraq və təqribən bir milyona yaxın əskərdən ibarət olan qoşunla Fələstin sahillərinə və Şama gəlib müsəlmanlarla döyüşəcəklər. Bunun ardınca həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş şərif) qeyri-İslami ölkələri və Avropanı azad etməyə gedəcəkdir ki, bu da "zühur hərəkatı" fəslində qeyd edilmişdir.

Bə'zi rəvayətlərdə Süfyaninin rumlularla olan əlaqəsi, onun ordusu və tərəfdarlarının məğlubiyyətdən sonra Ruma qaçması, həzrət Məhdi (əleyhis-salam)-ın tərəfdarlarının onları tə'qib etməsi və onları qaytarması bəyan olunmuşdur. İmam Baqir (əleyhis-salam) belə buyurur: *"Qaim qiyam edən zaman öz ordusunu Bəni-Üməyyəyə (süfyanilərə) tərəf göndərəcəkdir. Bu zaman süfyanilər Ruma qaçacaqlar. Rumlular onlara deyər: "Nə qədər ki, bizim dinimizi qəbul etməmisiniz, sizə yol verməyəcəyik." Onlar qəbul edər və rumlular onlara daxil olmaq icazəsi verərlər. Məhdinin köməkçiləri rumlularla qarşılaşan zaman onlar sülh və aman istəyərlər. O həzrətin köməkçiləri cavab verib deyərlər ki, "bizim dinimizdə olanları azad etməyincə, sizə aman verməyəcəyik." Sonra rumlular onları azad edər və o həzrətin köməkçilərinin sırasına qaytararlar."*[2]

Başqa rəvayətlərdə deyilir ki, Süfyani qərbsayağı mədəniyyətə malik olan adamdır. O, Rumda yaşayacaq, sonra Şama yola düşəcək və hərəkətini də elə oradan başlayacaqdır. Bəyan edəcəyimiz kimi, Şeyx Tusinin "Qeybət" kitabında belə qeyd olunur: *"Rumlu bir qövmün sərkərdəsi olan Süfyani məsihilər kimi boynuna xaç asaraq hərəkata başlayar."*[3]

Bə'zi rəvayətlərdə Rumun həzrət Məhdi (ərvahuna fidah)-ın vasitəsilə fəth olunması və rumluların o həzrətin əli ilə İslamı qəbul etməsindən söhbət gedir. Əlbəttə, belə bir ehtimal da verilir ki, bu məsələ onların sülh müqaviləsinin pozulmasından və Fələstin sahillərinə, Şama qoşun yeritməsindən və məğlub olmasından sonra baş versin. Bu çarpışmalar rumlu qüvvələrin həzrət Məhdi (əleyhis-salam) ilə apardığı ən ağır və şiddətli müharibə ola bilər ki, bunun ardınca qərb millətləri arasında İslama meyl artacaq və bu dini qəbul edəcəklər.

Bə'zi rəvayətlərdə isə belə qeyd olunur: *"Yetmiş min müsəlman*

---

1 "Biharul-ənvar", 51-ci cild, səh.80, Hafiz Əbi Nəimin "Ərbəin" rəvayətindən 12-cisi.
2 "Biharul-ənvar", 51-ci cild, səh. 88.
3 "Qeybət" (Şeyx Tusi), səh. 278.

*təkbirlə Romanı fəth edəcəkdir."*[1]

Bu zaman qərb ölkələrinin, yerli əhalinin nümayişləri və onların təkbirlərinin vasitəsilə süquta uğraması da uzaq nəzər deyildir, belə ki, həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif) və onun köməkçiləri onlara kömək edəcəklər. İmam Baqir (əleyhis-salam) belə buyurur: *"O zaman Rum əhli Məhdinin vasitəsilə İslamı qəbul edəcək, o həzrət onlar üçün bir məscid tikəcək, öz köməkçilərindən birini orada canişin qoyaraq özü qayıdacaqdır."*[2]

Belə mə'lum olur ki, həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif) qərb millətlərinin əqidəsinin dəyişilməsində əsaslı rol ifa edəcəkdir. Bu da İmam (ərvahuna fidah)-la qərblilər arasında sülh müqaviləsi bağlanan 2-3 il ərzində baş verəcəkdir. Ehtimal üzrə, həzrəti İsa (əleyhis-salam) bu müddət ərzində, yaxud əksər vaxtlarda qərbdə olacaqdır.

### AZƏRBAYCANIN ZÜHUR ƏSRİNDƏ ROLU

Zühur əsrində Azərbaycanda baş verəcək hadisələr barədə İmam Sadiq (əleyhis-salam)-dan belə nəql olunur:

لاَ بُدَّ لَنَا مِنْ آذَرْبِيجَانَ لاَ يَقُومُ لَهَا شَيْءٌ وَ اِذَا كَانَ ذٰلِكَ فَكُونُوا اَحْلاَسَ بُيُوتِكُمْ وَ اَلْبَدُوا مَا اَلْبَدْنَا فَاِذَا تَحَرَّكَ مُتَحَرِّكُنَا فَاسْعَوْا اِلَيْهِ وَ لَوْ حَبْوًا

*"Azərbaycan bizim üçün hökmən lazımdır. Heç bir şey onun qarşısında müqavimət göstərə bilməyəcəkdir. Bizim inqilabçımız qiyam edən zaman, hətta qarın üzərində sürünə-sürünə getməklə olsa belə, ona doğru tələsin.*[3]

Bu hədisin məfhumu belə də ola bilər: Azərbaycanda, hidayətçi bir hərəkat başlanacaq ki, bu ölkədə, yaxud onun əhalisinin tərəfindən baş verəcək, bundan sonra ona yaxın olan nişanələrin başlanacağı vaxta qədər gözləmək lazımdır. Aşağıdakı rəvayətdən də aydın olduğu kimi, bu hadisənin ruslarla qarşılaşma zamanı olduğuna ehtimal verilir: *"Türklər üçün iki qiyam baş verəcəkdir ki, onlardan birində Azərbaycan viran olacaqdır. Digər qiyam da Cəzirədən başlanacaqdır ki, hicldə olan gəlinləri vəhşətə salacaqdır. Məhz bu zaman Allah-taala müsəlmanlara kömək edəcək, Allahın böyük qurbanlığı da onların arasında vücuda gələcəkdir."*[4]

Bu rəvayət təklikdə araşdırıldıqda, ehtimal üzrə, onu monqolların

---

[1] "Bişarətul-İslam", səh. 297
[2] "Bişarətul-İslam", səh.251
[3] "Qeybəti Nu'mani", səh.170
[4] "Əl-məlahimu vəl-fitən", səh.32

İslam ölkələrinə hücumu kimi yozmaq olar. Belə ki, onlar ilk mərhələdə Azərbaycana çatmış və oranı dağıtmışlar, daha sonra Fərat sahillərinə və müsəlmanlara qarşı hücum edərək qələbə çalmış, "Caluq" çeşməsində və başqa yerlərdə böyük qurbanlıqlar vermişdilər.

Amma bu rəvayətləri əvvəldə qeyd olunan rəvayətlərlə birlikdə nəzərə aldıqda belə ehtimal verilir ki, məqsəd ruslar olsun ki, onların ikinci dünya müharibəsindən əvvəl və sonrakı qiyamı, eləcə də zühurun yaxın əlamətlərinin görünməsindən öncə Azərbaycanı işğal etmələri ola bilər.

İkinci qiyam da Cəzirə səmtindəndir ki, bu da İraq-Suriya arasında yerləşən Qirqisiyada bir yerin adıdır. Onlar bu məntəqədə Süfyani ilə müharibə aparacaqlar. Müsəlmanların oradakı bilavasitə qələbələri də zalım düşmənlərin həlak olması ilə baş verəcəkdir. Gələcəkdə görəcəyiniz kimi, Qirqisiyadakı çarpışmalarda hidayətçi bir bayraq, yaxud öz ardınca müsəlmanların qələbəsini gətirən bir hərəkat yoxdur. İmamların və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in bu hadisə barəsində müjdə verməsi də məhz buna görədir ki, bu müharibədə zalımlar özlərinin bə'zi havadarlarının qılıncları (silahları) ilə məhv ediləcəklər.

Digər rəvayətlərdə türklərin Cəzirədə və Fərat sahillərində düşərgə salması göstərilir ki, yenə də ehtimal üzrə türklər dedikdə, ruslar nəzərdə tutulur. Çünki onların bu məntəqəyə gəlişi rumluların Fələstin sahillərində və Rəmlədə düşərgə salması ilə eyni zamana təsadüf edir. Əvvəlcə işarə etdiyimiz kimi, Qirqisiya Cəzirənin yaxınlığında yerləşən bir məntəqənin adıdır ki, Diyarbəkir və Cəzireyi-Rəbiə adı ilə məşhurdur. Tarix kitablarında ümumi şəkildə qeyd olunan "Cəzirə" də Ərəbistan yarımadası, yaxud başqa yarımadalar deyil, məhz həmin məntəqədir. Bu məsələnin də monqol türklərinin yeddinci hicri əsrində Cəzirəyə və Fərata gəlib düşərgə salmaları ilə ziddiyyəti yoxdur. Çünki bə'ziləri onu o həzrətin zühuruna yaxın olan əlamətlərdən hesab etmişlər, halbuki, zühurun yaxın əlamətlərindən biri onların əvvəlcə həmin yerdə düşərgə salmaları, sonra isə Qirqisiyada Süfyani ilə müharibə aparmalarıdır.

Həmin münasibətlə monqolların fitnəçi hərəkatlarını və İslam ölkələrinə hücum etmələrini göstərən rəvayətlər Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in mö'cüzəli şəkildə qeybdən xəbər verdiyi hadisələr sırasındadır. Müsəlmanlar onları bilir və İslamın əvvəllərindən e'tibarən nəql edirdilər. Monqolların hücumu zamanı və ondan sonrakı

dövrlərdə də bu qəbildən olan rəvayətlər daha çox yayılmış idi. Eyni halda, bu kimi rəvayətlər onların törətdiyi fitnələrin yatırılmasını və müsəlmanların qələbə çalmasını xatırladır, amma onlarda həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna işarə edilmir. Bu, bizim türklərlə əlaqədar bəhs etdiyimiz rəvayətlərdə də qeyd olunmuşdur.

İndi isə monqolların hücumlarını göstərən rəvayətlərin nümunələrini həzrət Əli (əleyhis-salam)-dan nəql edirik: *"Sanki elə bir qövmü görürəm ki, onların üzləri çəkiclə döyülən qalxanlar kimidir. Onlar ipək və kətandan toxunan paltar geymiş, əsil atları öz ardınca çəkirlər. Orada o qədər ölüm və qətl hadisələri olacaqdır ki, yaralılar ölülərin cəsədləri üzərindən keçiriləcəkdir. Bu müharibədə qaçanların sayı əsirlərin sayından çox azdır.* İmam (əleyhis-salam)-ın köməkçilərindən biri soruşdu: "Ya Əmirəl-mö'minin! Siz qeyb elmini bilirsiniz?!" Əli (əleyhis-salam) təbəssüm edərək Bəni-Kəlb qəbiləsindən olan o kişiyə dedi: *"Ey Kəlbi qardaş! Bu qeyb elmi deyildir, əksinə bir növ agahlıqdır ki, mən onu elmin sahibi Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm)-dən öyrənmişəm. Çünki qeyb elmi yalnız Qiyamət və Allah-taalanın bu ayədə buyurduğu şeylərlə əlaqədardır: "Yalnız Allahdır ki, Qiyamətin baş verəcəyi zamanı bilir; həmçinin yalnız Odur ki, yağışı nazil edir, bətnlərdə olanlardan xəbərdardır. Heç kəs bilmir ki, ömrü nə vaxt sona çatacaqdır." Allah-taala bilir ki, bətndə olan oğlandır, yoxsa qızdır; çirkindir, yoxsa gözəl; əliaçıqdır, yoxsa paxıl; bədbəxtdir, yoxsa xoşbəxt. O, kimin cəhənnəm oduna yanacaq olması, kimin də behiştdə və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-lə yanaşı olacağını bilir. Buna əsasən, Allahdan başqa heç bir kəsin bilmədiyi qeyb elmi məhz bunlardır. Bundan başqa deyilənlər isə, Allah-taalanın Öz Peyğəmbərinə öyrətdiyi elmlərdir. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) də onları mənə öyrətmiş, sonra mənim barəmdə dua etmişdir ki, Allah-taala onu Mənim qəlbimdə yerləşdirsin."*[1]

## YƏHUDİLƏR VƏ ONLARIN ZÜHUR DÖVRÜNDƏ İFA ETDİKLƏRİ ROL

Əgər axirəz-zamanda və həzrət Məhdi (əccələllahu təala fərəcəhuş şərif)-ın dövründə yəhudilərin ifa etdikləri rol barəsində "Bəni-İsrail" surəsinin ilk ayələrindən başqa heç bir xəbər mövcud olmasaydı belə, bu, kifayət idi. Çünki bu ayələr xülasə olmaqla, eyni zamanda İlahi vəhydən ibarətdir və onların tarixlərini və başlarına gələn əhvalatları tam aşkar şəkildə bəyan edir. Qur'an bu hadisələri mö'cüzəli şəkildə bəyan edərək onların

[1] "Nəhcül-bəlağə", 128-ci xütbə.

gələcəklərini aydınlaşdırır. Bu bir neçə ayədən əlavə, çoxlu rəvayətlər də həmin ayələri təfsir edir, bə'zi rəvayətlər də yəhudilərin həzrət Məhdi (ərvahuna fidak)-ın əsrində olan vəziyyətləri ilə əlaqədardır ki, ayələri təfsir edərkən onları bəyan edəcəyik.

**YƏHUDİLƏRİN MƏHV OLMASI BARƏSİNDƏ VERİLƏN İLAHİ VƏ'DƏ**

سُبْحَانَ الَّذِي أَسْرَىٰ بِعَبْدِهِ لَيْلًا مِّنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الْأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ لِنُرِيَهُ مِنْ آيَاتِنَا إِنَّهُ هُوَ

السَّمِيعُ الْبَصِيرُ وَآتَيْنَا مُوسَى الْكِتَابَ وَجَعَلْنَاهُ هُدًى لِّبَنِي إِسْرَائِيلَ أَلَّا تَتَّخِذُوا مِن دُونِي وَكِيلًا ذُرِّيَّةَ مَنْ حَمَلْنَا مَعَ

نُوحٍ إِنَّهُ كَانَ عَبْدًا شَكُورًا وَقَضَيْنَا إِلَىٰ بَنِي إِسْرَائِيلَ فِي الْكِتَابِ لَتُفْسِدُنَّ فِي الْأَرْضِ مَرَّتَيْنِ وَلَتَعْلُنَّ عُلُوًّا كَبِيرًا.

*"Pak və Münəzzəhdir O Allah ki, Öz bəndəsini gecə səfəri ilə Məscidul-Həramdan Məscidül-Əqsaya apardı. Biz onun ətrafını mübarək (bərəkətli) etdik ki, Öz nişanələrimizi ona göstərək. Həqiqətən Allah eşidən və biləndir. Musaya Tövratı nazil etdi, onu Yə'qub övladları (Bəni-İsrail) üçün hidayət edici qərar verdi ki, Məndən başqa heç bir rəhbəri qəbul etməsinlər. O kəslərin övladları (üçün) ki, Nuh ilə birlikdə (gəmidə) həml etdik, halbuki, o, şükür edən bir bəndə idi. Biz Tövratda Bəni-İsrail barəsində hökm etdik, (çünki) siz (Bəni-İsrail) yer üzündə iki dəfə fəsad törədəcək, başqalarına qarşı təkəbbür edib öyünəcəksiniz."*

فَإِذَا جَاءَ وَعْدُ أُولَاهُمَا بَعَثْنَا عَلَيْكُمْ عِبَادًا لَّنَا أُولِي بَأْسٍ شَدِيدٍ فَجَاسُوا خِلَالَ الدِّيَارِ وَكَانَ وَعْدًا مَّفْعُولًا

*"Onların ilk fəsadlarına görə cəzalanmalarının vaxtı gəlib çatdığı zaman Öz nahiyəmizdən olan qüdrətli və səbirli bəndələrimizi sizi məhv etmək üçün göndərərik, onlar sizi evbəev axtarıb taparlar. Bu, Allahın qəti və'dəsidir."*

Sizin ilk təxribatçılıq və fitnə-fəsadınıza görə cəzalanma vaxtınız gəlib çatdığı zaman Öz nahiyəmizdən möhkəm iradəyə, yenilməz qüdrətə malik olan bəndələrimizi göndərərik ki, sizə ibrət dərsi versinlər. Onlar sizi evlərinizin arasında axtarıb evbəev gəzələr. Bu, Allahın qaçılmaz və qəti və'dəsidir.

ثُمَّ رَدَدْنَا لَكُمُ الْكَرَّةَ عَلَيْهِمْ وَأَمْدَدْنَاكُم بِأَمْوَالٍ وَبَنِينَ وَجَعَلْنَاكُمْ أَكْثَرَ نَفِيرًا

*"Bu zaman sizi onlara qalib edər, övladlar və sərvətlərlə kömək edər və sizin sayınızı onlardan artıq qərar verərik".*

Yə'ni bundan sonra sizi əleyhinizə qaldırdığımız kəslərə qalib edər, çoxlu sərvət, övlad, mal-dövlət verər və sizi daha artıq köməkçilərlə yaraqlandırarıq (ki, onların əleyhinə müharibə edə biləsiniz).

إِنْ أَحْسَنتُمْ أَحْسَنتُمْ لِأَنفُسِكُمْ وَإِنْ أَسَأْتُمْ فَلَهَا فَإِذَا جَاءَ وَعْدُ الْآخِرَةِ لِيَسُوءُوا وُجُوهَكُمْ وَلِيَدْخُلُوا الْمَسْجِدَ كَمَا دَخَلُوهُ أَوَّلَ مَرَّةٍ وَلِيُتَبِّرُوا مَا عَلَوْا تَتْبِيرًا

*"Əgər yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmişsiniz; əgər pislik etsəniz, (yenə də) özünüzə pislik etmişsiniz. İkinci və'dənin vaxtı gəlib çatan zaman sizin üzlərinizdən xoşları gəlməz, birinci dəfə daxil olduqları kimi, Məscidül-Əqsaya daxil olarlar. Və üstün gələn şeylərin hamısını məhv edərlər."*

Bundan sonra sizin vəziyyətiniz bir müddət bu minvalla davam edər. Əgər tövbə etsəniz, sizə bəxş etdiyimiz mal-dövlət, sərvət və övladları yaxşı yolda işlətsəniz, öz xeyrinizə olacaqdır. Əgər pis əməllərlə məşğul olsanız, tüğyançılıq etsəniz və özünüzü təkəbbürlü aparsanız, nəhayətdə bu işlərin aqibəti sizin əleyhinizə olacaqdır. Amma siz tezliklə nəinki yaxşı iş görməyəcəksiniz, əksinə, pis əməllərinizi daha da şiddətlə davam etdirəcəksiniz. Biz ikinci fitnə-fəsadınızın cəzasının vaxtı gəlib çatana qədər sizə möhlət verəcək, sonra Öz tərəfimizdən olaraq birinci mərhələdəkindən daha şiddətli olan bəndələrimizi göndərəcəyik. Onlar sizin xoşlamadığınız bəla və müsibətləri sizə ərməğan gətirər, sonra fatehcəsinə Məscidül-Əqsaya daxil olarlar. Düşməni tə'qib etdikləri birinci mərhələdə sizin evlərinizə daxil olduqları kimi, indi də daxil olar, sizin təkəbbürlük xislətinizi və bütün insanlardan üstün olmaq xülyalarınızı məhv edərlər.

عَسَىٰ رَبُّكُمْ أَن يَرْحَمَكُمْ وَإِنْ عُدتُّمْ عُدْنَا وَجَعَلْنَا جَهَنَّمَ لِلْكَافِرِينَ حَصِيرًا

*"Bəlkə Pərvərdigarınız sizə rəhm etdi. Əgər siz qayıtsanız, Biz də qayıdarıq. Biz cəhənnəmi kafirlər üçün zindan qərar vermişik."*[1]

Yə'ni, bəlkə Pərvərdigarınız sizi ikinci dəfə cəzalandırdıqdan sonra

[1] "Isra" surəsi, 1-9-cu ayələr.

Öz rəhmətini sizə qaytardı. Amma əgər ikinci cəzalanmadan sonra yenə də azğınlığa düşsəniz, Biz də sizi cəzalandırmağı əvvəldən başlayacaq, dünya və axirətdə sıxıntıya mə'ruz qoyaraq cəhənnəmi sizin üçün zindan qərar verəcəyik.

Bu ayələrdən əldə olunan ilk nəticə budur ki, Musa (əleyhis-salam)-dan sonra yəhudilərin tarixi, onların həyatlarının sonuna qədər cəmiyyətdə fitnə-fəsad yaradacaqlarında xülasə olunur. Nəhayət onların cəzalandırılmasının vaxtı çatanda Allah-taala Öz tərəfindən müəyyən şəxsləri seçəcək, həmin şəxslər də onlara qələbə çalacaqlar, sonra isə müəyyən məsləhətlər üzündən yəhudiləri yenidən onlara qalib edəcək, onlara mal-dövlət və övlad verəcək və onların tərəfdarlarını onların özündən çox edəcəkdir. Amma yəhudilər bu mal-dövlət və köməkçilərdən sui-istifadə edərək, ikinci dəfə olaraq yer üzündə fitnə-fəsad törədəcəklər. Əlbəttə, bu dəfə fitnə-fəsaddan əlavə, təkəbbürlük edəcək və özlərini hamıdan artıq, çox mühüm və sair qövmlərdən üstün hesab etmək xislətinə düçar olacaqlar. Onların cəzalandırılmasının vaxtı gəlib çatanda Allah-taala bir daha həmin qövmü onlara hakim edəcək, onları üçüncü dəfə, birinci və ikinci dəfədə olduğundan çox ağır və şiddətlə cəzalandıracaqdır.

İkinci nəticə budur ki, Allah-taalanın birinci dəfə onların əleyhinə qaldırdığı qövm çox asanlıqla hakim kəsilib onları evbəev axtarar, sonra Məscidül-Əqsaya daxil olar və onların hərbi qüvvələrini darma-dağın edər. Bu zaman Allah bu ordunu ikinci dəfə onlara göndərər, yəhudilərin onlara qələbə çalmasına, mal-dövlət, havadar və köməkçilərinin çox olmasına baxmayaraq onlara üçüncü dəfə şiddətli zərbə endirərlər ki, birinci dəfədə onların çirkin simalarını aşkar və özlərini də rüsvay edərlər. Belə ki, birinci dəfə Məscidül-Əqsaya daxil olduqları kimi, fateh şəkildə məscidə daxil olarlar, sonra onların başqa millətlərə təkəbbürlük hissi və özünü onlardan üstün hesab etmək xislətlərini kökündən məhv edərlər.

Təfsirçilər belə bir sual edirlər: "Özünü başqa millətlərdən üstün tutmaq fəsadı ilə yanaşı olan digər bir fəsad – "iki fəsad" sona çatmış və onlara və'dəsi verilən iki cəza baş vermişdirmi, ya yox?" Onların bə'ziləri inanırlar ki, bunun hər ikisi baş vermişdir. Belə ki, onların törətdiyi birinci fitnə-fəsadın cəzasını Buxtun-Nəsr, ikincisinin cəzasını isə romalı Titus vermişdir. Bə'ziləri də inanırlar ki, bu iki cəzalandırma hələ baş verməmişdir.

Amma düzgün nəzər budur ki, onların törətdikləri ilk fitnə-fəsadın cəzası İslamın əvvəllərində və müsəlmanların vasitəsilə verilmişdir. Müsəlmanlar İslamdan uzaq düşdükdən sonra Allah (cəza olaraq) yəhudiləri onlara hakim etdi. Yəhudilər bu mərhələdə də yenidən olaraq yer üzündə fəsad və tüğyançılıq etdilər. Müsəlmanlar yenidən İslama qayıtsalar, onların (yəhudilərin) ikinci dəfə cəzalandırılmalarının vaxtı çatar və bu da müsəlmanların əli ilə olacaqdır. Həmin təfsir əsasında İmamlardan (əleyhimus-salam) çoxlu rəvayət nəql olunmuşdur. O cümlədən deyilir: O qövm ki, Allah ikinci mərhələdə onları yəhudilərin əleyhinə qaldıracaq, həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif) və onun Qum əhlindən olan köməkçiləridir. Eləcə də onlar həmin kəslərdir ki, Allah onları həzrət Məhdi (ərvahuna fidah)-ın zühurundan qabaq qiyam etdirəcəkdir.

Əyyaşinin təfsirində nəql olunur ki, İmam Baqir (əleyhis-salam) *"bəəsna ələykum ibadən ləna uli bə'sin şədid"* ayəsindən sonra buyurdu: *"Bu ayədən məqsəd Qaim və onun güclü və qüvvətli köməkçiləridir."*

"Nurus-səqələyn" təfsirində "Kafi"ndən nəqlən deyilir ki, İmam Baqir (əleyhis-salam) yuxarıdakı ayənin təfsirində buyurdu: *"Allah-taala Qaimın qiyamından əvvəl bir qövmü seçəcəkdir. Ali-Mühəmməd (əleyhimus-salam)-in düşmənlərindən elə birisi qalmayacaqdır ki, bu qövm onu həlak etməsin."*

"Biharul-ənvar"da nəql olunur ki, İmam Sadiq (əleyhis-salam) bu ayəni qiraət etdikdən sonra soruşduq: "Sənə fəda olaq, onlar kimlərdir?" İmam (əleyhis-salam) üç dəfə buyurdu: *"Allaha and olsun ki, onlar Qum əhlidir! Allaha and olsun ki, onlar Qum əhlidir! Allaha and olsun ki, onlar Qum əhlidir!"*[1]

Bu üç rəvayət məqsəd baxımından bir-birilə tamamilə həmahəngdir və onların arasında heç bir ixtilaf yoxdur. Çünki Qum əhli dedikdə İran əhli, yə'ni həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif)-ın köməkçiləri nəzərdə tutulur ki, Allah-taala onları həzrətin zühuruna şərait yaratmaq üçün seçəcəkdir. Hətta rəvayətlərdə işarə edildiyi kimi, zühur zamanı o həzrətin xas şiələrindən bir neçəsi onların arasından çıxaracaqdır.

Yəhudilərin bu qövm və onların tərəfdarları olan sair müsəlmanlar qarşısındakı müqaviməti bir neçə mərhələdə baş verəcəkdir. Nəhayət, həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif) zühur edəcək, yəhudilərin sonuncu məhvi də məhz onun rəhbərliyi və qüdrətli əlləri ilə baş verəcəkdir.

Yəhudilərə və'də verilən ikinci cəzanın müsəlmanların əli ilə yerinə yetirilməsinə dəlalət edən mətləblərdən biri də budur ki, Allah-taalanın

---

[1] "Biharul-ənvarul", 60-cı cild, səh.216

yəhudilər əleyhinə iki dəfə qiyam edəcəyinə və'də verdiyi qövm bir ümmət olmuşdur və onların özlərinin, eləcə də yəhudilərlə aparacağı müharibənin xüsusiyyətləri müsəlmanlardan başqasına uyğun gəlmir. Çünki Misir, Babil, Yunan, İran, Roma padşahları, eləcə də yəhudiləri əsarətə alan başqa hakimlər *"ibadən ləna"* (Bizim xüsusi bəndələrimiz) ibarəsi ilə uyğun gəlmir. Bundan əlavə, ayələrin bəyanına əsasən birinci cəzalandırmadan sonra elə bir mühüm hadisə baş verməmişdir ki, yəhudilər onlara qalib gəlmiş olsun, halbuki, yəhudilərin İslamın əvvəllərində birinci dəfə müsəlmanlar tərəfindən cəzalandırılmasından sonra onlar bizə qələbə çalmışlar və Allah-taala onlara övlad və mal-dövlət əta etmişdir. Belə ki, onların dünyadakı havadarları müsəlmanların tərəfdarlarından qat-qat artıq olmuşdur və onlar hegemon dövlətlərə arxalanmaqla bizim əleyhimizə qalxmışlar. Həmçinin, onlar yer üzündə fitnə-fəsad törətmiş, bizə və məhrum millətlərə həqarət hissi ilə yanaşaraq istila altına almışdılar. Özlərinin öldürücü zərbələrini yəhudilərin köksünə endirən də məhz İslam mücahidləridir.

Bu məsələyə dəlalət edən və yəhudilərin həzrəti Musa (əleyhis-salam)-ın vəfatından sonrakı tarixinin araşdırılması ilə aydın olan məsələ budur ki, yəhudilər həm keçmişdə, həm də hal-hazırda fitnə-fəsad törətmişlər, amma onlar üçün deyilən təkəbbürçülük və üstünlük iddiaları yalnız bizim əsrimizdə vücuda gəlmişdir. Onların məhz ikinci qələbəsinin ardınca da və'dəsi verilən ikinci cəzalandırmanın vaxtı gəlib çatacaqdır. Bu mətləb yəhudilərin tarixini araşdıran hər kəs üçün aydın bir məsələdir (tezliklə onları qeyd edəcəyik).

### ALLAH-TAALANIN, YƏHUDİLƏRƏ HƏMİŞƏLİK HAKİM KƏSİLMƏK BARƏDƏ VERDİYİ VƏ'DƏ

وَإِذْ تَأَذَّنَ رَبُّكَ لَيَبْعَثَنَّ عَلَيْهِمْ إِلَى يَوْمِ الْقِيَامَةِ مَن يَسُومُهُمْ سُوءَ الْعَذَابِ إِنَّ رَبَّكَ لَسَرِيعُ الْعِقَابِ وَإِنَّهُ لَغَفُورٌ رَّحِيمٌ

وَقَطَّعْنَاهُمْ فِي الْأَرْضِ أُمَمًا مِّنْهُمُ الصَّالِحُونَ وَمِنْهُمْ دُونَ ذَٰلِكَ وَبَلَوْنَاهُم بِالْحَسَنَاتِ وَالسَّيِّئَاتِ لَعَلَّهُمْ يَرْجِعُونَ

*"Sənin Pərvərdigarın e'lan etdi: "Elə kəsləri yəhudilərə hakim edəcəkdir ki, Qiyamət gününə qədər onları cəzalandırıb işgəncə versinlər." Allah (həm) sür'ətlə cəzalandıran, (həm də) bağışlayan və mehribandır. Allahın cəzalandırmalarından biri də budur ki, onları yer üzündə pərakəndə qruplar şəklində qərar verəcəkdir. Onların bə'ziləri yaxşı əməl sahibi, bə'ziləri isə pis əməl sahibidir. Onları pisliklə və yaxşılıqla imtahana çəkdik, bəlkə tövbə edib haqq və hidayət yoluna*

*qayıdalar."*[1]

Yəhudilərin cəzalandırılmasına dair verilən İlahi və'dəni onların tarixlərinin bütün dövrlərində – Musa, Yuşe, Davud və Süleyman (əleyhimus-salam)-ın peyğəmbərlik dövrü istisna olmaqla – müşahidə edirik. Allah-taala bu dövrlərdə müxtəlif millət və qövmləri onlara hakim etmişdir ki, onları işgəncə və dərdli əzablarla cəzalandırsın.

Bə'zən belə deyilə bilər: Bəli, Misir, Babil, Yunan, Fars, Rum padşahları və başqaları yəhudilərə hakim kəsilərək onlara ağır cəzalar vermişlər, amma müsəlmanlar onlarla çox da qəddarcasına rəftar etməmişlər, əksinə, yalnız onların hərbi qüvvələrinə qələbə çalmış, sonra İslam dövlətinin pənahında yaşamalarını qəbul etmişlər. Onlar da İslam qanunlarına riayət etmək şərti ilə hüquq və azadlıqlardan bəhrələnib cizyə vermişlər.

Cavab: Onlara ən ağır cəzanın verilməsinin mə'nası bu deyildir ki, daim onları qırıb sərgərdan salsınlar, yaxud həbs etsinlər (halbuki, İslamdan qabaqkı hökumətlərin əksəriyyəti onlara hakim olduğu zaman belə şiddətli cəzalar verirdilər). Əksinə, mə'nası budur ki, onlar hərbi-siyasi cəhətdən o hökumətə təslim olmuşdular. Müsəlmanlar o dövrdə yəhudilərə qarşı başqalarına nisbətən daha mülayim rəftar edirdilər, lakin yəhudilərə tam hakim kəsilən və onları cəzalandıranların xarici nümunələri məhz müsəlmanlar olacaqdır.

Bə'zən belə deyilir: Düzdür ki, yəhudilərin tarixi Allahın onlara verdiyi bu və'dəyə şahiddir, lakin hazırkı dövrdə bir, yaxud heç olmazsa, yarım əsr keçməsinə baxmayaraq, onları cəzalandıran və hakim kəsilən bir kəs yoxdur, əksinə onlar əlli ildən artıq müddətdə (1936-cı ildən bəri) Fələstin və s. kimi müsəlman ölkələrində ən ağır cinayətlər törədiblər! Bu hadisəni yuxarıdakı hədis və ayə ilə necə izah etmək olar?

Cavab: Yəhudilərin həyatının bu dövrü ayrılıqda hesab olunmalıdır, çünki bu, onların qüdrətə və hakimiyyətə qayıtdıqları bir dövrdür ki, Allah-taala "İsra" surəsində onlara və'də verərək buyurmuşdur: *"Sonra sizin qələbənizi (bir daha) əleyhinizə qaldırdığımız şəxslərə qaytararıq, sizə çoxlu mal-dövlət və övlad əta edər, onlardan artıq köməkçilərlə bəhrələndirərik ki, sizinlə həmkarlıq edərək onların əleyhinə mübarizə aparsınlar."*

Deməli, bu dövr onlara hakim kəsilməyin ümumi və'dəsindən

---

[1] "Ə'raf" surəsi, ayə:167-168

xaricdədir, nəhayət, onların ikinci dəfə cəzalandırılması müsəlmanların əli ilə baş verəcəkdir.

Bu barədə mə'sum İmamlardan (əleyhimus-salam) nəql olunan çoxlu rəvayətlərə əsasən, bu İlahi və'də məhz müsəlmanların əli ilə gerçəkləşəcəkdir. "Məcməul-bəyan" təfsirinin müəllifi qeyd olunan ayənin təfsirində müfəssirlərin bu mə'na barədə yekdil nəzərdə olmasını deyir və buyurur ki, bütün müfəssirlərin nəzərində bu ümmətdən məqsəd həzrəti Mühəmməd (səlləllahu ələyhi və alihi və səlləm)-in ümmətidir. Həmin mə'na İmam Baqir (əleyhis-salam)-dan da nəql olunmuş, Əliyyibni İbrahim Qummi öz təfsirində onu Əbil Carudun vasitəsilə nəql etmişdir.

## YƏHUDİLƏRİN TÖRƏTDİYİ MÜHARİBƏ ODUNUN SÖNDÜRÜLMƏSİ BARƏSİNDƏ ALLAHIN VƏ'DƏSİ

وَقَالَتِ الْيَهُودُ يَدُ اللَّهِ مَغْلُولَةٌ غُلَّتْ أَيْدِيهِمْ وَلُعِنُوا بِمَا قَالُوا بَلْ يَدَاهُ مَبْسُوطَتَانِ يُنْفِقُ كَيْفَ يَشَاءُ وَلَيَزِيدَنَّ كَثِيرًا مِنْهُمْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ طُغْيَانًا وَكُفْرًا وَأَلْقَيْنَا بَيْنَهُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاءَ إِلَىٰ يَوْمِ الْقِيَامَةِ كُلَّمَا أَوْقَدُوا نَارًا لِلْحَرْبِ أَطْفَأَهَا اللَّهُ وَيَسْعَوْنَ فِي الْأَرْضِ فَسَادًا وَاللَّهُ لَا يُحِبُّ الْمُفْسِدِينَ

*"Yəhudilər dedilər: "Allahın əli bağlıdır!" Onların əli bağlansın! Onlar, bu sözlərinə görə Allahın rəhmətindən uzaq düşdülər. Əksinə, Allahın qüdrət əlləri açıqdır. Necə istəyirsə, (elə də) infaq (əta) edir. Pərvərdigar tərəfindən sənə nazil olanlar onların küfr və inadkarlıqlarını artırır. Biz Qiyamətə qədər onların arasına kin-küdurət və düşmənçilik salmışıq. Hər vaxt bir müharibə odunu qızışdırsalar, Allah onu söndürər. Onlar yer üzündə fitnə-fəsad törətmək üçün çalışırlar, Allah isə fitnə-fəsad törədənləri sevmir."*[1]

Bu, yəhudilərin şö'ləndirdikləri müharibə odlarının söndürülməsi barəsində Allahın və'dəsidir. Bu İlahi və'də qəti şəkildə, heç bir istisna olmadan həyata keçməlidir. Çünki *"Kulləma əvqədu" – (yə'ni hər vaxt müharibə odunu qızışdırsalar)* tə'biri ilə gətirilmişdir.

Yəhudilərin keçmişdəki tarixləri və hazırkı vəziyyətləri göstərir ki, onlar həmişə müharibə törətmək məqsədilə fitnə-fəsad yaratmışlar. Amma Allah-taala müsəlmanlara və bütün bəşəriyyətə verdiyi və'dəsinə əsasən, hər dəfə yəhudilərin məkrli plan və hiylələrini zərərsizləşdirmiş, onların qızışdırdığı müharibə odunu söndürmüşdür.

---

[1] "Maidə" surəsi, ayə:64

Bəlkə də onların təkcə müsəlmanlar üçün deyil, ümumiyyətlə, bütün bəşəriyyət arasında yaratdıqları böyük müharibələr, qırğınlar və fitnə-fəsad bu əsrdəki müharibələrdir ki, şərq və qərb blokları ona qarışmağa vadar olunmuşdur. Onlar Fələstində birbaşa, dünya ölkələrinin əksəriyyətində isə müəyyən yollarla fitnə törədirlər. Bu müharibə odunu söndürməklə əlaqədar Allahın və'dəsinin gerçəkləşməsinə çox qalmır və bu şərif ayədən mə'lum olur ki, onların daxili düşmənçilikləri və çəkişmələrinin özü də Allahın lütf və mərhəməti olub, onların törətdiyi müharibə odunu söndürmək məqsədi daşıyır. Ayədəki "itfaunnar" (müharibə odunun söndürülməsi) cümləsinin onların daxili düşmənçilikləri və çəkişmələrinin ardınca irəli sürülməsindən aydın olur ki, sanki onların qızışdırdığı müharibənin zərərsizləşdirilməsi aralarında kin-küdurət yaranmasından sonra gəlir: *"Biz onların arasına, Qiyamət gününə qədər düşmənçilik və kin-küdurət saldıq. Hər vaxt bir müharibə odunu qızışdırsalar, Allah onu söndürər."*

Bu onların tarixinin kiçik bir hissəsidir. Allah-taalanın yəhudilər barəsində verdiyi üç və'də ilə əlaqədar olan ayənin təfsirlərini "Əl-muməhhidunə lil-Məhdi – (Həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna şərait yaradanlar") kitabında qeyd etmişik.

Zühur dövründə yəhudilərlə əlaqədar rəvayətlərdə deyilir ki, onlar, məhvə sürüklənmələrinə səbəb olacaq müharibədən əvvəl Fələstində bir yerə toplaşacaqlar:

وَقُلْنَا مِن بَعْدِهِ لِبَنِي إِسْرَائِيلَ اسْكُنُوا الْأَرْضَ فَإِذَا جَاءَ وَعْدُ الْآخِرَةِ جِئْنَا بِكُمْ لَفِيفًا

*"Ondan sonra Bəni-İsrailə dedik ki, yer üzündə sakin olsunlar. Qiyamət günü gəlib çatanda sizi bir-birinizlə qarışıq olan halda gətirərik."*[1]

Yə'ni, sizi hər bir nahiyədən, yaxud hamılıqla bir yerə yığarıq. "Nurus-səqəleyn" təfsirində də bu mə'na qeyd olunmuşdur. Bu hədisdən onların Fələstində yerləşən Əkkaya gəlib bir yerə yığışmaları və müharibə törətmələri aydın olur. Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə nəql olunur: *"Bir hissəsi dəryanın içində olan şəhər barəsində eşitməmisiniz?"* Ərz etdilər: "Bəli." Buyurdu: *"Qiyamət yalnız o vaxt bərqərar olunacaqdır ki, İshaq övladlarından 70 min nəfər o şəhərə yürüş etsinlər."*[2]

---

[1] "Isra" surəsi, ayə:104
[2] "Müstədrək", 4-cü cild, səh.476

Əli (əleyhis-salam)-dan belə nəql olunur: *"Misirdə bir minbər düzəldib, Dəməşqi şübhəsiz xarab edəcəyəm, yəhudiləri ərəb ölkələrindən qovub çıxardacağam və həmin çubuqla ərəbləri qovacağam."* Bu hədisi rəvayət edən İbayə Əsədi deyir: "Soruşdum ki, ey Əmirəl-mö'minin! Siz elə şeylərdən xəbər verirsiniz ki, sanki öləndən sonra diriləcəksiniz?!" Buyurdu: *"Ey İbayə! Bizim üslubumuzdan başqa üslubla danışdın. Mənim nəslimdən olan bir kişi (yə'ni Məhdi (əleyhis-salam)) bu işləri yerinə yetirəcəkdir."*[1]

Bu rəvayət göstərir ki, yəhudilər ərəb ölkələrinin böyük bir hissəsinə hakim kəsiləcək, yaxud həmin yerlərdə böyük nüfuza malik olacaqlar. Biz "həzrət Məhdi (ərvahuna fidah)-ın Süfyani və yəhudilərlə apardığı müharibə" bölməsində bu barədə söhbət edəcəyik.

Rəvayətlərdən bir qismi isə onların vasitəsilə bir mə'bədin kəşf edilməsindən söz açır. "Kəşful-heykəl" cümləsi zühur əlamətlərindən biridir ki, zahirən məqsəd həzrət Süleyman (əleyhis-salam)-ın mə'bədinin kəşf olunmasıdır. Əli (əleyhis-salam) belə buyurur: *"O həzrətin zühurunun müəyyən əlamət və nişanələri vardır: Kufənin pusqu ilə mühasirəyə alınıb daş atılması, küçələrindəki künclərdə yarıqlar icad edilməsi, 40 gün müddətində məscidlərin tə'til edilməsi, mə'bədin kəşf olunması, böyük məscidin (Məscidül-Həramın) ətrafında bayraqların sancılması. Ölənlər və öldürülənlərin hamısı cəhənnəm odundadır."*[2]

Amma ehtimal üzrə zühura şərait yaradanlar tərəfindən mə'bədin kəşf edilməsi o həzrətin zühurundan azacıq öncə baş verəcəkdir, çünki rəvayətlər onun kim tərəfindən kəşf edilməsini bəyan etmir. Həmçinin, ola bilsin ki, o mə'bəd tarixi abidələrdən və həzrəti Süleyman (əleyhis-salam)-ın mə'bədindən başqa bir mə'bəd olsun, yaxud Qüdsdə deyil, başqa yerdə tapılmış olsun. Çünki "Kəşful-mə'bəd" cümləsi mütləqdir (qeydsizdir).

Bu rəvayətin ilk hissələri (başqa rəvayətlərdə) İraq adı ilə qeyd edilən Kufə şəhərində baş verən müharibəni bəyan edir. Amma burada elə Kufə şəhərinin mühasirəyə alınıb daş-qalaq edilməsi, şəhərin küçə-bazarlarında müdafiə üçün manеələr yaradılmasıdır. Məscidul-Həramın ətrafında sancılan cürbəcür bayraqlara gəldikdə isə, bu, müxtəlif qəbilələrin Hicaz hökuməti ilə çarpışmalarına işarədir ki, bu da zühurdan azacıq öncə vücuda gələcəkdir. (Bu barədə çoxlu rəvayət nəql olunmuşdur.)

---

[1] "Biharul-ənvar", 53-cü cild, səh.60
[2] "Biharul-ənvar", 52-ci cild, səh.273

Rəvayətlərdən digər bir qismi də yəhudilərin yer üzündə fitnə-fəsad törətdikdən, başqa millətlərdən üstün olduqlarını iddia etdikdən sonra Allah tərəfindən onlara hakim kəsiləcək şəxsləri müəyyən edir. Belə ki, onların bə'ziləri ayələrin təfsirində qeyd olundu, bə'ziləri də zühur əsrində İran və iranlı şəxsiyyətlər barəsindədir. Məsələn: "İcmali təvatür" şəklində nəql olunan qara bayraqlılar rəvayətini qeyd etmək olar: *"Qara bayraqlılar Xorasandan xaric olacaq ki, heç bir şey onları qaytarmağa qadir olmayacaqdır. Nəhayət, onlar bu bayraqları Qüdsə sancacaqlar."*

Həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif)-in vasitəsilə Tövratın əsl nüsxəsinin Antakiya mağarasından, yaxud Şam dağlarından, yaxud da Fələstindən və Təbəriyyə dəryasından çölə çıxarılması, eləcə də o həzrətin Tövrat vasitəsilə yəhudilərə dəlil gətirməsi də həmin rəvayətlərdəndir. Peyğəmbər (səllallahu ələyhi və alihi və səlləm)-dən belə nəql olunur: *"O, Tövratı və İncili Antakiya adlanan bir yerdən çölə çıxaracaqdır."*[1]

Yenə buyurur: *"(Müqəddəs sandığı) Antakiyadakı bir mağaradan, Tövratın nüsxələrini isə Şamdakı dağlardan çıxaracaq, onun vasitəsilə yəhudilərə dəlil-sübut gətirəcək, nəticədə onların böyük bir hissəsi İslamı qəbul edəcəklər."*[2]

Başqa yerdə buyurur: *"Müqəddəs sandıq Təbəriyyə dəryasından onun (Qaim (ərvahuna fidah)-ın) əli ilə aşkar olunacaq, onu Beytül-Müqəddəsə gətirib onun hüzuruna qoyacaqlar. Yəhudilər onu müşahidə etdikdə az miqdar istisna olmaqla, hamısı iman gətirəcəklər."*[3]

Səkinə tabutu (Müqəddəs sandıq) aşağıdakı ayələrdə qeyd olunandır:

وَقَالَ لَهُمْ نَبِيُّهُمْ إِنَّ آيَةَ مُلْكِهِ أَنْ يَأْتِيَكُمُ التَّابُوتُ فِيهِ سَكِينَةٌ مِنْ رَبِّكُمْ وَبَقِيَّةٌ مِمَّا تَرَكَ آلُ مُوسَىٰ وَآلُ هَارُونَ
تَحْمِلُهُ الْمَلَائِكَةُ إِنَّ فِي ذَٰلِكَ لَآيَةً لَكُمْ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ

*"Peyğəmbərləri onlara dedi: Onun (Talutun) padşahlıq əlaməti və dəlili budur ki, sizə doğru bir tabut gələcək ki, onda Pərvərdigarınız tərəfindən səkinə (aramlıq) vardır. Onda Ali-Musa və Ali-Harunun yadigar qoyduqları şeylər vardır. O tabut mələklərin vasitəsilə daşınır. Həqiqətən, onda sizin üçün mö'cüzə və dəlil vardır, əgər iman*

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.25.
[2] "Muntəxəbul-əsər", səh.309.
[3] "Əl-məlahimu vəl-fitən", səh.57.

*gətirsəniz."*[1]

Yuxarıdakı ayənin təfsirində qeyd olunur ki, içərisində peyğəmbərlərin mirası olan bu müqəddəs sandıq Bəni-İsrail üçün, kimin onlara rəhbərliyə layiq olması barəsində bir dəlil və nişanədir. Buna görə də mələklər onu gətirib Bəni-İsrail qövmünün arasından keçirtdilər, sonra Talutun qarşısında yerə qoydular. Talut onu Davuda, o da Süleyman (əleyhiməs-salam)-a, o da öz vəsisi Asəf ibni Bərxiyaya verdi. Bəni-İsrail də Süleyman (əleyhis-salam)-dan sonra onun vəsisinə itaət etmədiklərinə görə o sandıqdan məhrum oldu.

*"Yuslimu kəsirun minhum (onlardan çoxu iman gətirər)*, yaxud *"əsləmət illa qəlilən minhum (azacıq istisna olmaqla əksəriyyəti iman gətirər)* cümləsində məqsəd bəlkə də müqəddəs sandığı gördükdə, yaxud həzrət Məhdi (əleyhis-salam)-ın Tövrat əsasında dəlil gətirməsindən sonra iman gətirənlər ola bilər, yaxud da o şəxslər ola bilər ki, o həzrət Fələstini azad və inadkarları məğlub etdikdən sonra onları orada qoyacaqdır. Digər rəvayətlərdə qeyd olunur ki, yəhudilərdən otuz min nəfər ona iman gətirəcəklər ki, bu da bütün yəhudilərlə müqayisədə çox azdır.

Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif)-ın zühuruna şərait yaradanların yəhudilərlə apardığı müharibə, eləcə də o həzrətin vasitəsi ilə onların Ərəbistan yarımadasından qovulmasına dəlalət edən rəvayətlər də çoxdur. Bu iş də yalnız onlara qələbə çalınması və Fələstindən qovulması ilə mümkün ola bilər. Həzrət Məhdi (ərvahuna fidah)-ın apardığı böyük müharibəyə dəlalət edən rəvayətlərdə qeyd olunur ki, o həzrətlə vuruşanlar birbaşa Süfyani və onun yəhudi-rumlu köməkçiləridir və bu müharibənin cəbhə xətti Antakiyadan Əkkaya, yə'ni Suriya-Livan-Fələstin sərhədlərinə qədər davam edəcək, daha sonra Təbəristana, Dəməşqə və Qüdsə doğru genişlənəcəkdir. Onlar və'də verilən ağır məğlubiyyətlə orada üzləşəcəklər. Belə ki, hər daş və ağac səslənib deyəcəkdir ki, "ey müsəlman! Mənim arxamda gizlənən yəhudidir, onu həlak et!" (Bu mətləb Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif)-ın zühur hərəkatına dair hadisələrdə qeyd olunmuşdur.)

Yuxarıda qeyd olunan hədislərdə Mərəc-Əkka döyüşünə dəlalət edən rəvayətlər də gözə dəyir ki, bu da əvvəlki müharibələrdən biri olan böyük bir müharibədir. Amma güclü ehtimala görə o, həzrət Məhdi (əleyhis-salam)-ın ikinci müharibəsinin bir hissəsidir ki, bu müharibəni qərblilər və onların yəhudi köməkçilərinə qarşı aparacaq və Fələstinin azad edilməsindən, yəhudilərin və qərblilərin məğlubiyyətindən iki-üç il

---

[1] "Bəqərə" surəsi, ayə:248.

sonra baş verəcəkdir. Rəvayətlərin buyurduğuna görə həzrət Məhdi (ərvahuna fidah) bundan sonra rumlularla sülh, dinc yanaşı yaşamaq və təcavüz etməmək barədə yeddi illik müqavilə bağlayacaqdır.

Ehtimal üzrə, həzrət İsa (əleyhis-salam) onların arasında vasitəçi olacaqdır, amma onlar iki ildən sonra bu müqaviləni pozub, hər biri on iki min nəfərdən ibarət olan səksən ordu ilə müharibəyə girişəcəklər. Bu da Allah düşmənlərinin əksəriyyətinin qətlə yetiriləcəyi ən böyük müharibədir. Hətta bu müharibə *"Mərəc-Əkka süfrəsi"* və *"böyük və həyəcanlı hərəkat"* kimi vəsf edilmişdir. Yə'ni elə bir süfrədir ki vəhşi heyvanlar və quşlar zalımların cəsədlərini yeyəcəklər. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Rum təkbirlə, yetmiş min müsəlmanın əli ilə fəth olunacaqdır. Onlar Mərəc-Əkkada böyük hadisəyə və Allahın geniş süfrəsinə şahid olacaqlar. (Bu müharibədə) zalımlar məhv olunacaqlar."*[1]

Rəvayətlərdən bə'zilərində həzrət Məhdi (əleyhis-salam)-ın dövründə Əkka şəhərinin ifa etdiyi hərbi və strateji əhəmiyyət xatırladılır və buyurulur ki, o həzrət Avropanı fəth etmək üçün oranı dəniz donanmasının mərkəzi qərargahı seçəcəkdir. Rəvayətlərdə deyilir: *"O həzrət 400 gəmini Əkka sahillərində bir yerə yığacaq və öz köməkçiləri ilə birlikdə Rum ölkələrinə hərəkət edib oranı fəth edəcəkdir."*[2]

## YƏHUDİLƏRİN TARİXİ (QISA ŞƏKİLDƏ)

Yəhudilərin Musa (əleyhis-salam)-ın dövründən İslam Peyğəmbəri (səllallahu əleyhi və alihi və səlləm)-in dövrünə qədər ümumi siyasətlərinə şamil olan bu hissəni "Qamusi kitabi müqəddəs" əsasında (Mərhum Məhəmməd İzzət Dəruzənin yazdığı "Yaxın şərqdə kilsə cəmiyyəti" və "Yəhudi tarixi və onların kitabları"ndan) qeyd edirik. Bu müddətdə yəhudilərin tarixi on hissəyə bölünür:

| | |
|---|---|
| 1-Musa və Yuşe (əleyhiməs-salam)-ın dövrü | (b.e.ə 1270-1130); |
| 2-Davərlərin (hakimlərin) dövranı | (1130-1025); |
| 3-Davudla Süleyman (əleyhiməs-salam)-ın dövrü | (1025-931); |
| 4-Daxili çəkişmələr dövrü | (931-859); |
| 5-Aşurilərin hakimiyyəti dövrü | (859-611); |
| 6-Babillilərin hakimiyyəti dövrü | (597-539); |
| 7-İranlıların hakimiyyəti dövrü | (539-331); |
| 8-Yunanların hakimiyyəti dövrü | (331-64); |

[1] "Bişarətul-İslam", səh.297
[2] "Ilzamun-nasib", səh.224

9-Rumluların hakimiyyəti dövrü (64-638);
10-İslamın hakimiyyəti dövrü (638-1925).

**HƏZRƏT MUSA VƏ YUŞE (ƏLEYHİMƏS-SALAM)-IN DÖVRANI**

İlahi peyğəmbər olan Musa (əleyhis-salam) 120 il yaşamış, şərif ömrünün təqribən 30 ilini Misir Fir'onunun sarayında, 10 ilini həzrəti Şüeyb (əleyhis-salam)-ın yanında, Fələstin tərəfindən Sinanın axırlarında və Ərəbə dərəsinin yaxınlığında yerləşən Qadiş Bərni'də keçirmişdir.

Mövcud Tövratın Xüruc kitabında (37÷12) və E'dad kitabında (36÷33) Bəni-İsrailin Musa (əleyhis-salam) ilə birlikdə çıxanlarının sayı altı yüz min piyada qeyd edilmişdir (övladları istisna olunur). Bə'zi qərb tədqiqatçıları onların sayını altı min nəfər hesab etmişlər. Tarixçilər daha güclü ehtimal verirlər ki, onların Misirdən xaric olmaları miladdan qabaq 13-cü əsrin əvvəllərində, yə'ni miladdan qabaq 1230-cu ildə və Minfitah Fir'onun dövründə baş vermişdir.

Həzrəti Musa (əleyhis-salam) Qadişin yaxınlığında yerləşən bir dağda vəfat etdi, onun vəsisi Yuşe ibni Nun (əleyhis-salam) da onu həmin yerdə dəfn etdi və qəbrinin yerini gizli saxladı. Musa (əleyhis-salam) Bəni-İsraildən həm öz həyatı dövründə, həm də vəfatından sonra cürbəcür əziyyətlərə mə'ruz qaldı. Təhrif olunmuş Tövratda onun və qardaşı Harunun (əleyhiməs-salam) barəsində belə deyilir: "Allah Musaya belə dedi: "Sən bu dağda öl! Necə ki, qardaşın Harun bu dağda can vermişdi. Çünki siz iki nəfər Mənə xəyanət edərək Sina ölkəsindəki Qadiş ölkəsinin sulu yerlərində təqdis etmədiniz. Belə isə, doğrudan da sən o yerə, onun müqabilindən baxarsan, amma oradan Mənim Bəni-İsrailə əta etdiyim yerə daxil olmayacaqsan!"[1] Başqa yerdə deyilir: "Yuşe ibni Nun oraya daxil olacaqdır."[2] Musa (əleyhis-salam)-dan sonra Bəni-İsrailə rəhbərliyi onun vəsisi Yuşe (əleyhis-salam) öhdəsinə aldı və onları İordaniya çayının qərb sahillərinə köçürtdü. Köçü Əriha şəhərindən başladı ki, bu şəhəri də əlavə etməklə 31 kiçik məmləkəti (onlardan hər biri bir şəhər, yaxud əkinçiliklə məşğul olan kəndləri əhatə edən kiçik şəhərlərdən ibarət idi) fəth etdi. (Oranın sakinləri Kən'an bütpərəstlərindən idilər.) Sonra o məntəqəni Yə'qub (əleyhis-salam)-ın bir-birinə həsəd edən övladları arasında bölüşdürdü. "Yuşenin həyatı" kitabının 15-19-cu bablarında bu məntəqənin şəhərləri – böyüklü-kiçikli 216-ya çatır. Yuşe (əleyhis-salam) miladdan qabaq 1130-cu ildə, 110 yaşında vəfat etmişdir.

---

[1] İkinci kitab, 33-cü bab
[2] İkinci kitab, 38-ci bab

## HAKİMLƏRİN İŞ ÜSTÜNƏ GƏLMƏSİ

### PƏRİŞANLIQ VƏ YERLİ HAKİMLƏRİN İSTİLAÇILIQ DÖVRÜ

Yuşe (əleyhis-salam)-dan sonra Bəni-İsrailin rəhbərliyi hakimlərə nəql olundu. Onlardan 15 nəfəri hakimiyyətə gəldilər. Bu dövrün iki xüsusiyyəti var idi ki, onun hər ikisini Bəni-İsraildə daim müşahidə etmək olar: Birincisi peyğəmbərlərin buyurduğu yoldan çıxmaq, digəri isə Allah tərəfindən onlara dərdli əzabları dadızdıran, işgəncə verənləri onlara hakim etmək (bunlar Qur’anda da qeyd olunmuşdur).

“Hakimlər” kitabının 3-5-ci bablarında Bəni-İsrailin Yuşedən sonra yollarını azmaları belə bəyan olunur: “Kən’anlıların, heysilərin, umurilərin, fərzilərin, həyvilərin və yubusilərin yanında sakin olub, onlardan qız aldılar, öz qızlarını onların oğlanlarına verdilər və onların tanrılarına pərəstiş etdilər.”

8÷3-cü babda belə deyilir: “İlk dəfə onlara hakim olub onları 8 il müddətində öz hakimiyyəti altında saxlayan ilk şəxs Aramun-nəhreynin hakimi Rəştəam idi. Sonra Bəni-Əmmun və Əmaliqə tayfaları onlara hücum edərək, Əriha şəhərini istila altına aldılar.”[1] “Sonra Kən’anın hakimi Yabin 10 il müddətində Hasuda onlara hakim oldu.”[2] “Ondan sonra Bəni-Əmmun və fələstinlilər 18 il müddətində hakim olub onları özlərinə qul etdilər.”[3] “Bundan sonra fələstinlilər onları cəzalandırdılar və qırx il onlara hakimlik etdilər.”[4]

Yuşedən sonra Samuel (əleyhimas-salam)-ın dövrünə qədər hakimlərin rəhbərliyi davam etdi. Qur’anda onun barəsində belə deyilir:

أَلَمْ تَرَ إِلَى الْمَلَإِ مِنْ بَنِي إِسْرَائِيلَ مِنْ بَعْدِ مُوسَى إِذْ قَالُوا لِنَبِيٍّ لَهُمُ ابْعَثْ لَنَا مَلِكًا نُقَاتِلْ فِي سَبِيلِ اللَّهِ قَالَ هَلْ
عَسَيْتُمْ إِنْ كُتِبَ عَلَيْكُمُ الْقِتَالُ أَلَّا تُقَاتِلُوا قَالُوا وَمَا لَنَا أَلَّا نُقَاتِلَ فِي سَبِيلِ اللَّهِ وَقَدْ أُخْرِجْنَا مِنْ دِيَارِنَا وَأَبْنَائِنَا
فَلَمَّا كُتِبَ عَلَيْهِمُ الْقِتَالُ تَوَلَّوْا إِلَّا قَلِيلًا مِنْهُمْ وَاللَّهُ عَلِيمٌ بِالظَّالِمِينَ

*“Bəni-İsraildən olan o qrupu görmədinmi ki, Musanın vəfatından sonra öz peyğəmbərlərindən istəyib dedilər ki, “bizim üçün bir hakim seç, (onun sərkərdəliyi ilə) Allah yolunda cihad edək!” Onların peyğəmbərləri dedi: “Ehtimal vermirsinizmi ki, cihad hökmü sizə vacib ol-*

---

[1] “Davəran (hakimlər)”, 13-3
[2] Yenə orada, 2-4
[3] Yenə orada, 8-1
[4] Yenə orada, 1-13

*sa, itaətsizlik edəcəksiniz?!" Dedilər: "Necə ola bilər ki, biz Allah yolunda cihad etməyək, halbuki biz övladlarımızdan ayrı düşüb, ev-eşiklərimizdən qovulmuşuq?!" Amma cihad hökmü onlara yazılan zaman az bir dəstə istisna olmaqla, (cihaddan) üz çevirdilər. Allah zalımların əməllərindən agahdır."*[1]

Tarixçilər bu dövrü təqribən bir əsr – miladdan qabaq 1130-cu ildən, Talut və həzrəti Davud (əleyhis-salam)-ın dövranına – 1025-ci ilə qədər yazmışlar. Halbuki, Tövratın hakimlər kitabında bu dövr daha artıq qeyd olunur.

**DAVUD VƏ SÜLEYMAN (ƏLEYHİMƏS-SALAM)-IN DÖVRÜ**

Talutun (Şavul) dövrünü həzrəti Davud və Süleyman (əleyhiməs-salam)-ın dövrünün bir hissəsi kimi qərar verdik, çünki o, peyğəmbər olmasa da, onların cərgəsində olan adil bir hakim idi. Tarixçilər onun hakimiyyət dövrünü 15 il miladdan qabaq – 1025-1010-cu illər – qeyd etmişlər. Ondan sonra Davud və Süleyman (əleyhiməs-salam) 1010-931-ci illər (həzrəti Süleyman (əleyhis-salam)-ın vəfat etdiyi dövrə qədər) hakimiyyətdə olmuşlar.

Gördüyünüz kimi, mövcud Tövratın müəllifləri Musa, Davud, Süleyman (əleyhiməs-salam) barəsində zülm etmiş, onlara iftira yağdırmış, əxlaqi töhmətləri, siyasi və əqidəvi yanlışlıqları onlara nisbət vermişlər. Xristian tarixçilərinin əksəriyyəti nəinki yalnız onlara tabe olmuş, üstəlik onların sözlərinə bə'zi yaramaz mətləbləri də əlavə etmişlər. Özlərini müsəlman hesab edən və qərb mədəniyyətinin vurğunları da bu əqidəyə tabe olmuşlar. Allahın salamı bütün peyğəmbərlərə olsun! Biz Allah dərgahında o alicənab insanlara qarşı küfr edən və töhmət vuranlardan bezarlıq edirik!

Davud (əleyhis-salam) Bəni-İsraili bütpərəstlikdən və bütpərəstlərin hakimiyyətindən xilas etdi. Onun İlahi dövlətinin nüfuzu qonşu məntəqələrə də yayıldı. O, fərmanı altında olan sair millətlərlə də gözəl rəftar etdi. Belə ki, Mütəal Allah Qur'anda onu vəsf etmişdir.

Həzrəti Davud (əleyhis-salam) öz cəddi həzrəti İbrahim (əleyhis-salam)-ın ibadət yerində – Məriyya dağının yuxarısında (o, Qüdsdə yerləşir) bir məscid tikmək istədi. Amma ora Qüdsün sakinlərindən biri olan Ərunanın xırmanı idi. Davud (əleyhis-salam) o torpaq sahəsini 50 şaqil gümüş pulla aldı və mövcud Tövratın dediyinə görə, "orada bir məscid tikdi və namaz qıldı. Onun bir hissəsində də Allah üçün qurbanlıq edirdilər."[2]

---

[1] "Bəqərə" surəsi, 246-cı ayə

[2] "Samuilin kitabı", Ishah, 24-24, əxbarın 1-ci sifri, İshah, 21-22 və 28

Süleyman (ələyhis-salam) əziz atası Davud (ələyhis-salam)-ın səltənətinin varisi oldu. Onun dövləti elə bir yüksək məqama çatdı ki, o, Qur'anda və Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) sünnətində yad edilmişdir. O, atası Davud və babası İbrahim (ələyhiməs-salam)-ın məscidini yenidən, daha əzəmətli şəkildə tikdi ki, bu da "Süleyman mə'bədi" adı ilə məşhurlaşdı.

Həzrəti Süleyman (ələyhis-salam)-ın hakimiyyət dövrü peyğəmbərlərin tarixində müstəsna bir şəraitə malikdir. Belə ki, Allah-taala qeyri-adi imkanların bir qismini ona aşkar etmişdi. Əgər millətlər öz siyasi varlıqlarını Allahın göstərişləri, Peyğəmbər (ələyhimus-salam) və onların canişinlərinin rəhbərliyi sayəsində qursaydılar və o imkanları inadkarlıq və tüğyanlıq yolunda sərf etməsəydilər, Allah-taala bu ne'mətləri onlara da verərdi. Qur'anda buyurulur:

وَلَوْ بَسَطَ اللَّهُ الرِّزْقَ لِعِبَادِهِ لَبَغَوْا فِي الْأَرْضِ وَلَٰكِن يُنَزِّلُ بِقَدَرٍ مَّا يَشَاءُ إِنَّهُ بِعِبَادِهِ خَبِيرٌ بَصِيرٌ

*"Əgər Allah insanların ruzisini çoxaltsaydı, onlar yer üzündə zülm edərdilər. Amma Allah istədiyi miqdarda nazil edir. O, bəndələrinə qarşı agah və bəsirətlidir."*[1]

Həzrəti Süleyman (ələyhis-salam) öz taxtına söykənmiş halda canını tapşırdı. Tarixçilər onun miladdan qabaq 931-ci ildə vəfat etdiyini qeyd etmişlər.

O həzrətin vəfat etməsi ilə eyni zamanda Bəni-İsraildə azğınçılıq başlandı, dövləti parçalayaraq hissə-hissə etdilər. Allah-taala da onlara elə bir şəxsi hakim etdi ki, onlara dərdli əzabı dadızdırsın.

Hazırda mövcud olan Tövratda (hakimlərin birinci kitabında) Süleyman (ələyhis-salam)-a iftira yaxmış və demişlər ki, o, Allaha bəndəçilikdən imtina edərək bütlərə pərəstiş etməyə başlamışdır. Orada deyilir: "Və Süleymana dedi: Bu işin səbəbi sənin yanındadır. Sən, tövsiyə etdiyim vacibləri və əhd-peymanları qoruyub saxlamadın, Mən də ölkəni Sənin əlində aldım və tikə-tikə etdim."[2]

## DAXİLİ ÇƏKİŞMƏLƏR VƏ PARÇALANMALAR DÖVRÜ

Nəhayət onlar bir-birinin əleyhinə müharibəyə başlayaraq Misir, Aşur və Babil fir'onlarının bütpərəstlərindən kömək aldılar. Həzrəti Süleyman (ələyhis-salam)-ın vəfatından sonra yəhudilər Şəkimdə (indiki Nablosda) bir yerə toplaşdılar, onların əksəriyyəti həzrəti Süleyman (ələyhis-salam)-ın sağlığında onunla düşmən olan və onun əlindən Misir fir'o-

[1] "Şura" surəsi, 27-ci ayə
[2] "Sifri-əvvəl" (hakimlər dövrü), Ishah, 11-13-1

nunun yanına qaçan Yərbəam ibni Nəbatla bey'ət etdilər. O, yəhudilərin arasına gəldiyi zaman onun pişvazına çıxıb "xoş gəldin" dedilər. O, İordaniya çayının qərb sahilində İsrail adlı bir dövlət tə'sis etdi, oranın paytaxtını Şəkim, yaxud Samirə qərar verdi. Onların az bir qrupu Həzrəti Süleyman (əleyhis-salam)-ın oğlu Rəhəbəamla bey'ət etdilər və Qüdsü paytaxt seçdilər. Bu dövlət də Yəhuda adı ilə məşhurlaşdı.

Qur'anda *"indəhu ilmun minəl-kitab" (Kitabdan bir qədər elm verilən şəxs)* kimi vəsf edilən və Süleyman (əleyhis-salam)-ın vəsisi Asəf ibni Bərxiyaya gəldikdə isə, onun barəsində Tövratda Bəni-İsrail tərəfindən yalançılıqla müttəhim olunmaqdan başqa bir şey gözə dəymir. Orada deyilir: "Küfr və bütpərəstlik Yərbəam ardıcılları arasında aşkar bir iş idi. O, qızıldan iki dana düzəltdi, birini Qüdsdə, digərini isə Dan adlı yerdə qoydu, hər birinin yanında da bir qurbangah tə'yin edərək onlara dedi: "Bu, sizi Misirdən Şəkimə göndərən Tanrınızdır. Buna əsasən, onların qarşısında qurban kəsin və Yerusəlimə getməyin". Millət də onun istəyini qəbul etdi."[1]

Danaya pərəstiş etməkdən əlavə, Yərbəam onlara digər ilahələrə pərəstiş etməyə, seydunilərin ilahəsi olan Əştəruta, müabilərin ilahəsi olan Kəmuşa və əmmunilərin ilahəsi olan Məkluma pərəstiş etmək barədə fərman verdi."[2]

"İlk hakimlərin xəbərləri" kitabının dediyinə əsasən, 3 ildən sonra Yəhuda ölkəsi həmin aqibətə düçar oldu və oranın əhalisi bütlərə pərəstiş etməyə başladılar.[3]

Misir fir'onu Şişəq bu fürsəti qənimət sayaraq miladdan qabaq 926-cı ildə Yərbəama kömək etmək və yəhuda dövlətini, həzrət Süleyman (əleyhis-salam)-ın oğlu Rəhəbəam və onun tərəfdarlarını məhv etmək üçün Qüdsə hücum etdi, Allah evinin xəzinələrini ələ keçirtdi, onların qərargahlarını dağıtdı, hətta Süleyman (əleyhis-salam)-ın düzəltdiyi qızıl qalxanları belə özü ilə apardı".[4]

Şişəqin geri çəkilməsindən sonra bu kiçik ölkə öz varlığını az müddətdə qoruyub saxlaya bildi. Yərbəamla aparılan müharibələr yenə də davam edirdi. Aramilər iki dövlətin zəifləməsindən istifadə etdilər, Yəhuda ölkəsinə hücum etməklə onların başçılarını əsarətə aldılar və onları öz paytaxtlarına – Dəməşqə gətirdilər, habelə onlar üçün cizyə

---

[1] "Hakimlərin 1-ci kitabı", 12-ci bab, səh.26-33
[2] "Hakimlərin 1-ci kitabı", 12-ci bab, səh.31, 2-ci kitabı, 11-ci bab, səh.13-15 və 13-cü bab, səh.9
[3] "Hakimlərin kitabı", 14-cü bab, səh.21-24, İkinci kitab, 11-ci bab, səh.13-17 və 12-ci bab
[4] "Hakimlərin birinci kitabı", 14-cü bab, səh.25-26

tə'yin etdilər. Bu hadisə Arami ibni Hudun hakimiyyəti dövründə (miladdan qabaq 879-843-cü illərdə) baş vermişdir.[1] Bundan sonra Axab ibni Ovmərinin padşahlıq dövründə (miladdan qabaq 874-853-cü illər) Yərbəam ölkəsinə cizyə və himayə tə'yin olunmuşdur.

Həmçinin Tövratda Yəhvəramın hakimiyyəti dövründə fələstinlilərin ərəblərlə və Yəhuda ölkəsi ilə apardıqları müharibədən söz açılır. Belə ki, onlar Qüdsü işğal etdikdən sonra hakimin qəsrində mövcud olan mal-dövləti ələ keçirib, övladlarını və qadınlarını əsarətə aldılar.[2]

Başqa yerdə deyilir: Arami ordusu Beytül-müqəddəsdə müharibəyə başladı və onların başçılarının hamısını həlak etdi, bütün xəzinələri ələ keçirdi və Arami padşahı Həzailə təqdim etdi.[3] İsrailin rəhbəri olan Yuaş, Yəhuda ölkəsinə hücum etdi, bütün qızıl-gümüşü və Allahın evində mövcud olan qızıl qabları, həmçinin sultanın xəzinəsini qarət etdi.[4] Onların arasında baş verən bu çəkişmələr və qonşu ölkələrin onlara hakim kəsilməsi aşurilərin işğalçılıqlarına qədər davam etdi.

## AŞURİLƏRİN İSTİLAÇILIQ DÖVRÜ

Aşurilərin yəhudilərə hakim kəsilməsi, miladdan qabaq 859-824-cü illərdə onların rəhbəri üçüncü Şəlmən-nəsrin hücumu ilə baş verdi. O, aramilərin ölkəsinə və İsrailin sərhədlərinə hücum etdi, bütün məntəqə əvvəlcə onun, sonra isə aşurilərin rəhbərliyi altına keçdi. Belə nəzərə çarpır ki, Yəhuda ölkəsi İsrailin əksinə olaraq aşurilərin rəhbərliyi altında idi. Çünki Tövratın nəql etdiyinə görə, oranın hakimi Ahaz ibni Yusam, aşurların rəhbəri Təğlis Təlasərdən istədi ki, İsrailə və aramilərə hücum etsin. Onun bu istəyi qəbul olundu və miladdan qabaq 732-ci ildə hücuma keçdilər. Onun canişini 5-ci Şəlmən-Nəsr də onun yolunu davam etdirdi, amma Şəkimin (Nablosun) mühasirəyə alındığı zaman dünyadan getdi. Onun canişini ikinci Sərcun Samirənin işğal olunmasını sona çatdırıb oranı tamamilə dağıtdı və İsrail əleyhinə hücumda (yəhudilərin vasitəsi ilə icra olunurdu) vətəndən qovma tədbirində aşurilərə kömək etdi. Təğlis Təlasər yəhudiləri əsir tutub öz ölkəsinə apardı və aşuriləri onların yerinə qoydu.[5] Daha sonra sultan Fəqəh bu tədbiri sona çatdırdı: Mənsinin nəvələrindən yarısından çoxu-

---

[1] "Hakimlərin ikinci kitabı", 13-cü bab, səh.3-13
[2] "Hakimlərin ikinci kitabı", 21-ci bab, səh.16-17
[3] "Hakimlərin 2-ci kitabı", 24-cü bab, səh.3, 12-ci bab, səh.17-18
[4] Yenə də orada, 14-cü bab, səh.11-14, 25-ci bab, səh.21-24
[5] "Hakimlərin ikinci kitabı", 15-ci bab, səh.29

nu və başqalarını əsarətə aldı.[1] İkinci Sərcun otuz min nəfərə qədər adamı Hərrana, Xabur sahillərinə və Midiyaya dağıtdı və aramiləri onların yerinə qoydu.[2]

Həzqiyanın hakimiyyəti dövründə (o, zahirdə misirlilərlə əlaqə yaratmaq istəyirdi) Yəhud ölkəsi aşurilərin itaət dairəsindən çıxdı. Nəticədə aşuri hakimi Sənharib qəzəbləndi və miladdan qabaq təqribən 701-ci ildə yəhuda ölkəsini özünə itaət etdirmək məqsədi ilə və aşurilərin son hücumu ilə məntəqəni öz istilası altına aldı və Qüdsü ələ keçirtdi. "Həzqiya Allah evindəki bütün gümüşləri və hakimin qəsrindəki bütün xəzinələri müsadirə edib getdi."[3]

Mövcud Tövratda, yuxarıda qeyd etdiyimiz kimi, Aşur sultanlarından əlavə onların son hakimləri olan Əsər Həddun və Aşur Banibaldan söhbət açılır. Orada deyilir ki, bu iki şəxs aşurilərdən bir qövmü köçürdərək Samirrada yerləşdirdilər.[4]

## BABİLLİLƏRİN HAKİMİYYƏT DÖVRÜ

Aşurilərin paytaxtı olan Neynəva miladdan qabaq 612-ci ildə Madların və babillilərin (kəldanilərin) əli ilə süqut etdi və oranı öz aralarında bölüşdürdülər: İraq, Şam və Fələstin babillilərin payına düşdü və onların ən məşhur hakimi Büxtün-Nəsr oldu. O, Şam və Fələstin əhalisini itaətə vadar etmək üçün iki dəfə hücum etdi: birincisi miladdan qabaq 597-ci ildə, digəri isə 586-cı ildə. İlk hücumda Qüdsü mühasirəyə alıb oranı fəth etdi, hakimin qəsrində olan xəzinəni öz ixtiyarına keçirtdi. Yəhudilərdən çoxunu, o cümlədən, Sultan Yəhuyakini müdafiəçiləri ilə birlikdə əsarətə aldı. Yəhuyakinin əmisi Sidiqyanı sağ qalan yəhudilərə başçı tə'yin etdi, əsirləri Babildəki Xabur çayının yaxınlığında Minbur məntəqəsində yerləşdirdi.[5]

İkinci hücum – Büxtün-Nəsrlə Misrin fir'onu Xufranın arasında baş verdi. Fir'on Şam və Fələstin hakimlərinin təhriki ilə Qüdsün hakimi Siddiqyanı babillilərin əleyhinə hücumda özü ilə həmpeyman etdi, onlar da qəbul etdilər və həmin istiqamətdə hücuma keçdilər. Amma Büxtün-Nəsr yenidən sür'ətlə hücuma keçdi ki, bu da misirlilərin məğlubiyyəti və Şamın ələ keçirilməsi ilə sona çatdı. O, mə'bədi dağıtdıqdan sonra onu yandırdı, oranın xəzinələrini qarət etdi, yəhudi

---

[1] "Günlərin xəbərləri", 5-ci bab, səh.29
[2] "Hakimlərin ikinci kitabı", 17-ci bab, səh.5, 6, 18
[3] "Hakimlərin xəbərləri" kitabı, 18-ci bab, səh.13-15
[4] "Əzra" kitabı, 4-cü bab, səh.10
[5] "Hakimlərin xəbərləri"nin 2-ci kitabı, 24-cü bab, səh.1-6

böyüklərinin evlərini də eyni vəziyyətə saldı, onlardan 50 min nəfərini əsir tutdu, Sidiqyanın övladlarının başını kəsib gözlərini çıxartdı, onun özünü də zəncirə çəkərək əsir apardı. Beləliklə, əhudi ölkəsinin varlığına son qoyuldu.[1]

## İRANLILARIN İSTİLAÇILIQ DÖVR

İran şahı Kuroş Babili işğal etdi və miladdan qabaq 539-cu ildə oranın hökumətinə son qoydu və Şama və Fələstinə hücum edərək oranı fəth etdi. Babildə yaşayan Büxtün-Nəsr və yəhudi əsirlərinin Qüdsə qayıtmasına icazə verdi, Süleyman (əleyhis-salam) mə'bədinin xəzinələrini onlara qaytardı, mə'bədi tə'mir etmələrinə icazə verdi, sonra Zir Babili oranın hakimi tə'yin etdi.[2] O, mə'bədi tə'mir etməyə başladı. Amma qonşu məntəqələrin əhalisi bu işdən çox qorxuya düşərək, Kuroşun canişini Kəmbuciyəyə şikayət etdilər. O, mə'bədin tikilişinin qarşısının alınmasına dair qərar çıxartdı. Sonra 1-ci Dara onun tikilişinə icazə verdi və 515-ci ildə mə'bədi tə'mir edib başa çatdırdılar.[3]

İranlılar miladdan qabaq 539-331 illərə qədər yəhudiləri istila altında saxladılar. Bu müddət ərzində Kuroş, Kəmbuciya, 1-ci Daryuş (Dara), Xəşayarşa və Üzeyr (əleyhis-salam)-ın müasiri olan Ərdəşir hökmranlıq etmişdilər. Onlardan sonra da iranlı hakimlərdən 2-ci Daryuş 2-ci Ərdəşir və 3-cü Ərdəşir hakimiyyətdə oldular. Sonuncu iranlı hakim 3-cü Daryuş Makedoniyalı İsgəndər tərəfindən qətlə e  di. Hazırkı Tövratda, yuxarıda qeyd olunan hakimlərdən əlavə heç bir şəxs barədə mə'lumat verilmir.

## YUNANLARIN İSTİLAÇILIQ DÖVR

Makedoniyalı İsgəndər Misrə, Şama və Fələstinə oşun eridib o məntəqələri fəth etdi. Onun qarşısında müqavimət göstərən iranlı havadarları və yerli qüdrətləri məhv etdi və Qüdsə daxil olaraq oranı tamamilə öz hakimiyyəti altına keçirtdi. Sonra İraqın şimalındakı Ərbildə apardığı ağır müharibədə 3-cü Daryuşun rəhbərliyinə son qo du və onun ordusunu məhv etdi. Bundan sonra işğalçılığı da am etdirərək, əvvəlcə İranı, sonra da sair məntəqələri öz ixtiyarına keçirtdi. Bununla da yəhudilər 331-ci ildə yunanların hakimiyyəti altına düşdülər.

İsgəndər dünyadan gedəndən sonra onun sərkərdələrinin arasında

---

[1] "Hakimlərin 2-ci kitabı", 24-cü bab, səh.1 . 20 və 25, Xəbərlərin 2-ci kitabı, 36-cı bab. səh.11-21, "İrmiya" kitabı, 39-cu bab, səh.1-4.

[2] "Əzra" kitabı, 6-cı bab, səh.3-7, 1-ci bab, səh. -11

[3] "Əzra" kitabı, 6-cı bab, səh.1-15

böyük imperatorluğu ələ keçirməklə əlaqədar çəkişmələr yarandı. İyirmi il davam edən bu çəkişmələrdən sonra Bətalisə (Bətləmyusa mənsub olanlar) Misirdə hökumətin əksər hissələrini öz ixtiyarına keçirtdi və səlukilər (Səluka mənsub olanlar) Suriyada və başqa yerlərdə hökmranlıq etdilər.

Beləliklə Qüds b.e.ə. 312-ci ildə bətləmyusların hakimiyyəti altına keçdi. 3-cü Səluki hakimi İntyikus b.e.ə 198-ci ildə Qüdsü onların ixtiyarından çıxartdı, sonra bətləmyuslar bir daha Qüdsə qələbə çaldılar və miladdan qabaq, 64-cü ildə Romanın fəth olunduğu vaxta qədər orada qaldılar.

Hazırkı Tövratda bətləmyuslardan altı nəfəri, həmçinin səlukilərdən beş nəfəri – 1, 2, 3, 4, 5-ci Antyikus adı ilə qeyd olunur: *Onların beşincisi miladdan qabaq 175-163-cü illərdə Qüdsə qoşun yeritmiş və mə'bədin bütün qiymətli əşyalarını qarət etmişdir. İki ildən sonra Qüdsə ağır zərbə endirmiş və ondakı hər bir şeyi qarət edərək evlərini və divarlarını uçurub-dağıtmış, qadınları və uşaqları əsarətə almış, özünün Zefs (Zevs) adlı heykəlini mə'bədə qoymuş və yəhudiləri ona pərəstiş etməyə çağırmışdır ki, onlardan çoxu bu də'vəti qəbul etmişdilər. Halbuki, Məkabi yəhudilərinin miladdan qabaq 168-ci ildəki qiyamları nəticəsində onların bə'ziləri mağaralarda özlərinə sığınacaq seçmişdilər.*[1]

Yəhudilərin iftixar etdiyi inqilab yəhud ayininə inananların bütpərəst yunanlara qarşı apardığı müharibəyə oxşar idi və müxtəlif zamanlarda məhdud qələbələr qazanmış idilər ki, bu da romalıların istilaçılıq yürüşlərinə qədər davam etmişdir.

### - ROMALILARIN İSTİLAÇILIQ DÖVRÜ

Roma hakimi Bumbi b.e.ə 64-cü ildə Suriyanı işğal edərək onu Roma imperatorluğuna, 62-ci ildə isə Qüdsü işğal edərək onu Suriyanın Romaya tabe olan hissəsinə qatmışdır. Matta İncilində belə qeyd olunur: *"Miladdan qabaq 39-cu ildə Roma qeysəri Aqest Hirodis Adumini yəhudilərə rəhbər tə'yin etdi. O da mə'bədin üzərində böyük və gözəl bir bina tikdi, miladdan qabaq 4-cü ildə vəfat etdi."*[2]

İncillərdə qeyd olunur ki, onun oğlu 2-ci Hirodis b.e.ə. 4-cü ildən miladın 39-cu ilinə qədər hakimiyyətdə olmuşdur. Həzrəti Məsih (əleyhis-salam)

---

[1] Məkabilər kitabı, bab 1, səh.41-53
[2] Matta İncili, səh.2

da onun dövründə dünyaya gəlmişdir. Yəhya ibni Zəkəriyya (əleyhiman-salam)-ı da qətlə yetirən, onun kəsik başını qızıl tabağa qoyub Bəni-İsrail qövmünün bədəməl ünsürlərindən biri olan Salumenin yanına göndərən də məhz o olmuşdur.[1]

İncillər və tarix yazanlar Neronun dövründə (miladın 54-68-ci illərində) Qüdsdə və Fələstində baş verən iğtişaşlardan, həmçinin yəhudilərlə romalılar, eləcə də yəhudilərin öz aralarında baş verən çəkişmələrdən xəbər verirlər. Belə ki, Roma qeysəri Fəsbisyan 70-ci miladi ilində öz oğlu Titusu məntəqəyə hakim tə'yin edir və Qüds üzərinə yürüşə başlayır. Bu zaman oranın yəhudiləri tə'til e'lan etdilər, nəhayət, yeməkləri və azuqələri qurtardı və zəiflədilər, Titus şəhərin divarını uçurub oraya daxil oldu və milyonlarla yəhudini qətlə yetirdikdən sonra onların evlərini dağıtdı və mə'bədi yandırdı. Sonra sağ qalanları əsir tutub Romaya apardı.

Məs'udi "Əttənbihu vəl-işraf" kitabında yazır: Bu həmlədə qətlə yetirilən yəhudi və məsihilərin sayı 3 milyona çatır ki, zahirən bu rəqəm mübaliğə üçün deyilmişdir. Bu hadisələrdən sonra romalılar yəhudilərlə daha da qəddarcasına rəftar etdilər. Bunun da ən kəskin həddi o vaxt idi ki, Konstantin və ondan sonrakı padşahlar öz e'tiqadi ayinlərini məsihiyyət əsasında qurub, yəhudiləri əzab-əziyyətə və işgəncəyə mə'ruz qoyurdular. Buna görə də yəhudilər Peyğəmbəri Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in dövründə – 620-ci ildə Xosrov Pərvizin Şama, Fələstinə hücum etməsindən və romalılar üzərində qələbə çalmasından sevinirdilər. Hicaz yəhudiləri də bu müharibələrin gedişindən sevinir, onların müsəlmanlara qələbə çalmasını arzu edirdilər. Bu zaman aşağıdakı ayə nazil oldu: "*Əlif, Lam, Mim. Roma yerin ən yaxın yerində məğlub oldu. Onlar məğlub olduqdan sonra tezliklə – bir neçə il ərzində qalib gələcəklər. Əvvəldə də, axırda da əmr Allaha məxsusdur. O gün iman gətirənlər Allahın köməyi ilə şad olarlar. O hər kəsə istəsə, kömək edər. Qalib və mehriban da məhz Odur*".[2]

Tarixçilərin dediyinə əsasən, iranlılar romalılara qələbə çaldıqdan sonra yəhudilər 90 min məsihi əsirini pulla onlardan alaraq hamısının başını kəsdilər. Bir neçə ildən sonra Herakliyus iranlılara qələbə çaldıqda yəhudiləri cəzalandırdı. Qüdsdə qalan yəhudilərin hamısını qovdu və məsihilərin nəzərində bu şəhər yəhudilərə qadağan edildi.

---

[1] Marqus İncili, 6-cı fəsil, səh.16-28
[2] "Rum" surəsi, 1-5 ayələr.

Buna görə də Ömər ibni Xəttabla şərt etdilər ki, heç bir yəhudi orada qalmasın. Ömər də onlara müsbət cavab verdi və bu mətləbi onlar üçün bir sülh əhdnaməsində yazdı.[1] Bu da 638-ci ildə, yə'ni hicrətin 17-ci ilində baş vermişdi ki, artıq bu zaman Qüds və Fələstin Böyük İslam xilafətinin bir hissəsi hesab olunurdu. Bu hakimiyyət 1324-cü h.q (=1925) ilə qədər – yə'ni Osmanlı xilafətinin qərblilər tərəfindən məğlub edildiyi vaxta qədər davam etdi.

Yəhudilərin qeyd etdiyimiz bu qısa tarixi, eləcə də yəhudilərlə əlaqədar "İsra" surəsinin və sair Qur'an ayələrinin təfsirləri bizim üçün çox şeyi aydınlaşdırır. Bu ayələrdə və Allah-taalanın buyurduğu *"Siz yer üzündə iki dəfə fəsad törədəcəksiniz"* cümləsində məqsəd budur ki, onlar bir dəfə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in be'sətindən qabaq, bir dəfə də ondan sonra yer üzündə fitnə-fəsad törədəcəklər. Bu da yəhudilərin tarixində onların təxribatçılıq fəaliyyətləri ilə əlaqədar ən münasib bölgüdən ibarətdir.

Ayədəki *"Öz tərəfimizdən olan, güclü iradəyə malik bəndələrimizi sizin əleyhinizə qaldırarıq"* kəlməsində məqsəd müsəlmanlardır. Çünki Allah-taala İslamın əvvəllərində bizi onlara qalib etmişdi. O zaman müsəlmanlar onların evlərində onları bir-bir axtarmış, sonra Məscidül-Əqsaya daxil olmuşdular. Müsəlmanların İslamdan bir qədər aralandıqları zaman yəhudilərin bizim əleyhimizə olan qüdrətləri, mal-dövlət və övladları artdı. Bundan sonra Allah-taala ikinci dəfə olaraq həzrət Məhdi (ərvahuna fidah)-ın hökumətinə zəmin yaradanların hərəkətində müsəlmanları onlara qalib edəcəkdir. Tarix boyu müsəlmanlardan başqa elə bir qövm tapmaq olmaz ki, Allah onları yəhudilərə qalib etmiş olsun, sonra yəhudilərin qüdrətini bir daha onlara qaytarsın.

Amma yəhudilərin dünyanın başqa millətlərinə qarşı üstünlük iddiaları barəsində verilən və'dələr yalnız bir dəfə olub və bu, ikinci dəfə təkrarlanmayacaqdır. Onların başqalarına üstünlük qazanmaq hissləri ikinci dəfəki təxribatçılıq əməlləri ilə eyni zamanda, yaxud onun nəticəsində olacaqdır. Biz onların bu xislətlərini – ikinci dünya müharibəsindən sonrakı dövr istisna olmaqla – yəhudi tarixinin heç bir yerində müşahidə etməmişik.

Hal-hazırda yəhudilər özlərinin təxribatçılıq və başqalarına üstünlük iddialarının ikinci mərhələsini yaşayırlar, biz də Allah tərəfindən bizə əta olunacaq bir hakimiyyətin, onların iyrənc sifətlərinin

---

[1] "Tarixi Təbəri", 3-cü cild, səh.105

rüsvay olma mərhələsinin müqəddiməsini yaşayırıq. Allah-taala müsəlmanlara haqq və qələbə inayət etdikdə, biz İmam Məhdi (ərvahuna fidah)-ın zühurundan qabaq, yaxud o həzrətlə eyni zamanda Məscidül-Əqsaya daxil olarıq. Necə ki, əvvəlki dəfə bizim ata-babalarımız oraya daxil olmuşdular. Bununla da onların dünyada üstünlük iddiaları məhv olub aradan gedəcəkdir.

Allah-taalanın buyurduğu *"Əgər qayıtsanız və tövbə etsəniz, Biz də qayıdarıq. Biz cəhənnəmi kafirlər üçün bir zindan qərar vermişik"* - sözünə gəldikdə isə, bu göstərir ki, yəhudilərdən çoxu İsrail dövləti dağıdıldıqdan sonra sağ qalacaqlar, İslamı qəbul etməyənlər həzrət Məhdi (əleyhis-salam)-ın qüdrətli əlləri ilə ərəb ölkələrindən qovulacaqlar, rəvayətlərin bəyanı ilə desək, onlar yenidən təxribatçılıq fəaliyyətlərinə əl atacaqlar. Bu da Dəccalın hərəkatı zamanı baş verəcək və həzrət Məhdi (əccələllahu təala fərəcəhuş şərif) müsəlmanlarla birlikdə onların həyatına son qoyacaqlar. Allah-taala cəhənnəmi onlardan öldürülənlər üçün bir zindan qərar verəcək, müsəlmanlar onların tör-töküntülərini tutub həbs etməklə dünya miqyaslı təxribatçılıqlarına son qoyacaqlar.

**ƏRƏBLƏR VƏ ONLARIN ZÜHUR ƏSRİNDƏ İFA ETDİKLƏRİ ROL**

İmam Məhdi (ərvahuna fidah)-ın zühuru dövründə ərəblərin vəziyyəti və onlara hakim olacaq şəxslər barəsində çoxlu rəvayətlər nəql olunmuşdur. O cümlədən, Yəməndə Məhdi (əleyhis-salam)-ın zühuruna şərait yaradanlarla əlaqədar rəvayətdir ki, ümumi şəkildə onun (Yəməninin) tə'rifində çoxlu rəvayətlər qeyd olunmuşdur. Biz onları ayrıca şəkildə bəyan edəcəyik.

O cümlədən, misirlilərin qiyamını qeyd edən rəvayətlərdə həmin qiyamçıları tə'rifləmişdir. Bə'zi rəvayətlərdə buyurulur ki, İmam Məhdi (ərvahuna fidah)-ın köməkçilərindən və müavinlərindən bə'ziləri misirli olacaqdır. Bə'zi rəvayətlərdə də deyilir ki, Misir həzrət Məhdi (əleyhis-salam)-ın minbəri ünvanını ifa edəcəkdir, yə'ni o həzrətin dünya səviyyəli təbliğat və təfəkkürünün mərkəzi olacaqdır. Bə'zi rəvayətlərdə o həzrətin Misirə daxil olub minbərdə çıxış etməsindən söhbət açılır. Buna görə də mümkündür ki, misirlilərin hərəkatı həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna zəmin yaradanların və o həzrətin zühurunda iştirak edənlərin sırasında qeyd olunsun ki, bunlara da ayrılıqda işarə edəcəyik.

Bə'zi rəvayətlər də "İraqda mövcud olan qruplar", "Oranın həqiqi mö'minləri" ilə əlaqədardır ki, onları "həzrət Məhdi (ərvahuna fidah)-ın köməkçiləri" fəslində qeyd edəcəyik.

Bu rəvayətlərin bə'ziləri Məğrib ölkəsinə mənsub olanlarla əlaqə-

qalmış əşyalarla birlikdə həzrət Məhdi (ərvahuna fidah)-ın yanında qorunub saxlanır. O Qur'anın hazırkı Qur'anla heç bir fərqi yoxdur hətta bir hərf belə, artırılıb-azaldılmamışdır. Onun yeganə fərqi surə və ayələrin tərtibidir ki, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in imlası və Əli (əleyhis-salam)-ın əl xətti ilə yazılmışdır. Qur'anın – hər iki mə'nanı nəzərə almaqla – yeni olması da (həm surə və ayələrin tərtibi, həm də Qur'anda unudulmuş olan göstərişlər üzrə) nəzərdə tutula bilər.

Əbdüllah ibni Əbi Yə'fur deyir: İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim: *"Vay olsun ərəb inadkarlarına, yaxın olan bir şərdən ki, onları bürüyər!"* Soruşdum: *"Sənə fəda olum, həzrət Qaim (ərvahuna fidah)-lə ərəblərdən nə qədər adam olacaq?"* Buyurdu: *"Çox az."* Soruşdum: *"Allaha and olsun, bu əmri (zühuru) vəsf edənlər onlardan daha çoxdur."* Buyurdu: *"Əlbəttə, camaat imtahan olunmalıdır və bir-birindən ayrılmalı, xəlbirdən keçirilməlidir. Çoxları imtahan xəlbirindən xaric olur".*[1]

Bə'zi rəvayətlərdə zühur əsrində ərəblər arasında yaranacaq ixtilaflardan söhbət açılır və deyilir ki, bu, onların bə'zilərinin arasında müharibəyə gətirib çıxaracaqdır. İmam Baqir (əleyhis-salam)-dan belə nəql olunur: *"Qaim (əleyhis-salam) yalnız o zaman qiyam edər ki, şiddətli qorxu, fitnə və bəla insanları bürüsün və ondan əvvəl tauna düçar olsunlar. Bundan sonra ərəblərin arasında iti qılınc hakim olar. Camaatın arasında ixtilaf, dində pərakəndəlik və onların vəziyyətində tam başqa cür vəziyyət yaranar. Belə ki, hər kəs camaatın bir-birinə qarşı yırtıcılıq xüsusiyyətlərini müşahidə etməklə səhər-axşam ölüm arzusu edər".*[2]

Bə'zi rəvayətlərdə ərəblərin öz əqidə və dəyərlərindən ayrı düşmələrindən, hər bir təfəkkür sahibinin öz nəzər və rə'yini bir vasitə qərar verib başqalarını öz təfəkkürünə doğru çağırmasından söhbət gedir.

Bə'zi rəvayətlər də ərəblərlə əcəmlər, yə'ni ərəblərlə iranlılar arasında, yaxud İran-Ərəb başçıları arasında yaranan və zühur əsrinə qədər davam edəcək ixtilafdan söhbət açır.

Həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna şərait yaradanların hərəkatı, o həzrətin qara bayraqlı köməkçiləri, onların qüvvələrinin Qüdsə doğru irəliləmələri, Süfyaninin onların yolunu bağlamaq məqsədilə apardığı qatı düşmənçilik hərəkətləri və s. İlə əlaqədar mövcud rəvayətləri mülahizə etdikdə belə nəticə alınır ki, Ərəb hakimləri arasında qara

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.214
[2] "Biharul-ənvar", 52-ci cild, səh.231

qalmış əşyalarla birlikdə həzrət Məhdi (ərvahuna fidah)-ın yanında qorunub saxlanır. O Qur'anın hazırkı Qur'anla heç bir fərqi yoxdur hətta bir hərf belə, artırılıb-azaldılmamışdır. Onun yeganə fərqi surə və ayələrin tərtibidir ki, Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in imlası və Əli (əleyhis-salam)-ın əl xətti ilə yazılmışdır. Qur'anın – hər iki mə'nanı nəzərə almaqla – yeni olması da (həm surə və ayələrin tərtibi, həm də Qur'anda unudulmuş olan göstərişlər üzrə) nəzərdə tutula bilər.

Əbdüllah ibni Əbi Yə'fur deyir: İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim: *"Vay olsun ərəb inadkarlarına, yaxın olan bir şərdən ki, onları bürüyər!"* Soruşdum: *"Sənə fəda olum, həzrət Qaim (ərvahuna fidah)-lə ərəblərdən nə qədər adam olacaq?"* Buyurdu: *"Çox az."* Soruşdum: *"Allaha and olsun, bu əmri (zühuru) vəsf edənlər onlardan daha çoxdur."* Buyurdu: *"Əlbəttə, camaat imtahan olunmalıdır və bir-birindən ayrılmalı, xəlbirdən keçirilməlidir. Çoxları imtahan xəlbirindən xaric olur"*.[1]

Bə'zi rəvayətlərdə zühur əsrində ərəblər arasında yaranacaq ixtilaflardan söhbət açılır və deyilir ki, bu, onların bə'zilərinin arasında müharibəyə gətirib çıxaracaqdır. İmam Baqir (əleyhis-salam)-dan belə nəql olunur: *"Qaim (əleyhis-salam) yalnız o zaman qiyam edər ki, şiddətli qorxu, fitnə və bəla insanları bürüsün və ondan əvvəl tauna düçar olsunlar. Bundan sonra ərəblərin arasında iti qılınc hakim olar. Camaatın arasında ixtilaf, dində pərakəndəlik və onların vəziyyətində tam başqa cür vəziyyət yaranar. Belə ki, hər kəs camaatın bir-birinə qarşı yırtıcılıq xüsusiyyətlərini müşahidə etməklə səhər-axşam ölüm arzusu edər"*.[2]

Bə'zi rəvayətlərdə ərəblərin öz əqidə və dəyərlərindən ayrı düşmələrindən, hər bir təfəkkür sahibinin öz nəzər və rə'yini bir vasitə qərar verib başqalarını öz təfəkkürünə doğru çağırmasından söhbət gedir.

Bə'zi rəvayətlər də ərəblərlə əcəmlər, yə'ni ərəblərlə iranlılar arasında, yaxud İran-Ərəb başçıları arasında yaranan və zühur əsrinə qədər davam edəcək ixtilafdan söhbət açır.

Həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna şərait yaradanların hərəkatı, o həzrətin qara bayraqlı köməkçiləri, onların qüvvələrinin Qüdsə doğru irəliləmələri, Süfyaninin onların yolunu bağlamaq məqsədilə apardığı qatı düşmənçilik hərəkətləri və s. İlə əlaqədar mövcud rəvayətləri mülahizə etdikdə belə nəticə alınır ki, Ərəb hakimləri arasında qara

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.214
[2] "Biharul-ənvar", 52-ci cild, səh.231

bayraqlı köməkçilərin ziddinə ümumi bir fəza yaranacaqdır. Bundan yalnız Yəməndəki hərəkat istisna olunur ki, bu da həzrət Məhdi (ərvahuna fidah)-ın hökumətinə zəmin yaradanlardandır.

Rəvayətlərdən bir qismi də həzrət Məhdi (əleyhis-salam)-ın ərəblərlə aparacağı müharibələrlə əlaqədardır. O həzrət Məkkəni azad etdikdən sonra Hicaz rejiminin tör-töküntüləri ilə müharibə aparacaq ki, bu, Mədinənin azad olunmasından sonra baş verəcək ən ağır müharibədir. Bundan sonra o həzrətin İraqda və Fələstində Süfyani ilə apardığı müharibələri qeyd etmək olar. Bu rəvayətlərdə qeyd olunur ki, o həzrət İraqdakı müxalifləri ilə mübarizə aparıb, yetmiş qəbilənin qanını mübah (hədər) e'lan edəcək. (İraqda və Şamda baş verən bu hadisələr sonradan qeyd olunacaq.) İmam Sadiq (əleyhis-salam) buyurur: *"Qaim zühur edən zaman onunla ərəblər və Qüreyş arasında qılıncdan başqa heç bir şey hakim olmayacaqdır."*[1]

Rəvayətlərdən bə'zilərində zühur əlaməti kimi, Ərəbistan yarımadasında, Şamda, Bağdadda, Babildə və Bəsrədə yerin batması, zəlzələlərin baş verməsi, Hicazın özündə, yaxud onun şərqində yaranıb yeddi gün davam edən atəşin yaranması qeyd olunur.

## ŞAM DİYARI VƏ SÜFYANİNİN HƏRƏKATI

Şam ölkəsi və onun ətraf nahiyələri İslam tarixi mənbələrində və hədislərdə hazırkı Suriya və Livana (Şamın səhralarına və Livanın dağlarına) aid edilir. Eləcə də bə'zən İordaniyaya, bə'zən də Fələstinə aid edilir. (Baxmayaraq ki, əksər hallarda bu məntəqələrin hamısına Şam və Fələstin deyilir.) Həmin dövrdə Şam dedikdə, paytaxtı Dəməşq olan ölkə nəzərdə tutulurdu.

Zühur əsrində Şam və onun şəxsiyyətləri ilə əlaqədar rəvayət olduqca çoxdur. Bu rəvayətlərin əsas mehvəri Süfyaninin hərəkatıdır. O, Şamı öz istilası altına alacaqdır. Süfyaninin orduları Məhdi (ərvahuna fidah)-ın zühurunun yaxın vaxtlarında özünəməxsus rol ifa edəcəkdir. O, Şamda öz düşmənlərinə qələbə çaldıqdan sonra Qirqisiyada ruslarla, sonra isə İraqda o həzrətin hökumətinə zəmin yaradanlarla müharibəyə başlayacaq və Məhdi (əleyhis-salam)-ın qiyamını yatırtmaq üçün öz qüvvələrini Hicaz başçısının köməyinə çatdırmağa çalışacaqdır. Amma və'dəsi verilən mö'cüzə – yerin batması – Məkkənin yaxınlıqlarında baş verəcəkdir.

Süfyaninin apardığı ən böyük müharibə Fələstini ələ keçirmək üçün və həzrət Məhdi (ərvahuna fidah)-ın əleyhinə apardığı müharibədir. Bu müharibədə

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.355

yəhudilər və rumlular Süfyaniyə kömək edəcəklər. Bu hadisə də Süfyani ordusunun məğlub olub özünün qətlə yetirilməsi və həzrət Məhdi (ərvahuna fidah)-ın onlara tam qələbə çalıb Fələstini azad etməsi, sonra isə Beytül-müqəddəsə daxil olması ilə sona çatacaqdır. İndi bu hadisələri əlavə izahla şərh edirik.

**SÜFYANİNİN QİYAMINDAN QABAQ BAŞ VERƏÇƏK ŞAM HADİSƏLƏRİ**

Zühurla əlaqədar olan və Süfyani hərəkatından başlayaraq onun Fələstin və Qüds uğrunda apardığı mübarizədə məğlubiyyətinə qədər dəlalət edən hədisləri silsiləvi şəkildə araşdırmaq nisbətən asan bir işdir. Bunun əksinə olaraq, Süfyanidən qabaq baş verən hadisələri tənzim etmək çox çətindir. Çünki onun hədisləri əksər hallarda ixtisarla bəyan olunmuşdur və rəvayətlərdə hadisələrin qabağa-dala keçməsi müşahidə olunur. Amma onların hamısının nəticələri ümumi şəkildə aşağıdakı ardıcıllıqladır:

1-Müsəlmanların hamısını əhatə edəcək fitnənin yaranması, qəŕblilərin və rusların onlara hakim kəsilməsi;

2-Şama məxsus olan fitnənin yaranması; bu da onların arasında dərin çəkişmələrə, ixtilaflara və nəticədə zəifləmələrinə səbəb olacaqdır;

3-Şamda iki hegemon dövlətin (qüvvələri) arasında çəkişmənin baş verməsi;

4-Dəməşqdə zəlzələnin baş verməsi; onun nəticəsində şəhər məscidinin qərb tərəfi və onun bə'zi nahiyələri dağılıb aradan gedəcək;

5-İran və ərəb qüvvələrinin Şama daxil olması;

6-Şam ölkəsinə hakim kəsilmək üçün üç başçının – Əbqə, Əshəb və Süfyaninin bir-birilə çəkişməsi, Süfyaninin o ikisinə qələbə çalması, Suriya-İordaniyaya istila tapması və məntəqənin bütünlükdə onun hakimiyyəti altında olması.

Bu rəvayətlər Süfyani hərəkatından qabaqkı hadisələri – rumlularla (qərblilər) və rusların çarpışması, öz qüvvələrini məntəqəyə göndərməsi, Misirdə inqilabçıların qiyamı, qərb qüvvələrinin Misrə daxil olması, Şeybaninin İraqda və başqa yerlərdə qiyamı və s.-ni bəyan edir.

Və'dəsi verilən yəmənli kişinin zahir olması barəsindəki rəvayətlərdə qeyd olunur ki, o, Süfyaninin qiyamı ilə eyni zamanda, yaxud ona yaxın vaxtlarda zahir olacaqdır. Amma iranlılardan ibarət olan qara bayraqlılara gəldikdə isə, onlar zühura ilk müqəddimə hazırlayanlardır ki, Süfyaninin hərəkatından azacıq əvvəl zahir olacaq, Şamdakı hadisələrdə iştirak edəcəklər. Bunların rəhbəri Xorasanlı Seyyid, hərbi qüvvələ-

rinin sərkərdəsi isə Şüeyb ibni Saleh olacaqdır ki, hər ikisi barəsində hədislərdə və'də verilmişdir. Bə'zi rəvayətlərdə deyilir ki, o ikisi Süfyaninin qiyamına yaxın vaxtlarda, bə'zi rəvayətlərdə isə Süfyanidən beş il qabaq zahir olacaqdır ki, Allahın izni ilə, tezliklə bəhs olunacaqdır.

**ÜMUMİ FİTNƏ VƏ ŞAMIN FİTNƏSİ**

Rəvayətlərdə Şama məxsus olan və Süfyaninin xürucundan qabaq baş verəcək bir fitnədən söhbət açılır ki, bu, qərb-şərq fitnəsindən əlavə olan bir fitnədir ki, müsəlmanlar düçar olacaqlar. (Yuxarıda onun barəsində söhbət açdıq.) Daha güclü ehtimala əsasən, qeyd olunan fitnə, əvvəlki ümumi fitnəyə birləşəcək, yaxud onun nəticəsi olacaqdır ki, bə'zən onlara aid olan rəvayətlərdə və ya ravilərin tərcümeyi-halında bu fitnələr bir-birinə qarışmış şəkildə gözə dəyir.

Şam fitnəsində ən bariz şey hökumətin zəifləməsinə və şamlıların düşmən müqabilində müqavimət göstərə bilməməsinə səbəb olan daxili ixtilaflar və çəkişmələrdir. Onlar ölkəni idarə etməkdən belə, aciz olacaqlar. Əli (əleyhis-salam) onu Qur'anda qeyd olunan "hizblərin ixtilafı fitnəsi" adlandırmışdır. Çünki o həzrətdən *"camatdan bir çoxu (İsa barəsində) ixtilaf etdilər. Vay olsun bu kafir camaata, o böyük günün qorxusundan!"*[1] ayəsi barəsində soruşulduqda, buyurdu: *"Üç nişanədən sonra fərəcin intizarında olun"*. Soruşdular ki, ya Əmirəl-mö'minin, onlar hansılardır? Buyurdu: *"Şam əhlinin öz aralarında ixtilaf etməsi, Xorasandan qara bayraqlıların gəlməsi və Ramazan ayında göydən fəryad səsinin eşidilməsi"*. Sual olundu ki, Ramazan ayında göydən eşidilən fəryad nədir? Buyurdu: *"Məgər Allah-taalanın "Əgər istəsək, onlara asimandan bir nişanə nazil edərik, belə ki, hamısı onun müqabilində təslim olarlar" – deyə buyurduğunu eşitməmisiniz?! ("Şüəra", 4) Bu ayədə deyilən bu nişanə cavan qızları pərdə arxasından çıxarar, yatanları oyadar, oyaqları vəhşətə salar.*"[2]

Əlbəttə, zühur nişanələrindən ikisi baş vermişdir: Biri Şam əhli arasında ixtilafın yaranması, digəri isə Xorasanda qara bayraqlıların zahir olması. Amma Əli (əleyhis-salam) Şam əhlinin ixtilafa düşməsi, qara bayraqlıların zahir olması ilə Ramazan ayında göydən fəryadın baş verməsi arasındakı zamanı buyurmamışdır. Bunun uzun illərdən sonra baş verməsi də mümkündür.

Bir rəvayətdə qeyd olunur ki, zühur ilində asimandan bir fəryad,

---

[1] "Məryəm" surəsi, ayə: 37

[2] "Biharul-ənvar", 52-ci cild, səh.229

yaxud nida, yaxud dəhşətli səs eşidilər, ondan sonra məhərrəm ayında o həzrət zühur edər. Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-in belə buyurduğu nəql olunur: *"Məhdinin zühurundan qabaq bir fitnə baş verəcək və camaatı çox şiddətli mühasirədə saxlayacaqdır. Olmaya Şam əhlinə nalayiq sözlər deyəsiniz! Çünki həqiqi mö'minlər o diyardan olacaqdır, hətta onların zalımlarını da lə'nətləməyin, qarğış etməyin. Allah tezliklə asimandan qəza-qədər nazil edər və bu da onları pərakəndə halına salar. Belə ki, əgər tülkülər onlarla qarşılaşsa, onlara qələbə çalar. Bu zaman Məhdini sayı 12 minlə 15 min arasında olan adamla qiyam etdirər ki, onların nişanələri "öldür, öldür" kəlmələridir. Üç qrupun bayrağı vardır ki, yeddi bayraq tərəfdarları onlarla mübarizə edər. Elə bir bayraqdar yoxdur ki, hökumət və rəyasət tamahında olmasın. Bundan sonra Məhdi zühur edər, mehribanlıq, dostluq və İlahi ne'mətləri müsəlmanlara qaytarar"*[1]

Başqa bir rəvayətdə deyilir: *"Allah şamlılara bir kəsi göndərər, onların cəmiyyətini pərakəndə vəziyyətə salar, hətta əgər tülkülər onlarla qarşılaşsa onlara qələbə çalar. Bu zaman mənim xanədanımdan olan bir kişi üç qrup bayraqdarla zühur edər."*[2]

Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-dən nəql olunan hədislərdəki "əbdal" həqiqi mö'minlər mə'nasınadır. (Onun əşrhi "həzrət Məhdi (əleyhis-salam)-ın səhabələri" bölməsində qeyd olunacaqdır.)

Bir rəvayətdə isə "qəza və qədər" kəlməsinin yerinə "səbəb" kəlməsi qeyd olunur, yə'ni Allah bir kəsi şamlılara göndərər ki, onların cəmiyyətlərini pərakəndə vəziyyətə salsın və insanları onların əleyhinə qaldırsın ki, bu da onların təfriqəyə düşməsinə, öz aralarında çarpışma yaranmasına səbəb olar.

"Öldür, öldür!", yaxud "ey Allah tərəfindən kömək olunan" cümlələri həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərindən bə'zilərinin hərbi şüarıdır. "Üç qrup bayraqdar" ifadəsində məqsəd budur ki, həzrət Məhdi (ərvahuna fidah)-ın köməkçiləri üç dəstədən ibarətdir və yeddi bayraq tərəfdarları o həzrət və onun köməkçiləri ilə müharibə aparmaq üçün müttəhid olacaqlar. Onların hər biri rəyasətə göz dikdiklərindən, onların öz aralarında da ixtilaf yaranacaqdır. Amma bu ixtilaf onların hamısının başçısının Süfyani olmasına maneçilik törətməyəcəkdir, çünki İraq, Hicaza hərbi hücumlar, ordularının arasında baş verən məğlubiyyətlər onun

[1] "Bişarətül-İslam", səh.183
[2] "İbni Həmmadın əlyazması", səh.92

hökumətini tez bir zamanda zəiflədəcəkdir. Bu da onların həzrət Məhdi (əleyhis-salam) ilə müharibə aparmağa məşğul olduğu bir zamanda onun müxalifləri və tamahkar köməkçilərinin qüdrətə çatması üçün münasib bir fürsət yaradacaqdır.

Başqa rəvayətlərdə qərbin Şam ölkələrini iqtisadi mühasirəyə alması və namə'lum vaxta qədər ərzaq qıtlığından söhbət açılır. Təbiidir ki, bu böhran xarici və daxili fitnələrlə yanaşı olacaq və qərblilərin əlində müsəlmanları təzyiqə mə'ruz qoymaq üçün bir vasitə sayılacaqdır.

Rəvayətlərin bə'zilərində deyilir: Zühur ilində aclıq və susuzluq özünün son həddinə çatacaqdır. Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-dən belə rəvayət olunur: *"Çox çəkməz ki, Şam əhalisinin yanında dinar və peymanələr tapılmaz."* Soruşuldu ki, bunun mənşəyi (səbəbi) haradandır? Buyurdu: *"Romalıların tərəfindəndir.* (Bir az sükut etdikdən sonra buyurdu:) *Axirəz-Zamanda bir xəlifə gələcəkdir ki, camaata bir az mal-dövlət verəcək və onu hesaba almayacaqdır."*[1]

Bu iqtisadi mühasirənin və ərzaq qıtlığının səbəbi romalılar, yə'ni qərb ölkələridir. Cabir Co'fi nəql edir ki, İmam Baqir (əleyhis-salam) Allah-taalanın buyurduğu: *"Həqiqətən Biz sizi hökmən qorxu, aclıq kimi şeylərlə imtahan edərik"* ayəsi barəsində soruşduq, həzrət buyurdu: *"Aclıq iki cürdür: Ümumi və xüsusi. Xüsusi aclıq Kufədə olacaq ki, Allah-taala onu Ali-Mühəmməd (əleyhimus-salam)-in düşmənlərinə məxsus etmişdir və onları bu vasitə ilə həlak edəcəkdir. Ümumi aclıq isə Şamda baş verəcəkdir, o da elə bir qorxu və aclıqdır ki, o vaxta qədər heç vaxt ona düçar olmamışlar. Aclıq o həzrətin qiyamından qabaq, qorxu, vəhşət və iztirab isə onun qiyamından sonra baş verəcəkdir."*[2]

İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"Qaimin zühurundan əvvəl hökmən elə bir il gələcəkdir ki, camaat o ildə qəhətliyə, şiddətli qorxuya düçar olacaqlar. Bu da onların öldürülməsindən, mal-dövlətin qıtlığından, canların və səmərələrin azlığından irəli gələcəkdir." Bu mətləb Qur'anda aydın şəkildə görünür.* (Sonra bu ayəni tilavət etdi:) *"Həqiqətən Biz sizi qorxu, aclıq, mal-dövlətin və canın, səmərələrin azalması ilə imtahan edəcəyik. Səbir edənlərə müjdə ver."*[3]

Bu təzyiq və çətinliklərin zühur ilində baş verməsi ilə bu vəziyyətin zühurdan əvvəl bir müddət davam etməsi və sonra da zühur ilində

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.92
[2] "Biharul-ənvar", 52-ci cild, səh.229
[3] "Biharul-ənvar", 52-ci cild, səh.229.

şiddətlənməsi arasında heç bir ziddiyyət yoxdur.

Amma rəvayətlərdə bu fitnənin Şamda uzun müddət davam edəcəyi qeyd edilmişdir. Hər vaxt "artıq tamam olub" deyilərsə, yenə də uzanar. "*Ondan qaçmaq istəyərlər, lakin qaçmağa yol tapmazlar.*"[1]

Rəvayətlərdə bu fitnə "qərbi-şərqi fitnə" kimi vəsf edilmiş və deyilmişdir ki, "*ərəblərin və müsəlmanların hər birinin evinə daxil olacaqdır. Onu hər tərəfdən islah etsələr, başqa tərəfdən xarab olacaq, başqa bir tərəfdən qiyam və fitnə qalxacaqdır.*"[2]

Bunlar qeyd olunan fitnənin – böyük fitnənin səmərələri xaricdən olana qədər, təbii xüsusiyyətləridir. Hətta əvvəldə İbni Həmmadın əlyazmasında qeyd etdiyimiz kimi, bə'zi rəvayətlərdə o, "Fələstin fitnəsi" adlandırılır.

Bə'zi rəvayətlərdə bu fitnənin müddəti 12 və 18 il tə'yin edilmişdir. Bəlkə də bu müddət onun bütün müddəti ilə deyil, onun axırıncı mərhələsinin müddəti ilə əlaqədardır. Ümidvarıq ki, bu, Livandakı daxili müharibənin son dövrünə aid olsun.

Səid inbi Müseyyibdən belə bir rəvayət nəql olunur: "*Şam diyarında bir fitnə əmələ gələr ki, onun əvvəli uşaq oyunu kimidir. Ondan sonra işləri heç vaxt – asimandan bir nida gəlincəyə qədər sahmana düşməz və heç bir qüvvəyə malik olmazlar. "Siz hökmən filankəsə üz gətirin", həmin halda bir əl çıxar və işarə edər.*"[3]

Asimandan gələn bu səsdə həzrət Məhdi (ərvahuna fidah)-ın adı çəkilir. Sanki asimandan çıxan bir əl kimi işarə edər ki, bu da zühurun əlamətlərindən biridir. Başqa bir rəvayətdə Peyğəmbər (səllallahu ələyhi və alihi və səlləm) buyurur: "*Dördüncü fitnə 18 il davam edəcək, vaxtında da sona çatacaqdır. Fərat çayından qızıl dağ çölə çıxar, camaat ona elə hücum edərlər ki, hər doqquz nəfərdən yeddisi həlak olar.*"[4]

Tezliklə Fərat çayı hövzəsində yerləşən xəzinə ilə əlaqədar söhbət edəcəyik.

## DƏMƏŞQ VƏ ONUN ƏTRAFINDA BAŞ VERƏN ZƏLZƏLƏLƏR

Bu zəlzələnin olacağını çoxlu rəvayətlər göstərir. Onun baş verəcəyi yerlər və vuracağı xəsarətlər, hətta onun vaxtı belə qərb ordularının daxil olmasından qabaq tə'yin edilmişdir. Bə'zi rəvayətlərdən mə'lum

[1] "Biharul-ənvar", 52-ci cild, səh.298
[2] "İbni Həmmadın əlyazması", səh.9-10
[3] Yenə orada, səh.93
[4] Yenə orada, səh.92

olur ki, Dəməşqdə zəlzələ olan zaman qərb qüvvələri həmin yerdə olacaqlar. Həmçinin hədislərdə bu zəlzələ Ər-rəcfə vəl-xüsuf vəl-zəlzələh (yerin şiddətli silkələnməsi, günəşin batması və zəlzələnin baş verməsi) adlandırılır. İmam Baqir Əli (əleyhiməs-salam)-dan nəqlən belə buyurur: *"Şamda iki hərbi qrup ixtilaf edən zaman, İlahi nişanələrdən biri aşkar olar."* Soruşdular: "Ya Əmirəl-mö'minin! O nişanə nədir?" Buyurdu: *"Şamda (güclü) bir zəlzələ baş verər və nəticədə yüz min nəfər həlak olar. Allah-taala bunu mö'minlər üçün bir rəhmət, kafirlər üçünsə bir əzab qərar verər. O zaman gəlib çatanda ağ at və sarı bayraq sahiblərini gözləyin ki, onlar məğrib tərəfdən gəlib Şama daxil olarlar və bu zaman uca fəryad, üzücü taqətsizlik və qırmızı ölüm gəlib çatar. Bu vəziyyət yaranan zaman baxın görün Dəməşqin kəndlərindən birinin yerə batmasını ki, ona Hərşa (başqa bir nüsxədə Xərişa) deyilir. Bu zaman ciyər yeyən Hindin oğlu Süfyani biyabandan xüruc edər və Dəməşqin minbərinə çıxar. Bu vurhavurda Məhdinin zühurunun intizarında olun."*[1]

Ehtimal üzrə, bu və digər rəvayətlərdə qeyd olunan zəlzələ Dəməşqin yerə batmasından başqadır. Mümkündür ki, yerin iki dəfə batması arasında uzun müddət, yaxud qısa müddət fasilə olsun. Amma bu zəlzələnin mö'minlərə rəhmət, kafirlərə isə əzab olmasına gəldikdə isə, onun səbəbi bu ola bilər ki, kafirlərin və onların tərəfdarlarının evlərinə ağır xəsarətlər dəyər, amma müstəz'əf mö'minlərə yox; yaxud belə ola bilər ki, bu zəlzələdən sonra mö'minlərin xeyrinə siyasi dəyişikliklər baş vermiş olsun.

Digər rəvayətlərdə isə iki məkanın adı deyilir ki, onlar da yerə batacaq: Hərəsta və Cabiyə. Belə nəzərə çarpır ki, bu rəvayətdəki "Hərəsta" kəlməsində səhvə yol verilmişdir. (Belə ki, bu qərb qüvvələri ilə əlaqədar rəvayətlərdə də qeyd olunacaqdır.) Dəməşq məscidinin qərb divarı uçurdulacaqdır.

"Ağ atlar" dedikdə məqsəd, qərblilərin, qulaqları kəsilmiş minik vasitələri olan Əbləq atlarıdır. "Ciyər yeyənin oğlu dedikdə məqsəd, Əbu Süfyanın arvadı Hindin övladlarıdır. Çünki Süfyani, Müaviyənin nəslindəndir. Bir rəvayətdə Süfyaninin qiyam etdiyi yer "Vadiyi Yabis" ( quru səhra) qeyd olunur ki, bu da Suriya-İordaniya sərhədində yerləşən "Əzrüatın" (Dir'anın) yaxınlığındakı Hövranda yerləşir.

[1] "Biharul-ənvar", 52-ci cild, səh.253

**İRAN ORDUSUNUN VƏ MƏĞRİBLİLƏRİN ŞAMA DAXİL OLMASI**

Qərb qoşunlarının Şama daxil olmasını bəyan edən rəvayətlərdən aydın olur ki, bu iş iki qrup arasındakı ağır çarpışmaların ardınca baş verəcəkdir. O cümlədən: *"Şamda iki hərbi qrup ixtilaf edən zaman İlahi nişanələrdən biri aşkar olar.* Soruşdular: Ya Əmirəl-mö'minin, o nişanə nədir? Buyurdu: "*Şamda bir zəlzələ olacaq və onun nəticəsində yüz min nəfər öləcəkdir. Allah-taala bunu mö'minlər üçün bir rəhmət, kafirlər üçün bir əzab qərar verəcəkdir. Bu zaman gəlib çatdıqda, ağ atlara minən, yaşıl bayraqlara malik olan süvarilərə baxın ki, məğrib tərəfdən gəlib Şama daxil olarlar."*

İbni Həmmad, Əbu Səhabdan rəvayət edir ki, o, Hüşamın dövründə (Əbdül-məlikin oğlu) belə deyir: "Süfyanini yalnız o zaman görəcəksiniz ki, məğriblilər sizin yanınıza gəlsinlər. Hər zaman onun xüruc edib Dəməşqin minbərinə çıxdığını görsəniz, çox keçməz ki, Məğrib əhlini də görərsiniz."[1]

Bu kimi rəvayətlərdən mə'lum olur ki, Məğrib qüvvələrinin Şama daxil olmasının Süfyaninin qiyamından əvvəl baş verməsi tabein ravilərinin nəzərində məşhur bir məsələ idi.

Bu rəvayətdə "əhli məğrib", yaxud Məğrib dedikdə məqsəd, İslam dövlətinin qərb hissəsində yerləşən Liviya, Tunis, Əlcəzair və Məğribi (Mərakeşi) əhatə edir və qərb dövlətlərinin, yaxud təklikdə Məğrib dövlətinin qüvvələri nəzərdə tutulmur. Müddəamızın dəlili budur ki, Məğrib qüvvələri bə'zi rəvayətlərdə "bər-bər" ordusu və "bərbər" adlandırılmışdır.

Digər bir rəvayətdə o qüvvələrin gəlişinin əvvəli müəyyənləşdirilir və deyilir ki, bu, zəlzələlər və yerin batması ilə yanaşı olacaqdır. İbni Həmmad, Məhəmməd Hənəfiyyənin belə dediyini nəql edir: *"Məğrib qoşunlarının ilk dəstəsi Dəməşq məscidinə daxil olacaq və çox qəribə mənzərələrə tamaşa edəcəklər. Bu zaman gözlənilmədən Dəməşq məscidinin qərb hissəsi uçacaq, "Hərəsta" adlı abadlıqlar yerə batacaq. Məhz bu zaman Süfyani xüruc edəcəkdir."*[2]

Amma "bu qüvvələr nə üçün gələcək və onların ifa etdikləri rol nədir?" - sualına gəldikdə isə, ehtimal üzrə onlar Şam əhalisinə xarici düşmənlər müqabilində, yə'ni yəhudilər və qərblilər əleyhinə vuruşmaq, yaxud da Şamın daxilində münaqişə tərəflərinə kömək etmək

---

[1] "İbni Həmmadın əlyazması", səh.76.
[2] "İbni Həmmadın əlyazması", səh.72.

üçün hazır olacaqlar. Amma bə'zi rəvayətlərdən belə mə'lum olur ki, onlar həzrət Məhdi (ərvahəna fidah)-ın zühuruna zəmin yaradan xorasanlı qüvvələrlə qarşılaşmaq üçün oraya gələcəklər. Bütün rəvayətlərə əsasən qara bayraqlıların əsas hədəfləri Qüds olduğuna görə onlarla müxalif olan Məğrib qüvvələrinin gəlişi onların öz hədəflərinə çatmasına mane olmaq məqsədini güdür, xüsusilə bunu da nəzərə alaq ki, bə'zi rəvayətlər bu iki qrup arasında Qənitərədə çarpışma baş verməsindən söhbət açır. (Qənitərə hal-hazırda Suriyada işğal olunmuş həmin şəhərdir.)

İbni Həmmad Zühərinin belə dediyini nəql edir: *"Qara bayraqlılar Qənitərədə sarı bayraqlıların köməkçiləri (yə'ni məğriblilər) ilə döyüşəcək, nəhayət Fələstinə daxil olacaqlar. Bu zaman Süfyani məşriq (şərq) əhlinin əleyhinə qiyam edəcək. Qərblilər İordaniyaya qoşun yeritdikləri zaman onların sərkərdəsi öləcək və üç qrupa ayrılacaqlar: Onların bir qrupu öz yerlərinə qayıdacaq, bir qrupu həcc əməllərini yerinə yetirəcək və bir qrupu da öz yerində qalacaqdır. Süfyani onlarla müharibəyə başlayıb onları məğlub və özünə itaət etməyə vadar edəcəkdir."*[1]

Bu mürsəl[2] rəvayət tabeinlərdən olan bir nəfərdən rəvayət olunur və göstərir ki, Şamda daxili çarpışmalar və fitnələr iranlı qüvvələrə icazə verəcəkdir ki, yəhudilərlə mübarizə aparmaq üçün məntəqəyə müdaxilə etsinlər. Bu zaman rumlular və başqaları Məğrib qüvvələrini onlarla qarşılaşmaq üçün təhrik edəcəklər. (Bu müharibənin Qənitərədə baş verəcəyi qeyd olunur.) Nəhayət, iranlılar Fələstinə daxil olacaq və müxalifləri məğlub etdikdən azacıq sonra İordaniyada düşərgə salan Məğrib qüvvələrini də məhv edəcəklər. Həmin dövrdə Məğrib, yaxud qərb qüvvələrini öz ölkəsinə gətirən İordaniya hakimi öləcək və onların fəaliyyətləri zəifləməyə başlayacaqdır. Bu zaman Süfyani yerdə qalanları öz itaətinə keçirəcəkdir. Rəvayətlərin bə'zilərində də işarə olunur ki, iranlı qüvvələr Süfyaninin xürucundan sonra Şamdan geriyə çəkiləcəklər.

Oxucuların nəzərinə çatdırırıq ki, Məğrib orduları və qara bayraqlılarla əlaqədar nəql olunan rəvayətlər Məğribi Fatimilərin və qara bayraqlı Abbasilərin hərəkatlarını göstərən rəvayətlərlə, rumlularla əlaqədar olan rəvayətlər də onların son səlib yürüşləri və icad etdikləri

---

[1] "İbni Həmmadın əlyazması"

[2] Mürsəl – o rəvayətə deyilir ki, ravi onu İmamdan nəql etmişdir, lakin onu birbaşa görməmişdir. Əgər vasitə ilə olsa da, onu unutmuşdur. Misal üçün, "Filan sözü Peyğəmbər Œ buyurmuşdur." Yaxud da "bizim səhabələrimizdən bir nəfər belə rəvayət edir" - deyir.

iğtişaşlarını göstərən rəvayətlərlə qarışmışdır. Zühurdan qabaqkı hərəkatlarla zühur zamanında baş verən hərəkatların arasında belə fərq qoymaq olar ki, rəvayətlərdə bu hadisənin Süfyaninin xürucu və həzrət Məhdi (əleyhis-salam)-ın zühuru ilə əlaqəsi bir yerdə qeyd edilmiş, bizim istinad etdiyimiz rəvayətlər, yaxud zühur dövrü ilə əlaqədar olan digər hadisə və əlamətlər, eləcə də onda tə'sir qoyan qüvvələrin hərəkatı qeyd olunmuşdur.

Buna görə də zühur hədisləri arasında rəvayətlərin böyük bir qismi, Məğribdə Fatimilərin hərəkatı, yaxud qara bayraqlara malik olan Abbasilərin hərəkatı, yaxud da romalıların səlib yürüşləri arasında mövcuddur. Zühur dövründə bu kimi hərəkatların varlığına dəlalət edən əlamət və rəvayətlər mövcud olduğu halda, o hədisi zühur əsrində onların hərəkatlarının inkarı üçün dəlil gətirmək səhih deyildir.

**HAKİMİYYƏT UĞRUNDA ƏSHƏB VƏ ƏBQƏ ARASINDA ÇƏKİŞMƏLƏR**

İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"O ildə Məğrib nahiyələrindəki bütün ölkələrdə çoxlu ixtilaf yaranacaqdır. Viran olan ilk yer Şamdır. Üç bayrağa malik olanların havadarları – Əshəbin tərəfdarları, Əbqənin ordusu və Süfyani ordusu arasında ixtilaf yaranacaqdır."*[1]

Ehtimal üzrə sərkərdə Əbqənin (Əbqə – üzündə ağ və qara nöqtələr olan şəxs deməkdir) Şama hökmranlıq etmək üçün öz rəqibi Əshəbdən (yə'ni sarı üzlüdən) daha artıq səlahiyyəti vardır. Çünki rəvayətlərdə qeyd olunur ki, Əshəbin qiyamı mərkəzdən kənarda baş verəcək və Əbqəyə qələbə çalmaq istədiyi zaman məğlubiyyətlə qarşılaşacaq. Halbuki Əbqə qüdrətli, yaxud inqilabçıdır və müəyyən qədər qələbə əldə edəcəkdir. Əshəb də onunla rəqabətə girib xaricdən hücum edəcəkdir, amma heç biri digərinə qəti surətdə qələbə çala bilməyəcəkdir. Süfyani də bu fürsətdən istifadə edərək xaricdən paytaxta yürüş edəcək və onların hər ikisini məhv edəcəkdir. Ehtimal üzrə Əshəb müsəlman deyildir, çünki bə'zi rəvayətlərdə o, adətən kafirlərin sifəti olan İlc vəsfi ilə qeyd edilmişdir.

Əsl mənbələrdə, o cümlədən "Qeybəti Nö'mani" kitabında onun adı Süfyaninin rəqibi olan bir sərkərdə kimi Əbqə qeyd olunur. Amma Əbqə ilə Əshəbin siyasi nəzərlərinə gəldikdə isə, rəvayətlərdə hər ikisi məzəmmət olunmuş və İslamla müxalif olan, İslam düşmənlərinin havadarları və kafirlərin tərəfdarı sayılmışlar. Sonrakı rəvayətdən

---

[1] "Biharul-ənvar", 50-ci cild, səh.212.

mə'lum olur ki, Əshəb rusların tərəfdarıdır: *"Bu zaman o kafir Əshəb də qiyam edər, paytaxtda qalmaq onun üçün çətin olar. Çox keçmədən öldürülər. Bu zaman ruslar oraya hakim kəsilərlər.*[1]

Bu rəvayətin düzgün olduğu təqdirdə qərbin tərəfdarı olan Əbqənin zəifliyi nəticəsində ruslar qısa müddətdə nüfuz edər və onlara qələbə çalarlar. Bu zaman qərblilər və yəhudilər özlərinin sair ölkələrə olan hakimiyyətlərini yenidən əldə etmək üçün Süfyani ilə müqavilə bağlayar, bu barədə sonradan deyiləcək tədbirlər tökərlər.

Deməli, Şamda iki qoşunun çarpışması dedikdə, məqsəd iki sərkərdənin, yə'ni rumlularla (qərblilərlə) rusların nümayəndələri arasında baş verən çarpışmadır ki, məntəqəni ələ keçirmək üçün şiddətlə rəqabət aparacaq, öz qüvvələrini oraya göndərəcəklər, bu da müharibə ilə nəticələnəcəkdir. Həmin rəvayətdə İmam Baqir (əleyhis-salam) Cabir Co'fiyə belə buyurdu: *"Sənin üçün bəyan edəcəyim əlamətləri müşahidə edincəyə qədər daim öz yerində ol və qiyam etmə: "Filankəsin sülaləsi" arasında ixtilaf, asimandan nida edən səs." Bu səs Dəməşq nahiyəsindən eşidiləcək və Məhdinin zühurunu müjdə verəcəkdir; Şam abadlıqlarından bə'zilərinin yerə batması – ora "Cabiyə" adlandırılır; ruslar Cəzirəyə üz gətirər, Rum xəvaricləri Rəmlədə yerləşərlər. O ildə dünyanın hər bir nöqtəsi qərb tərəfdən çarpışmalara və ixtilaflara düçar olar. Məhv olacaq ilk ölkə Şamdır. Üç ordu – Əshəb, Əbqə və Süfyaninin orduları arasında ixtilaf yaranacaqdır."*

"Filankəsin sülaləsi arasında ixtilaf və çəkişmənin yaranması" dedikdə, "zühur hərəkatı" bölməsində agah olacağınız kimi, həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan əvvəl Hicaza hakim olan sülalənin üzvləri arasında baş verən ixtilaflar nəzərdə tutulur. Dəməşq nahiyəsindən gələn səs-sədalar göydən eşidiləcək həmin fəryaddır ki, camaat Şam, yaxud qərbdən gəldiyini güman edəcəklər. Yaxud İraq əhalisi üçün beləcə cilvələnəcəkdir. Çünki o həzrətin (İmam Baqir (əleyhis-salam)-ın) Cabir Co'fi ilə olan söhbəti belədir: *"O (asimani) səs Dəməşq tərəfindən eşidiləcəkdir."*

Əbqə və Əshəb arasında bu yerə hakim kəsilməklə əlaqədar baş verən çəkişmələr, eləcə də Şamda Süfyaninin, qərblilərin və İran qoşunlarının hazır olması ilə əlaqədar olan rəvayətləri araşdırdıqda, aydın olur ki, bu hadisələrin hamısı hegemon qüdrətlərin əmməlləri, onların özləri arasında və onların tərəfindən tə'yin olunan hakimlər arasında

---

[1] "İlzamun-nasib", 1-ci cild, səh.204.

baş verən ixtilaflardır və İslam ümmətinin onların qarşısındakı müqaviməti ilə sıx əlaqədardır.

İndi Şamda bir-biri ilə ixtilafa düşən ilk qrupla əlaqədar olaraq bə'zi rəvayətləri qeyd edəcəyik. O qruplar aşağıdakılardan ibarətdir:

Həsəni ordusu, Əməvi ordusu və Qeysin qoşunları. Süfyani gəlib onları məhv edəcəkdir. “Biharul-ənvar”da İmam Sadiq (ələyhis-salam)-dan belə nəql olunur: *“Ey Südeyr! Evinə döşənmiş kilim kimi, həmişə evində otur, gecə-gündüz kimi xatircəm ol. Süfyani xüruc etdikdə, hətta piyada olsa belə, bizə tərəf köç et”*. Soruşdum: Sənə fəda olum, ondan əvvəl bir şey varmı? Buyurdu: “Bəli! (Öz əlinin üç barmağı ilə Şama işarə edərək buyurdu:) *“Şamda üç bayraq (ordu) – Həsəni, Əməvi və Qeys ordusu bir yerə toplaşacaq, bir-birləri ilə ixtilafda olacaqlar. Bu zaman Süfyani xüruc edib onları taxıl sahəsi kimi biçəcəkdir. Mən heç vaxt bunun oxşarını görməmişəm!”*

Bu rəvayətin düzgünlüyünü qəbul etmək çox çətindir. Çünki bu üç qrupu tə'yin olunaraq Əbqə, Əshəb və Süfyani ilə əlaqədar olduğunu deyən rəvayətlərlə ziddiyyətdədir. Bundan əlavə, mərhum Kuleyni “Kafi” kitabında (8-ci cild, səh.264) bu rəvayəti yalnız “hətta piyada olsa da belə” yerinə qədər qeyd etmişdir. Ehtimal verilir ki, onun yuxarıda qeyd olunan əlavə hissəsi bə'zi ravilər tərəfindən təfsirdir ki, rəvayətin özü ilə qarışdırılmışdır.

Onun düzgünlüyünü qəbul etsək, onda gərək Həsəni bayrağı ilə Hüseyni bayrağı səhv düşmüş olsun ki, bu da qara bayraqlı xorasanlılardan ibarətdir. Əvvəldə qeyd olunduğu kimi onların qüvvələri Şamda məğribli qüvvələrlə birlikdə olacaqdır. Əməvilərin bayrağı elə Əshəbin bayrağı, Qeysin bayrağı isə Əbqənin bayrağıdır ki, çoxlu rəvayətlərdə onun Misirlə olan əlaqəsi bəyan edilmişdir. Hətta onların bə'ziləri göstərir ki, o, öz hərəkatını Misirdən başlayacaq, yaxud Misir əhalisindən və Qeys qəbiləsindən olacaqdır. Bə'zi rəvayətlərdə deyilir ki, Süfyani Misrə hakim olacaqdır. Allah daha yaxşı bilir.

Digər bir rəvayətdə isə belə deyilir: *“Bəni-Haşimdən olan bir kişi hakim olacaq, Bəni-Üməyyəni qətlə yetirəcək, onlardan az qrup istisna olmaqla, bir kəs sağ qalmayacaqdır. Onlardan başqa heç kəsi öldürməyəcəkdir. Bundan sonra Bəni-Üməyyədən bir kişi xüruc edərək hər nəfərin müqabilində iki nəfəri qətlə yetirəcək, qadınlardan başqa heç kəsi sağ qoymayacaqdır. Bu zaman Məhdi (ələyhis-salam) zühur edəcəkdir.*[1]

---

[1] “İbni Həmmadın əlyazması”, səh.75.

Bu rəvayət Süfyanidən qabaq hakimiyyətdə olan Haşimi şəxsin hakimiyyətinin hüdudlarını aydınlaşdırmır, onun Hicaz və ya İran olduğunu bəyan etmir. Əgər bu hökumətin hədd-hüdudu Şam hesab edilsə, onda Əbqədən qabaq olmalıdır. Çünki rəvayətlərdə qeyd olunur ki, Süfyani onunla Əshəbin əleyhinə qiyam edib hər ikisini qətlə yetirəcəkdir. Hədislərdə onların hər biri Əhli-beyt (əleyhimus-salam) düşmənlərindən və şiələrin müxalifindən hesab edilmişdir.

## SÜFYANİNİN HƏRƏKATI

Həzrət Məhdi (əleyhis-salam)-ın hərəkatında məşhur şəxs olan Süfyani o həzrətin düşmənlərindən olub onunla qarşılaşacaqdır, hərçənd ki, İmam (əleyhis-salam) həqiqətdə Süfyanini himayə edən kafir qüvvələrlə qarşılaşır. Rəvayətlərdə aşkar qeyd olunur ki, Süfyaninin qiyam etməsi Allahın qəti və'dələrindəndir. İmam Zeynül-abidin (əleyhis-salam) buyurmuşdur: *"Həm Qaimin işi, həm də Süfyaninin məsələsi Allah tərəfindən qəti və labüd bir işdir. Qaim (əleyhis-salam) yalnız Süfyaninin gəlişindən sonra zühur edəcəkdir."*[1]

Süfyani barədə olan rəvayətlərin bə'ziləri icmali təvatür, bə'ziləri isə ləfzi təvatür həddinə çatmışdır.[2] İndi biz onun necə insan olması və necə hərəkata başlaması barədə müəyyən mətləbləri deyəcək, sonra isə onun xəbərlərini rəvayətlərdə qeyd olunan ardıcıllıqla bəyan edəcəyik.

## SÜFYANİNİN TƏRCÜMEYİ-HALI

İslam alimləri arasında belə bir yekdil nəzər vardır ki, onun Süfyani adlandırılmasının səbəbi Əbu Süfyanın nəslindən olmasıdır. Eləcə də "ciyər yeyən arvadın" övladlarından sayılması da Əbu Süfyanın arvadı Hində mənsub edilməsinə görədir. (Belə ki, həzrət Həmzə (əleyhis-salam) "Ühüd" müharibəsində şəhid olduqdan sonra onun ciyərini çıxardıb çeynəməklə öz qəzəb odunu söndürmüşdü.) Əli (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Ciyər yeyən Hindin övladı Yabis vadisindən (quru dərədən) xüruc edər. Onun dörd nişanəsi var və zahiri çox xoşagəlməzdir. Yekə başı vardır, üzündə alaca (xora) xəstəliyinin izləri aydın sezilir. Onu gördükdə elə təsəvvür edərsən ki, bir gözü vardır. Adı Osman, atası Üyeynədir (bə'zi nüsxələrdə Ənbəsədir.) O, Əbu Süfyanın nəslindəndir*

---

[1] "Biharul-ənvar", 53-cü cild, səh.182.

[2] "Ləfzi-təvatür" şəriət hökmlərində çoxdur. O cümlədən, vacib namaz, onun rük'ətlərinin sayı, oruc, həcc və s. kimi.

*ki, səfalı və gözəl təbiətə malik olan Qərar və Muin diyarına daxil olaraq minbərə çıxacaqdır."*[1]

Şiələrin arasında məşhur məsələdir ki, o, Əbu Süfyanın oğlu Ənbəsənin övladlarındandır. Ola bilsin buna görə də Üyeynə adlandırılıb ki, Üyeynə kəlməsi rəvayətlərdə Ənbəsə kəlməsinə oxşamışdır. Şeyx Tusinin nəql etdiyi bir rəvayətdə, o, Əbu Süfyanın oğlu Ütbənin övladlarından hesab edilir.[2] Əbu Süfyanın beş oğlu vardı: Ütbə, Müaviyə, Yezid, Ənbəsə və Hənzələ. Lakin Əli (əleyhis-salam)-ın Müaviyəyə yazdığı məktubların birində qeyd olunur ki, Süfyani Müaviyənin övladlarından olacaqdır: *"Ey Müaviyə! Sənin övladlarından biri – bədəxlaq, məl'un, yelbeyin, zalım, qəlbi əksinə çevrilmiş, (həddindən artıq) tələbkar və qəzəblidir. Allah rəhmət və mehribançılığı onun qəlbindən çıxarmışdır. Onun dayıları it kimi qan içirlər. Sanki elə bu dəqiqə görürəm – əgər istəsəydim, onun adını deyər, vəsf edər və neçə yaşı olduğunu deyərdim. O, Mədinəyə bir ordu göndərəcəkdir. Onlar Mədinəyə daxil olub (həddindən artıq qəddarlıqla) kütləvi qırğın törədəcək, yaramaz işlərə əl atacaqlar. Bu halda pak və pərhizkar insanlar onlardan qaçar, sonra bir nəfər yer üzünü, zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə doldurar. Mən onun adını bilirəm. Bunu da bilirəm ki, o gündə onun neçə yaşı olacaq və əlamətləri hansıdır."*

İmam Baqir (əleyhis-salam) buyurur: *"O, Əbu Süfyanın oğlu Yezidin oğlu Xalidin övladlarındandır."*[3]

Ola bilsin ki, onun babası, Əbu Süfyanın oğlu Müaviyənin nəslindən olan Ənbəsənin, yaxud Ütbənin, yaxud Üyeynənin, yaxud da Yezidin övladlarındandır ki, bu halda mövcud yanlışlıq aradan qalxar.

Sünnü alimlərinin nəzərində məşhur bir fikir vardır ki, onun adı Əbdüllahdır. "İbni Həmmadın əlyazması"nda (səh.74) onun adı Yezidin oğlu Əbdüllah qeyd olunur. Bizim mənbələrdəki bir rəvayətdə onun adı Əbdüllah qeyd olunsa da,[4] qeyd etdiyimiz kimi, onun məşhur adı Osmandır.

### SÜFYANİNİN ÇİRKİNLİYİ VƏ İNADKARLIĞI

Hədis raviləri onun Allah, Peyğəmbər və həzrət Məhdi (ərvahuna fidah)-a qarşı kin-küdurəti, qatı düşmənçiliyi və nifaqı barəsində yekdil fikirdədirlər.

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.205.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.213.
[3] "İbni Həmmadın əlyazması", səh.75.
[4] "Biharul-ənvar", 53-cü cild, səh.208.

Sünnü və şiələrin onun alçaq şəxsiyyəti və yaramaz rəftarı barəsində nəql etdikləri rəvayətlər eyni səviyyədə və təqribən bir-birinə yaxındır: *"Süfyani sərkərdələrin və hakimlərin ən pisidir. O, alimləri və fəzilət əhlini qətlə yetirib məhv edəcəkdir. Öz məqsədlərinə çatmaq üçün onlardan kömək istəyəcək, imtina edən hər kəsi qətlə yetirəcəkdir."*[1]

Digər bir yerdə Ərtatdan belə nəql olunur: *"Süfyani 6 ay müddətində ona itaətsizlik edənləri qətlə yetirəcək, başlarını mişarla kəsəcək və qazanlarda bişirəcəkdir."*[2]

İbni Abbasdan belə rəvayət olunur: *"Süfyani xüruc edib kütləvi qırğınlar törədər, hətta qadınların qarnını yırtıb uşaqlarını böyük qazanlarda qaynadar."*[3]

İmam Baqir (əleyhis-salam) buyurur: *"Əgər Süfyanini müşahidə etsən, ən çirkin bir adamı görmüş olarsan. Onun rəngi sarı, qırmızı və göydür. Heç vaxt Allaha bəndəçilik etməmiş, Məkkə və Mədinəni görməmişdir. O "Pərvərdigara! Mənim intiqamım odladır" - deyər."*[4]

## SÜFYANİNİN SİYASİ NƏZƏRLƏRİ VƏ MƏDƏNİYYƏTİ

Rəvayətlərdə göstərilir ki, Süfyani qərb mədəniyyətinə meyilli olan bir adamdır və çox hallarda həmin yerdə böyüyüb boya-başa çatmasından söhbət açılır. Tusinin "Qeybət" kitabında Bişr ibni Qalibdən mürsəl şəkildə belə rəvayət olunur: *"Süfyani bir qrupun rəhbərliyini öhdəsinə aldığı zaman məsihi bir şəxs kimi boynuna xaç asacaq, rumluların ölkəsindən hərəkət edib bu tərəfə gələcəkdir."*[5]

Rəvayətdə "müntəsir" kəlməsi qeyd olunmuşdur. Amma əslində "Biharul-ənvar"da (52-ci cild, səh.217) qeyd olunduğu kimi, "mütənəssir", yə'ni məsihi olmuş müsəlman olmalıdır. "Romalıların ölkəsindən gələcəkdir" – cümləsində məqsəd, Rum (qərb) ölkəsindən Şama gələn bir şəxsdir ki, orada qiyam edəcək, oradakı qərblilərin və yəhudilərin siyasi rəhbərliyini öz öhdəsinə alacaq, Romanın (qərblilərin) düşməni olan həzrət Məhdi ilə qarşılaşacaq, ruslar və onların havadarları ilə birlikdə müharibəyə daxil olacaqdır. Süfyani zühur dövrünün hadisələrində və həzrət Məhdi (əleyhis-salam)-ın qoşun yeritməsinin önündə öz paytaxtını Dəməşqdən Fələstindəki Rəmləyə köçürəcəkdir. Həmin yer ki, rəvayətlərə əsasən Roma qiyamçıları orada düşərgə salacaqlar. Hətta

---

[1] "İbni Həmmadın əlyazması", səh.76.
[2] Yenə orada, səh.80.
[3] Yenə orada, səh.84.
[4] "Biharul-ənvar", 52-ci cild, səh.354.
[5] "Qeybəti Tusi", səh.278.

yəhudilərin və romalıların xeyrinə olaraq ön cəbhədə həzrət Məhdi (ərvahuna fidah)-la müharibəyə başlayacaqdır. Sonra məğlub olacaq, bu da yəhudilərin məğlubiyyəti ilə nəticələnəcəkdir.

Onun qərblilərə meyilli olmasının dəlili budur ki, məğlub olub qətlə yetirilməsindən sonra qoşunlarının qalan hissələri qərbə qaçacaqlar. Bu zaman həzrət Məhdi (ərvahuna fidah)-ın köməkçiləri onları tə'qib edib tutacaq və qətlə yetirəcəklər.

İbni Xəlil Əzudidən belə rəvayət olunur: Əbu Cə'fər (İmam Baqir) (əleyhis-salam)-dan eşitdim ki, *"onlar Bizim qəzəb və əzabımızı hiss etdikləri zaman o diyardan qaçarlar; qaçmayın, israf etdiyiniz şeylərə və evlərinizə doğru qayıdın, bəlkə sizdən sual oluna"* – ayəsinin təfsirində buyurmuşdur: *"Bizim Qaimimiz qiyam edib Şamdakı Bəni-Üməyyəyə doğru bir ordu göndərərkən onlar Ruma (qərbə) tərəf qaçarlar. Romalılar onlara deyərlər ki, biz sizi öz ölkəmizə yalnız buna görə buraxdıq ki, xristianlığı qəbul edəsiniz. Onlar öz boyunlarına xaç asdıqdan sonra romalılar onları öz ölkələrinə buraxarlar. Həzrət Qaim (əleyhis-salam)-ın köməkçiləri romalılarla müharibə etmək üçün qarşılaşanda romalılar onlardan istəyərlər ki, aman verib sülh etsinlər. Amma həzrət Qaimin köməkçiləri deyərlər: "Aman verməriк! Yalnız o zaman aman verərik ki, bizim tərəfimizdən qaçıb gələnləri qaytarasınız." Sonra romalılar onları həzrət Qaimə təhvil verərlər. Bu da Allah-taalanın buyurduğu "qaçmayın, israf etdiyiniz şeylərə və evlərinizə tərəf qayıdın, bəlkə sizdən soruşula" ayəsinin mə'nasıdır.* (Həzrət sonra buyurdu:) *"Həzrət onlardan xəzinələr barəsində sual edər, halbuki o, xəzinələrin yerinə hamıdan artıq agahdır. Onlar "Vay olsun bizə, çox zalım olduq" deyər və həsrətlə dolu olan bu sözləri daim təkrarlayarlar, nəhayət biz hamısını ölüm və həlakət qılıncına yem edərik."*[1]

*"Həzrət Qaim (əleyhis-salam)-ın köməkçiləri onlarla qarşılaşan zaman onlar aman istəyərlər"* – cümləsinin mə'nası budur ki, o həzrət özünün çox saylı qüvvələrini romalılarla qarşılaşmaq üçün göndərər və onları təhdid edərlər. Bu rəvayətdə Bəni-Üməyyə dedikdə, məqsəd Süfyaninin köməkçiləridir ki, başqa rəvayətlərdə də ona aşkar şəkildə işarə edilmişdir. Ehtimal üzrə onlar Süfyani ordusunun ümdə siyasi mövqeyə malik olan müşavirləri və sərkərdələridir. Buna görə də onların arasında baş verən hadisələrdə iş o yerə çatacaq ki, həzrət Məhdi

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.377.

(əccəlallahu təala fərəcəhuş şərif) və onun köməkçiləri bu şəxsləri təhvil vermədikləri surətdə romalıları müharibə ilə təhdid edəcəklər.

## SÜFYANİNİN ÖZ HƏRƏKATINI DINI QƏLƏMƏ VERMƏK ÜÇÜN GÖSTƏRDİYİ SƏ'YLƏR

İslam dininin bütün dünyaya yayılıb həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna qədər əzəmət tapmasına, eləcə də qara bayraqlıların müqabilində və İslamın yayılması qarşısında Süfyaninin qiyam etməsinə diqqət yetirməklə aydın olur ki, həqiqətdə bu məsələ bir qərbi – yəhudi proqramıdır. İbni Həmmadın əlyazmasındakı (səh.75) bə'zi ibarələrdə qeyd olunur ki, *"Süfyani ibadət sayəsində çox sarımtıl nəzərə çarpır."* Bu cümlədən aydın olur ki, o, zahirdə özünü dindar bir şəxs kimi qələmə verir. Əlbəttə, digər rəvayətlərə uyğun olaraq, bu vəziyyət onun işinin əvvəlində görünəcəkdir.

Bə'zi vaxtlarda da onun dindarlığı ilə yanaşı, məsihi olmasına dəlalət edən sözlər nəzərə çarpır; o, öz boynuna bir xaç asmış və qərbdən gəlmişdir. Qərbin muzdur siyasətçilərinin vəziyyətlərindən əldə etdiyimiz mə'lumata əsasən bu irad aradan qalxır, hətta onların bə'ziləri məsihilərlə elə qaynayıb-qarışmışlar ki, onların arasında əsla fərq qoymaq mümkün deyildir. Onlar məsihilərə elə yaxınlaşmışlar ki, qızıl xaçı öz saatlarına bağlayır, boyunlarına asır və ya onların kilsələrində olan dini mərasimlərdə iştirak edirlər. Nəhayət, onu zahirdə namaza əhəmiyyət verdiyinə və özünü dindarlığa vurduğuna görə müsəlmanlara hakim edərlər ki, bu hiylə ilə onları aldada bilsin. Hətta rəvayətin əvvəlki cümləsi – *"fəzilət və elm əhlini qətlə yetirib məhv edər, öz məqsədinə çatmaq üçün onlardan kömək istəyər və imtina edən hər kəsi qətlə yetirər"* – cümləsi göstərir ki, o, öz hərəkatına İslami və şər'i boyaq vurmaq üçün çox ciddiyyətlə çalışar.

Bəlkə də "onları məhv edir" kəlməsi "onları yoxlayır" kəlməsinin əvəzinə qeyd olunmuşdur.

## SÜFYANİNİN ƏHLİ-BEYT (ƏLEYHİMUS-SALAM)-A VƏ ŞİƏLƏRƏ QARŞI ƏDAVƏT VƏ KİN-KÜDURƏTİ

Əhli-beyt (əleyhimus-salam)-a və şiələrə qarşı kin-küdurət bəsləmək Süfyaninin ən bariz xüsusiyyətlərindən biridir. Bununla əlaqədar rəvayətlərdən aydın olur ki, onun müsəlmanlar arasında dini və məzhəbi fitnə yaratmaq və sünnüləri şiələrin əleyhinə təhrik etməkdə əsas rolu "sünnülərə kömək etmək" şüarı altında yerinə yetirilir. Halbuki o, qərbin və yəhudilərin küfrə adət etmiş rəftarlarının havadarları və onların muzdurlarıdır.

İmam Sadiq (əleyhis-salam)-dan belə rəvayət olunur: *“Bizimlə Əbu Süfyan sülaləsi iki xanədandır ki, biz onlarla Allah xatirinə düşmənçilik edirik. Biz deyirik ki, Allah düz deyir, onlar deyirlər ki, Allah yalan deyir. Əbu Süfyan Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-lə, onun oğlu Müaviyə Əli ibni Əbi Talib (əleyhis-salam)-la, onun da oğlu Yezid isə İmam Hüseyn (əleyhis-salam)-la müharibə apardı. Süfyani də həzrət Qaim (əleyhis-salam)-ın qarşısında qiyam edəcəkdir.”*[1]

İmam Baqir (əleyhis-salam) başqa bir rəvayətdə buyurur: *“Sanki mən Süfyanini (yaxud onun dostlarını) görürəm ki, sizin yamyaşıl ölkəniz olan Kufədə düşərgə salmışdır. Onun carçısı nida edib deyir: “Hər kəs Əli şiələrindən birinin başını kəsib gətirsə, min dirhəm mükafat alacaqdır!” Bu zaman qonşu-qonşuya hücum edər və deyər ki, “bu kəs onlardandır!”, sonra onun başını kəsib min dirhəm mükafat alar. Agah olun ki, belə bir gündə sizə haramzadələr rəhbərlik edəcəkdir. Sanki elə indi niqablı bir kəsi görürəm.”* Soruşdular: Niqablı şəxs kimdir? Buyurdu: *“Sizdən olan bir kişidir ki, sizin istəklərinizlə danışar, üzünə niqab taxar, sizi bir yerə toplayar və tanıyar, amma siz onu tanımazsınız. Sizin kişilərinizin bir-bir eybini axtarmaqla bədnam edər. Agah olun ki, o, zinazadədən başqa bir kəs deyildir.”*[2]

Əlbəttə, biz Livanda yəhudilərin muzdurları, falanjlar və başqalarının muzdurları olan niqablı şəxsləri görürdük. Onlar müsəlmanların nüfuzu altında olan məntəqələrə gəlir, öz qara sifətlərini, qara yaxud başqa rənglərdə olan maskalarda gizlədirdilər ki, mö’minləri tanıyıb öz dostlarına təqdim etsinlər ki, onlar da inqilabçıları mühasirəyə alıb tutsunlar, həbs etsinlər və ya qətlə yetirsinlər. Süfyani bu kimi düşmənlərin tə’lim verdiyi şəxslərdəndir.

Başqa bir rəvayətdə deyilir: *“Süfyaninin süvariləri Xorasan əhlini axtarmağa gələr və Kufədə Ali-Peyğəmbər şiələrini öldürərlər. Sonra Xorasan əhli həzrət Məhdi (ərvahuna fidah)-ı axtarmaq üçün çölə çıxar.”*

Süfyaninin Şamdakı şiələrlə qarşılaşmasına gəldikdə isə, onun hərəkatı ilə əlaqədar rəvayətlərdə “Vadiyi Yabis”dən (quru dərədən) başlayacağı qeyd olunur.

**SÜFYANİNİN QIRMIZI BAYRAĞI**

Əmirəl-mö’minin Əli (əleyhis-salam) uzun bir hədisdə belə buyurur: *“Onun müxtəlif nişanə və əlamətləri vardır. Süfyaninin xürucu qırmızı*

---

[1] “Biharul-ənvar”, 52-ci cild, səh.190.
[2] “Biharul-ənvar”, 52-ci cild, səh.215.

*bayraqla başlanır. Onun başçılığı Bəni-Kəlb qəbiləsindən olan bir şəxsin öhdəsinədir."*[1]

Bu qırmızı bayraq onun hamıdan üstün olmasına və qan içmə siyasətinə dəlalət edir.

**SÜFYANİ BİR NƏFƏRDİR, YOXSA BİR NEÇƏ NƏFƏR?**

Şiə-sünnü mənbələrində mövcud olan rəvayətlərdə və'dəsi verilən Süfyani bir nəfərdir. Amma bə'zi rəvayətlərdə, o cümlədən İbni Həmmadın əlyazmasında və başqa yerlərdə iki Süfyanidən – Birinci Süfyani və ikinci Süfyanidən söhbət açılır. Bə'zi rəvayətlərdə deyilir ki, onlar üç nəfərdir. Amma rəvayətlərdə məzəmmət olunan, şər və yaramaz işlər əncam verən ikinci Süfyanidir. Çünki birinci Süfyani Şama hakim olduqdan və Qirqisya müharibəsi baş verdikdən sonra İraq müharibəsində iranlıların və qara bayraqlıların qarşısında məğlub olar və aldığı ağır yara nəticəsində Şama qayıdarkən yolda ölər. İkinci Süfyanini öz yerinə canişin qoyar ki, onun mühüm mə'muriyyətini yerinə yetirsin.

Əgər bu rəvayət səhih olsa, onda birinci Süfyani bədəməlli bir sərkərdə olub və'dəsi verilən əsl Süfyaniyə şərait yaradacaq. (Necə ki, yəmənlilər və xorasanlılar həzrət Məhdi (ruhumuz ona fidadır)-ın zühuruna şərait yaradacaqlar.) İbni Həmmad deyir ki, Vəlid belə deyirdi: "Süfyani Bəni-Haşimlə müharibəyə gələr, üç bayraq tərəfdarları və başqaları onunla müharibə aparar. Bu zaman Süfyani hamısına qələbə çalar, daha sonra Kufəyə yollanar. Bəni-Haşim qəbiləsi də İraqa köçər.

Sonra Süfyani Kufədən qayıdarkən Şam yaxınlığında həlak olar və Əbu Süfyan övladlarından başqa birini öz yerinə canişin tə'yin edər. O da qələbə çalaraq camaata hakim kəsilər. Nəzərdə tutulan Süfyani həminkidir.[2] İbni Həmmad Süfyaninin bir neçə nəfər olması barəsində bu rəvayətin oxşarını 60 və 74-cü səhifələrdə qeyd etmişdir.

**SÜFYANİ HƏRƏKATININ BAŞLANMASI VƏ ONUN MƏRHƏLƏLƏRİ**

Rəvayətdə Süfyani hərəkatı çox kobud və sür'ətli vəsf edilir. Bugünkü siyasi ifadəylə desək, onun hərəkatı çox dramatik və qanlıdır. Çünki dünyaya hakim olan siyasi şərait və hegemon dövlətlər arasında baş verən çəkişmələr o qədər qorxulu olacaqdır ki, axırda müharibə ilə nəticələnəcəkdir. Fələstin fitnəsi nəticəsində qarışıqlığa düçar olan

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.273.

[2] "İbni Həmmadın əlyazması", səh.78.

Şamın vəziyyəti eynilə tuluqda çalxalanan su kimi olacaq, nəticədə zəifləyib, qüdrətdən düşəcəkdir. Bundan da mühüm məsələ qərblilərin və yəhudilərin müqabilində müsəlman və iranlı qüvvələrin Fələstin sərhədlərinə gəlib Qüdsün darvazalarına yaxınlaşmasıdır. Bundan sonra rusların Şama və İslam ölkələrinə nüfuzu artacaqdır. Buna görə də onlar qüdrətli bir hakim seçəcəklər ki, ətraf məntəqələri İsrailin istilası üçün tam hazırlasınlar və öz əllərinə keçirsinlər. Məhz buna görə də o, ərəblərlə İsrail – qərb arasında ən mühüm müdafiə xətti sayılır. Üstəlik havadarları İraqı işğal etmək, iranlılar və qara bayraqlıların qarşısını almaq üçün onu tam sərbəst buraxacaqlar. Həmçinin, Hicazın zəiflədilmiş hökumətinə kömək çatdırmaq, yeni və əsaslı hərəkatları boğmaq üçün Süfyaniyə tam ixtiyar verəcəklər, amma bu, İmam Məhdi (ərvahuna fidah)-ın Məkkədəki hərəkatının qarşısını ala bilməyəcəkdir.

Rəvayətlərdə aşkar şəkildə, yaxud müəyyən işarələrlə qeyd olunan yönlər Süfyani hərəkatının xüsusiyyətlərini, sür’ət və şiddətini başa düşməyə kömək edir. İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *“Süfyani zühurun labüd əlamətlərindəndir. Onun xürucu əvvəldən axıra qədər on beş ay çəkəcəkdir. O, altı ay müddətində müharibə aparacaq, beş şəhərə hakim kəsildikdən sonra 9 ay müddətində hakim olacaqdır. Buna heç bir gün də əlavə edilməyəcəkdir.”*[1]

Bu beş şəhər – Dəməşq, İordaniya, Həms, Hələb və Qinnəsrindən ibarətdir ki, həmin məntəqələrin (Suriya, İordaniya və Livanın) mərkəzi qərargahı sayılır. Rəvayətlər İordaniyanın onların sırasında olmasını aşkar şəkildə bəyan edir. Amma Şamın bir hissəsi və “beş şəhərin” tabeçiliyində olan Livana gəldikdə isə, onun Süfyaninin hökumət dairəsində olması uzaq ehtimal deyildir. Lakin rəvayətlər bə’zi qrupları Süfyaninin hakimiyyət dairəsindən ayırır ki, onlardan biri də “haqqı bərqərar edənlər”dir. Belə ki, Allah-taala onu da xüruc etmə şərindən hifz edəcəkdir. Livanın əhalisi də onlardandır.

Rəvayətlər onun hərəkat vaxtını Rəcəb ayı hesab edirlər. İmam Sadiq (əleyhis-salam) buyurur: *“Zühurun qaçılmaz nişanələrindən biri də Süfyaninin Rəcəb ayında xüruc etməsidir.”*[2]

Süfyaninin həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan altı ay öncə qiyam etməsindən sonra həzrət Məhdi (ərvahuna fidah) həmin ilin Məhərrəm ayının 10-cu, yaxud 11-ci gecəsində Məkkədə zühur edəcəkdir. Süfyani o həzrətin

---

[1] “Biharul-ənvar”, 52-ci cild, səh.248.
[2] Yenə orada, səh.249.

zühurundan əvvəl Şama hakim kəsiləcəkdir, o, əvvəlcə İraqa, daha sonra Hicaza qoşun yeridərək İmam Məhdi (əleyhis-salam)-ın köməkçilərini məhv etmək və o həzrətin hərəkatını boğmaq üçün hücum edəcəkdir.

Buna əsasən, Süfyani hərəkatı üç mərhələdə baş verəcəkdir:

1-Birinci altı ay müddətində hakimiyyətinin möhkəmləndirilməsi.

2-Onun İraqa və Hicaza qoşun yeridərək müharibə aparması.

3-Onun İraqda və Hicazda ərazi iddialarından əl çəkərək Şam, İsrail və Qüds ərazilərindən öz ixtiyarında qalanları qorumaq məqsədilə həzrət Məhdi (əleyhis-salam)-ın ordusunun qarşısında müdafiə olunması.

Diqqət yetirmək lazımdır ki, Süfyani barəsində nəql olunan rəvayətlər onun ilk altı ayda apardığı müharibələri ixtisarla bəyan edir. Orada buyurulur ki, bu çarpışmaları əvvəlcə daxili müharibə şəklində Əshəb və Əbqə ilə, daha sonra öz müxalifləri olan İslami və qeyri-İslami qüvvələrlə aparacaq və nəhayət tam şəkildə Şama hakim kəsiləcəkdir. Onun hərəkatına dəlalət edən rəvayətlərə diqqət yetirməklə aydın olur ki, bu altı ay başdan-başa hərbi əməliyyatlardan ibarətdir. O, öz hakimiyyətini elə möhkəmlədəcəkdir ki, növbəti 9 ayda apardığı müharibələr üçün lazımi qüvvə və döyüş təchizatı tədarük görə bilsin. Ola bilsin ki, Süfyani özünün Əbqə və Əshəblə olan ilk altı aydakı müharibələri ilə yanaşı İordaniya, Livan qoşunları və digər müxalif qüvvələrlə də vuruşmuş olsun.

Bə'zi rəvayətlər Süfyaninin Əbqə və Əshəb ilə aparacağı müharibənin şiddətindən söhbət açır və bildirir ki, həmin müharibələr Şamın tamamilə dağılıb məhv olmasına səbəb olacaqdır. İmam Baqir (əleyhis-salam) belə buyurur: *"Zühurun əlamətlərindən biri Şamın kəndlərindən olan Cabiyə adlı bir abadlığın yerə batması, türklərin Cəzirəyə və romalıların Rəmləyə gəlib çıxmasıdır. Bu zaman dünyada çoxlu müharibələr baş verəcək, nəhayət, Şam dağılacaqdır."* Başqa rəvayətdə deyilir ki, *"viran olub dağılan ilk yer Şamdır. Onun dağılmasının əsas səbəbi də üç bayrağın (qüvvənin) orada bir yerə yığışmasıdır: Əshəbin qüvvələri, Əbqənin qüvvələri və Süfyaninin qüvvələri."*[1]

İmam Əli (əleyhis-salam)-ın Dəməşq barəsində buyurduğu *"Dəməşq, şübhəsiz, dağılacaqdır və bu işi mənim xanədanımdan olan bir kişi görəcəkdir"* – sözünə diqqət yetirdikdə belə nəzərə çarpır ki, bu dağıntı İmam Məhdi (əleyhis-salam)-ın Süfyani, yəhudilər və romalılarla müharibə aparıb Beytül-müqəddəsi azad etməsi zamanı baş verəcəkdir.

---

[1] "Irşad" (Şeyx Müfid), səh.359.

Süfyani, öz hökumətinin son doqquz ayında böyük müharibələr törədəcəkdir ki, onların ən mühümü Qirqisiyada türklərlə və onların havadarları ilə apardığı müharibədir. Bundan sonra onun İraqda iranlılarla müharibə aparması zühurun zəminsini yaradır. Bə'zi rəvayətlərdə yəmənli kişinin onlarla (iranlılarla) olması qeyd olunur.

Süfyaninin Mədineyi-münəvvərədə çoxlu qüvvələrə malik olması da mümkündür ki, ehtimal üzrə Hicaz hökumətinin qüvvələri ilə birlikdə, həzrət Məhdi (ərvahuna fidah)-ın Mədinə uğrunda apardığı müharibələrdə onunla döyüşəcəkdir.

Süfyani İraqda və Hicazda məğlubiyyətə uğradıqdan sonra Şama və Fələstinə qayıdacaqdır ki, həzrət Məhdi (ərvahuna fidah)-ın apardığı ən böyük müharibədə – Qüdsün fəth olunması üçün aparılan müharibədə o həzrətlə vuruşsun.

**YABİS VADİSİNDƏN (QURU DƏRƏDƏN) DƏMƏŞQƏ QƏDƏR**

Süfyaninin öz hərəkatını Dəməşqin kənarından – Suriya-İordaniya sərhədlərində yerləşən Dir'a, yaxud Hovran məntəqəsindən başlaması ilə əlaqədar rəvayətlər eynidir. Əlbəttə, rəvayətlərdə onun xaric olduğu yer Yabis və Əsvəd vadisi (quru və qara dərə) adlandırılır. Həzrət Əli (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Cigər yeyən Hindin oğlu Yabis çölündən xaric olacaq. O, qədd-qamətlidir, qorxunc üzü, yekə başı vardır, üzündə xora xəstəliyinin izləri görünür. Onun sifətinə baxdığın zaman bir gözlü nəzərə çarpır. Adı Osman, atasının adı isə Ənbəsədir (Üyeynə) – Əbu Süfyanın övladlarındandır. Nəhayət o, Qərar və Məin adlı (sulu, təravətli bir yerdir) çatar, sonra oranın minbərinə çıxar."*[1]

Əlbəttə, Qur'anda qeyd olunan "Zatu qərarin məin" ölkəsi Dəməşq kimi təfsir olunmuşdur.

İbni Həmmadın ələlyazmasında Məhəmməd ibni Cə'fər ibni Əlinin belə dediyi nəql olunur: *"Süfyani – Əbu Süfyanın oğlu Yezidin oğlu Xalidin övladlarındandır. Onun yekə başı, alaca xəstəliyinə tutulmuş üzü, gözündə isə ağlıq vardır. O, Dəməşqin "Yabis vadisi" adlı nahiyəsindən yeddi nəfərlə birlikdə xüruc edəcəkdir ki, onlardan biri əlində bükülmüş bayraq saxlayar."*[2]

74-cü səhifəsində isə qeyd olunur ki, Süfyani öz hərəkatını Şamın qərb nahiyəsində yerləşən Əndəra adlı bir yerdən yeddi nəfərlə başlayacaqdır. 79-cu səhifədə isə Ərtad ibni Münzərdən nəqlən deyilir:

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.205.
[2] "İbni Həmmadın əlyazması", səh.75.

*"Bədqiyafəli və məl'un bir şəxs Beysanın şərqindən qırmızı dəvəyə minmiş və başına tac qoymuş bir halda xüruc edəcəkdir."*

İbni Həmmad tabeinlərdən çoxlu rəvayət nəql etmiş və onları Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) və Əhli-beyt (ələyhimus-salam)-a nisbət verməmişlər. Süfyani və onun hərəkatının başlanması ilə əlaqədar mətləbləri əhatə edən bu rəvayətlər daha çox əfsanəyə oxşayır. O cümlədən bu rəvayət ki: "O, yuxu aləmində görünəcək və ona deyiləcək: Ayağa qalx, qiyam et! Onun əlində qamışdan üç çubuq vardır, hər kəsə vursa, o mütləq öləcəkdir."[1] Lakin şişirtmə ilə yanaşı olan və ona qeybi işləri istinad verən rəvayətləri nəzərə almasaq, digər rəvayətlər Süfyaninin çox sür'ətli və şiddətli hərəkətindən xəbər verir. Şiə ravilərinin nəzərində onun çox sür'ətlə və şiddətlə yürüş etməsi mə'lum bir məsələ olmuşdur. Hüseyn ibni Əla Həzrəmi rəvayət edir ki, Əbu Əbdillah (ələyhis-salam)-dan soruşdum: "Süfyani xüruc edən zaman biz şiələr nə edək?" Həzrət buyurdu: *"Kişilər öz üzünü ondan gizlətsinlər, qadınlara və uşaqlara heç bir xəsarət dəyməz. O, beş şəhərə – Şamın şəhərlərinə hakim kəsildikdə, siz öz sahibinizə (Həzrət Məhdi (ələyhis-salam)-a) doğru köç edin."*[2]

Belə nəzərə çarpır ki, ən qəliz xasiyyətli və qəddar Süfyani elə Əbqə və onun havadarlarıdır ki, İbni Həmmadın rəvayətində "Bəni-Mərvan" tə'biri ilə deyilir: "O, Bəni-Mərvandan olan bir kəsə qalib gələcək və onu qətlə yetirəcək, Bəni-Mərvanı üç ayda qıracaqdır. Sonra Məşriq əhlinə (iranlılara) üz gətirəcək və nəhayət Kufəyə daxil olacaqdır."[3]

Rəvayətlərin bə'zilərində deyilir ki, Şamın şiələri Süfyaninin qiyamı zamanı onun ən ümdə düşmənlərindən sayılacaq. Əbqə və Əshəbin tərəfdarları da həm şiələrin, həm də Süfyaninin düşmənləri hesab olunur. İmam Baqir (ələyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Süfyaninin, düşmənlərinizdən sizin xeyrinizə intiqam alması kifayətdir. O sizin üçün nişanələrdən biridir, halbuki o fasiq əgər xüruc etsəydi, siz onun xürucundan bir-iki ay sonra qalardınız və onun nahiyəsindən sizə heç bir zərər çatmazdı, nəhayət, sizdən çoxlu insanları qətlə yetirərdi".* Həzrətin dostlarından bə'ziləri soruşdu: "O vaxt bizim arvad-uşaqlarımızla əlaqədar vəzifəmiz nədir?" İmam (ələyhis-salam) buyurdu: *"Sizin kişiləriniz özlərini ondan gizlətsinlər, çünki onun qorxusu və şər işləri, əlbəttə bizim şiələrimizlədir. Amma qadınlara gəldikdə isə, inşaallah, onlara heç*

---

[1] Yenə orada.

[2] "Biharul-ənvar", 52-ci cild, səh.273.

[3] "İbni Həmmadın əlyazması"

*bir zərər çatdırmaz."* Soruşdular: "Kişilər hara getsinlər və onun əlindən hara qaçsınlar?" İmam (əleyhis-salam) buyurdu: *"Hər kəs onların əşrrindən qaçmaq istəsə, Mədinəyə, Məkkəyə, yaxud digər bir şəhərə getsin. Lakin siz Məkkəyə gedin, çünki, ora sizin (bir yerə) yığışmaq yerinizdir. Bu fitnə doqquz ay – qadının hamiləlik müddəti qədər – davam edəcək və Allahın istəyi ilə, ondan artıq davam gətirməyəcəkdir".*[1]

Bu rəvayət göstərir ki, Süfyaninin şiələrə hücumu Ramazan ayında onun Şamdakı xürucundan sonra olacaqdır. Həmçinin, rəvayətlərdə qeyd olunur ki, o məntəqəyə çox qüdrətli və mütləq şəkildə hakim kəsiləcək, bütün daxili çətinliklərə qələbə çalacaqdır: *"Şam əhalisi ona itaət edəcəklər, yalnız haqq axtaran dəstələrdən başqa. Allah onları, Süfyani ilə birlikdə qiyam etməkdən hifz edəcəkdir."*[2]

Bə'zi ravilər bu rəvayətdən belə nəticə almışlar ki, Livan və Şam şiələri Süfyaninin hakimiyyət dairəsində qərar tutmayacaq və ona itaət etməyəcəklər. Əlbəttə, bu iş mümkündür və onun ən kiçik dəlili Şam əhlindən müəyyən qrupların ayrılaraq ona itaət etməmələridir. Çünki agah insan qrupları (şiə və qeyri-şiə) Allahın əta etdiyi toxunulmazlıqdan faydalanaraq Süfyani hərəkatında iştirak etməyəcək və onun İraq və Hicazdakı hərbi əməliyyatlarından çəkinəcəklər. Bu da ehtimal verilir ki, onlar xüsusi siyasi mövqeyə malik olsunlar ki, Süfyaninin dövlətində sair vətəndaşlardan fərqlənsinlər və bu da onları bu miq-darda müstəqil etmiş olsun. (İndiki Livanın Suriya ilə müqayisəsi kimi.)

Bir sözlə, Süfyani məntəqəni öz ixtiyarına keçirdikdən sonra oranın sərhədlərindən kənarda mühüm əməliyyatlara başlayacaqdır. O cümlədən, zühura şərait yaradan iranlılarla qarşılaşmaq üçün böyük bir ordu hazırlayacaqdır: *"Süfyani öz sə'ylərini sırf şəkildə İraqa yönəldəcəkdir. Onun ordusu Qirqisiyaya daxil olacaq və orada döyüşəcəkdir."*[3]

### QİRQİSİYADA QANLI MÜHARİBƏ

Süfyani barədəki rəvayətlərdə Qirqisiya müharibəsi, yə'ni Suriya-İraq-Türkiyə sərhədlərində baş verən müharibə Süfyani hərəkatının təbii vəziyyətindən xaricdə olub zühur dövrünün hadisələrindən hesab olunur. Buna görə də Süfyaninin İraqda müharibə aparmaqda əsas hədəfi həmin ölkəyə hakim kəsilmək və zühura şərait yaradanlar – iranlılar qarşısında müqavimət cəbhəsi icad etməkdir (onlar İraq yolu

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.141.
[2] Yenə orada, səh.252.
[3] Yenə orada, səh.217.

ilə Suriyaya və Beytül-müqəddəsə doğru irəliləməkdə olacaqlar). Lakin İraq yolunda baş verən qəribə hadisə nəticəsində Qirqisiya müharibəsi başlanacaqdır. O hadisə də Fəratın məcrasında, yaxud onun yaxınlığında böyük bir xəzinənin tapılmasıdır. Çoxları onu ələ keçirmək üçün sə'y göstərər və onların arasında müharibə şö'lələri ucalar. Orada yüz mindən artıq adam öldürülər, amma heç biri qəti qələbəyə çatmaz və o xəzinəni ələ keçirə bilməz. Nəticədə onların hamısı bu fikirdən daşınarlar.

Qirqisiya məntəqəsi, "Mö'cəmül-büldan" kitabında qeyd olunduğu kimi, Xabur çayının Fərata qovuşduğu yerdə yerləşən kiçik bir şəhərdir. Hal-hazırda onun xarabalıqları Suriyadakı Deyzur şəhərinin yaxınlığında (Suriya-İraq sərhədlərində) yerləşir, Türkiyə-Suriya sərhədlərinə də nisbətən yaxındır.

Qirqisiya müharibəsi ilə əlaqədar yaranan anlaşılmazlıqlar, o cümlədən onun törədilmə səbəbi, Süfyanidən başqa onda iştirak edən tərəflər, eləcə də onun sonu və s. baxmayaraq, rəvayət onun baş verməsini tam aşkar şəkildə bəyan və onu böyük sifətlərlə vəsf edir. İmam Sadiq (əleyhis-salam)-dan nəql olunan aşağıdakı rəvayət kimi: *"Həqiqətən, Allah-taalanın Qirqisiyada təamla dolu olan süfrəsi vardır ki, göydən bir mələk ondan xəbər verir və nida edərək deyir ki, ey səma quşları, ey yerin vəhşi heyvanları, zalımların cəsədlərinin ətindən doymaq üçün tələsin!"*[1]

Qirqisiyadakı müharibə səhnəsinin "İlahi süfrə" kimi vəsf olunmasının səbəbi budur ki, zalımlar bir-birilə müharibə aparıb zəifləyəcək, bu da Allahın qəzavü-qədərlərindən (təqdirlərindən) biridir ki, onların həzrət Məhdi (ərvahuna fidah)-ın əli ilə məğlub olmasına kömək edəcəkdir. Buna görə də Süfyani bu müharibədən sonra öz qüvvələrinin bir qismini itirdiyi halda İraqa daxil olacaq, zühura şərait yaradan iranlılar onu məğlub edəcəklər. Bundan sonra həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) Qirqisiya müharibəsində süfyanilərin məğlub olmasından sonra müharibəyə girişən ruslarla döyüşə başlayacaqdır.

Rəvayətdə işarə olunduğu kimi, müharibə səhnəsi quru, otsuz-ələfsiz bir səhradır, onlar öz ölülərinin cəsədlərini dəfn etməyəcək, yaxud dəfn etməyə qadir olmayacaqlar. Buna görə də quşlar və yırtıcı heyvanlar onların leşlərindən yeyib doyacaqlar. Öldürülən əsgərlər də zalımlardan ibarətdir, çünki onlar zalımların əsgərləridir.

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.246.

İmam Baqir (əleyhis-salam) buyurur: *"Sonra Süfyani Əbqə ilə qarşılaşacaq, onlar bir-biri ilə müharibə aparacaqlar. Süfyani onu, onun yoldaşlarını və Əshabi qətlə yetirəcəkdir. Sonra İraqa hücum etməkdən başqa heç bir qərarı olmayacaqdır. Öz qoşununu Qirqisiyaya çatdıracaq və orada müharibəyə girişəcəkdir. Bu müharibədə yüz min zalım öldürüləcək və Süfyani yetmiş min nəfərlik bir qoşunu Kufəyə göndərəcəkdir."*[1]

Bə'zi rəvayətlərdə öldürülənlərin sayı 160 min nəfər, bə'zilərində isə ondan çox qeyd edilir. Amma yuxarıdakı rəvayətdə deyildiyi kimi, zalımlardan yüz min nəfər öldürüləcək, qalanları isə adi əsgərlər, muzdurlar və məhrum təbəqədən olan adi adamlardır. Uğrunda qanlı döyüş aparılan böyük xəzinəyə gəldikdə isə, bu barədə bir neçə rəvayət qeyd olunmuşdur. Onların ən aydını İbni Həmmadın əlyazmasında Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-dən nəql olunan bu hədisdir: *"Fərat çayı (öz məcrasında) qızıl və gümüşdən ibarət olan bir dağı aşkar edəcəkdir. Onu ələ keçirmək üçün müharibə və çarpışmalar başlanacaq, belə ki, hər 9 nəfərdən 7-si qətlə yetiriləcəkdir. Siz hər vaxt onu görsəniz, ora yaxınlaşmayın."*[2] Həmin nüsxədəki digər bir rəvayətdə deyilir: *"Dördüncü fitnə 17 il çəkəcəkdir... Fərat çayı qızıl dağın üstünü açacaq, camaat onu ələ keçirmək üçün bir-birinin canına düşəcək, hər doqquz nəfərdən yeddisi qətlə yetiriləcəkdir."*

Bu rəvayətdə "dördüncü fitnə" dedikdə, əgər qərblilərin və başqa millətlərin müsəlmanlara hakim olmasıdırsa, onda bu fitnə çox uzun çəkəcəkdir. İndi ondan bir əsr keçməkdədir. Əgər Şam ölkəsində daxili fitnələr nəzərdə tutulursa, məqsəd Fələstin fitnəsidir. Bu cəhətdən Livandakı daxili müharibələr ola bilər ki, bu 17 ilin əvvəlidir.

Ehtimal üzrə, qeyd olunan "xəzinə" orada kəşf olunacaq qızıl və gümüş mə'dənləri olsun və bu da üç dövlət və onların himayəçiləri arasında ixtilafa səbəb olacaqdır, yaxud da neft-qaz və başqa faydalı qazıntılardan ibarət ola bilər. Mən eşitmişəm ki, Qirqisiya məntəqəsi neft və sair faydalı qazıntılar baxımından, hətta uran cəhətindən belə, çox zəngindir, orada kəşfiyyat və qazıntı işləri gedir, çox müsbət nəticələr də vermişdir. Hər şeyin malikiyyət və miqdarını bilən Allah, hər bir eyb və nöqsandan pak və münəzzəhdir!

Bu müharibədə Süfyani ilə döyüşən tərəflərə gəldikdə isə, əksər rəvayətlərdə türklər qeyd olunur. Amma nəzərə çarpan və təbii işlərə ən

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.237.
[2] "İbni Həmmadın əlyazması", səh.92.

yaxın olanı budur ki, onlar türk dilli ordulardır. Çünki bu çarpışmalar Türkiyə-Suriya sərhədlərində yerləşən xəzinələrlə əlaqədardır. Amma İraqdakı üçüncü tərəfə gəldikdə isə, onların başları daxili vəziyyətə qarışmış olacaq və aralarında ikitirəlilik meydana gələcəkdir. Biri həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna şərait yaradan yəmənli və iranlıların tərəfdarları olan dəstələr, digəri isə Süfyaninin havadarlarından ibarətdir. Amma çoxlu əlamətlərə əsasən, türklər dedikdə burada rusların olması ehtimalı güclənir. Xüsusilə bə'zi rəvayətlər göstərir ki, onlar Süfyaninin qiyamından əvvəl Rəbiə adasında, yaxud "Diyar-Bəkirdə" (Qirqisiyanın yaxınlığında) düşərgə salacaqlar. Bə'zi rəvayətlərdə deyilir ki, Süfyani onlarla müharibə aparacaq, sonra həzrət Məhdi (əleyhis-salam)-ın vasitəsilə onun kökü kəsiləcək və həzrət Məhdi (ərvahuna fidah)-ın ruslarla müharibəyə göndərdiyi ilk ordu onları məğlub edəcəkdir. Zahirən çoxlu rəvayətlərdə qeyd olunan Cəzirədən məqsəd, (belə ki, türkdilli qoşunlar Süfyanidən qabaq orada düşərgə salacaqlar) elə həmin məntəqədir. Onun mütləq şəkildə, başqa bir kəlməyə izafəsiz olmasından aydın olur ki, məqsəd Ərəbistan yarımadası və sair kimi yerlər deyildir. Rum qüvvələrinin düşərgə saldığı Rəmlə dedikdə, elə Fələstindəki Rəmlə nəzərdə tutulur.

Bəli, İraqda kəşf olunan xəzinə, Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in onu ələ keçirməklə əlaqədar olan müsəlmanları çarpışmalardan çəkindirməsi və eləcə də "camaat onu əldə etmək üçün bir-birinin canına düşəcəklər" kimi sözlərdən mə'lum olur ki, xəzinə ilə əlaqədar çarpışan tərəflər müsəlmanlardır, lakin bu mətləbin heç də maneəsi yoxdur ki, Türklərin havadarları o dövlətə kömək etmiş olsunlar. Belə ki, onların barəsində bu tə'bir, qüvvələrinin Cəzirəyə daxil olması ilə əlaqədar rəvayətlərdə gözə dəyir. Amma bə'zi rəvayətlərdə qeyd olunan "rumlular və məğriblilər" dedikdə, onlar Qirqisiya müharibəsində döyüşən tərəflərdən ibarətdir. Onların buraya gəlişi Süfyaniyə, yaxud başqalarına kömək məqsədi daşıya bilər.

Amma əsl qüvvələr və Süfyaninin düşmənləri isə, həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərindən ibarət olan yəmənlilər və iranlılardan ibarətdir ki, onlar Qirqisiya müharibəsində müdaxilə etməyəcəklər, çünki bu müharibə onların düşmənləri arasında baş verəcəkdir. Lakin rəvayətlərin zahiri mə'nasına diqqət yetirməklə aydın olur ki, onların əsas işləri Hicazda zühur hadisələrinə məşğul olmaq, qüvvələrin İmam Məhdi (ərvahuna fidah)-ın qoşunu ilə əlaqə yaradılmasıdır ki, o həzrətin Məkkədə zühuru-

nun başlanğıcıdır. Əlbəttə, onun səbəbi ehtimal üzrə, dünya müharibəsinin şö'lələnməsi də ola bilər ki, çoxlu ehtimala görə, onun bir qismi bu mərhələdə baş verəcəkdir. İbni Həmmad Əli (əleyhis-salam)-ın belə buyurduğunu nəql edir: *"Süfyaninin süvariləri Kufəyə hərəkət etdikləri zaman, o, bir qrupu Xorasan əhlini tə'qib etmək üçün göndərər, halbuki Xorasan əhli həzrət Məhdi (əleyhis-salam)-a çatmaq üçün çölə çıxmış olar."*[1]

**SÜFYANİ TƏRƏFİNDƏN İRAQIN İŞĞAL OLUNMASI**

Rəvayətlərin bəyanına əsasən, İraqın işğal edilməsi Süfyani üçün çox strateji bir əhəmiyyətə malikdir. Lakin o məcbur olaraq Qirqisiya müharibəsinə girişir və bu müharibədən sonra öz planını davam etdirir. İraqa hücum edərkən onun qarşısında dünya, yaxud məntəqə dövlətlərindən heç bir müxalif olmayacaqdır. Hətta Süfyaninin Qirqisiyada müharibə apardığı türklərin də məqsədləri oradakı sərvət və xəzinələri ələ keçirməkdən ibarətdir və orada İraqın digər məsələlərinə baş qoşmurlar. Onun yeganə müxalifləri yəmənlilər və xorasanlılar, yə'ni həzrət Məhdi (ərvahuna fidah)-ın köməkçiləridir. Bu da göstərir ki, Süfyaninin İraqda apardığı müharibə, əsas e'tibarı ilə, həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) və onun tərəfdarlarının əleyhinə olan bir hərəkatdır.

Amma rəvayətlərdən aydın olduğu kimi İraq əhalisi iki-üç qrupa bölünəcəkdir. Birincisi, həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna şərait yaradanların önündə gedənlər, ikincisi, Süfyaninin tərəfdarları, üçüncüsü isə Şeysbaninin rəhbərlik etdiyi bir dəstədir. Cabir Co'fidən nəql olunur ki, Əbu Cə'fər İmam Baqir (əleyhis-salam)-dan Süfyani barəsində soruşduqda, buyurdu: *"Süfyani yalnız o zaman xüruc edər ki, ondan əvvəl Şeysbani İraqda xüruc etsin. O, suyun qaynadığı kimi yer üzündə qaynayar və sizin göndərdiyiniz elçiləri qətlə yetirər. Bundan sonra Süfyaninin xürucunun və Məhdi (əleyhis-salam)-ın zühurunun intizarında olun".*[2]

Rəvayətlərdə Şeysbani Bəni-Abbasdan, yaxud Əhli-beyt (əleyhimus-salam) düşmənlərindən olan bir şəxsdir. Çünki İmamlar (əleyhimus-salam) Bəni-Abbası, Bəni Şeysbani kimi tə'bir etmişlər. O da bədəməl sahibi, tanınmaz bir şəxsin adıdır ki, İmamlar (əleyhimus-salam) öz düşmənlərini kinayə şəklində belə adlandırmışlar. Şeysbani lüğətdə İblisin adlarından biridir. Qüdrət zühura zəmin yaradan xorasanlıların və onların tərəfdarlarının əlində

---

[1] "İbni Həmmadın əlyazması", səh.87.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.250.

olduğu bir zaman Şeysbani İraqda xüruc edəcəkdir. Rəvayətlər onların ilk mərhələdə İraqa daxil olmağını bəyan edir.

İraqın daxili vəziyyəti Süfyani ordusunun oraya daxil olması ilə tamamilə müvafiq olacaqdır və heç bir əsaslı müqavimətlə qarşılaşmayacaqlar. Yəmənlilər və xorasanlılar Hicazda zühur işlərinə məşğul olduqları zaman Süfyani onların qüvvələrindən azacıq öncə İraqa daxil olacaqdır. İmam Baqir (əleyhis-salam) buyurur: *"Şübhəsiz, filankəsin xanədanı hökmranlıq edəcəkdir, onlar hakimiyyətə çatdıqları zaman ixtilaf edəcəklər, hökumətləri dağılacaq, qarışıq vəziyyətə düşəcəkdir. Nəhayət şərqdən xorasanlılar və qərbdən süfyanilər onlara qarşı qiyam edəcək, dəvələrlə müsabiqə edirmişlər kimi Kufəyə doğru tələsəcəklər. Nəhayət, filankəsin xanədanı bu iki dəstənin əli ilə həlak olacaqdır. Bu iki nəfər onlardan heç bir kəsi sağ qoymayacaqdır."*[1]

"Filankəsin övladları" dedikdə məqsəd, ya İraqın Şeysbani süləsindən olan hakimi, yaxud digər Şeysbaninin övladları ola bilər. İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Sanki mən Süfyanini (yaxud onun köməkçilərini) görürəm ki, sizin yamyaşıl, xürrəm ölkənizdə – Kufədə iqamətgah seçmişdir. Onun carçısı car çəkib deyir ki, hər kəs "Əli şiəsinin başını gətirsə, ona min dirhəm hədiyyə veriləcəkdir!" Bu zaman qonşu qonşuya hücum edər və "bu şəxs onlardandır!" deyər, boynunu vurub min dirhəm mükafat alar. Amma belə bir gündə sizə yalnız bədəməl qadınların övladları hakim olacaqlar. Sanki mən niqablı bir şəxsi görürəm."* Soruşdular: "O niqablı şəxs kimdir?" İmam (əleyhis-salam) buyurdu: *"Sizlərdən olan bir kişidir ki, sizin kimi danışır, üzünə niqab vurur və sizə əhatə taparaq tanıyır, halbuki siz onu tanımırsınız. O sizin kişilərinizin bir-bir eybini axtarıb bədnam edir. Amma o, zinazadədən başqa bir kəs deyildir."*[2]

"İbni Həmmadın əlyazması"nda (səh.83) belə deyilir: *"Süfyaninin süvariləri zülmətli gecə və dağıdıcı sel kimi üz gətirər, hər şeyə çatsalar, onu məhv edərlər. Nəhayət, Kufəyə daxil olub Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əhli-beytinin ardıcıllarını qətlə yetirərlər. Bu zaman hər tərəfdə Xorasan əhlini axtarmağa başlayarlar, halbuki Xorasan əhli Məhdi (əleyhis-salam)-ı axtarmaqla məşğuldurlar; onu çağırır və ona kömək etməyə tələsirlər."*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.231-232.
[2] Yenə orada, səh.215.

Bu rəvayətlər Süfyaninin İraq müharibəsində, xüsusilə şiələrə qarşı rəva gördüyü cinayətləri aşkar şəkildə bəyan edir. İbni Həmmad (səh.83.), İbni Məs'uddan nəqlən belə deyir: *"Süfyani Fərat çayından keçib Haqər Qufa adlı bir yerə çatan zaman Allah-taala onun imanını aradan aparar. Sonra yetmiş min nəfərlə, qılınclarını bellərinə asmış halda Düceyl (kiçik Dəclə) adlı çaya üz gətirərlər. Onlardan əvvəl başqaları da olacaqlar ki, qızıl evə (qəsrə) qalib gələrlər. Mübarizləri öldürüb hamilə qadınların qarnını yırtar və güman edərlər ki, onların bətnində oğul vardır. Qüreyş qadınlarından bir qrupu Dəclə çayının sahilində gəminin sərnişinlərindən xahiş edərlər ki, onları gəmiyə mindirsinlər və özləri ilə aparsınlar. Amma onlar, Bəni-Haşimə qarşı bəslədikləri kin-küdurətə görə qadınları özləri ilə aparmazlar."*

"Qılıncları bellərinə asmış halda" cümləsinin mə'nası budur ki, onlar silah növündə digər əsgərlərlə fərqlənir. Qeyd olunan "qızıl ev" isə, bizim nəzərimizcə, Dəclə, yaxud Düceyl çayının kənarında yerləşən qəsr, yaxud orada tapılan xəzinə ola bilər. "Qüreyş qadınları" dedikdə məqsəd, Əhli-beyt zürriyyəsindən olan Ələvi xanımlarıdır. Əli (əleyhis-salam) bu barədə belə buyurur: *"Süfyaninin ordusu Kufəyə daxil olar, tutduğu hər bir kəsi qətlə yetirər. Onlarda o qədər yırtıcılıq və adam öldürmək xasiyyəti vardır ki, hər biri böyük və qiymətli gövhərlə qarşılaşsa, ona əhəmiyyət verməz, lakin kiçik yaşlı bir uşağı görsə, onu tutub qətlə yetirər."*[1]

Rəvayətlərdə yuxarıda qeyd olunan yerlərdən əlavə, digər yerlərin adını da, o cümlədən, Zər'a (Bağdad), Ənbar, Sərat, Faruq və Rovhanın adı qeyd edilir ki, Süfyaninin qoşunu orada bir yerə toplaşacaqdır. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Yüz otuz min nəfər Kufəyə göndərilərək Rovhada və Faruqda, altmış min nəfəri isə oradan hərəkət edib Kufədəki Nüxeylədə – Hud (əleyhis-salam)-ın qəbrinin yaxınlığında düşərgə salacaqlar."*[2]

Səfarini Hənbəlinin "Ləvaihul-ənvaril-bəhiyyə" kitabında Süfyani barəsində deyilir: *"O, türklərlə müharibə aparıb onlara qələbə çalacaqdır. Sonra yer üzərində fəsad törədəcək, Bağdada daxil olaraq əhalinin çoxunu qılıncdan keçirəcəkdir."*

Bir sözlə, Süfyaninin İraqa hücumu çox kinli, qəzəbli və dağıdıcı bir hücumdur. O, öz məqsədlərinə – Həzrət Məhdi (əleyhis-salam)-ın şiələrini qır-

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.219.
[2] Yenə orada, səh.273.

maq – müəyyən qədər müvəffəq olacaqdır. Süfyani hökumət tərəfindən güclü müqavimətə malik olan qüvvələrlə qarşılaşacaqdır. Hətta şiələrin nahiyəsindən də müqavimət zikr olunmamışdır, yalnız bu qeyd olunur ki, əcəmdən (qeyri-ərəbdən) olan bir kişi az saylı və silahsız bir qrupla Süfyaninin ordusunun qarşısında dayanacaq və Süfyani onları qətlə yetirəcəkdir: *"Bu zaman əcəmdən və Kufə əhlindən olan bir kişi zəif bir qrupla qiyam edəcək, Süfyani ordusunun sərkərdəsi onu Hiyrə-Kufə arasında qətlə yetirəcəkdir."*[1]

Tezliklə, İbni Həmmadın aşkar şəkildə nəql etdiyi "onlar az hal istisna olmaqla, silahsızdırlar" cümləsini qeyd edəcəyik. Lakin Süfyaninin hücumu onun ikinci hədəfini – İraqda hakimiyyətini möhkəmlətmək fikirləri – gerçəkləşdirməyəcəkdir. Əksinə, bir neçə həftə keçməmiş, onun qüvvələri zühura zəmin yaradan Xorasan və Yəmən qoşunlarının İraqa tərəf hərəkət etmə xəbərini eşidəcək və şiddətli qorxu hissi keçirəcəklər. Süfyani qüvvələri onların qarşısında geri çəkilməyə məcbur olacaq və onların arasında mühribə baş verməyəcəkdir, bu iş yalnız bir neçə yerdə, özü də pərakəndə şəkildə olacaq və onlar məğlubiyyətə uğrayacaqlar.

Güclü ehtimala əsasən, Süfyani öz qoşunlarını İraqdan buna görə geri çəkəcəkdir ki, onların hamısını, yaxud böyük bir hissəsini Hicazda yeni proqramları icra etmək və ehtiyac duyduğu məqsədlər üçün tə'yin etsin və öz puç gümanına görə həzrət Məhdi (ərvahuna fidah)-ın Məkkədəki hərəkatına son qoysun. Çünki bə'zi rəvayətlərdə qeyd olunur ki, Süfyaninin İmam Məhdi (əleyhis-salam)-ın qiyamına son qoymaq üçün Hicaza göndərdiyi qoşun İraqdan göndəriləcəkdir, bə'ziləri də demişdir ki, Şamdan göndəriləcəkdir. Əlbəttə, onların bir qisminin Şamdan, digər bir qisminin isə İraqdan göndərilməsi mümkündür. İmam Baqir (əleyhis-salam)-dan belə rəvayət olunur: *"Süfyani sayı 70 min nəfərə çatan bir qoşunu Kufəyə göndərəcək, oranın əhalisini qətlə yetirmək, dara asmaq və əsir tutmaqla müsibətə düçar edəcəkdir. Bu halda Xorasan tərəfindən qara bayraqlılar gələcək, evləri biri digərindən sonra sür'ətlə arxada qoyacaqlar (onların arasında həzrət Qaim (əleyhis-salam)-ın köməkçilərindən vardır)."*[2]

İbni Həmmadın əlyazmasında deyilir: *"Süfyani Kufəyə varid olub orada üç gün müddətində qətl-qarət törədər, oranın əhalisindən altmış min nəfəri qətlə yetirər və 18 gecə orada qalar. Bundan sonra qara*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.238.
[2] Yenə orada, səh.238.

*bayraqlılar gələr və suyun kənarında düşərgə salarlar. Süfyaninin köməkçiləri onların gəlişindən xəbərdar olan kimi qaçmağa üz qoyarlar. Bir dəstə adam Kufənin xurmalıqlarından çıxar, halbuki onlardan bir azı istisna olamaqla silahlı deyildirlər, bə'ziləri də Bəsrə əhalisindəndir. Onlar Süfyaninin köməkçilərini tapar və Kufəni onların əlindən azad edərlər. Qara bayraqlılar bey'ət etmək üçün bir dəstəni İmam (əleyhis-salam)-ın yanına göndərərlər."*[1]

Əmirəl-mö'minin Əli (əleyhis-salam)-dan nəql olunan sonrakı rəvayət İraqın bə'zi hissələri Süfyani tərəfindən işğal olunması, daha sonra Xorasandan və Yəməndən zühura zəmin yaradanların gəlişi ilə əlaqədar belə buyurur: "O, 130 min nəfəri Kufəyə göndərəcəkdir. Onlar Rovhada və Faruqda düşərgə salacaqlar. Onların altmış min nəfəri Kufəyə gedər, nəhayət Hud (əleyhis-salam)-ın qəbrinin yanında – Nüxeylədə düşərgə salarlar. Bayram günü onlara hücum edərlər. Camaatın hakimi zalım və kin-küdurətli bir adamdır, ona kahin və sehrkar da deyərlər. Onlardan biri sərkərdə ünvanı ilə beş min nəfər kahinlə birlikdə Bağdaddan onlara tərəf gələr. Yetmiş min nəfəri o şəhərin körpüsü üzərində qətlə yetirər. Belə ki, camaat üç gün ərzində qanların və cəsədlərin üfunətli iyindən Fərata yaxınlaşmazlar. Yetmiş min qız – əlləri və üzləri görünməmiş çağlarında – əsir alınarlar, onları miniklərə mindirib Nəcəfdəki bir yerə apararlar. Bu zaman Kufədən yüz min müşrik və münafiq çölə çıxar, gəlib Dəməşqə daxil olarlar. Onların qarşısını heç nə ala bilməz. Onların yeri olan Irəmdə çoxlu uca binalar vardır. Nişansız və əlamətsiz bayraqlar – pambıqdan, kətandan və ipəkdən olmayan bayraqlar – məşriq tərəfdən gələr ki, onların sancıldığı çubuqların üstündə müəyyən əlamətlər vardır. O həzrətin övladlarından biri bayraqları hərəkətə gətirər, şərq tərəfdən zahir olar. Onun ətirli iyi müşk-ənbər kimi qərbdə hiss olunar. Onların gəlişindən bir ay qabaq düşmənlərin qəlblərinə vəhşət və qorxu daxil olar, nəhayət öz atalarının intiqamını almaq üçün Kufəyə girərlər. Bu zaman yəmənli və xorasanlı süvarilər – saçları pərişan, toz-torpağa bulaşmış dəvələr və nəcib nəsilli atlar kimi – Kufəyə doğru tələsərlər. Onlardan biri öz ayağının altına baxdıqda deyər: "Bu gün bizim oturmağımızda xeyir və səadət yoxdur. Pərvərdigara! Biz tövbə edirik!" Halbuki onlar ən yaxşı dindarlardır. Allah onları və onlar kimi olan Peyğəmbər övladlarını Özünün dəyərli kitabında belə vəsf etmişdir: *"Həqiqətən, Allah tövbə edənləri və pak*

[1] "İbni Həmmadın əlyazması", səh.84.

*qəlbliləri sevir."* Nəcran əhlindən bir nəfər xüruc edər və İmamın də'vətinə müsbət cavab verər. O, bu də'vəti qəbul edən ilk məsihidir və öz mə'bədini dağıdaraq xaçını sındıracaq, qullarla və zəif insanlarla birlikdə qiyam və hidayət bayraqları ilə Nüxeyləyə tərəf hərəkət edəcəkdir. Bütün yer üzündəki insanlar Faruqda bir yerə yığışacaqdır. O gündə məşriqlə məğrib arasında üç milyon adam öldürüləcəkdir ki, onlardan bə'ziləri digərlərini qətlə yetirəcəkdir. Belə bir gündə bu ayənin tə'vili aşkar olacaqdır: *"Bu həmişə onların iddiası idi, nəhayət onları (qılıncla) biçilmiş və sönük qərar verdik."*[1]

Bu rəvayətin bə'zi nüsxələrində səhvlər mövcuddur. Daha dəqiq nəzərə çarpan rəvayət isə "Biharul-ənvar"da Əli (əleyhis-salam)-dan nəql olunan bu rəvayətdir: "Ey insanlar! Fitnə və fəsad sizin ölkənizi ölüm və həyatından sonra məhv etməmişdən, özünün nəhs kölgəsini ona salmamışdan, məğrib tərəfdən quru odunlara od düşməmişdən, uca nida edilməmişdən qabaq (istədiyiniz şeyləri) məndən soruşun! Vay olsun ona, bir intiqam alandan və onun kimisindən; o zaman ki, ruzigarın dövranı uzanar, siz deyərsiniz ki, o ölmüş, yaxud həlak olmuşdur (əgər diridirsə, onda harada yaşayır?). Bu zaman bu ayənin mə'nası gerçəkləşər: "Sonra qələbəni sizin üçün qaytardıq və sizə mal-dövlət və oğullarla kömək etdik, cəmiyyətinizi onlardan artıq qərar verdik." O həzrətin zühurunun müəyyən nişanə və əlamətləri vardır: Əvvəlcə Kufənin pusqu qurulma, daş atılma, küçələrinin küncündə müəyyən yerlərdə yarıqlar icad edilməsi ilə mühasirəyə alınması, 40 gün müddətində məscidlərin boş qalması, mə'bədin kəşf edilməsi, böyük məscidin ətrafında bayraqların sancılmasıdır ki, o bayraqlar hidayət bayraqlarına oxşayır; həmçinin öldürən və öldürülən – hər ikisi Cəhənnəm odunda olacaqdır. Çoxlu qırğınlar, sür'ətli ölümlər, Nəfsi-Zəkiyyənin yaxşı insanlardan yetmiş nəfərlə birlikdə qətlə yetirilməsidir ki, Rükn ilə Məqam arasında onların başları kəsiləcəkdir. Əsbəğ Müzəffərin bütxanada şeytansifət insanlardan çoxu ilə birlikdə olması, Süfyaninin yaşıl (yaxud qırmızı) bayraq və qızıl xaçla qiyam etməsindən ibarətdir. Onun sərkərdəsi Kəlb qəbiləsindən olan bir kişidir. 12 min nəfər süvari Süfyanini Məkkə-Mədinəyə tərəf müşayiət edər. O qrupun sərkərdəsi Bəni-Üməyyədən olan Hüzeymə adlı bir şəxsdir. Onun sol gözü görmür və digər bir gözündə də qan (ləkəsi) vardır. Dünyaya hərisdir, ondan qaçan elə bir bayraqdar yoxdur ki,

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.273-274.

Mədinədə düşərgə salmasın. Peyğəmbər Əhli-beytindən olan kişilər və qadınları bir yerə toplayıb onları Mədinə evlərindən "Əbulhəsən Əməvinin evi" adlı bir yerdə həbs edəcəkdir. Onun süvariləri Peyğəmbər Əhli-beytindən olan bir şəxsi axtaracaqlar, amma Məkkədə müstəz'əf kişilər onun ətrafını tutacaqlar ki, onların da rəisi Qətfan qəbiləsindən olan bir kişidir. Nəhayət, səhrada iri ağ daşların arasından çıxacaqlar və elə oradan yerə batacaqlar. Onlardan heç kəs sağ qalmayacaqdır, yalnız bir nəfər nicat tapacaqdır ki, Allah onun üzünü arxaya döndərəcəkdir ki, onları qorxutsun və gələcək nəsillər üçün bir ibrət olsun. O gündə *"əgər görsəydin, o anlarda ki, qorxdular və yaxın yerdən tutuldular"* ayəsinin tə'vili aşkar olacaqdır. Süfyani yüz otuz min nəfəri Kufəyə göndərəcək və onlar Rovhada, Faruqda, həzrət Məryəm və İsanın məqamında, Qadisiyyədə düşərgə salacaqlar. Onların 80 min nəfəri Kufəyə yola düşüb Hud peyğəmbərin qəbrinin yanında – Nüxeylədə düşərgə salacaqdır. Bayram günündə hər yerin çırağban olduğu bir yerdə ona hücum edəcəklər. (O zaman) camaatın rəhbəri zülmkar bir adamdır ki, ona kahin və sehrkar deyirlər. O, Zəvra (Bağdad) adlanan bir şəhərdən beş min nəfər kahinlə birlikdə çıxacaq və şəhərin körpüsü üzərində 70 min nəfəri qətlə yetirəcəkdir. Belə ki, camaat axıdılan qanların və cəsədlərin üfunətli iyindən Fərata yaxın düşməyəcəklər. Əlləri və üzləri hicabsız görünməyən iffətli qızları Kufədə əsir tutub miniklərə mindirərək Nəcəfdəki bir yerə aparacaqlar. Bu zaman yüz min müşrik və münafiq Kufədən çıxacaqlar. Bir kəs onlara mane olmadan Dəməşqə gedəcəklər. O Irəmin çoxlu uca binaları vardır. Məşriq tərəfdən qara bayraqlılar – onların bayrağı pambıq, kətan və ipəkdən deyildir – gələcəklər, halbuki onların çubuqlarının üstündə müəyyən əlamətlər vardır. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əhli-beytindən olan bir kişi onları irəli aparacaqdır. O, məşriqdə zahir olduğu bir zaman ətirli iyi müşk-ənbər kimi məğribdəki insanlara çatacaqdır. Onlar (hələ) bir aylıq yolda olduqları halda düşmənlərin qəlbinə qorxu dolacaqdır. Sə'din fasiq övladları Kufədə atalarının intiqamını almağa başlayacaq, nəhayət Hüseynin süvariləri müsabiqə atları kimi pərişan, toz-torpağa bulaşmış, alınları ağ və gözləri yaş axıdan halda onlara hücum edəcəkdir. Gözlənilmədən onlardan biri ağlar halda ayağını yerə vuracaq və deyəcəkdir ki, "bu gündən sonra oturmaqda heç bir xeyir və səadət yoxdur. Pərvərdigara! Biz tövbə edənlərdən və ürəyi sınanlardanıq. Sənin rübubiyyət məqamına itaət edir və alnımızı

torpağa qoyuruq." Onlar elə böyük şəxsiyyətlərdir ki, mütəal Allah Qur'anda onları vəsf edərək belə buyurmuşdur: *"Allah tövbə edənləri və pakizələri sevir."* Həmçinin Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in Əhli-beytindən olan digər pak insanlar da belədir.

Nəcrandan olan bir kişi qiyam edərək İmamın də'vətinə müsbət cavab verəcək. O, İmama müsbət cavab verən ilk məsihidir ki, öz mə'bədini dağıdacaq, xaçını sındıracaq, qullar, zəif insanlar və süvarilərlə birlikdə qiyam edəcək, hidayət bayraqları ilə birlikdə Nüxeyləyə doğru yola düşəcəkdir. Yer üzünün bütün insanlarının yığışdığı yer Faruqdadır. O da Əmirəl-mö'minin Əli (əleyhis-salam)-ın həccə getdiyi yol üzərində – Fəratla Bərəsin arasında yerləşir. O gündə məğriblə məşriq arasında üç min-min (üç milyon) yəhudi və məsihi öldürüləcəkdir. Eləcə də, onların bə'ziləri digərlərini qətlə yetirəcəkdir. O gündə bu ayənin xarici nümunəsi gerçəkləşəcəkdir: *"O, həmişə onların iddiası idi, nəhayət onları sönmüş gözlərdə qərar verdik."* Bu da qılınc vasitəsilə, qılınc sayəsində olacaqdır.

Bu rəvayətin əvvəl və axır hissələri bütün dünya səviyyəsində olan bir müharibəni xatırladır ki, onun virançılıqları qərbi yaxalayacaqdır və onda üç min-min, yə'ni üç milyon nəfər qətlə yetiriləcəkdir. Biz bunu öz yerində bəyan edəcəyik.

*"Kufənin küçələrində yarıqlar icad edilməsi"* – cümləsinin mə'nası bəlkə də Süfyaninin hücumları qarşısında küçə müharibələri və səngər qazılması ola bilər. Tezliklə Məkkədə, Hicazda zühur hərəkatı zamanı "Məscidül-həramın ətrafında üç bayraqlılar" barəsində söhbət edəcəyik ki, bunlar da həzrət Məhdi (ərvahuna fidah)-ın zühurundan azacıq qabaq qüdrəti ələ keçirmək üçün bir-birilə çəkişəcəklər. "Nəcəfdə pak təbiətli bir insanın 70 nəfərlə birlikdə" və bə'zi rəvayətdə "layiqli və saleh insanlardan yetmiş nəfərlə öldürülməsi", bəlkə də cənab Sədrin şəhadəti ilə əlaqədardır. Çünki o, saleh insanlardan yetmiş nəfərlə birlikdə şəhadətə çatdırılmışdır. Kufənin arxası da elə həmin Nəcəfi-Əşrəf şəhəridir.

Həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan azacıq qabaq Rükn ilə Məqam arasında şəhadətə çatan pak insan o həzrətin Məkkə əhalisinə doğru göndərdiyi şəxsdir. Bu rəvayətdə bir neçə ad və kəlmə işlənmişdir ki, onda məqsədin nə olduğu tam aydın deyildir. O cümlədən, Əsbəğ Müzəffəri qeyd etmək olar ki, bütxanada, özü də çoxlu şeytansifət insanlarla, o cümlədən Sə'din oğlanları və s. kimi adamlarla birlikdə qətlə yetiriləcəkdir.

Bə'zi rəvayətlərdə qeyd olunur ki, həzrət Məryəm və İsa (əleyhimas-salam) İraqda görüş keçirib Qadisiyyədə mənzil saldılar və bir müddət Bağdadın yaxınlığındakı Bərasa məscidinin yerləşdiyi məhəllədə qaldılar. Allah daha yaxşı bilir. Hud (əleyhis-salam)-ın Nüxeylədəki qəbri məşhur bir məsələdir. O, Nəcəfi-Əşrəfin yaxınlığında "Vadiyus-səlam"da yeləşir. Camaata hakimlik edən kahin və sehrkar bir şəxs bəlkə də Şeysbanidir ki, rəvayətdə qeyd olunmuşdur və Süfyanidən qabaq İraqda xüruc edəcəkdir. Şərqdən gələn qara bayraqlılar da Xorasanlı zühura zəmin yaradanlardır. Bayraqların yuxarısında xüsusi əlamət və möhürdən məqsədin nə olduğuna gəldikdə isə, bəlkə də İran İslam respublikasının gerbindəki "Allah" şüarı ola bilər. (İran inqilabının böyük rəhbəri İmam Xomeyni bunu seçmişdir.) İkinci rəvayətdə qeyd olunan Faruq da ravilərdən birinin təfsiri və əlavəsi ola bilər ki, sonralar rəvayətin mətninə keçmişdir. Bunun Əli (əleyhis-salam)-ın sözlərindən olması qeyri-mümkündür. Bəlkə də camaatın ora yığıldığı məkan dedikdə, Məhdi (ərvahuna fidah)-ın qüvvələrinin həmin yerdə toplaşmasıdır. Bundan sonra müsəlmanlarla qeyri-müsəlmanlar arasında dünya müharibəsi başlanacaqdır.

Diqqət yetirmək lazımdır ki, Əmirəl-mö'minin Əli (əleyhis-salam)-dan nəql olunan bu və sair rəvayətlərdə həm sənəd, həm də mətn baxımından dəqiq təhqiqat aparılmasına ehtiyac duyulur. Zahirən bu uzun xütbə və rəvayətlərdən çoxu ravilərin və alimlərin xütbə və məqalələrindən ibarətdir ki, Əmirəl-mö'minin (əleyhis-salam) və sair İmamlardan gəlib çatan rəvayətlərin bir çoxunu onların arasına salaraq tənzim etmiş, bundan sonra hamısını birlikdə İmamlara mənsub etmişlər.

## SÜFYANİ ORDUSUNUN HİCAZA DOĞRU HƏRƏKƏTİ (YERƏ BATAN QOŞUN)

Allahın köməyi ilə, tezliklə həzrət Məhdi (ərvahuna fidah)-ın müqəddəs zühuru barəsində danışacağıq. Həmçinin Hicazda baş verən siyasi çəkişmələri də qeyd edəcəyik. Belə ki, rəvayətlərin bəyanı ilə desək, Hicazın hakimi Əbdüllahın öldürülməsindən sonra növbəti hakimlik barəsində ixtilaf yaranacaq, Hicaz qəbilələrinin hakimiyyət uğrunda apardıqları mübarizələr şiddətlənəcəkdir. Bu çəkişmələr Hicaz hökumətini o qədər zəiflədəcəkdir ki, həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) öz hərəkatını Məkkədən çox asanlıqla başlayacaq, şəhəri zalımlardan azad və öz hakimiyyətini bərqərar edəcəkdir. Bu dövrdə Hicaz hökuməti həzrət Məhdi (əleyhis-salam)-ın hərəkatını boğmaqda özünü aciz və zəif görəcək. Bu hökumət, yaxud böyük dövlətlər Süfyanini meydana daxil edəcəklər ki, belə bir mühüm

işi yerinə yetirsin. O da öz qüvvələrini əvvəlcə Mədineyi-münəvvərəyə, sonra isə Məkkəyə göndərəcəkdir. Bu zaman həzrət Məhdi (əccəlallahu taala fərəcahuş-şərif) müsəlmanlara və bütün dünyaya bildirəcəkdir ki, İlahi mö'cüzə baş verməə ərəfəsindədir. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in tə'biri ilə desək, bu, və'dəsi verilən bir işdir, o da Süfyani ordusunun Məkkənin yaxınlığındakı çöldə yerə batmasıdır. Bu mö'cüzədən sonra həzrət öz müqəddəs hərəkatını davam etdirəcəkdir.

Bə'zi rəvayətlərdə deyilən bu mətləbə üstünlük verilə bilər. O da bundan ibarətdir ki, Süfyani orduları Hicaza, xüsusilə həzrət Məhdi (əleyhis-salam)-ın hərəkatından qabaq Məkkə və Mədinəyə göndəriləcəkdir. Onun ordusu həzrət Məhdi (əccəlallahu taala fərəcahuş-şərif)-i və onun köməkçilərini axtarıb tapmaq üçün Mədineyi-münəvvərəyə daxil olacaq və orada çoxlu cinayətlər törədəcəkdir. Bu zaman həzrət, Musa (əleyhis-salam) kimi Mədinədən iztirabla çıxacaq, Məkkəyə yollanacaqdır. Bundan sonra mütəal Allah o həzrətə zühur icazəsi verəcəkdir.

Şiə və sünnü mənbələrində mövcud olan rəvayətlər Süfyani ordusunun İraq və Şam nahiyəsindən Mədinəyə daxil olacağını və oranı ağır hücuma mə'ruz qoyacağını və dağıntı törədəcəyini vəsf edir. Belə ki, onun qarşısında heç bir müqavimət dəstəsi tab gətirə bilməz. O, həzrət Məhdi (əleyhis-salam)-ın köməkçiləri və Əhli-beyt şiələri ilə qarşılaşarkən İraqda olduğu kimi, qadın-kişini, böyük-kiçiyi qırmaqda hər bir zülmü rəva görəcəkdir. Rəvayətlərdə deyilir ki, Süfyaninin Mədinəyə hücumu daha artıq şiddətlə olacaqdır. "İbni Həmmadın əlyazması"nda İbni Şəhabdan belə nəql olunur: *"Süfyani öz ordusu ilə Hicazı dağıtdıqdan sonra Kufəyə daxil olan süvarilərin sərkərdəsinə məktub yazıb ona əmr edəcəkdir ki, Hicaza tərəf hərəkət etsin. O da Hicaza doğru yola düşəcək və Qüreyşi kütləvi şəkildə qıracaqdır. Onlardan dörd yüz nəfər kişini və həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərindən bir qədərini öldürəcək, hamilə qadınların qarnını yırtıb körpələrini qətlə yetirəcək; Qüreyşdən olan iki qardaşı qətlə yetirəcək, Məhəmməd və Fatimə adlı bacı-qardaşı Mədinə məscidinin qapısında dar ağacından asacaqdır."*[1]

Başqa rəvayətdə deyilir ki, bu bacı-qardaş Nəfsi-Zəkiyyənin əmisi övladlarındandır ki, İmam Məhdi (əccəlallahu taala fərəcahuş-şərif) onları Məkkəyə göndərəcək, onlar da həzrətin zühurundan on beş gün qabaq Məscidül-həramda qətlə yetiriləcəklər. Bu bacı-qardaş İraqdakı Süfyani ordusunun əlindən

[1] "İbni Həmmadın əlyazması", səh.88.

qaçmış olacaqlar, amma İraqdan onlarla yanaşı gələn bir casus onları tutub düşmənlərə təhvil verəcəkdir. Aşağıdakı rəvayət göstərir ki, Süfyani Mədinədə Bəni-Haşim qəbiləsi və onların şiələrini qətlə yetirməsinə bəraət qazandırıb deyir ki, İraqda xorasanlı qüvvələr tərəfindən öldürülənlərin intiqamını bu əməllə alıram!

İbni Həmmadın əlyazmasında Əbi Qübeyldən belə nəql olunur: Süfyani öz ordusunu Mədinəyə göndərər və onlara göstəriş verər ki, orada Bəni-Haşimdən olan heç bir kəsi, hətta hamilə qadınları belə sağ qoymasınlar. Bu qırğını da öz köməkçiləri ilə birlikdə şərqdən xüruc edən Haşimi bir şəxsin əməllərinin nəticəsi kimi cilvələndirər. Süfyani "Bütün bu bəlalar və köməkçilərimin öldürülməsi Bəni-Haşim tərəfindəndir" - deyərək, onların qətlə yetirilməsinə dair fərman verər. Belə ki, Mədinədə onlardan heç kəs qalmaz, hamısı, hətta qadınlar belə çöllərə və dağlara üz tutar və Məkkəyə tərəf qaçarlar. Süfyani onları bir neçə gün müddətində qırdıqdan sonra bu qırğını dayandırar. Onlardan sağ qalan hər bir şəxs vəhşət hissi keçirər, nəhayət həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) Məkkədən aşkar olar. Oraya gələn hər kəs o həzrətin ətrafına toplaşar.[1]

İmam Baqir (əleyhis-salam) buyurur: *"Süfyani və onun köməkçiləri zahir olduqda, onun Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əhli-beytinə və onların ardıcıllarına qələbə çalmaqdan başqa bir fikri olmaz. Buna görə də bir qoşun bölməsini Kufəyə göndərər. Onlar Peyğəmbər Əhli-beytinin şiələrindən olan bir qrupla qarşılaşar və onların hamısını öldürər, yaxud dar ağacından asar. Sonra Xorasandan bir qoşun gəlib Dəclə çayına daxil olar. Əcəmdən olan zəif bir kişi öz ardıcılları ilə qiyam edər və Nəcəfdəki çarpışmalarda giriftar olar. Süfyani bir qoşun bölməsini Mədinəyə göndərər, onlar da orada bir nəfəri qətlə yetirərlər. Məhdi və Mənsur oradan qaçar, amma Peyğəmbər Əhli-beyti böyüklü-kiçikli tutularlar. Elə bir adam qalmaz ki, tutulub həbs edilməmiş qalsın. Süfyaninin ordusu o iki nəfəri axtarmağa başlayar. Məhdi (əleyhis-salam) Musa (əleyhis-salam)-ın üslubu ilə, nigaran və iztirablı halda, Mədinədən çıxıb Məkkəyə yola düşər."*[2]

"Biharul-ənvar"da (52-ci cild, səh.252) Süfyani barəsində belə qeyd olunur: *"Süfyani özünün çoxlu ordusu ilə Mədinəyə daxil olacaqdır."* "Müstədrəki Hakim"də (4-cü cild, səh.442) isə belə deyilir: *"Mədinə əhli Süfyaninin həmləsindən öncə şəhərdən xaric olar."*

---

[1] "İbni Həmmadın əl nüsxəsi", səh.89.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.222.

Belə nəzərə çarpır ki, rəvayətdə qeyd olunan və həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) ilə birlikdə Mədinədən çıxan Mənsur elə Məhəmməd Nəfsi-Zəkiyyədir ki, həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) onu Məscidül-hərama göndərəcək ki, o həzrətin peyğamını dünyaya çatdırsın, amma onu qətlə yetirərlər. Bu da ehtimal verilir ki, həmin şəxs Nəfsi-Zəkiyyə deyil, Məhdi (əleyhis-salam)-ın digər bir köməkçisi olsun.

Qeyd olunanlar Süfyaninin Mədinədə apardığı müharibələr və həmin yerdə törətdiyi cinayətlərdən nümunələr idi. Rəvayətlərdə Mədinədən başqa Süfyaninin işğal etdiyi Hicazın sair yerləri, eləcə də onun Məkkəyə daxil olması ilə əlaqədar bir söz deyilmir. Aydındır ki, Mədinənin işğal olunma müddəti çox çəkməz, nəhayət ordunun hamısı, yaxud onun əsas hissəsi Məkkəyə göndərilər ki, bu zaman Allah tərəfindən və’dəsi verilən mö’cüzə baş verər və onların hamısı Məkkənin yaxınlığında yerə batar. Rəvayətlərin bə’zilərində isə Süfyani ordusunun Mədinədə yalnız bir neçə gün qalacağından söhbət açılır. Lakin belə nəzərə gəlir ki, burada məqsəd, Süfyaninin Mədinəyə daxil olaraq orada yaramaz işlər törətdiyi vaxtdır, nəinki onun ordusunun Mədinədə, yaxud onun yaxınlığında düşərgə saldığı müddət.

Süfyani ordusunun Məkkə yaxınlığında yerə batması ilə əlaqədar rəvayətlər İslami mənbələrdə olduqca çox və mütəvatir həddədir. Bəlkə də onların ən məşhuru sünnü mənbələrində Ümmü Sələmədən nəql olunan aşağıdakı rəvayətdir: Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: *“Sığınacaq axtaran bir şəxs Allahın evinə pənah aparar, bu zaman ona doğru bir ordu göndərilər, nəhayət bu ordu Mədinə çöllərinə çatar və orada yerə batar.”*[1]

“Kəşşaf” təfsirinin müəllifi *“və əgər görsəydin, o zaman ki, qorxuya düşdülər və yaxın yerdən tutuldular”*[2] – ayəsinin təfsirində belə qeyd edir: “İbni Abbasdan rəvayət olunmuşdur ki, yuxarıdakı ayə Beyda çölündə (qoşunun) batması ilə əlaqədar nazil olmuşdur.

“Məcməül-bəyan” təfsirinin müəllifi yazır: Əbu Həmzə Somali dedi: “Əli ibni Hüseyn və Hüseyn ibni Əlidən eşitdim ki, o iki böyük şəxsiyyət belə buyururdular: *“Yuxarıdakı ayədən məqsəd, çöldəki ordudur ki, ayaqlarının altından giriftar olarlar (yer onları udar).”*[3]

---

[1] “Müstədrək”, 4-cü cild, səh.429; “Biharul-ənvar”, 52-ci cild, səh.182.
[2] “Səba” surəsi, 51-ci ayə.
[3] “Biharul-ənvar”, 52-ci cild, səh.186.

Hüzeyfə Yəmanidən belə rəvayət olunur: Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) məşriqlə məğrib arasında baş verən fitnəni xatırlatdı və buyurdu: *“Onlar belə bir fitnəyə giriftar olduqları zaman Süfyani Yabis çölündən (quru səhradan) onlara qarşı qiyam edər və nəhayət Dəməşqə gələrlər. Bu zaman iki ordu – biri şərqə, digəri isə Mədinəyə tərəf yola düşər, nəhayət Babil çölündə və qarğışlanmış şəhərdə (Bağdadda) yerə batarlar. Onlar üç min nəfərdən artıq adamı qətlə yetirər, yüz qadını zorla öz ixtiyarlarına keçirər, sonra oradan çıxaraq Şama doğru irəliləyərlər. Bu zaman hidayət ordusu qiyam edər və onlara çatıb hamısını qılıncdan keçirər, onların ölüm xəbərini aparacaq bir kəs belə, sağ qalmaz. İkinci ordu isə Mədinəyə daxil olub gecə-gündüz ərzində oranı qarət edər və camaatı qətlə yetirər, sonra oradan çıxıb Məkkəyə doğru yola düşərlər. Nəhayət, bir çölə çatdıqları zaman Allah-taala Cəbraili göndərər və buyurar: “Ey Cəbrail! Get onları məhv et!” Sonra Cəbrail o yerə güclü bir zərbə endirər və yer onları udar. Cübhəynədən olan iki nəfərdən başqa onlardan heç kəs sağ qalmaz.”*[1]

Əli (əleyhis-salam)-dan belə nəql olunur: *“Məhdi qarışmış saçlarla gələcək, üzündə bir xalı vardır. Onun hərəkatı məşriq tərəfdən başlanacaqdır. Bu məsələ baş verən zaman Süfyani qiyam edər və bir qadının hamiləlik dövrü qədər – doqquz ay ərzində hakim olar. O, Şamda qiyam edər və oranın əhalisini özünə itaətə vadar edər; yalnız haqq axtaran bir qəbilədən başqa ki, Allah onları Süfyani ilə birlikdə qiyam etməkdən saxlayar. O, böyük bir ordu ilə Mədinəyə tərəf hərəkət edər, bir çölə çatanda Allah onları həmin yerdə yerə batırar. Bu da Allah-taalanın buyurduğu “əgər görsəydin, o zaman ki, qorxu halına düşərlər və yaxın yerdən giriftar olarlar” – ayəsinin mə’nasıdır.”*[2]

Əli (əleyhis-salam)-ın buyurduğu *“Onun hərəkatının başlanması şərqdəndir”* - sözünün mə’nası budur ki, onun bu işi iranlı zəmin yaradanların dövləti ilədir. *“Bu məsələ gerçəkləşən zaman”* - cümləsinin mə’nası budur ki, onun işi başlanan, yaxud aşkar olan və dövlətləri bərqərar olan zaman Süfyani qiyam edəcəkdir. Bu rəvayətdə Süfyaninin xüruc vaxtı, həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna zəmin yaradan dövlətin qiyamından bilavasitə sonramı, yoxsa uzun illərdən sonra olacağı tə’yin edilməmişdir. Lakin ibarələrin düzümü iranlıların hökuməti ilə Süfyaninin xürucu arasında

[1] “Biharul-ənvar”, 52-ci cild, səh.186.
[2] “Qeybəti Nö’mani”, səh.163; “Məhəccəti Bəhrani”, səh.177.

bir növ tərtibə və əlaqəyə dəlalət edir və onun əməli iranlıların əleyhinə olan bir iş kimi qiymətləndirilir.

Hənnan ibni Südeyr belə deyir: İmam Sadiq (əleyhis-salam)-dan səhranın batması barədə soruşduqda buyurdu: *"Amma Sihra, Bərid yolu üzərindədir ki, Zatul-ceyşdən on iki mil məsafədə yerləşir."* (Zatul-ceyş Məkkə-Mədinə arasında olan bir məntəqənin adıdır.)

İbni Həmmadın əlyazmasında İmam Baqir (əleyhis-salam)-dan belə rəvayət olunur: *"Tezliklə sığınacaq axtaran bir şəxs Məkkəyə gələcəkdir, 70 min əsgər Qeysdən olan bir nəfərin sərkərdəliyi ilə oraya göndəriləcəkdir. Onlar Səniyyə adlı yerə çatacaq, axırıncı şəxsləri daxil olub birincisi çıxmamış, Cəbrail elə bir nida verəcək ki, bu səs dünyanın şərqində-qərbində olanların hamısına çatacaqdır: "Ey biyabanlar, ey biyabanlar! Onları tutun, çünki onlarda heç bir xeyir yoxdur!" Onların həlak olmasından yalnız oradakı dağda dayanıb tamaşa edən bir çoban agah olacaqdır. Kə'bəyə sığınan şəxs bu xəbəri eşitdikdə, oradan çıxacaqdır."*[1]

Həmin kitabda Əbu Qubeyldən belə nəql olunur: *"Onlardan heç biri sağ qalmaz, yalnız iki şəxsdən – müjdə verib qorxudandan başqa. Müjdə verən, Məhdi (əleyhis-salam) və onun köməkçilərinin yanına gəlib baş verən hadisələri xəbər verəcək, o səhnənin əlamətləri onun üzündən seziləcəkdir. Yə'ni Allah-taala onun surətini arxaya çevirəcəkdir. Beləliklə, onun üzünün arxaya çevrilməsini müşahidə etməklə özünü təsdiq edəcək və agah olacaqlar ki, o qövm yerə batmışdır. İkinci şəxs də birincisi kimidir. Allah onun üzünü də arxaya çevirmişdir. O da Süfyaninin yanına gəlib yolda baş verənləri deyəcəkdir. Süfyani də onda gördüyü əlamətlərə görə onun sözlərinə inanacaq, sözlərinin gerçək olduğunu qəbul edəcəkdir. Bu iki kişi Kəlb qəbiləsindəndir."*[2]

Həmin nüsxədə Həfsə Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in belə buyurduğunu nəql edir: *"Bir ordu məğrib tərəfdən gələcək və bu evi (Kə'bəni) almaq istəyəcəkdir, nəhayət onlar bir çölə çatacaqlar, yer onları udacaqdır. İrəlidə gedənlər geri qayıdıb nə baş verdiyini öyrənmək istədikləri vaxt onların başına gələn, bunların da başına gələcəkdir. Allah hər kəsi, onun niyyəti əsasında dirildəcəkdir."*[3]

[1] "İbni Həmmadın əlyazması", səh.90.
[2] Yenə orada, səh.91.
[3] Yenə orada, səh.90.

Yə'ni Süfyaninin ordusunda iştirak etməyə məcbur olan hər kəs, axirətdə onun ordusunda öz meyl və iradəsi ilə könüllü olaraq iştirak edənlər kimi olmayacaqdır. Amma o da həmin vaxt yerə batırılacaqdır.

Peyğəmbərdən nəql olunan digər bir rəvayətdə deyilir: *"Təəccüb edirəm o qövmə ki, bir yerdə öləcəklər, yaxud öldürüləcəklər. Amma onların yerləri bir-birilə müxtəlifdir.* Soruşdular: "Ya Rəsuləllah! Bu iş necə ola bilər?" Buyurdu: *"Ona görə ki, onların arasında öz meyli ilə deyil, məcburi olaraq gələnlər vardır. Yə'ni o kəslərdir ki, eyni bir yerdə və bir məkanda dünyadan getmişlər, amma Allah-taala Qiyamətdə onlardan niyyət və məqsədlərinə uyğun olaraq hesab çəkəcəkdir. Çünki onların bə'ziləri ikrah hissi ilə, arvad-uşaqları barədə yaranan qorxu ucbatından, bə'ziləri məcburiyyət üzündən, bə'ziləri isə öz meyl və rəğbətləri ilə orduda iştirak edəcəklər."*

Bir rəvayətdə qeyd olunur ki, Süfyaninin yerə batan ordusunun sayı 70 min nəfər deyil, 12 min nəfərdən ibarətdir. Digər bir rəvayətdə deyilir ki, onların üçdə biri yerə batacaq, üçdə birinin üzləri arxaya çevriləcək, üçdə biri də salamat qalacaqlar.[1]

### SÜFYANİNİN GERİ ÇƏKİLMƏSİ

Qoşunun yerə batması mö'cüzəsindən sonra Süfyaninin Məkkə yolundakı ordusu dağılmağa başlayar, bu zaman həzrət Məhdi (ərvahuna fidah)-ın səadətli ulduzu parlaqlığının ən yüksək həddinə çatar. Rəvayətlər Süfyani ordusunun yerə batması hadisəsindən sonra Hicazda digər bir məsələni qeyd etmişlər ki, bu hadisə onun Hicazdakı işlərinə son qoyacaqdır. Amma ehtimal verilir ki, onun müəyyən qüvvələri Mədinədə qalmış olsun və hökumətin qüvvələri (filankəsin xanədanı) ilə döyüşsünlər. Digər rəvayətdə qeyd olunur ki, həzrət Məhdi (əleyhis-salam) düşmən qüvvələrinin yerə batması mö'cüzəsindən sonra Mədinəni azad etmək üçün özünün bir neçə 10 nəfərlik ordusunu ora göndərəcək və düşmənlərlə mübarizə aparacaqdır.

Hər bir halda, həzrət Məhdi (əccələllahu taala fərəcəhuş-şərif) Mədinəni və Hicazı fəth və düşmən qoşunlarını məğlub edəcək. Süfyani ordusu onunla qarşılaşdığı hər bir yerdə – Hicaz, İraq və Şamda məğlubiyyətə uğrayacaqlar. Digər rəvayətlərdə bir, yaxud bir neçə müharibə qeyd edilir ki, bu da İraqda Süfyani ordusu ilə həzrət Məhdi (əleyhis-salam)-ın ordusu və onun Xorasandan olan köməkçiləri arasında baş verəcəkdir.

---

[1] Yenə orada, səh.90-91.

## ƏHVAZ DÖYÜŞÜ

Süfyani qüvvələrinin zühura zəmin yaradan iranlı və yəmənli qüvvələr tərəfindən məğlubiyyətə uğramasından sonra təbiidir ki, İraq həzrət Məhdi (əleyhis-salam) və onun köməkçilərinin hakimiyyəti altında olacaqdır. Süfyaninin Hicazda yenidən mö'cüzəli şəkildə məğlubiyyəti həzrət Məhdi (ərvahuna fidah)-ın köməkçilərinin İraqdakı hakimiyyətinin möhkəmlənməsinə digər bir amil olacaqdır. Xüsusilə, rəvayətlərdə qeyd olunur ki, zühura zəmin yaradanların qüvvələri Süfyani ordusunu məğlub etdikdən sonra İraqda yerləşəcəklər və İmam (əleyhis-salam)-la bey'ət etmək üçün bir qrupu Hicaza, o həzrətin yanına göndərəcəklər. İmam Baqir (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Xorasandan Kufəyə tərəf gələn qara bayraqlılar orada düşərgə salacaqlar. Məhdi zühur edərkən ona bey'ət etmək üçün bir dəstə adamı onun yanına göndərəcəklər."*[1]

Həmin rəvayət İbni Həmmadın əlyazmasında belədir: *"Xorasandan qara bayraqlılar Kufəyə tərəf gələrlər. Məhdi Məkkədə zühur edən zaman bir dəstə adamı onunla bey'ət etmək üçün oraya göndərərlər."*[2]

Amma Süfyaninin İraqda tamamilə məhv edilməsini gərəkli edən amillərin varlığı ilə, bə'zi rəvayətlər göstərir ki, onun qüvvələri İraqda çarpışmalarda olacaqdır və bu dəfə Süfyani, yalnız İmam Məhdi (əleyhis-salam)-ın qüvvələri ilə qarşılaşacaqdır. Bu zaman o həzrət iranlı qüvvələrin sərkərdəsi Şüeyb ibni Salehi özünün bütün qüvvələrinin baş sərkərdəsi tə'yin edəcəkdir ki, onların böyük bir hissəsini iranlılar, yəmənlilər və İslami ölkələrdən olan sair şəxslər təşkil edir. Rəvayətlərdən bə'ziləri yalnız "Istəxr" darvazasındakı müharibədən söhbət açır və onu Süfyani qüvvələri ilə həzrət Məhdi (ərvahuna fidah)-ın ordusu arasında baş verən ən böyük müharibə kimi vəsf edir.

"Istəxr" İranın cənubunda, Əhvazın ətrafında yerləşən qədim bir şəhərdir ki, İslamın əvvəllərində abad olmuşdur. Onun əsər-əlamətləri neft şəhəri olan Məscid-Süleymanda hələ də qalır. Hətta nəql olunub ki, bu şəhər həzrət Süleyman peyğəmbərin dövründə tikilmiş, o həzrət qış fəslində orada hökmranlıq etmişdir. Bəlkə də "Məscid Süleyman" həzrət Süleyman (əleyhis-salam) tərəfindən tikilən bir məscidin adı olmuşdur.

Rəvayətlərdə qeyd olunur ki, iranlı qüvvələr "Beyzai Istəxr" adlı yerdə (yə'ni Istəxr şəhərindəki ağ bir yerdə) toplaşacaqlar. Bəlkə də bu, Məscid Süleyman şəhərinin yaxınlığında yerləşən və "Ağ dağ" adı ilə

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.217.
[2] "İbni Həmmadın əlyazması", səh.88.

məşhur olan yüksəkliklərdən ibarətdir. Həmçinin iki və ya üç rəvayətdə göstərilir ki, İmam Məhdi (əccələllahu taala fərəcəhuş şərif) Mədinədən İraqa hərəkət etdiyi zaman əvvəlcə “Beyzai Istəxr”də düşərgə salacaq və iranlılar o həzrətə bey’ət edərək onun sərkərdəliyi altında Süfyani ordusu ilə ağır müharibəyə girişərək onu məğlub edəcəklər. Bu müharibənin ardınca həzrət Məhdi (əccələllahu taala fərəcəhuş-şərif) nurdan olan yeddi kəcavə ilə İraqa daxil olacaqdır ki, camaat o həzrətin onların hansı birində olduğunu bilməsin. (Bu məsələni “Zühur hərəkatı” bölməsində qeyd edəcəyik.)

İbni Həmmadın əlyazmasında Əli (ələyhis-salam)-dan belə nəql olunur: *“Süfyaninin süvariləri Kufəyə doğru getdikləri zaman bir qrupu Xorasan əhlini axtarmaq üçün göndərəcəkdir. Bu halda Xorasan əhli Məhdi (ələyhis-salam)-ı tapmaq üçün çıxacaqlar. Bu zaman xorasanlı Haşimi, qara bayraqlılarla – Şüeyb İbni Saleh qabaqda hərəkət etməklə – gəlib İmam (ələyhis-salam)-la görüşəcəklər. Həmçinin o həzrət Istəxr darvazasının yanında Süfyaninin tərəfdarları ilə qarşılaşacaq və onların arasında ağır müharibə baş verəcəkdir. Bu zaman qara bayraqlılar aşkar olacaq və Süfyaninin süvariləri qaçmağa üz qoyacaqlar. Bu vurhavurda camaat İmam (ələyhis-salam)-ı görməyi arzu edərək onu axtaracaqlar.”*[1]

“Haşimi onunla görüşəcəkdir” – cümləsinin mə’nası budur ki, həzrət Məhdi (əccələllahu taala fərəcəhuş şərif) və iranlı qüvvələrin sərkərdəsi Haşimi Xorasani bir-birilə görüşəcəklər. Sonrakı rəvayət aşkar şəkildə dəlalət edir ki, iranlı qüvvələr İmam Məhdi (ərvahuna fidah)-ı axtarmaq üçün çıxacaqlar ki, onunla bey’ət etsinlər və o həzrətin önündə, düşmənlərinin əleyhinə müharibə aparsınlar. Buna görə də İranın cənubundan Hicazın quru sərhədlərinə və Bəsrə nahiyəsinə üz tutacaqlar. Məhz bu zaman onların sərkərdəsi-Haşimi Xorasani və onun orduları həzrətlə görüşəcəklər. (Yə’ni İmam Məhdi (ələyhis-salam) Hicazı azad edib İranın cənubuna doğru hərəkət etdiyi zaman onunla görüşəcəkdir.) Bu zaman Süfyaninin qüvvələri ilə yuxarıda qeyd olunan müharibə – İranın cənubuna və İraqa daxil olduqları üçün – müharibə baş verəcəkdir. Bəlkə də bu dəfə öz qoşunlarını qərb qüvvələri ilə (Fars körfəzi və Bəsrə yolu ilə) müharibəyə daxil etmək məqsədi güdəcəkdir.

İbni Həmmadın əlyazma nüsxəsində (səh.86) belə bir rəvayət nəql olunur: *“Süfyani İraqda apardığı müharibədə ordularını dünyanın hər yerinə səpələyəcəkdir.”*

---

[1] “İbni Həmmadın əlyazması”, səh.86.

Bu göstərir ki, o, öz ordularını İraqda, eləcə də İran-İraq sərhədlərində pərakəndə vəziyyətə salacaqdır. Bu da Süfyani və onun qərb həmpeymanlarının dəniz qoşunlarının Fars körfəzində hazır olması fərziyyəsini gücləndirir. Aşağıdakı rəvayət həzrət Məhdi (ərvahuna fidah)-ın İranın cənubuna gəlməsini və Istəxr darvazasında, yaxud Ağ dağda baş verən müharibəni də bəyan edir. Amma çox təəssüflər olsun ki, rəvayətin mətnində bir qədər müəmma gözə dəyir: "Süfyani Kufəyə və Bağdada daxil olduqdan sonra öz ordularını dünyanın hər yerinə yayacaqdır, "Mavəraun-nəhr" (mesapatomiya) nahiyəsindən, Xorasan əhlindən qorxu və vəhşət hissi ona üz verəcəkdir. Bundan sonra şərq orduları Süfyaninin ordusuna hücum edərək onları qətlə yetirəcəklər. Bu xəbər ona çatdığı zaman böyük bir ordunu Istəxrə göndərəcək. Bu zaman Süfyani və onun orduları, Ağ dağda həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif) və Haşiminin ordusu ilə qarşılaşacaqlar. Burada elə ağır müharibə baş verəcəkdir ki, qan süvarilərin ayaqlarına çatacaqdır.

Birinci rəvayət Süfyani ordularının Əhvaz müharibəsində məğlubiyyətə uğraması və nəticədə baş verən dərin dəyişiklikləri qeyd edir ki, həzrət Məhdi (ələyhis-salam)-ın havadarları müsəlman millətlər arasından güclü bir dalğa kimi qalxacaq, o həzrətə qovuşub onunla bey'ət etmək üçün hərəkətə başlayacaqlar. *"Bu zaman camaat həzrət Məhdi ilə görüşməyi arzu edər və onu axtararlar."*

Hər bir halda, Süfyani İraq müharibəsində və ondan sonra Hicaz məntəqəsində məğlub olacaqdır. Şübhəsiz, bu hadisədən sonra tam məğlubiyyət və geri çəkilmək mərhələsi gəlir. Onun bütün sə'yləri öz hökumətinin (Şam diyarının) sərhədlərini qoruyub saxlamaq, Fələstin və Qüdsün son müdafiə xəttini və həzrət Məhdi (ələyhis-salam)-ın qüvvələrinin hücumları qarşısında özünü gücləndirməkdən ibarət olacaqdır. Rəvayətlər Süfyaninin həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif) və onun köməkçiləri ilə apardığı müharibədə yalnız bir böyük fəth – Qüdsün və Fələstinin azadlığını qeyd edir ki, Süfyaninin sonuncu müharibəsi olacaq, onun yəhudi və qərbli həmpeymanlarının məğlubiyyəti ilə nəticələnəcəkdir.

## SÜFYANİ VƏ QÜDSÜN FƏTH OLUNMASI UĞRUNDA APARILAN MÜHARİBƏ

Bu böyük müharibə ilə əlaqədar nəql olunan rəvayətlərdən aydın olur ki, xoşbəxtlikdən Süfyani ağır problemlərlə qarşılaşacaqdır. İlk çətinlik onun Şam əhalisi arasındakı canlı qüvvələrində zəifliyin yaranmasıdır. Çünki onun qüdrət və sərkərdəlik mövqeyi nə qədər

böyük olsa da, yenə də nəzərə almalıyıq ki, Şam əhalisi müsəlmandır və onlar həzrət Məhdi (əleyhis-salam)-ın mö'cüzə və kəramətlərini, öz zəmanələrinin zalım hakimlərinin məğlubiyyətini, İslam düşmənlərinin xeyrinə onların nökərçilik etdiyini gördükdə, o həzrətə eşq-məhəbbət, Süfyani və onun siyasətlərinə qarşı isə bezarlıq və pərakəndəlik hisləri güclənməyə başlayacaqdır.

Hətta mənim əqidəmcə, güclü ehtimala görə, həzrət Məhdi (ərvahuna fidah)-ın havadarlarının cəmiyyətdən qaynaqlanan hərtərəfli hərəkatı Suriya, İordaniya, Livan və Fələstindən başlanacaqdır. Çünki rəvayətlərdə qeyd olunur ki, Məhdi (ərvahuna fidah) öz ordusu ilə Şam diyarına qoşun yeridəcək, Mərəci-Əzrada (Dəməşqin otuz kilometrliyində) düşərgə salacaqdır. Bu da ən aşağısı bunu göstərir ki, Süfyani öz sərhədlərini qoruyub saxlamaq və həzrət Məhdi (əleyhis-salam)-ın ordusunun irəliləməsinə mane olmaqda acizdir. Hətta rəvayətlərdə deyilir ki, Süfyani öz paytaxtı Dəməşqi də boşaldacaq, Fələstinə qayıdacaq, paytaxtı və özünün qərargahını Rəmləyə – romalılar və onların qiyamçılarının düşərgə saldığı yerə köçürəcəkdir.

Həmçinin rəvayətlərdə deyilir ki, həzrət Məhdi (əccələllahu təala fərəcəhuş şərif) müharibəni bir az tə'xirlə başlayacaq, Dəməşqin ətraf məntəqələrində bir qədər qalacaqdır ki, Şamın böyük şəxsiyyətləri və mö'minləri gəlib ona qovuşsunlar. Sonra o həzrət, Süfyanidən istəyəcəkdir ki, onunla şəxsən danışıqlar aparsın. Bundan sonra bir-birilə görüşəcəklər. O, həzrət Məhdi (ərvahuna fidah)-ın şəxsiyyətinin tə'siri altına düşəcək və o həzrətlə bey'ət edəcək, qərara alacaqdır ki, müharibəni saxlayıb məntəqəni İmama təhvil versin. Lakin bundan sonra yaxın adamları və arxasında duranlar məzəmmət edib onu öz qərarından daşındıracaqlar.

Bu hadisələr Qüdsün fəthi və Fələstinin azad edilməsindən azacıq öncə baş verəcəkdir. Səbəbini də yalnız Süfyaninin əhali arasındakı arxasının zəif olması, camaatın isə həzrət Məhdiyə eşq və məhəbbət bəsləməsi ilə əlaqələndirmək olar. Hətta (bə'zi rəvayətlərin dilincə desək) Süfyani qüvvələrinin bir qismi həzrət Məhdi ilə bey'ət edərək ona qoşulacaqlar.

İmam Baqir (əleyhis-salam)-dan belə rəvayət olunur: *"Bu zaman o, (Məhdi (əleyhis-salam)) Kufəyə gələcək və Allahın istədiyi vaxta qədər orada qalacaq. Sonra öz yoldaşları ilə Mərəci-Əzraya gələcək, bu zaman camaatın çoxu o həzrətə qoşulmuş olacaqdır. Bu vaxt Süfyani Rəmlədə olmalıdır. Nəhayət, onlar bir-birilə görüşəcəklər. O gün həqiqi mö'minlərin*

*tanınması günüdür: Süfyani ilə olanlar Peyğəmbər Əhli-beytinə tabeçilikdən dönəcəklər. Peyğəmbər övladları olanların bir qrupu Süfyaniyə tərəf meyl edəcək və onun ardıcılları olacaqlar. O gün hər kəs öz bayrağına tərəf tələsəcəkdir. O gün həqiqi mö'minin başqalarından seçilib ayrılması günüdür."*[1]

İbni Həmmadın əlyazmasında Əli (əleyhis-salam)-dan belə rəvayət olunur: *"Süfyani bir ordunu Məhdiyə tərəf göndərdiyi zaman Beyda çölündə həlak olar. Bu xəbər Şam əhlinə çatdıqda, onlar öz hakimlərinə deyərlər ki, "Məhdi zühur etmişdir, onunla bey'ət et və onun itaətinə keç, əks halda səni öldürəcəyik!" O, bir dəstə adamı bey'ət etmək üçün o həzrətin yanına göndərəcək. Məhdi digər tərəfdən hərəkət edərək Beytül-müqəddəsdə düşərgə salacaqdır."*[2]

Bu rəvayət həzrət Məhdi (ərvahuna fidah)-ı sevənlər və Süfyaninin müxaliflərinin son hərəkətini göstərir. Həmin nüsxədə deyilir: *"Məhdi deyər: Mənim əmi oğlumu (Süfyanini) yanıma gətirin, onunla danışım." O, həzrətin yanına gələr və onunla söhbət aparar. Sonra işlərini Məhdiyə həvalə edər və onunla bey'ət edər! Süfyani öz köməkçilərinin yanına qayıtdığı zaman Kəlb qəbiləsi onu öz əməlindən peşman etdirər. Buna görə də o qayıdar, bağlanan əhd-peymanın qüvvədən salınmasını istəyər. İmam da onun bey'ətini qüvvədən salar. Bu zaman Süfyani İmamla müharibə aparmaq üçün öz ordusunu səfərbər edər, lakin İmam onu məğlub edər, romalılar da o həzrətin əli ilə məhv olarlar."*[3]

"Kəlb" Süfyaninin dayılarının və onların qəbiləsinin adıdır. Həqiqətdə, Süfyanini peşman etdirən və onun hökumətinin İmam (əleyhis-salam)-ın tərəfdarlarının hərəkatı qarşısında süqut etməkdən saxlamaq və onu həzrətlə müharibəyə təşviq etmək istəyənlər onun yəhudi və rumlu arxalarıdır. (Biz "Qüdsün fəth olunması" bölməsində bəyan edəcəyik.)

Süfyani öz xeyrinə yaranan bu şəraitdən və İmam Məhdi (əleyhis-salam)-ın ona verdiyi qızıl fürsətdən istifadə edə bilmir. Şamın müsəlmanları da Süfyani hökumətini yıxmağa və onun ordusunu məğlub etməyə müvəffəq olmadıqlarına görə Süfyani və onun həmpeymanları öz qüvvələrini böyük bir müharibə üçün hazırlayarlar. Bu müharibənin əsas mehvərləri, rəvayətlərdə deyildiyi kimi, Əkkadan Sura,

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.224.
[2] "İbni Həmmadın əlyazması", səh.96.
[3] Yenə orada, səh.97.

Antakiyadan dəniz sahillərinə, Dəməşqdən Təbəristana və Qüdsün daxilinə qədər geniş bir ərazini əhatə edəcəkdir.

Bu zaman Allah Süfyaniyə və onun həmpeymanlarına qəzəb edər, Allahın nişanə və mö'cüzələri həzrət Məhdi (ərvahuna fidah)-ın əli ilə aşkar olar. Süfyani və onun yəhudi-rumlu himayəçilərinnin qara günləri və bədbəxtlikləri başlanar və çox rüsvayçı şəkildə məğlubiyyətə uğrayarlar. Nəhayət Süfyani İmam Məhdi (əleyhis-salam)-ın köməkçilərinin birinin əli ilə tutular. Rəvayətlərdə qeyd olunduğu kimi, onu Təbəristan dəryaçasının kənarında, yaxud Qüdsün girişində qətlə yetirərlər. Beləliklə, on beş ay ərzində başqalarının uzun illər boyu törədə bilmədiyi ağır cinayətlərə əl atan tağutçu cinayətkar öldürülməklə fitnəyə son qoyular.

## YƏMƏN VƏ ZÜHUR DÖVRÜNDƏ ONUN İFA ETDİYİ ROL

Əhli-beyt (əleyhimus-salam) barəsində Yəməndə İslam inqilabı və onların həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna şərait yaratmaları ilə əlaqədar çoxlu rəvayətlər nəql olunmuşdur ki, onların əksəriyyətinin sənədləri səhihdir və bu inqilabın baş verməsinin qəti olduğunu aşkar şəkildə bəyan edir. Bu inqilab hədislərdə "hidayət bayrağı" və "həzrət Məhdi (əleyhis-salam)-ın qiyamına şərait yaradanlar" və "o həzrətin köməkçiləri" kimi vəsf edilmişdir. Hətta bə'zi rəvayətlərdə Yəmənin İslami inqilabı zühur əsrində ən çox hidayət edən bayraq kimi mütləq şəkildə qeyd edilmişdir. Həmçinin, ona kömək çatdırmaq barədə tə'kid edilir. Bundan da artıq tə'kid olunur ki, bu inqilab Süfyaninin xürucu ilə eyni zamanda və Rəcəb ayında, yə'ni həzrət Məhdi (ərvahuna fidah)-ın qiyamından bir neçə ay əvvəl onun paytaxtı Sən'a şəhərində baş verəcəkdir.

Amma onun rəhbərinin adına gəldikdə isə, rəvayətlərdə Yəməni adı ilə qeyd olunur. Bir rəvayətdə onun adı Həsən, yaxud Hüseyn qeyd olunur və Zeyd ibni Əli (əleyhimus-salam)-ın nəslindən olduğu deyilir.

İndi isə Yəmən inqilabı ilə əlaqədar ən mühüm rəvayəti qeyd edirik. İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"Qaimin qiyamından qabaq beş əlamətin baş verəcəyi qətidir: Yəməni (inqilabı), Süfyani (xürucu), asimani nida, Nəfsi-Zəkiyyənin qətlə yetirilməsi və səhrada (qoşunun) yerə batması."*[1] ... *"Süfyaninin, Yəmənininin və Xorasaninin qiyamı bir ildə, bir ayda və bir gündə baş verəcək və onlar silsiləvar şəkildə, bir-birinin ardınca, tərtiblə baş verəcəkdir. Bu zaman hər tərəfdə pərişanlıq və*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.204.

*çətinlik yaranar. Vay olsun o kəsə ki, onlarla müxalifət və düşmənçilik edə! Bayraqlar arasında ən çox hidayət edən Yəmaninin bayrağıdır. Çünki o, haqq bayrağıdır və sizi öz sahibinizə tərəf də'vət edəcəkdir. Yəməni qiyam etdiyi zaman camaata silah satmaq haramdır. O qiyam etdiyi zaman ona tərəf tələsin, çünki onun bayrağı hidayət bayrağıdır. Heç bir müsəlman üçün ona kömәkdən imtina etmək caiz deyildir. Əgər bir kəs belə edərsə, Cəhənnəm əhlindən olacaqdır. Çünki o, camaatı haqqa və düzgün yola də'vət edəcəkdir."*[1]

İmam Riza (əleyhis-salam)-dan belə nəql olunur: *"Bu əmrdən əvvəl Süfyani, Mərvani və Şüeyb ibni Saleh olacaq, amma necə olur ki, o-bu deyirsiniz?"*[2]

Mərhum Əllamə Məclisi deyir: Yə'ni necə ola bilər ki, Məhəmməd ibni İbrahim, yaxud başqası qiyam edən zaman "Qaim mənəm" deyərlər?! Rəvayətdə qeyd olunan "Mərvani" dedikdə məqsəd, ehtimal üzrə, Əbqə olmalıdır, yaxud bu rəvayətdə əslində Xorasani olmalıdır ki, nüsxə yazanlar bunu səhv köçürmüşlər.

İmam Sadiq (əleyhis-salam) buyurur: *"Bu üç nəfərin – Xorasani, Süfyani və Yəmaninin qiyamı bir ildə, bir ayda və bir gündə baş verəcəkdir. Yəmani bayrağı hər şeydən artıq hidayət edəndir. Çünki o, haqqa də'vət edəcəkdir."*[3]

Hüşam ibni Həkəmdən nəql olunmuşdur ki, o belə demişdir: Talibi-həqq qiyam etdikdə Əbu Əbdillah (İmam Sadiq) (əleyhis-salam)-a deyildi: "Bu şəxsin Yəməni olmasına ümidvarsınızmı?" Həzrət buyurdu: *"Xeyr! Yəməni Əlini sevənlərdir, halbuki bu şəxs o həzrətdən bezarlıq edir."*[4]

Həmin rəvayətdə qeyd olunur ki: *"Yəməni və Süfyani iki müsabiqə atına oxşayır. Hər biri çalışır ki, digərindən qabağa keçsin."*

Bə'zi rəvayətlərdə deyilir: *"O, (həzrət Məhdi (əleyhis-salam)) Yəməndən və Kər'ə adlı bir abadlıqdan qiyam edəcəkdir."*

Ehtimal üzrə, "bu şəxs" dedikdə məqsəd, həmin yəmənli şəxsdir ki, öz qiyamını bu məntəqədən başlayacaqdır. Çünki rəvayətlərdə mütəvatir şəkildə sübuta yetmişdir ki, həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) Məkkədən və Məscidül-həramdan qiyam edəcəkdir.

"Bişarətul-İslam" kitabında deyilir: *"O zaman Sən'adan Hüseyn, yaxud Həsən adlı bir sərkərdə qiyam edəcək. Onun qiyamı ilə fitnələr*

---

[1] "Bişarətul-İslam", səh.93, Nö'maninin "Qeybət" kitabından nəqlən.
[2] "Biharul-ənvar", 652-ci cild, 233.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.210.
[4] "Biharul-ənvar", 52-ci cild, səh.75.

*aradan qalxacaq, o, pak-pakizə olacaq, onun sayəsində zülmət aradan gedəcək, haqq gizli qaldıqdan sonra onun vasitəsilə aşkar olacaqdır."*[1]

İndi isə Yəmən inqilabı ilə əlaqədar araşdırmalar:

Təbii olaraq bu inqilab həzrət Məhdi (əleyhis-salam)-ın Yəməndə zühuruna zəmin yaradır. O həzrətin hərəkatına şərait yaratmaq və ona kömək yetirmək üçün Hicazda ən ümdə rolu öhdəsinə alacaqdır. Rəvayətlərdə bu rolun bəyan edilməməsi onun varlığını inkar etmir, əksinə mümkündür ki, ona ziyan çatdırılmaması məqsədi daşımış olsun. Biz tezliklə "o həzrətin hərəkatı" bölməsində deyəcəyik ki, Məkkə və Hicazda qiyam edən canlı qüvvələr həzrətin Hicaz və Yəməndən olan köməkçilərinin əsasını təşkil edir.

İraqda zühura şərait yaradan yəmənlilərin roluna gəldikdə isə, rəvayətlərdə deyilir ki, Yəməni, Süfyaninin onunla müharibə aparması ardınca İraqa daxil olacaq, həm də yəmənli və iranlı qüvvələr Süfyani ilə qarşılaşmaq üçün meydana girişəcəkdir. Rəvayətlərdən aydın olur ki, Süfyani ilə müharibədə yəmənlilər iranlı qüvvələrə kömək və arxa rolunu ifa edir. Çünki rəvayətlərdən belə başa düşülür ki, Süfyani ilə döyüşən tərəf – şərq ölkəsi, yə'ni xorasanlı köməkçilər və Şüeybdən ibarətdir və sanki yəmənlilər onlara kömək çatdırdıqdan sonra Yəmənə qayıdacaqlar.

Körfəz məntəqəsində isə, Hicazdan əlavə, yəmənlilər də əsaslı rol ifa edəcəklər. Baxmayaraq ki, rəvayətlər onları xatırlatmamışdır, lakin təbii olaraq zühur hadisələrinin gedişatına, məntəqənin coğrafi quruluşuna nəzər yetirməklə gərək Yəmən, Hicaz və Fars körfəzindəki ölkələrin rəhbərliyi həzrət Məhdi (əleyhis-salam)-ın ardıcılı olan Yəmən qüvvələrinin əlində olsun.

Burada belə bir sual yaranır ki, nə üçün Yəmən bayrağı Xorasan bayrağından daha çox hidayət edəndir? Halbuki, xorasanlıların və şərq əhlinin bayraqları ümumi şəkildə "hidayət bayrağı" kimi vəsf edilərək deyilmişdir ki, onların öldürülənləri şəhid hesab olunur və Allah-taala öz dinini onların vasitəsilə qüvvətləndirəcəkdir?! Bunu da nəzərə alaq ki, iranlılardan nisbətən çoxu həzrət Məhdi (ərvahuna fidah)-ın vəzir, müşavir və xüsusi köməkçiləri olacaqdır. İranlı qüvvələrin sərkərdəsi Şüeyb ibni Salehdir ki, İmam Məhdi (əccəlallahu taala fərəcəhuş şərif) onu bütün ordunun baş komandanı tə'yin edəcəkdir. Üstəlik, iranlıların həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna şərait yaratmaqda ifa etdikləri rol bütün sahələrdə geniş və fəaldır.

---

[1] "Bişarətul-İslam", səh.187.

Onlar öz qiyam və fədakarlıqları ilə xüsusi üstünlüyə malikdirlər ki, həzrət Məhdi (əleyhis-salam)-ın hərəkatının başlanğıcı onların qiyamının vasitəsilə olacaqdır. (Bunu "onların zühur dövranındakı rolu" bölməsində qeyd edəcəyik.) Bununla belə, görəsən, nə üçün Yəmən inqilabı və onun bayrağı iranlıların özlərindən və onların bayraqlarından daha çox hidayət edəndir?

Bunun səbəbi bəlkə də bu ola bilər ki, Yəmən inqilabının ölkənin idarə olunmasında və siyasi rəhbərlikdə tərtib etdikləri sistem daha düzgün, sadəlik və qətiyyətlik baxımından İslam idarə üslubuna daha yaxın olsun. Halbuki, iranlıların dövləti daha mürəkkəb olub bir işi iki dəfə görmək kimi şeylərdən uzaq deyildir. Buna əsasən, bu iki sərkərdəlik təcrübəsi arasındakı fərqlər Yəmənə hakim olan sadə qəbilə cəmiyyətinin təbiəti ilə iranlıların cəmiyyətinin tərkibi və irsi təbiəti ilə əlaqədar ola bilər.

Yaxud da, Yəməni inqilabı buna görə də onlardan daha çox hidayət edən ola bilər ki, onun icraçı təşkilatı və siyasəti daha çox qətiyyətli olacaq, onların ixtiyarında daha müxlis və müti qüvvələr olacaq ki, onlara daim və ciddi şəkildə nəzarət etsinlər. Əlbəttə, bu həmin göstərişdən ibarətdir ki, İslam dini dövlət işçilərinin buna əməl etməsinə tövsiyə edir. Belə ki, Əli (əleyhis-salam)-ın Malik Əştərə (o, Misirdə İmam (əleyhis-salam)-ın nümayəndəsi və Misrin valisi idi) yazdığı məktubda görürük. Həzrət Məhdi (ərvahuna fidah)-ın xüsusiyyətlərində də qeyd olunur ki, *"o özünün dövlət işçilərinə qarşı çox tələbkar və ciddiyyətli, fəqir-füqəraya qarşı çox mehribandır."* Halbuki, iranlılar belə bir siyasət əsasında əməl etmir, müsəlmanların mənafeyi ilə əlaqədar müqəssir, yaxud xəyanətkar olan vəzifəli şəxsi, başqalarının ibrəti üçün ümumi yerlərdə cəzalandırmırlar. Çünki qorxurlar ki, bu əməl İslam dövlətinin – İslamın vücuda gəlməsinin məzhəri olan bir dövlətin zəifləməsinə səbəb olsun.

Bir ehtimala görə, Yəməni bayrağı buna görə daha çox hidayət edən olacaq ki, dünya səviyyəli İslam proqramlarının hazırlanmasında daha çox ikinci dərəcəli ünvanlara, hazırda mövcud olan (beynəlxalq qayda-qanunları) dəyərləndirməyə riayət etmiş olsunlar, halbuki İrandakı İslam inqilabı özünü onlara riayət etməkdə iltizamlı bilmir.

Amma (Yəməni inqilabının daha çox hidayət edən olmasının səbəbində) əsaslı dəlil ünvanı ilə bəyənilən nəzər budur ki, onlar birbaşa həzrət Məhdi (əleyhis-salam)-ın yol göstərmələrindən faydalanır, onların hərəkatı

həzrət Məhdi (əleyhis-salam)-ın hərəkatındakı proqramların ayrılmaz hissəsi hesab olunur. Rəvayətlər yəmənlilərin inqilabını daha çox dəstəkləyir, Yəmən inqilabının rəhbərini (Yəmənini) tə'rifləyir və onu bu ibarələrlə vəsf edir: *"O, haqqa doğru hidayət edər"*, *"sizi öz sahibinizə doğru çağı-rar"*, *"heç bir müsəlmanın ona qarşı itaətsizlik etməsi caiz deyildir və belə bir işi görən şəxs Cəhənnəm odunda olacaqdır"*. Amma iranlıların zühura şərait yaradan inqilabı barəsində, onların rəhbərlərindən daha çox ümumxalq kütlələri, o cümlədən, qara bayraqlılar, məşriq əhli və məşriqdən olan bir qövm tə'riflənmişdir. Bu məsələdən Şüeyb ibni Saleh istisna olunur. Belə ki, rəvayətlərə diqqət yetirməklə qara bayraqlıların sərkərdələrinin başqalarına nisbətən daha artıq imtiyaza və məziyyətlərə malik olduğu aydınlaşır. Ondan sonra Xorasanlı Seyyid, daha sonra Qumdan olan bir nəfər tə'riflənmişdir.

Rəvayətlərdə bu məsələ təsdiqlənir ki, Yəmən inqilabı həzrət Məhdi (ərvahuna fidah)-ın hərəkatına iranlıların zühura şərait yaradan inqilabından daha yaxındır, hətta yəmənlilərin Süfyanidən əvvəl qiyam etməsini, yaxud digər bir Yəməninin və' dəsi verilən Yəməniyə şərait yaradacağını fərz etsək də, bu belədir. Halbuki iranlıların inqilabı Qumdan olan bir şəxsin əli ilə başlanır ki, bu da İmam (əleyhis-salam)-ın qiyam və hərəkatının başlanğıcıdır. Onların inqilabının başlanması ilə Xorasanlı və Şüeybin hərəkatı arasında 25 il, yaxud Allahın iradə etdiyi vaxta qədər fasilə düşəcəkdir. Belə bir inqilabın əvvəli fəqihlərin və onların siyasi nümayəndələrinin ictihadı əsasında qurulacaqdır. Bu inqilab paklıq və xalislik baxımından birbaşa İmam Məhdi (əccəlallahu taala fərəcəhuş şərif) tərəfindən rəhbərlik olunan Yəməni inqilabının malik olduğu qədər paklıq və xalislikdən bəhrələnməmişdir.

Digər bir məsələ: ola bilsin Yəməni bir neçə nəfər olacaq, amma onun ikincisi, və' dəsi verilən həmin Yəmənidir. Keçən rəvayətlər və'dəsi verilən Yəməninin Süfyaninin zahir olması ilə eyni zamanda, yə'ni İmam Məhdi (əleyhis-salam)-ın zühur ilində qiyam edəcəyi bəyan edir. İmam Sadiq (əleyhis-salam)-dan nəql olunan səhih sənədli digər rəvayətlərdə deyilir: *"Misirli və yəmənli (şəxs) Süfyanidən qabaq qiyam edəcəkdir."*[1]

Bu rəvayətə əsasən, bu, birinci Yəməni olmalıdır ki, və' dəsi veri lən Yəməniyə şərait yaratmış olsun. Eləcə də Qumdan olan bir kişi və ondan başqa məşriq əhlindən olanlar hər ikisi və' də veri lən Xorasanlı və Şüeyb üçün zəmin yaradacaqlar.

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.210. Tusinin "Qeybət" kitabından nəqlən.

Bu rəvayət birinci Yəmaninin Süfyanidən əvvəl qiyam etməsini bəyan edir. Əlbəttə, mümkündür ki, ondan azacıq qabaq, yaxud da uzun illər qabaq baş vermiş olsun. Allah daha yaxşısını bilir!

Digər bir mətləb Sən'ada "Kasiru Eynih"in qiyam etməsidir. Zürarə belə rəvayət edir: İmam Sadiq (əleyhis-salam)-ın yanında Süfyanidən söhbət açıldıqda buyurdu: *"O necə xüruc edə bilər, halbuki hələ Kasiru Eynih[1] Sən'ada qiyam etməmişdir?!"[2]*

Bu, birinci dərəcəli mənbələrdə, o cümlədən Nö'maninin "Qeybət" kitabında qeyd olunan mühüm rəvayətlərdəndir. Bəlkə də onun sənədi səhihdir. Ehtimal üzrə Süfyanidən qabaq zahir olan şəxs birinci Yəməni ola bilər ki, və'dəsi verilən ikinci Yəməni üçün şərait hazırlayacaqdır. Qeyd etdiyimiz kimi, Kasiru Eynihin təfsirində bir neçə ehtimal var ki, onların da ən yaxşısı İmam Sadiq (əleyhis-salam)-ın tərəfindən bəyan olunan sirli bir bəyandır. (Bunun mə'nası öz yerində qeyd olunacaqdır.)

## ZÜHUR DÖVRÜNDƏ MİSİRDƏ BAŞ VERƏN HADİSƏLƏR

Misir hadisələri ilə əlaqədar rəvayətlər çoxdur. Birincisi həzrət Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in müsəlmanlara Misrin onların əli ilə fəth olunmasına dair verdiyi və'dədir. Bundan əlavə, qərblilərin Misrə hakim olmaları, Fatimilər inqilabı, nəhayət həzrət Məhdi (ərvahuna fidah)-ın dövründə baş verən hadisələrin hamısı Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-dən nəql olunmuşdur.

Tarixi hadisələri bəyan edən mənbələrdə həzrət Məhdi (əleyhis-salam)-ın zühuru dövründəki hadisələr Fatimi dövlətinin tə'sis olunması hadisələri ilə qarışmışdır. Çünki həzrət Məhdi (əleyhis-salam)-la əlaqədar olan rəvayətlərin içində məğrib qoşunlarının Misrə yeridilməsi ilə əlaqədar rəvayətlər də gözə dəyir.

Dəqiq şəkildə nəzər yetirdikdə Misirdə baş verən hadisələr bir sıra rəvayətlərdə ünvanlanır. Şübhəsiz ki, o hadisələr həzrət Məhdi (ərvahuna fidah)-ın zühur hadisələrindən biridir. Onlardan biri də Misrin hakiminin camaatın əli ilə qətlə yetirilməsidir ki, bu rəvayət "Bişarətul-İslam" kitabının 75-ci səhifəsində Şeyx Müfidin "İrşad" kitabından nəqlən deyilib ki, bu da həzrət Məhdi (əleyhis-salam)-ın zühur əlamətlərindəndir.

Digər bir tə'bir də bu dövrdə bizim camaatın dilində dolaşır: *"Misir əhli öz sadatlarını (ağalarını, seyyidlərini) öldürəcəkdir." "Qullar ölkə*

---

[1] Kasiru eynih – gözü sınmış, sınıq gözlü, yaxud sındıran gözlü deməkdir.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.245.

*ağalarına istila tapacaq."*[1] Bunu Ənvər Sadatın qətli ilə əlaqələndirirlər, bu da yanlış fikirdir. Çünki bu rəvayətlərdə "sadat" dedikdə, heç də xüsusi isim deyil, rəislər nəzərdə tutulur. Qətlə yetirilməsi həzrət Məhdi (əleyhis-salam)-ın zühur nişanələrindən biri olan misirli hakim də həmin hadisənin ardınca vücuda gələcəkdir. Belə ki, həmin rəvayətdə bir, yaxud bir neçə ordunun Misrə daxil olmasından söhbət açılır. Ola bilsin ki, bu da qərb, yaxud Məğrib ordularından ibarətdir. (Tezliklə onları bəyan edəcəyik.) Bə'zi rəvayətlərdə deyilir ki, Misrin hakiminin öldürülməsi Şamın hakiminin yerli əhali tərəfindən qətlə yetirilməsi ilə eyni zamanda olacaqdır. "Bişarətul-İslam" kitabının 185-ci səhifəsində İbni Həcərin "Əl-qovlul-müxtəsər" kitabından nəqlən belə deyilir: "On altıncı məsələ: Ondan qabaq Şamın və Misrin hakimi qətlə yetiriləcəkdir." Eləcə də Misrin hakiminin qətlə yetirilməsini bəyan edən rəvayətlərlə Misirdən inqilabçı bir kişinin Süfyanidən qabaq xüruc etməsini göstərən rəvayətlər arasında təqribən müəyyən əlaqə mövcuddur. "Biharul-ənvar"da deyilir: *"Süfyanidən qabaq Misri (misirli şəxs) və Yəmani xüruc edəcəkdir."*[2]

Misirli bu şəxs bəlkə də, bə'zi rəvayətlərdə də deyildiyi kimi, bu ölkədə qiyam edərək müharibə e'lan edən sərkərdə ola bilər: *"Misirdə sərkərdələrin başçısı qiyam edəcək və ordunu səfərbər edib yaraqlandıracaqdır."*

Digər bir rəvayətdə də deyilir ki, o, qərb qoşunlarının bu ölkəyə daxil olmasından qabaq camaatı Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) övladlarına tərəf də'vət edəcəkdir: *"Qərb əhli hücum edib Misrə daxil olan kimi Süfyaninin hakimiyyəti bərqərar olunar. Ondan əvvəl isə bir şəxs camaatı Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) Əhli-beytinə doğru də'vət edəcəkdir."*[3]

Ehtimal üzrə, misirli sərkərdələrin rəhbəri və camaatı Əhli-beyt (əleyhimus-salam)-a doğru çağıran şəxs bir deyil, üç nəfər olsun. Hər bir halda, bu rəvayətlər ümumi şəkildə Misirdə İslami bir hərəkat və inqilabdan söz açır ki, bu da həzrət Məhdi (ərvahuna fidah)-ın zühur əlamətidir, yaxud, heç olmazsa, güclü bir İslami fəzanın hakim olacağına dəlalət edir və göstərir ki, Misirdə daxili inqilab baş verəcək, dərin dəyişikliklər yaranacaqdır. Bu da dünya səviyyəli müharibə və sülhlə əlaqədardır.

---

[1] "Bişarətul-İslam", səh.176.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.10.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.208.

Zühur ərəfəsində baş verəcək hadisələrlə əlaqədar rəvayətlərdə qibtilərin Misrin ətraf nahiyələrinə hakim olacağından söhbət açılır. Belə ki, Əli (əccəlallahu təala fərəcəhuş-şərif) zühur əlamətləri ilə əlaqədar buyurmuşdur: *"Qibtilərin Misrin ətraflarına hakim kəsilməsidir."*[1]

Mümkündür ki, burada məqsəd, İbni Həmmadın öz əlyazmasında (səh.78.) Əbuzərdən rəvayət etdiyidir: "Əmin-amanlıq Misirdə aradan qalxacaqdır." Xaricə deyir ki, Əbuzərə dedim: "Əmin-amanlıq aradan getdiyi zaman onu bərqərar edəcək bir rəhbər varmı?" O dedi: "Xeyr! Əksinə, onun (hakimiyyət) quruluşu dağılacaqdır."

Kə'bdən də belə rəvayət olunur: "Misir dəvənin peyini kimi əzilib aradan gedəcəkdir."

Bir sözlə, Misirdəki qibtilər qiyam edib iğtişaş törədəcək, yerli hökumətə qarşı itaətsizlik edəcək və bə'zi nahiyələrə hakim kəsiləcəklər, nəticədə Misrin iqtisadiyyatında və təhlükəsizliyində zəiflik və xələl yaranacaqdır. Təbiidir ki, bu tüğyançılıq və inadkarlıq İslam düşmənlərinin xaricdən istiqamətləndirilən təhrikləri ilə yanaşıdır, çünki qibtilərin tarixində görünməmişdir ki, müsəlmanların əleyhinə hər hansı bir mühüm hərəkata əl atmış olsunlar. Bu işlər səlib yürüşlərində və hazırkı əsrdə olduğu kimi, yalnız xarici dövlətlərin müdaxiləsi ilə baş vermişdir.

Yuxarıdakı rəvayət onun nə vaxt baş verəcəyinə dəlalət etmir, lakin Hüzeyfədən nəql olunan digər bir rəvayətdə deyilir: *"Misir, Bəsrənin dağıldığı vaxta qədər viran olmayacaqdır."*[2]

Zahirən, zühur əsrində Bəsrənin, və'dəsi verilən dağılmaq məsələsi iranlıların zühura zəmin yaradan hökumətinin bərqərar olunmasından, yaxud zühur ilində Süfyaninin vasitəsilə İraqın işğal olunmasından sonra baş verəcəkdir.

Bə'zi rəvayətlərdə Məğrib qüvvələrinin Misrə daxil olması deyilir ki, yazıçılar adətən bunu zühur əlamətlərindən hesab etmişlər. Bu və başqa rəvayətlərdə Məğrib dedikdə, İslam ölkələrinin qərb tərəfləri nəzərdə tutulur və Məğrib, Əlcəzair, Liviya və Tunisə şamil olur. Lakin mən bu barədəki rəvayətləri diqqətlə araşdırdığım zaman elə bir rəvayət tapa bilmədim ki, aşkar şəkildə bu müddəaya dəlalət etsin; əksinə, onlardan bə'zilərinin Fatimilər inqilabı zamanı məğribli qüvvələrin Misrə daxil olması ilə uyğun olduğunu gördüm. Amma mərhum Şeyx

---

[1] "Bişarətul-İslam", səh.42.
[2] "Bişarətul-İslam", səh.28.

Tusinin "Qeybət" kitabında (səh.278) rast gəldiyim bir rəvayətdə (bu kitab ən qədim və ən mö'təbər bir mənbədir) Məğrib deyil, "qərb əhli" kimi tə'bir olunur. "Biharul-ənvar" və "Bişarətul-İslam" kitablarında da həmin mənbədən nəql edilmişdir. Amma bu iki mənbədən başqaları səhvən Məğrib nəql etmişlər.

Bu rəvayətdə deyilir ki, qərb əhli Süfyaninin Dəməşqdən xüruc etməsindən azacıq öncə Misrə daxil olacaqlar ki, bu da Əmmar Yasirdən nəql olunan uzun bir rəvayətin xülasəsidir: *"Peyğəmbərinizin Əhli-beytinin dövləti axirəz-zamanda bərqərar olunacaq ki, onun müəyyən əlamətləri vardır. (O əlamətlərdən biri budur ki,) Qərb əhli Misrə doğru hərəkət edəcəkdir. Misrə daxil olan zaman Süfyaninin hökuməti bərqərar olacaqdır."*

Ehtimal üzrə, ravilər Şeyx Tusinin (460-cı h.q ilində vəfat etmişdir) bu rəvayətini ondan sonra nəql edərək "qərb" kəlməsini "məğrib" kəlməsi ilə qarışdırmışlar. Əlbəttə, bu nəzərə də üstünlük verilir ki, qərb, yaxud məğrib qüvvələri Misirdə baş verərək onda əsaslı dəyişikliklər yaradan hadisələrin ardınca Misrə gələcəklər. Bəlkə də o qüvvələr İslama zidd və misirlilərlə müxalif olan qüvvələrdir ki, Misrə daxil olmağa çalışacaqlar, bu işə müvəffəq olduqdan sonra Süfyani Dəməşqdə xüruc edəcək və Şama hakim kəsiləcəkdir. Bunu da nəzərə alaq ki, Süfyani zühurdan bir neçə ay qabaq qiyam edəcək və bu qüvvələrin gəlişi zühur ilində, yaxud ona yaxın illərdə baş verəcəkdir.

Bə'zi rəvayətlərdə deyilir: *"Süfyani Misir əhli ilə döyüşəcək və oraya daxil olacaq, dörd ay müddətində cinayət törədəcəkdir."* Güclü ehtimala görə, bu rəvayət Süfyani barəsində şişirtməyə yol verən rəvayətlərdəndir. Çünki birinci dərəcəli mənbələrdə ona işarə edilməmişdir. Belə ki, rəvayətlərin bə'zilərində deyilir ki, Süfyaninin Dəməşqdə qətlə yetirdiyi şəxs Əbqədir ki, o da Misir əhlindəndir, yaxud Misirlə əlaqəsi vardır. Allah daha yaxşı bilir!

Bu zəmində olan digər rəvayətlərdə deyilir: *"Məhdi (əleyhis-salam) Misri özünün minbəri (təbliğat mərkəzi) qərar verəcəkdir."* Bu mətləb İbayə Əsədinin nəql etdiyi rəvayətdə qeyd olunmuşdur. O deyir: Əli (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim: *"Misirdə bir minbər düzəldim, Dəməşqi viran edim, yəhudiləri və məsihiləri bütün ərəb ölkələrindən çıxardım və ərəbləri bu çubuqla qovum!"* İbayə deyir: "Mən soruşdum ki, bu işlərdən necə xəbər verirsən, elə bil öldükdən sonra yenidən

diriləcəksən?!" Buyurdu: *"Ey İbayə! Bu çox uzaqdır (uzaq nəzərdir), sən xətaya getdin. Mənim nəslimdən olan insanlar bu işi görəcəklər."*[1]

Əli (əleyhis-salam) həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) və onun köməkçiləri barəsində belə buyurur: *"Bu zaman (Məhdi və onun köməkçiləri) Misrə yollanarlar. Həzrət oranın minbərinə çıxar və camaata xitab edər, onlar üçün danışar. Yer onun ədaləti sayəsində sevincə qərq olar, səma rəhmət yağışını nazil edər, ağaclar barlı-bəhrəli olar, yer öz bitkilərini cücərdər, çöhrəsini yer əhli üçün güllərlə bəzəyər. Vəhşi heyvanlar o qədər əmin-amanlıq hiss edərlər ki, yollarda əhliləşmiş heyvanlar kimi yol gedərlər. Elm və mə'rifət nuru mö'minlərin qəlbinə saçılar. Belə ki, heç bir mö'minin öz alim qardaşına elmi cəhətdən ehtiyacı olmaz. "Allah-taala Öz geniş rəhmətindən hər kəsi ehtiyacsız edər" - ayəsi xaricdə gerçəkləşər."*[2]

Bu iki rəvayətdən aydın olur ki, dünya səviyyəli İslam hökumətində Misir həzrət Məhdi (əleyhis-salam)-ın elm mərkəzi və təbliğat qərargahı kimi tanınacaqdır. Xüsusilə, yuxarıdakı hədisdəki *"Misirdə bir minbər bina edəcəyəm"* və *"sonra Misrə doğru yola düşər və onun minbərinə çıxar"* cümlələrinə diqqət yetirməklə aydın olur ki, həzrət Məhdi (ərvahuna fidah) və onun köməkçiləri Misri fəth etmək, yaxud həzrətin oradakı hökumətini möhkəmlətmək üçün oraya getməyəcəklər; Misir əhalisi İmam (əleyhis-salam) və onun köməkçilərinin pişvazına çıxdığına görə o həzrət oranı özünün xitabə kürsüsü və minbəri seçəcəkdir. Belə ki, onun əziz babası Əmirəl-mö'minin Əli (əleyhis-salam) da buna və'də vermişdir. Həmçinin, öz peyğamını oradan həm Misir əhlinə, həm də bütün dünyaya çatdıracaqdır. Misrin o həzrətin dini göstərişlərinin dünyaya çatdırılmasında bir mərkəz və elm ocağı olmasının müsəlmanların elmi səviyyəsi ilə heç bir ziddiyyəti yoxdur. Çünki onlar bu elmi o vaxt əldə edəcəklər.

Bu rəvayətlərin birində deyilir ki, həzrət Məhdi (əleyhis-salam) Misir ehramlarının ikisində elm və s. kimi xəzinə tapacaqdır. Birinci dərəcəli mənbələrdə, o cümlədən Şeyx Səduqun "Kəmalud-din" kitabında (səh.564) bununla əlaqədar rəvayətlər qeyd olunmuşdur. Əhməd ibni Məhəmməd Şə'rani (o, Əmmar Yasirin övladlarındandır) Məhəmməd ibni Qasim Misridən nəql edir ki, Əhməd ibni Tulunun oğlu bir ildə min nəfər fəhlə götürmüşdü ki, o ehramın qapısını tapsın. Nəhayət, onlar mərmər bir daşa çatdılar, onun arxasında bir imarət gördülər, amma onu

---

[1] "Biharul-ənvar", 53-ci cild, səh.60.

[2] "Bişarətul-İslam", səh.71.

açа bilmədilər. Həbəşistandan olan məsihi bir keşiş o daşın üstündə olan yazıları – bu yazılar Misir fir'onlarından birinin dilindən yazılmışdı – belə oxudu: "Mən ehramı və bərranı tikdim, bu iki ehramı bina etdim, öz xəzinələrimi orada əmanət qoydum." İbni Tulun dedi: "Bu elə bir şeydir ki, Ali-Mühəmmədin Qaimindən başqa heç kəs ona yol tapa bilməz." Sonra o daş parçası əvvəlki yerinə qoyuldu.

Bu rəvayətdə zəif cəhətlər var ki, bə'zi ravilərin əlavəsi olması ehtimalı vardır. Amma eyni zamanda, diqqət yetirilməsi güclü cəhətlər də vardır. Allah daha yaxşı bilir!

O cümlədən, Əxnəs Misrin rəvayətini qeyd etmək olar. "Kənzül-ümmal"ın müəllifi onu "Bürhan" kitabından (200-cü səhifədə, İbni Əsakirin tarix kitabından nəqlən) Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-dən belə rəvayət edir: "Qüreyşdən olan Əxnəs adlı bir adam (Mənavinin "Feyzül-qədir" kitabının 4-cü cildinin 131-ci səhifəsində bu şəxsin Bəni-Üməyyədən olduğu deyilir) Misirdə qüdrətə çatacaq, sonra qüdrət ondan alınacaq və Romaya qaçacaqdır. Romalılar onu İskəndəriyyəyə gətirəcəklər və o da müsəlmanlarla müharibəyə başlayacaq. Bu da ilk hadisə olacaqdır." Burada hadisə dedikdə, həzrət Məhdi (əleyhis-salam)-ın zühuru ilə əlaqədar baş verən hadisələrin birincisi, Bəni-Üməyyə dedikdə isə, onların tutduğu yol və mövqedir.

## MƏĞRİBDƏKİ İSLAM ÖLKƏSİ VƏ ZÜHUR DÖVRÜNDƏ ORADA BAŞ VERƏN HADİSƏLƏR

İmam Məhdi (ərvahuna fidah)-ın zühuru ilə əlaqədar bir çox rəvayətdə "məğriblilər" kəlməsi qeyd olunmuşdur. Amma əvvəldə də qeyd olunduğu kimi, bu, Fatimilərin hərəkatı ilə qarışdırılmışdır. Bu, Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-in nübüvvət dəlillərindən biri hesab olunur.

Lakin bə'zi rəvayətlər məğriblilərin zühur dövründəki hərəkatı barədə aşkar bəyana malikdir və Fatimilərin hərəkatı ilə heç bir əlaqəsi yoxdur. Hətta həm onda, həm də başqa yerlərdə müəyyən şahidlər vardır ki, bu hərəkatın İmam Məhdi (əleyhis-salam)-ın zühuru dövründə baş verəcəyini göstərir. Onların ən barizi Süfyaninin hərəkatından azacıq əvvəl Məğrib ordularının Suriya və İordaniyaya daxil olmasını göstərən rəvayətlərdir.

Bə'zi hədislərdə "Məğrib qüvvələri", "Məğrib əhli", "Məğrib süvariləri", "məğribilər", yaxud "sarı rəngli bayraqlılar" barəsində müəyyən mətləblər qeyd edilmişdir ki, onlar Şamın hər yerində, İraq-Türkiyə sərhədlərindəki Qirqisiya müharibəsində mühüm rol ifa

edəcəklər. “İbni Həmmadın əlyazması”nda olan bu rəvayəti qeyd etmək olar: *“Sarı bayraqlılar Şamda bir-birilə vuruşduğu zaman... Vay olsun oranın sakinlərinə, məğlub olmuş bir qoşunun əlindən! Vay olsun Şama, qalib gələn bir ordudan! Vay olsun onlara, məl'un və iyrənc sifətli bir kişinin əlindən!”*[1]

“Məl'un və iyrənc sifətli şəxs” Süfyaninin xüsusiyyətlərindəndir. Həmin kitabda belə deyilir: *“Qara və sarı bayraqlılar Qəntərə şəhərində bir-birilə qarşılaşacaqlar. Onlar müharibə törədib camaatı qıracaq, nəhayət Fələstinə daxil olacaqlar. Bu zaman Süfyani məşriq əhlinin üzərinə qoşun yeridəcək. Məğrib qoşunları İordaniyada düşərgə salan zaman onların sərkərdələri dünyadan gedəcək və onlar üç firqə şəklinə düşərək bir-birindən ayrılacaqlar. Onların bir dəstəsi gəldiyi yerə qayıdacaq, bir dəstəsi orada qalacaq. Süfyani onlarla müharibəyə başlayaraq onları məğlub edəcək və öz itaətinə keçirəcəkdir.”*[2]... *“Həqiqətən, məğribilərin, Bəni-Mərvanın və Bəni-Qüzaənin sərkərdələri qara bayraqlılarla qarşılaşmaq üçün Şamın mərkəzində bir-birilə birləşəcəklər.”*[3]

Zühur əsrində məğrib qüvvələrinin hərəkətləri ilə əlaqədar olan rəvayətlərin məcmusundan aydın olur ki, onların hərəkatı ərəblərə, yaxud dünya səviyyəsində üzdəniraq “sülh məramlı” qüvvələrə daha çox oxşayır. Belə ki, onlar da həzrətin zühuruna zəmin yaradanların inqilab və qiyamının əks cəbhəsində səfərbər olacaq, Şamda məşriqdən gələn bayraqlılarla (zühura zəmin yaradan iranlılarla) müharibəyə girişəcək və onların qarşısında məğlubiyyətə uğradıqdan sonra İordaniyaya tərəf geri çəkiləcəkdir.

Bə'zi rəvayətlərə əsasən, onlar İraqda da müəyyən rol ifa edəcəklər. Amma məğrib qoşunlarının Qirqisiya müharibəsində iştirak etməsi ilə əlaqədar rəvayətlər xülasə olmaqla yanaşı, onların İslamın məsləhətinə və xeyrinə hər hansı bir rol ifa edəcəyinə heç bir dəlalət etmir, istər onları Süfyaninin müqabilində türklərin tərəfdarları hesab edək, istərsə də Süfyaninin havadarları. Çünki Qirqisiya müharibəsində döyüşən tərəflərin hamısı məzəmmət olunmuş və zalım hesab edilmişdir.

Bu qüvvələrin rolu – düzgünlüyünü qəbul etdiyimiz təqdirdə – Misirdə öz yerində qalmaqdır, onların İslamın və Misir əhlinin xeyrinə hər hansı bir iş görmüş olmasına heç bir dəlil yoxdur. Əksinə, daha

---

[1] “İbni Həmmadın əlyazması”, səh.73.
[2] Yenə orada, səh.71.
[3] Yenə orada, səh.70.

yaxşısı bu nəzərdir: Misir dövləti öz ordusunun, yaxud yerli əhalinin yəhudilərin əleyhinə qiyam edib intihari əməliyyatlar keçirməsinə mane ola bilmədiyi zaman İsrailin sərhədlərini qoruyub saxlamaq istəyəcək, yaxud müsəlmanların qeyd olunan hərəkatları qarşısında qibtiləri müdafiə edəcək; yaxud da ərəblərin sülh məramlı qüvvələri rolunu oynayacaq, belə ki, Misir hökuməti bə'zi mərhələlərdə zəiflik, bacarıqsızlıq, təşviş və nigarançılıq ucbatından özünün silahlı qüvvələrini həzrət Məhdi (ərvahuna fidah)-ın tərəfdarı olan İslami hərəkatlarının güclənməsi qarşısında çağıracaqdır. Allah daha yaxşısını bilir!

**İRAQ VƏ ONUN ZÜHUR DÖVRÜNDƏ İFA ETDİYİ ROL**

Zühur dövründə İraqın vəziyyəti barəsində nəql olunan rəvayətlərdən aydın olur ki, bu ölkə həmin dövrdə müxtəlif qüvvələrin çəkişmə meydanına çevriləcək və həqiqətdə bu dörd mərhələni keçəcəkdir:

*Birinci mərhələ:* O həzrətin zühurundan əvvəlki mərhələdir. Belə ki, bu ölkə qara bayraqlılar tərəfindən azad edildiyi vaxta qədər zalımlar uzun müddət İraqa hakim kəsilərək, kütləvi qırğınlar, qorxu və vəhşət icad edəcəklər, yerli əhalinin asayişi aradan gedəcək.

*İkinci mərhələ:* Ölkədə İslam dövlətinin bərqərar edilməsi, ona nüfuz etmək üçün zühura zəmin yaradan xorasanlılar ilə Şamın sərkərdəsi Süfyaninin tərəfdarı olan cinahlar arasında keşməkeşlərin davam etməsi.

*Üçüncü mərhələ:* İraqın Süfyani tərəfindən işğal edilməsi, əhaliyə ağır əzab-əziyyət verilməsi və bundan sonra yəmənli-iranlı qüvvələrin bu ölkəyə daxil olması. Onlar Süfyani qüvvələrini məğlubiyyətə uğradacaq və onları İraqdan qovub çıxaracaqlar.

*Dördüncü mərhələ:* İraqın İmam Məhdi (əleyhis-salam)-ın vasitəsilə azad edilməsidir. O həzrət ölkəni Süfyaninin iyrənc vücudundan, qiyamçı qruplaşmaları və qeyrilərini təmizləyəcək, oranı özünün mərkəzi qərargahı qərar verəcəkdir.

Bu dörd mərhələ əsnasında baş verən hadisələrlə əlaqədar digər rəvayətlər də nəql olunmuşdur. O cümlədən, Süfyanidən qabaq həzrət Məhdi (ərvahuna fidah)-ın müxaliflərindən olan Şeysbaninin xüruc etməsi, Nəfsi-Zəkiyyənin Kufənin arxasında (Nəcəfdə) saleh şəxsiyyətlərdən 70 nəfərlə birlikdə şəhadətə yetirilməsi, Ovf Səlmanın Cəzirədə və ya Təkritdə qiyam etməsi, iraqlıların həccə getməsinin üç il müddətində qadağan olunması, Bəsrə şəhərinin suya batması və həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan azacıq öncə oranın dağılması, Bağdadda və Hillədə yerin

batması, Məğrib, yaxud qərb qüvvələrinin İraqa daxil olması, ləyaqətli və yaxşı əməl sahibi olan bir şəxsin azsaylı qrupla qiyam edərək Süfyani ordusu ilə qarşılaşması, şiə-sünnü xəvariclərindən olan qruplaşmaların o həzrətin əleyhinə qiyam etmələri və s. qeyd etmək olar. Bəlkə də onların arasında ən təhlükəlisi Rüməylə Dəskərə qrupunun qiyamıdır ki, bu da İraqın Diyala məntəqəsində, Şəhrbanın yaxınlığında yerləşir.

İndi bu mərhələlərlə əlaqədar bir qədər izah veririk:

### BİRİNCİ VƏ İKİNCİ MƏRHƏLƏ

Bu mərhələ ilə əlaqədar nəql olunan rəvayətlərdə ən aydın məsələ İraqın zalım rəhbərlərinin əhalini çox ağır vəziyyətə salmaları və bu hakimlərin iranlılarla və qara bayraqlılarla ixtilafıdır. Cabir ibni Əbdüllah Ənsarinin belə dediyi nəql olunur: "Çox yaxın vaxtlarda İraq əhalisinə bir taxıl peymanəsi və bir dirhəm (belə) çatmaz." Soruşdum: "Hansı nahiyədən (baş verəcək)?" Buyurdu: "Bu işə mane olan bir əcəm nahiyəsindən."

Yə'ni, onların iranlılarla apardığı müharibə nəticəsində yeyinti məhsulları qıtlaşacaqdır. Bu da Cabir Co'finin bu xüsusda nəql etdiyi aclıq, qorxu və iqtisadi böhrandan ibarətdir. O deyir: İmam Baqir (əleyhis-salam)-dan *"vələnəblüvənnəkum bişəy'in minəl-xovfi vəl-cui"* ayəsi barəsində soruşduqda, buyurdu: *"Ey Cabir! Bu qorxu və qəhətliyin – xüsusi və ümumi olmaqla – iki yönü vardır. Onun xüsusi yönü olan qəhətlik Kufədə baş verəcəkdir ki, mütəal Allah onu Ali-Mühəmmədin düşmənlərinə məxsus etmişdir. Bununla da onlar həlak olacaqlar. Amma ümumi yönə malik olan qəhətlik və qorxu Şamda baş verəcəkdir ki, onun oxşarını heç vaxt görməmişlər. Bu qəhətlik Qaimin qiyamından qabaq, qorxu və vəhşət isə onun qiyamından sonra olacaqdır."*[2]

Əlbəttə, biz rəvayətlərdə qeyd olunan qəhətliyin Əhli-beyt (əleyhimus-salam) düşmənlərinə məxsus olması barəsində bir dəlil tapmadıq. Mümkündür ki, bu yalnız iqtisadi böhran şəklində olub zalım hökumət tərəfindən İraq əhalisinə qəbul etdirilsin və camaat ondan çox əzab-əziyyətə düşsün. Həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan sonra Şamda yaranan vəhşət və qorxu isə o həzrətin zühurundan qabaq da belə bir vəziyyətin varlığına zidd deyildir. Sonrakı rəvayətlər göstərir ki, bu iztirab və vəhşət o həzrətin zühurundan qabaq artmağa başlayacaqdır. İmam Baqir (əleyhis-salam) buyurur: *"Qaimin qiyamından qabaq camaat günahları səbəbilə*

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.92.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.222.

*onlara səmadan aşkar olunan ataş vasitəsilə əzaba düçar olacaqlar. Eləcə də səmanı bürüyən qırmızımtıl əlamət, Bağdadda və Bəsrədə yerin batması, orada qanların axıdılması, evlərin dağıdılması, əhali arasında həlakətin vücuda gəlməsi, İraq əhalisini bürüyən iztirab. Belə ki, bu, asudəliyi və asayişi onlardan alacaqdır."*[1]

Əlbəttə, bu nişanələrin rəvayətdə qeyd olunduğu şəkildə, bir-birinin ardınca gəlməsi zəruri deyildir. Əksinə iztirab, vəhşət və yerin batması səmavi nişanələrdən qabaq olacaqdır. Zahirən səmadakı od və onun qızartısı dedikdə məqsəd, misal üçün, bomba partlayışından yaranan od deyil, İlahi bir nişanə olmalıdır.

Əli (əleyhis-salam)-dan nəql olunan sonrakı rəvayətdə İraqda zalımların hakimiyyəti dövründə – Süfyaninin xürucundan və həzrət Məhdi (ərvahuna fidah)-ın zühurundan qabaq – baş verən hadisələrdən bə'ziləri bəyan edilir. Ənəs ibni Malik deyir: Əmirəl-mö'minin Əliyyibni Əbi Talib (əleyhis-salam) Nəhrəvan müharibəsindən qayıdarkən Bərasa adlı yerdə düşərgə saldı. Orada Hübab adlı bir rahib öz sövmiəsində (kiçik monastırında) yaşayırdı. Ordunun səs-küyünü eşidən zaman özünə məxsus olan yerdən çölə çıxıb Əli (əleyhis-salam)-ın qoşununa baxdı, vahiməli halda soruşdu ki, bu ordunun sərkərdəsi kimdir? Dedilər: – "Əmirəl-mö'minindir ki, Nəhrəvan müharibəsindən qayıdır."

Hübab o həzrətin yanına gəldi, onun hüzurunda dayanıb dedi: – "Salam olsun sənə, ey mö'minlərin həqiqi rəhbəri! Həqiqətən, sən mö'minlərin Əmirisən!"

Həzrət buyurdu: – "Haradan bilirsən ki, mən həqiqətən mö'minlərin haqq əmiriyəm?"

O dedi: – "Din alimlərimiz bunu bizə öyrətmişlər."

Həzrət buyurdu: "Ey Hübab!"

Rahib dedi: – "Mənim adımı haradan bilirsən?"

Həzrət buyurdu: – "Bunu mənə həbibim Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm) öyrətmişdir."

Hübab dedi: – "Əlini ver, mən şəhadət verirəm ki, Allahdan başqa heç bir mə'bud yoxdur, Mühəmməd Onun rəsulu və göndərdiyidir! Sən də, ey Əliyyibni Əbi Talib! Onun vəsisi və canişinisən."

Əli (əleyhis-salam) ondan soruşdu: – "Harada yaşayırsan?"

Dedi: – "Öz sövmiəmdə yaşayıram."

---

[1] Yenə orada, səh.221-222.

Həzrət buyurdu: – "Bu gündən e'tibarən orada yaşama. Burada bir məscid tik və bu məntəqənin sahibinin və banisinin adı ilə adlandır. Ey Hübab! Haradan su içirsən?"

Hübab dedi: – "Elə buradan, Dəclədən."

Buyurdu: – "Nə üçün bir bulaq, yaxud bir quyu qazmırsan?"

Dedi: – "Ey Əmirəl-mö'minin, hər vaxt quyu qazıramsa, suyu şor və xoşagəlməz olur."

Əli (əleyhis-salam) işarə edərək buyurdu: "Burada bir quyu qaz."

O, quyu qazmaq istədikdə böyük bir daşa rast gəldi ki, onu yerindən qoparmaq mümkün deyildi. Həzrət daşı yerindən qopartdı, onun altından çeşmə qaynamağa başladı ki, kərədən ləzzətli, baldan şirin idi. Həzrət buyurdu: *"Ey Hübab! Sənin içməli suyun bu çeşmədəndir. Amma tezliklə, sənin (burada tikəcəyin) bu məscidin qonşuluğunda bir şəhər salınacaqdır ki, zalımlar orada çoxalacaq, çoxlu müsibət və bəlalar törədəcəklər, hətta bir cümə gecəsində iffətə zidd olan 70 min əməl yerinə yetirəcəklər. Bəla və giriftarçılıqlar onlara üz gətirən zaman sənin məscidinə hücum edəcək və onu dağıdacaqlar. Sonra sən onu yenidən tik və tə'mir et ki, onu kafirdən başqası dağıtmaz. Bundan sonra orada bir ev tik. Bu işi gördükləri zamandan e'tibarən üç il müddətində həccə gedə bilməyəcəklər. Onların əkinçilik məhsulları yanacaq, mütəal Allah dağda yaşayanlardan bir nəfəri onlara hakim edəcək. O hər bir şəhərə daxil olsa, oranı məhv edəcək, əhalisini qıracaq, yenidən onlara tərəf qayıdacaq və bundan sonra üç il qəhətliyə və insanı taqətdən salan bahalığa düçar olacaqlar. Yenə də onları boşlamayacaq və oraya qayıdacaqdır. Bundan sonra Kufəyə daxil olacaq, ayaq üstə olan hər bir şeyi – istər ağacı, istər imarəti, istərsə də insanı – qəzəblə məhv edib aradan aparacaq, əhalisini kütləvi şəkildə qıracaqdır. Bu hadisələrin hamısı o zaman baş verəcəkdir ki, Bəsrə abadlaşmış və orada Came məscidi tikilmiş olsun. Bu zaman Bəsrənin məhv olmasının vaxtı gəlib çatacaqdır. Sonra Həccacın vasitəsilə tikilən Vasit adlı bir şəhərə daxil olacaqdır. Bu şəhərdə də, sair yerlərdə olduğu kimi, cinayətlər törədəcək, sonra Bağdada gələcək, əfv və güzəştlə şəhərə daxil olacaq, sonra oranın əhalisi Kufəyə pənah aparacaq. Kufədə elə bir məntəqə olmayacaq ki, bu hadisə oradan gizli qalmış olsun. Sonra bu kişi Bağdada göndərdiyi bir şəxslə mənim qəbrimi açmaq üçün şəhərdən çıxacaq. Bu zaman Süfyani onlarla qarşılaşacaq və onları məğlubiyyətə uğratdıqdan sonra qətlə yetirəcək,*

*Kufəyə doğru bir ordu göndərəcək, onlar əhalidən bir qrupunu tutub özlərinə qul edəcəklər. Bu zaman Kufədən bir kişi gəlib onlara pənah verəcəkdir. Hər kəs oraya pənah aparsa, əmin-amanlıqda olacaqdır. Süfyaninin orduları Kufəyə daxil olub istədikləri hər bir şəxsi qətlə yetirəcəklər. Belə ki, əgər bu orduda olan hər hansı bir şəxs yerə düşmüş böyük gövhər parçasının yanından keçsə, ona əl vurmayacaq, amma əgər kiçik yaşlı bir uşağı görsə, onu tə'qib edəcək, tutub öldürəcəkdir. Ey Hübab! Bu dövran bizdən necə də uzaqdır! Bundan sonra böyük və mühüm məsələlərin, fitnə və iğtişaşların intizarında olmaq lazımdır. Ey Hübab! Sənə dediklərimi yaxşı-yaxşı yadında saxla."*[1]

Əlbəttə, bu rəvayətin bə'zi ibarələrində müəyyən anlaşılmazlıq nəzərə çarpır ki, mərhum Əllamə Məclisi onu nəql etdikdən sonra deyir: "Bil ki, rəvayətin nüsxəsində müəyyən iradlar vardır. Mən bu rəvayəti tapdığım kimi nəql etdim." Buna görə də onun həm sənəd, həm də mətnində müəyyən qədər bəhs aparmaq lazımdır. Amma hər bir halda, bu hədis İraq əhlinin zalım hökmdar tərəfindən düçar olacaqları çətinliklərdən xəbər erir ki, İraq əhalisi onun zülmlərinə sinə gərəcək, əzab-əziyyətə düçar olacaqlar. (Sənədi düzgün olan digər rəvayətlər də, həmin məzmunu xatırladır.)

Bu rəvayətdə qeyd olunan bə'zi hadisələr baş vermiş, yaxud onun vaxtı artıq keçmişdir. O cümlədən, Bərasa məscidinin dağıdılması, Bağdadda fitnə-fəsadın çoxalması, dağlardan, yaxud Kürdüstan əyalətindən gələn hərbçilərin vasitəsilə Bağdadda qüdrətin ələ keçirilməsi və s. Digər rəvayətlərdə bu kimi hadisələrdən bə'ziləri, o cümlədən, Süfyani və onunla əlaqədar hadisələr hələ baş verməmişdir.

Mərhum Şeyx Müfid buyurur: "Həzrət Qaim (ə)-ın qiyam əlamətləri və onun qiyamında baş verən hadisələr rəvayətlərdə qeyd olunmuşdur. O cümlədən: Süfyaninin xüruc etməsi, Həsəninin qətlə yetirilməsi, Bəni-Abbas arasında dünyəvi məqamlara atmaqla əlaqədar ixtilafın baş verməsi, Ramazan ayının ortancıl günündə günəşin və həmin ayın axırında ayın tutulması, təbii qa dalanın əksinə olaraq, Beyda çölündə yerin batması, məşriq və məğribdə digər er batmaları, günortadan axşam çağına qədərki müddət ərzində günəşin dayanması, onun məğribdən çıxması, əfsi-Zəkiyyənin saleh şəxslərdən olan yetmiş nəfərlə birlikdə Kufənin arxasında əcəfdə) qətlə yetirilməsi, Bəni-Haşimdən bir nəfərin başının Kə'bənin kənarında, Rükn ilə

[1] "Biharul-ənvar", 52-ci cild, səh.21 - 19

Məqam arasında kəsilməsi, Kufə məscidinin divarının uçub dağılması, Xorasan nahiyəsindən qara bayraqlıların gəlməsi, Yəməninin qiyamı, Misirdə Məğribinin zahir olması və Şamı öz ixtiyarına keçirməsi, türklərin Cəzirədə düşərgə salması, rumluların Rəmləyə gəlişi, məşriq tərəfdən ay kimi parlayan ulduzun doğması – bu ulduz sonra elə əyiləcəkdir ki, onun iki tərəfi bir-birinə yaxınlaşacaq – səmada qırmızı əlamətin aşkar olub sonradan səmanın hər yerinə yayılması, məşriq tərəfdən səmaya doğru od yüksəlməsi – bu od üç, yaxud yeddi gün müddətində havada qalacaq – ərəblərin itaətsizlik etmələri və ölkələrini öz əllərinə almaları, onu əcəmin hakimiyyətindən çıxarmaları, Misir əhalisinin öz hakimlərini qətlə yetirməsi, Şamın dağılması, üçlük bayraq tərəfdarlarının Şamda bir-birilə ixtilaf etməsi, Qeys və ərəb bayraqlılarının Misrə daxil olması, Kində bayraqdarlarının Xorasana gəlməsi, qərbli süvarilərin Kufənin yaxınlığına gəlib orada qərarlaşması, qara bayraqlıların məşriqdən həmin nahiyəyə gəlməsi, Fəratda yarıq əmələ gəlməsi – belə ki, su Kufə şəhərinin küçələrini basacaq – hər biri yalandan nübüvvət iddiası edən altmış nəfərin qiyam etməsi, Əbu Talib övladlarından hər biri İmamət iddiası edən 12 nəfərin xüruc etməsi, Bəni-Abbasdan olan əzəmətli bir kişinin Cəlula və Xaniqeyn arasında yandırılması (Cəlula İraqda bir məntəqənin adıdır, Xaniqeyn hazırkı İraqın sərhəd şəhəridir), Kərxdən Səlam şəhərinə rabitə yaradan bir körpünün salınması; o məntəqədə sübhün əvvəllərində qara külək qalxacaq, bir zəlzələ baş verəcəkdir və onun nəticəsində məntəqənin böyük bir hissəsi dağılacaq, qorxu və vəhşət artaraq İraqın və Bağdadın əhalisini bürüyəcək, onların arasında kütləvi qırğınlar və ölüm hadisələri artacaq, mal-dövlət, can və məhsullarında kasadçılıq yaranacaq, vaxtaşırı zahir olan çəyirtkələr onların əkin sahələrinə üz gətirər və nəticədə kənd təsərrüfatı məhsullarının qıtlığı yaranar, əcəmdən olan iki qrupun arasında ixtilaf baş verər ki, bu da onların arasında qan axıdılmasına səbəb olar; qullar öz sahiblərinə qarşı itaətsizlik edər, öz ərbablarını qətlə yetirər; bid'ət qoyan bə'zi şəxslər meymun və donuz sifətinə düşər, qullar öz ərbablarının məmləkətlərinə hakim kəsilər, səmada bir fəryad baş verər ki, bütün yer əhli, hər kəs də öz dilində onu eşidər, camaat üçün Günəşin çevrəsində üz və sinə aşkar olub görünər, ölülər dirilərək dünyaya qayıdar ki, bir-birini tanıyıb görüşəcəklər.

Bəyan edilənlərin hamısı ardıcıl olaraq iyirmi dörd yağışın yağması ilə sona çatacaqdır ki, bunun vasitəsilə ölmüş yer diriləcək, xeyir-

bərəkət aşkar olacaq, bu hadisədən sonra hər bir narahatlıq və cismi xəstəliklər haqq ardıcıllarından – həzrət Məhdi (əleyhis-salam)-ın həqiqi tərəfdarlarından uzaqlaşacaq. Rəvayətlərin dediyi kimi, məhz bu hadisələr zamanı köməkçiləri o həzrətin Məkkə şəhərindəki zühurundan agah olub ona kömək etmək üçün tələsərlər.

Qeyd olunan bu hadisələrin bə'ziləri labüddür, bə'zilərinin isə müəyyən şərtləri vardır və Sübhan Allah onların necə baş verəcəyindən daha artıq agahdır. Biz bu hadisələri tarix və rəvayət kitablarında olduğu kimi nəql etdik. Allah-taaladan kömək istəyirik!"[1]

Mərhum Şeyx Müfidin zikr etdiyi şeylər zühur dövrünə yaxın vaxtlarda baş verəcək əlamət və nişanələrin xülasəsi idi. Bu hadisələrin zəncirvari şəkildə və bir-birinin ardınca baş verməsi dedikdə məqsəd, onun dediyi şəkildə baş verməsi deyildir. Çünki bu hadisələrdən bə'ziləri, o cümlədən, Nəfsi-Zəkiyyənin qətlə yetirilməsi, Haşimi kişinin Rükn ilə Məqam arasında başının kəsilməsi kimi hadisələrlə həzrətin zühuru arasında iki həftədən artıq fasilə olmayacaqdır və həqiqətdə o həzrətin hərəkatının bir hissəsi sayılır. Çünki o, həzrət Məhdi (ərvahuna fidah)-ın göndərdiyi şəxsdir. Bu nişanələrdən bə'zilərinin də həzrətin zühuru ilə əsrlər fasiləsi vardır. O cümlədən, Bəni-Abbasın öz aralarında ixtilafa düşmələri, məğribilərin zahir olması, Fatimilər hərəkatı və Şam əyalətlərinin onların ixtiyarına keçməsi.

Mərhum Şeyx Müfidin bə'zi hadisələrin labüd, digər hadisələrin isə müəyyən şərtlər daxilində baş verməsi deməkdə məqsədi budur ki, bu nişanələrdən bə'ziləri hökmən baş verəcəkdir. Necə ki, bu əlamətlərdən bə'zilərinin labüd olaraq baş verməsinə işarə edilmişdir. O cümlədən, Süfyaninin və Yəməninin xürucu, Nəfsi-Zəkiyyənin qətlə yetirilməsi, səmadan eşidiləcək fərad, Süfyani ordusunun yerə batması və s. Bu hadisələrdən bə'ziləri də mütəal Allahın elmində müqəddər olunan digər hadisələrin baş verməsi ilə şərtlənir. Çünki keçmişə və gələcəyə, bu və digər hadisələrə alim olan məhz Odur.

Belə nəzərə çarpır ki, Həsəni dedikdə məqsəd, Məkkədə Nəfsi-Zəkiyyə, yaxud İmam (əleyhis-salam)-ın zühuruna yaxın vaxtlarda Mədinədə Süfyani ordusunun əli ilə qətlə yetirilən bir cavandır. Bu da ehtimal verilir ki, o Həsəni seyyid, İraq İslam hərəkatının başçısı olsun. Çünki bə'zi rəvayətlərdə *"və təhərrəkəl-Həsəni" (Həsəninin hərəkatı başlanar)* kimi qeyd olunur.

---

[1] "Irşad", səh.336; "Biharul-ənvar", 52-ci cild, səh.219-221.

Amma saleh şəxslərdən yetmiş nəfərlə birlikdə qətlə yetirilən Nəfsi-Zəkiyyəyə gəldikdə isə, bunun Ayətullah Seyyid Məhəmməd Baqir Sədr və onunla birlikdə böyük alimlərin və mö'min şəxsiyyətlərin şəhadətə yetməsi hadisəsi ilə uyğun olması uzaq görüş deyildir. Çünki onun tərəfdarlarının sayı yetmiş nəfərə çatırdı. Hədislərdə qeyd olunan "Kufənin arxası" dedikdə məqsəd, Nəcəf şəhəridir və rəvayətdə də Kufənin Nəcəfi, yə'ni o şəhərin yüksəklikləri və dağları adlandırılmışdır. Həmin yer "Qərra", yaxud "Qərrəyəyn" də buna görə adlandırılıb ki, bu ad Hiyrənin padşahı Nö'man ibni Münzirin orada bina etdiyi və ağ rənglə rənglədiyi iki sütunu xatırladır. Əlbəttə, onların dəqiq şəkildə Kufənin arxasında şəhadətə çatmaları vacib deyildir. Bəlkə də Nəfsi-Zəkiyyənin Kufənin arxasında qətlə yetirilməsi dedikdə, onun (Nəfsi-Zəkiyyənin) Nəcəf əhalisindən və oranın sakinlərindən olması nəzərdə tutulur. Amma onunla birlikdə şəhadətə çatan 70 nəfərə gəldikdə isə, nə onunla əlaqədar olan hədislər, nə də mərhum Şeyx Müfidin kəlamı onların da Nəcəf əhlindən olacağına dəlalət etmir, əksinə sadəcə olaraq bunu çatdırır ki, onlar Nəcəf əhli olan Nəfsi-Zəkiyyə ilə birlikdə şəhadətə çatacaqlar.

Kufənin yaxınlığında düşərgə salan Məğrib süvariləri ilə əlaqədar məsələyə gəldikdə isə, bu hadisə Süfyaninin dövründə, yaxud ona yaxın olan bir vaxtda baş verəcəkdir.

Mərhum Şeyx Müfidin dediyi "və qərb nahiyəsindən süvarilər daxil olub Kufənin yaxınlığında qərarlaşarlar" cümləsində əsas məsələ budur ki, bu kəlamın özü rəvayət barədə nəzər və fikir yürüdülməsinə dair bir dəlildir (rəvayətin mətnində qərb və yaxud məğrib deyə qeyd olunur). O da bu ehtimalı gücləndirir ki, onlar qərb qüvvələridir ki, Süfyaniyə kömək etmək və qara bayraqlılarla qarşılaşmaq üçün İraqa daxil olacaq, yaxud Süfyanidən qabaq orada olacaqlar. Hətta demək lazımdır ki, Məğrib ordusu və Məğrib əhlinin adı qeyd olunan rəvayətlər araşdırılmalıdır. Çünki əlyazma hədis kitablarına müraciət etdikdə, aydın olur ki, orada əsas məsələ qərb orduları və qərb əhlidir, şərqdən gələn qara bayraqlılar dedikdə isə, xorasanlı qara bayraqlılar nəzərdə tutulur. Onlar da yəmənli qüvvələrlə birlikdə Süfyaninin əleyhinə mübarizəyə qalxıb onu məhv etmək üçün qoşun yeridəcək və İraqa daxil olacaqlar.

Fərat çayının yarılaraq Kufə şəhərində axması da zühur ilində baş verəcəkdir. Belə ki, İmam Sadiq (əleyhis-salam)-dan nəql olunan bir hədisdə

deyilir: *"Qələbə ilində Fərat yarılacaq, onun suyu Kufənin küçələrində axacaqdır."*[1]

Digər tərəfdən, mərhum Şeyx Müfidin buyurduğu "bu nişanə və əlamətlər rəvayətin əslində sübuta yetmişdir" sözü bu qəbildən olan rəvayətlərə o qədər yüksək dəyər verir ki, onun düzgün bildiyi hədislərin səhihliyində heç vaxt şəkk etmək olmaz. Çünki o çox diqqətli bir alim, yüksək məqam sahibi, İmamların və tabeinin dövranına daha yaxın olmuşdur. (O, 413-cü h.q. ilində vəfat etmişdir.)

Amma Süfyanidən qabaq İraqda İslam hökumətinin qurulacağını göstərən rəvayətlərə gəldikdə isə, onların ümdə hissəsi zühura müqəddimə yaradan iranlıların İraqın zalım hakimlərinə qələbə çalmasına dəlalət edir. İmam Baqir (əleyhis-salam)-dan nəql olunan bir rəvayətdə deyilir: *"Sanki görürəm ki, bir qrup şərq tərəfdən xüruc edib öz haqlarını müxaliflərdən tələb edirlər. Amma onların hüququ özlərinə qaytarılmır. Yenidən öz haqlarını tələb edərlər, yenə də hüquqları onlara qaytarılmaz. Bu mərhələdə silahlarını çiyinlərinə qoyub müqavimətlə dayanarlar. Müxaliflər bu vəziyyəti müşahidə etdikdə onların əvvəlki istəkləri əməl mərhələsinə çatar, amma bu dəfə özləri qəbul etməzlər. Nəhayət, qiyam edər və öz hidayət bayraqlarını sizin sahibinizdən başqa bir kəsə verməzlər. Onların öldürülənləri şəhiddirlər. Əgər mən o dövrü görsəydim, özümü o əmrin sahibinə kömək etmək üçün saxlardım."*[2]

Başqa bir rəvayətdə deyilir: *"Xorasandan qara bayraqlılar çıxar ki, heç bir şey onları məğlub etməyə və geri qaytarmağa qadir olmaz. Nəhayət onlar bu bayrağı Beytül-müqəddəsdə yelləndirərlər."*[3]

Şiə alimləri və bə'zi "Sihah" müəllifləri tərəfindən müstəfiz şəkildə[4] Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə nəql olunur: *"Bir qrup insan şərqdən qiyam edəcək və Məhdinin hökumət və səltənətinin müqəddiməsini hazırlayacaqlar."*[5]

Ümumiyyətlə, bu və digər rəvayətlər zühurdan qabaq İraqda İslam hökumətinin bərqərar olunmasına aşkar şəkildə dəlalət etməsə də, sonradan qeyd edəcəyimiz kimi, iranlıların iki mərhələdə qələbə çalacaqlarına dəlalət edir. Daha üstün nəzər budur ki, iranlıların

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.217.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.43.
[3] "Əl-məlahimu vəl-fitən", səh.40.
[4] Təvatür həddinə çatmayan və ravilərinin sayı üçdən az olmayan rəvayətə deyilir.
[5] "Biharul-ənvar", 51-ci cild, səh.87.

İraqdakı zalım hökuməti məhv etmək və İslam hökuməti qurmaqdakı məqsədləri orada həyata keçəcəkdir.

Başqa rəvayətlərdə də iranlıların İraqın böyük şəhərləri olan Xaniqeyn və Bəsrəyə daxil olub oranın zalım hökumətini məhv edəcəklərindən xəbər verir. Amma bu rəvayətlər ya mürsəldir[1], ya da zəif.[2] Belə ki, "Xütbətül-bəyan" rəvayətində belə deyilir: *"Vay olsun Bağdada, Rey əhlindən! (Vay olsun) İraq əhlini bürüyən ölüm, qırğın, qorxu və vəhşətdən, o zaman ki, onların arasına qılınc qoyular və onlardan Allahın iradə etdiyi qədəri qətlə yetirilər. Bu zaman əcəmlər ərəblərə qarşı qiyam edib Bəsrəni öz ixtiyarlarına keçirərlər."*[3]

Həmçinin, İmam Sadiq (əleyhis-salam)-dan belə nəql edilir: *"Sonra ərəblə əcəmin ordu başçıları arasında düşmənçilik və ixtilaf yaranacaq. Bu ixtilaf Əbu Süfyanın nəslindən olan bir nəfərin hakimiyyətinə qədər davam edəcəkdir."*[4]

"Təhərrəkəl-Həsəni" rəvayətində mövcud olan əlamətlərdən mə'lum olur ki, o, İraqda yaşayacaq və hakimiyyətə çatdıqdan sonra qətlə yetiriləcəkdir.

Orada İslam hökumətinin qurulmasına dəlalət edən rəvayətlərin müqabilində digər rəvayətlər də İraqda zalım hökumətlərinin həzrət Məhdi (əleyhis-salam)-ın zühur dövrünə qədər davam edəcəyindən söz açır. Belə ki, İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"Kufə məscidinin Əbdüllah ibni Məs'udun evinə tərəf olan arxa divarı uçduğu vaxt (filankəsin sülaləsinin) səltənətinin sona çatdığı vaxtdır ki, bundan sonra Qaim (əleyhis-salam) zühur edəcəkdir."*[5]

Şeyx Tusinin "Qeybət" kitabında qeyd olunan *"divarı uçurdan şəxs onu tə'mir etməyəcəkdir"*[6] rəvayəti bu mə'nayadır ki, məscidin divarını uçurdan şəxs ya öldürüləcəkdir, ya da tə'mir edib yenidən tikməzdən əvvəl oradan çıxıb gedəcəkdir. Əlbəttə, məscidin divarının uçurdulması hadisəsi sadəcə olaraq hərbi yönə malikdir. Yə'ni bu şəhərin hakimi hökumətlə zidd olan hərəkatı məhv etmək və məscidə pənah apararaq orada sığınacaq salan müxalifləri qətlə yetirmək üçün bu işi görəcəkdir.

---

[1] Mürsəl – sənədlər silsiləsində ravinin adı ixtisara düşməsinə görə höccət sayılmayan rəvayətlərə deyilir.

[2] Zəif – ravilərdən birinin fasiq, yaxud vəziyyətinin namə'lum olması, yaxud da hədis qondaran olması şübhəsi olan rəvayətə deyilir.

[3] "Ilzamun-nasib", 2-ci cild, səh.191.

[4] Yenə orada, səh.160.

[5] "Irşad" (Şeyx Müfid), səh.360.

[6] "Qeybəti Tusi", səh.271.

Bə'zən həmin mə'na Kufə məscidinin kənarında baş verən vəhşicəsinə qırğınla əlaqədar rəvayətdən də aydın olur. Belə ki, Əbu Bəsir İmam Sadiq (əleyhis-salam)-dan belə nəql edir: *"Sizin məscidin (Kufə məscidinin) kənarında filankəsin sülaləsi üçün müəyyən olunmuş bir gündə bir mə'rəkə baş verəcək, bu çarpışmada Fil darvazasından Sabun səhabələrinə (Kufədə bir məhəllənin adıdır) qədər məsafədə dörd min nəfər qətlə yetiriləcəkdir."*[1]

Digər bir rəvayətdə isə belə deyilir: *"Onların səltənəti, camaatı cümə günündə Kufədə kütləvi şəkildə qırmayınca aradan getməz. Sanki məscidlə Sabun səhabələri arasında kəsilmiş başları görürəm."*[2]

Həmin məzmunun oxşarı Süfyaninin İraqa qoşun yeritməsi xüsusunda nəql olunan rəvayətlərin arasında da vardır. Onlardan belə mə'lum olur ki, Süfyani qeyri-İslami, hətta İslamın və İmam Məhdi (ərvahına fidah)-ın düşməni olan zəif bir hökumətlə mübarizəyə qalxacaq. "Biharul-ənvar"da (52-ci cild, səh.273) Süfyani hərəkatı ilə əlaqədar nəql etdiyimiz rəvayətdə belə qeyd olunur: *"Camaata rəhbərlik o gündə inadkar zalımın əli ilə olacaqdır ki, ona kahin və cadugər də deyilir."*

Amma bu rəvayətlərin düzgünlüyünü qəbul etsək, onlar həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan qabaq İraqda İslam hökumətinin qurulmasına dəlalət edən birinci rəvayətlərlə ziddiyyətli deyildir. Çünki bu rəvayətlər elə mərhələdən söz açır ki, onun zühura birləşik olması mə'lum deyil, yaxud da qısa bir mərhələdən ibarətdir ki, o həzrətin zühuruna birləşəcəkdir. Hər bir halda, zühura zəmin yaradanların qələbəsindən sonra İslami hökumət yaranacaq, Allahın iradə etdiyi bir vaxta qədər davam edəcəkdir. Sonra isə onda yaranan əyintilər səbəbilə elə zühur ilində, yaxud ondan bir az öncə hökumət zalımların əlinə keçəcəkdir. Allah daha yaxşı bilir!

**HƏSƏNİ, ŞEYSBANİ, OVF SƏLƏMİ**

Bir çox rəvayətlərdə Həsənidən söhbət açılır və onun da İraqda hərəkata başlayacağı qeyd olunur. Amma bu rəvayətlər daha diqqətlə araşdırılmalıdır. Çünki bu hədislərdə üç nəfərdən – Mədinəli Həsəni, Məkkəli Həsəni və İraqlı Həsənidən söz açılır. Sünnülərin mənbələrində və bə'zi şiə mənbələrində Xorasanlı Hüseyni "Həsəni" adı ilə qeyd olunmuş və deyilmişdir ki, o da həzrətin zühur ilində öz ordusu ilə İraqa daxil olacaqdır. Buna əsasən, İraqda Həsəni hərəkatı ilə əlaqədar

---

[1] "Irşad", səh.360.
[2] "Qeybəti Tusi", səh.272.

rəvayətlərdən məqsəd, həmin qiyamın olduğuna ehtimal verilir. Ondan qabaq Həsəni adlı digər bir şəxsin qiyam etməsi də mümkündür.

Amma Şeysbaniyə gəldikdə isə, birinci dərəcəli hədis mənbələrindən olan "Qeybəti Nö'mani" kitabında Cabir Co'fidən belə nəql olunur: İmam Baqir (əleyhis-salam)-dan Süfyani barəsində sual etdikdə buyurdu: *"Siz Süfyanini yalnız o vaxt taparsınız ki, ondan qabaq Şeysbani İraqda yerdən qaynayan su kimi gözlənilmədən zahir olsun və qiyam etsin. O, sizin nümayəndələrinizi qətlə yetirəcək. Bu hadisədən sonra Süfyaninin qiyamını gözləyin ki, həzrət Qaim də qiyam edər."*[1]

Onun barəsində digər bir rəvayət tapa bilmədim, amma eyni zamanda həmin rəvayətdə bu şəxslə əlaqədar bir neçə məsələ nəzərə çarpır. O cümlədən:

a) O, Şeysbani adı ilə vəsf edilmişdir ki, "Şeys-Ban"a mənsub olan şəxs deməkdir. O da İmamların şər adamlar və tağutçular barəsində gətirdiyi tə'birdən ibarətdir. Belə ki, Zübeyrinin "Qamus" kitabında qeyd olunur ki, Şeysban əslində İblisin adıdır, digər mə'nası da erkək qarışqa deməkdir.

b) Onun Süfyanidən əvvəl xüruc etməsini göstərən rəvayətlərdən aydın olur ki, onunla Süfyani arasında çox da uzaq zaman fasiləsi olmayacaq, yaxud ondan dərhal sonra Süfyani qiyam edəcəkdir. Çünki İmam Baqir (əleyhis-salam) *"ondan sonra Süfyaninin intizarında olun"* -deyə buyurmuşdur.

v) Onun xüruc etdiyi yer İraqdır, o yerə Kufan da deyilmişdir, yaxud da Kufə şəhərinin özündə olacaqdır. Hər bir halda, onun qiyamı, inqilabı, yaxud hökuməti gözlənilməz və "yerdən qaynayan su kimi" olacaqdır. O, tüğyançı və qan axıdan bir şəxsdir ki, mö'minləri qətlə yetirəcəkdir. *"Sizin nümayəndələrinizi qətlə yetirəcəkdir"* – kəlamının mə'nası zahirdə budur ki, adətən nümayəndə hey'ətlərinin qabağında gedən ali rütbəli mö'minləri şəhadətə çatdıracaq, yaxud şəhər nümayəndələrini öldürəcəkdir. Rəvayətdə gələn "vəfədə qəbilih" kəlməsi "onların məqam və mənzilət sahibi olan rəhbər və şəxsiyyətləri" mə'nasınadır. Əlbəttə, ehtimal üzrə, onun mə'nası belə də ola bilər: Beytüllahil-həramı və sair yerləri ziyarət qəsdində olan hey'ətləri qətlə yetirəcəklər.

Süfyaninin hərəkatı və onun İraqa qoşun yeritməsində buna üstünlük verilir ki, Şeysbaninin İraqdakı hakimiyyəti Süfyaninin qiyamından

[1] "Biharul-ənvar", 52-ci cild, səh.250.

əvvəl və zühura müqəddimə yaradanların hökuməti qurulduqdan sonra bərqərar olunacaqdır. Əlbəttə, bə'zi alimlərin nəzərinə görə bu sifətlərə malik olan belə bir şəxs İraqın (sabiq) hakimi Səddam Hüseynlə uyğun gəlir. Çünki qeyd olunan bütün bu sifətlər onda mövcuddur. Deməli, əgər Süfyani ondan sonra Şamda qiyam edəcəksə, iddia edərək demək olar ki, Səddam elə rəvayətlərdə qeyd olunan iraqlı Şeysbanidir.

Amma Ovf Sələmiyə gəldikdə isə, onun barəsində də Şeyx Tusinin "Qeybət" kitabında müəyyən rəvayətlər nəql olunmuşdur. Həzləm ibni Bəşir nəql edir ki, Əli ibni Hüseyn (əleyhis-salam)-a ərz etdim: Həzrət Məhdi (əleyhis-salam)-ın necə qiyam edəcəyini, zühurunun dəlil və nişanələrini mənə bəyan edin. Həzrət buyurdu: *"Onun zühurundan qabaq Cəzirədə Ovf Sələmi adlı bir şəxs qiyam edəcəkdir, onun yeri Təkrit və qətlə yetirildiyi yer Dəməşq məscididir. Ondan sonra Səmərqənddən Şüeyb ibni Saleh qiyam edəcək. Daha sonra məl'un Süfyanidir ki, Əbu Süfyanın oğlu Ütbənin nəslindəndir. O, Yabis vadisindən qiyam edəcəkdir. Onun qiyam etdiyi zaman Məhdi (əleyhis-salam) məxfi olacaq, bundan sonra zühur edəcəkdir."*[1]

Əlbəttə, bu şəxs barəsində digər bir rəvayət görmədim. Amma həmin rəvayətin özündə Şüeyb ibni Saleh barəsində qeyd olunanlardan aydın olur ki, o, Səmərqənd əhlidir və şiə rəvayət mənbələrində Rey əhlindən olması ilə əlaqədar mətləblərlə müxalifdir. Amma bunu belə yozmaq olar ki, əslində səmərqəndlidir.

Zahirən, Ovf Sələmi İraqda deyil, Suriyada, özü də Süfyanidən öncə hökumət əleyhinə qiyam edəcəkdir. Onun hərəkatının mərkəzi olan Cəzirəyə gəldikdə isə, İraq-Suriya sərhəddində yerləşən bir yerdir. Əgər Cəzirə kəlməsi izafə şəklində olmazsa, həmin mə'nanı ifadə etməsi mə'lum olur. Tarix və hədis kitablarında da belə qeyd olunmuşdur. Əlbəttə, bu Cəzirə "Cəzireyi-Rəbiə" və "Cəzireyi Diyar Bəkir" adı ilə dəqiq qeyd olunur. Buna əsasən, Cəzirə kəlməsindən "Cəzirətul-ərəb", yaxud başqa bir yarımadanı nəzərdə tutmaq olmaz. Yalnız həmin kəlməyə izafə formasında olduqda, başqa mə'na düşünülə bilər. Zahirən, "onun yeri Təkritdir" cümləsinin mə'nası budur ki, o, qiyam etməzdən qabaq, eləcə də məğlub edildikdən və şəhərdən qaçdıqdan sonra hal-hazırda İraqın məşhur şəhərlərindən biri olan Təkritdə olacaqdır. Çünki, Təkrit onun hərəkat məntəqəsinə – Cəzirəyə çox yaxın bir yerdə yerləşir. Bə'zi nüsxələrdə də "onun yeri Təkrit, yaxud Bəkvitdir" deyə

[1] "Biharul-ənvar", 52-ci cild, səh.213.

qeyd olunur ki, nüsxə yazılarkən səhvə yol verildiyi ehtimal olunur. "Biharul-ənvar" və "Qeybəti Tusi" kitablarında yalnız "Təkrit" deyə qeyd olunur. Rəvayətlərdə göstərilir ki, o (Ovf Sələmi) Dəməşq məscidində sui-qəsd nəticəsində qətlə yetiriləcək, yaxud orada tutulub öldürüləcəkdir. Buna əsasən, onun qiyamı Şamda baş verən hadisələr sırasındadır və İraq hadisələri ilə müəyyən qədər əlaqədardır.

### ÜÇÜNCÜ MƏRHƏLƏ: SÜFYANİNİN QOŞUN YERİTMƏSİ VƏ BƏSRƏNİN DAĞİLMASİ

Bu barədə nəql olunan rəvayətlər Süfyaninin İraqa qoşun yeritməsi və bu ölkəni işğal etməsi ilə əlaqədardır. O, yerli əhaliyə, xüsusilə həzrət Məhdi (ərvahuna fidah)-ın və Əhli-beytin ardıcıllarına çoxlu əzab-əziyyətlər verəcəkdir ki, bunları "Süfyani hərəkatı" bölməsində qeyd etdik. Lakin rəvayətlərin məcmusundan aydın olur ki, İraqdakı hökumət həmin dövrdə o qədər zəif olacaqdır ki, nə özünün hərbi qüvvələrinə, nə də camaat arasında olan qüvvələrə arxalanmaqla Süfyaninin hücumunu dəf etməyə qadir olmayacaqdır. Bundan sonra Süfyani ilə mübarizə aparmaq üçün İraqa gələn yəmənli və iranlı qüvvələrlə qarşılaşmaqdan da aciz olacaqdır. Belə ehtimal verilir ki, Süfyani qüvvələrinin İraqa daxil olması o zəif hökuməti gücləndirmək məqsədi daşıyacaq. Amma rəvayətlərdə Süfyaninin Düceyl, Bağdad və digər yerlərdə qarşılaşdığı müharibələrdən söhbət açılır. Məqsəd onların xırda qruplaşmalarla apardığı müharibələrdir. Çünki rəvayətlərdə deyilir ki, iranlı və yəmənli qüvvələr İraqın insani arxalarından bəhrələnəcəklər, oranın müstəz'əf əhalisi də Süfyani qüvvələrini məhv etmək üçün bu qüvvələrə könüllü olaraq kömək göstərəcəkdir.

Amma Bəsrənin dağılması ilə əlaqədar rəvayətlərə gəldikdə isə, onlar üç qisimdir:

a) Onun suya batmaqla dağılmasını göstərən rəvayətlər;

b) Zəncilərin hərəkatı vaistəsilə dağılmasını göstərən rəvayətlər;

v) Həm yerin batması, həm də suda qərq olmaqla dağılmasını göstərən rəvayətlər.

Həzrət Əli (əleyhis-salam)-ın "Nəhcül-bəlağə"də və sair yerlərdə qeyd olunan kəlmələrinin əksəriyyətinin məzmunu əvvəlki iki dağılmadır ki, abbasilərin hakimiyyəti dövründə baş vermiş və bütün tarixçilər də onu qeyd etmişlər. O həzrətin kəlamlarında şəhərin üçüncü dəfə dağılmasından söhbət açılır ki, bu da həzrət Məhdi (əleyhis-salam)-ın zühur nişanələrindən sayılır.

“Nəhcül-bəlağə”də də qeyd olunduğu kimi, Həzrət Əli (əleyhis-salam) Bəsrə əhlinə xitab edərək buyurur: *“Siz o qadının (Ayişənin) ordusu, o heyvanın (Ayişənin mindiyi dəvənin) tərəfdarlarısınız. O heyvan fəryad etdiyi zaman qəbul etdiniz, öldürüldüyü zaman qaçdınız. Tez inciyirsiniz, sizin əhd-peymanınız əhd-peymanı pozmaqdan ibarətdir. Sizin dininiz nifaq, içməli suyunuz çox acı və istifadəsizdir. Hər kəs sizin aranızda məskən salsa, günahının girovunda giriftar olar, hər kəs sizi tərk etsə, Allahın rəhməti onun halına şamil olar. Sanki sizin məscidinizi (Bəsrə məscidini) görürəm ki, gəminin göyərtəsi kimi suya oturmuşdur. Allah yuxarıdan və aşağıdan əzab göndərmişdir, hər kəs onun daxilində olsa, qərq olacaqdır.”*[1]

İbni Əbil-Hədid həzrət Əli (əleyhis-salam)-ın bu xütbədəki sözləri ilə əlaqədar demişdir: “Əmirəl-mö’minin Əli (əleyhis-salam)-ın Bəsrənin qərq olmasından xəbər verərək suyun Came məscidindən başqa bütün məscidləri basacağını demişdir. Gələcək hadisələrlə əlaqədar kitablarda Bəsrə şəhəri və onun əhalisinin yerdən qaynayan qara suda qərq olması deyilir ki, yalnız o şəhərin məscidi qərq olmayacaqdır. Səhih nəzər budur ki, o həzrətin irəlicədən xəbər verdiyi hər bir şey həyata keçmişdir. Çünki Bəsrə şəhəri iki dəfə suya batmışdır – birincisi, Abbasi xəlifəsi Qaim Biəmrillahın dövründə tamamilə suya batmış, yalnız Came məscidinin müəyyən hissələri sudan kənarda qalmışdı ki, o da quşun sinəsi kimi havada aşkar görünürdü. Əli (əleyhis-salam)-ın buyurduğu kimi, su Fars körfəzindəki Cəzireyi-Farsi adlı bir nahiyədən və Sənnam adlı dağ tərəfindən qalxaraq şəhəri basmışdı. Belə ki, şəhərin evləri, əhali ilə birlikdə suda qərq olmuş, əhalinin əksəriyyəti həlak olmuşdur. Bu iki qərq olma hadisəsindən biri Bəsrə əhalisinin arasında çox məşhur bir hadisədir ki, onu öz ata-babalarından nəql edirlər.

Amma zəncilərin inqilabı vasitəsilə xarab olma hadisəsinə gəldikdə isə, bu, dördüncü əsrdə Abbasilərin dövründə baş vermişdir. Əli (əleyhis-salam) bu barədə təkrar xəbərlər vermiş və buyurmuşdur: *“Ey Əhnəf! Sanki onu görürəm, bir ordu ilə yola düşər ki, nə toz-torpağı vardır, nə də cəngavərlərin hay-küyü, nə miniklərin cilo larının səsi, nə də atların kişnəmə səsi. Onlar dəvəquşunun ayağına oxşar olan ayaqlarla yeri əkərlər.”*[2]

Mərhum Seyyid Rəzi deyir: Həzrət Əli (əleyhis-salam) bu ibarələrlə zəncilərin sərkərdəsinə işarə edir. Həzrət sonra sözünə davam edərək buyurdu:

---

[1] “Nəhcül-bəlağə”, 13-cü xütbə.
[2] “Nəhcül-bəlağə”, səh.128.

*"Vay olsun sizin abad yollarınıza və gözəl evlərinizə ki, kərkəs qanadlarına oxşar eyvanları və fil xortumuna oxşar alınları (ön hissələri) vardır! O kəslərin tərəfindən ki, ölülərinə ağlayan yoxdur və onların qaibləri itməmişlər."*

Qirmətinin rəhbərliyi ilə zəncilərin qiyamı tarix kitablarında məşhurdur. Əli (əleyhis-salam)-ın zikr etdiyi hər bir vəziyyət dəqiq şəkildə onlara uyğun gəlir. Bu inqilab həqiqətdə qullara və zəif xalq kütlələrinə qarşı rəva görülən zülm və haqsızlığın təbii nəticəsi idi. Buna görə də bu ordu hamılıqla qara qullardan ibarət idilər ki, heç bir minikləri olmamışdır.

Amma zühur əlamətlərindən biri olan Bəsrənin dağılıb xarab olmasına gəldikdə isə, Bəsrə Qur'ani-məciddə qeyd olunan "mö'təkifə" (alt-üst olan) şəhərlərdən biridir. Yə'ni İlahi əzab nəticəsində yerin altına batmaqla tərsinə çevrilmişdir. Bəsrə şəhəri üç dəfə alt-üst olmuş, lakin dördüncü dəfəsi hələ baş verməmişdir.

İbni Meysəm Bəhraninin "Nəhcül-bəlağə"yə yazdığı şərhdə deyilir: "Cəməl müharibəsi qurtardıqdan sonra Əmirəl-mö'minin Əli (əleyhis-salam) bir carçıya əmr etdi ki, e'lan edib belə desin: "Sabahdan e'tibarən hamı üç gün müddətində camaat namazında iştirak etsin, üzürlü səbəb olmadan heç kəsin bu işdən imtina etməyə haqqı yoxdur! Elə bir iş görməyin ki, sizinlə ciddi rəftar edim!" Sabah hamı bir yerə yığışdı. Həzrət Əli (əleyhis-salam) sübh namazını Came məscidində camaatla birlikdə qıldı. Namazdan sonra ayağa qalxdı, müsəllanın sağ tərəfində, arxası qibləyə dayanıb camaata xitab etdi. Allaha layiq olan həmd-səna etdikdən, Peyğəmbərə salavat göndərdikdən, mö'min və müsəlman kişi və qadınlar üçün Allahdan bağışlanmaq istədikdən sonra buyurdu: *"Ey Bəsrə əhalisi! Ey o şəhərin əhalisi ki, indiyə qədər üç dəfə öz əhalisini ölümə vermişdir. Mütəal Allah dördüncü mərhələni də həyata keçirib kamilləşdirdi. Ey qadının (Ayişənin) ordusu! Ey o miniyin (Ayişənin dəvəsinin) tərəfdarları ki, fəryad etdiyi zaman cavab verdiniz, öldürüldüyü zaman məğlub oldunuz (və qaçdınız). Siz (çox) tez inciyirsiniz, dininiz nifaq, içməli suyunuz acı və istifadəsizdir. Sizin şəhərin torpağı şəhərlərin ən pis iylisi, Onun rəhmətindən ən uzaq olanıdır. Bu şəhərdə şər və pisliyin nisbəti onda doqquzdur (yə'ni hər on nəfərdən doqquz nəfəri şər adamdır). Bu şəhərdə qalan hər bir şəxs öz günahlarının girovunda olar, ondan çıxan hər şəxs Allahın rəhmətinə nail olar. Sanki sizin şəhərinizi (Bəsrəni) görürəm: su onu hər tərəfdən əhatə etmişdir, yalnız məscidin minarələrindən başqa. Onlar da quşun sinəsi kimi dəryanın*

*ortasında aşkardır və əlavə heç bir şey görünməz."* Bu zaman Əhnəf ibni Qeys ayağa qalxıb dedi: "Ey Əmirəl-mö'minin, bunlar nə vaxt baş verəcəkdir?" Həzrət buyurdu: *"Ey Əba Bəhr! Sən o zamanı heç vaxt görməyəcəksən. Səninlə o zaman arasında əsrlər fasilə vardır. Lakin sizin hazır olanlarınız qaiblərə və onlar da öz din qardaşlarına çatdırsınlar, çünki oranın qamışlıqlarının göydələn binalara çevrildiyini gördüyünüz zaman qaçmaq (lazımdır) qaçmaq! O gündə sizin üçün artıq heç bir Bəsrə qalmayacaqdır."*

Həzrət sağ tərəfə diqqət yetirərək buyurdu: "Sizinlə Əbüllənin arasında nə qədər məsafə vardır?" Münzər ibni Carud ayağa qalxıb dedi: "Atam-anam sənə fəda olsun, dörd fərsəx." Həzrət ona buyurdu: "Düz dedin. Həzrət Mühəmmədi peyğəmbərliyə seçən, onu nübüvvət məqamı ilə əzizləyən və risalətini ona məxsus edən, onun ruh quşuna tə'cili surətdə behiştdə yer verən Allaha and olsun, sizin məndən eşitdiyiniz kimi, o həzrətin belə buyurduğunu eşitdim: *"Ey Əli! Bilirsənmi ki, Bəsrə adlandırılan yerlə Əbüllə adlı yer arasında dörd fərsəx fasilə vardır?! Tezliklə bu məntəqə xərac alanların düşərgəsinə çevriləcəkdir. O məkanda mənim ümmətimdən yetmiş min nəfər şəhid olacaqdır ki, hamısı Bədr şəhidləri məqamındadır."*

Münzər ərz etdi: "Atam-anam sənə fəda olsun, ey Əmirəl-mö'minin! Onları kim öldürəcəkdir?" Həzrət buyurdu: *"Onları üzləri qara və iyləri pis olan şeytansifətlər qətlə yetirəcəkdir, onların harislikləri həddindən artıqdır. Amma qarətlərdə çox az qazanc əldə edərlər. Xoş olsun o kəsin halına ki, bunların əli ilə qətlə yetirilə! Onlarla mübarizə aparmaq üçün, o dövrün istismarçılarının nəzərində xar və yerdə tanınmaz, səmalarda isə məşhur olan bir dəstə adam irəli düşəcəkdir. Göylər, yer və onlarda olan hər bir şey onlara ağlayar.* (Bu zaman həzrətin gözləri yaşla doldu və buyurdu:) *Vay olsun sənə, ey Bəsrə! Nə səsi, nə də toz-torpağı olmayan bir qoşundan sənə vay olsun!"* Münzər yenidən soruşdu: "(Bəsrə əhli) üçün qərq olmadan irəli gələn şeylər hansıdır?"

Həzrət buyurdu: *"Bu kəlmə – "vay" iki qapıya malikdir ki, biri rəhmət qapısı, digəri isə əzab qapısıdır. Bəli, ey Carudun oğlu! Böyük intiqam alanlar ki, onlardan bir qrupu digər bir qrupunu qətlə yetirər; o cümlədən, bir fitnə və iğtişaşdır ki, evləri və şəhərləri dağıdar, mal-dövləti qarət edər, qadınları əsarətə götürər və başları çox faciəli şəkildə kəsilər. Vay, vay, onların başına gələnlər necə də qəribədir! O nişanələrdən biri də bir gözlü yekə Dəccaldır, onun sağ gözü görünmür, o biri gözündə də çeynənmiş ətə oxşar bir şey vardır ki, qanla*

*qarışıqdır. Onun gözü suyun üzərində olan üzüm giləsi kimi hədəqəsindən çölə çıxmışdır. Bəsrə əhalisindən sayı Əbüllə şəhidlərinə çatan bir dəstə ona tabe olar. O zaman bir qrup qətlə yetirilər, digər bir qrupu isə qaçar. Bundan sonra yer lərzəyə gəlib ətrafa səpələnər, yerə batar, qiyafələr başqa surətlərə düşər. Bu zaman qəhətlik nəticəsində aclıq, ondan sonra da qırmızı ölüm, yə'ni qərq olma gəlir.*

*Ey Münzər! Səmavi kitablarda bu şəhər Bəsrədən əlavə digər üç adla qeyd olunmuşdur ki, onu alimlərdən başqa heç kəs bilmir. O cümlədən, Həribə, Tədmər və Mö'təkifədir... Ey Bəsrə əhli! Allah-taala müsəlman şəhərlərinin hamısının arasından ən yüksək və kəramət mərtəbəsini sizdə qərar vermiş, sizə başqalarından üstünlük əta etmişdir. Qiblə nahiyəsindən başqalarından üstünsünüz, çünki sizin qibləniz Məqami-İbrahimlə üzbəüzdür. O həmin yerdədir ki, Məkkədəki pişnamaz həmin yerdə dayanır. Sizin Qur'an qariləriniz ən yaxşı qarilər, pərhizkarlarınız camaatın ən yaxşı təqvalıları, ibadət edənləriniz ən yaxşı ibadət edənlər, tacirləriniz ən yaxşı tacirlərdir və onaların ən düzgün danışanları müamilə və ticarətdədirlər; sədəqə verənləriniz bu cəhətə görə camaat içərisində ən əzizdir, varlılarınız insanların ən çox bəxş edəni və təvazökarıdır, layiqli şəxsləriniz gözəl əxlaq cəhətindən hamıdan yüksəkdədir. Siz camaata ən yaxşı sığınacaq verənlərsiniz, sizinlə əlaqədar olmayan şeylərdə (bir kəsi) zəhmətə salmazsınız, camaat namazında iştirak etməyə olan rəğbətiniz başqalarından daha artıqdır. Meyvələriniz ən yaxşı meyvələr, mal-dövlətiniz ən yaxşı mal-dövlət, övladlarınız ən yaxşı və ayıq övladlardır. Qadınlarınız ən iffətli və ərinə ən yaxşı xidmət edənlərdir. Mütəal Allah suyu sizin ixtiyarınızda qoymuşdur ki, sübh-axşam öz məişətiniz üçün ondan istifadə edəsiniz, dəryanı da sizin mal-dövlətinizin artım səbəbi qərar vermişdir. Əgər səbir və müqavimət əhli olsanız, Tuba ağacı sizin yeriniz və kölgələnəcəyiniz olacaqdır. Amma Allah-taalanın iradəsi belə olmuşdur, Onun qəza və hökmü cari olacaqdır. Heç kəs Onun hikmətinin əksinə bir iş görə bilməz. O, bəndələrindən sür'ətlə hesab çəkəcəkdir. Sübhan Allah buyurur: "Elə bir məntəqə yoxdur ki, Qiyamətdən qabaq onun əhalisini həlak, yaxud əzaba düçar etməyək." Bu həqiqət də Qur'anda yazılmışdır."*[1]

Axırda belə buyurdu: *"Günlərin birində Peyğəmbəri-Əkrəm* (səlləllahu əleyhi və alihi və səlləm) *yanında məndən başqa heç kəsin olmadığı halda buyurdu:*

---

[1] "Isra" surəsi, 10-cu ayə.

*Ruhul-əmin Cəbaril məni özünün sağ çiynina mindirdi, yeri və onun üstündə olanları gördüm. Onun açarlarını mənə həvalə etdi və yerdə olan və Qiyamətə qədər olacaq şeylərdən məni agah etdi. Bu məsələdən agah olmaq, atam Adəmə də çətin olmadığı kimi, mənim üçün çətin deyildi. Belə ki, (Allah) bütün adları ona öyrətdi, amma mələklər onları bilmədilər. Bu zaman mən dəryanın kənarında Bəsrə adlı bir şəhəri gördüm, o şəhər səmaya ən uzaq, suya isə ən yaxın bir yer idi. Həmin ölkə sair yerlərdən tez dağılacaq, ən xoşagəlməz torpağa çevriləcək və ən şiddətli əzaba düçar olacaqdır ki, keçən əsrlərdə bir neçə dəfə suya batmışdır və yenidən bir dəfə də belə olacaqdır. Ey Bəsrə əhli və ey ətraf kəndlər! Su oraları bürüdüyü zaman sizə vay olsun! Bəla və müsibət çox böyük olacaqdır, mən sizin şəhərinizdə (Bəsrədə) suyun qaynayıb fəvvarə vurmasını bilirəm. Ondan qabaq sizə böyük və gözlənilməz hadisələr üz verəcəkdir ki, sizin gözlərinizdən qaibdir, lakin biz ona agahıq. O şəhərin qərq olmasına yaxın vaxtlarda oranı tərk edən şəxsə Allahın rəhməti şamil olmuşdur və hər kəs oraya diqqət yetirmədən orada qalsa, öz günahının girovundadır. Allah Öz bəndələrinə heç vaxt zülm etməz."*[1]

Biz bu hədisə "Müstədrəku Nəhcül-bəlağə" kitabında olan və "Nəhcüs-səadət" kitabından nəql olunan bir cümləni də əlavə etdik, digər bir hissəsini də İbni Qüteybənin "Üyuni əxabari Riza" kitabından nəql edirik. Həsən Bəsri deyir ki, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in belə buyurduğunu eşitdim: *"Bəsrə adlı bir yer fəth olunacaqdır ki, qiblə cəhətindən yerin ən sabit bir hissəsidir. O şəhərin qariləri ən yaxşı qarilər, ibadət edənləri ən yaxşı ibadət edənlər, alimləri ən savadlı alimlər, sədəqə verənləri və tacirləri ən böyük tacirlərdəndir. Bu şəhərdən Əbüllə adlı yerə qədər dörd fərsəx yol vardır. Onun Came məscidinin girişində qırx min nəfər şəhadətə çatacaqdır ki, onlar mənimlə Bədr müharibəsində iştirak edib şəhid olanlar kimidir."*

Tarixi mənbələrdən aydın olur ki, Əli (əleyhis-səlam)-ın Bəsrədəki xütbəsi və bu hadisələrlə əlaqədar buyurduğu sözlər məşhurdur, lakin onunla əlaqədar olan rəvayətlərin məzmunu uzun, yaxud qısa olmaq cəhətindən bir-biri ilə fərqlənir.

Nəql etdiyimiz iki rəvayət Bəsrənin yerə batmasından sonra suya qərq olacağından da söhbət açır. Bu da əvvəlki qərq olma mərhələsində, yaxud zəncilərin qiyamı dövründə baş verməmişdir. Nəzərə belə çarpır

[1] "Biharul-ənvar", 60-cı cild, səh.224-226; "Nəhcüs-səadət", səh.325.

ki, bu, digər rəvayətlərdə həzrət Məhdi (ərvahuna fidah)-ın zühur əlamətləri kimi qeyd olunan qərq olmadır, yaxud da ehtimal üzrə qara bayraqlıların İraqın zalım hakimləri ilə apardığı müharibədə – Süfyani tərəfindən işğal olunmazdan qabaq, yaxud işğal olunmasından sonra – baş verəcək yerə batmadır. Belə ki, təklikdə bu iki rəvayət Bəsrədə şəhid olacaq yetmiş min, yaxud qırx min nəfərdən söhbət açır, onların Bədr şəhidləri ilə eyni məqamda olmasını və həzrət Əli (əleyhis-salam)-ın onlara ağlamasını bəyan edir. Digər bir rəvayətdə də Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in onlara ağlaması deyilir. Birinci rəvayət onların Bəsrə-Əbüllə arasında şəhid olacağını qeyd edir (Əbüllə hal-hazırda Bəsrənin qatar dayanacağının yaxınlığında yerləşən bir məntəqənin adıdır), halbuki İbni Qüteybənin rəvayətləri onların Came məscidinin kənarında – bəlkə də Bəsrə məscididir – şəhadətə çatmasından xəbər verir.

Buna əsasən, onların həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan əvvəl şəhid olacaqlarını qəti şəkildə deməliyik, çünki zühurdan sonra heç bir zalım və tüğyançı qalmayacaqdır ki, şəhidlər o zalımların nəzərində zəlil və xar hesab olunsun. Lakin onların vaxtı və kimlərin əli ilə qətlə yetiriləcəkləri aşkar şəkildə tə'yin olunmamışdır. Bəlkə də "qardaşlar-himayəçilər" kəlməsi səhv olaraq başqa bir kəlmənin yerinə yazılmışdır.

Amma adı qeyd olunan Dəccal isə, onlardan sonra gələcək və onun İncil ardıcılı olan yetmiş min məsihi tərəfdarı olacaqdır. Ehtimal üzrə, o, və'dəsi verilən Dəccaldan başqa bir şəxsdir ki, həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan sonra zahir olacaqdır. Çünki İbni Qüteybənin rəvayətində Əbüllə şəhidlərindən sonra Dəccaldan söhbət açılmamışdır. Digər tərəfdən də İbni Meysəm bu rəvayətin mənbəyini qeyd etməmişdir, bu da əlavə təhqiqat aparılmasını tələb edir.

"Nurus-səqəleyn" təfsirində *"və caə Fir'ovnu və mən qəbləhu vəlmu'təfikati bil-xatiəh" (Fir'on və ondan əvvəlkilər gəldilər və günah nəticəsində alt-üst olan şəhərlər"*[1] ayəsinin təfsirində qeyd olunur ki, alt-üst olunan şəhərlərdən məqsəd, Bəsrə şəhəridir. *"Alt-üst olanları udar"*[2] ayəsinin təfsirində İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Məqsəd Bəsrə əhlidir, alt-üst olan da həmin şəhərdir."*

Həmçinin, o həzrət *"İbrahimin ardıcılları, Mədyən səhabələri (Həzrət Şüeybin ardıcılları olan şəhər) və alt-üst olan şəhərlər"*[3] ayəsi

---

[1] "Haqqə" surəsi, 9-cu ayə.
[2] "Nəcm" surəsi, 53-cü ayə.
[3] "Tövbə" surəsi, 70-ci ayə.

barəsində buyurur: *“Onlar Lut qövmü idi ki, şəhərləri alt-üst oldu və tamamilə dəyişildi.”*

Həmin təfsirdə (“Mən la yəhzuruhul-fəqih” kitabından nəqlən) Cüveyriyə ibni Müshir Əbdi belə deyir: Əmirəl-mö’minin Əli (əleyhis-salam)-la birlikdə Xəvaric müharibəsindən qayıdırdıq. Əsr namazı zamanı Babil şəhərinə çatdıq. Həzrət camaatla birlikdə o yerdə düşərgə saldı. Sonra camaata xitab edərək buyurdu: *“Ey camaat, bu yer məl’undur (lə’nətlənmişdir)! Tarix ərzində üç dəfə* (başqa rəvayətə görə: *“iki dəfə”) İlahi əzaba düçar olmuşdur, indi onun üçüncü mərhələsinin intizarında olun. Bu yer alt-üst olunan məntəqələrdən biridir.”*

**DÖRDÜNCÜ MƏRHƏLƏ: İRAQİN HƏZRƏT MƏHDİNİN ƏLİ İLƏ AZAD EDİLMƏSİ**

Həzrət Məhdi (ərvahuna fidah)-ın İraqa daxil olaraq oranı Süfyani qoşunlarının tör-töküntülərindən, müxtəlif xəvaric qruplaşmalarından təmizləməsi və bu ölkəni öz dövlətinin mərkəzi qərargahı seçməsi ilə əlaqədar çoxlu rəvayət nəql olunmuşdur.

Biz o həzrətin dəqiq şəkildə İraqa nə vaxt daxil olacağı barədə heç bir mətləb tapmadıq. Amma o həzrətin hərəkatı bölməsində qeyd olunacaqdır ki, o, zühurdan bir neçə ay sonra, yə’ni Hicazı azad etdikdən və köməkçilərinin Əhvazın yaxınlığındakı Beyza-İstəxr məntəqəsində müxaliflərlə apardığı şiddətli çarpışmalarda Süfyanini tam məğlub etdikdən sonra hava yolu ilə – bir təyyarə eskadrası ilə İraqa daxil olacaqdır. Belə ki, İmam Baqir (əleyhis-salam) *“ey cinlər və insanlar, əgər qadir olsanız, səmanın və yerin ətrafından xaric olun, buna yalnız İlahi qüdrət və səltənətlə qadir olarsınız”*[1] ayəsinin təfsirində buyurmuşdur: *“Qaim, yerin titrədiyi gündə nurdan olan 7 kəcavə ilə birlikdə enəcək, heç kəs o həzrətin bu kəcavələrdən hansı birində olduğunu bilməyəcək, nəhayət, Kufəyə daxil olacaqdır.”*

Bu rəvayət – səhih olduğu təqdirdə – mö’cüzə yönündən əlavə, o həzrətin mübarək vücudunu qorumaq üçün təhlükəsizlik şəraitlərinin belə bir ehtiyatı tələb etdiyini, dünya səviyyəsində ona qarşı kin-küdurət bəslənildiyini və İraqın daxili vəziyyətinin hələ də kifayət qədər sahmana salınmadığını göstərir. *“Enəcəkdir”* kəlməsi və ondan sonra *“nəhayət, Kufəyə daxil olacaqdır”* cümləsindən mə’lum olur ki, o həzrət birbaşa Kufəyə, yaxud Nəcəfə gəlməyəcəkdir; əksinə bə’zi

---

[1] “Ərrəhman” surəsi, 32-ci ayə.

rəvayətlərdə deyildiyi kimi, əvvəlcə hökumətin paytaxtında, yaxud hərbi düşərgədə, yaxud da Kərbəlada enəcəkdir.

Rəvayətlərdə o həzrətin İraqdakı mö'cüzəli fəaliyyətlərindən böyük bir qismi bəyan edilir ki, bunları "zühur hərəkatı" bölməsində bəyan edəcəyik. Burada İraq hökumətinin ümumi vəziyyəti ilə əlaqədar bə'zi məqamları qeyd edirik ki, onların da ən mühümü daxili vəziyyəti sahmana salmaq və müxaliflərdən böyük bir qrupunu dağıtmaqdır. Çünki rəvayətlərdə deyilir: O həzrət Kufəyə (yə'ni İraqa) daxil olduğu zaman üç cinah arasında çarpışma olacaq ki, zahirən birinci cinah o həzrətin tərəfdarları, ikincisi Süfyaninin ardıcılları, üçüncüsü isə qiyamçılara bağlı olanlardır. Əmr ibni Şimr nəql edir ki, İmam Məhdi (əccəlallahu təala fərəcəhuş şərif) yad olunan zaman İmam Baqir (əleyhis-salam) buyurdu: *O, Kufəyə daxil olanda (hər biri bir) bayrağa sahib olan üç cinah şəhəri iğtişaşa salacaqdır. Bundan sonra o həzrətin şəhərə daxil olması üçün şərait hazırlanacaq və onu qəbul etməyə tam hazır olacaqdır. O həzrət şəhərə daxil olub minbərdə söhbətə başlayanda, camaatın aülamağının şiddətindən o həzrətin nə dediyini başa düşə bilməyəcəklər."*[1]

Bu və digər hədislərdə İraq əvəzinə Kufə şəhəri deyilmişdir. Buna görə də İraqda üç dəstənin varlığını göstərən rəvayətlərlə Süfyaninin bu ölkədə məğlub edilməsindən sonra iranlıların hərbi hakimiyyətinə dəlalət edən rəvayətlərin arasında ziddiyyət yoxdur. Şiə-sünnü mənbələrində müstəfiz şəkildə nəql olunan sonrakı hədisdə İmam Əli və İmam Baqir (əleyhiməs-salam) belə buyurmuşlar: *"Xorasandan xaric olan qara bayraqlılar Kufədə enəcək və Məhdi (əleyhis-salam) zahir olan zaman yenidən bey'ət etmək üçün o həzrətin hüzuruna gələcəklər."*[2]

Deməli, İraqda hərbi üstünlük zühura şərait yaradan iranlı qüvvələrin əlində olacaqdır, lakin o ölkənin daxili və ictimai şəraiti, qeyd etdiyimiz kimi, mövcud olan üç cinah tərəfindən idarə olunacaqdır.

Haqq qarşısında mübarizə aparan qiyamçı qruplaşmaların o həzrətin vasitəsilə məhv olunmasını göstərən rəvayətlərdən aydın olur ki, o həzrətə müxalif olan hərəkatlar çoxdur – istər xəvaric, istər Süfyaninin tərəfdarları, istərsə də başqaları.

O həzrət, cəddi Rəsuli-Əkrəm (səllallahu ələyhi və alihi və səlləm)-lə bağladığı əhdə əməl etmək üçün kəskin siyasəti icra edəcək və onun müqabilində inadkarlıq göstərən hər bir kəsi qətlə yetirəcəkdir. İmam Baqir (əleyhis-salam) buyurur:

---

[1] "Irşad" (Şeyx Müfid), səh.362.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.217.

*"Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) ümmət arasında mülayim rəftar edir, camaatla ülfətlə davranırdı. Amma həzrət Qaimin tutduğu yol haqq qarşısında müxalifət edənləri və bədxahları qətlə yetirmək əsasındadır. Bu mə'muriyyət Peyğəmbəri-Əkrəmdən ona çatdırılan bir əhdnamə vasitəsi ilə yerinə yetiriləcək. O həzrət bu yazıya əməl edərək irəliləyəcək və heç kəsdən tövbə etməsini istəməyəcək. Vay olsun onun əmri ilə müxalifət edənlərə!"*[1]

O həzrətin əlində olan yazı cəddi Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in imlası və həzrət Əli (əleyhis-salam)-ın əlyazması ilə olan bir kağızdır. Onda belə yazılmışdır: *"Onları (müxalifləri) qətlə yetir, yenə də öldür və heç kəsdən tövbə etməsini istəmə!"*

İmam Baqir (əleyhis-salam) belə buyurur: *"Qaim (əleyhis-salam) yeni mə'muriyyət və yeni qəzavətlə qiyam edəcək; ərəblərlə çox kəskin şəkildə davranacaq, onun işi qılıncdan başqa bir şey olmayacaq; bir kəsdən də tövbə etməsini tələb etməyəcəkdir. Onun, Allah yolunda məzəmmət edən heç bir şəxsin məzəmmətindən qorxusu yoxdur."*[2]

Bu hədisdə qeyd olunan "yeni mə'muriyyət" dedikdə, məqsəd zalımların məhv etdiyi və müsəlmanların ayrı düşdüyü İslam dinidir; İslam və Qur'an o həzrətin vasitəsilə yenidən canlandırılacaq və bu da öz inadkar hakimlərinə itaət edən ərəblər üçün çox ağır gəldiyindən, o həzrətlə düşmənçiliyə və mübarizəyə qalxacaqlar.

İmam Sadiq (əleyhis-salam) buyurur: *"Həzrət Qaim (əleyhis-salam) öz müharibəsində, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qarşılaşmadığı (yeni) məsələlərlə qarşılaşacaqdır. Çünki Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) peyğəmbərliyə məb'us olan zaman camaat yonulmuş daş və taxta parçalarına (bütlərə) pərəstiş edirdilər. Amma Qaimin dövründə camaat onun əleyhinə qalxacaq, Allahın Kitabını o həzrət üçün tə'vil və təfsir edəcəklər. Buna görə də həzrət onlarla müharibə aparacaqdır."*[3]

Hal-hazırda da görürük ki, onların pis alimləri və zalım hakimləri həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna şərait yaradan hökumətlə əlaqədar olan ayələri tə'vil və təfsir edir, onunla mübarizəyə qalxırlar.

Rəvayətlərin dilincə desək, həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) özünün ən şiddətli hücumlarını münafiqlərə, İslam pərdəsi altında gizlənənlərə və hətta bə'zi hallarda özlərini o həzrətin tərəfdarları sırasına

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.353.
[2] Yenə orada, səh.354.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.363.

salanlara qarşı yönəldəcək, Allah-taalanın onun qəlbinə əta etdiyi nur vasitəsilə onları seçib ayıracaqdır. İmam Sadiq (əleyhis-salam) buyurur: *"O kişi Qaimin başı üzərində dayanıb ona müəyyən şeyləri əmr və nəhy edən zaman, həzrət deyər ki, onu qaytarın. Onu qaytararlar, sonra həzrət onun boynunun vurulmasına dair əmr edər. Dünyanın şərqində və qərbində elə bir şey qalmaz ki, qəlbində o həzrətə qarşı qorxu və vəhşət olmasın."*[1]

Bə'zi rəvayətlərdə deyilir ki, düşmənlərin məhv edilməsi zamanı müxalif qrupları tamamilə məhv edəcəkdir. İmam Baqir (əleyhis-salam) buyurur: *"Qaim qiyam etdiyi zaman Kufəyə doğru hərəkət edəcək. Bu zaman "bətriyyə" adlanan on iki min nəfərlik bir dəstə şəhərdən çıxıb o həzrətin yolu üzərində dayanacaq və ona deyəcəklər ki, gəldiyin yolla da qayıt, bizim Fatimə övladına heç bir ehtiyacımız yoxdur! Sonra həzrət qılıncı onların arasına qoyacaq, onlardan bir nəfəri belə sağ qalmayacaqdır. Bundan sonra Kufəyə daxil olub şəkdə olan bütün münafiqləri və cəngavərləri qılıncdan keçirəcəkdir ki, Allah-taalanın razılığını cəlb etsin."*[2]

Bir rəvayətdə qeyd olunur ki, o həzrət şiələrin arasında ixtilaf və iğtişaş yaradıb onların fitnə və azğınlığına səbəb olan yetmiş pis alimi qətlə yetirəcəkdir. Malik ibni Zümrə nəql edir ki, Əli (əleyhis-salam) buyurdu: "Ey Malik ibni Zümrə! Necə olarsan o zaman ki, şiələr bir-birilə belə (mübarək barmaqlarını şəbəkəli şəkildə bir-birinə keçirtdi) ixtilaf etmiş olsunlar?" Ərz etdim: "Ey Əmirəl-mö'minin! O zaman hansısa bir xeyir məsələ qaşıya çıxacaqdır?" Həzrət buyurdu: *"Bütün xeyirlər o dövrdədir, ey Malik! O zaman bizim Qaimimiz qiyam edəcək, Allaha və Onun Peyğəmbərinə yalan nisbəti verən yetmiş alimi qabağa çəkərək hamısını qətlə yetirəcək. Bundan sonra Allah hamını birliyə və vəhdətə çatdıracaqdır."*[3]

Sonrakı rəvayət Süfyani ordusunun Hicazda yerə batmasına dəlalət edən bir əlamətin varlığı ilə, onun qüvvələrinin İraqda qalacağını göstərir. İmam Zeynül-abidin (əleyhis-salam)-dan belə nəql olunmuşdur: *"Sonra o (yə'ni həzrət Məhdi (əleyhis-salam)) hərəkət edib Qadisiyyəyə çatar, halbuki camaat Kufədə bir yerə yığışıb Süfyani ilə bey'ət etmişlər."*[4]

---

[1] "Yenə orada, səh.355.
[2] Yenə orada, səh.338.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.115.
[4] Yenə orada, səh.387.

İmam Sadiq (əleyhis-salam) buyurur: *"Sonra Kufəyə gedib orada düşərgə salar, ərəb qəbilələrindən olan yetmiş qəbilənin qanını mübah (hədər) edər."*[1]

Yə'ni düşmənlərin tərəfinə keçən və o həzrətin əleyhinə qiyam edən qəbilələrin qanını hədər sayar. İbni Əbi Yə'fur İmam Sadiq (əleyhis-salam)-dan nəql edir: *"O, bizim Əhli-beytdən olan ilk Qaimdir; qiyam edəcək və sizə elə sözlər deyəcəkdir ki, onlara dözməyə taqətiniz olmayacaqdır. Rümeylədəki Dəskərədə ona qarşı qiyam edəcək və onunla mübarizə aparacaqsınız, o da sizinlə döyüşüb hamınızı qətlə yetirəcəkdir. Bu, qiyam edən axırıncı qrupdur."*[2]

İmam Baqir (əleyhis-salam) buyurmuşdur: *"Bu əmrin sahibi bə'zi hökm və sünnələrdən danışanda, bir dəstə adam məsciddən çıxaraq onun əleyhinə qiyam etmək fikrinə düşəcəkdir. O həzrət öz köməkçilərinə göstəriş verəcək, onlar da hərəkət edərək Kufədənin Təmmarin (xurma satanlar) məhəlləsində onlara çatacaq və onları əsir tutacaqlar. Bundan sonra o həzrətin əmrilə onların hamısının başını kəsəcəklər. Bu da Ali-Mühəmmədin Qaiminin əleyhinə qiyam edən axırıncı dəstədir."*[3]

Bu iki rəvayəti bir-birilə uyğunlaşdırarkən bu nəticəni alırıq ki, Rümeylədəki Dəskərənin xəvaricləri qiyam edən sonuncu silahlı qrup, Kufə məscidinin xəvaricləri isə o həzrətin əleyhinə qiyam etmək fikrində olan axırıncı dəstədir. Rəvayətlər göstərir ki, Dəskərə xəvaricləri o həzrətin əleyhinə qiyam edən təhlükəli bir dəstədir ki, onların rəhbərləri Fir'ona və İblisə oxşayır. Əbu Bəsir belə nəql edir: *"Sonra azacıq dayanacaq, bu zaman Rümeylədəki Dəskərədə on min nəfər qeyri-ərəb ona qarşı qiyam edəcək, "ey Osman, ey Osman!" şüarı verəcəklər. Sonra həzrət əcəmdən olan bir şəxsi çağırıb qılıncını ona verəcək. O şəxs də həmin dəstəyə doğru gedərək hamısını qətlə yetirəcəkdir, onlardan bir nəfər olsun belə, sağ qalmayacaqdır."*[4]

Əvvəlki rəvayət Rümeylədəki Dəskərəni padşah Dəskərəsi (padşahların eyş-işrətlə məşğul olduğu saray) kimi bəyan edir. "Mö'cəmül-büldan" kitabında qeyd olunur ki, o, İraqın Diyala əyalətindəki Bə'qubənin kəndlərindəndir və Əban şəhərinin yaxınlığında yerləşir. Amma rəvayətdə bu şəxslərin qeyri-ərəb

---

[1] "Qeybəti Tusi", səh.284.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.375.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.345.
[4] "Biharul-ənvar", 52-ci cild, səh.333.

xəvaricləri kimi qeyd olunmasının səbəbi budur ki, onlar ya ərəb deyildirlər, ya da onların sərkərdələri qeyri-ərəbdir.

Bə'zi rəvayətlərdə şəhərin müxaliflərdən təmizlənməsi belə vəsf edilir: O həzrət özünün ərəb və qeyri-ərəb ordularından on iki min nəfərini – hamısı xüsusi növ paltar geyindiyi halda – çağıracaq, onları şəhərə göndərəcək və əmr edəcəkdir ki, bu paltarda olmayan hər şəxsi qətlə yetirsinlər. Onlar da həzrətin əmrinə itaət edəcəklər.

Ehtimal üzrə, bu xüsusiyyətə malik olan şəhər o həzrətlə müxalif olan münafiq və kafirlərlə dolu olmalıdır ki, həzrət oranın kişilərinin qətlə yetirilməsinə dair belə fərman versin; yaxud əvvəlcə şəhərdə olan mö'minləri xəbərdar edəcəkdir ki, hücum zamanı evlərindən çölə çıxmasınlar, yaxud da onların hücumdan amanda qalmaları üçün öz ordusuna məxsus olan paltarlardan onlar üçün də göndərəcəkdir.

Əlbəttə, belə bir böyük miqyasda olan müxaliflərdən təmizlənmə əməliyyatı İraqda və dünyanın sair yerlərində çox böyük qorxu və vəhşət hissi yaradacaqdır. Hətta rəvayətlərdə qeyd olunur ki, camaatın bə'ziləri o həzrətin kafirləri və münafiqləri kütləvi şəkildə qətlə yetirməsini gördükdə, öz-özünə deyəcəklər ki, *"bu şəxs Fatimənin nəslindən deyildir. Əgər onun nəslindən olsaydı, camaata rəhm edərdi!"* Hətta o həzrətin xüsusi səhabələrindən bə'ziləri də bu kütləvi qırğını müşahidə etdiyi zaman şəkkə düşəcək, onlardan biri – əsəb üzvlərini əldən verdiyi halda – o həzrətə e'tiraz edəcəkdir. İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"Qaim (əleyhis-salam) gəlib bazara çatar, atasının (Əli (əleyhis-salam)-ın) zürriyyəsindən olan bir kişi ona deyər: "Siz camaatı qoyun sürüsü kimi qorxudursunuz! Sizin yanınızda Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən bir əhdnamə, yaxud başqa bir şey vardırmı?" Buyurdu: Camaat arasında ondan da güclü bir kişi yoxdur. Bu zaman əcəmdən olan bir nəfər onun üstünə qışqırıb "sakit ol, əks halda boynunu vuraram!" – deyər. Bu zaman həzrət Qaim (əleyhis-salam) Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in tərəfindən yazılmış əhdnaməni çıxarıb göstərər."*[1]

Digər rəvayətdə qeyd olunur ki, e'tiraz edən o şəxsi sükuta vadar edən şəxs iranlıdır və o da camaatdan həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) üçün bey'ət almaq məs'uliyyətini öhdəsinə almış olacaq. İmam Baqir (əleyhis-salam) belə buyurur: *"O həzrət Sə'ləbəyə çatanda atasının zürriyyəsindən və camaat içərisində – bu əmrin sahibindən başqa – hamıdan güclü və şücaətli olan bir şəxs o həzrətin müqabilində dayanaraq deyər: "Ey*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.387.

*filankəs! Bu nə işdir ki, əncam verirsən?!" Camaatdan bey'ət alma məs'uliyyətini öhdəsinə alan iranlı bir kişi fəryad edib deyər ki, Allaha and olsun, sakit olmasan boynunu vuraram! Həzrət Qaim* (əleyhis salam) *ona deyər ki, "filankəs, sakit ol. (Sonra e'tirazçıya deyər:) Bəli, Allaha and olsun! Peyğəmbəri-Əkrəmdən olan əhd-peyman mənim yanımdadır." Sonra məxsus bir sandıqça olan "eybə", yaxud "zənfəlicə"nin gətirilməsinə göstəriş verər. Onun içərisindən Peyğəmbər* (səllallahu ələyhi və alihi və səlləm)*-in əhd-peymanını çıxardıb oxuyar. Bu zaman e'tiraz edən şəxs deyər: "Canım sənə fəda olsun! Başını mənə tərəf əy, onu öpüm." Həzrət onun istəyinə cavab verər və həmin şəxs o həzrətin iki gözlərinin arasından öpər, sonra deyər: "Sənə fəda olum! Bizdən yenidən bey'ət al." Həzrət onlarla yenidən bey'ət edər."*[1]

Bu qədər hadisələrdən sonra İraq ölkəsi həzrət Məhdi (ərvahuna fidah)-ın hökuməti sayəsində asudə nəfəs çəkəcək, oranı dünyanın mərkəzi kimi özünə paytaxt qərar verəcək və bu ölkə həyatının yeni mərhələsinə daxil olaraq dünya müsəlmanlarının qibləgahı olacaqdır.

O dövrdə Kufə, Səhlə, Hiyrə, Nəcəf və Kərbəla şəhərləri sanki böyük bir şəhərin bir məhəlləsini təşkil edəcək, onun adı dünya xalqlarının qəlbində və dilində özünə yer alacaqdır. Camaat cümə axşamı dünyanın ən ucqar yerlərindən oraya üz tutacaqlar ki, dünya səviyyəli və min qapısı olan bir məsciddə həzrət Məhdi (əleyhis-salam)-ın İmaməti ilə qılınan cümə namazında iştirak etsinlər. Oraya gələn milyonlarla adamın varlığı ilə, camaat namazında bir nəfər üçün belə yer tapmaq müyəssər olmayacaqdır. İmam Sadiq (əleyhis salam) belə buyurmuşdur: *"Onun hakimiyyət yeri Kufə, qəzavət kürsüsü o şəhərin Came məscidi, beytül-malı və qənimətləri bölüşdürdüyü yer Səhlə məscidi, istirahət və Allahla raz-niyaz etdiyi yer Qəriyyənin ağ təpələridir. Allaha and olsun, elə bir mö'min qalmayacaqdır ki, orada və onun ətrafında yaşamamış olsun. (Başqa rəvayətdə: "ona tərəf gəlməmiş olsun", digər bir rəvayətdə isə: "ona tərəf tələsməsin".) Kufə şəhərinin sahəsi qırx beş milə çatar, o şəhərin göydələn binaları Kərbəlanın imarətlərindən uca olar. Sübhan Allah Kərbəlanı mö'minlərin və mələklərin gediş-gəliş yeri və pənahgahı qərar vermişdir ki, onun da çox böyük və mühüm mövqeyi olacaqdır."*[2]

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.343.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.11-12.

Bu hədisdə deyilən "onun qəzavət məclisi"ndən məqsəd, camaatın müraciət yeri və onların arasındakı qəzavət işidir ki, o da hazırkı Kufə məscidində, yaxud da o həzrətin bina etdiyi böyük Cümə məscidində olacaqdır. *"Onun Allahla raz-niyaz etdiyi yer ağ təpələrdir"*, yə'ni onun ibadət və e'tikaf üçün nəzərdə tutduğu yer Nəcəfin yaxınlığında yerləşən ağ təpələrdir. *"Kufənin qırx beş milliyi"* dedikdə məqsəd, Kufənin sahəsi, yaxud onun uzunluğudur ki, yüz kilometrə çatacaqdır. İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"Kufənin arxasında (Nəcəfdə) min qapısı olan bir məscid tikər. O məscid bir tərəfdən Kufənin evlərinə, digər tərəfdən isə Kərbəla və Hiyrənin iki tərəfinə birləşəcəkdir. Belə ki, əgər bir nəfər yorğa qatıra minib cümə namazına getmək istəsə, ona çatmayacaqdır."*[1]

Yə'ni, sür'ətli miniklə hərəkət etsə də belə, cümə namazına çatmayacaqdır. Çünki namaz qılmaq üçün boş yer qalmayacaqdır. Əlbəttə, o həzrətin hökuməti dövründə İraqın maddi və mə'nəvi inkişafdan bəhrələnməsinə dəlalət edən rəvayətlər olduqca çoxdur və onların hamısını burada qeyd etmək mümkün deyildir. Hər bir halda, o həzrət İraqı kafir və müşriklərdən təmizləyib, oranı mərkəz qərar verəcəkdir, onun hakimiyyət hüdudları Yəmən, Hicaz, İran, İraq və Fars körfəsində yerləşən sair ölkələrdən ibarət olacaqdır. O həzrət daxili vəziyyəti sahmana saldıqdan sonra tam xatircəmliklə xarici düşmənlərlə mübarizəyə başlayacaq. Əvvəlcə ruslara tərəf bir ordu göndərib onları məğlub edəcəkdir. Sonra o həzrətin özü başda olmaqla bir ordu ilə Şama gedəcək və Dəməşqin yaxınlığında yerləşən Mərəc-Əzra adlı yerdə düşərgə salacaq, daha sonra Qüdsü azad etmək üçün Süfyani, yəhudilər və rumlularla böyük bir müharibənin müqəddiməsini quracaqdır.

**ZÜHUR DÖVRÜNDƏ DÜNYA MÜHARİBƏSİ**

"İcmali təvatür" şəklində nəql olunan çoxlu rəvayətlərdə zühur əsrinə yaxın vaxtlarda dünya müharibəsinin baş verəcəyindən söhbət açılır. Ehtimal üzrə, onu 20-ci əsrdə baş verən 1-ci və 2-ci dünya müharibələri ilə uyğunlaşdırmaq uzaq görüşdür. Çünki rəvayətdə o müharibə üçün qeyd olunan xüsusiyyətlər bu iki müharibənin sifətləri, xüsusilə bu müharibədəki qurbanlıqların sayı və baş verdiyi zamanla fərqlənir. Hətta bə'zi rəvayətlərdən mə'lum olur ki, bu mühari-

---

[1] "Qeybəti Tusi", səh.280.

bə elə zühur ilində, yaxud o həzrətin müqəddəs hərəkatı başlandıqdan sonra baş verəcəkdir. İndi isə bu rəvayətləri qeyd edirik:

Əli (əleyhis-salam)-dan belə nəql olunur: *"Qaimin dövrünə yaxın vaxtlarda iki növ ölüm: qırmızı və ağ ölüm vücuda gələcək, qan rəngində olan çəyirtkələr vaxtaşırı aşkar olacaqlar. Qırmızı ölüm qılınc, ağ ölüm isə taundur."*[1]

"Qaimin dövrünə yaxın vaxtlarda" ibarəsi göstərir ki, bu müharibə və qırmızı ölüm zühura çox yaxın vaxtlarda baş verəcəkdir. Amma rəvayətlər onun harada baş verəcəyini tə'yin etməmişlər. İmam Baqir (əleyhis-salam) buyurur: *"Qaim yalnız qorxu, vəhşət, zəlzələ, fitnə, iğtişaş və bəlalardan sonra zühur edəcəkdir ki, camaat bu kimi şeylərə, bundan əvvəl də tauna düçar olacaqlar. Ondan sonra isə ərəblərin arasında qan axıdılması və müharibə, əhali arasında ixtilaf, dinlərində pərakəndəlik, vəziyyətlərində xoşagəlməz hallar yaranacaqdır. Belə ki, camaatın bir-birinin canına düşərək ətlərini yeməsini müşahidə etmək nəticəsində hamı sübh-axşam ölüm arzusu edər."*[2]

Bu da göstərir ki, taun xəstəliyi ümumi müharibə və çarpışmalardan ibarət olan şiddətli qorxudan qabaq baş verəcəkdir. Amma ravinin ifadələrin müəyyən hissəsini qabağa və digər bir hissəsini də tə'xirə salmaması fərz edilsə, hadisələrin bir-birinin ardınca zəncirvari şəkildə baş verməsinə dair hökm etmək çətindir. Çünki "ərəblər arasında müharibə və qan axıdılması" ifadəsi "sümmə" bağlayıcısı ilə (bu, fasilə ilə olan tərtibə dəlalət edir) gətirilmişdir. Belə ki, mö'tərizə cümləsi olan "ondan əvvəl taun" ifadəsinə bağlansa, onda səhihdir. Buna əsasən, ərəblərin arasındakı ixtilaf taunun yaranmasından sonradır. Eləcə də onun "camaatın giriftar olduğu bəla" cümləsinə bağlanması da səhihdir ki, bu halda ixtilafın yaranması taundan qabaq olacaqdır. Bundan əlavə bu kimi hədislərdə icmal (anlaşılmazlığa səbəb olacaq müxtəsərlik) mövcuddur. Əlbəttə, bu mətləbdən başa düşülür ki, ərəblər və sair camaat üçün təhlükəsizlik, siyasət və iqtisadi cəhətdən ən ağır dövr gələcəkdir. Bəlkə də sonrakı rəvayətdə İmam Sadiq (əleyhis-salam)-dan nəql olunan aclıq və qəhətlik də həmin ildə olsun: *"Qaimin qiyamından əvvəl hökmən elə bir il*

---

[1] "Irşad" (Şeyx Müfid), səh.405; "Qeybəti Tusi", səh.277.

[2] "Kəmalud-din" (Şeyx Səduq), səh.434.

*olacaqdır ki, insanlar həmin ildə aclıqdan əziyyət çəkəcəklər, qətlə yetirilmələrindən irəli gələn qorxu və vəhşət onları bürüyəcəkdir."*[1]

Sonrakı rəvayət göstərir ki, ağır müharibə vəziyyəti həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna yaxın dövrlərdə mübarək Ramazan ayında səmadan gələn fəryad baş verən vaxta qədər davam edəcəkdir. İmam Baqir (əleyhis-salam)-dan belə nəql olunur: *"Şərq-qərb əhli bir-birilə ixtilafa düşəcəkdir. Bəli, qiblə əhli (müsəlmanlar) və sair camaat üzücü qorxu və vəhşətlə qarşılaşacaq və həmin halda yaşayacaqlar. Nəhayət, asimandan bir nida gəlib "köç edin, köç!" - deyər."*[2]

Buradan aydın olur ki, bu müharibənin vurduğu xəsarətlər əsas e'tibarı ilə qeyri-müsəlman xalqlarına dəyəcəkdir. *"Şərq-qərb əhli... bəli, qiblə əhli də bir-birilə ixtilaf edəcəklər"* cümləsi də dəqiq bir ifadə olub şərqlə-qərbin ixtilafından sonra müsəlmanların arasında yaranan ixtilaflara dəlalət edir. Bizim nəzərimizcə, bu ixtilaf şərqlə-qərbin ixtilaflarının nəticəsi sayılan ixtilafdır. Əlbəttə, bu məsələ növbəti dünya müharibəsində təbii bir işdir. Çünki o müharibədə böyük ölkələrin mərkəzləri və onların hərbi bazaları hədəf tutulacaq, onun vurduğu xəsarətlər müəyyən yollarla müsəlmanlara da sirayət edəcəkdir. Əbu Bəsir deyir ki, İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim: *"Bu əmr (zühur) camaatın üçdə ikisi məhv olub aradan getməyincə, baş verməyəcəkdir"*. Soruşdum ki, camaatın üçdə ikisi aradan getdiyi zaman kim sağ qalacaqdır? Həzrət buyurdu: *"Yerdə qalan üçdə birdən olmağı istəməzdinmi?!"*[3]

Həzrət Əli (əleyhis-salam) bir xütbədə həzrət Məhdi (ərvahuna fidah)-ın zühur nişanələrindən bir çoxunu bəyan və (dünya səviyyəli) bu müharibənin vaxtını və amilini müəyyən etmişdir. O həzrət buyurur: *"Agah olun, ey insanlar! Fitnə-fəsad – hürkmə nəticəsində cilovu ayaqlarının altına düşən, qorxu və iztirabı artan dəvə kimi – sizin ölkənizi məhv etməmişdən, yaxud yerin qərbindən şö'lələnməyə qabil olan maddələrlə böyük bir müharibə odunun başlanmasından öncə məndən (istədiyiniz şeyləri) soruşun. (Bu zaman) uca fəryadla səslənib "vay olsun ona, intiqamçılıq baxımından" və s. deyilər. Sonra Nəcran əhlindən bir kişi qiyam edərək İmamın çağırışına müsbət cavab verər. O, həzrətin də'vətinə müsbət cavab verib ləb-*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.229.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.235.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.113.

*beyk deyəcək ilk məsihidir: Öz sövmiəsini (kiçik monastırını) dağıdacaq, xaçını sındıracaq və miniyinə minəcək, əcəmlər və müstəz'əf insanlar və hidayət bayraqları ilə Nüxeyləyə tərəf hərəkət edəcəkdir. Yer üzərində olan insanların hamısının yığılma yeri "Faruq" adlı bir məntəqədir* (o, Əli (əleyhis-salam)-ın həccə getdiyi yolda, "Bərs" və "Fərat" arasında yerləşir). *O gündə üç min (min) yəhudi və məsihi qətlə yetiriləcəkdir ki, onlardan bə'ziləri digərlərini öldürəcək. O gündə baş verən hadisə bu şərif ayənin tə'vilidir: "Bu, daim onların nidası idi, nəhayət onları qılıncla, yaxud qılınclar altında biçdik."*[1]

İmam (əleyhis-salam)-ın buyurduğu *"şərqdə öz ayağı ilə fitnə icad etməzdən qabaq"* cümləsi göstərir ki, bu müharibə şərqdən – yə'ni Rusiyadan başlanacaq, yaxud şərq məntəqəsində – Hicazda baş verən çəkişmələr nəticəsində yaranan və və'dəsi verilmiş siyasi böhran şərqlə-qərb arasında gərginliyə səbəb olacaqdır.

*"Yaxud yerin qərbindən şö'lələnməyə qabil olan çoxlu maddələrlə böyük bir müharibə odunun başlanmasından öncə"* ibarəsi göstərir ki, məhv olmanın əsl mərkəzi qərb ölkələridir. Şö'lələnməyə qabil olan maddənin çoxluğu dedikdə də, onların hərbi bazaları, paytaxtları və o ölkələrin mühüm hərbi mərkəzləri nəzərdə tutulur. Zahirən o həzrətin buyurduğu *"yer üzündəki insanların yığıldığı yer Faruqdur"* kəlamının mə'nası budur ki, həmin gündə insanlar dünyanın müxtəlif yerlərindən həzrət Məhdi (əleyhis-salam)-a qoşulmaq üçün orada bir yerə toplaşacaqlar, o həzrətin qərargahı da Kufə ilə Hillə arasında olacaqdır. Çünki Nəcran rahibi müstəz'əflərdən olan nümayəndələrlə birlikdə həmin nahiyədən hərəkət edib o həzrətin hüzuruna gələcək. Bəlkə də, *"o məntəqə Əli (əleyhis-salam)-ın həcc yolu üzərində – Bərs və Fərat arasında yerləşir"* cümləsi ravinin, yaxud nüsxə yazan şəxsin əlavə etdiyi haşiyə ola bilər ki, sonralar hədisin mətninə daxil edilmişdir. Bu hədisdəki "məhəccət" kəlməsi Əli (əleyhis-salam)-ın dövründə həcc karvanlarının bir yerə yığışdıqları yerin, yaxud da nümayəndə hey'ətlərinin həzrət Məhdi(əleyhis-salam)-la görüşmək, yaxud onun ordusuna qoşulmaq üçün bayraqlarının vurulacağı bir məhəllənin adıdır.

*"O gün şərqlə qərb arasında üç min Gming (= üç milyon) nəfər qətlə yetiriləcəkdir"* cümləsində məqsəd üç milyon nəfərin qətlə yetirilməsidir. İkinci "min" kəlməsini mö'tərizədə yazmağımın səbəbi digər bir rəvayətdə ("Biharul-ənvar", 52-ci cild, səh.272) üç

---

[1] "Biharul-ənvar", 53-ci cild, səh.82-84.

min-min" şəklində qeyd olunmasıdır. Bəlkə də həmin kəlmə başqa rəvayətlərdəki nüsxədən düşmüşdür. Əlbəttə, bu, o demək deyildir ki, dünya müharibəsinin vurduğu xəsarətlər üç milyon nəfər olacaqdır. Əksinə, bu say bir gündə öldürülənlərin sayıdır. Bu da müharibənin bir mərhələsi və onun sonuncusudur. Əvvəllərdə işarə edildiyi kimi, bu müharibə və ondan əvvəl baş verən "taun" xəstəliyi dünya əhalisinin üçdə ikisini (bir rəvayətdə: dünya əhalisinin yeddidə beşini) aradan aparacaqdır. Belə ki, İmam Sadiq (əleyhis-salam) buyurur: *"Qaimdən öncə iki növ ölüm olacaqdır: biri qırmızı ölüm, digəri isə ağ ölüm. Bu zaman hər yeddi nəfərdən beşi ölüb aradan gedəcəkdir."*[1]

Bə'zi rəvayətlərdə isə "hər on nəfərdən doqquzu öləcək" kimi qeyd olunur. Əlbəttə, rəvayətlərdəki say ixtilafı bə'zi məntəqələrdəki fəthlərə, yaxud digər səbəblərə görədir. Amma hər bir halda, bu müharibədə müsəlmanlar onlarla müqayisə edilməyəcək dərəcədə çox az xəsarətə düçar olacaqlar.

Bir sözlə, zühurdan azacıq öncə, yaxud zühur ilində baş verən qorxu və vəhşət bütün dünyanı bürüyəcəkdir. İnsanı üzüb taqətdən salan bu ağır xəsarətlər əsas e'tibarı ilə qeyri-müsəlmanlara dəyəcəkdir. Bunu da ümumdünya səviyyəsində olan və çox inkişaf etmiş silahlarla aparılan müharibə kimi təfsir etmək olar. Çünki əgər bu müharibələr klassik tərzdə aparılsaydı, onun yaratdığı qorxu və vəhşət rəvayətlərdə vəsf olunduğu qədər – dünya səviyyəli və böyük miqyaslı olmazdı. Amma bə'zi rəvayətlər və müəyyən əlamətlər onları məntəqə daxilində baş verən müharibə dalğaları kimi qiymətləndirir. İmam Baqir (əleyhis-salam)-dan zühur barəsində nəql olunan rəvayətlərdə *"Yer üzərində müharibələr çoxalar"* – deyə buyurulur. Bu da göstərir ki, onlar məhz həmin ildə baş verən müharibələrdir. Buna əsasən, bu iki rəvayətlə şərq-qərb əhli arasında baş verən müharibə və ixtilafları bəyan edən rəvayətləri bir yerə belə yığmaq (aralarındakı təzadı dəf etmək) olar ki, bu müharibələr onların arasında məntəqə müharibəsi şəklində baş verəcək, bu da qərbdə təmərküzləşmiş viranıçılıq yönünə malik olacaqdır.

Amma bu müharibənin baş vermə vaxtına gəldikdə isə, rəvayətlərdə onun həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna çox yaxın vaxtda, yaxud elə zühur əsrində baş verəcəyi mə'lum olur. Əgər bu müharibələr və onun xüsusiyyətlərini bəyan edən bütün rəvayətləri bir-biri ilə

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.207.

uyğunlaşdırmaq istəsək, onda deməliyik ki, bu müharibələr bir neçə mərhələdə olacaqdır. Çünki bu müharibə həzrətin zühurundan azacıq öncə başlanacaq, zühur hərəkatından sonra da davam edəcəkdir. O həzrət Hicazı məhz həmin müharibə əsnasında azad edəcək və (bu müharibə) İraqın fəth olunması ilə sona çatacaqdır. O həzrətin ruslarla apardığı müharibə isə dünya səviyyəli bir müharibə olacaqdır. Çünki rəvayətlərdə qeyd olunur ki, o həzrətin tədarük gördüyü ilk qoşun ruslarla müharibə aparmaq üçün göndərdiyi qoşundur ki, nəhayət onları məhv edəcəkdir.

Bu müharibə barəsində nəql olunan rəvayətlərə gəldikdə isə, onu geniş səviyyəli nüvə müharibələri kimi təfsir etmək və hal-hazırda kütləvi informasiya vasitələrinin təbliğ etməyə cəhd göstərdikləri şeylərə yozmaq istəsək, onda deməliyik ki, bu müharibələrin müddəti çox qısadır və bəlkə də bir aydan artıq çəkməyəcəkdir. Allah daha yaxşı bilir!

## İRANLİLAR VƏ ONLARIN ZÜHUR DÖVRÜNDƏ İFA ETDİKLƏRİ ROL

İranda İslam inqilabının qələbəsindən əvvəl bu ölkə qərblilər üçün (keçmiş) sovetlər ölkəsinin sərhəddində və İslam dünyasının qəlbində yerləşən, eləcə də həyati əhəmiyyət kəsb edən bir mərkəz hesab olunurdu. Müsəlmanlar da onu İslami və əsl bir ölkə hesab edirdilər. Amma qərbin nökəri və İsrailin həmpeymanı olan şah onlara hökumət edirdi. O öz ərbablarına gözəl xidmət etmək üçün ölkəni, qeydsiz-şərtsiz olaraq onların ixtiyarına vermişdi.

Bundan əlavə, hər hansı bir şiənin zehnində də bura İmam Riza (əleyhis-salam)-ın pak və mütəhhər qəbrinin, Qum elmiyyə hövzəsi kimi yerlərin mövcud olduğu, əsl və köklü keçmişə malik və şiəçilikdə də dərin kökləri var idi ki, buranın şiə alimləri və mütəfəkkirləri, onların yazdıqları dəyərli kitablar hər yerdə məşhurdur... İranlıların tə'riflənməsi ilə əlaqədar olan rəvayətləri araşdırdıqda bir-birimizə deyirdik: Bu rəvayətlər də eynilə Yəmən əhlini tə'rifləyən, yaxud “Bəni-Xüzaə” qəbiləsini məzəmmət edən rəvayətlər kimidir. Buna görə də bə'zi qrupların, qəbilələrin və ya bə'zi ölkələrin vəsf və ya məzəmmətində nəql olunmuş rəvayətləri zəif hesab edirdik, onların keçmiş tarixə, İslamın əvvəllərində millətlərin müxtəlif vəziyyətlərinə aid olduğunu güman edirdik.

Bu, bizim aramızda geniş yayılmış təfəkkür tərzi idi və biz inanırdıq ki, İslam ümməti cahiliyyət dövründə, dünya səviyyəli küfr

və onun nökərlərinin hakimiyyəti altındadır, heç bir millətin digərinə üstünlüyü yoxdur; biz deyirdik ki, ola bilsin ki, həmin bəhs olunan iranlılar sair millətlərdən daha pisdir. Çünki onlar küfr mədəniyyətinin və millətçiliyin tərəfdarları idilər ki, şah və onun qərbli ərbabları İran xalqı arasında belə bir təfəkkür tərzinin icad olunması və əhalinin bu əsasda tərbiyə edilməsinə israr edirdilər...

Nəhayət, İranda İslam inqilabı qələbə çaldı, bu da İslam aləmində və dünya səviyyəsində gözlənilməz bir iş oldu, müsəlmanların qəmli qəlblərini o qədər sevindirdi ki, keçmiş əsrlərdə misli görünməmişdi. Hətta deyə bilərik ki, onlar belə bir qələbəni heç vaxt təsəvvür edə bilməzdilər. Bu sevinc və şadlıq dalğaları bütün İslam ölkələrini və müsəlman millətlərini əhatə etmişdi. Onların sevinc təzahürlərindən biri kimi hər yerdə iranlıların – Salman Farsinin tərəfdarlarının fəzilət və üstünlüyündən söhbət gedirdi. Misal üçün, İslam dünyasının şərqində-qərbində yayılan yüzlərlə ünvandan biri Tunisdə çap olunan "Mə'rifət" jurnalının ünvanı idi ki, orada belə qeyd olunmuşdu: *"Peyğəmbər iranlıları İslam ümmətinə rəhbərlik etmək üçün seçmişdir."* Bu yazılar bizim iranlılar barəsində olan əvvəlki nəzərlərimizi tamamilə dəyişdirdi və başa düşdük ki, onların barəsində Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunan rəvayətlər yalnız onların keçmişlərinə aid deyil, həm də gələcəklərinə dəlalət edir.

Biz hədis kitablarında və təfsir mənbələrində iranlılara aid olan rəvayətləri araşdırmaqla bu nəticəyə çatdıq ki, bu rəvayətlər onların keçmişləri ilə əlaqəli olmaqdan çox, gələcəklərinə aiddir. Maraqlıdır ki, bu kimi rəvayətlər əhli-sünnənin mənbələrində şiələrdən daha artıq gözə dəyir.

Nə etmək olar ki, həzrət Məhdi (əccələllahu təala fərəcəhuş şərif) və o həzrətin hökumətinə zəmin yaradanlarla əlaqədar rəvayətlərdə iranlılar və yəmənlilər özlərinə layiq bir məqama malikdir. Onlar o həzrətin zühuruna münasib şərait yaratmaq, onun hərəkatında iştirak etmək kimi məqama nail olmuşlar. Həmçinin, o həzrətin dünyanın müxtəlif yerlərindən olan dostları, o cümlədən, Misirdən olan layiqli şəxslər, Şamdan olan həqiqi mö'minlər, İraqdan müəyyən qruplar bu ne'mət və feyzdən bəhrələnəcək, üstəlik o həzrətin ən yaxın və xüsusi köməkçilərindən, vəzir və müşavirlərindən olacaqlar. Biz indi iranlılar barəsində ümumi şəkildə nəql olunan hədisləri araşdıracaq, sonra da onların zühur əsrində ifa etdikləri rolu açıqlayacağıq.

## İRANLILARIN TƏ'RİFİNDƏ NAZİL OLAN AYƏ VƏ NƏQL OLUNAN RƏVAYƏTLƏR

İranlılar barəsində olan rəvayətlər, eləcə də onlara təfsir olunan ayələr doqquz ünvanda qeyd olunmuşdur:

a) Salman Farsinin tərəfdarları;

b) Yerin şərq əhalisi;

v) Xorasan əhli;

q) Qara bayraq tərəfdarları;

ğ) Farslar;

d) Qırmızı üzlülər;

e) Qırmızı üzlülərin övladları;

ə) Qum əhli;

j) Taliqan əhli.

Əlbəttə, sonradan görəcəyiniz kimi, bu ünvanlardan məqsəd əsas e'tibarı ilə bir şeydir. Digər rəvayətlər də göstərir ki, onlar bir olmaqla eyni zamanda müxtəlif ibarələrlə qeyd olunmuşdur. Misal üçün, *"Əgər üz çevirsəniz, sizin yerinizə başqa bir qövmü gətirəcəkdir"* – ayəsinin təfsirində buyurulur: *"İndi siz o kəslərsiniz ki, Allah yolunda infaq etməyə çağırılarsınız, sizlərdən bə'ziləri infaq etməkdə xəsislik edir. Xəsislik edən şəxs də əslində özünə xəsislik edir. (Çünki) Allah hər şeydən ehtiyacsızdır, siz isə ehtiyaclısınız. Əgər üz çevirsəniz, Allah-taala başqa bir qövmü sizin yerinizə gətirəcəkdir ki, onlar sizin kimi deyildirlər."*[1]

"Kəşşaf" təfsirinin müəllifi Zəməxşəri nəql edir ki, bu şərif ayədə gələn "qövm"ün kim olması barəsində Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən soruşdular. Salman Farsi o həzrətin yanında oturmuşdu. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) mübarək əli ilə onun buduna vuraraq buyurdu: *"Canım qüdrəti əlində olan Allaha and olsun ki, əgər iman kəhkəşanlara bağlı olsa, farslardan olan insanlar ona əl taparlar."*[2]

"Məcməül-bəyan" təfsirində İmam Baqir (əleyhis-salam)-ın bu ayə barəsində belə buyurduğu nəql olunur: *"Ey ərəblər! Əgər üz çevirsəniz, Allah-taala sizin yerinizə başqa bir qövmü, yə'ni iranlıları gətirər."*

"Əl-mizan" təfsirinin müəllifi mərhum Əllamə Təbatəbai nəql edir ki, "Əd-durrul-mənsur" kitabında Əbdürrəzzaq, Əbd ibni Həmid, Termizi, İbni Cərir, İbni Əbi Hatəm, Təbərani ("Ovsət"

---

[1] "Muhəmməd" surəsi, 38-ci ayə.

[2] "Kəşşaf", 4-cü cild, səh.331.

kitabında), Beyhəqi ("Dəlail" kitabında) və s. Əbu Hüreyrədən nəql etmişlər ki, o deyirmiş: Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm) *"və in təvəlləv yəstəbdil qovmən ğəyrəkum, summə la yəkunu əmsaləkum"* ayəsini qiraət etdikdə, soruşduq: "Ya Rəsuləllah! Bunlar kimlərdir ki, əgər biz üz çevirsək, onlar bizim yerimizə keçəcəklər?" Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) mübarək əli ilə Salmanın çiyninə vuraraq buyurdu: *"Bu və bunun tərəfdarları. Canım qüdrət əlində olan Allaha and olsun ki, əgər iman kəhkəşanlara bağlansaydı belə, farsdan olan insanlar (iranlılar) ona əl tapardılar."*[1]

Bu rəvayətin oxşarı başqa yollarla Əbu Hüreyrədən, İbni Mərdəveyhdən və Cabir ibni Əbdüllahdan da nəql olunmuşdur. Bu rəvayətdə hamının fikir birliyində olduğu iki mə'na mövcuddur: Birincisi, iranlılar (furs) ərəblərdən sonra İslam bayrağını götürmək üçün ikinci xətdə yerləşirlər. Çünki onlar, hətta çox-çox uzaqlarda olsa belə, imana əl tapacaqlar. Həmin rəvayətdə üç mətləb araşdırılmalıdır:

*Əvvəla:* Mütəal Allah ərəbləri təhdid edərək iranlıları onların yerinə keçirəcəyini bəyan etmişdir. Burada belə bir sual yaranır ki, görəsən, bu ayənin bəyan etdiyi məsələ Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in dövrünə məxsusdur, yoxsa bütün nəsillərdə ola bilər? Belə ki, onu belə mə'na edək: "Ey ərəblər, əgər siz İslamdan üz çevirsəniz, hər nəsildə olursa olsun, farsları sizin yerinizə keçirəcəyik?" Mə'nanın zahiri budur ki, "ayə hansı şey barəsində nazil olubsa, həmin hal təxsis tapmaz (bu hökmdən xaric edilməz)" qaydasının hökmünə əsasən, bu məsələ sonrakı bütün nəsillərdə davam edəcəkdir. Qur'anın mübarək ayələri öz rolunu hər bir nəsildə günəş və ay kimi ifadə edir (yə'ni nur saçmaqda eynidir), çünki bu mətləb rəvayətlərdə qeyd edilmiş və təfsirçilər də bu barədə yekdil nəzərdə olmuşlar.

*İkincisi:* Şərif hədisdə deyilir ki, farsların hamısı yox, onların bə'ziləri imana əl tapacaqlar. Aydındır ki, bunun özü də onların hamısı, onların arasında olan müəyyən şəxslərlə əlaqədar tə'rifdir.

Amma şərif ayənin və rəvayətin zahiri mə'nasından aydın olur ki, onların hər ikisi ümumi şəkildə farsları tə'rifləyir. Çünki onların arasında elə kəslər vardır ki, iman və elmə əl tapacaq, ərəblərdən sonra İslam bayrağını daşıyacaqlar. Buna əsasən, onların mədh və tə'riflərin səbəbi budur ki, onlar öz aralarında, bu məqama layiq

---

[1] "Əl-mizan", 18-ci cild, səh.250.

olacaq şəxslərin vücuda gəlməsinə və onlara itaət etməsinə münasib şərait yaradacaqlar.

*Üçüncüsü:* İndiyə qədər ərəblər İslamdan üz döndəribmi və farslar onların yerinə keçibmi?

*Cavab:* Elm və mə'rifət əhlinə aydındır ki, bugünkü müsəlmanlar – istər ərəb, istərsə də qeyri-ərəb – həqiqi İslamdan üz çevirmişlər. Buna görə də çox təəssüflə, ayədəki şərt fe'li (in təvəlləv – əgər üz çevirsəniz) gerçəkləşmiş, amma şərtin cavabı, yə'ni onların yerinə başqa bir qövmün keçməsi hələ də qalmışdır. Bu zəmində insaflı nəzərlə demək olar ki, Allahın və'dəsi gerçəkləşmə ərəfəsindədir. Hətta "Nurus-səqəleyn" kitabında qeyd olunan sonrakı rəvayət göstərir ki, ərəblərin yerinə başqa bir qövmün gətirilməsi Bəni-Üməyyənin hakimiyyəti dövründə hasil olmuşdur. Çünki ərəblər mənsəb və mal-dövlət yığmağa üz tutduqları zaman farslar (iranlılar) İslami elmləri öyrənməyə üz tutmuş və onlardan irəli keçmişlər. İmam Sadiq (əleyhis-salam)-dan belə nəql olunur: *"Allaha and olsun ki, onlardan ən yaxşısını – yə'ni əcəmləri onların yerinə keçirtdi."* İmam Sadiq (əleyhis-salam)-ın farsların barəsində Peyğəmbr (səlləllahu ələyhi və alihi və səlləm)-dən nəql olunan hədisin təfsirində buyurduğu kəlamı nəzərə alsaq, bu hədisdəki "məvali" ifadəsinin o dövrdə İslamı qəbul etdikləri halda qeyri-farslara, yə'ni türklərə və rumlulara da şamil olmasına baxmayaraq, şübhəsiz, farslar onların əksəriyyətini təşkil edirdilər.

## VƏ AXƏRİNƏ MİNHUM LƏMMA YƏLHƏQU BİHİM AYƏSİNİN TƏFSİRİNDƏ

هُوَ الَّذِي بَعَثَ فِي الْأُمِّيِّينَ رَسُولًا مِنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِنْ كَانُوا مِنْ قَبْلُ لَفِي ضَلَالٍ مُبِينٍ وَآخَرِينَ مِنْهُمْ لَمَّا يَلْحَقُوا بِهِمْ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

*"O həmin Allahdır ki, onların arasında, özlərindən olan və dərs oxumamış bir nəfəri peyğəmbərliyə göndərdi ki, Allahın ayələrini onlara oxusun, onları pak-pakizə etsin, onlara Kitabı və hikməti öyrətsin. Həqiqətən bundan qabaq aşkar azğınlıqda idilər. Və onlardan digər şəxsləri ki, onlara hələ qoşulmamışlar. O, əziz (izzət sahibi) və həkim (hikmətli) Allahdır."*[1]

"Səhihi Müslüm"də Əbu Hüreyrədən belə rəvayət edilir: "Biz Peyğəmbərin hüzurunda olduğumuz zaman "Cümə" surəsi nazil oldu

---

[1] "Cümə" surəsi, 2-3-cü ayələr.

və həzrət onu tilavət etdi. *"Və axərinə minhum ləmma yəlhəqu bihim"* ayəsinə çatdıqda, bir nəfər soruşdu: "Ya Rəsuləllah! Bunlar kimlərdilər ki, hələ bizə qoşulmamışlar?" Həzrət bir söz demədi. Salman Farsi də bizim aramızda idi. Peyğəmbər mübarək əlini onun çiyninə qoyub buyurdu: *"Canım qüdrət əlində olan Allaha and olsun, əgər iman kəhkəşanlara bağlı olsa belə, bundan olanlar (Salmanın tərəfdarları) onlara əl tapacaqlar."*

"Təfsiri Əli ibni İbrahim"də həmin ayənin təfsirində belə deyilir: *"Onlara hələ qoşulmayan şəxslər o kəslərdir ki, İslamı onlardan sonra qəbul etmişlər."*

"Məcməül-bəyan" təfsirində (Səid ibni Cübeyr və İmam Baqir (əleyhis-salam)-dan nəqlən) deyilir ki, onlar səhabələrdən sonra Qiyamətə qədər gələcək bütün insanlardır. Sonra demişdir ki, onlar əcəmlər və ərəb dilində danışmayan insanlardır. Çünki Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) onu müşahidə edən və sonradan gələn hər bir şəxs üçün – istər ərəb, istərsə də əcəm – məb'us olunmuşdur.

*"Və axərinə minhum"* ifadəsi qeydsiz gətirildiyinə görə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) dövründən sonra gələn bütün insanlara – ərəb və qeyri-ərəblərin hamısına – şamil olmalıdır. Amma "ummiyyin" və "axərin" kəlmələrini müqayisə etdikdə, demək olar ki, "ummiyyin" kəlməsində məqsəd ərəblər, "axərinə" kəlməsində isə İslamı qəbul edən qeyri-ərəblərdir. Belə ki, Əhli-beyt (əleyhimus-salam) rəvayətlərinin bə'ziləri bu mətləbi çatdırır, həmçinin "Kəşşaf" təfsirinin müəllifi də həmin mə'nanı qəbul etmişdir.

Buna əsasən, şərif ayəni farslar barəsində təfsir edən Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) həqiqətdə onları "axərinə" kəlməsi üçün mühüm bir nümunə kimi bəyan etmişdir. O həzrətin onları tə'rifləməsi, çətin olsa da belə elm iman və İslama əl tapacaqlarını qeyd etməsi, hər iki ayənin təfsirində əvvəlki sözünü qəsdən bir daha təkrarlaması və Salmanın çiyninə əl vurması bu müddəaya ən tutarlı bir dəlildir.

### BƏƏSNA ƏLƏYKUM İBADƏN LƏNA ULİ BƏ'SİN ŞƏDİD AYƏSİNİN TƏFSİRİ

*"Kitabda – Tövratda Bəni-İsrailə e'lan etdik ki, yer üzündə iki dəfə inadkarlıq və böyük fəsad törədəcəksiniz. Amma onlardan birinin və'dəsi (fəsadı) çatdıqda, qəribə qüvvət və qüdrətə malik olan bəndələrimizi sizə tərəf göndərəcəyik ki, sizi hər bir yerdə axtarsınlar. Bu əncam verilmiş bir və'dədir. Sonra qələbəni yenidən*

*sizə qaytaracaq və mal-dövlət və övladlarla sizə kömək edəcək, sizi onlardan (düşmənlərinizdən) çox və güclü edəcəyik. Əgər yaxşı iş görsəniz, özünüz üçündür, əgər pis iş görsəniz, öz yaxanızı tutacaqdır. Onun digər bir və'dəsi (fəsad) gəldikdə, sizin üzlərinizi pis cilvələndirəcək, nəhayət birinci dəfə daxil olduqları kimi, məscidə daxil olacaqlar. Nəhayət, qələbə çaldıqları hər bir şeyi məhv edib aradan aparacaqlar."*[1]

"Nurus-səqəleyn" təfsirində İmam Sadiq (əleyhis-salam)-dan belə nəql olunur: *"Onlar həmin kəslərdirlər ki, mütəal Allah həzrət Qaimin zühurundan qabaq onları qaldıracaq. Onlar Ali-Mühəmmədin düşmənlərini qətlə yetirməyincə əl çəkməzlər."*

Əyyaşi öz təfsirində nəql edir ki, həzrət İmam Baqir (əleyhis-salam) yuxarıdakı ayəni oxuduqdan sonra belə buyurdu: *"O, Qaim və onun köməkçiləridir ki, çoxlu qüvvə və qüdrətə malikdirlər."*

"Biharul-ənvar"da nəql olunur ki, İmam Sadiq (əleyhis-salam) bu ayəni qiraət etdikdə, soruşduq ki, sənə fəda olum, bunlar kimlərdir? Həzrət üç dəfə buyurdu: *"Allaha and olsun ki, onlar Qum əhlidirlər. Allaha and olsun ki, onlar Qum əhlidirlər, Allaha and olsun ki, onlar Qum əhlidirlər."*[2]

İranlıların hidayət bayraqlarını öz üzərlərinə götürməsi barədə şiə və sünnülərin vasitəsilə çoxlu rəvayət nəql olunmuşdur. O cümlədən:

*Ərəbləri İslama qaytarmaq üçün onlarla mübarizə aparmaq*

İbni Əbil-Hədid mö'təzili "Nəhcül-bəlağə"yə yazdığı şərhində belə deyir: "Bir gün Əş'əs ibni Qeys camaatın arasından keçərək özünü həzrət Əli (əleyhis-salam)-a çatdırdı, sonra o həzrətə xitabən dedi: "Ey Əmirəl-mö'minin! Bu qırmızı üzlülər (iranlılar) sizin ətrafınızı tutub burada oturmuş və bizə qələbə çalmışlar!" Bu sözə qədər həzrət tam sakit oturmuşdu, amma bu sözü eşidərkən başını qaldırdı, ayağı ilə yavaşca minbərə vurdu (yə'ni Əş'əs, nə deyirsən?) Gözlənilmədən Sə'səə ibni Suhan (Həzrətin vəfalı köməkçilərindən idi) dedi: "Bizim Əş'əslə nə işimiz?! Bu gün Əmirəl-mö'minin ərəblər barəsində bir mətləb buyurur ki, həmişəlik olaraq dillər əzbəri olacaq və heç vaxt unudulmayacaqdır." Həzrət azacıq sükut etdikdən sonra başını qaldırıb buyurdu: *"Qarnına pərəstiş edən şəxsiyyətsiz adamlardan*

---

[1] "Isra" surəsi, 4-7-ci ayələr.

[2] "Biharul-ənvar", 60-ci cild, səh.216.

*hansı biri məni üzürlü sayar və insafla hökm edər?! Halbuki, onlardan bə'ziləri ulaq kimi öz yataqlarında eşələnir və başqalarını da öyüd-nəsihət eşitməkdən məhrum edirlər! Mənə əmr edirsən ki, onları (iranlıları) öz yanımdan qovum?! Bu işi heç vaxt etmərəm! Əks halda cahillərdən olaram. Dənəni yaran və bəndələri yaradan Allaha and olsun ki, hökmən onlar (iranlılar) sizi öz dininizə yenidən qayıtmaq üçün məhv edəcəklər, necə ki, siz işin əvvəlində onları bu dini qəbul etmək üçün məhv edirdiniz."*[1]

Əş'əs ibni Qeys Kində qəbiləsinin rəisi, münafiqlərin başçısı və Əli (əleyhis-salam)-ın qətlə yetirilməsində iştirak edənlərdən biri idi. Onun qızı Cö'də də İmam Həsən (əleyhis-salam)-ın həyat yoldaşı olmuş, o həzrəti zəhərləyərək şəhadətə yetirmişdir. Onun oğlu Məhəmməd ibni Əş'əs də həzrət Seyyidüş-şühəda Hüseyn ibni Əli (əleyhis-salam)-ın qətlə yetirilməsində iştirak etmişdir.

Rəvayətlərə əsasən, Əş'əs camaat namazının axır cərgələrində idi, amma müsəlmanların adəti üzrə orada oturmadı, cərgələri yara-yara, namaz qılanların boynunu o tərəfə-bu tərəfə itələyərək gəldi ki, birinci cərgədə namaz qılsın. Qabaq tərəfə çatan zaman bir dəstə iranlının Əli (əleyhis-salam)-ın minbərinin ətrafına yığışdığını gördü. Sonra o həzrətin sözünü kəsərək uca səslə "Ey Əmirəl-mö'minin! Sən bu qırmızı üzlüləri bizə hakim etmisən!" - deyə e'tiraz etdi. Onun "qırmızı üzlülər" deyə tə'bir gətirməsinin səbəbi bu idi ki, yaşıl rəng tünd olduqda, ərəblər ona qara deyirlər, İraqda da çoxlu yaşıl xurma ağacları olduğuna görə oranı "qara yer" adlandırırlar. Onlar ağ rəngi də "qırmızı" tə'biri ilə gətirirlər. Məhz buna görə də əcəmlər – iranlılar ağ dərili olduqlarına görə onlara "qırmızı üzlülər", yaxud "qırmızı üzlülərin övladları" - deyə xitab edirdilər.

O həzrətin xüsusi köməkçilərindən olan Sə'səə ibni Suhan da məsələnin nə yerdə olduğunu dərk etdi və bildi ki, Əş'əsin məqsədi müsəlmanların xilafət məsələsini irəli çəkməsidir ki, bu da dünyəvi dəyərlərdəndir. Əş'əsin fikri bu idi ki, xilafət yalnız ərəblərdə və onlar kimilərdə olmalıdır, məhz buna görə onların da həzrətin ətrafına yığışaraq o həzrətə Əş'əsdən də yaxın olmasını istəmirdi. Amma Sə'səə Əli (əleyhis-salam)-ın iltizamlı olduğu İslam me'yarlarını və nəticədə İmam Əli (əleyhis-salam) Əş'əsə verəcəyi cavabın tutarlı olacağını daha yaxşı bilirdi. O, "bizim Əş'əslə nə işimiz var!" - deyərək onu danladı.

---

[1] "Nəhcül-bəlağənin" şərhi, 2-ci cild, səh.284.

Çünki o, iranlıların əleyhinə ayrı-seçkilik salır və qəbilə təəssübü keçirirdi. İmam (əleyhis-salam) da bir qədər sükut etdikdən sonra başını qaldırdı, amma Əş'əsə nəzər salıb onun cavabını vermədi, əksinə üzünü başqa tərəfə döndərib müsəlmanlara xitabən dedi: "Bu gün bu şəxsiyyətsiz adamların müqabilində kim məni üzürlü hesab edər? Kim mənim barəmdə insafla hökm edər? Halbuki, onun kimilər nə təfəkkürə malikdirlər, nə də bir hədəfləri vardır; heyvan kimi qanmazdırlar, yeyib-yataraq şəhvətbazlıqla məşğul olur, öz yataq yerlərində eşələnirlər, onlar naz-ne'mətə qərq olan şəxsiyyətsiz adamlardır. Bundan əlavə, başqalarını da din maariflərini öyrənməkdən məhrum edir, onlara tə'nə vururlar. Çünki onların (iranlıların) qəlbləri elmə və elm əhlinə yönəlir, öz rəhbər və İmamlarının minbərinin ətrafını tuturlar. Ey Əş'əs! Yoxsa mənə əmr edirsən ki, onları yanımdan qovum?! Necə ki, həzrət Nuhun ətrafında olan varlılar belə bir istəyi ondan edərək demişdilər: "Sənin ətrafını tutanlar yalnız sənə tabe olan tüfeyli, rəzil və düşüncəsiz adamlardır." Ey Əş'əs! Mənim sənə verdiyim cavab həzrət Nuhun şəxsiyyətsiz və alçaq fitrətli adamlara verdiyi cavabdır: *"Mən onları heç vaxt yanımdan qovmayacağam, çünki bu halda cahillərdən olaram."*

Sonra Əli (əleyhis-salam) öz sözünü Peyğəmbərin öz minbərinin ətrafında yığışanlar və onların tərəfdarları barəsində buyurduğu bir sözlə sona çatdırdı və buyurdu: *"Dənəni yaran, insanı yaradan Allaha and olsun ki, onlar sizi (ərəbləri) İslam dininə qayıtmaq üçün məhv edəcəklər, necə ki, siz əvvəldə onları (iranlıları) vururdunuz ki, İslamı qəbul etsinlər."* Bu da göstərir ki, ərəblərin barəsində verilən İlahi və'də tezliklə həyata keçəcək, onlar dindən üz çevirəcəklər və Allah da onlar kimi ərəb dilli olmayan fursları (iranlıları) onların yerinə keçirəcək, bu mərhələdə İslamın qələbəsi İrandan başlayacaq, sonra Qüdsə tərəf gedəcək və həzrət Məhdi (ərvahuna fidah)-ın zühuru üçün bir müqəddimə olacaqdır.

## MEYDANDAN QAÇMAYAN ŞİRLƏR RƏVAYƏTİ

Əhməd ibni Hənbəl Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə nəql edir: *"Yaxındır ki, mütəal Allah sizin ətrafınızı əcəmlərlə doldursun; onlar meydandan qaçmayan şirlər kimidir, sizin düşməninizi və*

*sizinlə olan qarşı tərəfi qətlə yetirəcək, sizin qənimətlərinizdən istifadə etməyəcəklər."*[1]

Bu rəvayəti Əbu Nəim özünün "Zikru İsfahan" kitabında bir neçə yolla Hüzeyfədən, Sümrət ibni Cündəbdən və Əbdüllah ibni Ömərdən nəql etmişdir. Amma orada *"sizin qənimətlərinizdən istifadə etməyəcəklər"* cümləsinin yerinə *"istifadə edəcəklər" sözü* qeyd olunur.[2]

**QARA VƏ AĞ QOYUNLAR RƏVAYƏTİ**

Bu rəvayəti də Hafiz Əbu Nəim bir neçə yolla Əbu Hüreyrədən, səhabədən olan bir kişidən, Nö'man ibni Bəşirdən, Müt'im ibni Cübeyrdən, Əbu Bəkrdən, Əbu Yə'ladan, Hüzeyfə Yəmanidən, onlar da Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-dən nəql etmişlər. Hüzeyfə deyir ki, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) buyurdu: *"Bu gecə yuxuda gördüm ki, arxamca qara qoyunlar hərəkət edir. Sonra ağ qoyunlar da onlara qoşuldu, belə ki, artıq qara qoyunları görmədim."* Əbu Bəkr dedi: "Qara qoyunlar sizə tabe olan ərəblərdir, ağ qoyunlar isə əcəmlərdir ki, sizə tabe olacaqlar. Onların sayı o qədər artacaqdır ki, ərəblər onların arasında görünməz olacaqdır." Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) buyurdu: *"Düzdür, vəhy mələyi də belə tə'bir etmişdi."*[3]

Əbu Nəimin rəvayətində cürbəcür ibarələr gözə dəyir ki, bə'zilərində Əbu Bəkrin dediyi sözlər yoxdur. Onların bə'zi rəvayətlərində də qeyd olunur ki, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) yuxuda gördü ki, ona qara qoyunlar verirlər və çoxlu ağ qoyunlar da ona sarı üz gətirir...

**İRANLILAR ƏHLİ-BEYT (ƏLEYHİMUS-SALAM) TƏRƏFDARIDIR RƏVAYƏTİ**

Hafiz Əbu Nəim bu rəvayəti həmin kitabda İbni Abbasdan nəql edərək deyir: Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in yanında farslardan söhbət düşdükdə, həzrət buyurdu: *"Farslar (iranlılar) biz Əhli-beytin tərəfdarları və (bizi) sevənlərdir."*[4]

---

[1] "Müsnədi Əhməd", 5-ci cild, səh.11.
[2] "Zikru Isfahan", Əbu Nəim, səh.13.
[3] "Zikru Isfahan", Əbu Nəim, səh.8-10.
[4] "Zikru Isfahan", səh.11.

## ƏCƏMLƏR PEYĞƏMBƏR (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH)-IN E'TİMAD ETDİYİ ŞƏXSLƏRDİR RƏVAYƏTİ

Əbu Nəim Əbu Hüreyrədən rəvayət edərək deyir: "Peyğəmbərin yanında məvalidən və əcəmlərdən söz düşdükdə həzrət buyurdu: *"Allaha and olsun ki, mən sizdən (yaxud sizin bə'zilərinizdən) daha çox onlara e'timad edirəm."*[1]

Həmin rəvayətin oxşarını Termizi öz kitabında da qeyd etmişdir.[2]

Əlbəttə, burada "əcəmlər" kəlməsi iranlılardan daha ümumi olub, türklərə və sair kimi qeyri-ərəblərə də şamildir.

## İNSANLAR FARSLARDAN VƏ RUMLULARDAN BAŞQADIRMI? RƏVAYƏTİ

Əbu Nəim, Əbu Hüreyrədən nəql edir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu: *"Mənim ümmətim əvvəlki ümmət və nəsillərin götürdüyü şeyi qarış-qarış götürəcəklər."* Dedilər: "Ya Rəsuləllah! Farsların və rumluların yerinə yetirdiyi kimi?" Həzrət buyurdu: *"Farslardan və rumlulardan başqası kimdir?!"*[3]

Bu rəvayət tarix boyu mövcud olan mədəniyyət həqiqətindən söz açır və o da bundan ibarətdir ki, farslar (əcəmlər) və rumlular, yə'ni qərblilər tarix boyu bəşər mədəniyyətinin əsas mehvərini təşkil etmişlər. Biz də öz zəmanəmizdə müşahidə edirik ki, heç bir millət mədəniyyət məsələlərində qərblilərlə qarşıdurmada iranlılar kimi deyildir.

## İRANLILAR VƏ HƏZRƏT MƏHDİNİN ZÜHURUNA ŞƏRAİT YARADILMASININ BAŞLANMASI

Mö'təbər şiə və sünnü mənbələrinin hamısı həzrət Məhdi (əleyhis-salam)-ın, onun üçün yaradılan müqqədimə hərəkatlarından sonra zühur edəcəyi barədə yekdil fikrə malikdirlər. Qara bayraq sahibləri iranlılardır ki, o həzrətin hökumətinə zəmin yaradacaq, onun dünya səviyyəli hakimiyyətinə müqəddimə işlərini tədarük görəcəklər. Bu rəvayətlərdə yekdil fikirlə qeyd olunur ki, və'dəsi verilən iki şəxsiyyət – biri Xorasanlı Seyyid, yaxud Xorasanlı Haşimi, digəri isə onun köməkçisi Şüeyb ibni Saleh – hər ikisi iranlıdır. Bu rəvayət şiə və sünnü mənbələrində axıra qədər qeyd olunmuşdur.

---

[1] Yenə orada, səh.12.
[2] "Sünəni Termizi", 5-ci cild, səh.382.
[3] "Zikru Isfahan", səh.11.

Şiə mənbələrində iranlılardan əlavə, digər şəxslər də, o cümlədən, həzrətin zühuruna şərait yaradan yəmənlilər qeyd edilmişdir. Şiə mənbələrində mövcud olan çoxlu rəvayətlər göstərir ki, o həzrətin zühurundan qabaq mübariz və intiqamçı hərəkatlar baş verəcək, yaxud hökumətlər bərqərar olunacaqdır. Misal üçün: *"O gələcək, onun üçün Allah xatirinə qınından siyirilmiş bir qılınc vardır."* Əlbəttə, bu rəvayətin mövcudluğu mə'lum deyildir. Belə ki, "Yovmul-xəlas" kitabının müəllifi onu beş mənbə ilə nəql etmişdir, amma mən bu rəvayəti həmin mənbələrdə tapa bilmədim. Allah rəvayətlərin nəql olunmasında bizə əmanətdarlıq və diqqət əta etsin!

Əban ibni Təğlibin İmam Sadiq (əleyhis-salam)-dan nəql etdiyi başqa bir hədis: O deyir ki, həzrət mənə buyurdu: *"Haqq bayrağı qaldırılan zaman şərqlilər və qərblilər ona nifrin edəcəklər. Nə üçün belə edəcəklərini bilirsənmi?"* Dedim: "Xeyr!" Həzrət buyurdu: *"Camaatın o həzrətin zühurdan qabaq onun övladları və Əhli-beyti sarıdan qarşılaşdığı şeylərə görə."*[1]

Bu rəvayət göstərir ki, o həzrətin Əhli-beyti Bəni-Haşimdəndir və onun ardıcılları qərbi-şərqi qəzəbləndirib narahat edəcəklər. Onların (düşmənlərin) o həzrətin hərəkatı ilə qarşılaşmaları böyük müsibət hesab olunacaq və nəticədə əsəbiləşəcəklər. Əvvəldə "Rovzeyi-kafi" kitabından "və bə'əsna ələykum ibadən ləna uli bə'sin şədid" ayəsinin təfsirində İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğunu nəql etmişdik: *"Qaimin zühurundan qabaq Allahın seçdiyi bir qrup Ali-Peyğəmbərlə düşmən olan heç bir şəxsi qətlə yetirməmiş qoymazlar."*

Sair rəvayətlər də göstərir ki, o həzrətin zühuru üçün müqəddimə dünya səviyyəsində hərbi qüvvələr və təbliğatlarla icad olunacaq. Bə'zi rəvayətlərdə isə, "onun adı dillər əzbəridir" - deyə qeyd olunur.

Buna əsasən, zühurun müqəddiməsi ilə əlaqədar olan rəvayətləri üç qismə bölmək olar:

a) Bə'zi rəvayətlər, sünnü və şiə təriqi ilə nəql olunduğu kimi, qara bayraqlıların hakimiyyətə gələcəyindən söhbət açır.

b) Yəməndə İslam hökumətinə dəlalət edən rəvayətlər; bunlar yalnız şiə mənbələrində gəlmişdir. Əlbəttə, bu rəvayətlərin oxşarı bə'zi sünnü mənbələrində də qeyd olunmuşdur, amma orada

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.63.

yəmənilərin həzrət Məhdi (ərvahuna fidah)-ın zühurundan sonra zahir olacaqlarından söhbət açılır.

v) O həzrətin zühuruna şərait yaradanların hakimiyyətə gəlişindən və zahir olmasından söhbət açan rəvayətlər.

Amma tezliklə qeyd olunacaqdır ki, bu rəvayətlər ümumi şəkildə o həzrətin Yəməndən və İrandan olan köməkçilərinə işarə edir ki, o həzrətin hökumətinə şərait yaradacaqlar.

Amma rəvayətlər yəmənlilərin hakimiyyətə gəliş zamanını müəyyən etmir. Belə ki, həzrətin zühur etdiyi ildə, ya Süfyaninin Şam diyarında qiyam etməsilə eyni zamanda, yaxud da o həzrətin düşməni və müxalifi olan Süfyaninin qiyamına yaxın vaxtlarda olacağından söhbət açılmır. Amma zühura şərait yaradan İran hökuməti iki mərhələdə bəyan edilmişdir:

Birinci mərhələ, Qumdan olan bir kişinin vasitəsilə onların hərəkatının başlanmasıdır, elə bir şəxs ki, onun hərəkatı həzrət Məhdi (əleyhis-salam)-ın zühur işinin başlanğıcıdır. Çünki rəvayətdə deyilir ki, o həzrətin hərəkatı şərq ölkəsindən başlanacaqdır.

İkinci mərhələ, nəzərdə tutulan bir şəxsin onların arasında zahir olmasıdır: o həzrətin qüvvələrinin sərkərdəsi olan Xorasanlı Seyyid, digəri isə rəvayətlərdə Şüeyb ibni Saleh kimi qeyd olunan buğdayı rəngli bir cavan.

Rəvayətlərdə qeyd olunan hadisələrə diqqət yetirməklə zühura zəmin yaradan iranlıların ifa etdiyi rolu da dörd mərhələyə ayırmaq olar:

*Birinci mərhələ:* O hərəkat Qumdan olan bir kişinin vasitəsi ilə başlanacaq, nəhayət müharibəyə daxil olacaqlar.

*İkinci mərhələ:* Uzun müddətli bir müharibəyə daxil olaraq, nəhayət öz istəklərini düşmənlərə qəbul etdirmələri.

*Üçüncü mərhələ:* Özlərinin əvvəldə e'lan etdikləri istəklərini rədd və sonra hərtərəfli qiyam etmələri.

*Dördüncü mərhələ:* İslam bayrağını həzrət Məhdi (əleyhis-salam)-a təhvil verib o həzrətin müqəddəs hərəkatında iştirak etmələri.

Bə'zi rəvayətlərdə qeyd olunur ki, Xorasanlı Seyyid və Şüeyb iranlıların müharibəsi əsnasında zahir olacaqlar, düşmənlə müharibə uzun çəkdiyinə görə Xorasanlı Seyyidi özlərinə ictimai-siyasi rəhbər tə'yin edəcəklər. O, bu mənsəbi qəbul etməkdən çox da xoşhal deyil, amma onlar israrla onu rəhbər qərar verəcəklər. Sonra Xorasanlı

Seyyid, Şüeyb ibni Salehi özünün silahlı qüvvələrinə baş sərkərdə tə'yin edəcəkdir.

Bə'zi rəvayətlərdə onların zühura birləşəcək zəmin yaratma mərhələlərinin sonu qeyd olunmuşdur ki, bu da altı ay çəkəcəkdir. Məhəmməd ibni Hənəfiyyənin belə dediyi nəql olunur: "(Əvvəlcə) Bəni-Abbasdan, sonra da Xorasandan qara bayraqlılar qiyam edər ki, bu bayrağı daşıyanların qara papaqları və ağ paltarı vardır. Onların qabağında Bəni-Yəmnəm qəbiləsindən olan Saleh ibni Şüeyb, yaxud Şüeyb ibni Saleh adlı bir kişi hərəkət edir. Onlar Süfyani qüvvələrini məğlub edərək Beytül-müqəddəsdə düşərgə salacaq və bununla da, həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna zəmin yaradacaqlar. Şamdan da üç yüz nəfər ona qoşulacaq, onun qiyam etməsi ilə işlərinin ixtiyarını həzrət Məhdi (əleyhis-salam)-a həvalə etməsi arasında 72 ay fasilə düşəcəkdir."[1]

Bunların müqabilində digər rəvayətlər isə Xorasanlı Seyyidlə Şüeybin, Yəməni və Süfyani ilə eyni zamanda zahir olmasını bəyan edir. İmam Sadiq (əleyhis-salam)-dan belə nəql olunur: *"Xorasani, Süfyani və Yəməninin xaric olması bir ildə, bir ayda və bir gündə baş verəcəkdir. Bu bayraqların arasında Yəməni bayrağı hamıdan çox hidayət edəndir, çünki o, camaatı haqqa də'vət edəcəkdir."*[2]

İmam Baqir (əleyhis-salam) belə buyurur: *"Süfyani, Yəməni və Xorasaninin xürucu bir ildə, bir ayda və bir gündə baş verəcəkdir, onlar eynilə təsbeh dənələrinin nəzmi kimi, biri digərindən sonra olacaqdır. (Bu zaman) hər tərəfdə müharibə baş verəcəkdir. Vay olsun onların müqabilində dayananlara! O bayraqların arasında Yəməninin bayrağı hamıdan çox hidayət edəndir. O, haqq bayrağıdır və sizi öz sahibinizə (Həzrət Məhdiyə) doğru də'vət edəcəkdir."*[3]

Bəlkə də bu üç nəfərin təsbeh dənələrinin ardıcıllığı kimi tərtiblə xaric olması (bir gündə qeydi ilə yanaşı) dedikdə məqsəd budur ki, onların xüruc etməsinin bir-birilə siyasi əlaqəsi vardır. Əlbəttə, onların xürucunun əvvəli bir gündədir, amma hərəkatlarının tərtibi və işlərinin möhkəmlədilməsi təsbeh dənələri kimi, biri digərindən sonra yerləşir.

Bundan əlavə, bu fasilənin yetmiş iki ay olmasını deyən rəvayət məqbul olmaqla yanaşı, Məhəmməd ibni Hənəfiyyədən çoxlu

---

[1] "İbni Həmmadın əlyazması", səh.84.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.210.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.232.

yollarla nəql olunmuşdur və o da öz atası həzrət Əli (əleyhis-salam)-dan çatan və gələcək hadisələrin qeyd olunduğu bir məktubdan nəql etmişdir ki, həzrət də onu Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in dilindən eşidib qələmə almışdır. Hətta bə'zi rəvayətlərin dediyinə görə, Qiyamətə qədər müsəlmanlara hakim olacaq şəxslərin hamısının – Abbasilərdən hakimiyyətə çatanların da – adı o yazıda qeyd olunmuşdur.

Amma bütün bunlarla yanaşı, Xorasani və Şüeybin barəsində daha yaxşı nəzər onların Süfyani və Yəməni ilə eyni zamanda xüruc etməsini çatdıran rəvayətlərdir. Çünki bu rəvayətlər (Əbu Bəsirin İmam Baqir (əleyhis-salam)-dan nəql etdiyi rəvayət kimi) İmamlara mənsub edilir və sənədləri daha möhkəm və səhihdir.

Hər bir halda, həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna zəmin yaradanların hökumətinin bu mərhələsi, bizim də üstünlük verdiyimiz kimi, o həzrətin zühurundan qabaqkı il, yaxud ehtimal üzrə ondan altı ay öncə olacaqdır ki, bu da onların hökumətlərinin son mərhələsidir. Amma uzaq nəzərə çarpan məsələ onların dövlətinin axırıncıdan əvvəlki mərhələlərinin hansı olmasını, onların Qumdan olan bir şəxsin vasitəsilə qurulan hökumətinin Xorasanlı Seyyid və Şüeybin xürucu arasında nə qədər fasilə olacağını deməkdir. Bu, iranlılarla əlaqədar olan rəvayətlər silsiləsində yoxdur və mən rəvayətlərdə bu fasilənin nə qədər olduğunu görmədim. Amma bə'zi rəvayətlərdə buna dəlalət edən müəyyən işarələr vardır ki, onların hökuməti ilə əlaqədar ən mühüm məsələləri bəyan etdikdən sonra qeyd edəcəyik.

### HƏZRƏT MƏHDİNİN HÖKUMƏTİ İRANDAN BAŞLANACAQDIR - RƏVAYƏTİ

Bu rəvayətlərin birində aşkar şəkildə deyilir ki, həzrət Məhdi (ərvahuna fidah)-ın hərəkatı şərq tərəfdən başlanacaqdır. Əli (əleyhis-salam) belə buyurmuşdur: *"Onun zühurunun başlanğıcı şərq tərəfdəndir, bu hadisə yarandıqda Süfyani də xüruc edəcəkdir."*[1]

Digər tərəfdən isə, alimlərin yekdil fikirdə olduqları və rəvayətlərdə təvatür həddinə çatan məsələ budur ki, o həzrətin zühuru Məkkədən başlanacaqdır. Deməli, Əli (əleyhis-salam)-ın buyurduğu yuxarıdakı kəlamda, məqsəd onun hərəkatının başlanğıc nöqtəsi, yə'ni İrandır. Həmçinin göstərir ki, o həzrətin hərəkatı Süfyaninin xürucundan qabaq başlanacaq, bu hadisə ilə Süfyaninin xürucu arasında zaman

[1] "Biharul-ənvar", 52-ci cild, səh.254.

fasiləsi, nə çox uzun, nə də çox qısadır. Çünki rəvayətlərdə o həzrətin hərəkatı Süfyaninin xüruc məsələsinə "vav" bağlayıcısı ilə bağlanmışdır, "fa", yaxud "sümmə" ilə yox. Belə ki, "fa" dərhal sonraya, "sümmə" isə müəyyən fasilədən sonraya dəlalət edir. Hətta demək olar ki, bu rəvayət İrandan həzrət Məhdi (əleyhis-salam)-ın dövlətinə zəmin yaradanların hərəkatı ilə Süfyani hərəkatı arasında səbəbiyyət tipli bir əlaqə olduğunu göstərir.

### HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH)-İN ÜMMƏTİ VƏ ƏHLİ-BEYTDƏN OLAN BİR ŞƏXSİN HÖKUMƏTİ - RƏVAYƏTİ

İmam Sadiq (əleyhis-salam) Əbu Bəsirə belə buyurdu: *"Ey Əbu Bəsir! Filankəsin xanədanı hakimiyyətdə oluncaya qədər Peyğəmbər ümməti heç vaxt qurtuluş üzü görməyəcəkdir. Nəhayət, onların da hakimiyyəti sona çatacaqdır. Onun sona çatması ilə Allah-taala onu (hakimiyyəti) Əhli-beytdən olan bir şəxsə həvalə edəcəkdir ki, onun tutduğu yol təqva, hədəfi də camaatı hidayət etməkdir. Camaata etdiyi bütün hökm və qəzavətlərdə əsla rüşvət almaz. Allaha and olsun, mən həm onun öz adını, həm də atasının adını bilirəm. Bundan sonra pəhləvan cüssəli və boyu qısa, üzündə bir xalı, dərisində də iki əlaməti olan şəxs gələcəkdir. O, ədalətli bir rəhbərdir, onun yanında əmanət qoyulan şeyləri qoruyub saxlayar. O, dünyanı, zalımlar tərəfindən zülm və haqsızlıqla doldurulduğu kimi, haqq-ədalətlə dolduracaqdır."*[1]

Bu rəvayət çox yaxşıdır, lakin çox təəssüflə onun son hissəsi natamamdır. "Biharul-ənvar"ın müəllifi olan Əllamə Məclisi onu Seyyid ibni Tavusun "İqbal" kitabından nəql etmişdir. Seyyid ibni Tavus da onu "İqbal" kitabının 599-cu səhifəsində nəql etmiş və demişdir ki, "mən bu rəvayəti 362-ci ildə Bətaininin "Məlahim" kitabında görmüşəm və natamam olduğu halda nəql etmişəm." Sözünün axırında isə belə demişdir: "Sonra bütün rəvayətləri nəql etmişəm." Bətaini İmam Sadiq (əleyhis-salam)-ın səhabələrindən idi və onun kitabının əlyazma nüsxəsi itib-batmışdır. Əlbəttə, İslam ölkələrinin ucqar yerlərində namə'lum əlyazma halında mövcud ola bilər.

Rəvayətlər göstərir ki, həzrət Qaimin zühurundan əvvəl Əhlibeytdən olan alicənab bir şəxs hakimiyyətə gələrək o həzrətin dövlətinə müqəddimə hazırlayacaq, camaatı təqvaya, pərhizkarlığa də'vət və

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.269.

İslam hökmləri əsasında əməl edəcək. O, sazişkarlıq və rüşvət əhli deyildir. Rəvayətdə qeyd olunan bu seyyiddən məqsədin mərhum İmam Xomeyni olduğu ehtimal verilir.

İmamın *"filankəsin xanədanı hakimiyyətdə olduğu vaxta qədər"* – dedikdə, Seyyid ibni Tavusun başa düşdüyü kimi, hökmən Bəni-Abbas olması lazım deyildir. Eləcə də İmamların sözündə "filan və ali-filan" kimi tə'bir olunan digər rəvayətlər də eynilə. Əlbəttə, İmamların bu tə'birində məqsədin bə'zən Bəni-Abbas, bə'zi vaxtlarda isə həzrətin zühurundan əvvəl hakimiyyətə gələnlər olması mümkündür. Məsələn, çoxlu rəvayətlərdə "filan və ali-filan xanədanı" arasında ixtilafdan söz açıldıqda məqsəd Hicaz hakimləridir. Belə ki, onlar özlərindən bir nəfərin hakimiyyəti barədə yekdil fikrə gəlməyəcək və qəbilələr arasında ixtilaf yaranacaq, bu zaman həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş şərif) zühur edəcəkdir. Həzrət Əli (əleyhis-salam)-dan nəql olunan bu rəvayəti də qeyd etmək olar: *"Sizə, filankəsin xanədanının süquta uğraması vaxtından xəbər verməyimmi?!"* Dedik ki, bəli, ya Əmirəl-mö'minin! Buyurdu: *"Qüreyş qəbiləsindən olan günahsız bir şəxsin Hərəmdə qətlə yetirilməsi zamanı. Dənəni yaran və insana varlıq bağışlayan Allaha and olsun ki, bundan on beş gün sonra onlar üçün heç bir səltənət olmayacaqdır."*[1]

Bundan əlavə, çoxlu rəvayətlərdə də "bəni-filan" arasında ixtilafın yaranması, yaxud onların arasında zalım hakimin qətlə yetirilməsi bəyan edilir və deyilir ki, Süfyani məhz ondan sonra xüruc edəcək, yaxud həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) ondan sonra zühur edəcəkdir. Deməli, bu rəvayətləri Bəni-Abbasdan başqalarına təfsir etmək lazımdır. Çünki onların hakimiyyəti yüz illər bundan öncə sona çatıb süqut etmişdir. Hətta Bəni-Abbasın adı aşkar şəkildə çəkilən rəvayətlər də dəqiq şəkildə araşdırılmalıdır, çünki bu rəvayətlər İmamların sözündə "filankəsin övladları", "filankəsin xanədanı" kimi ibarələrlə qeyd olunmuş, ravi isə onu "Bəni-Abbas" kəlməsi ilə nəql etmişdir. Çünki ravi İmamın "filankəsin övladları" dedikdə Bəni-Abbası nəzərdə tutduğunu fikirləşmişdir.

Bə'zən zühur rəvayətlərinin Bəni-Abbasa təfsir olunması düzgün olur. Çünki onların adını zikr etməkdə məqsəd, onların şəxsən özləri, ya övladları, ya da nəvələri deyil, tutduqları üslubdur ki, İmamların əks mövqeyində dayanmışlar. Əlbəttə, çox az hallarda belə təfsir etmək

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.234.

mümkündür. Çünki rəvayətlərin əksəriyyətində "filankəsin övladları" və "filankəsin xanədanı" qeyd olunmuşdur.

Hər bir halda, bu rəvayətlərdəki *"filankəsin xanədanı hakimiyyətdə olduğu vaxta qədər"* ifadəsində Bəni-Abbasdan başqa zalım hakimlər nəzərdə tutulur ki, və'dəsi verilən Seyyid də onlardan sonra zahir olacaq və həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan öncə ədalət əsasında hakimiyyət quracaqdır.

Amma *"bu zaman boyu kiçik və pəhləvan cüssəli bir şəxs..."* cümləsinin məfhumu budur ki, o Seyyiddən sonra gələn şəxs, o həzrətin vəsflərində qeyd olunduğu kimi, Məhdi (əleyhis-salam)-dır və bu nişanələrə malik olan da elə onun özüdür. Amma *"qısa boylu və pəhləvan cüssəli"* ifadəsi o həzrətlə uyğun gəlmir. Çünki rəvayətlərə əsasən o həzrət uca boylu, normal bədənlidir. Ehtimal verilir ki, bu rəvayətin bir və ya bir neçə hissəsi Seyyid ibni Tavusun, yaxud başqa ravilərin nəql etməsi əsnasında düşmüş olsun. Bu qısa boylu və pəhləvan cüssəli şəxs də nəzərdə tutulan Seyyiddən sonra gələcək, onun bə'zi sifətləri də rəvayətlərdə ixtisara salınmışdır. Buna görə də o Seyyidin zamanının həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna birləşməsini bu rəvayətdən əldə etmək olmaz.

### QUMLA ƏLAQƏDAR RƏVAYƏTLƏR VƏ BU ŞƏHƏRDƏ VƏ'DƏSİ VERİLƏN ŞƏXSİN QİYAMI

Zühur rəvayətlərindən biri də Qum şəhərindən bir nəfərin öz köməkçiləri ilə birlikdə qiyam etməsidir. İmam Kazim (əleyhis-salam)-dan belə nəql olunur: *"Qum şəhərindən bir kişi insanları Allaha doğru də'vət edəcək, onun ətrafına elə şəxslər toplaşacaqdır ki, onların qəlbləri polad parçaları kimi möhkəmdir, ruzgarın acı hadisələri ilə dolu olan tünd yellər onları yerindən tərpətməz, müharibədən qorxmaz və usanmazlar. Onlar yalnız Allaha e'timad edərlər. İşin yaxşı nəticəsi yalnız təqvalılara məxsusdur."*[1]

Diqqət yetirmək lazımdır ki, İmam (əleyhis-salam) rəvayətdə "Qumdan olan bir kişi" tə'biri gətirmiş və "Qum əhlindən olan kişi" deməmişdir. Bu cümləni İmam Xomeyni ilə uyğunlaşdırmaq olar. Çünki o, Xomeyn şəhərində doğulmuş və Qumda məskunlaşmışdır. *"İnsanları Allaha doğru də'vət edər"* cümləsi, təkcə Qum əhlinə, yaxud şərq ölkələrinə aid deyildir.

---

[1] "Biharul-ənvar", 60-cı cild, səh.216. Iran çapı

Və'dəsi verilən bu şəxsin nə vaxt dünyaya gələcəyi rəvayətlərdə bəyan edilməmişdir. Amma Qum və İranın tarixində İmam Xomeyni və onun tərəfdarlarından qabaq belə bir şəxsiyyət, üstün sifətlərə malik olan belə köməkçilərin misli heç vaxt görünməmişdir. Əlbəttə, ehtimal verilir ki, rəvayət bir qədər natamam olsun, yaxud müəyyən səbəblərə görə İmam (əleyhis-salam) onu buyurmamış olsun. Həmin rəvayəti "Biharul-ənvar"ın müəllifi ondan təqribən min il qabaq yaşamış Həsən ibni Məhəmməd ibni Həsən Quminin yazdığı "Tarixi Qum" kitabından nəql etmişdir ki, çox təəssüflər olsun ki, o nüsxənin əlyazması da tapılmır, ya da itmişdir.

Bə'ziləri irad tutaraq deyirlər ki, Qum və İran tarixində və'dəsi verilən belə bir şəxs və həmin sifətlərə malik olan köməkçilərinin zahir olmasına baxmayaraq, bu rəvayətin İmam Xomeyni və onun tərəfdarlarına təfsir etməyə heç bir əsas yoxdur. Ola bilsin ki, məqsəd başqa bir kişi və onun tərəfdarları olsun ki, o da bizim dövrümüzdə, yaxud uzun və ya qısa müddətdən sonra gələcəkdir.

*Cavab:* Bəli, rəvayətdə bəyan etdiyimiz kimi, bu hadisənin baş vermə vaxtı bəyan olunmamışdır, amma rəvayətlərdəki sifətlərin məcmusunu Qum və İran barəsində gəlib çatan digər rəvayətlərlə yanaşı mülahizə etdikdə qeyd olunan sifətlərdən məqsəd İmam Xomeyni və onun köməkçiləri olmasına dair xatircəmlik hasil olur. Deməli, əgər Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) və İmamlar (əleyhimus-salam) mövcud vəziyyətlə uyğun olan hər hansı bir şey barəsində xəbər vermişlərsə, onun nəzərə alınmaması və eləcə də onun daha aşkar və aydın olan hadisələrə yozulması ağılabatan deyildir, çünki, Peyğəmbəri-Əkrəm və Əhli-beytin və'dələri məhz onunla uyğun gəlir.

Qum və gələcəkdə onun yüksək mövqe ifa etməsi ilə əlaqədar Əhli-beyt (əleyhimus-salam)-dan nəql olunan rəvayətlər göstərir ki, o cənabların nəzərində bu şəhər çox xüsusi əhəmiyyətə və dəyərə malik imiş. Hətta demək olar ki, 73-cü hicri ilində İranın mərkəzində bu şəhərin binasını qoyub tə'sis edən şəxs İmam Baqir (əleyhis-salam) olmuşdur ki, ondan sonra bu şəhərə xüsusi diqqət yetirilmişdir.

Onlar Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən əxz etdikləri elm sayəsində xəbər vermişlər ki, bu müqəddəs şəhər gələcəkdə çox yüksək məqama çatacaq, onun əhalisi həzrət Məhdi (əleyhis-salam)-ın vəfalı köməkçilərindən olacaqdır.

Bə'zi rəvayətlərdə aşkar şəkildə qeyd olunur ki, bu müqəddəs şəhərin Qum adlandırılmasının əsas səbəbi haqq əsasında qiyam edən həzrət Məhdi (əleyhis-salam)-ın adı ilə münasib olmasıdır ("qum" kəlməsi qiyam etmə kökündən alınıb, "qaim" də qiyam edən deməkdir, müt).

Qum əhli və bu şəhərin coğrafi mövqeyi həzrət Məhdi (əleyhis-salam)-ın zhüruna zəmin yaratmaq üçün daha uyğundur. Digər tərəfdən də bu şəhərin tə'sis olunduğu vaxtlarda onun yaxınlığında Kəməndan, yaxud Kəməd adlı abadlığın da olmasının mə'nası bu deyildir ki, onun "Qum" adlandırılmasında həmin kəlmənin ərəbcə olması nəzərə alınmamışdır. Əffan Bəsri nəql edir ki, həzrət İmam Sadiq (əleyhis-salam) buyurdu: *"Bu şəhərin nə üçün Qum adlandırıldığını bilirsənmi?"* Ərz etdim ki, Allah və Onun Peyğəmbəri daha yaxşı bilər! Həzrət buyurdu: *"Quma ona görə "Qum" adı verilmişdir ki, oranın əhalisi həzrət Qaimin ətrafına yığışacaq, onunla birlikdə qiyam edəcək və ətrafında sabitqədəm qalaraq ona kömək edəcəklər."*[1]

Bu və bu kimi digər rəvayətlər göstərir ki, müqəddəs Qum şəhərinin Malik Əş'ərinin oğlu Əbdüllah, onun qardaşı Əhvəs, eləcə də onların tərəfdarları (bunlar hamılıqla İmam Baqir (əleyhis-salam)-ın xüsusi köməkçilərindən və o həzrətin hədislərini rəvayət edənlərdən idi) vasitəsilə tə'sis olunmasından aydın olur ki, bu şəhər İmam Baqir (əleyhis-salam)-ın əmri ilə tə'sis olunmuş və bu adı o həzrət özü seçmişdir. (Qum kəlməsi rəvayətlərdə həm kişi cinsli formada "bələd" kimi (ölkə), həm də qadın cinsi formasında "bəldət" (şəhər) kimi gəlmişdir. Bu kəlmə – Qum həm münsərif, həm də qeyri-münsərif formada işlənmişdir.)

Bə'zi rəvayətlərdən aydın olur ki, İmamlar (əleyhimus-salam) Qum şəhərinə xüsusi əhəmiyyət vermiş, bu şəhər üçün onun öz hüdudlarından daha geniş səviyyəli bir məfhum nəzərdə tutmuşlar. Buna görə də bu şəhərin adı "Əhli-beyt (əleyhimus-salam)-ın vilayəti ilə əlaqədar Qumun tutduğu üslub" və "onların həzrət Məhdi (ərvahuna fidah)-la birlikdə qiyam etmələri" mə'nasına gəlmişdir.

Rey şəhərinin böyük alimlərindən bir qrupu İmam Sadiq (əleyhis-salam)-ın hüzuruna gedib dedilər: "Biz Rey əhlindənik və sizi ziyarət etməyə gəlmişik." Həzrət buyurdu: *"Bizim qumlu qardaşlarımız xoş gəlmişlər!"* Sonra dedilər ki, axı biz Rey əhlindənik. Həzrət buyurdu:

---

[1] "Biharul-ənvar", 60-cı cild, səh.216.

*"Xoş gəlmişlər qumlu qardaşlarımız."* Onlar yenidən "Axı biz Rey əhlindənik!" deyə əvvəlki sözlərini bir daha təkrar etdikdə, İmam yenə də əvvəlki kimi cavab verərək buyurdu: *"Allahın bir hərəmi vardır, o, Məkkeyi-mükərrəmədir. Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in də bir hərəmi vardır, o da Mədineyi-münəvvərədir. Əli (əleyhis-salam)-ın bir hərəmi vardır ki, Kufədir. Biz Əhli-beytin də bir hərəmi vardır ki, o da Qum şəhəridir. Tezliklə mənim sülaləmdən olan Fatimə adlı bir xanım bu şəhərdə dəfn olunacaqdır, hər kəs Qum şəhərində onu ziyarət etsə, behişt əhlindən olar."* Ravi deyir: İmam Sadiq (əleyhis-salam) bu sözü buyuranda hələ İmam Kazim (əleyhis-salam) dünyaya gəlməmişdi.[1]

Yə'ni Qum şəhəri həzrət Məhdi (əleyhis-salam)-ın dövrünə qədər Əhli-beytdən olan İmamların (əleyhimus-salam) hərəmi və onların vilayət mərkəzi olacaq. Rey və başqa yerlərin əhalisi də ona görə Qum əhli hesab olunmuşlar ki, onlar da Qum əhlinin yoluna tabe olaraq Əhli-beytə məhəbbət bəsləyirlər. Buna görə də "Qum əhli" və "həzrət Məhdi (əleyhis-salam)-ın köməkçiləri" dedikdə məqsədin bütün iranlılara, hətta iranlı olmayan başqa müsəlmanlara da şamil olması uzaq ehtimal deyildir, çünki onlar vilayət, dostluq, müharibə və cihadda İmamlara tabedirlər. Ravinin dediyi "həzrət bu kəlamı buyuranda hələ İmam Kazim (əleyhis-salam) dünyaya gəlməmişdi" sözünün mə'nası budur ki, İmam Sadiq (əleyhis-salam) bu kəlamı onun təvəllüdündən qabaq, yə'ni 128-ci ildə xəbər vermiş, öz nəvəsi (və Musa ibni Cə'fərin qızı) Fatimənin dünyaya gələcəyini və Qum şəhərində dəfn olunacağını demişdir. Bu da ondan yetmiş il sonra gerçəkləşdi.

Qumun böyük şəxsiyyətləri nəql edirlər ki, Mə'mun 200-ci h.q. ilində Əli ibni Musa Rizanı Mədinədən Mərvə çağırtdırdı. Bir il sonra o həzrətin əziz bacısı həzrət Fatimeyi-Mə'sumə Ō öz qardaşının ardınca Mədinədən çıxıb İrana doğru hərəkət etdi ki, nəhayət Savə şəhərinə çatdıqda xəstələndi. *"Mənimlə Qum arasında nə qədər fasilə var?"* - deyə soruşduqda, "on fərsəx" - deyə cavab verdilər.

Bu xəbər Malik Əş'ərinin övladlarından olan Sə'də çatdıqda, böyük şəxsiyyətlərlə birlikdə Savəyə yola düşdülər ki, o həzrətdən Qum şəhərinə gəlib orada qalmasını xahiş etsinlər. O həzrətin hüzuruna çatdıqları zaman Xəzrəcin oğlu Musa onların arasından irəli çıxaraq həzrətə doğru getdi, onun dəvəsinin yüyənindən yapışıb

---

[1] "Biharul-ənvar", 60-cı cild, səh.216.

Quma qədər gətirdi və o həzrəti öz evində məskunlaşdırdı. Həzrət Fatimə Õ Qum şəhərində on altı, yaxud on yeddi gün qaldıqdan sonra həmin xəstəlik nəticəsində o həzrətin müqəddəs ruhu Allah dərgahına qovuşdu. Xəzrəcin oğlu Musa o həzrətin qüsl-kəfən işlərini təşkil etdikdən sonra şərif bədənini özünün ixtiyarında olan torpaq sahəsində – hal-hazırda həzrət Mə'sumənin qəbrinin yerləşdiyi yerdə – torpağa tapşırdı. O həzrətin qəbrinin üstündə həsirdən bir kölgələnəcək düzəltdi. Sonralar həzrət Cavad (əleyhis-salam)-ın qızı Zeynəb o mütəhhər qəbrin üzərində günbəz düzəltdi.[1]

Bu rəvayətlərdən aydın olur ki, Fatimeyi-Mə'sumə də anası həzrət Fatimeyi-Zəhra (əleyhimas-salam) kimi ibadət, zöhd və alicənablıq nişanəsi idi. O həzrət az yaşlı olmaqla belə, Əhli-beyt (əleyhimus-salam)-ın nəzərində xüsusi məqama, dəyərə və əhəmiyyətə malik idi. Çünki həzrətin bu məqam və mənziləti Qumun böyük alimləri və şəxsiyyətlərinin nəzərində də mə'lum bir məsələ idi. Məhz buna görə də o həzrətin məqamını əzizləmək üçün Savəyə tələsdilər. O xanım vəfat etdikdən sonra onun məzarı üzərində nisbətən sadə bir bina düzəltdilər, sonralar onun üzərində günbəz quruldu. Bundan sonra o qəbir Əhli-beyt (əleyhimus-salam) tərəfdarlarının və onları sevənlərinin ziyarətgahına çevrildi. Böyük alimlərdən çoxu vəsiyyət edirdilər ki, o həzrətin qəbrinin kənarında dəfn olunsunlar.

Rəvayətlərdə qeyd olunur ki, həzrət Mə'sumə (əleyha-salam)-ın yaşı iyirmidən az olmuşdur. Bəlkə də iranlıların o həzrəti "Fatimeyi-Mə'sumə" və yaxud "Mə'sumeyi-Qum" adlandırmasının səbəbi, onun yaşının az olmasıdır. Çünki mə'sum fars lüğətində günahsız şəxsə deyilir. Bəlkə də bunun səbəbi o həzrətin günahlardan pak-pakizə olmasıdır. Çünki şiə məzhəbində ismət (mə'sumluq) iki cürdür: Birincisi, İmamlarda vacib olan ismətdir ki, bu ismət on dörd mə'sum (əleyhimus-salam)-da mövcuddur. Digəri isə böyük din şəxsiyyətlərinə və İlahi övliyalara aid edilə bilən ismət məqamıdır. Bunlar da aludəliklərdən və günahlardan pak olan şəxslərə deyilir.

İmam Riza (əleyhis-salam)-dan nəql olunan sonrakı rəvayətdən aydın olur ki, İmamlar Qum şəhərinin tə'sis olunduğu ilk günlərdən e'tibarən bu şəhərin əhalisini "həzrət Məhdi (ərvahuna fidah)-ın köməkçilərinin yaşadığı yer" hesab etmişlər. Bu şəhər əhalisinin həzrət Məhdi (əleyhis-salam)-a qarşı dostluq

[1] "Biharul-ənvar", 60-cı cild, səh.219.

və məhəbbəti də o həzrətin viladətindən qabaq məşhur bir məsələ idi. Səfvan ibni Yəhya belə nəql edir: Bir gün İmam Riza (əleyhis-salam)-ın hüzurunda idim. Qum əhli və onların həzrət Məhdi (ərvahuna fidah)-a olan məhəbbətlərindən söz düşdükdə, həzrət onlar barəsində Allahdan bağışlanmaq istəyərək buyurdu: *"Allah onlardan razı olsun!"* Sonra buyurdu: *"Behiştin səkkiz qapısı vardır ki, onlardan biri də Qum əhlinə məxsusdur. Onlar (Qum əhli) dünya şiələri arasında bizim ən yaxşı ardıcıllarımızdır. Mütəal Allah bizə olan məhəbbət və dostluğu onların zatında qərar vermişdir."*[1]

Rəvayətdə qeyd olunur ki, behiştin qapıları insanların əməllərinə mütənasib olan bölgü üzrədir. Buna görə də *"behiştin bir qapısı Qum əhlinə məxsusdur"* cümləsinin mə'nası bu ola bilər ki, onlar İmamlarla birlikdə mücahidlər qapısından behiştə daxil olacaqlar. O həzrətin buyurduğu *"onlar dünya şiələri arasında bizim ən yaxşı ardıcıllarımızdır"* cümləsi Qum əhlinin sair şiələrə olan üstünlük və fəzilətinə dəlalət edir.

Diqqət yetirilməlidir ki, Qum əhlinin həzrət Məhdi (əleyhis-salam)-a bəslədikləri məhəbbət indiyə qədər də canlı şəkildə qalmaqdadır. İranda İslam inqilabının qələbəsi ilə bu eşq-məhəbbət özünün kamal həddinə çatmışdır. Bu həqiqəti onların öz iman, əməl və zahiri həyatlarında, hətta övladlarının, məscidlərinin və müəssisələrinin o həzrətin adı ilə adlandırmalarında da müşahidə edirik.

Bə'zi rəvayətlərdə deyilir ki, bəla və giriftarçılıqlar Qum əhlindən uzaqdır və Allah-taala bu şəhərin bədxahlarını məhv edəcəkdir. Əban ibni Osman və Həmmad ibni Nabdan belə rəvayət olunur: İmam Sadiq (əleyhis-salam)-ın hüzurunda idik ki, Əbdüllah Quminin oğlu Ümran içəri girdi, İmamın hüzuruna gəlib ondan bir şey soruşdu. Həzrət onunla çox mehriban rəftar etdi. O getdikdən sonra İmamdan soruşdum: "Sizin çox gözəl rəftar etdiyiniz bu şəxs kimdir?" Həzrət buyurdu: *"O, alicənablar ailəsindən, yə'ni Qum əhlindəndir. Onların barəsində sui-niyyət edən elə bir zalım yoxdur ki, Allah-taala onu məhv etməsin."*[2]

Başqa bir rəvayətdə qeyd olunur ki, bəla Qum əhlindən dəf edilmişdir.[3] Digər bir rəvayətdə isə belə buyurulur: *"Qum əhli bizdən*

---

[1] "Biharul-ənvar", 60-cı cild, səh.216.
[2] "Biharul-ənvar", 60-cı cild, səh.211.
[3] Yenə orada. səh.214.

*və biz də onlardanıq. Bir-birlərinə xəyanət etmədikləri vaxta qədər (digər bir nüsxədə: bu üslubu dəyişmədikləri vaxta qədər) hər bir zalım onların barəsində pis niyyət edərsə, ölüm onu əhatə edər. Amma belə əməllərə mürtəkib olduqları zaman Allah-taala zalımları onlara hakim edər. Lakin onlar (Qum əhli) Qaimin köməkçiləri, bizim məzlumiyyətimizi dünyaya çatdıranlar və bizim hüquqlarımıza riayət edənlərdir".* Sonra səmaya baxaraq dedi: *"Pərvərdigara, onları hər bir fitnənin şərindən qoru və hər bir bəladan nicat ver."*[1]

İmam Sadiq (əleyhis-salam) buyurur: *"Bəlalar Qumdan və onun əhlindən uzaqlaşdırılmışdır. Bir zaman gələr ki, Qum və onun əhalisi insanlara höccət olar. Bu da bizim Qaimimizin qeybət və zühur dövründə olacaqdır. Əgər belə olmasaydı, yer öz əhlini udardı. Allahın mələkləri bəlaları bu şəhərdən və onun əhalisindən dəf edər. Zalımları məhv edən Allah onların barəsində pis niyyətdə olan hər bir zalımı məhv edər, yaxud onu giriftarçılığa, düşmənçiliyə, müsibətə düçar edər. Mütəal Allah zalımların hakimiyyəti dövründə Qumu və onun əhalisini onların yadından çıxarar, necə ki, zalımlar Allahı unutmuşlar."*[2]

Əlbəttə, bu o demək deyildir ki, ümumiyyətlə, Qum əhlinə heç bir pislik yetməz; əksinə mümkündür ki, onlara müəyyən çətinliklər çatsın. Lakin böyük Allah bu çətinlikləri və müşkülləri onlardan uzaq saxlayar və Özünün lütf və mərhəməti ilə onlara kömək edər ki, onun da ən bariz nümunələri inadkarların, təcavüzkarların məhvi və onların müxtəlif giriftarçılıqlara düçar edilməsidir ki, Qum əhli barəsində fikirləşmir və ümumiyyətlə onları xatırlamırlar.

"Biharul-ənvar"da İmam Sadiq (əleyhis-salam)-dan nəql edilən iki rəvayət Qum şəhərinin gələcəyini və o həzrətin zühurundan əvvəl bu şəhərin ifa etdiyi ideoloji rolu bəyan edir.

*Birinci rəvayət:*

*"Mütəal Allah Kufə şəhərinin vasitəsilə (İraqdakı) sair şəhərlərə, onun mö'minləri vasitəsilə də (bu ölkədəki) sair mö'minlərə dəlil gətirər. Qum şəhərinin vasitəsilə (dünyadakı) şəhərlərə və Qum əhlinin vasitəsilə sair dünya əhlinə, istər cinlər olsun, istərsə də insanlar (dəlil gətirər). Mütəal Allah Qum əhlini ideoloji müstəz'əflərdən (zəiflərdən) qərar verməmişdir; onlar həmişə*

---

[1] Yenə orada, səh.218.
[2] Yenə orada, səh.213.

*müvəffəq və tə'yid olunmuşdur.* (Sonra buyurdu:) *Dindarlar bu şəhərdə öz güzəranlarını çox çətinliklə keçirirlər, əgər belə olmasaydı, camaat sür'ətlə oraya axışar, oranı dağıdar və əhalisini də puç edərdilər... Qumun mövqeyi belə bir həddə çatan zaman asiman və yerin asudəliyi olmaz, onların əhalisi bir an belə, (sağ) qalmazlar. Bəla və çətinliklər Qum və onun əhlindən dəf edilər. Bir zaman gələcək ki, Qum və onun əhalisi bütün insanlara höccət olacaqlar. Bu da bizim Qaimimizin qeybə çəkildiyi və zühur etdiyi dövrdə olacaqdır. Əgər belə olmasaydı, yer öz əhlini udardı. Allahın mələkləri bəlaları bu şəhərdən və onun əhalisindən uzaqlaşdırmağa mə'mur olmuşlar. Hər zalım onun barəsində pis niyyət edərsə, zalımları məhv edən Allah onu da məhvə, yaxud giriftarçılığa, düşmənçiliyə və müsibətə mübtəla edər. Mütəal Allah Qum və onun əhalisinin adını zalımların hakimiyyəti dövründə onların yadından çıxarar. Necə ki, onlar Allahı unutmuş olarlar."*

*İkinci rəvayət:*

*"Tezliklə ilan öz yerindən batıb yox olduğu kimi, Kufə şəhəri də mö'minlərdən boşalar, elm öz büsatını Kufədən yığışdırar və Qum adlı bir şəhərdə aşkar olar, ora elm və fəzilət mərkəzi olar. Belə ki, yer üzündə bir kəs, hətta gəlinlər öz hicləgahında belə, "ideoloji müstəz'əf" halında yaşamaz. Bu hadisələr bizim Qaimimizin zühuru dövründə baş verəcəkdir. Mütəal Allah Qumu və onun əhalisini İslamın məramını (bütün dünyaya) çatdırmaq üçün, həzrət Höccətin canişini qərar verər. Əgər belə olmasaydı, yer öz əhlini udar və yer üzərində heç bir höccət qalmazdı. Elm bu şəhərdən şərqə-qərbə yayılar, beləliklə də höccət bütün insanlara tamamlanar. Elə bir şəxs qalmaz ki, din və elm ona çatmamış olsun. Bundan sonra Qaim zühur edər və onun zühuru Allahın Öz bəndələrinə qəzəblənməsinə səbəb olar. Çünki Allah Öz bəndələrindən yalnız o zaman intiqam alar ki, həzrət Höccətin müqəddəs vücudunu inkar etsinlər."*[1]

Bu rəvayətdən bir neçə məsələ aydın olur:

a) Bu iki rəvayətin mə'na cəhətindən nəql olunması. Bunu da qeyd edək ki, onlarda azacıq qabağa salınma və ya tə'xirə salınma mövcuddur. Amma əsas məsələ bu iki rəvayətin əhatə etdiyi mə'nadan ibarətdir.

[1] "Biharul-ənvar", 60-cı cild, səh.213.

b) Bu rəvayətlərdən mə'lum olur ki, Kufə şəhərinin Əhli-beytə tabe olmaq və elm cəhətindən ifa etdiyi dini rol mühüm və böyük olmuşdur. Amma bu, həzrət Məhdi (ərvahuna fidah)-ın zühuru ərəfəsində aradan gedəcəkdir. Əlbəttə, Kufə dedikdə, Nəcəf də nəzərdə tutulur. Çünki onun əsl adı Nəcəfi-Kufə olmuşdur, hətta bə'zən Kufə dedikdə, bütünlükdə İraq nəzərdə tutulur. Amma Qum şəhərinin dini cəhətdən ifa etdiyi rol həmişə davam edəcək, o həzrətin zühuruna yaxın dövrlərdə daha artıq əzəmətə malik olacaqdır. Belə ki, rəvayətin iki cümləsi buna işarə edir: *"Və bütün bunlar bizim Qaimimizin qeybdə olduğu və zühur etdiyi dövrdə baş verəcəkdir"; "bu hadisələr bizim Qaimimizin zühur dövrünə yaxın vaxtlarda baş verəcəkdir."*

v) O dövrdə müqəddəs Qum şəhərinin ifa etdiyi e'tiqadi və ideoloji rol təkcə iranlılara və şiələrə aid olmayacaqdır; həm də dünya səviyyəli və qeyri-müsəlmanları da əhatə edən bir rol ifa edəcəkdir: *"Tezliklə bir zaman gələr ki, Qum və onun əhli insanlara höccət olar"* və *"elə bir şəxs qalmayacaqdır ki, elm və bilik ona çatmamış olsun"*. Bunun mə'nası o deyildir ki, din və elm bu şəhərdən dünya əhalisinin ayrı-ayrılıqda hər birinə çatacaqdır; əksinə burada İslamın çağırışı və onun dünya səviyyəsində irəli çəkilməsi nəzərdə tutulur ki, əgər bir şəxs İslamın göstəriş və qayda-qanunlarını öyrənmək üçün sə'y etsə, bu iş onun üçün müyəssər olacaqdır.

Əlbəttə, Qum şəhəri üçün belə bir mühüm təbliğat mərkəzi olmaq, kütləvi təbliğat vasitələrinə malik olan bir hökumətin bərqərar olunmasına və hətta dünya müşrikləri ilə mübarizədə müvəffəqiyyət qazanmasına bağlıdır ki, bunun özü də İslam səsinin Qumdan bütün dünyaya yayılmasına səbəb olacaqdır.

q) Qum şəhərinin malik olduğu bu böyük mədəni rol İslamın dünya səviyyəli düşmənlərinin bu şəhərə qarşı kin-küdurət bəsləməsinə səbəb olacaqdır, yə'ni İslamın bu şəhərdən dünyaya yayılmasına qarşı ciddi surətdə əksül-əməl göstərəcəklər. Zalımların İslamla bu cür düşmənçiliyi Allah-taalanın onlardan həzrət Məhdi (əleyhis-salam)-ın qüdrətli əli ilə intiqam almasına səbəb olacaq, bu düşmənçiliklə höccət bütün insanlara tamamlanacaqdır. Çünki düşmənlər tərəfindən icad olunan çətinliklər onların İslama qarşı cahil olmaları cəhətindən deyil, əksinə sırf şəkildə İslama kin-küdurət bəslədiklərinə görədir.

Diqqət yetirmək lazımdır ki, bu iki rəvayətdə qeyd olunanlar Kufə və İraqda gerçəkləşmiş, Qumda və İranda isə gerçəkləşmə ərə-

fəsindədir. Hətta əgər dünya xalqları arasında bu iki rəvayətdə qeyd olunanların icad olunmasının on illər çəkəcəyinə inansaq belə, yenə də onun müqəddimə işlərinin hazırlanmasında şəkk yoxdur. Hədisdə deyilən *"bizim Qaimimizin zühuruna yaxın vaxtlarda"* ibarəsi göstərir ki, Qum şəhəri üçün dünya səviyyəli belə bir mövqeyin yaranması ilə həzrət Məhdi (ərvahuna fidah)-ın zühuru arasında çox uzun zaman fasiləsi olmayacaqdır.

**ŞƏRQ ƏHLİ VƏ QARA BAYRAQLILAR - RƏVAYƏTİ**

Bu hədis şiə-sünnü mənbələrində qeyd olunan "qara bayraqlılar rəvayəti", "məşriq əhlinin rəvayəti" "Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əhli-beytinin ondan sonra qarşılaşdıqları hadisələr rəvayəti" adı ilə tanınmışdır ki, onu müxtəlif mənbələrdə və çoxlu səhabələrdən cümlə və ibarələri arasında azacıq təfavütlə nəql etmişlər. Bə'ziləri onun bir hissəsini rəvayət etmiş, bə'ziləri də aşkar şəkildə demişlər ki, bu xəbərin ravilərinin hamısı siqədirlər (e'timad olunası şəxslərdir).

Bu rəvayətin hamısının, yaxud bir hissəsinin nəql olunduğu ən qədim sünnü mənbələri aşağıdakılardır:

İbni Macə "Sünən" kitabında, 2-ci cild, səh.518 və 269; Hakim "Müstədrək" kitabında, 4-cü cild, səh.464, 553; İbni Həmmad "Fitən" adlı əlyazmasında, səh.84-85; İbni Əbi Şeybə "Müsənnəf" kitabında, 15-ci cild, səh.235; Darəmi "Sünən" kitabında, səh.93. Sonradan gələnlər də həmin rəvayətləri onlardan əxz edərək nəql etmişlər. Bəlkə də "Sihah" müəlliflərindən bə'ziləri, o cümlədən, İbni Macə, Əhməd ibni Hənbəl və başqalarının nəql etdikləri *"şərqdən bir qrup adam qiyam edərək, Məhdinin hökumətinin müqəddiməsini bərqərar edəcəklər"* rəvayəti də həmin rəvayətlərin bir hissəsidir.

İndi "Müstədrəki Hakim" kitabından rəvayətin özünü nəql edirik: Əbdüllah ibni Məs'ud nəql edir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in hüzuruna gəldim, o həzrət sevincə qərq olmuş halda mənimlə qarşılaşdı. Suallarıma cavab verdi. Mən sakit olduqda, həzrət danışmağa başladı. Nəhayət, Bəni-Haşim cavanlarından bir dəstəsi oradan keçdi. Həsən və Hüseyn də onların arasında idi. Peyğəmbərin gözü onlara sataşan kimi, onların dalınca getdi və o həzrətin gözləri yaşla doldu. Soruşdum: "Ya Rəsuləllah! Sizin hüzurunuzda elə bir şey görürük ki, bizi narahat edir." Həzrət buyurdu: *"Biz elə bir ailəyik ki, sübhan Allah axirəti bizim üçün dünyadan üstün etmişdir. Məndən sonra*

*Əhli-beytimi şəhərlərdə və ölkələrdə pərakəndə vəziyyətə salacaqlar. Nəhayət şərq tərəfdən qara bayraqlılar hərəkətə gələcək və öz haqlarını istəyəcəklər. Amma onların hüquqları onlara verilməyəcəkdir. Onlar öz haqlarından heç nəyi keçməyəcəklər. Amma yenə də onlara müsbət cavab verilməyəcək. Yenidən istəyəcəklər, onlara e'tina olunmayacaq. Bu halda mübarizəyə qalxıb qələbəyə çatacaqlar. Sizlərdən, yaxud sizin övladlarınızdın hər biri o zəmanəni görsə, hətta çətinliklə və qarın üzərində sürünməklə olsa belə, mənim Əhli-beytimdən olan rəhbərə qoşulsun. Onlar hidayət bayraqlarıdır ki, onları Əhli-beytimdən olan bir şəxsə həvalə edəcəklər. Onun adı mənim öz adımla, atasının adı da atamın adı ilə eynidir. O, yer üzünə sahib olacaq, oranı zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə dolduracaqdır."*

Amma şiələrin rəvayət mənbələrinə gəldikdə isə, bu hədisi Seyyid ibni Tavus özünün "Məlahim və fitən" kitabında (səh.30 və 117), Məclisi "Biharul-ənvar"da (51-ci cild, səh.83) Hafiz Əbu Nəimin "Ərbəin" kitabının 27-ci hədisindən nəql etmişdir ki, bu da həzrət Məhdi (əleyhis-salam)-ın şərqdən gəlişi ilə əlaqədardır. Bu rəvayətin oxşarı "Biharul-ənvar"da (52-ci cild, səh.243) İmam Baqir (əleyhis-salam)-dan belə nəql edilir: *"Sanki görürəm ki, məşriq tərəfdən bir qrup qiyam edir, öz haqlarını istəyirlər, lakin onlara e'tina edilmir. Yenidən öz istəklərinə tə'kid edirlər, lakin müxaliflər bunu qəbul etmirlər. Onlar belə bir vəziyyəti müşahidə etdikləri zaman qılınclarını (silahlarını) çiyinlərinə qoyaraq düşmən qarşısında dayanırlar. Məhz bu zaman onların istəklərinə müsbət cavab verilər, bu dəfə isə onlar qəbul etməzlər, nəhayət hamılıqla qiyam edərlər. Onlar hidayət bayrağını sizin sahibinizin qüdrətli əlindən (Həzrət Məhdidən) başqa bir kəsə həvalə etməzlər. Onların öldürülənləri şəhid hesab olunur. Əgər mən o vaxtı görsəydim, bu əmrin sahibinə kömək etmək üçün özümü saxlayardım."*

Bu rəvayətdən bir neçə məsələ aydın olur:

Birincisi: Bu rəvayət "icmali təvatür" həddindədir.[1] Onun məzmununun ümdəsini təşkil edən şey Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-in öz Əhli-beytinin özündən sonra məzlumiyyətinə dəlalət etməsidir ki, onların haqqını özlərinə qaytaracaq yeganə şəxslər məşriqdən qiyam edərək həzrət Məhdi (əleyhis-salam)-ın dünya səviyyəli hökumətinə müqəddimə

[1] Bunun mə'nası əvvəldə qeyd olundu.

və şərait yaradanlardır. Məhz onların hakimiyyətə çatmasının ardınca İmam (əleyhis-salam) zühur edəcək, onlar da öz bayraqlarını həzrətə təhvil verəcəklər. Allah-taala onun müqəddəs varlığı səbəbilə İslamı bütün dünyaya təqdim edəcək, yer üzünü haqq-ədalətlə dolduracaqdır.

İkincisi: *"Bir qrup məşriq tərəfdən qiyam edəcək və qara bayraqlara malik olacaq"* dedikdə məqsəd iranlıların olmasıdır və belə rəvayətləri nəql edən bütün səhabələrin, tabeinlərin, eləcə də onlardan sonra əsrlər boyunca bütün əsər sahiblərinin nəzərində bu məsələ yekdil bir fikirdir. Belə ki, bu şəxslərin qiyamı o zaman mə'lum və aydın bir məsələ olduğuna görə onlardan heç biri bunu qeyd etməmiş və "bir qrup" dedikdə, misal üçün, Türkiyə əhli, yaxud Hindistan əhli, yaxud da İrandan başqa digər yerlərin əhalisi olmasını deməmişlər. Əksinə, ravilərdən və müəlliflərdən bir çoxu aşkar şəkildə demişlər ki, onlar iranlılardır, hətta nəql olunan hədisin müəyyən ibarələrində "xorasanlılar" adı varid olmuşdur. (Belə ki, xorasanlı bayraqlılarla əlaqədar olan rəvayətlərdə qeyd olunacaqdır.)

*Üçüncüsü:* Onların qiyam və inqilabı ki, dünya səviyyəsində düşmənçiliklə üzləşəcək və onlara qalib gələcəklər. Bundan sonra isə Həzrət Məhdi (əleyhis-salam) zühur edəcəkdir.

*Dördüncüsü:* Onlarla müasir olan hər bir müsəlman fərdə vacibdir ki, hətta çox ağır şəraitlərdə, məsələn, qarın və buzun üstündə sürünməklə olsa belə, onlara kömək etmək üçün qiyam etsin.

*Beşincisi:* Onların bayraqları hidayət bayraqlarıdır, yə'ni onların hökumət və dövlətləri dini mahiyyətə malik olub səhih yönlüdür. Onların izlədikləri əməl və hədəflər də İslamın müqəddəs hökm və hədəfləri ilə tamamilə uyğundur. Belə ki, əgər müsəlman bir şəxs onlarla həmkarlıq etsə, öz şər'i vəzifəsinə əməl etmişdir və vəzifə ondan götürülmüşdür.

*Altıncısı:* Bu rəvayət gələcəkdən və qeybdən xəbər verir və Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in nübüvvətinin düzgünlüyünə dəlalət edən bir mö'cüzə sayılır. Çünki o həzrətin öz Əhli-beytinin məzlumiyyəti, onların dünya səviyyəsində müxtəlif nöqtələrə yayılması ilə əlaqədar verdiyi xəbərlər keçən əsrlər boyunca sübuta yetmişdir, hətta biz tarix boyunda dünya səviyyəsində elə bir xanədan tanımırıq ki, Peyğəmbər Əhli-beyti və həzrət Əli (əleyhis-salam)-ın, Fatimeyi-Zəhra (əleyha-salam)-ın övladları kimi sürgünlərlə və vətənlərindən uzaq düşməklə qarşılaşmış olsunlar.

Əvvəldə İmam Baqir (əleyhis-salam)-dan nəql olunan rəvayətin ibarələrində onların qiyam və hərəkatlarının dəqiq vəsfləri olduğuna görə onun bə'zi cümlələrini araşdırırıq. Bizim nəzərimizə görə, bu rəvayət əvvəldə Peyğəmbərdən nəql olunan hədislə əlaqədar, yaxud onun oxşarıdır. Baxmayaraq ki, İmam Baqir (əleyhis-salam) bu mövzunu aşkar bəyan etməmişdir, amma o həzrətin özü və sair İmamlar buyurmuşlar ki, bu rəvayətləri öz ata-babalarından, onlar da Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql etmişlər.

*"Sanki məşriq tərəfdən qiyam edən bir qrupu görürəm"* cümləsi göstərir ki, bu qiyam Allah-taalanın və'də verdiyi labüd və'dələrdəndir. Buna görə də Peyğəmbəri-Əkrəmin, yaxud İmamların *"sanki görürəm"* tə'biri ilə qeyd olunan cümlələr də həmin şeylərin mütləq baş verəcəyini göstərir ki, onların zehinlərində yəqin həddində olmuşdur. Onlar bu məsələləri öz bəsirət gözləri ilə görürlər ki, bu da Allah-taala tərəfindən Peyğəmbər və Əhli-beytə verilən məqamla uyğundur.

Həmçinin bunu göstərir ki, iranlıların hərəkətləri inqilab yolu ilə olacaqdır. Çünki *"şübhəsiz, qiyam edəcəklər"* cümləsi də həmin mə'nanı çatdırır. Sonradan gələn *"sanki məşriqdən gələn bir qrupu görürəm ki, öz haqlarını tələb edərlər, onların haqqı verilməz, yenidən öz istəklərinə tə'kid edərlər..., nəhayət bu dəfə özləri qəbul etməz və hamılıqla qiyam edərlər"* cümləsi iranlıların zəncirvari olan bu hərəkətlərini 80 il öncə baş verən "Məşrutə" inqilabındakı hərəkətlərə yozmaq olar. Çünki camaat istəyirdi ki, İslam alimlərindən və mütəfəkkirlərindən bir neçəsi ölkə qanunlarına nəzarət etsinlər və İslam göstərişlərinə müvafiq olmayanları qanundan çıxartsınlar ki, hakim üsul-idarəsi zahirdə onu 1906-cı ilin "Əsas Qanun"unda (Konstitusiya) qəbul etdi, amma həqiqətdə qəbul etməmişdi. Sonra Ayətullah Kaşani və Doktor Müsəddiqin hərəkatında (1951-ci ildə) bir daha bu işi istədilər, lakin onlara e'tina olunmadı. Məhz bu mərhələdə Amerika camaatın milli azadlıq hərəkatını boğmaqla şahı – ki, o günlərdə İrandan qaçmışdı – yenidən onlara hakim etdi. Camaat bu vəziyyəti müşahidə etdikdə silaha əl atdılar və İmam Xomeyninin hərəkatında özlərini fəda etməyə hazırlaşdılar. Milyonlarla nəfərin iştirak etdiyi nümayişlərdə düşmən müqabilində müqavimət göstərdilər, bu dövrdə də şah və onun ərbabları çalışırdılar ki, onların istəklərini müəyyən qədər ödəsinlər.

Belə ki, onlara deyilmişdi ki, 1906-cı ildəki "Əsas Qanun"da İslam fəqihlərindən altı nəfərinin ölkə işlərinə və qanunlarına nəzarət etmək üçün seçilməsilə əlaqədar olan maddələrin icrasını qəbul etsinlər. Bu şərtlə ki, şah əvvəldə olduğu kimi qüdrət kürsüsündə otursun. Bə'zi alimlər qəbul etsə də, İmam Xomeyni və milyonlarla iranlı bunu qəbul etmədilər və öz müqəddəs İslam hərəkatlarını davam etdirərək dünya istismarçıları qarşısında qələbə çaldılar və ölkələrində İslam qayda-qanunlarını hakim etdilər. Şübhəsiz, onlar bu hidayət bayraqlarını həzrət Məhdi (ərvahına fidah)-ın zühuru dövründə onun özünə həvalə edəcəklər.

Amma daha yaxşı təfsir budur ki, onlar düşmənlərindən öz haqlarını tələb edənlər olsun ki, hegemon dövlətlər onların işlərinə dəxalət etməsinlər və əllərini bu xalqdan çəksinlər ki, İslamın qanunları bərqərar olsun və xalq azad surətdə yaşasın. Lakin onların sözlərinə e'tina olunmaz, bu zaman onlar ələ silah alaraq onlarla müharibəyə qalxarlar və bu çəkişmələrdə və müharibələrdə qələbə çalarlar. Düşmənlər bu vəziyyəti müşahidə etziklə istədiklərini onlara vermək üçün razılaşarlar. Bu şərtlə ki, yalnız İranda İslamı hakim etsinlər və inqilabı başqa ölkələrə buraxmasınlar. Amma artıq gec olmuş və şərait tamamilə dəyişilmişdir. Belə ki, iranlılar daha bu təklifləri qəbul etməzlər. Bundan sonra yeni bir inqilab yaranar. (Bu inqilab imtiyaz ünvanı ilə onlara verilən şeyləri rədd etmək mə'nasındadır.) Həmçinin İslam hakimiyyətinin İrandan daha geniş coğrafi sərhədlərdə bərqərar olmasına tə'kid edərlər. Bundan sonra Məhdi (ərvahına fidah) zühur edəcək və mübarizə bayrağını ona təhvil verəcəklər.

İkinci növ təfsirdə daha yaxşı olar ki, belə deyək: İmam Xomeyni hərəkatının istəkləri "Məşrutə" inqilabının istəkləri kimi, yaxud Ayətullah Kaşaninin və Doktor Müsəddiqin inqilabı deyildir, əksinə əsas e'tibarı ilə İslam alimlərinin rəhbərliyi ilə olan İslami və qanuni bir hökumətin istənilməsi idi.

Amma *"silahlarını çiyinlərinə qoyarlar"* ibarəsində belə nəzərə çarpır ki, müharibə dedikdə, hazırkı müharibə, yaxud müharibə üçün tam hazırlıq şəraitinə malik olmaqdır.

Amma bu cümləni şahın artıq dağılmaqda olan üsul-idarəsi müqabilində milyonlarla adamın nümayişi və şəhadət arzuları kimi yozmaq çox uzaq ehtimaldır. Çünki o dövrdə camaatın silahı yox idi ki, çiyinlərinə qoyaraq qiyam etsinlər; əksinə onların inqilabları

silahsız, boş əllə və dinc şəraitdə olmuşdur, onlar sadəcə olaraq qəzəbli yumruqlarını düyünləmişdilər. Hətta şahın hərbi qərargahlarının süqut etməsi və camaatın ələ silah keçirmələrini də buna əlavə etsək, yenə də bu inqilab hərbi əməliyyatlara arxalanmırdı. Camaatın şahın qvardiya qüvvələri ilə qısamüddətli və müxtəsər çarpışmalarına diqqət yetirsək, İslam inqilabının qələbə çalmasında hərbi əməliyyatlar sair əməliyyat və fəaliyyətlərlə müqayisədə beş faiz təşkil edir.

Bundan əlavə, rəvayətin düzümündən aydın olur ki, onların qiyam etmələri və öz istəklərini irəli çəkmələri uzun mərhələlərdə və yüz illər boyunca deyil, ardıcıl qiyam və hərəkatlarla həyata keçir.

Bu və digər rəvayətlərdəki ibarələrin əksəriyyəti göstərir ki, iranlıların özlərinin ilkin istəkləri müqabilində göstərdikləri əksül-əməllər onların qeyri-müntəzəm müharibəyə daxil olmalarından sonra baş verəcək və bu müharibədə qələbə çalacaqlar. O rəvayətlərdə qeyd olunan bu cümləni misal göstərmək olar: *"Öz haqlarını tələb edər, lakin ala bilməzlər; qiyama başlayıb qələbə çalarlar, sonra onlara müsbət cavab verilər. Lakin bu dəfə onlar qəbul etməzlər."*[1]

Bu təfsirə əsasən, iki məsələ qeyd olunmalıdır:

1- *"Onlar haqqı axtararlar, lakin onlara müsbət cavab verilməz"* - cümləsindən mə'lum olur ki, onların istəkləri iki mərhələdə ünvan olunur. Bunların hansı mərhələdən ibarət olmasına gəldikdə isə, buna üç yolla cavab vermək olar:

a) İbarələrin təkrar olunması bu mətləbi bəyan edir ki, onlar öz qanuni istəklərini düşmənlərdən almaqda israr edəcəklər. Amma əgər Peyğəmbər və İmamlardan (əleyhimus-salam) nəql olunan rəvayətlərə diqqət yetirilsə, onların hədislərində, xüsusilə sözü gedən hədisdə adi təkrar uzaq ehtimal sayılır.

b) Bəlkə də ən dolğun cavab bundan ibarətdir ki, onlar öz istəklərini inqilabın iki mərhələsində irəli çəkəcəklər: biri müharibədən əvvəl olacaq və qəbul edilməyəcəkdir. Digəri isə müharibədən qalib çıxmalarından sonradır ki, bu dəfə onların özləri istəməyəcəklər.

v) Apardıqları müharibənin hər iki mərhələsində öz istəklərini düşməndən tələb edəcəklər, onların istəklərinə məhəl qoyulmayacaq, məcbur qalıb müharibəni qələbəyə qədər davam etdirəcəklər. Bu mərhələdə onların əvvəlki istəkləri həyata keçəcək, amma onlar

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.83.

özləri bunu qəbul etməyəcəklər. Beləliklə də onların geniş səviyyəli inqilabı baş verəcək, *"nəhayət qiyam edəcəklər"* və bunun ardınca da Məhdi (əleyhis-salam) zühur edəcək.

İkinci məsələ: İmam (əleyhis-salam)-ın buyurduğu *"nəhayət qiyam edərlər"* kəlamında onların inqilabı xüruc, qiyam və hərəkat kimi tə'bir edilmişdir. Bu da onu göstərir ki, bu, onların birinci inqilab və qiyamlarından nisbətən daha artıq səviyyəli qiyamlardan ibarətdir. Həmçinin, bunu da çatdırır ki, bu mərhələdə inqilab təkamül mərhələsinə çatacaqdır. Belə ki, inranlılar bu inqilabda ən geniş bir mərhələyə çatacaqlar, cihad fətvası veriləcək. Mütəal Allahın əmrini yerinə yetirmək üçün hamılıqla ayağa qalxacaq və inqilabı məntəqə səviyyəsində davam etdirəcəklər ki, bu da həzrət Məhdi (əleyhis-salam)-ın mübarək zühurunun müqəddiməsidir.

Bə'zən də *"belə isə, qiyam edəcəklər"* deyil, *"nəhayət qiyam edəcəklər"* kimi tə'bir gətirilməsindən mə'lum olur ki, qələbədən sonra düşməndən – öz istəkləri ilə əlaqədar – imtiyaz almaları ilə onların böyük qiyamları arasında müəyyən fasilə olacaqdır. Hətta bu zaman fasiləsində şəkk və tərəddüd mərhələsi yaranacaqdır. Bu da onların öz aralarında yalnız imtiyaz almaqla müvafiq olan ideoloji bir xətt yaranmasına görədir. Yaxud da bu şəkk və tərəddüd onlar üçün yaranan xarici şəraitlər səbəbi ilə olacaqdır. Bu fasilədə digər bir cinah qələbə çalacaq və yenidən qiyam edəcəklər. Bu hərəkat da həzrət Məhdi (əleyhis-salam)-ın zühuru üçün bir müqəddimədir.

İmam Baqir (əleyhis-salam)-ın buyurduğu *"onların öldürülənləri şəhid-dirlər"* kəlamı göstərir ki, onların qiyamlarında öldürülənlər – istər qiyam etdikləri zaman, istər düşmənlə mübarizə apardıqları zaman, istərsə də digər böyük qiyamlarda – şəhid hesab olunur. İmam (əleyhis-salam)-ın bu sözü göstərir ki, onlar haqq bayraqlarını ələ alacaqlar, onların rəh-bərlikləri İslam qanunlarına – şəriətə uyğun və İslam xəttində olacaq, onların siyasətləri də tamamilə düzgündür. Çünki şəriətə uyğun olmayan və azğın bayraqlıların rəhbərliyi altında öldürülənlərə şəhid demək olmaz. Şəhidə ona görə "şəhid" deyilir ki, o, qiyamətdə onu öldürənlərə və sair camaata şəhadət verəcəkdir. Çünki o, insanları İslama də'vət edir, amma onlar onu küfrə və azğınlığa çağırırlar.

Əgər bir kəs desə ki, "İmam Baqir (əleyhis-salam)-ın buyurduğu *"onların ölüləri şəhiddir"* kəlamı onların əməllərinin düzgünlüyünə və niyyət-lərinin paklığına, yaxud dinc əhali arasında öldürülən qeyri-hərb-

çilərin məzlumiyyətinə dəlalət edir, amma onların rəhbərinin niyyətinin pak, əməlinin düzgün və tutduğu yolun səhih olmasına dəlalət etmir", hətta biz bu mə'nanı cədəl üzündən qəbul etsək və "müsəlmanın əməl və niyyətinin düzgünlüyü" kimi ümumi qaydadan xaric olsaq da, bu cür təfsir və yozumlar insan təklifinin aradan götürülməsində heç bir rol ifa etmir.

Amma *"o dövrü görsəydim, özümü bu əmrin sahibinə kömək etmək üçün hazırlayardım"* cümləsinə gəldikdə isə, həzrət özü barəsində xəbər verib deyir ki, əgər onların hərəkatını görsəydim, onların öldürülənlərin şəhid olmasına baxmayaraq, Məhdi (ərvahuna fidah)-ın zühurunu görmək üçün özümü xətərlərdən qoruyardım. Bu ibarə həzrət Məhdi (əleyhis-salam)-ın özünün və köməkçilərinin əzəmətli məqamına dəlalət edir. Belə ki, İmam Baqir (əleyhis-salam) qibtə edərək "kaş o alicənab şəxslə bir yerdə olaydım!" – deyir. İmam Baqir (əleyhis-salam)-ın həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş şərif) barəsində buyurduğu bu kimi ibarələr həm də onun qarşısında tam təvazökarlığını göstərir.

Qeyd olunan ibarələr bunu da çatdırır ki, iranlıların hərəkatı ilə o həzrətin zühuru arasında olan fasilə adi bir insan ömründən artıq olmayacaqdır. Çünki İmam Baqir (əleyhis-salam)-ın kəlamının zahiri mə'nası budur ki, əgər onların hərəkatını görsəydim, özümü qoruyardım. Bu da mö'cüzə şəklində deyil, təbii bir haldır. Çox mühüm bir dəlil olan bu söz göstərir ki, biz hal-hazırda o həzrətin zühur dövrünə daxil olmuşuq, iranlıların hərəkatı zühur əsrinə yaxındır və onunla birləşəcəkdir.

Amma rahatlıq axtaran bə'zi adamlar bu ibarələri başqa yerə yozaraq bu rəvayətdə İmamın məqsədini öz canını xətərlərdən hifz etmək, şəhadət meydanında hazır olmamaq və iranlıların hərəkat və müharibələrində iştirak etməmək kimi təfsir edirlər ki, bu da tamamilə yanlış bir yozumdur. Çünki İmam Baqir (əleyhis-salam) özü barədə xəbər vermiş və demişdir ki, onların hərəkatı həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna yaxındır. O həzrətin, həzrət Məhdi (əleyhis-salam)-ın köməkçiləri sırasında olmasına şiddətli əlaqəsi və arzusu da bunu bəyan edir. Bununla belə, necə təsəvvür etmək olar ki, İmam (əleyhis-salam)-ın məqsədi camaatı ölümdən qorxutmaq, müjdəsini verdiyi şəxslərə kömək etməkdən saxlamaq olsun?! Xüsusilə, bunu nəzərə alaq ki, onlara kömək etmək, müxtəlif rəvayətlərdə qeyd olunduğu kimi, hər bir müsəlmana vacibdir. Rahatlıq axtaran belə şəxslərin təfsiri – hətta

İmam (əleyhis-salam)-ın məqsədində şəkkin varlığına, sadəcə olaraq onun məqsədinin başqaları deyil, o həzrətin olmasına sadəcə ehtimal verməklə, yenə də düzgün deyildir. Çünki bu məsələnin sadəcə onun özünə aid olması ehtimalı səbəb olacaqdır ki, başqaları özlərinə görə ona istinad edə bilməsinlər.

Peyğəmbər (səllallahu ələyhi və alihi və səlləm)-in buyurduğu *"Şərqdən gələn qara bayraqlılar"* və *"hətta qarın üzərində sürünməklə olsa belə, onların köməyinə getməlisiniz"* rəvayətindəki incəliklərdən biri də aşağıdakı hadisədir:

Tunisin böyük alimlərindən olan Şeyx Məhəmməd Saleh Neyfər qış fəslində, hər yerin donduğu bir zaman İrana səfər etmişdi. Bir gün mehmanxananın həyətində ayağı sürüşdü və buzun üstünə yıxıldı. Onun dostlarından biri deyir: Onu qaldırmaq istədikdə, mənə dedi: "Bu işi görmə, bir az səbir et. Özüm qalxmaq istəyirəm." Sonra əllərinin köməyilə yerindən hərəkət edərək ayağa qalxdı və dedi: "Hər vaxt biz həzrət Məhdi (əleyhis-salam)-ın özü və köməkçiləri barəsində olan bu rəvayəti oxuyuruqsa, Peyğəmbər (səllallahu ələyhi və alihi və səlləm)-in buyurduğu *"onlara kömək etməyə tələsin"* cümləsinə çatanda fikirləşirik ki, həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) Məkkədən zühur edəcək, orada ki, buz və qar yoxdur ki, Peyğəmbər bizə bu tə'birlərlə əmr etmişdir?! Amma hal-hazırda Peyğəmbərin buyurduğu kəlamın mə'nasını anladım. Buna görə də çalışdım ki, buzun üzərində öz əllərimlə hərəkət edib özüm qalxım." Həmin şəxsdən eşitdim ki, o alim Peyğəmbəri-Əkrəm (səllallahu ələyhi və alihi və səlləm)-in bu barədə buyurduğu rəvayətə haşiyələr yazmışdır ki, onun təqvasını, Peyğəmbəri-Əkrəmi təsdiqləməsini və o həzrətin verdiyi qeybi xəbərlərə təslim olduğunu göstərir.

**XORASANDAN GƏLƏN BAYRAQLILAR – QÜDSƏ QƏDƏR RƏVAYƏTİ**

Bu rəvayəti sünnü alimlərindən bir çoxu: Termizi "Sünən" kitabında (3-cü cild, səh.382), Əhməd ibni Hənbəl "Müsnəd" kitabında, İbni Kəsir "Nihayə" kitabında, Beyhəqi "Dəlail" kitabında və s. nəql etmişlər. Həzrəmi öz kitabında İbni Xəldunu rədd edərək onu səhih hesab etmişdir (və o rəvayətin müvəssəq olduğunu təsdiqləmişdir). Həmin hədisin sözləri belədir: *"Xorasandan qara bayraqlılar xüruc edəcəkdir, heç bir şey onları qaytarmağa qadir olmayacaqdır. Nəhayət bayrağı İlyada yelləndirəcəklər."*

Bu rəvayətin oxşarı şiə mənbələrində də, o cümlədən, İbni Tavusun "Məlahim və fitən" kitabında (səh.43 və 58) rəvayət olunmuşdur. Ehtimal üzrə, bu rəvayət əvvəlki rəvayətin bir hissəsidir.

Onun mə'nası da tamamilə aydındır. Çünki iranlı qüvvələrin Qüdsə tərəf irəliləməsini göstərir və "İl" və "İlya" kimi qeyd olunur. "Məcməül-bəhreyn" kitabında qeyd edilir ki, إيل "İl" ibri, yaxud siryani dilində mütəal Allahın adlarından biridir və ərəb dilində işlənən Cəbrail, Mikail və İsrafil kəlmələrində "Allahın bəndəsi" mə'nasına gəlmişdir. "İl", Beytül-müqəddəs mə'nasına da gəlmişdir. Demişlər ki, "Beytü İl" – Allahın evi mə'nasınadır. Çünki ibrani dilində "İl" Allah deməkdir.

"Şərhu-qamus" kitabında deyilir: "İliya Beytül-müqəddəsdə bir şəhərin adıdır." Hədislərdə aşkar şəkildə demişlər ki, və'dəsi verilən bu bayraqlar Abbasilərin bayraqları deyildir. İbni Kəsir özünün "Nihayə" kitabında bu rəvayətə haşiyə yazaraq demişdir: "Bu bayraqlar Bəni-Üməyyə hökumətini devirmək üçün Əbu Müslüm Xorasaninin vasitəsilə qaldırılan bayraqlar deyil, məqsəd digər qara bayraqlılardır ki, həzrət Məhdi (ərvahuna fidah)-la yanaşı gələcəklər."

Hətta Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunan bə'zi rəvayətlərdə əsas hədəfləri Dəməşq olan Abbasi bayraqları ilə məqsədləri Qüds olan həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərinin bayraqları arasında fərq qo-yulmuşdur. O cümlədən, İbni Həmmadın Məhəmməd ibni Hənəfiy-yədən və Səid ibni Müseyyibdən nəql etdiyi hədisdə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: *"Bəni-Abbasdan olan bayraqlar məşriq tərəfdən xüruc edəcək, Allahın iradə etdiyi vaxtda dayanacaqlar. Bundan sonra onların ardınca şərq tərəfdən kiçik qara bayraqlılar xüruc edərək Əbu Süfyanın nəslindən olan bir kişi və onun ordusu ilə mübarizə aparacaqlar. Onlar Məhdiyə itaət etməyə meyilli olanlardır."*

Bəni-Abbas sə'y göstərirdi ki, qara bayraq rəvayətini özlərinin xeyrinə və Bəni-Üməyyənin əleyhinə olan bir hərəkat kimi izah etsinlər. Onlar camaata təlqin edirdilər ki, onların qaldırdıqları bayraqlar, başladıqları hərəkat və qurduqları hökumət Peyğəmbərdən nəql olunan və müjdəsi verilən və'dələrdir, Məhdi də onların xanədanındandır. Məhz buna görə Əbu Cə'fər Mənsur Abbasi öz oğlunun adını Məhdi qoymuşdu. O, çalışırdı ki, qazilər və ravilər həzrət

Məhdi (ərvahuna fidah)-ın Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-dən nəql olunan sifətlərinin öz oğluna uyğun gəldiyini qeyd etsinlər.

Abbasilərin məhdilik iddiası ilə qara bayraq götürmək və qara paltar geyməmləri tarix kitablarında nəql olunmuşdur. Bu iş əvvəllər müəyyən qədər onların xeyrinə qurtardı, lakin bu aldadıcı və hiyləgər planlar çox sür'ətlə ifşa olundu, alimlər, ravilər və İmamlar bunların hiylələrini açıb ifşa etdilər. Bundan sonra həqiqət aydınlaşdı. Çünki onlardan heç birində həzrət Məhdi (ələyhis-səlam) sifətləri yox idi. Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in və'də verdiyi işlər də onun əli ilə həyata keçmədi. Əksinə, nəql olunduğu kimi, Abbasi xəlifələrinin sonuncusu e'tiraf edirdi ki, onların ata-babalarının məhdilik iddiaları kökündən saxta və qondarma olmuşdur.

Zahirən, məhdilik iddiası hadisəsi 1-ci hicri əsrinin əvvəllərində baş verən hərəkata çox oxşayır. O zaman ki, müsəlmanlar Bəni-Üməyyənin ağır işgəncələrinə düçar oldular Əhli-be t (...)-ın məzlumiyyətini əməli şəkildə dərk etdilər. Həmin səbəbə görə də Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-dən Əhli-beyt (ələyhimus-səlam)-ın məzlumiyyətə düçar olacağı və Məhdi (ələyhis-səlam)-ın vücuda gəlməsinə müjdə ilə əlaqədar nəql olunan rəvayətlər onların arasında geniş yayılmağa başladı, bu da çoxlarının – Bəni-Haşimdən və başqalarından – məhdilik iddialarına münasib şərait yaratdı. O cümlədən, Musa i ni Təlhət ibni Übeydullahı qeyd etmək olar. Zahirən, Əbd ah ibni Həsən Müsənna son dərəcə məharətli adam idi ki öz oğ lə əmməd üçün məhdilik iddiası etmiş, öz oğlu üçün uşaqlıq dövrlərindən e'tibarən dəqiq proqramlar tökmüş və onun adını ə əmməd qoymuşdu (çünki həzrət Məhdi (...) də Pe 'ğəm ər (...)-lə eyni addadır). Sonra onu xüsusi tərbi ə ilərin əzarəti altında böyütmüş, onu camaatın gözündən gizli saxlamış . Öz övladı ilə əlaqədar çoxlu əfsanələr yaydı və onu və'də i e ə Məhdi kimi təqdim etdi. "Məqatilut-talibiyyin" kitab da sə 239 belə qeyd olunmuşdur: "Əbdüllah ibni Həsən lüsənnanı uşaqlıq vaxtlarından camaatın gözündən uzaqda saxlayırdılar. O, camaatı özünün təbliğatı üçün başqa yerlərə göndərir və onu ləhdi adlandırırdı."

Həmin kitabın 244-cü səhifəsində yazılır: "Avam camaat onu Məhəmməd deyə çağırırdılar ki, sonradan Məhdi adı ilə şöhrət tapdı."

Abbasilər də özlərinin Həsəni həmpeymanlarının əleyhinə qiyam etməzdən qabaq həmin iddianı geniş yayırdılar. Qeyd olunan kitabda

(səh.239) Ümeyr ibni Fəzl Xəs'əmidən belə rəvayət olunur: "Bir gün Əbu Cə'fər Mənsuru gördüm. Məhəmməd ibni Əbdüllah ibni Həsən Müsənna atasının evindən çıxdığı zaman onun qara qulamı atın yüyənindən yapışıb qapının ağzında durmuş, Əbu Cə'fər Məhəmmədi gözləyirdi. O, evdən çıxan kimi Əbu Cə'fər ayağa durdu, onun əbasından tutdu ki, ata minsin. Sonra yəhərin üstündə onun paltarını səliqəyə saldı. Məhəmməd oradan çıxıb getdi. Mən onu tanıyırdım, amma Məhəmmədi tanımırdım. Mən soruşdum: "Bu kim idi? Hamı ona hörmətlə yanaşır, ata minməyinə kömək edir, paltarını səliqəyə salır." Mənə dedi: "Onu tanımırsanmı?" Dedim: "Xeyr!" Dedi: "Bu, biz Əhli-beytin Məhdisi Məhəmməd ibni Əbdüllah ibni Həsən ibni Həsəndir."

Güclü ehtimala görə, Abbasilər Bəni-Üməyyənin əleyhinə qiyam etməkdə məhdilik iddiasını özlərinin Həsəni həmpeymanlarından öyrənmişdilər ki, burada onun barəsində ətraflı söhbət açmağa macal yoxdur.

Tarixdən agah olanların və ravilərin nəzərində şəksiz bir məsələdir ki, bu və başqa rəvayətlərdə və'dəsi verilən qara bayraqlılar həzrət Məhdi (ərvahuna fidah)-ın zühurunun müqəddimə işlərini yaradan bayraq sahibləridir, hətta Bəni-Abbas bayraqlılarını ünvanlayan rəvayətlərin səhihliyinə inansaq belə. Çünki mülahizə etdiyiniz kimi, bu rəvayətlər iki qrupdan olan bayraq sahibləri arasında fərq qoymuşdur. Həqiqət bundan ibarətdir ki, həzrət Məhdi (əleyhis-salam)-ın zühuru Abbasilərin və onlardan başqalarının arasından deyildir. Digər tərəfdən də işarə etdik ki, qara bayraqlı Abbasilərin hədəfi Dəməşq, həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərinin hədəfi isə Beytül-müqəddəsdir.

Bu rəvayətlərdə qara bayraqlılar hadisəsinin müxtəsər şəkildə qeyd edilməsinə, Qüdsə çatmaq yolunda ağır və gərgin vəziyyətlərin yaranmasının deyilməsinə baxmayaraq, eyni halda hədəfə çatmaq müjdəsi verilmişdir.

Bu hadisənin nə vaxt baş verəcəyi bu rəvayətdə qeyd olunmur. Amma digər rəvayətlərdə qeyd olunur ki, bu bayraqlılara və'dəsi verilən Saleh ibni Şüeyb rəhbərlik edəcəkdir. Məhəmməd ibni Hənəfiyyədən belə nəql olunur: *"Bəni-Abbasdan qara bayraqlılar xüruc edəcək, ondan sonra ona oxşar olan digər bayraqlılar xaric olacaqdır ki, onları daşıyanlar qara paltar geymiş, başlarına qara papaq qoymuşlar. Onların arasında Bəni-Təmim qəbiləsindən olan*

*Saleh adlı bir şəxs hərəkət edir. O, Süfyaninin tərəfdarlarını məğlubiyyətə uğradıb Beytül-müqəddəsdə düşərgə salacaq və Məhdinin zühuruna şərait yaradacaqdır.*"

Bu rəvayətdən aydın olur ki, Qüdsə hərəkət dedikdə Məhdi (ərvahuna fidah)-ın Fələstini və Qüdsü azad etmək üçün tədarük gördüyü hücum nəzərdə tutulur. Amma bunun heç bir maneəsi yoxdur ki, bu bayraqlar Saleh ibni Şüeybdən qabaq Qüdsə tərəf hərəkət etmiş olsunlar. Şam hadisələrində qeyd etdiyimiz kimi, iranlı qüvvələr Süfyanidən qabaq Şama daxil olacaqlar.

## TALİQAN RƏVAYƏTİ

Sünnü mənbələrində İmam Əli (əleyhis-salam)-dan belə nəql olunur: *"Xoş olsun Taliqanın halına! Mütəal Allahın orada çoxlu xəzinələri vardır ki, nə qızıldır, nə də gümüş. Amma o məntəqədə elə kişilər vardır ki, Allahı layiqli şəkildə tanımışlar. Onlar axirəz-zamanda Məhdinin köməkçilərindəndir."*[1] Digər bir rəvayətdə isə: *"Mübarək olsun, mübarək olsun Taliqana!"*[2]

Həmin rəvayət şiə mənbələrində də başqa ibarələrlə mövcuddur. "Biharul-ənvar"da sənədlərlə – Əli ibni Əbdül-Həmidin "Süruru əhli-iman" kitabından nəqlən – İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Mütəal Allahın Taliqanda çoxlu xəzinələri vardır ki, nə qızıldır, nə də gümüş. Əvvəldən indiyə qədər açılmamış və yellənməmiş bayraqlar... Bu məntəqədə elə insanlar vardır ki, qəlbləri dəmir parçaları kimi möhkəmdir. Allah-taalanın müqəddəs zatı barədə onların qəlblərində heç bir şəkk-şübhə yoxdur. Onlar atəşdən də şiddətlidirlər, əgər dağa həmlə etsələr, onu öz yerindən qoparar, əllərində bayraq tutaraq hər yerə üz gətirsələr, oranı dağıdarlar. Onlar atlarının üzərinə qartal (şahin) kimi səvar olar, İmamın miniyinin üzəngisini təbərrük ünvanı ilə öpər və ona əl sürtər, pərvanə kimi o həzrətin başına dolanar, təhlükə zamanı öz canlarını sipər edərək o müqəddəs vücudu qoruyarlar. Gecələri münacatla keçirər, gündüzləri atlara minərlər. Onlar gecənin zahidləri, gündüzün şirləridir. İmamlarına və rəhbərlərinə itaət etməkdə kənizlərin öz ağalarına itaət etməsindən daha mütidirlər. Onların üzləri nurlu çıraqlar kimidir, sanki qəlblərində imandan bir çıraq vardır. Allah qorxusundan vəhşət edər və Onun yolunda qətlə*

---

[1] "Əl-havi", Süyuti, 2-ci cild, səh.82; "Kənzül-ümmal", 7-ci cild, səh.262.

[2] "Yənabiul-məvəddət", Qunduzi, səh.349.

*yetirilib şəhid olmağı arzu edərlər. Onların şüarları həzrət Hüseyn (əleyhis-salam)-ın intiqamını almaqdır. Hücum edib irəli keçdikləri zaman icad etdikləri qorxu və vəhşət bir aylıq yoldan düşmənlərin qəlbinə nüfuz edər. Dəstə-dəstə o həzrətə tərəf yola düşərlər. Allah-taala bu alicənab insanların vasitəsilə haqq İmama (Məhdiyə) qələbə nəsib edər."*[1]

Mənim nəzərimcə, bu rəvayətlərdə Taliqan dedikdə, Elbrus silsilə dağlarının ətəyində – Tehranın şimali-qərbinin 100 km-də yerləşən, çoxlu kəndlərdən təşkil və Taliqan adı ilə məşhur olan bir məntəqə nəzərdə tutulur. Qeyd olunmalıdır ki, qədim dövrlərdən Taliqan əhalisində çoxlu müsbət xüsusiyyətlər, o cümlədən səfa-səmimiyyət, təqva, Qur'ana məhəbbət və onu başqalarına öyrətməyə maraq vardır, hətta İranın şimalında yaşayan əhalinin çoxu və başqaları da müxtəlif münasibətlərlə əlaqədar (məs; Qur'an müəllimi seçməkdə, yaxud həmişəlik orada qalmaq üçün) onların yanına gedirlər.

Taliqanla əlaqədar nəql olunan rəvayətlərin araşdırılmasından sonra mühüm məsələ budur ki, "Taliqan əhli" dedikdə, yalnız xüsusi coğrafi mövqeyə malik olan Taliqan deyil, ümumi şəkildə İran əhli nəzərdə tutulur. İmamlar da məhz Taliqan əhalisinin dini-əxlaqi səciyyələrinə və coğrafi xüsusiyyətlərinə görə onların əhalisini bu yerin adı ilə adlandırmışlar.

Taliqanla əlaqədar olan rəvayətlər həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərinin məcmuəsindən söhbət açır. Amma onların sayı dəqiq qeyd edilməmişdir. Buna görə də, bu məcmuənin o həzrətin ordusu və köməkçilərinin cəmiyyəti, yoxsa onun xüsusi köməkçiləri ilə əlaqədar olması barəsində fikir ayrılığı mövcuddur. Amma sünnü mənbələrində nəql olunan rəvayətlərdən mə'lum olur ki, onlar həzrət Məhdi (ərvahuna fidah)-ın xüsusi köməkçiləri və səhabələridir. Çünki rəvayətdə onların növü müəyyən edilmişdir. "Biharul-ənvar"da qeyd edilən rəvayətdə onların keyfiyyətindən əlavə, "fateh bayraqlılar ordusu"nun kəmiyyət və keyfiyyətdən də söz açılmışdır. Çünki Taliqanla əlaqədar rəvayətlərdə iranlılar həzrət Məhdi (əleyhis-salam)-ın kənarında təqdim edilir və həzrətin zühurdan sonrakı hərəkatda onların iştirak etmələri vurğulanır, lakin o həzrətin zühurundan qabaq, zühura şərait yaratmaqla əlaqədar ifa edəcəkləri rola dəlalət etmir.

Amma həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərinin və bu İlahi övliyaların xüsusiyyətləri və İmamların onların barəsində şəhadət vermə-

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.307.

lərinə gəldikdə isə, İmamlar onları *"İlahi ariflər"*, *"bəsirət və yəqin əhli"* və *"müharibə meydanında misilsiz şücaətlilər"* kimi vəsf etmiş və qeyd etmişlər ki, taliqanlılar Allah yolunda şəhadət arzusu edir və dua edərək Ondan istəyirlər ki, bu böyük feyzə nail olsunlar. Onlar Seyyidüş-şühəda həzrət Hüseyn (əleyhis-salam)-ı həqiqi mə'nada sevənlərdir. Onların şüarları da "İmam Hüseyn (əleyhis-salam)-ın intiqamını almaq"dır və o həzrətin böyük inqilabını hədəfə çatdırmağa israr edəcəklər. Onların həzrət Məhdi (ərvahuna fidah)-a olan e'tiqadları həddindən artıq dərin, İmama göstərdikləri eşq və məhəbbət də son dərəcə artıqdır. Onların belə xüsusiyyətləri cavanlarının arasında eşq-məhəbbət dalğaları yaratmışdır.

## ZƏMİNƏ YARADANLAR LA ƏLAQƏDAR OLAN RƏVAYƏTLƏR ZÜHUR DÖVRÜNÜN BAŞLANĞICINA DƏLALƏT EDİRMİ?

İranlıların zühur dövründə ifa edəcəkləri rol barədə nəql olunan rəvayətlərə diqqət yetirdikdə iki mühüm nəticə əldə edilir:

Birincisi: İranlıların tə'rifində Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) və mə'sum İmamlar (əleyhimus-salam)-dan yəqin şəkildə rəvayətlər nəql olunmuşdur. Hərçənd İslam bayrağını çiyinlərinə almaq, elm və mədəniyyətə xidmət etmək və s. barədə olan rəvayətlərin onlara tətbiq olunmasında millətçiliyə və irqçilik siyasətlərinə yol verilməsini deyərək təhqiq aparsaq da belə, müstəfiz rəvayətlərdə onların rolunda – Həzrət Məhdi (əleyhis-salam)-ın hökumətinə müqəddimə yaratmaqla əlaqədar ifa edəcəkləri rolda heç bir münaqişə edə bilmərik. Çünki bu rəvayətlər aşkar şəkildə göstərir ki, İslam aləmində *"liyuzhirə ələd-dini kullih"* kimi ayələrdə və'dəsi verilən dünya səviyyəli zühur zəmanənin axırında iki səmtdən Beytül-müqəddəsə doğru hərəkətlə həyata keçəcəkdir. Biri İrandan çox saylı qoşunlarla başlanan ümumi səfərbərlikdir ki, onlar da Əhli-beyt (əleyhimus-salam)-ın vilayətini və onlara dostluğu qəbul edirlər. İkinci hərəkət də Məkkeyi-mükərrəmədən və Hicazdan başlanacaqdır. Beləliklə, hər iki dəstə İraqda bir-birinə qarışıb İmam Məhdi (əleyhis-salam)-ın rəhbərliyi ilə Qüdsə doğru irəliləyəcəklər.

İkincisi: Biz hal-hazırda rəvayətlərdə vəsf olunan zühur dövrünə daxil olmuşuq. Onun birinci mərhələsi iranlıların hərəkatıdır ki, o həzrətin zühurunun müqəddiməsi Qumdan olan bir kişinin – İmam Xomeyninin vasitəsilə başlanmışdır. Bu inqilab özünün son hədəfini – Qüdsün azad edilməsi və İsraillə müharibə – bütün dünyaya e'lan etmişdir, indi isə düşmənlər tərəfindən onların hərəkət yolları üzə-

rində icad edilən çətinliklərlə qarşılaşmışlar. Bu İlahi inqilabın davam etməsi yalnız öz rəhbərləri olan o iki şəxsin intizarındadır: birincisi Xorasanlı Seyyid, digəri isə Rey əhlindən olan buğdayı cavandır ki, bütün qüvvəllərin sərkərdəliyini öhdəsinə alacaqdır. Rəvayətlərdə onun adı Şüeyb ibni Saleh, bə'zən isə Saleh ibni Şüeyb kimi qeyd olunmuşdur. Xorasanlı Seyyid onu iranlı qüvvələrin ilk sərkərdəsi tə'yin edəcək, sonra həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) onları özünün bütün iftixarlı qüvvələrinə başçı seçəcəkdir.

Əlbəttə, İranda İslami inqilabın əvvəli ilə eyni zamanda həzrət Məhdi (ərvahuna fidah)-ın zühur zamanının başlanması əsaslı bir bəhs olub araşdırılmalıdır. Həmin səbəbə görə də indi onun dəlillərini qısa şəkildə bəyan edirik:

Bə'zən deyilir ki, bəli, o həzrətin mübarək zühuru danılmaz və qəti bir məsələdir, ona e'tiqad bəsləmək şiələrin əsas e'tiqadi prinsiplərindəndir. Şiə və sünnülərin nəzərində belə bir əqidə Allahın və'də verdiyi bir məsələdir ki, Peyğəmbərin və İmamların dövründə bəyan edilmişdir. Belə ki, şiə və sünnü mənbələrində danılmaz hadisələrdən biri o həzrətin zühuruna şərait yaradanların iranlılardan ibarət olmasıdır. Amma iranlıların rəvayətlərdə aşkar bəyan edilən bu xüsusiyyətləri o iki böyük şəxsiyyətin – Xorasanlı Seyyid və Şüeyb ibni Saleh–zahir olması ilə başlanacaqdır. Şiə hədis mənbələrində bu iki şəxs Süfyani və Yəməninin qiyam etməsilə eyni zamanda zahir olacaqdır, sünnü mənbələrində isə onların zahir olması ilə İslam bayrağının o həzrətin qüdrətli əlinə təqdim etmələri arasında 72 ay, yə'ni 6 il fasilə olacaqdır. Amma İmam Xomeyninin rəhbərliyi ilə İranda baş verən hazırkı İslam inqilabının, və'dəsi verilən zühura müqəddimə işlərindən olması, onun həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna birləşməsi, yaxud o həzrətin zühuruna nisbi şəkildə yaxın olması kimi məsələlər, eləcə də Seyyid Xorasani və Şüeyb ibni Salehin zühur etməsi elə bir məsələdir ki, buna sadəcə ehtimal verilir. Biz də onun həyata keçməsini arzu edirik. Amma bu inqilabla əlaqədar varid olan, yaxud ona təfsir edilən rəvayətlərə müraciət edərkən gümandan başqa bir şey əldə olunmur. Buna əsasən, bu inqilab ilə zühurun arasında onlarla, yaxud yüzlərlə əsr keçəcəyi ehtimalı öz qüvvəsində qalır.

Bu qeyd olunanlar o həzrətin zühurunun başlanğıcına hökm etmək barəsində tutulan iraddan ibarət idi. Qeyd olunmalıdır ki,

“həzrətin zühur dövrü” dedikdə məqsədimiz 20 il, yaxud hər hansı məhdud müddət deyildir, əksinə məqsəd budur ki, rəvayətlərdə aşkar şəkildə qeyd olunduğu kimi, bunlar həzrətin zühurunun müqəddimə işlərindəndir və ona birləşəcəkdir. Həqiqətdə isə bu dövr artıq başlanmışdır. Xüsusilə onların arasında iki hadisəni qeyd etmək olar:

Birincisi: Şərqlə qərbin fitnə-fəsad yaratmalarıdır ki, bütün müsəlmanları əhatə edir. Digər bir fitnə də rəvayətlərdə “Fələstin fitnəsi” kimi qeyd olunur ki, bu da böyük qüdrətlərin törətdikləri şər və fitnələrin nəticəsidir.

İkincisi: İranda İslam hökumətinin bərqərar olunmasıdır.

Deməli, “zühur dövrü” dedikdə məqsəd, bizim sözlərimizin adi camaat arasında düşünülən mə’nasıdır, yə’ni İsrailin məğlubiyyətə uğrayacağı dövr, yaxud inqilablar əsri, yaxud da İslamın cilvələnməsi dövrüdür ki, onu “zühur əsri”, yaxud “zühura münasib olan nəsil” adı ilə qeyd etmək olar. Çünki İmam Baqir (əleyhis-salam)-dan nəql olunan rəvayətdə o həzrət İran inqilabı ilə Məhdi (əleyhis-salam)-ın zühuru arasındakı fasiləni bir insanın adi ömrü qədər hesab etmişdir. Belə ki, buyurulur: *“Əgər o dövrə çatsam, özümü bu əmrin sahibinə kömək etmək üçün saxlayardım.”*

Zühur əsrinin əvvəlinə dəlalət edən rəvayətlər olduqca çoxdur. İcmali təvatür həddinə çatan bu rəvayətlər məcmuəsində müəyyən qədər dəqiq araşdırmalar apardıqda, onların yaşadığımız hazırkı əsrə və onda baş verən hadisələrə uyğun gəlməsi barədə xatircəmlik hasil və hətta iddia etmək olar ki, bu rəvayətlərin bə’ziləri təklikdə zühur əsrinin başlanmasına dair xatircəmlik hasil edilməsi üçün kifayətdir.

Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in xəbər verdiyi – o həzrətin ümmətinin düçar olacağı və bundan sonra həzrət Məhdi (ərvahuna fidah)-ın zühuru qeyd olunan sonuncu fitnə rəvayətini israillilərin törətdiyi karlıq və korluq fitnəsindən başqa bir şeylə izah etmək olarını?! Halbuki, Fələstin fitnəsi də onun nəticəsidir. Bu, rəvayətlərdə “Şam fitnəsi” adı ilə qeyd olunur: *“Fələstin fitnəsi yaranan zaman Şam diyarı da suyun tuluqda hərəkətə gəlməsi kimi hərəkətə gələr.”*[1]

Bu fitnə xüsusi şəkildə Fələstinə əhatəsi olan Şama nüfuz edəcək, oranın əhalisini suyun tuluqda çalxalanması kimi şiddətlə hərəkətə gətirəcəkdir.

[1] “İbni Həmmadın əlyazması”, səh.63.

"İcmali təvatür" həddində nəql olunan sonuncu bu rəvayəti və bu fitnənin nəticəsi olan Fələstin və Şam fitnəsini dəqiq şəkildə araşdırmaqla, İslam ümmətinin tarixinə və onların mövcud şəraitlərinə diqqət yetirməklə aydın olur ki, bu rəvayətlərdə fitnə dedikdə, məqsəd şərq-qərb qüdrətlərinin törətdiyi bu günkü fitnələrdir ki, rəvayətlər onun həzrət Məhdi (aleyhis-salam)-ın zühuruna qədər davam edəcəyinə dəlalət edir. "Şərq-qərb fitnəsi" fəslində qeyd etdiyimiz rəvayətlər bu zəmində olan onlarla rəvayətlərdən bir qismidir. Bu barədə nəql olunan ən qəribə rəvayət isə, Fələstin fitnəsidir ki, rəvayətlərdə xüsusi əlamətlərlə varid olmuşdur.

Bunları hər cür təfsir və təhlil etsək belə, Xorasani Seyyid və Şüeyb ibni Salehin zahir olması ilə əlaqədar rəvayətlərdən aydın olur ki, bu iki dahi şəxsiyyət İranda İslam hakimiyyətinin qurulması və düşmənlə uzun müddətli müharibə aparılmasından sonra zahir olacaq, hökumət mənsəblərini ələ keçirməklə orduya rəhbərliyi şəxsən öhdələrinə alacaq və Fələstində müqəddəratı həll edən müharibədə – bu da həzrət Məhdi (aleyhis-salam)-ın zühuruna şərait yaradacaqdır – düşmənlə qarşılaşacaqlar. İndi belə bir sual yaranır ki, görəsən, zahir olan bu iki böyük şəxsiyyət birbaşa və heç bir müqəddimə olmadan öz ordu və millətlərinə rəhbərlik edəcəklərmi? Əsla! Əksinə, rəvayətlərdə aşkar şəkildə qeyd olunan belə bir zühur münasib zəmin və İran əhalisində kamil hazırlığın yaranması ilə şərtlənir; dünyada və şərq ölkələrində yalnız dini və e'tiqadi yöndən deyil, əksinə münasib siyasi şərait də mövcud olmalıdır. Bu da o həzrətin tərəfdarları olan iranlılarla onların düşmənləri arasında müharibənin başlanmasına şərait yaradacaqdır. Məhz buna görə də rəvayətlərdə qeyd olunur ki, iranlılar müharibənin uzanacağını hiss etdikləri zaman Xorasanlı Seyyidin ardınca gedib onu özlərinə rəhbər seçəcəklər. O əvvəldə qəbul etməyəcək, lakin sonradan qəbul edib işlərin idarə olunmasını öhdəsinə aldığı zaman digər köməkçisini – Şüeyb ibni Salehi öz qoşunlarına sərkərdə tə'yin edəcəkdir.

Şiə mənbələrində İmam Baqir (aleyhis-salam)-dan nəql olunan və İran İslam inqilabına uyğun gələn bu rəvayəti necə yozmaq olar: *"Sanki bir qrupu görürəm: onlar şərqdən qiyam edərək öz haqlarını tələb edəcəklər, lakin onlara e'tina edilməyəcəkdir. Yenidən öz istəklərinə tə'kid edəcəklər, lakin müxaliflər qəbul etməyəcəklər. Vəziyyəti belə gördükdə qılınclarını (silahlarını) çiyinlərinə qoyaraq, düşmən*

*müqabilində dayanacaqlar. Bu zaman onların istəklərinə cavab veriləcək, lakin bu dəfə özləri istəməyəcək, nəhayət hamılıqla birlikdə qiyam edəcəklər. Onlar hidayət bayraqlarını sizin sahibinizin qüdrətli əlindən başqa bir kimsəyə verməzlər. Onların öldürülənləri şəhid hesab olunur. Əgər mən o dövrə çatsaydım, özümü bu əmrin sahibinə kömək etmək üçün saxlayardım."*

Başqa bir rəvayətdə isə belə deyilir: *"Onlar mübarizə edib qələbə çalarlar, istədikləri şeyə nail olarlar, lakin özləri qəbul etməzlər."*

Bu rəvayət İranın hazırkı hərəkatına uyğun gəldiyi halda nə üçün onu başqa yerə yozmalıyıq?! Halbuki Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) və İmamlar iranlıların gələcəkdə mühüm bir hərəkat yaradacaqlarını xəbər vermişlər? Görəsən hazırkı bu hərəkat ola-ola, həmin xüsusiyyət və siyasi şəraitlərə malik olan, amma əsrlər sonra baş verəcək hansısa hərəkatla uyğunlaşdıra bilərikmi? Belə bir təfsiri sağlam bir əql qəbul edərmi?

Qum və onun dünya səviyyəsində ifa etdiyi rolla əlaqədar rəvayətlər Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-dən və İmamlardan (əleyhimus-salam) nəql olunduğu halda, onları başqa mə'nalara necə yozmaq olar, halbuki rəvayətlərdə bu şəraitin həzrət Məhdi (ərvahuna fidah)-ın zühuruna ən yaxın olan dövrdə yaranacağını, və'dəsi verilən bir şəxsin (İmam Xomeyninin) də bu şəhərdən zahir olacağı və'də verilmişdir?!

Rəvayətdə deyilir ki, onun vəfalı köməkçiləri nə müharibədən qorxar, nə də usanarlar. Biz hazırda bu şəhərin mövcud şəraitini görürük: dünənə qədər onda elmiyyə hövzələrinin varlığı ilə zəif bir şəhər idi, onun mə'nəvi tə'siri yalnız şiə dünyasına və şiələrin içində də dindarlara aid idi.

İndi isə bu şəhərin adı, qiyamı, tutduğu üslub və İslamı təqdim etməkdə ifa etdiyi rol bütün dünya xalqlarının qulağına dolmuşdur. Onun proqramları, ifa etdiyi rollar bütün İslam xalqlarının qəlbinə nüfuz etmiş, elm və bilik bu şəhərdən sair müsəlman ölkələrinə yayılmışdır.

Buna əsasən, Qumun əzəməti və mövqeyi, o şəhərdə baş verən inqilaba dəlalət edən rəvayətlər və və'dəsi verilən şəxsin varlığı, İmam Xomeyni və onun tərəfdarlarının bu şəhərdən qiyama başlaması və ona rəhbərlik etməsini görə-görə onu onlarla ildən, yaxud əsrlərdən sonra vücuda gələcək bir siyasi şəraitlə uyğunlaşdırmaq və belə bir şəxsin həmin dövrdə zühur edəcəyini,

onun tərəfdarları və qurduğu hökumətin də həmin xüsusiyyətlərə malik olacağını demək ağlasığan bir işdirmi?! Belə təfsir etdikdə, hazırkı mövcud şəraitə göz yummalı olarıq!

Əgər Qumdan və'dəsi verilən şəxsin barəsində belə bir mətləb düzgün olarsa, onda Qum şəhəri barəsində və'də verilmiş dünya səviyyəli mövqe ilə əlaqədar rəvayətlər necə səhih ola bilər?! Bu mövqeyin o həzrətin zühuruna yaxın dövrlərdə yaranıb zühura qədər davam etməsinə dəlalət edən bu iki rəvayətlə nə etmək olar: *"Və o (mövqe) bizim Qaimimizin zühuruna yaxındır, Allah Qumu və onun əhalisini həzrət Höccətin qaim-məqamı qərar verər."* Digəri isə: *"o, bizim Qaimimizin qeybət dövründən zühur dövrünə qədər qalacaqdır."*?! (Belə ki, bu hədislər əvvəldə "Biharul-ənvar"da (60-cı cild, səh.213) nəql olunmuşdur.)

Həqiqət bundan ibarətdir ki, Qumda və İranda baş verən hadisələrlə əlaqədar nəql olunan bə'zi rəvayətlərdə münaqişə edilməsi, onların aşkar şəkildə dəlalət etdiyi mə'nadan başqa bir mə'naya yozulması, bir sözlə, bu rəvayətlərin dəlalət və məzmununda şəkk-şübhə yaradılması və onların keçmişdə və hal-hazırda baş verən hadisələrlə uyğunlaşdırılması, Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-in və Əhli-beyt (əleyhimus-salam)-ın təsdiq olunması ilə əlaqədar əqidə zəifliyi və yersiz mühakimədən başqa bir şey deyildir. Əgər insafla mühakimə yürütsək, deməliyik ki, əgər mə'sumlardan "icmali təvatür" şəklində nəql olunan kəlamlardan bu mə'naya dair yəqin və xatircəmlik hasil olmazsa, onda şəkk, tərəddüd və cədəldən xali olmayacaqdır. Allahdan istəyirik ki, bizi və bütün müsəlmanları belə bir haldan qoruyub saxlasın!

**İRANDA XORASANİNİN VƏ ŞÜEYBİN ZAHİR OLMASI**

Rəvayətlərdə deyilir ki, Məhdi (əleyhis-salam)-ın köməkçilərindən olan bu iki şəxsiyyət o həzrətin zühuruna yaxın dövrlərdə İranda zahir olacaq və o həzrətin zühurunda iştirak edəcəklər.

Sünnü mənbələrindən və bə'zi şiə rəvayətlərindən aydın olduğu kimi, bu iki şəxsin ifa etdiyi rol ümumi şəkildə aşağıdakılardan ibarətdir: O zamanda iranlılar düşmənlərlə ədalətsiz və bərabər olmayan bir müharibəyə girişəcəklər, müharibə uzun çəkdiyi üçün Xorasanlı Seyyidi öz işlərinin rəhbəri tə'yin edəcəklər. Bu işə rəğbət bəsləməməsinə rəğmən, onların son dərəcə israrları ilə qəbul edəcəkdir. İranlılara rəhbərliyi qəbul etdiyi zaman silahlı qüvvələr

arasında sıx və mütəşəkkil birlik icad etməklə özünün rəşadətli sərdarını – Şüeyb ibni Salehi silahlı qüvvələrin baş sərkərdəsi tə'yin edəcəkdir.

Beləliklə, Xorasanlı Seyyid və Şüeyb ibni Saleh İran-Türkiyə-İraq sərhədlərindəki müharibəyə rəhbərlik edəcək, özlərinin Şamdakı qüvvələrini irəli aparacaq və həmin dövrdə iki cinahdan – İraq və Şamdan Fələstin və Qüdsə doğru böyük hərəkata tədarük görəcəklər. Belə bir şəraitdə Xorasanlı Seyyid siyasi və hərbi cəbhədə aşağıdakı iki dəyişiklik edəcəkdir:

a) Birincisi, Süfyaninin istilası altında keçən İraq cəbhəsidir. Onun qoşunları İraqı işğal etmək üçün hərəkətə gələcəklər ki, Qirqisiyada ruslarla çarpışacaqlar.

b) İkincisi Hicaz cəbhəsidir. Həzrət Məhdi (əcəlallahu təala fərəcəhuş-şərif) Məkkədə zahir olub bu şəhəri azad etdikdən sonra oranı özünə qərargah seçəcəkdir. Halbuki o dövrdə Hicaz hökuməti "filankəsin xanədanının" tör-töküntüləri və yerli qəbilələrin qüvvələri ilə idarə olunur.

Rəvayətlərdə iranlı qüvvələrin Hicaza necə qoşun yeritməsi qeyd olunmamışdır. Çünki bu əməlin həyata keçməsi iki cəhətdən qeyri-mümkündür:

1-Dünya və məntəqə səviyyəsində mövcud olan siyasi şəraitə görə.

2-Həzrət Məhdi (əleyhis-salam)-ın bu məsələ ilə müvafiq olmaması; ona görə ki, o həzrətə Məkkədə gözləmək mə'muriyyəti verilmişdir ki, Süfyani ora gəlmək fikrinə düşsün, Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in və'də verdiyi yerə batma mö'cüzəsi baş versin və bu da müsəlmanlar üçün qəti bir nişanə olsun.

Əlbəttə, belə bir ehtimal da verilir ki, Xorasanlı Seyyid öz qoşunlarının bir qismini İmam Məhdi (əleyhis-salam)-a kömək etmək üçün Məkkəyə göndərsin. Çünki rəvayətlərdə qeyd olunur ki, o həzrət Süfyani ordularının yerə batmasından sonra 12 min nəfərlik böyük bir qoşunla Məkkədən xaric olacaq. Daha yaxşı nəzər budur ki, bu qüvvələr o həzrətin xüsusi köməkçiləri və özlərini Məkkəyə çatdırmağa müvəffəq olan mö'minlərdən, yəmənli qüvvələrin ilə Xorasanlı Seyyidin oraya göndərdiyi qüvvələrdən bir qismindən ibarətdir.

Xorasanlı Seyyid və Şüeyb ilə əlaqədar rəvayətlərdən aydın olur ki, o, İraq cəbhəsində öz qüvvələrini çarpışma məhəlli olan Qirqisiyanın yaxınlığında – orada Süfyani türklərlə qarşılaşmış olacaqdır –

müharibədə çarpışan tərəf olmadığına görə qoşunlarını oradan keçirmiş olsun.

Qeyd olunduğu kimi, xorasanlı qüvvələr İraqın yaxınlığında olmalarına və Süfyaninin İraqı işğal etmək üçün hərəkət cərəyanında iştirak etmələrinə baxmayaraq, bu ölkəyə daxil olmaqdan çəkinəcəklər. Buna görə də Süfyani ordusu onlardan 18 gün qabaq İraqa daxil olacaq və orada fitnə-fəsad törədib ağır cinayətlərə əl atacaqlar. "İbni Həmmadın əlyazması"nın 84-cü səhifəsində deyilir: "Süfyani Kufəyə daxil olaraq üç gün müddətində şəhəri hamıya mübah edəcək, 60 min nəfəri qətlə yetirəcək və orada 18 gecə iqamət seçəcəkdir... Qara bayraqlılar da oraya gələrək suyun kənarında düşərgə salacaqlar. Onların gəliş xəbəri Kufədə dolaşacaq və Süfyani qüvvələrinə çatacaq. Onlar bu xəbəri eşitməklə qaçmağa üz qoyacaqlar."

Əlbəttə, ehtimal verilir ki, bu qüvvələrin İraqa tə'xirlə gəlmələri onların Fars körfəzində və yaxud başqa yerlərdə düşmənlərlə qarşılaşmaları, yaxud da İran daxilində yaranan iğtişaşları yatırtmaq üçün tə'xirə yol vermələri olsun. Yaxud onun əsas səbəbi siyasi bir məsələ də ola bilər. Belə ki, onlar İraqa daxil olmaq üçün münasib siyasi şərait gözləmiş olacaqlar. İmam Baqir (əleyhis-salam)-dan nəql olunan rəvayət göstərir ki, bu tə'xir hərbi yönə malikdir: *"Nəhayət, Xorasanlı və Süfyani onlara (İraq əhlinə) qarşı qiyam edər və hər ikisi müsabiqədə qaçan atlar kimi, biri bir tərəfdən, başqası isə o biri tərəfdən Kufəyə doğru hərəkət edər."*[1]

Bu rəvayətdəki təşbehdən mə'lum olur ki, onlar münasib hərbi şəraitə tabedirlər və qüvvələrini səfərbər etmək məqsədindədirlər.

İranlıların öz qüvvələrini Mədinəni, yaxud Hicazın sair şəhərini azad etmək üçün həzrət Məhdi (əleyhis-salam)-a tərəf göndərmələrinə gəldikdə isə, bu məsələ rəvayətlərdə qeyd olunmur. Zahirən, bu qüvvələrin oraya göndərilməsinə ehtiyac yoxdur. Buna görə də iranlı qüvvələr İraqa daxil olduqdan sonra o həzrətə bey'ət etməklə kifayətlənəcəklər. Belə ki, aşağıdakı rəvayətdə deyilir: *"Xorasandan qiyam edən qara bayraqlılar Kufəyə gələcək və o həzrətin zahir olması ilə bey'əti yeniləmək üçün onun hüzuruna çatacaqlar."*[2]

Digər tərəfdən, rəvayətlər iranlı qüvvələrin hərəkət edərək İranın cənubunda bir yerə yığışmasına dəlalət edir. Ehtimal üzrə bu, Hicaza

[1] "Biharul-ənvar", 52-ci cild, səh.232.
[2] "Biharul-ənvar", 52-cü cild, səh.217.

doğru olan ümumi hərəkətdən ibarətdir ki, onlar həzrət Məhdiyə qoşulmaq istəyəcəklər: *"Süfyani süvariləri Kufəyə doğru hərəkət edən zaman o, Xorasan əhlinin ardınca adam göndərəcək və xorasanlılar Məhdi (əleyhis-salam)-ı tapmaq qərarına gələcəklər."*[1]

Bə'zi rəvayətlər İran əhalisinin Xorasanlı Seyyidin rəhbərliyi ilə kütləvi şəkildə cənuba hərəkət edərək Əhvazın yaxınlığındakı "Ağ dağ" adlı yerə toplaşmasına dəlalət edir. İmam (əleyhis-salam) da Hicazı azad etdikdən sonra həmin məntəqəyə gələcək, özünün xorasanlı köməkçiləri və ordu üzvləri ilə görüş keçirəcək və elə həmin yerdə o həzrətin rəhbərlik etdiyi qüvvələrlə Süfyaninin qüvvələri arasında ağır müharibə başlanacaqdır. Ehtimal verilir ki, bu çarpışmalar Süfyanini himayə edən qərb dəniz donanması arasında baş versin. Həmin mətləb təsdiq edir ki, Süfyani ilə həzrət Məhdi (ərvahuna fidah)-ın köməkçiləri arasındakı baş verən müharibə müqəddəratı həll edən bir müharibədir ki, bu zaman camaat kütləvi şəkildə o həzrətə köməyə tələsəcəklər: *"Bu anlarda camaat o həzrətə kömək etməyi arzu edəcək və onu axtaracaqlar."*[2]

Bu vaxtdan e'tibarən, Xorasanlı Seyyid və Şüeyb o həzrətin xüsusi köməkçiləri cərgəsində qərar tutacaq, Şüeyb o həzrətin bütün qüvvələrinin baş komandanı tə'yin olunacaq, xorasanlı qüvvələr həmin ordunun özəyini təşkil edəcəklər. O həzrət İraqın daxili vəziyyətini sahmana salacaq, müxalifləri və qiyamçı dəstələri yatıracaq, nəhayət Qüdsü azad etmək üçün Fələstinə doğru hərəkət edəcəkdir.

Bura qədər qeyd olunanlar iranlıların və'dəsi verilmiş iki şəxsiyyətin ifa etdiyi roldan ibarət idi. Bu iki şəxslə əlaqədar bir çox rəvayət sünnü mənbələrində və az miqdarda şiə mənbələrində qeydə alınmışdır. Bu hadisələr məni məcbur etdi ki, Xorasanlı Seyyid və Şüeyblə əlaqədar rəvayətləri şiə mənbələrində yenidən və daha artıq şəkildə araşdırım. Çünki ilk baxışda belə nəzərə çarpırdı ki, bu iki mövzu Abbasilərin Əbu Müslüm Xorasani ilə əlaqədar uydurduqları bir şey olsun. Amma bu mənbələrdə dəqiq araşdırma apardıqdan sonra Xorasanlı şəxsin adının qeyd olunduğu çoxlu səhih sənədli rəvayət tapdım. Əbu Bəsirin İmam Sadiq (əleyhis-salam)-dan nəql etdiyi rəvayət və başqa rəvayətlər Yəməni barəsində söhbət açır. Bə'zi rəvayətlərdə gördüm ki, İmamların səhabələri arasında Xorasanlı ilə əlaqədar

---

[1] "İbni Həmmadın əlyazması", səh.86.
[2] "İbni Həmmadın əlyazması", səh.86.

rəvayətlər – Əbu Müslümün xürucundan və abbasilərin yalançı iddialarından qabaq – daha məşhur imiş.

Deməli, şiə mənbələrində Xorasanlının hərəkatı sabit və danılmazdır. Şiə rəvayətlərində onun üçün bəyan edilən rol sünnü mənbələrində də mövcuddur. Həmçinin onun köməkçisi Şüeyb ibni Salehin hadisəsi də bizim mənbələrimizdə xülasə şəkildə qeyd olunmuşdur. Amma Xorasanlı Seyyidlə əlaqədar rəvayətlər Şüeyblə əlaqədar olan rəvayətlərdən bir çox yöndən güclüdür.

Xorasanlı Seyyid və Şüeyblə əlaqədar çoxlu suallar irəli çəkilir. Onların ən mühümü budur ki, görəsən bu rəvayətlərdə Xorasanlı şəxs dedikdə, müəyyən şəxs nəzərdə tutulurmu, yoxsa İran rəhbəri belə tə'bir olunur və o həzrətin zühuru dövründə vücuda gələcəkdir?

Amma sünnülərin təriqi ilə, eləcə də şiənin son tarixlərdəki mənbələrində Xorasani ilə əlaqədar nəql olunan rəvayətlər aşkar şəkildə dəlalət edir ki, o, İmam Həsən Müctəba (əleyhis-salam)-ın, yaxud İmam Hüseyn (əleyhis-salam)-ın nəslindəndir. O, "Haşimi Xorasani" ünvanı ilə qeyd olunur və onun fiziki xüsusiyyətləri bəyan edilir və deyilir ki, o, nurani simaya malikdir, sağ üzündə və sağ əlində xalı vardır.

Amma şiələrin ən mö'təbər hədis mənbələrində, o cümlədən, "Qeybəti-Nö'mani", "Qeybəti-Tusi" kimi kitablarda bu şəxsin xüsusunda bə'zi rəvayətlər nəql olunmuşdur ki, ehtimal üzrə, onu xorasanlıların köməkçisi, Xorasan əhalisinin rəhbəri və yaxud Xorasan ordusunun sərkərdəsi kimi tə'bir etmək olar. Çünki bu rəvayətlər Xorasani tə'birini yalnız Haşimi Xorasani üçün bir simvol olaraq işlətmişlər. Amma onun şəxsiyyəti ilə əlaqədar nəql olunan rəvayətlərin məcmusu göstərir ki, o, Süfyaninin və Yəməninin qiyamı ilə eyni zamanda zahir olacaq və öz qüvvələrini İraqa göndərəcəkdir ki, onlar da Süfyani ordusunu məğlub edəcəklər.

Bu iki şəxsiyyət barədə yaranan suallardan biri də budur ki, Xorasani və Şüeybin adının qeyri-həqiqi və simvolik ad olması mümkündürmü? Cavabda belə deməliyik: Xorasanlı Seyyid ilə əlaqədar rəvayətlərdə onun adını zikr etməmişlər. Buna əsasən, onun rəmz olmasına heç bir əsas yoxdur, amma onun Xorasana mənsub edilməsi bu mə'naya ola bilər ki, hökmən Xorasan vilayətinin əhalisindən olacaqdır. Çünki İslamın əvvəllərində Xorasana mənsub edilmək, əslində şərq ölkələrinə mənsub edilməkdən ibarət idi ki, həm İrana, həm də onunla qonşu olan sair İslam məntəqələrinə aid edilirdi.

Halbuki, hal-hazırda sovetlər ölkəsinin işğalındadır. Deməli, bu Xorasanlı şəxs həmin hüdudlarda olan məntəqə əhalisindəndir, onun Xorasana mənsub edilməsi də səhihdir. Şiələrin ilk növbəli hədis mənbələrindən aydın olur ki, o, Həsən və ya Hüseyn (əleyhiməs-salam)-ın nəslindən olan bir seyyiddir. Sünnülərin hədis mənbələri də bu mə'naya aşkar dəlalət edir.

Amma Şüeyb ibni Saleh, yaxud Saleh ibni Şüeybə gəldikdə isə, rəvayətlər onun xüsuiyyət və səciyyələrini zikr etmişdir. O, buğdayı, arıq, saqqalı az, bəsirət, yəqin və sarsılmaz iradə sahib olan bir şəxs və məşhur cəngavərlərdən biridir. O, məğlubedilməz bir sərkərdədir, əgər qarşısında bir dağ olsa, onu dağıdıb üstündən keçər. Ehtimal verilir ki, təhlükəsizliyin hifz olunması xatirinə onun adı dəyişilmiş olsun ki, Allahın və'dəsi gerçəkləşsin. Bu da mümkündür ki, onun və atasının adı Şüeyb və Salehə oxşar, yaxud bu iki mə'naya yaxın olsun. Bə'zi rəvayətlərdə onu "Səmərqənd əhli" kimi təqdim edilir. Amma rəvayətlərin çoxunda deyilir ki, o, Rey əhlindən olub Bəni-Təmim qəbiləsinə mənsubdur, yaxud bu qəbilənin Məhrum adlı bir şaxəsinə mənsubdur, yaxud Bəni-Təmim qəbiləsindən olan bir oğlandır. Hər bir halda, əgər bu mətləb səhih olsa, onun əslən İranın cənub məntəqələrindən olmasına ehtimal verilir. Çünki orada hal-hazırda da Bəni-Təmim qəbiləsinin müxtəlif şaxələri vardır, yaxud da İslamın əvvəllərində Xorasan əyalətində sakin olan Bəni-Təmim qəbilələrindən ola bilər. Belə ki, hal-hazırda onların əksəriyyəti yerli əhali ilə qaynayıb-qarışmışdır. Yalnız Məşhəd şəhərinin yaxınlığında onlardan bir neçə kənd qalmışdır ki, ərəb dilində söhbət edirlər. Yaxud da onlarla nəsəbi (qohumluq) əlaqələrinə malikdirlər.

Digər bir sual da bu iki şəxsiyyətin nə vaxt zahir olacağıdır. Fəslin əvvəlində qeyd etdiyimiz kimi, daha yaxşı nəzər budur ki, o iki şəxs t Məhdi (əleyhis-salam)-ın zühur ilində, Yəməni ilə Süfyaninin xürucu ilə eyni zamanda zahir olacaqdır. Ehtimal verilir ki, *"Şüeybin xürucu ilə onun işləri İmam Zaman (ərvahuna fidah)-a tapşırması arasında 72 ay fasilə olacaqdır"* – deyə buyuran rəvayətin səhihliyinə hökm edək. Bu halda Xorasani və Şüeyb həzrət Məhdi (ərvahuna fidah)-dan altı il öncə zahir olacaqdır.

Amma Qumdan olan bir şəxsin rəhbərliyi ilə zəmin yaradan iranlıların hökumətinin başlanması ilə Xorasanlı Seyyid və Şüeybin zahir olması arasındakı zaman fasiləsinə gəldikdə isə, dediyimiz kimi, rəvayətlərdə bu qeyd olunmamışdır. Yalnız mövcud olan

müəyyən işarələr və əlamətlərlə onu icmali şəkildə müəyyən etmək olar. Onlardan biri də Qum şəhəri və onun dünya səviyyəsində ifa etdiyi rolla əlaqədar rəvayətdir. Belə ki, Qum dünya səviyyəsində dini və ideoloji mənbə sayılacaqdır. Bunların hamısı da Qaimin zühuruna yaxın dövrlərdə baş verəcəkdir ki, onu "Biharul-ənvar"dan (60-cı cild, səh.213) nəql etdik.

İmam Baqir (əleyhis-salam)-dan nəql olunan *"əgər mən o zamanı görsəydim, özümü bu əmrin sahibi üçün saxlayardım"* rəvayəti göstərir ki, həzrət Qaimin zühuru ilə məşriq əhlinin hökumət qurması və onların düşmənlərlə müharibəyə girişməsi arasındakı fasilə bir insanın adi ömründən artıq olmayacaqdır.

Bu zəmində nəql olunan rəvayətlərdən biri də əvvəllər nəql etdiyimiz aşağıdakı hədisdir: *"Allah-taala onu Əhli-beytdən olan bir şəxsə həvalə edəcəkdir ki, onun tutduğu üslub camaatı təqva və əməl əsasında hidayət etməkdir. Qəzavət və hökm məqamında rüşvət əhli deyildir. Allaha and olsun, mən onun və atasının adını bilirəm. Sonra qüdrətli bədənə malik olan, üzündə bir xalı və dərisində iki əlaməti olan bu şəxs onun yanında qoyulmuş əmanətin qoruqçusu olacaq və dünyanı haqq-ədalətlə dolduracaqdır."*

Bu rəvayət göstərir ki, Məhdi (əleyhis-salam)-ın köməkçilərinin hökuməti Əhli-beyt (əleyhimus-salam) sülaləsindən olan bir Seyyidin vasitəsilə başlanacaqdır. Ehtimal üzrə, bu mə'na mərhum İmam Xomeyniyə daha çox uyğun gəlir, yaxud İmam Xomeyninin əsrindən sonrakı və zühurdan əvvəlki dövrdə olacaq, bir, yaxud bir neçə nəfərə uyğun gəlir. Çünki qeyd etdiyimiz kimi, rəvayət natamamdır. Buna əsasən, Xorasanlı Seyyid həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan öncə İrana hakim olan axırıncı şəxsdir, yaxud İranın rəhbərliyini öhdəsinə alan axırıncı şəxslə müasirdir.

Xorasanlı Seyyidlə əlaqədar yaranan sonuncu sual budur ki, görəsən o, mərcəyi-təqlid və vəliyyi-əmrlik məqamında, yaxud mərcələrin yanında bir prezident kimi siyasi rəhbərliyə malik olacaqdırmı? Yaxud xalqa rəhbərliyi öhdəsinə alan mərcəyi-təqlidin ən yaxın köməkçisi və müşavirlərindən biridir? Onunla əlaqədar nəql olunan rəvayətlərdən aydın olur ki, o, şərq ölkələrində böyük bir hökumətin rəhbərliyini öz öhdəsinə alacaqdır. Yalnız bu ehtimal qalır ki, o, böyük rəhbərin və mərcəyin fərmanı ilə siyasi bir rəhbər olaraq işlərin idarəsini əlinə alacaqdır. Allah daha yaxşı bilir!

Tezliklə, Allah-taalanın həzrət Məhdi (ərvahuna fidah)-ın əli ilə aşkar etdiyi mö'cüzə və kəramətləri, eləcə də qeybi yardımları, həmçinin o həzrətin dövründə olan elmi təkamülləri və dərin irəliləyişləri rəvayətlər baxımından araşdıracağıq. Onlarda deyilir ki, o həzrət Kərbəlanın Kufə səmtində yerləşən Səhləni özünün məskunlaşmaq yeri qərar verəcəkdir. O həzrətin digər işlərindən biri də Qüdsə getməzdən əvvəl uzun müddət İraqda qalmasıdır: *"Bundan sonra Kufəyə doğru gələcək və Allahın istədiyi vaxta qədər orada qalacaqdır."*[1]

Onun İraqda qalmasının səbəbi bu ölkə daxilindəki siyasi vəziyyəti sahmana salmaqdan və oranı mərkəzi hökumət qərar verməkdən əlavə, bəlkə də bundan ibarət ola bilər ki, özünün müavinlərini və seçilmiş köməkçilərini dünyanın hər yerindən çağırıb İraqda bir yerə yığsın, öz hərbi qüvvələrini sahmana salmaqla onları İraqdan sair ölkələrə doğru göndərsin. Məhz bu zaman öz ordusu ilə Qüdsü azad etmək üçün hərəkət edəcəkdir. İmam Baqir (ələyhis-salam) buyurur: *"Qaim Kufəyə daxil olanda elə bir mö'min qalmayacaq ki, orada olmasın, yaxud oraya doğru getmək fikrində olmasın."* Bu, elə Əli (ələyhis-salam)-ın öz səhabələrinə buyurduğudur: *"Bu tağutun (Süfyaninin) məhv olunması üçün bizimlə hərəkət edin."*[2]

O həzrət yenə buyurur: *"İndi Qaimi Nəcəfdə görürəm: Məkkədən oraya gələn beş min mələyin arasındadır. Cəbrail onun sağ tərəfində, Mikail sol tərəfində və mö'minlər onun önündə hərəkət edirlər. O, qüvvələri şəhərlərdə yaymışdır."*[3]

Digər rəvayətdə isə *"Şüeyb ibni Saleh onun bayraqdarıdır"* - deyə qeyd olunur.

## MÜQƏDDƏS ZÜHUR HƏRƏKATI

Rəvayətlər göstərir ki, həzrət Məhdi (ələyhis-salam)-ın müqəddəs hərəkatı on dörd ay müddətində kamil olacaqdır. Birinci altı ay ərzində İmam (əccələllahu təala fərəcəhuş-şərif) iztirab və nigarançılıq halında yaşayacaq, hadisələrə gizli şəkildə və özünün köməkçilərinin vasitəsilə rəhbərlik edəcəkdir. Sonrakı altı ayda isə, Məkkədə zühur edəcək, sonra Mədinəyə, sonra İraqa və Qüdsə gedərək öz düşmənləri ilə müharibəyə başlayacaq, İslam dünyasını vəhdət halına salaraq öz itaətinə keçirəcəkdir. Bundan sonra rumlularla (qərblilərlə) atəşkəs müqaviləsi bağlayacaqdır.

[1] "Biharul-ənvar", 52-ci cild, səh.224.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.330.
[3] "Yenə orada, səh.337.

Həzrət Məhdi (əleyhis-salam)-ın zühur hərəkatından qabaq İlahi nişanələr kimi iki böyük hadisə baş verəcəkdir: (Həzrət müqəddəs zühuru üçün lazım olan hazırlıq mərhələsinə keçəcəkdir.)

*Birinci hadisə:* Şamda Osman Süfyaninin rəhbərliyi ilə çevrilişin baş verməsidir. Amma camaat bu çevrilişin adətən, ərəb və İslam ölkələrində baş verən çevriliş qəbilindən olduğunu təsəvvür edəcəklər. Yəhudilər, qərblilər və sair İslam düşmənləri onu Fələstin ətrafındakı məntəqənin vahid bir hala salınması istiqamətində aparılan tə'sirli və əsaslı bir tədbir hesab edəcəklər. Bu da onların özlərinin tə'yin etdiyi qüdrətli rejimlər vasitəsilə baş verəcəkdir ki, məntəqədə vəziyyətin ciddi nəzarət altına alınmasına çalışaraq, onlara qarşı hərbi əməliyyatların keçirilməsinə nəzarət etsinlər. Daha mühüm məsələ budur ki, orada mövcud olan həmin hərbi qüvvələr Qüdsə doğru hərəkətdə olan iranlı qüvvələr qarşısında dayanan ilk qüvvələrdir və İraq sərhədlərində onları özünə məşğul edəcəkdir.

Süfyani ilə əlaqədar rəvayətlərdən agah olan şəxslər bilirlər ki, bu hadisə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) tərəfindən və'də verilmişdir. Orada buyurulur: *"Allah və Onun Peyğəmbəri düz demişlər, bizim Pərvərdigarımız hər növ eyb və nöqsandan pak və münəzzəhdir. Əlbəttə, Allahın və'dəsi hökmən həyata keçəcəkdir..."* Onların qəlbləri və'dəsi verilən Məhdi (əleyhis-salam)-ın zühuruna ümidvar olacaq, onun barəsində çox sözlər danışacaq və ona kömək çatdırmaq üçün hərtərəfli hazırlıqlarını bildirəcəklər.

*İkinci hadisə:* Göydən gələn səsdir ki, bütün dünya xalqları onu öz dillərində eşidəcəklər. Bu çox qüvvətli və nüfuzlu bir səsdir ki, göydən hər tərəfə yayılacaq, yatanları oyadacaq və oturanları ayağa qaldıracaqdır. Camaat bu səsdən fəryad edəcək və evlərindən çölə çıxacaqlar ki, nə baş verdiyini görsünlər. Bu nida insanları zülm, küfr və nahaq qan axıdılması ilə mübarizəyə və İmam Məhdi (ərvahuna fidah)-a tabe olmağa də 'vət edəcək, o həzrəti adı və atasının adı ilə çağıracaqdır.

Rəvayətlərdə qeyd olunur ki, bütün insanlar və'dəsi verilən bu İlahi nişanə müqabilində təslim olacaqlar. Çünki o, Allah-taalanın buyurduğu bu ayənin təfsiridir: *"Əgər istəsək, asimandan onlara bir mö 'cüzə nazil edərik ki, onun qarşısında təslim olarlar."*[1]

Bundan sonra "Məhdi kimdir? Haradadır?" sualı ardıcıl olaraq dünyanın hər bir yerində, çox israrla dillərdə deyilməyə başlaya-

---

[1] "Şüəra" surəsi, 4-cü ayə.

caqdır. Amma şeytani qüvvələr onun müsəlmanların rəhbəri və Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in pak xanədanından olması, eləcə də tezliklə Hicazda zühur edəcəyindən xəbərdar olduqları halda, asimani səs qarşısında şəkk-şübhə yaratmaq və yeni İslami hərəkatlara zərbə vurmaq üçün məkrli planlar tökməyə, hərəkatın rəhbərini şəhadətə çatdırmağa sə'y göstərəcəklər. Lakin qeybə iman gətirənlər və bu səs ilə əlaqədar rəvayətləri eşidənlər ki, bu nidanın və'dəsi verilən haqq nida olmasını bildiklərinə görə şükür səcdəsi edəcək, qəlbləri Allah dərgahında xüşu məqamına çatacaqdır. Onlar hər yerdə o həzrət barədə danışacaq, onu axtaracaq və özlərini ona kömək etmək üçün hazırlayacaqlar.

Əsli şiə və sünnü mənbələrində camaatı İmam Məhdi (əleyhis-salam)-a kömək etməyə də'vət edən, onu özünün və atasının adı ilə çağıran asimani nida ilə əlaqədar rəvayətlər olduqca çoxdur. Hətta "mə'nəvi təvatür" həddinə çatmış olmasına da ehtimal verilir. İbni Həmmad bu rəvayətləri öz əlyazmasının 59, 60, 92 və 93-cü səhifələrdə; Əllamə Məclisi "Biharul-ənvar"ın 52-ci cild, səh.119, 287, 289, 290, 293, 296 və 300-cü səhifələrində nəql etmişlər. Belə ki, İmam Sadiq (əleyhis-salam) buyurmuşdur: *"Münadi asimandan bu əmrin sahibinin adını səsləndirəcək və deyəcəkdir ki, hakimlik filankəsin oğlu filankəsə məxsusdur, bəs qırğın nəyə lazımdır?!"*[1]

Həmçinin digər bir rəvayətdə buyurur: *"İki səyhə (qorxunc səs) baş verəcəkdir: biri (birincisi) gecənin əvvəlində, digəri isə ikinci gecənin sonunda."* Hişam ibni Salim deyir: "Bu necə olacaqdır?" - deyə soruşduqda, həzrət buyurdu: *"Bir səs asimandan, digər bir səs isə İblis tərəfindəndir."* Soruşdum: "Bunları bir-birindən necə ayırd etmək olar?" Həzrət buyurdu: *"Hər kəs qulaq assa, vücuda gəlməzdən qabaq onları bir-birindən ayırd edəcəkdir."*[2]

Məhəmməd ibni Müslüm deyir: *"Münadi asimandan Qaimin adını çəkəcək, yerin şərqində və qərbində olan hər bir kəs onu eşidəcəkdir. Bu səsin sayəsində yatanlar oyanacaq, ayaq üstə olanlar oturacaq və oturanlar ayağa qalxacaq. Bu da Cəbrail Ruhul-əminin səsidir."*[3]

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.396.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.295.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.290.

Əbdüllah ibni Səlam deyir: İmam Sadiq (əleyhis-salam)-ın hüzurunda idim. Həmədandan olan bir şəxs İmama dedi: Ammə (sünnülər) bizi məzəmmət edərək deyirlər ki, siz asimandan bir nida edənin bu əmrin sahibinin adı ilə nida edəcəyinə inanırsınız. Həzrət bərk qəzəbləndi, qalxıb oturdu, sonra buyurdu: *"Bu mətləbi məndən yox, atamdan rəvayət et! Bu cəhətdən sizə heç bir irad yoxdur. Şəhadət verirəm ki, atam belə buyururdu: Allaha and olsun ki, bu mətləb Allahın Kitabında aşkardır. Belə ki, buyurulur: "Əgər istəsək, asimandan onlara bir mö'cüzə nazil edərik ki, onun qarşısında təslim olarlar.""*[1]

Seyf ibni Ümeyrə deyir: Əbu Cə'fər Mənsurun yanında idim, heç bir bir müqəddimə olmadan mənə dedi: "Ey Seyf ibni Ümeyrə! Şübhəsiz, asimandan nida edən bir şəxs Əbu Talibin xanədanından olan bir nəfərin adını deyər." Dedim: "Sənə fəda olum, ey əmirəl-mö'minin! Bu mətləbi rəvayət edirsiniz?" Dedi: "Bəli, canım ixtiyarında olan Allaha and olsun ki, bu rəvayəti öz qulağımla eşitmişəm." Dedim: "Ey əmirəl-mö'minin! İndiyə qədər mən bu rəvayəti eşitməmişdim." O dedi: "Ey Seyf! Bu söz haqdır. Əgər belə bir nida eşidilərsə, biz ona müsbət cavab verən ilk şəxslər olacağıq. Məgər nida edən o şəxs camaatı bizim övladlarımızdan olan bir şəxsə tərəf də'vət etməyəcəkmi?!" Dedim: "Fatimə övladlarından olan bir şəxs?" Dedi: "Bəli, ey Seyf! Əgər bu sözü Əbu Cə'fər Mühəmməd ibni Əlidən eşitməsəydim və bütün dünya onu nəql etsəydi, heç vaxt onu qəbul etməzdim, lakin Mühəmməd ibni Əli onu nəql etmişdir."[2]

İbni Həmmadın əlyazmasında (s.92) Səid ibni Müseyyibdən belə nəql olunur: "Elə bir fitnə yaranacaqdır ki, onun əvvəli uşaqların oyununa bənzəyir. Belə ki, hər vaxt bir tərəfdən yatsa, digər tərəfdən baş qaldıracaqdır. Bu fitnə yalnız o zaman sona çatacaqdır ki, münadi səmadan nida edərək belə desin: "Agah olun ki, sizin hakiminiz filankəsdir." İbni Müseyyib öz əl barmaqlarını bir-birinə keçirtdi, əlləri titrəməyə başladı. Sonra üç dəfə dedi: *"Sizin haqq rəhbəriniz budur!"*

Həmin mənbədə deyilir: *"Asimandan nida edən bir şəxs belə deyər: "Haqq Ali-Mühəmmədlədir!" O zaman Məhdinin adı dillər əzbəri olacaq, onun məhəbbəti qəlblərdə özünə yer açacaq və camaatın ondan başqa fikri olmayacaqdır."*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.212.
[2] "İrşad"Şeyx Müfid, səh.404.

Səid Cabir İmam Baqir (əleyhis-salam)-dan belə nəql edir: *"Asimandan bir nəfər nida edib deyər: "Agah olun ki, haqq Mühəmmədin Əhli-beyti ilədir!" Digər bir nida da yerdən qalxar ki: "Bilin ki, haqq (ya) İsanın, (ya da) Abbasın xanədanı ilədir (şəkk ravidəndir). Həqiqətən, yerdən gələn nida şeytanındır ki, o, camaatı naümid edəcəkdir"* (şəkk edən Əbu Əbdillah Nəimdir).

Həmin kitabın 60-cı səhifəsində İbni Məs'ud Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-dən belə rəvayət edir: *"Asimani səda mübarək Ramazan ayında eşidiləndə, bilin ki, Şəvval ayında şiddətli hay-küy vardır. Zil-qə'də ayında qəbilələr bir-birindən ayrılar, Zil-həccə ayında isə qan axıdılar."* Sonra üç dəfə buyurdu: *"Amma Məhərrəm ayına gəldikdə isə... necə bir Məhərrəm olacaqdır! Necə də uzaqdır, uzaqdır! Bu Məhərrəm ayında (baş verən) iğtişaşlar nəticəsində çoxları öldürüləcək."* Soruşuldu ki, ya Rəsuləllah! Asimani səs nədir? Buyurdu: *"Bu səs Ramazan ayının orta gecəsi (cümə axşamı – gecə) baş verəcəkdir. O səs yatan şəxsi oyadar, ayaq üstə olanı oturdar, nəcib və hicablı qadınları pərdə arxasından çölə çıxarar.... O ildə zəlzələlər çoxalar. Cümə günü sübh namazını qıldıqdan sonra evlərinizə gedin, qapı-pəncərələri bağlayın və özünüzü gizlədin.... O səsi eşitdiyiniz vaxt başınızı səcdəyə qoyub deyin: Sübhanəl-quddus, sübhanəl-quddus, sübhanəl-quddus. Hər kəs belə edərsə, nicat tapacaq, hər kəs etməzsə, həlak olacaq."*

(Bu barədə şiə-sünnü mənbələrində başqa rəvayətlər də nəql olunmuşdur.)

Rəvayətlərdəki "yerdən gələn müxalif nida" həqiqətən, İblisin səsi ola bilər. Necə ki, "Ühüd" müharibəsində "Mühəmməd öldürüldü!" deyə səslənmişdi. Amma bu səsin İblisin köməkçilərinin, yə'ni dünya səviyyəsində olan təbliğatçı şeytanların vasitəsilə olması da mümkündür. Belə ki, asimani nidanın dünya səviyyəsində icad etdiyi İslam hərəkatı ilə qaşılaşmaq məqsədilə İblisin təklifi ilə – müxalif bir nida verəcəkdir.

Amma asimani nidanın atəşkəsə də'vət etdiyi müharibənin, əvvəllər barəsində söhbət etdiyimiz dünya müharibəsi olması da uzaq ehtimal deyildir. Orada deyilir ki, bu müharibədən məqsədin, atom müharibəsi olmaması da mümkündür. Əksinə, rəvayətlərdə qeyd olunduğu kimi, zühur ilində çox yerlərdə baş verən məntəqə daxili müharibələrə də işarə ola bilər.

Asimani nidanın nə vaxt baş verəcəyi ilə əlaqədar rəvayətlər arasında azacıq təfavüt mövcuddur: rəvayətlərdən bə'ziləri onun Ramazan ayında, bə'ziləri isə Rəcəb ayında baş verəcəyini qeyd etmişlər. Digər rəvayətlər də, o cümlədən İbni Həmmadın əlyazmasında olduğu kimi, onu həcc mövsümündə, həmin nüsxənin başqa yerində isə Məhərrəm ayında və Nəfsi-Zəkiyyənin qətlə yetirilməsindən sonra baş verəcəyini qeyd etmişlər. Bə'zi rəvayətlərdən mə'lum olur ki, asimani nida bir neçə dənədir (bə'zi rəvayətlər bu məsələyə aşkar tə'kid etmişlər). Alimlərdən biri şiə mənbələrində nəql olunan nidaların sayını səkkiz qeyd etmişdir. Sünnü mənbələrində də ona uyğun rəqəm gözə dəyir. Amma daha yaxşı nəzər budur ki, o, sadəcə Ramazan ayında eşidiləcək asimani bir nidadır.

Onun sayının çox olması isə, rəvayətlər arasında onun zamanının tə'yin edilməsi ilə əlaqədar ixtilafdan irəli gəlir. Allah daha yaxşı bilir. Bu iki nişanə, yə'ni Rəcəb ayında Süfyaninin qiyam etməsi və Ramazan ayında asimani nidanın eşidilməsi ilə Məhərrəm ayında baş verən zühur arasında təqribən altı ay vaxt vardır. Sünnü mənbələrində də İmam (əleyhis-salam)-ın görəcəyi tədbirlərdən bə'ziləri bəyan edilir. O cümlədən, həzrətin Mədinədə öz köməkçilərinə qoşulması, sonra Məkkəyə gedərək dünyanın müxtəlif yerlərindən şövq və iztirabla ona bey'ət etmək üçün Məkkəyə gələnlərlə görüşməsidir. Onların arasında müxtəlif İslam ölkələrindən gələn yeddi alim var ki, əvvəlcədən heç bir qərar olmadan İmamı Məkkədə görəcək və hər biri öz ölkələrinə qayıdıb dindar və müxlis şəxslərdən 313 nəfərdən bey'ət alacaq, sonra o həzrəti axtarmağa başlayacaqlar ki, öz ardıcılları tərəfindən o həzrətə bey'ət etsinlər. İmam (əleyhis-salam) da onları qəbul edəcəkdir. Onlar Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) tərəfindən və'dəsi verilən Məhdinin köməkçilərindən hesab olunurlar.

Şiə mənbələrində qeybəti-kübradan sonrakı bu 6 ay "qeyri-rəsmi olan zühur mərhələsi" adlandırılmışdır. Əli (əleyhis-salam)-ın buyurduğu *"onun zahir olması bir qədər müəmmalıdır, nəhayət onun adı və xatirəsi hər yeri əhatə edər, sonra zühur edər"* sözünün mə'nası budur ki, İmam (əleyhis-salam) əvvəldə tədrici şəkildə zühur edəcək, nəhayət zühur məsələsi camaat üçün tam aşkar olacaqdır. Ehtimal üzrə həzrətin tədrici zühur etməsinin səbəbi camaatın zühur məsələsini qəbul etmək üçün imtahan mərhələsinə qoyulması ola bilər ki, nəhayət zühur məsələsi tam aşkar olsun.

Bu dövr barəsində əvvəlki rəvayətlərdən əlavə, sənəd baxımından səhih hesab olunan digər rəvayətlər də vardır, onların ən aydını həzrət Məhdi (ərvahuna fidah)-ın öz nümayəndəsi Əli ibni Məhəmməd Səmuriyə yazdığı bu məktubdur: *"Tezliklə mənim ardıcıllarımdan olan bə'zi kəslər gələcək və məni gördüklərini iddia edəcəklər. Agah olun! Hər kəs Süfyaninin xürucundan və asimani səsdən qabaq məni gördüyünü iddia etsə, mənə iftira atıb yalan demişdir. La hovlə və la qüvvətə illa billahil-əliyyil-əzim."*[1]

Zahirən, bu iki hadisədən əvvəl İmam (ələyhis-salam)-ı görmələrini iddia edənlər dedikdə o həzrətin nümayəndəsi olmasını iddia edənlər nəzərdə tutulur, heç bir iddia etmədən, yaxud bu barədə heç bir söz danışmadan sadəcə onun mübarək hüzuruna çatanlar nəzərdə tutulmur. Böyük alimlərin və e'timadlı şəxsiyyətlərin, eləcə də ləyaqətli insanların İmam (ələyhis-salam)-la görüşləri barəsində çoxlu rəvayətlər gəlib çatmışdır. Bəlkə də bunun özü də "görməyin" özünün yox, müşahidənin inkar edilməsi cümləsinin gətirilməsinə səbəb olmuşdur.

İmam (ərvahuna fidah)-ın mübarək yazısı bunu göstərir ki, qeybəti-kubra Süfyaninin xürucu və asimani səsin eşidilməsi ilə sona çatacaq, ondan sonrakı zühurun müqəddiməsi olan qeybət, qeybəti-suğraya oxşayacaqdır. Yə'ni İmam (ələyhis-salam) bu müddət ərzində zalımların gözlərindən və casusluq şəbəkələrindən uzaqda olacaq. Lakin bu müddət ərzində öz köməkçiləri ilə xüsusi şəkildə əlaqə yaradacaq və onlardan çoxu həzrətin hüzuruna şərəfyab olacaqlar. Həzrət də o nümayəndələri özü ilə mö'minlər arasında rabitəçi kimi tə'yin edəcəkdir.

Sonrakı rəvayətlərdən mə'lum olur ki, İmam (ərvahuna fidah) Süfyaninin xürucundan sonra zahir olacaqdır. Deməli o, Məhərrəm ayında və'dəsi verilən zühura qədər məxfi olacaqdır. Həzləm ibni Bəşirin İmam Zeynül-abidin (ələyhis-salam)-dan nəql etdiyi rəvayətdə deyilir: *"Süfyani xüruc edən zaman Məhdi məxfi olacaq, sonra yenidən zahir olacaqdır."*[2]

Bizim əqidəmizə görə, bu rəvayət yalnız belə təfsir oluna bilər: İmam (ələyhis-salam) Süfyaninin xürucundan sonra Rəcəb ayında zahir olacaq, bundan sonra özü üçün müəyyən olunmuş zühura (Məhərrəm ayına) qədər gizlənəcəkdir. Rəvayətlər də bu zühurun asimani nidadan əvvəl Ramazan ayında, yoxsa ondan sonra olmasına dəlalət etmir. İmam Sadiq (ələyhis-salam)-dan belə rəvayət olunur: *"Bizim Qaimimiz yalnız o vaxt*

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.361.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.213.

*qiyam edər ki, 12 nəfər hamılıqla, bir sözün üstündə fikir birliyində olsunlar və onu gördüklərini desinlər. Lakin onları təkzib edərlər."*[1]

Belə nəzərə çarpır ki, onlar doğruçu insanlar olacaqdır. Çünki İmam (əleyhis-salam), onların Həzrət Məhdi (əleyhis-salam)-ı görməklərinə dair fikir birliklərini bəyan edir və camaatın onları təkzib etməsindən təəccübə gəlir. Zahirən, onların həzrətlə görüşləri o dövrdə baş verəcəkdir ki, İmam (əccəlallahu təala fərəcəhuş-şərif) məxfi şəkildə yaşayıb, sonra zahirə çıxsın ki, zühur məsələsi tədrici şəkildə aşkar olsun və nəhayət onun adı və xatirəsi hər yerdə yayılsın, bundan sonra zühur etsin.

Buna əsasən, həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) bu dövrdə təqribən özünün rəhbərlik rolunu ifa edər, belə bir həssas anlarda yəmənli və iranlıların zühura şərait yaradan hökumətlərinə özünün yol göstərmələri ilə rəhbərlik edəcək, bütün İslam ölkələrində özünün İlahi övliyalardan ibarət olan köməkçiləri ilə əlaqə yaradacaqdır.

İndi isə İmam (əleyhis-salam)-ın qısa müddətli zühur dövründə gördüyü tədbirlər barədə təsvir yaratmaq üçün, onun qeybət dövründəki fəaliyyətlərini qısa şəkildə bəyan edirik. Rəvayətlərdə qeyd olunur ki, İmam (ərvahuna fidah) əvvəlcə Mədinədə məskunlaşacaq və bu zaman otuz nəfərlə görüşəcəkdir. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Bu əmrin sahibinin bir qeybət dövrü olacaq ki, o qeybət dövründə hökmən tənha həyat tərzi keçirəcəkdir. Onun ən yaxşı mənzili Mədinədir; o, öz köməkçilərindən olan 30 nəfərin yanında yaşayacaq və onların varlığı ilə heç bir iztirab və nigarançılıq olmayacaqdır.*[2]

Digər rəvayətlərdə deyilir ki, o həzrət, Xızr peyğəmbərin yanında yaşayır. İmam Riza (əleyhis-salam) belə buyurmuşdur: *"Xızr peyğəmbər həyat suyundan içdi, buna görə də İsrafil suru üfürənə qədər diri qalacaqdır. Əlbəttə, o bizim yanımıza gəlir və bizə salam verir. Biz onun səsini eşidirik, lakin şəxsən özünü görmürük. Onun adı hər yerdə çəkilsə, ona salam göndərmək lazımdır. O, həcc mərasimində iştirak edir, həcc əməllərini yerinə yetirir, Ərəfatda vüquf edir və mö'minlərin duasına "amin" deyir. Allah o həzrətin vasitəsilə bizim Qaimimizin yalqızlığını ünsiyyətə, təkliyini də onun yanında cəm olmağa döndərər."*[3]

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.244.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.157.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.152.

Qeyd olunan bu və başqa rəvayətlərdən aydın olur ki, həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərindən olan otuz nəfər daim dəyişilir, yə'ni hər vaxt onların biri vəfat edərsə, digər bir şəxs ona canişin tə'yin edilir. Baxmayaraq ki, Allah-taalanın onların bə'zilərinin ömrünü həzrət Xızr və İmam Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) kimi çox uzun etməsi də mümkündür. Bəlkə də, (Rəcəb ayının ortancıl günündə) İmam Sadiq (əleyhis-salam)-dan nəql olunan duadakı "əbdal" sözündən məqsəd də onlar olsun. Bu duada Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-ə və onun Əhli-beytinə (əleyhimus-salam) salavat göndərildikdən sonra deyilir: *"Ey Allah! Layiqli mö'minlərə (əbdala), böyüklərə, oruc tutanlara, ibadət edənlərə, müxlislərə, zahidlərə, sə'y və cihad edənlərə salavat göndər!"*[1]

Güclü ehtimala əsasən, Allah övliyalarından ibarət olan otuz, yaxud otuzdan artıq olan adam həzrət Məhdi (ərvahuna fidah)-ın qeybət dövründə o həzrətin yerinə yetirdiyi işlərdə və tədbirlərdə müəyyən rol ifa edirlər. Çoxlu rəvayətlər göstərir ki, o həzrət müxtəlif ölkələrdə müəyyən işlər görmüş, fəaliyyətlər göstərmiş, müəyyən yerlərə, saraylara daxil olmuş, bazarlarda gəzmişdir. O hər il həcc mərasimində iştirak edir. O həzrətin qeybətinin sirri yalnız zühurundan sonra aşkar olar, necə ki, həzrət Xızr (əleyhis-salam)-ın gördüyü tədbirlərin fəlsəfəsi və sirri yalnız Musanı agah etdikdən sonra aşkar olmuşdur.

Əbdüllah ibni Fəzl deyir ki, İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğunu eşitdim: *"Bu əmrin sahibi üçün hökmən bir qeybət (dövrü) olacaqdır ki, batil əhlini şəkkə salsın."* Soruşdum: "Sənə fəda olum, bunun səbəbi nədir?" Buyurdu: *"Onun səbəbi elə bir şeydir ki, biz onu sizin üçün bəyan etməyə icazəli deyilik."* Soruşdum: "İmamın qeybətinin səbəbi və sirri nədir?" Buyurdu: *"İmamın qeybdə olmasının fəlsəfəsi və sirri eynilə keçmiş İlahi höccətlərin qeybdə olmasının fəlsəfəsi kimidir. Onun qeybətinin sirri, yalnız zühurundan sonra aşkar olacaqdır. Necə ki, həzrət Xızrın tədbirləri – yə'ni gəmini deşməsi, oğlanı öldürməsi və divarı tə'mir etməsi Musa üçün yalnız onların bir-birindən ayrıldığı zaman aşkar olmuşdur. Ey Fəzlin oğlu! Bu məsələ Allahın göstərişi, Onun sirlərindən biri və qeyblərindən olan qeybdir. Allahı həkim (hikmət sahibi) biliriksə, Onun bütün fe'llərinin də hikmət üzündən olduğunu bilməliyik, hətta onun sirri bizim üçün aşkar olmasa belə."*[2]

---

[1] "Miftahul-cənnat", 3-cü cild, səh.50.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.91.

Məhəmməd ibni Osman Əmri deyir: *"Allaha and olsun, bu əmrin sahibi hər il həcc mövsümündə iştirak edir, camaatı görüb tanıyır, amma camaat onu gördükləri halda tanımırlar."*[1]

İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"Ümmət Allah-taalanın Öz höccəti barəsində, həzrət Yusifə qarşı gördüyü bir iş kimi, iş gördüyünü necə inkar edir?! Bil ki, o onların bazarlarında gəzişir, xalça-palazlarının üstünə qədəm qoyur, eyni halda (camaat) onu tanımır. Nəhayət, Allah-taala icazə verəcək ki, özünü onlara tanıtdırsın. Necə ki, həzrət Yusifə belə bir icazəni verib buyurmuşdu: "Bilirsinizmi ki, Yusif və onun qardaşının başına nələr gətirdiniz?! Halbuki siz bunu bilmirdiniz. Qardaşları dedilər: Sən Yusifsənmi?! O dedi: "Bəli, mən Yusifəm, bu da mənim qardaşımdır."*[2]

Bu və sair rəvayətlərə əsasən, qeybət dövründə İmam (əleyhis-salam)-ın vəziyyəti eynilə həzrət Yusifin vəziyyəti, onun bu müddət ərzindəki rəftar və əməlləri də eynilə həzrət Xızrın əməl və rəftarı kimidir ki, Qur'an onun bə'zi qəribəliklərini bizim üçün bəyan etmişdir. Hətta bu rəvayətlərdən mə'lum olur ki, bu iki böyük şəxsiyyət (Xızr və həzrət Məhdi (əleyhis-salam)) birlikdə yaşayır və bir-birilə həmkarlıq edirlər.

Əlbəttə, belə deməyimiz daha yaxşı olar: o həzrətin gördüyü tədbirlərdən çoxu onun layiqli köməkçiləri və şagirdlərinin əli ilə yerinə yetirilir. O kəslər ki, uzun məsafələri ötüb keçmişlər. Allah imanları və həzrət Məhdi (ərvahuna fidah)-ın tə'limləri sayəsində onlara yol göstərmişdir. Onların kəramətləri (xariqul-adə işləri), o cümlədən suyun üzərində yol getmək, teyyül-ərzə malik olmaq və s. əməlləri, hətta ondan aşağı məqama malik olan İlahi övliyalar barəsində belə, mö'təbər rəvayətlərdə nəql olunmuşdur.

Bəli, mütəal Allah bu dünyanın işlərini və varlıqlarını – istər böyük olsun, istərsə də kiçik – həmişə Öz hikmət və sirlərinə uyğun olaraq cərəyan etdirir. Amma O, bütün bu səbəblərə və hikmətlərə hakimdir. O, Öz işlərini iradə etdiyi halda layiqli bəndələrinin və mələklərin vasitəsilə – hər hansı yöndə olursa-olsun – görür. Əgər həqiqət bizə aşkar olsa, görəcəyik ki, bizim nəzərimizdə təbii yollarla gerçəkləşən işlərin çoxunda Allahın qeybi iradəsi hökmən tə'sir qoymuşdur. Misal üçün, zalım hakimlərin mə'murları həzrət Xızrın deşdiyi gəmini zorla almaq istədikləri zaman, onu eyibli gördülər və

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.250.
[2] "Biharul-ənvar", 51-ci cild, səh.142.

ondan əl çəkdilər, amma onda olan hər hansı qeybdən bir əlin rol ifa etdiyinə diqqət yetirmədilər. Eləcə də, ömürlərini Allaha itaətdə sərf edən o ata-ananın oğlunun hadisəsində də bilmirdilər ki, əgər oğlanları diri qalsa, onları küfrə və tüğyana sövq edəcək. O iki yetim uşaq böyüdükdən sonra xəzinəni o divarın altından çıxartdıqları zaman... əgər həzrət Xızr o divarı tə'mir etməsəydi, o xəzinənin yeri və özü sahibindən başqalarına aşkar olacaqdı.

Həzrət Xızrın Musa ilə yanaşı olduğu qısa müddət ərzində baş verən üç hadisəni Allah-taala Qur'anda bəyan edir. Biz də onun kimi bir çox əməl və rəftarları öz zehnimizdə canlandıra bilərik. Əhli-beyt (əleyhimus-salam)-dan, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm)-in belə buyurduğu nəql olunur: *"Allah-taala qardaşım Musaya rəhmət etsin, çünki o, elmli şəxsi tələsdirdi. Əgər səbir etsəydi, onda heç vaxt görmədiyi qəribəlikləri müşahidə edirdi."*[1]

Deməli, biz həzrət Məhdi (əleyhis-salam)-ın qeybət dövründəki işlərini müəyyən qədər təsəvvür edə bilərik. Halbuki, bütün müsəlmanların nəql etdiyinə görə, İmam Məhdi (əleyhis-salam)-ın məqamı həzrət Xızrdan daha üstündür. Çünki rəvayətlərə uyğun olaraq o həzrət əvvəldəkilər və axırdakılar arasında behişt əhlindən olan yeddi nəfərdən biridir. Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in belə buyurduğu nəql olunur: *"Biz – Əbdül-Müttəlib övladlarından olan yeddi nəfər – behişt əhlinin sərvəriyik: Mən, Həmzə, Əli, Cə'fər, Həsən, Hüseyn və Məhdi."*[2]

Həzrət Məhdi (əleyhis-salam), onun vəziri Xızr və layiqli köməkçiləri və şagirdlərinin (bunların hamısı Allah övliyalarıdır) dünyanın hər bir yerində, bütün hadisələr qarşısında nə işlər görməsini yalnız Allah bilir! Təbiidir ki, qeybətin sirri və onların zühura qədər gördükləri işlər bizim üçün aşkar olmaz. O böyük şəxsiyyətlərin hal-hazırda, keçmişdə və gələcəkdə gördükləri işlər barəsində mə'lumatımız həddindən artıq azdır. Nəinki böyük tarixi hadisələr və hərəkatlar, hətta bizim özümüz belə, həyatımızda onların gördüyü işlərə və tədbirlərə borclu olmağımız mümkündür.

Diqqət yetirmək lazımdır ki, İlahi qeybə, həmçinin İmam Məhdi və Xızr (əleyhiməs-salam)-ın, eləcə də layiqli mö'minlərin əməllərinə əqidə bəsləmək sufilərin pəhrizkar şəxsləri özlərinə qibləgah seçmə kimi əqidələri ilə tamamilə fərqlidir, baxmayaraq ki, bə'zi cəhətlərdə

---

[1] "Biharul-ənvar", 13-cü cild, səh.301.
[2] "Biharul-ənvar", 21-ci cild, səh.65; "Əs-səvaiqul-muhriqə", səh.158.

onlara oxşarlığı vardır. Hətta onlardan bə'ziləri bu kimi sifətləri həzrət Məhdi (ələyhis-salam) və onun köməkçiləri ilə uyğunlaşdırmağa çalışırlar. "Misbah" kitabının haşiyəsində və "Səfinətül-bihar" kitabında "qə-tə-bə" maddəsində belə qeyd olunur: "Deyilmişdir ki, yer üzü (bir nəfər) qütbdən, 4 nəfər ovtaddan (böyük şəxsiyyətlər), 40 nəfər müttəqidən, 70 nəcib şəxsiyyətdən və 360 layiqli insandan xali olmaz. Qütb – Məhdidir, ovtad 4 nəfərdən az deyildir, çünki dünya bir xeyməyə bənzəyir: həzrət Məhdi onun sütunu, o 4 nəfər də xeymənin qurulmasında istifadə olunan iplər kimidir. Bə'zən o ovtad 4-dən, müttəqilər 40-dan, nəcib şəxsiyyətlər 70-dən və layiqli insanlar 360-dan artıq ola bilər. Zahirən, Xızr və İlyas da qütbə birləşən ovtadlardan biridir."

Ovtadın sifətlərinə gəldikdə isə, onlar bir an belə Allahdan qafil olmur, dünya malından yalnız zərurət miqdarında istifadə edirlər; adi insanlardan baş verən sapmalar onlarda görünmür, onlarda isməT məqamı şərt deyil, amma Qütbdə şərtdir.

Əbdalın (pəhrizkarlar) mərtəbəsi ovtadın mərtəbəsindən aşağıdır. Bə'zən onlardan qəflət baş verir və Allahı xatırlamaqla bu işlərini bərpa edirlər. Qəsdən olan günah bir iş heç vaxt onlardan baş verməz.

Amma təqva və ədalət sifəti ilə vəsf olunan layiqli və saleh insanlara gəldikdə isə, onlardan günah baş verir, lakin istiğfar və peşmançılıqla dərhal əvəzini çıxırlar. Allah-taala buyurur: *"Təqva sahibi olanlara hər vaxt şeytandan bir vəsvəsə, yaxud bir xəyal çatsa, həmin anda Allahı xatırlayır və bəsirət tapırlar."*

Ravi deyir: Onlardan hər hansı biri bu mərtəbələrdən birini əldən versə, onlardan aşağıda olan digər bir şəxs onun yerinə keçər. Əgər salehlərdən hər hansı biri əldən gedərsə, camaat arasından başqa bir şəxs onların yerinə keçər.

İlyas (ələyhis-salam)-ın barəsində deyilmişdir ki, o diridir və Allah-taala məsləhət bildiyi hikmət əsasında onun ömrünü uzun etmişdir. Bə'zi müfəssirlər onunla əlaqədar ayələrin təfsirində qeyd etmiş və Əhli-beyt (ələyhimus-salam)-dan nəql olunan bə'zi rəvayətlərdə deyilmişdir ki, o həzrət diridir və həzrət Məhdi (ərvahuna fidah)-da olduğu kimi, Allah-taala onun da ömrünü uzun etmişdir. Bu iki şəxsiyyət hər il Ərəfatda və başqa yerlərdə hazır olurlar.

Hər halda, rəvayətlərdən aydın olur ki, altı ay müddətində – yə'ni Süfyaninin xürucu ilə asimani nidadan həzrət Məhdi (ələyhis-salam)-ın Məhər-

rəm ayında zühur etdiyi vaxta qədər – İmam (əleyhis-salam) və onun köməkçilərinin geniş səviyyəli fəaliyyət göstərdiyi bir dövr olacaqdır; onun köməkçilərinin əli ilə müəyyən mö’cüzəli işlər baş verəcək, layiqli insanlar onlara qoşulacaq və hədislərdə qeyd olunan dünya səviyyəli hadisələr baş verəcəkdir ki, bu da insanların zehnini və dövlətləri tam mə’nada özünə məşğul edəcəkdir. Müsəlmanlar və müstəz’əf xalqlar daim həzrət Məhdi (ərvahuna fidah), onun kəramətləri və zühurunun yaxınlaşması barəsində söhbət açacaqlar. Camaat arasında bu kimi əqidə cərəyanları o həzrətin zühuru ilə münasibdir. Amma bu vəziyyət həmin zamanda məhdilik iddiası edən şeytansifətlərə və yalançılara, camaatı aldatmaq üçün münasib zəmin yaradacaqdır. Rəvayətlərdə qeyd olunur ki, o həzrətin zühurundan qabaq hamısı Əbu Talib (əleyhis-salam)-ın övladlarından olan 12 bayraq qaldırılacaq və hamısı da məhdilik iddiası ilə camaatı özünə tərəf də’vət edəcəkdir. Onların hamısı azğınçılıq bayraqlarıdır və dünyəvi məqsədlərlə müsəlmanların və sair dünya xalqlarının o həzrətə meyl etməsindən sui-istifadə edəcəklər.

Müfəzzəl ibni Ömər və Cabir Co’fi İmam Sadiq (əleyhis-salam)-ın belə buyurduğunu nəql edirlər: *“O həzrətin adını çəkməkdən həzər edin! Allaha and olsun, sizin İmamınız uzun illər gözlərinizdən gizli qalacaqdır; o qədər gizli qalacaqdır ki, siz pak və xalis olasınız. Hətta deyiləcəkdir ki, o ya ölmüş, ya həlak olmuş, ya da hansısa bir məntəqəyə getmişdir. Mö’minlərin gözləri onun hicranında yaşla dolaraq təlatümə düşəcək. Necə ki, gəmilər dəryanın güclü dalğalarında aşır. Yalnız o kəslər nicat tapacaqlar ki, Allah ondan əhd-peyman almış olsun, iman onun qəlbində yerləşmiş olsun və öz ruhu ilə onu dəstəkləmiş olsun. Bir-birinə oxşar 12 bayraq qaldırılar və onlardan heç biri digərindən ayırd edilə bilməz.* Müfəzzəl deyir: Mən bu an ağladım. İmam (əleyhis-salam) mənə buyurdu: “Nə üçün ağlayırsan, ey Əba Əbdillah?” Ərz etdim: “Necə ağlamayım, halbuki siz buyurursunuz ki, 12 bayraq qaldırılacaq və onların heç biri digərindən seçilməyəcək. Bəs o zamanda bizim vəzifəmiz nədir?” İmam eyvanın daxilinə saçan günəşə baxdı və buyurdu: “Ey Əba Əbdillah! Bu günəşi görürsənmi?” Dedim: “Bəli.” Həzrət buyurdu: *“Allaha and olsun ki, bizim Qaimimiz bu günəşdən də daha aşkardır.”*[1]

Yə’ni, həzrət Məhdi (əleyhis-salam)-ın hadisəsini yalandan məhdilik iddiası edənlərlə səhv salacağınızdan heç də iztirab və nigaranlıq hissi

---

[1] “Biharul-ənvar”, 52-ci cild, səh.281.

keçirməyin. Çünki İmam Məhdi (ərvahuna fidah)-ın işi – ondan əvvəl və sonra baş verən əlamət və hadisələrə, eləcə də onun şəxsiyyətinin yalandan məhdilik iddiası edənlərlə müqayisə olunmaz dərəcədə yüksək olmasına diqqət yetirməklə – günəşdən də aydındır. Digər tərəfdən, həzrət Məhdi (əleyhis-salam)-ın zühuruna şərait yaradan iki hökumət – Yəmən və İran hökuməti dünya hadisələrində və millətlərin oyadılmasında çox mühüm siyasi rol ifa edəcəklər. Buna görə də bəşəriyyətin o həzrətin yol göstərmələrinə olan ehtiyacları daha artıq olacaqdır.

Rəvayətlərdən və işlərin zahiri gedişindən aydın olur ki, xalq kütlələrinin həzrət Məhdi (əleyhis-salam)- xatirinə yaratdıqları dalğaların müqabilində onun düşmənlərinin – yə'ni dünya səviyyəsindəki küfr başçıları və Süfyaninin – tərəfindən əksül-əməl olacaqdır. Çünki rəvayətdə deyilir ki, onlar İraq və Hicazın daxili vəziyyətini sahmana salmaq üçün öz əməliyyatlarını bu ölkələrdə təmərküzləşdirmiş olacaqlar, çünki, bu iki ölkə, məntəqədə zəiflik hiss olunan bir yer olacaqdır: İraq zühura zəmin yaradan iranlıların nüfuz etdiyi məntəqə olduğuna görə orada mərkəzi hökumət zəif olacaqdır. Hicazda da siyasi boşluq və qəbilə çarpışmaları olduğuna görə zühura zəmin yaradan yəmənlilərin qarşısında zəifləyəcək. Hicazda ən mühüm məsələ budur ki, müsəlmanlar oraya göz dikərək həzrət Məhdi (ərvahuna fidah)-ın zühurunun intizarını çəkəcəklər. Çünki İmam (əleyhis-salam)-ın Mədinədə məskunlaşması və o həzrətin Məkkədən hərəkata başlaması xəbəri camaat arasında yayılacaqdır. Buna görə də düşmənlərin həzrət Məhdi (əleyhis-salam)-a qarşı hərbi-siyasi fəaliyyətləri Məkkə və Mədinədə təmərküzləşəcək, Süfyani, həzrət Məhdinin onların arasında olması ümidi ilə Mədinəyə hücum edəcək və Bəni-Haşim qəbiləsindən olanları kütləvi şəkildə tutub həbs edəcək, onların əksəriyyətini də əvvəldə qeyd olunduğu kimi, şəhadətə çatdıracaqdır.

Digər tərəfdən, Süfyaninin İraqda və Hicazda müharibə aparması ilə eyni zamanda, qərb və şərq tərəfdə də (Fars körfəzi və Meditranə dəryasında) – məntəqənin strateji əhəmiyyətə malik olmasına görə – çarpışmalar baş verəcəkdir. Rumlu qüvvələrin Rəmlədə düşərgə salması və türk qüvvələrinin Cəzirədə yerləşdirilməsi də zühura yaxın vaxtlarda baş verəcəkdir.

**HİCAZDA HAKİMİYYƏT BÖHRANI**

Sünnü-şiə mənbələrində qeyd olunur ki, həzrət Məhdi (əleyhis-salam)-ın Hicazda zühur etməsi ilə əlaqədar bu ölkə qəbilələrinin arasında baş

verən çəkişmələrə görə siyasi boşluq yaranacaqdır. Belə ki, padşahın, yaxud xəlifənin ölməsi ardınca işlərdə genişlik yaranacaqdır. Bə'zi rəvayətlərdə onun adı Əbdüllah, digərlərində isə onun Ərəfə günündə ölməsi qeyd edilmişdir. Onun ölümündən sonra Hicazda baş verən hadisələr Süfyaninin qiyamı və asimani nida eşidilən vaxta qədər ardıcıl şəkildə davam edəcək, Hicaz tərəfindən Suriya qüvvələrinin çağırılması və həzrət Məhdi (ruhum ona fidak)-ın zühuru ilə sona çatacaqdır. Bu barədə İmam Baqir (əleyhis-salam)-dan belə nəql olunmuşdur: *"Hər kəs Əbdüllahın ölümünü mənim üçün zəmanət versə, mən də Qaimin zühurunu ona zəmanət verərəm.* (Sonra buyurdu:) *Əbdüllah dünyadan gedən zaman camaat ondan sonra heç bir kəsin hakimiyyəti barəsində razılaşmayacaqlar. Bu ixtilaf və çəkişmələr də Allahın istəyi ilə Sahibul-əmrin zühuruna qədər davam edəcək, (onların) bir neçə illik hakimiyyəti sona çatacaqdır."* Soruşdular: "Bu hadisə çox uzanacaqmı?" Buyurdu: "Əsla!"[1]

Başqa rəvayətdə buyurur: *"Camaat Ərəfatda vüquf halında olanda, yorğa dəvəyə minmiş bir şəxs oraya gəlib xəlifənin ölümündən xəbər verəcəkdir. Onun ölümü ilə Ali-Mühəmmədin fərəci və bütün insanların qurtuluşu gəlib çatacaqdır.*[2]

Bu rəvayətdə "yorğa dəvə" dedikdə məqsəd mühüm xəbər çatdırmaq və hacılara müjdə verməkdir ki, zahirən rəvayətdə mühüm xəbər çatdırmaq üslubu nəzərdə tutulmuşdur. Digər rəvayətdə qeyd olunur ki, dəvəyə minərək bu xəbəri Ərəfatdakı hacılara gətirən şəxsi qətlə yetirəcəklər.

Bəlkə də ölməsi, yaxud qətlə yetirilməsi xəbəri Ərəfatda e'lan olunan xəlifə əvvəlki rəvayətdə qeyd olunan Əbdüllah ola bilər: *"İllərlə olan hakimiyyətin aradan getməsi və aylar və günlər hökumətinin vücuda gəlməsi"* cümləsinin mə'nası budur ki, ondan sonra hər hansı bir şəxsi hakimiyyətə gətirsələr, onun hökuməti bir il belə davam edə bilməyəcək, bir neçə aydan, yaxud bir neçə gündən sonra digər bir şəxsi bu vəzifəyə tə'yin edəcəklər və nəhayət həzrət Məhdi (əleyhis-salam)-ın zühuru ilə nəticələnəcəkdir. Bə'zi rəvayətlərdə onun qətlə yetirilməsinin səbəbi əxlaqi bir hadisə, qatilin isə onun tərəfindən tə'yin olunan bir şəxs olduğu qeyd edilir və deyilir ki, o, Hicazdan xaricə qaçacaq, hökumət mə'murlarından bir neçə nəfər

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.210.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.240.

onu axtaracaq, amma onlar qayıtmazdan əvvəl hakimiyyət uğrunda mübarizə başlanacaqdır. İmam Baqir (əleyhis-salam) belə buyurur: *"Onun ölümünün səbəbi budur ki, öz xacələrinin biri ilə evlənib sonra onu qətlə yetirəcək. Onun qətlə yetirilməsi 40 gün məxfi qalacaqdır. Süvarilər xacəni axtarmağa gəldiyi zaman onları qarşılayan birinci şəxsdən axırıncı şəxsə qədər heç biri geri qayıtmayacaq. Beləliklə, onların hakimiyyəti sona çatacaqdır."*[1]

Hicaz hakiminin öldürülməsindən sonra hakimiyyət uğrunda mübarizə ilə əlaqədar rəvayətlər olduqca çoxdur. İndi onların bir neçəsini qeyd edirik:

Bəzənti İmam Riza (əleyhis-salam)-ın belə buyurduğunu nəql edir: *"Fərəcin nişanələrindən biri də Məkkə və Mədinə hərəmləri arasında baş verən hadisədir."* Soruşdum: "O hadisə nədir?" Buyurdu: *"İki hərəm arasında qəbilə təəssübləri vücuda gələcək və filankəsin xanədanından olan filankəs 15 qəbilə başçısını qətlə yetirəcəkdir."*[2]

Yə'ni, Hicaz rəhbərlərindən biri hakimlər, yaxud rəhbərlər nəslindən olan 15 nəfəri qətlə yetirəcəkdir. Əbu Bəsir nəql edir ki, İmam Sadiq (əleyhis-salam)-a dedim: "Əbu Cə'fər (İmam Baqir) (əleyhis-salam) buyururdu ki, Ali-Mühəmmədin Qaimi üçün iki qeybət dövrü vardır ki, biri digərindən daha uzun olacaqdır." Həzrət buyurdu: *"Bəli, bu iş yalnız o vaxt baş verəcəkdir ki, bu filankəsin xanədanında ixtilaf yaransın, həlqələr daralsın və Süfyani zühur etsin, bəlalar şiddətlənsin, camaatın (kütləvi) ölüm və qırğınları hər yeri bürüsün, onlar da Allahın və Peyğəmbərin hərəminə sığınsınlar."*[3]

Bu rəvayət göstərir ki, bu çəkişmələr hakim qəbilənin arasında baş verəcəkdir. Əli (əleyhis-salam)-dan da belə nəql olunur: *"Qaimin qiyamı üçün müəyyən əlamət və nişanələr vardır. Onlardan birincisi Kufənin xəndək qazılıb pusqu qurulması ilə mühasirəyə alınmasıdır... Daha böyük olan məscidin ətrafında bayraqların yellənməsidir ki, bu müharibədə öldürən və öldürülən – hər ikisi Cəhənnəm əzabındadır."*[4]

Zahirən *"daha böyük məscid"* dedikdə Kufə məscidi deyil, Məscidul-həram nəzərdə tutulur. Məkkədə və Hicazda bir-biri ilə müxalif olan bayraq sahibləri çarpışacaqlar, onların arasında haqq olan bir bayraq yoxdur. İbni Həmmad öz əlyazmasında Həzrət Məhdi

---

[1] "Kəmaluddin" (Şeyx Səduq), səh.655.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.210.
[3] "Biharud-ənvar", 52-ci cild, səh.157.
[4] "Biharul-ənvar", 52-ci cild, səh.273.

(əleyhis-salam)-ın zühur dövründə Hicazdakı siyasi böhran və hakimiyyət uğrunda qəbilə çəkişmələri ilə əlaqədar iyirmidən artıq rəvayət nəql edir ki, onlardan biri də Səid ibni Müseyyibdən nəql olunan bu rəvayətdir: *"Müsəlmanlar üçün bir zaman gəlib çatar ki, Ramazan ayında bir səs eşidilər, Şəvval ayında nisbi sakitlik bərqərar olunar, Zil-qə'də ayında qəbilələr bir-birinə qarşı dostluq göstərər, Zil-həccə ayında isə hacıların mal-dövlətləri qarət olunar. Məhərrəm ayında isə... bu necə məhərrəmdir!"*[1]

İbni Məs'ud Peyğəmbər (səllallahu əleyhi və alihi və səllam)-dən belə rəvayət edir: *"Ramazan ayında asimani səs eşidilən, Şəvval ayında iğtişaşlar yaranan, Zil-qə'də ayında qəbilələr bir-biri ilə ixtilafa düşən, Zil-həccə ayında qan axıdılan zaman...* (Sonra buyurdu:) *Amma Məhərrəm... necə məhərrəmdir!"*[2]

Əbdüllah ibni Ömər deyir: "Camaat bir-birilə həccə gedər və rəhbər olmadan Ərəfata yollanarlar. Minada mənzil saldıqları zaman it kimi bir-birinə həmlə edərlər, qəbilələr bir-birinin canına düşüb o qədər qan axıdar ki, "Cəmərеyi-əqəbəni" qan seli əhatə edər."[3]

Yə'ni onlar quduz xəstəliyinə tutulan it kimi bir vəziyyətə düşəcəklər, həcc mövsümündə gözlənilmədən onların arasında düşmənçilik aşkar olacaq və bir-birini qırmağa başlayacaqlar. Belə ki, onlardan axan qanlar "Cəmərеyi-əqəbə"də cari olacaqdır.

İbni Həmmadın rəvayəti asimani nidadan sonra Hicazdakı siyasi çəkişmələri bəyan edir. Amma digər rəvayətlər də bu siyasi böhranda iki mühüm məsələyə işarə edir:

Birincsi: Süfyaninin xürucundan qabaq baş verən hadisələrdir ki, əvvəllər işarə olundu. İkincisi isə budur ki, bu böhran şərqlə qərbin ixtilafı ilə əlaqədardır, yə'ni dünya səviyyəsində və'dəsi verilən müharibədir. İbni Əbi Yə'fur deyir ki, İmam Sadiq (əleyhis-salam) belə buyurmuşdur: *"Əl barmaqlarınla belə say: Filankəsin həlak olması, Süfyaninin xürucu, Nəfsi-Zəkiyyənin qətlə yetirilməsi...* Nəhayət buyurdu: *Hamının qurtuluşu və fərəci filankəsin həlak olduğu vaxtdadır."*[4]

Əlbəttə, bu hadisələrin rəvayətlərdə qeyd olunan baş ermə ardıcıllığında münaqişə edilməsi mümkündür. Amma rəvayətlərdən bir çoxu göstərir ki, filankəsin həlak olması və ondan sonra çəkiş-

---

[1] Yenə orada, səh.59.
[2] "İbni Həmmadın əlyazması", səh.60.
[3] Yenə orada, səh.60.
[4] "Biharul-ənvar", 52-ci cild, səh.234.

mələrin yaranması Süfyaninin xürucundan qabaq baş verəcəkdir. İmam Baqir (əleyhis-salam) buyurur: *"Qaim tək illərdə – doqquz, bir, üç, beş kimi illərdə zühur edəcəkdir. (Sonra buyurdu:) O zaman Bəni-Abbas (filankəsin xanədanı) hakimiyyətə çatacaq, həmişə qüdrət və eyş-işrətin zirvə həddində yaşayacaqlar. Nəhayət onların arasında ixtilaf düşəcək, (çarpışma başlanan zaman) hökumətləri sonra çatacaqdır. Şərq-qərb, hətta qiblə əhli belə, bir-biri ilə çəkişməyə başlayacaq, camaat keçirdikləri iztiraba görə çox ağır əzab-əziyyətlərə düçar olacaqlar. Bu vəziyyət, asimandan haqq carçısının nida edib "köç edin, köç edin!" dediyi vaxta qədər davam edəcəkdir."*[1]

Bu rəvayətdə diqqət yetiriləsi məsələ filankəsin xanədanının aralarında ixtilaf düşməsi, onların hökumətinin sona çatması, şərqlə qərb arasında çarpışmanın başlanması və bu çarpışmanın qiblə əhlini, yə'ni müsəlmanları da bürüməsidir ki, sanki dünya səviyyəli bu çəkişmələr Hiczada siyasi böhrana səbəb olacaq, yaxud onunla müəyyən qədər əlaqəsi olacaqdır. Həzrət Məhdi (əleyhis-salam)-ın zühurundan öncə aralarında ixtilaf düşən Bəni-Abbas dedikdə, filan xanədan nəzərdə tutulur ki, rəvayətlərin dili ilə desək, həzrət Məhdi (ərvahuna fidah)-dan qabaq Hicaza hakim olan sonuncu sülalədir. Rəvayətlərin məcmusundan aydın olur ki, həzrət Məhdi (əleyhis-salam)-ın Hicazda zühur etməsinə müqəddimə mərhələləri olan bir sıra ardıcıl hadisələr kimi Hicazda, yaxud onun şərqində baş verən sarı, yaxud qırmızı atəşin vücuda gəlməsidir ki, bir neçə gün davam edəcəkdir. Bundan sonra filankəsin xanədanının sonuncu hakimi öldürüləcək, onun canişinliyində ixtilaf yaranacaq və bu ixtilaf da Hicazın əsas e'tibarı ilə qəbilə təəssübləri əsasında qurulan siyasi qüvvələrinə sirayət edəcəkdir. Hicaz hökumətində siyasi böhrana səbəb olan məsələ şərq və qərb arasında dünya səviyyəli çəkişmələrdir. Bundan sonra Süfyani xüruc edəcək, asimani nida səslənəcək və daha sonra Süfyani orduları Suriya səmtindən Hicaza daxil olacaq, bunun ardınca da Mədinədəki və Məkkədəki hadisələr baş verəcəkdir. Sünnü mənbələrində bir çox rəvayət Qiyamətin əlamətləri kimi qeyd olunmuşdur. Misal üçün, "Səhihi Müslüm"də deyilir: "Qiyamət yalnız o zaman bərqərar olacaqdır ki, Hicazda bir od şö'ləndirilsin, onun işığı Busrada dəvənin boynunu işıqlandırar."[2]

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.235.
[2] "Səhihi Müslüm", 8-ci cild, səh.180.

Yə'ni onun işığı Suriyanın Busra şəhərinə qədər gedib çatacaqdır. Həmin rəvayətlərdən biri də "Müstədrəki Hakim"də (4-cü cild, səh. 442-443) qeyd olunandır: "O od "Vərraq" dağından, yaxud "Həbsi Sil"dən, yaxud "Hüseyl" vadisindən qalxacaqdır. "Həbs Sil" Mədineyi-münəvvərənin yaxınlığında olan bir yerdir. (Bəlkə də "Vadiye-Hüseyl" səhvən qeyd olunmuşdur.) Bə'zi rəvayətlərdə deyilir ki, həmin atəş Həzrə-movtdakı "Ədən" məntəqəsindən vücuda gələcək və camaatı məşriqə, yaxud məğribə tərəf şövq edəcəkdir.

Göründüyü kimi, "Səhihi Müslüm"dəki rəvayət aşkar şəkildə çatdırır ki, bu atəş Qiyamət əlamətlərindən biridir və onun gələcəkdə baş verməsini qətiləşdirir. Mənim e'tiqadıma görə, Qiyamətin əlamətlərindən olan bu atəş, şiə və sünnü mənbələrində qeyd olunduğu kimi, Həzrə-movtdakı Ədən atəşidir. Amma rəvayətlərə əsasən, Mədinədə əmələ gələn Hicaz atəşinə gəldikdə isə, yalnız Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) tərəfindən irəlicədən və mö'cüzəli şəkildə verilən xəbər qəbilindən olması və onun baş verməsinin də müəyyən bir mətləbi göstərməməsi mümkündür, çünki tarixçilər 1-ci əsrdə Mədinənin yaxınlığında bir neçə gün davam edən iğtişaşın varlığını qeyd etmişlər. Amma zühurun əlamətlərindən olan atəşə gəldikdə isə, bə'zi rəvayətlərdə "məşriq atəşi", bə'zi rəvayətlərdə isə "Hicazın şərqində olan bir atəş" kimi qeyd olunur. İbni Həmmadın əlyazmasında (səh.61) İbni Mə'dandan belə nəql olunur: *"O zaman ki, Ramazan ayında asimanda şərq tərəfdən bir atəş sütununu müşahidə etdiniz, bacardığınız qədər yeyinti məhsulları hazırlayın ki, həmin il qəhətlik olacaqdır."*

İmam Sadiq (əleyhis-salam) buyurur: *"Şərq tərəfdən böyük atəşi müşahidə etdiyiniz zaman – bə'zi vaxtlar yuxarı qalxar – insanların işində qurtuluş hasil olar və bu atəş Qaimin zühurundan azacıq qabaq baş verəcəkdir."*[1]

İmam Baqir (əleyhis-salam) buyurur: *"Hərdi (yaşıl və qırmızı rəngə boyanmış parça) kimi ki, məşriq tərəfdən üç, ya yeddi gün göyə qalxan bir atəşi müşahidə etdiyiniz zaman Allahın izni ilə Ali-Mühəmmədin fərəcinin intizarında olun. Allah yenilməzdir və hikmət sahibidir."*[2]

Ehtimal üzrə bu atəş İlahi nişanə, yaxud vulkan, yaxud da neft məhsullarının partlayışından əmələ gələn böyük bir atəş ola bilər. Bu

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.230.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.230.

ehtimal da verilir ki, həzrət Məhdi (əleyhis-salam)-ın zühur əlaməti olan İlahi bir nişanə olsun. İmam Baqir (əleyhis-salam) buyurur: *"Qaimin qiyamından əvvəl camaat, onlar üçün asimandan yuxarı gələn və qırmızılığı asimanı örtən bir atəşin vasitəsilə günahlarından saxlanılarlar."*[1]

Rəvayətdən aydın olur ki, bu atəş qeyd olunan siyasi böhranın əsnasında vücuda gələcəkdir. Allah daha yaxşı bilir!

### İMAMIN İZTİRAB VƏ NİGARANÇILIQLA MƏDİNƏDƏN XARİC OLMASI

Rəvayətlərə əsasən, Süfyani ordusu Mədinəyə kamil hakim kəsilərək şəhəri üç gün ərzində öz ordusuna mübah (halal) edəcək, Bəni-Haşimdən tapdıqları hər kəsi tutub zindana salacaq və onlardan böyük bir qismini qətlə yetirəcəkdir. Bütün bu cinayətlər İmam Məhdi (ərvahuna fidah)-ı ələ keçirmək məqsədi ilə törədiləcəkdir. İbni Həmmad öz əlyazmasında (səh.88) belə rəvayət edir: *"Süfyani Mədinəyə tərəf hərəkət edərək Qüreyşi qılıncdan keçirəcək, onların kişilərindən və ənsardan olan 400 nəfəri qətlə yetirəcək, qadınların qarnını yırtıb uşaqlarının başını kəsəcək, Qüreyşdən olan Məhəmməd və Fatimə adlı bacı-qardaşı qətlə yetirdikdən sonra cəsədlərini Mədinə məscidinin darvazasından asacaqlar."*

Həmin səhifədə Əbu Rummandan belə nəql olunur: *"Süfyani Mədinəyə bir ordu göndərər ki, Peyğəmbər xanədanından hər kəsi tutsalar qətlə yetirsinlər. Bu hadisədə Bəni-Haşimdən çoxlu kişi və qadınlar qətlə yetiriləcəkdir. Bu zaman Məhdi və Mübəyyəz Mədinədən Məkkəyə doğru qaçar. Süfyani bir dəstəni onları tə'qib etmək üçün göndərər, lakin onlar artıq Allahın əmin-amanlıq hərəminə çatmış olarlar."*

"Müstədrəki Hakim"də (4-cü cild, səh.442) qeyd olunur ki, Mədinə əhalisi Süfyaninin qəzəbli hücumu və onun törətdiyi cinayətlər nəticəsində şəhəri tərk edərlər. İmam Baqir (əleyhis-salam) Cabir Co'fiyə belə buyurdu: *"Süfyani bir dəstəni Mədinəyə göndərər, onlar orada bir kişini qətlə yetirərlər, Məhdi və Mənsur oradan qaçarlar. Süfyaninin ordusu Peyğəmbər xanədanından olanları – böyüklü-kiçikli hamını tutub qətlə yetirər, yaxud həbs edər. Süfyani ordusu o iki nəfəri tə'qib etməyə başlayar."*[2]

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.221

[2] "Biharul-ənvar", 52-ci cild, səh.223.

Rəvayətlərə əsasən, Süfyaninin ordusunun vasitəsilə qətlə yetirilən kişi Mədinədə qətlə yetirilən cavandan başqa bir adamdır. Bu barədə İmam Sadiq (əleyhis-salam) Zürarəyə belə buyurdu: *"Ey Zürarə! Hökmən Mədinədə bir yeniyetmə qətlə yetiriləcəkdir."* Soruşdum: "Sənə fəda olum, onu Süfyani ordusumu qətlə yetirəcək?" Buyurdu: *"Xeyr! Onu filankəsin xanədanının ordusu qətlə yetirəcəkdir. Bu qüvvələr, camaatın səbəbini bilmədikləri halda, Mədinəyə daxil olacaq və bu zaman həmin cavanı tutub qətlə yetirəcəklər. O cavanı zülm üzündən öldükləri zaman Allah-taala onlara möhlət verməz. Bu zaman fərəcin intizarında olun."*[1]

Bir neçə rəvayət bu yeniyetməni Nəfsi-Zəkiyyə adlandırmışdır, lakin o, həzrətin zühurundan azacıq qabaq Məkkədə öldürülən Nəfsi-Zəkiyyədən başqa adamdır.

Bu və digər rəvayətlərdən aydın olur ki, Hicazın tənəzzülə uğrayıb dağılmaqda olan hökuməti Bəni-Haşimi və onun ardıcıllarını tə'qib etdiyi zaman, xüsusilə Mədinədə çoxlu fəaliyyət göstərəcək və Nəfsi-Zəkiyyə ünvanı ilə tanınan cavan yalnız adının Məhəmməd ibni Həsən olduğuna, yaxud layiqli mö'minlərdən biri və həzrət Məhdiyə əlaqəsi olan şəxslərdən olduğuna görə qətlə yetiriləcəkdir.

Bundan sonra Süfyani ordusu Hicaza daxil olacaq, həmin qansız siyasəti daha şiddətlə və vəhşicəsinə icra etməyə başlayacaq. Belə ki, Bəni-Haşim xanədanına mənsub olan, yaxud onlarla əlaqədə olmasına ehtimal verdikləri hər bir kəsi tutub öldürərlər. Adı Məhəmməd, bacısı isə Fatimə olan iki nəfəri məhz adının "Məhəmməd" və atasının adının "Həsən" olduğuna görə qətlə yetirəcəklər!

Belə bir böhranlı anlarda həzrət Məhdi (əccəlallahu taala fərəcahuş-şərif) həzrət Musa (əleyhis-salam) kimi nigaran halda və köməkçilərindən biri ilə Mədinədən çıxacaq. Həzrətin həmin köməkçisinin adı da əvvəlki rəvayətdə Mənsur, digər bir rəvayətdə isə Müntəsər qeyd olunmuşdur. Bəlkə də əvvəlki rəvayətdə Mübəyyəz adlandırılan şəxs də Müntəsərdir və rəvayəti nəql edən zaman səhvə yol verilmişdir.

Bir rəvayətdə deyilir ki, həzrət Məhdi (əccəlallahu taala fərəcahuş-şərif) Mədinədən Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in mirası ilə – onun qılıncını əlinə almış, zirehli paltarını geymiş, bayrağını bir əlində tutmuş, əmmaməsini başına qoymuş və "ovdi-yəmani" əbasını geymiş halda xaric olacaqdır.

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.147.

Mən şiə mənbələrində o həzrətin Mədinədən Məkkəyə nə vaxt gedəcəyi barədə heç bir şey tapmadım, lakin ümumi halda mübarək Ramazan ayındakı asimani nidadan sonra, yə'ni həcc mərasimində olmalıdır. Bir rəvayətdə deyilir ki, Süfyani ordusunun Mədinəyə daxil olması Ramazan ayında baş verəcəkdir.

Müfəzzəl ibni Ömərin İmam Sadiq (əleyhis-salam)-dan nəql etdiyi rəvayətdə deyilir: *"Ey Müfəzzəl! Allaha and olsun, sanki onu (Həzrət Məhdini) indi görürəm ki, Məkkəyə varid olur; başında sarı rəngli əmmaməsi vardır. O, həzrəti Peyğəmbərin məxsus ayaqqabılarını geymiş, onun əsasını əlinə almışdır. Bir neçə aylıq çəpişi öz qabağında aparır ki, onları Allahın evinə çatdırsın. Amma heç kəs onu orada tanımaz."*[1]

Bu rəvayət, sənədinin zəif olmasına baxmayaraq, düşmənlərin və onların əlaltılarının o həzrəti axtarmaq üçün əlbir olub öz qüvvələrini səfərbər etdiklərinə, o həzrətin də belə bir şəraitdə məxfi halda yaşamasına və bu dövrün kiçik qeybət dövrünə oxşarlığına dəlalət edir.

Təbiidir ki, zühur ilindəki həcc mərasimi çox rövnəqli və əzəmətli olacaqdır. Rəvayətlərdə qeyd olunan məsələlər – yə'ni o dövrdə dünyaya hakim olan qeyri-münasib şərait, İslam ölkələrindəki qarışıq vəziyyətlər, Hicazdakı siyasi böhran və Süfyani ordusunun oraya daxil olmasına görə fövqəladə şəraitin e'lan edilməsindən hekayət edir. Bütün bunlar da həcc mərasimini Hicaz hakimlərinə üzücü, qorxulu və iztirablı bir yük kimi qələmə verəcək və onlar hacıların sayını mümkün olan ən aşağı həddə endirəcək, Məkkə və Mədinədəki təhlükəsizlik mə'murlarını əvvəlki illərə nisbətən bir neçə qat artıracaqlar. Lakin bütün bu tədbirlər İslam ümmətinin Məkkeyi-müəzzəməyə diqqət yetirməsinə mane olmayacaqdır: onlar daim gözlərini oraya dikəcək və həzrət Məhdi (əleyhis-salam)-ın intizarında olacaqlar. O ildə yüz minlərlə, hətta milyonlarla müsəlman həcc mərasimində iştirak etmək üçün tam şücaətlə ayağa qalxacaq, həm öz dövlətlərinin, həm də Hicaz dövlətinin maneçilik törətmələrinə baxmayaraq, onlardan bir çoxu Məkkəyə gələcəklər.

Bu zaman həcdəki hacıların bir-birindən çox sevinclə soruşduqları, "həzrət Məhdidən nə xəbər vardır?" sualıdır. Əlbəttə, bu sualın irəli çəkilməsi zahirdə çox təhlükəli nəzərə çarpdığına görə hacılar bunu gizli şəkildə və öz aralarında irəli çəkəcək, o həzrətlə əlaqədar son xə-

---

[1] "Bişarətul-İslam", səh.267.

bərləri və şayiələri, həmçinin Hicaz hökuməti və Süfyani ordusunun gördüyü son tədbirləri ahəstə şəkildə bir-birlərinə çatdıracaqlar.

Növbəti rəvayət müsəlmanların və xüsusilə hacıların həzrət Məhdi (əleyhis-salam)-ın zühuru ilə əlaqədar söhbət apardıqları və onu axtardıqları zaman mövcud olan vəziyyəti bəyan edir.

İbni Həmmadın əlyazmasında belə qeyd olunur: Əbu Ömər, İbni Əbi Ləhəbdən, o da Əbdül-Vəhhab ibni Hüseyndən, o da Məhəmməd ibni Sabitdən, o da atasından, o da Haris ibni Əbdüllahdan, o da İbni Məs'uddan belə rəvayət edir: "Bazarlar kasad, yollar təhlükəli, fitnələr çox olduğu zaman müxtəlif məntəqələrin alimlərindən 70 nəfəri, hər biri ilə yanaşı 300-dən artıq adam olan bir halda bey'ətə əl uzadacaq, əvvəlcədən qərar qoyulmadan Məkkəyə yola düşəcək, orada görüşəcək və bir-birindən soruşacaqlar ki, "Məkkəyə gəlişdən sizin məqsədiniz nədir?" Onlar deyərlər ki, "biz bu kişini axtarırıq, ümidvarıq ki, bu fitnələr onun qüdrətli əlləri ilə yatırılsın və Allah-taala Qostəntəniyyəni onun əli ilə azad etsin. Biz onu özünün, atasının, anasının adı ilə və xüsusiyyətləri ilə tanıyırıq." Bu yeddi alim söhbət əsasında bir-biri ilə razılığa gələcək və o həzrəti axtarmaq üçün Məkkədə gəzişəcəklər. (Onu görüb) soruşacaqlar ki, sən filankəsin oğlu filankəssənmi? O "Xeyr! Mən ənsardan olan bir şəxsəm" deyərək onlardan ayrılacaq. Onun vəsflərini mə'lumatlı şəxslər üçün sadalayacaq və deyəcəklər: "O, sizin axtardığınız və sevdiyiniz adamdır ki, indi Mədinəyə yola düşmüşdür." Alimlər onun ardınca Mədinəyə yola düşərlər, lakin o, yenidən Məkkəyə qayıdar. Alimlər də onun ardınca gəlib onu Məkkədə taparlar. Soruşarlar ki, "siz filankəsin oğlu filankəs deyilsinizmi? Sənin anan filankəsin qızı deyilmi? Sizin barənizdə bu kimi nişanələr gəlmişdir. Sizi bir dəfə əlimizdən verdik, indi əlinizi verin, sizinlə bey'ət edək." O deyər: "Mən sizin əmrinizin sahibi deyiləm; mən, ənsardan olan filankəs və filankəsin oğluyam. Bizimlə gəlin, sizi axtardığınız adamın yanına aparım." Bundan sonra onlardan ayrılar. Onlar isə onu Mədinədə axtararlar, lakin artıq o, Məkkəyə getmişdir. Buna görə də Məkkəyə gələr və həzrəti Rüknün yanında taparlar. Deyərlər ki, əgər əlini bey'ət üçün bizə verməsən, bizim günahımız və qanlarımız sənin öhdənədir. Çünki Süfyaninin ordusu bizi tə'qib edir, onlara haramzadə bir insan hakimdir." Bundan sonra həzrət Rükn ilə Məqam arasında oturar, əlini, onlarla bey'ət etmək üçün açar və gələnlər

onunla bey'ət edərlər. Allah onun eşq və məhəbbətini camaatın qəlbinə salar, gecələr zahid, gündüzlər şir kimi olan insanlarla öz hərəkətinə davam edər."[1]

Bu rəvayətin sənəd və mətnində bə'zi zəif cəhətlər vardır. O cümlədən, Qostəntəniyyənin azad olunması ilə əlaqədar hadisədir ki, bir neçə əsr ərzində müsəlmanlar üçün hərbi və siyasi bir problem, İslam dövlətinin böyük bir qismi üçün təhdid sayılırdı. Nəhayət, soltan Məhəmməd Fateh 500 il bundan öncə onu fəth etmişdir. Əlbəttə, müsəlmanlar Qostəntəniyyənin azad olunması barəsində Peyğəmbərin dilindən müjdəverici rəvayətlər nəql etmişlər ki, onların düzgün və ya saxta olmasını araşdırmaq lazımdır. Əlbəttə, bizim araşdırdığımız mövzu ilə əlaqədar olan oranın həzrət Məhdi (ərvahuna fidah)-ın əli ilə azad olmasını bəyan edən rəvayətdir. Bu rəvayətlərdə iki ehtimal mövcuddur:

Birincisi budur ki, Qostəntəniyyə həzrət Məhdi (əleyhis-salam)-ın əli ilə fəth ediləcəkdir, bu şərtlə o həzrət müsəlmanların böyük problemlərini həll etsin. Çünki, qeyd etdiyimiz kimi, qonşu düşmənlərin paytaxtı olan Qostəntəniyyə uzun əsrlər boyu müsəlmanların böyük çətinliklərindən biri olmuşdur.

İkincisi budur ki, Qostəntəniyyə dedikdə məqsəd, elə həzrət Məhdi (əleyhis-salam)-ın zühuru dövründə mövcud olacaq Romadır və bə'zi rəvayətlərdə "Romanın böyük şəhəri" kimi tə'bir olunur. Həmin şəhər ki, rəvayətlərə uyğun olaraq, həzrət Məhdi və onun köməkçiləri onu mühasirə edəcək və təkbirlə azad edəcəklər.

Hətta əgər bu rəvayətin saxta olduğunu fərz etsək belə, təqribən 1200 il bundan əvvəl bu kitabı yazan məşhur bir müəllifə aiddir. Çünki 227-ci ildə vəfat edən İbni Həmmad bu rəvayəti özündən qabaqkı tabeinlərdən nəql etmişdir. Deməli, bu rəvayət ən azı həzrətin Məhdi (ərvahuna fidah)-ın zühur ilində olan siyasi vəziyyətlə əlaqədar külli təsəvvürü bəyan edir və onun xəbərini müsəlmanlar yanında yayılması, müsəlmanların onu axtarmasını göstərir.

Bu rəvayətin məzmununun əksər hissəsi digər rəvayətlərdə də qeyd olunmuşdur, yaxud bu hadisə digər rəvayətlərdə aşkar şəkildə deyilən hadisələrin məntiqi nəticəsidir. Həmin şəraitdə alimlərdən yeddi nəfərin Məkkəyə gəlməsi müsəlmanların İmam Məhdi (əleyhis-salam)-ın zühuruna şiddətli məhəbbət və maraq göstərdiklərindən hekayət edir,

[1] "İbni Həmmadın əlyazması", səh.95.

eləcə də onların nüınayəndələrinin bey'ət etmək üçün həzrət Məhdi (əleyhis-salam)-ın hüzuruna gəlişi və alimlərdən hər birinin öz ölkəsində o həzrət üçün mö'minlərdən 313 nəfərdən bey'ət alması onların İmam (əleyhis-salam)-ın kənarında fədakarlığa hazır olmalarını göstərir.

Amma rəvayətlərdə də qeyd olunduğu kimi, o həzrətin alimlərdən bir neçə nəfərindən kənara çəkilməsi barəsindəki mətləbdə zəiflik vardır. Bəlkə də onun şiə və sünnü mənbələrində gələn əsli bu ola bilər ki, onlar həzrətlə bey'ət edərlər, lakin həzrət rəğbətsiz olaraq bey'ət edər. İmam Sadiq (əleyhis-salam)-ın böyük səhabələrindən biri şəkk-tərəddüd və ikrahla yanaşı olan bu bey'ət barəsində o həzrətdən soruşduqda, İmam (əleyhis-salam) ikrahın mə'nasını izah edir və o səhabənin qəlbi aramlıq tapır.

Bura qədər qeyd olunanlar zühur əsrində müsəlmanlara hakim olan vəziyyət və onların həzrət Məhdi (ərvahuna fidah)-ın intizarı ilə əlaqədar keçirdikləri halətlər idi. Amma İmam (əleyhis-salam)-ın Məkkədə gördüyü tədbirlərə, dostlarının və köməkçilərinin onunla bey'ət etməsinə gəldikdə isə, rəvayətlərə görə bu işlər başqa bir üslubda olacaqdır (bu barədə rəvayətlərdə müxtəlif mətləblər gözə dəyir).

## KÖMƏKÇİLƏRİN TOPLANMASI

Yaxşı olar ki, İmam Məhdi (əleyhis-salam)-ın köməkçiləri ilə əlaqədar bir neçə məsələyə diqqət yetirək. O cümlədən, onların sayı şiə və sünnü mənbələrində Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in Bədr müharibəsindəki köməkçilərinin sayı qədər – 313 nəfər qeyd olunmuşdur. Bu da həzrət Məhdi (ərvahuna fidah)-ın əziz babası Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in əli ilə yaranan ilk İslam ilə o həzrətin vasitəsilə yeniləşdirilən İslam arasında son dərəcə oxşarlıq olduğunu göstərir. Hətta rəvayətlərdə qeyd olunur ki, keçmiş peyğəmbərlərin arasında geniş yayılan qanunlar, imtahan vasitələri belə, həzrət Məhdi (əleyhis-salam)-ın köməkçilərinə də üz verəcəkdir.

Bu barədə İmam Sadiq (əleyhis-salam) belə buyurur: *"Musanın köməkçiləri çay qarşısında imtahana düçar oldular, bu da Allah-taalanın buyurduğudur: "İnnəllahə mübtəlikum binəhər – əlbəttə, Qaimin köməkçiləri də belə bir imtahan qarşısında qərar tutacaqlar."*[1]

Həmçinin, bu köməkçilər dedikdə, həzrətin xüsusi səhabələri, onların içərisindən seçilənlər və yeni dünya səviyyəsində onun hakimləri olacaqdır ki, İmam Məhdi (əleyhis-salam) onlara rəhbərliyi öhdəsinə

[1] "Biharul-ənvar", 52-ci cild, səh.332.

alacaqdır. Lakin həzrətin təkcə köməkçiləri onlar deyildirlər, əksinə rəvayətdə qeyd olunur ki, İmam (ərvahuna fidah)-ın Məkkədən çıxan zaman ordusunun sayı on min, yaxud on mindən bir qədər artıq olacaqdır. Həzrətin İraqa daxil olduğu və Qüdsü azad etdiyi ordu yüz minlərlə adama çatır ki, onların hamısı həzrətin köməkçiləridir. Hətta o zamanda milyonlarla adam müsəlman o həzrətin xalis səhabələri cərgəsində olacaqdır.

Amma həzrətin köməkçilərinin çeşidlərinə gəldikdə isə, rəvayətlərə əsasən onlar bütün İslam ölkələrindən, dünyanın ən ucqar və müxtəlif yerlərindən gəlib çıxacaqlar ki, onların arasından misirli layiqli insanlar, Şamdan olan həqiqi mö'minlər, İraqdan olan əməli salehlər, Taliqan və Qumdan olan fədakarlar vardır.

İbni Ərəbi "Fütuhatu Məkiyyə" kitabında yazır: *"Onlar (Həzrət Məhdi (əleyhis-salam)-ın köməkçiləri) əcəmdəndir və onların arasında heç bir ərəb yoxdur, amma ərəb dilindən başqa bir dildə danışmazlar."*

Başqa bir rəvayətdə deyilir: *"Məhdinin köməkçiləri arasında Misirdən layiqli insanlar, Şamdan həqiqi mö'minlər və İraqdan əməli salehlər olacaqdır."*[1]

İbni Həmmadın əlyazmasında (səh.95) və digər mənbələrdə mövcud olan oxşar rəvayətlər o həzrətin köməkçiləri arasında bə'zi ərəblərin, eləcə də qeyri-ərəblərdən çoxları olduğunu göstərir. Amma Həzrət Məhdi (əleyhis-salam)-ın ordusunun əksər hissəsini iranlılar təşkil edəcəkdir.

İmam Baqir (əleyhis-salam)-dan nəql olunan rəvayətdə ("Biharul-ənvar", 52-ci cild, səh.223) deyilir ki, onların arasında əlli nəfər qadın da vardır. Bir rəvayətdə isə qadınların on üç nəfər olacağı deyilmişdir ki, yaralılara tibbi yardım göstərəcəklər. Bu da qadının İslam cəmiyyətində ifa etdiyi yüksək rolu və qadının şəxsiyyətinə diqqət yetirmək, onunla yaxşı davranmaq, ona qarşı ədalətli, insaflı olmaq və cahiliyyət dövrünün vəhşilik xislətlərindən uzaq olmağın zərurətini göstərir ki, həzrət Məhdi (ərvahuna fidah)-ın əsrində əməli olaraq həyata keçəcəkdir. Hal-hazırda da qərbin üzdəniraq mədəniyyətində qadınlar belə bir vəziyyətə düçar olmuşlar.

Bə'zi rəvayətlərdə deyilir ki, o həzrətin köməkçilərinin əksəriyyəti cavanlardan ibarətdir, onların arasında orta yaşlılar çox az, eynilə səfərə gedən adamın yol azuqəsi üçün götürdüyü duz miqdarındadır.

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.334.

Əli (əleyhis-salam) buyurmuşdur: *"Məhdinin köməkçiləri cavanlardır, onların arasında orta yaşlılar yalnız gözün sürməsi, yaxud müsafirin yol azuqəsi olan duz qədərdir."*[1]

Şiə və sünnü mənbələrində onların tə'rifi, yüksək məqamları və insani kəramətlərinə dair çoxlu rəvayətlər nəql olunmuş və deyilmişdir ki, "həzrət Məhdi (əleyhis-salam) öz köməkçilərinin sayı, adları və xüsusiyyətlərinin qeydə alındığı bir yazını özü ilə gətirəcəkdir", "yer onların ayaqları altında ötüb keçər (teyyül-ərz edərlər), hər bir çətinlik onlar üçün çox az olar", "onlar Allahın qəzəbli ordusu, şücaət və igidlik nümunələridirlər, mütəal Allah Qur'anda onların yəhudilərə hakim kəsiləcəklərinə dair *"bə'əsna iləykum ibadən ləna uli bə'sin şədid"* – ayəsi ilə və'də vermişdir." Allah-taalanın buyurduğu "ümmətimə'dudə" məhz onlardır: *"Əgər əzabı, sayılmış (hesab olunmuş) bir ümmətdən (vaxtdan) tə'xirə salsaq, deyəcəklər ki, onu nə üçün saxladı! Agah olun! Onlara elə bir gün gələr ki, (əzab) onlardan heç vaxt qaytarılmaz və məsxərə etdikləri şey onlara nazil olar."*[2]

Onlar ümmət içərisində Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) itrətinin (Əhlibeytinin) kənarında olarlar; onlar fəqihlər, hakimlər və sərkərdələrdir, Allah onların qəlblərini bir-birinə mehriban etmişdir. Belə ki, heç kəsdən qorxu hissi keçirmirlər. Əgər bir kəs onların sırasına qoşularsa, xoşhal olmurlar, yə'ni ətraflarında olan insanların sayının artması onların imanlarına heç bir şey əlavə etmir. Onlar hər yerdə olsalar, həzrət Məhdini görür və həzrətlə danışırlar, halbuki həzrət də öz yerindədir; onlardan hər birinin üç yüz nəfər köməkçisi vardır.

Bə'zi rəvayətlərdə deyilir ki, "Əshabi-kəhf" də dirilərək həzrət Məhdi (əleyhis-salam)-ın köməkçiləri sırasına qoşulacaq, həmçinin həzrət Xızr və İlyas (əleyhiməs-salam) da o həzrətin köməkçilərindən olacaqdır. Digər rəvayətlərdə deyilir ki, bu dünyadan gedənlərdən bə'ziləri də Allahın izni ilə dirilərək o həzrətin köməkçiləri sırasında olacaqlar.

Rəvayətlərdə deyilir ki, zühura yaxın vaxtlarda həzrət Məhdi (ərvahuna fidah)-ın köməkçiləri üç dəstəyə bölünəcəkdir: Birinci dəstə o həzrətlə birlikdə Məkkəyə daxil olacaq, yaxud özlərini digər qruplardan öncə Məkkəyə yetirəcəklər. Digər bir dəstə bulud və ya havadan ibarət olan miniklə onun yanına gələcəklər, üçüncü bir qrup da gecələr evlərində, yaxud öz şəhər və diyarlarında olduqları halda, gözlənil-

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.334.
[2] "Hud" surəsi, 6-cı ayə.

mədən özlərini Məkkədə görəcəklər. İmam Baqir (əleyhis-salam) buyurur: *"Bu əmrin sahibinin bu qayalıqların bə'zilərində* (bunu deyən zaman Məkkənin dərələrində olan Zituvaya işarə etdi) *qeybət dövrü vardır. Nəhayət qiyamından iki gecə öncə öz qulamını göndərəcəkdir ki, həzrətin köməkçilərinin bə'ziləri ilə görüş keçirib onlardan soruşsun: "Siz burada neçə nəfərsiniz?" "Qırx nəfərik" – deyə cavab verərlər. O deyər: "Əgər öz əzizinizi və dostunuzu görsəniz nə edərsiniz?" Deyərlər: "Allaha and olsun, əgər dağlarda özünə məskən seçsə, onunla olacağıq." Bu zaman onların qarşısına gəlib deyər: "Öz böyükləriniz və seçilmişlərinizdən olan on nəfərlə məşvərət edin." Onlar birinci məsələ barəsində məşvərət etdikdən sonra onları aparacaqdır ki, öz sahiblərinə çatdırsın. Ondan sonra gələn və və'dəsi verilən gecəni onlara və'də verəcəkdir."*[1]

Bu rəvayətdə "onun qeybəti" dedikdə, məqsəd zühurdan əvvəl baş verəcək qısa müddətli qeybət, "bu köməkçilər"dən məqsəd isə o həzrətlə birlikdə olan, yaxud onunla əlaqə yaradan "həqiqi mö'minlər"dən, eləcə də hamılıqla "İmamı görmüşük" deyən, lakin təkzib edilən on iki nəfərdən başqalarıdır. Onlar İmamı axtarmaqla məşğul olan – yeddi alim kimi – layiqli şəxslərdir. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Qaim 9 məntəqədən olan 45 nəfərlə gələcəkdir: Bir məntəqədən bir nəfər, bir məntəqədən iki nəfər, bir məntəqədən üç nəfər, bir məntəqədən dörd nəfər, bir məntəqədən beş nəfər, bir məntəqədən altı nəfər, bir məntəqədən yeddi nəfər, bir məntəqədən səkkiz nəfər və bir məntəqədən doqquz nəfər. Nəhayət onun köməkçilərinin sayı kamilləşər."*[2]

Ehtimal üzrə, rəvayətdə qeyd olunan "iki dəstə"dən məqsəd özlərini həzrət Məhdi (əleyhis-salam)-ın sair köməkçilərindən qabaq Məkkəyə yetirən bir dəstə ola bilər.

Belə nəzərə çarpır ki, həzrət Məhdi (ərvahuna fidah)-ın gözlənilmədən öz yataqlarından yoxa çıxan və Allahın qüdrəti ilə bir göz qırpımında öz şəhər və diyarlarından Məkkəyə gedən köməkçilərinin məqamları yüksək olmalıdır. Gündüz buludların vasitəsilə o həzrətin hüzuruna gələn dəstə isə – rəvayətlərdə qeyd olunduğu kimi – özlərinin və atalarının adları ilə tanınır, onlar təbii surətdə Məkkəyə daxil olaraq camaatı qiyama səsləyəcəklər. Bu şəxslər ümumi şəkildə həzrət

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.341.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.309.

Məhdi (əleyhis-salam)-ın ən yaxşı və fəzilətli dostlarındandır. Ehtimal verilir ki, onlar o həzrətlə birlikdə yaşayan, yaxud dünyanın müxtəlif yerlərində o həzrətin işlərini yerinə yetirən, zühurun vaxtını dəqiq şəkildə bilən və tə'yin olunmuş vaxtda özlərini oraya yetirən həqiqi mö'minlərdir.

İmam Sadiq (əleyhis-salam) buyurur: *"Sahibul-əmrin köməkçiləri, hətta bütün insanlar aradan getsə də onun üçün qorunub-saxlanılır. Allah-taala Məhdinin köməkçilərini onun yanına gətirəcəkdir. Mütəal Allah onların barəsində buyurur: "Əgər ona qarşı küfr etsələr, Biz bir dəstəni bu ümmətə tə'yin edərik ki, onlar küfr etməzlər."* Həmçinin, onların barəsində belə buyurur: *"Tezliklə Allah-taala onların yerinə bir qövmü tə'yin edəcəkdir ki, Allah onları sevir, onlar da Allahı sevirlər. Onlar mö'minlərə qarşı təvazökar, kafirlərin qarşısında isə şiddətlidirlər."*[1]

İmam Baqir (əleyhis-salam) buyurur: *"...Onlardan bir dəstəsi gecə ikən öz yataqlarından yoxa çıxar, sübh çağı Məkkədə olarlar. Bir dəstə də gündüz buludların vasitəsilə hərəkət edəcəklər. Onlar özlərinin və atalarının adları, nəsəb xüsusiyyətləri ilə tanınacaqlar."* Soruşuldu ki, iman cəhətindən hansı daha üstündür? İmam (əleyhis-salam) buyurdu: *"O dəstə ki, gündüz zamanı buludlarla hərəkət edərlər."*[2]

Onların səfərinin gündüz buludların vasitəsilə olmasının mə'nası budur ki, Allah-taala onları Məkkəyə mö'cüzəli şəkildə – buludların vasitəsilə yetirəcəkdir. Belə bir ehtimal da vardır ki, digər müsafirlər kimi təyyarəyə minib adı və atasının adının yazıldığı pasportla Məkkəyə yola düşsünlər. Amma rəvayətlərdə *"mö'cüzəli hərəkət"* tə'biri qeyd olunmuşdur, çünki o dövrdə təyyarə yox idi.

Onların gecə ikən yerlərindən yoxa çıxan dəstəyə olan üstünlüklərinin səbəbi bu ola bilər ki, onlar o həzrətlə həmkarlıq edən həqiqi mö'minlərdir, yaxud digər qrup o gecəni öz evlərində keçirdikləri halda İmam (əleyhis-salam) başqalarından öncə onlarla əlaqə bərqərar və onları müəyyən işləri yerinə yetirməyə vəzifəli etmişdir, onlardan heç biri Allahın hüzurunda Məhdi (əleyhis-salam)-ın köməkçilərindən biri olacağını bilmir! Lakin onlar təqva, əql və agahlıqlarına görə belə məqama layiq olduqlarından Allah onları seçərək gecə ikən Məkkəyə aparıb o həzrətin hüzuruna çatdıracaqdır.

---

1 "Biharul-ənvar", 52-ci cild, səh.370.
2 "Biharul-ənvar", 52-ci cild, səh.368.

Bə'zi rəvayətlərdə deyilir ki, onlar öz damlarının üstündə yatdıqları halda, birdən-birə ev əhli onları görmür və mütəal Allah onları həmin anda Məkkəyə aparır. Bu da göstərir ki, o həzrət yay fəslində, yaxud yayla-payız arasında zühur edəcəkdir. Ola bilsin ki, onlardan bə'ziləri isti məntəqələrin əhalisindəndir ki, öz evlərinin damında yatmış olacaqlar.

Bir rəvayətdə qeyd olunur ki, onların Məkkədə bir yerə yığışması cümə axşamı və Məhərrəmin doqquzuncu gecəsi olacaqdır. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Mütəal Allah onları cümə gecəsində (sabahı cüməyə açılan gecədə) bir yerə yığacaq, onlar cümə günü sübh çağı hamılıqla Məscidul-Həramda o həzrətə bey'ət edərək öz vəfadarlıqlarını bildirəcək, heç biri (bu işdən) imtina etməyəcəklər."*[1]

Bu, şiə və sünnülərin rəvayət mənbələrində *"Mütəal Allah o həzrətin qiyamını bir gecədə tənzim edəcəkdir"* - deyə buyurulanlarla tamamilə uyğundur. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: "*Məhdi biz Əhli-beytin xanədanındandır. Allah onun qiyamını bir gecədə tənzim edəcəkdir."* Digər bir rəvayətdə isə buyurur: *"Allah onun qiyamını bir gecədə tənzim edəcəkdir."*[2]

Çünki bu köməkçilərin bir yerə yığılması Allah-taalanın müsəlmanların işlərini islah etməsi ilə əlaqədar mərhəmətlərindən biridir. Bu rəvayət o həzrətin zühurunun Məhərrəm ayının doqquzunda, cümə günü, axşam çağı başlanması və sonra şənbə günü, ayın onunda davam etməsini göstərən rəvayətlərlə tam uyğundur.

## İMTAHAN HƏRƏKƏTİ – NƏFSİ-ZƏKİYYƏNİN QƏTLƏ YETİRİLMƏSİ

Rəvayətlərə əsasən, həzrət Məhdi (ərvahuna fidah)-ın zühuru dövründə ictimai vəziyyət və onun gedişinə uyğun olaraq Məkkədə aşağıdakı fəal və tə'sirli qüvvələr olacaqdır:

a) Hicaz hökuməti; o, hökumətdə mövcud olan zəifliklə belə, o həzrətin ehtimali zühuru ilə qarşılaşmaq üçün öz qüvvələrini səfərbər edəcəkdir, halbuki, müsəlmanlar Məkkədə bu zühurun intizarını çəkirlər. Bu məqsədlə də həcc mövsümündə öz fəaliyyətlərini artıracaqlar.

b) Böyük qüdrətlərin təhlükəsizlik və casusluq şəbəkələri; onlar da Hicaz hökumətinə arxa durmaq və Süfyani qoşunlarını gücləndir-

---

[1] "Bişarətul-İslam", səh.210, "Dəlailul-imamət" kitabından nəqlən.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.280.

dirmək üçün fəaliyyət edəcək, yaxud Hicazın, xüsusilə Məkkənin vəziyyətini nəzarət altına alacaqlar.

v) Süfyaninin təhlükəsizlik qüvvələri; Onlar Mədinədən qaçanları tə'qib edəcək və Süfyani ordusunun Mədinəyə daxil olmasına münasib şərait yaradacaqlar ki, Məkkə tərəfindən yaranan hər növ zühur hərəkatını məhv etsin.

Bu müxalif hərəkatların müqabilində də yəmənlilər Məkkədə və Hicazda böyük rol oynayacaq, onların zəmin yaradan hökumətləri zühurdan bir neçə ay öncə tə'sis olunacaq, İmam (əleyhis-salam)-ın iranlı köməkçiləri də Məkkədə hazır olacaqlar, hətta o həzrətin Məkkə və bə'zən də Hicaz rejiminin qüvvələri arasında müəyyən köməkçiləri olacaqdır.

Müvafiq və müxalif cərəyanların hakim olduğu belə bir fəzada İmam Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) şərif hərəmdən öz hərəkat proqramını e'lan edəcək və Məkkəni öz ixtiyarına keçirəcəkdir. Təbiidir ki, rəvayətlərdə bu proqramın incəlikləri deyil, yalnız müqəddəs inqilabın qələbəsində faydalı və tə'sirli olan, yaxud heç olmazsa, zərəri olmayan miqdarı bəyan edilmişdir.

Onların arasında ən bariz hadisə budur ki, həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) zil-həccə ayının 23-də (yaxud 24-də), yə'ni zühurundan on beş gecə öncə köməkçilərindən və qohumlarından olan bir cavanı, öz bəyannaməsini e'lan etmək üçün Məkkəyə göndərəcəkdir. Amma o, namazdan sonra həzrət Məhdi (əleyhis-salam)-ın bəyanatını camaata oxuduğu zaman düşmənlər hücum edəcək və onu Məscidül-Həramın içində – Rükn ilə Məqam arasında vəhşicəsinə qətlə yetirəcəklər. Bu faciəli şəhadət asimanda və yerdə tə'sir qoyacaq.

İmtahan yönlü bir hərəkat olan bu hadisə çoxlu faydalara malik olmaqla, Hicaz hakimlərinin yırtıcılıq xüsusiyyətlərini və onu himayə edən kafirlərin vəhşiliklərini müsəlmanlar üçün aşkar edəcəkdir. Həmçinin bu faciəli hadisə həzrətin hərəkatına şərait yaradacaqdır, bu cinayət və vəhşiliklərin nəticəsində yerli hökuməti peşmançılıq və zəiflik bürüyəcəkdir.

Bu pak cavanın (o, qulam (yeniyetmə) və Nəfsi-Zəkiyyə kimi qeyd olunur) Məkkədə şəhadətə yetəcəyi şiə və sünnü mənbələrində mütəvatir şəkildə qeyd olunmuşdur və şiə mənbələrində daha artıq gözə dəyir. Bə'zi rəvayətlərdə onun adı Məhəmməd ibni Həsən kimi qeyd olunur. Əli (əleyhis-salam) bir rəvayətdə buyurmuşdur: *"İstəməzsinizmi ki,*

*filankəsin xanədanının axırıncı hökuməti barəsində sizə xəbər verim?"* Ərz etdilər ki, bəli, ey Əmirəl-mö'minin! Buyurdu: *"Hərəm diyarında günahsız bir şəxsin Qüreyşdən olan bir qrupun vasitəsilə qətlə yetirilməsi. Dənəni yaran və canları yaradan Allaha and olsun ki, bu hadisədən sonra onların hökuməti on beş gecədən artıq çəkməz."* Soruşdular: Bu hadisədən qabaq, yaxud sonra müəyyən bir əlamətdar hadisə baş verəcəkmi? Buyurdu: *"Ramazan ayında səmadan bir fəryad eşidiləcəkdir ki, ayıq olan şəxsi vəhşətə salar, yatanı oyadar, pərdə arxasında olan qızları çölə çıxardar."*[1]

*"Qüreyşdən olan bir qrup"* ifadəsi müəmmalı olduğuna görə, ehtimal üzrə, bu cümlədə səhvə yol verilmişdir. Əbu Bəsir İmam Sadiq (əleyhis-salam)-dan mərfu şəkildə belə nəql edir: *"Qaim öz köməkçilərinə deyər: "Ey mənim dostlarım! Məkkə əhli məni istəmirlər, lakin mən höccəti tamamlamaq üçün öz nümayəndəmi onlara tərəf göndərirəm ki, mənə layiq olan tərzdə höccəti onlara tamam etsin..." Sonra öz köməkçilərindən birini çağırıb deyər: Məkkəyə get və bu peyğamı oranın əhalisinə çatdırıb de: "Ey Məkkə əhli! Mən filankəsin xəbərini sizə çatdırmaq üçün gəlmişəm." O (Məkkəyə gedib) deyər: Biz rəhmət xanədanı, risalət ailəsi, İlahi xilafət məkanıyıq; biz Mühəmmədin sülaləsindən, peyğəmbərlər nəslindənik, Peyğəmbərimiz mələkuti-ə'laya getdiyi vaxtdan indiyə qədər bizim haqqımızda zülmlər rəva görülüb, danılmaz haqqımız əlimizdən alınıb. İndi sizdən kömək istəyirik, bizə kömək edin!" O cavan (Nəfsi-Zəkiyyə) bu sözləri dediyi zaman camaat hücum edər və onu Rükn ilə Məqam arasında şəhadətə çatdırarlar. Bu xəbər İmama çatan zaman öz köməkçilərinə buyurar: "Sizə demədimmi ki, Məkkə əhli bizi istəmir?!" Həzrətin köməkçiləri qiyam etdiyi vaxta qədər onu tək qoymazlar. O həzrət Tuva dağından üç yüz on üç nəfərlə birlikdə – eynilə Bədr müharibəsindəki İslam ordusunun sayı qədər – aşağı enər. Nəhayət Məscidül-Hərama daxil olub Məqami-İbrahimdə dörd rək'ət namaz qılar, sonra Həcərül-əsvədə söykənər. Allaha həmd-səna etdikdən, Peyğəmbərə salavat göndərdikdən sonra söhbətə başlayar ki, camaatdan heç kəs belə danışa bilməz."*

(Tuva – Məkkə yolu üzərində yerləşən bir dağın adıdır.) Nəfsi-Zəkiyyə barəsində deyilmişdir ki, o, güclü imana malik olan bir şəxsdir.

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.234.

İbni Həmmad öz kitabının 89-91-ci səhifələrində Nəfsi-Zəkiyyə ilə əlaqədar bir neçə rəvayət nəql etmişdir. O cümlədən, Əmmar Yasirin aşağıdakı rəvayətini qeyd etmək olar: *"Nəfsi-Zəkiyyə öldürülən zaman onun qardaşı da Məkkədə qətlə yetiriləcək. Bu ağır itki səbəbilə asimandan belə bir səs eşidiləcək: Sizin hakiminiz Məhdidir ki, yer üzünü haqq-ədalətlə dolduracaqdır."*[1]

"Yovmül-xəlas" kitabında (Süyutinin "Fətavi" kitabından nəqlən, 2-ci cild, səh.135) Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in belə buyurduğu deyilir: *"Məhdi yalnız o zaman qiyam edəcəkdir ki, Nəfsi-Zəkiyyə qətlə yetirilsin. O, şəhadətə çatanda asimanın və yerin əhli onun qatillərinə qəzəb edər. Bu zaman camaat Məhdinin yanına gələr, toy gecəsi bəxt evinə aparılan gəlinin ətrafına yığışan camaat kimi, onun ətrafına yığışarlar."*

Mən bu rəvayəti, bəyan etdiyim kimi, İbni Həmmadın əl yazmasında görmüşəm.

**EY PEYĞƏMBƏR! DE: HAQQ GƏLDİ VƏ BATİL MƏHV OLDU**

Zühurun necə və nə vaxt başlanması ilə əlaqədar rəvayətlər arasında bir qədər təfavüt vardır, lakin daha yaxşı nəzərə çarpan budur ki, İmam (əleyhis-salam) əvvəlcə özünün 313 nəfər köməkçisi arasında zühur edəcək, Məhərrəm ayının 9-cu günü axşam çağı Məscidül-Hərama daxil olacaq və özünün müqəddəs zühurunu işa namazından sonra Məkkə əhlinə xəbər göndərməklə başlayacaqdır. Sonra onun köməkçiləri gecə ikən bir-bir Məkkəyə daxil olub oranı əllərinə keçirəcəklər. O həzrət Məhərrəm ayının 12-ci günündə öz proqramını bütün dünya xalqlarına, onların öz dillərində çatdıracaqdır. Bundan sonra Süfyani ordusunun yerə batması mö'cüzəsinə qədər Məkkədə qalacaq, daha sonra özünün on iki min nəfərlik, yaxud ondan artıq ordusu ilə Mədinəyə doğru hərəkət edəcəkdir.

Diqqət yetirilməlidir ki, İmam (əleyhis-salam)-ın hərəkatının Məkkədən başlanmasını göstərən rəvayətlər "zühur", "xüruc" və "qiyam" kəlmələri ilə bəyan olunmuşdur. Belə nəzərə çarpır ki, bu tə'birlər eyni bir məzmunu ifadə edir, lakin rəvayətlərdən bə'ziləri zühur ilə xüruc arasında fərq qoymuşdur: İmam (əleyhis-salam)-ın Məkkədəki hərəkatı zühur, onun Məkkədən Mədinəyə doğru hərəkatı isə xüruc adlandırılır. Bundan əlavə, həm də xatırladılır ki, İmam (əleyhis-salam) Məkkədəki zühurunu

[1] "İbni Həmmadın əlyazması", səh.91.

özünün xüsusi köməkçilərinin vasitəsilə yerinə yetəcəkdir, amma Məkkədən Mədinəyə doğru hərəkəti – xürucu o zaman baş verəcəkdir ki, o həzrətin köməkçilərinin sayı on min nəfərə çatsın və Süfyaninin ordusu yerə batmış olsun. Əbdül-Əzim Həsəni (əleyhis-salam)-dan belə nəql olunur: İmam Cavad (əleyhis-salam)-a dedim ki, ümidvaram ki, Əhli-beytin Qaimi siz olasınız və yer üzü haqsızlıq və zülmlə dolduğu kimi, onu haqq-ədalətlə doldurasınız. Həzrət buyurdu: *"Ey Əbəl-Qasim! Biz Peyğəmbər Əhli-beyti, hamılıqla Allahın əmrinə qiyam edən, Allah dininə doğru hidayət edənlərik. Amma mən o Qaim deyiləm ki, Allah-taala onun vasitəsilə yer üzünü kafirlərin və inkarçıların iyrənc vücudundan təmizləsin, yer üzünün hər bir yerini haqq-ədalətlə doldursun. Onun (Qaimin) təvəllüdü camaatdan məxfi qalacaq, özü də camaatın gözlərindən uzaqda olacaq və onu öz adı ilə çağırmaq haram ediləcəkdir. O, Peyğəmbəri-Əkrəmlə eyni adda, eyni künyədədir, yer onun ayaqları altında ötüb keçəcək (teyyül-ərz edəcək), hər bir çətinlik ona asan olacaqdır... Onun köməkçiləri Bədr səhabələrinin sayı qədər – 313 nəfər olacaq və dünyanın ən ucqar yerlərindən gəlib bir yerə yığışacaqlar. Bu da Allah-taalanın buyurduğu aşağıdakı ayədir: "Hər yerdə olsanız, Allah sizin hamınızı bir yerə yığacaqdır; çünki O, hər bir işə qadirdir." Bu sayda adam onun ətrafına cəm olan zaman zühur edəcək, köməkçilərinin sayı on min nəfərə çatdıqda Allahın iznilə xüruc edəcək və Allah düşmənlərini o qədər qətlə yetirəcəkdir ki, nəhayət mütəal Allah ondan razı olacaqdır."* (Əbdül-Əzim deyir:) Mən dedim ki, ey mənim sərvərim! İmam Qaim Allahın razılığından necə agah olacaqdır? Buyurdu: *"Çünki Allah onun qəlbinə rəhm salacaqdır."*[1]

Ə'məş Əbu Vaildən rəvayət edir ki, Əmirəl-mö'minin bir gün öz oğlu Hüseynə baxaraq buyurdu: *"Mənim bu övladım, Peyğəmbərin seyyid və sərvər adlandırdığı kimi, sərvərdir. Allah tezliklə onun sülaləsindən sizin Peyğəmbərinizlə eyni adda, üzdə və sirədə (əməl və rəftarda) onun kimi olan bir kişini dünyaya gətirəcəkdir. O, camaat qəflət yuxusuna dalmış olduğu, haqq-həqiqətin öldüyü, zülm və sitəmin aşkar olduğu vaxt xüruc edəcəkdir. Allaha and olsun, əgər qiyam etməsə, onun boynunu vurarlar! Onun zühur və qiyamı ilə*

[1] "Biharul-ənvar", 51-ci cild, səh.157.

*asiman və yer əhli şad olar. O, yer üzünü haqsızlıq və zülmlə dolduğu kimi, haqq-ədalətlə dolduracaqdır."*[1]

O həzrətin buyurduğu *"əgər qiyam etməsə, boynunu vurarlar"* cümləsi göstərir ki, düşmənlərin təhlükəsizlik mə'murları və casusluq şəbəkələri zühurdan bir az qabaq bu hadisənin baş verəcəyindən xəbərdar olacaqlar və az qalacaq ki, onun tədbirləri aşkar olsun. Belə ki, əgər qiyam etməsə, qətl ilə təhdid olunacaqdır.

İbrahim Cəriri öz atasından belə rəvayət edir: *"Nəfsi-Zəkiyyə Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) xanədanından olan Məhəmməd ibni Həsən adlı bir cavandır ki, heç bir günahı olmadan qətlə yetiriləcəkdir. Onu öldürdükləri zaman asimanda və yerdə onlar üçün heç bir üzrxahlıq yeri qalmayacaqdır. Bu zaman Allah bir qrupun arasından Ali-Mühəmmədin Qaimini seçəcək, belə ki, onlar camaatın nəzərində gözün sürməsindən nazik və gizlindirlər. Qiyam etdikləri zaman camaat onların barəsində şəkk edərlər, çünki, onları tutacaqlarını təsəvvür edərlər. Amma Allah-taala dünyanın şərqini və qərbini onlar üçün fəth edəcəkdir. Agah olun, onlar həqiqi mö'minlərdir və bilin ki, cihadın ən yaxşısı axirəz-zamanda baş verəcəkdir."*[2]

Bu rəvayət göstərir ki, həzrət Məhdi (əccələllahu taala fərəcəhuş-şərif) əvvəldə öz köməkçilərindən az bir qrupla zühur edəcək, belə ki, camaat onların halına acıyacaq və tezliklə tutulub qətlə yetiriləcəklərini təsəvvür edəcəklər. İmam Baqir (əleyhis-salam) buyurur: *"Həqiqətən, Qaim Zi-tuva dağı səmtindən 313 nəfərlə – Bədr müharibəsindəki əsgərlərin sayı qədər adamla – aşağı enəcək, nəhayət Həcərül-əsvədə söykənəcək və Peyğəmbərin bayrağını qaldıracaq."* Əli ibni Həmzə deyir: Bu mətləbi İmam Kazim (əleyhis-salam)-ın hüzurunda dedikdə buyurdu: *"(Bu) açılmış bir yazıdır!"*[3]

Bu rəvayətdə məqsəd İmam (əleyhis-salam)-ın Məscidül-Hərama daxil olmazdan qabaq öz köməkçiləri ilə Zi-tuva dağında zühur edəcəyi deyildir, əksinə məqsəd budur ki, o həzrətin öz səhabələri ilə Məkkəyə gəlişi Zi-tuva dağı səmtindən olacaq, yaxud onların Məscidə doğru hərəkəti həmin yerdən başlanacaq. Rəvayətlərə uyğun olaraq Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in bayrağı (Cəməl müharibəsindən sonra açılmamışdır) o həzrətin yanındadır. Nəhayət, həzrət Qaim (əleyhis-salam) onu

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.120.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.217.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.306.

açacaq. Rəvayətlərə uyğun olaraq Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in və digər peyğəmbərlərin mirası da o həzrətin yanında olacaqdır.

İmamın buyurduğu *"açılmış bir yazı"* ifadəsi bu rəvayətin haşiyəsində qeyd olunmuşdur və onun mə'nası budur ki, o həzrət camaat üçün açıq bir məktub çıxaracaqdır. Bəlkə də bu yazı həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in imlası və həzrət Əli (əleyhis-salam)-ın əlyazması ilə yazılan məşhur əhdnamədir ki, həmin mənbədə mövcud olan rəvayətlər bu məsələyə işarə edir.

İmam Zeynul-abidin (əleyhis-salam) buyurur: *"Məhdi Tuva dağının ətəyindən üç yüz on üç nəfərlə birlikdə – Bədr müharibəsindəki döyüşçülərin sayı qədər adamla – aşağı enib Məscidül-Hərama daxil olacaq, Məqami-İbrahimdə dörd rək'ət namaz qılacaq və Həcərül-əsvədə söykənəcək, sonra Allaha həmd-səna edib Peyğəmbərə salavat göndərəcək. Bundan sonra elə (gözəl) danışacaq, belə ki, camaatdan heç biri belə sözlər deyə bilməz. Onunla bey'ət edən ilk şəxslər Cəbrail və Mikail olacaqdır."*[1]

Əlbəttə, rəvayətlərdə o həzrətin buyurduğu xütbələrin, yaxud Məkkə əhli üçün göndərdiyi sözlərin bir qismi, eləcə də bütün dünya müsəlmanları üçün göndərdiyi xəbər də qeyd edilmişdir. O cümlədən, İbni Həmmadın əlyazmasında Əbu Cə'fər Baqir (əleyhis-salam)-dan belə nəql olunur: *"Məhdi işa namazı zamanı zühur edəcək, halbuki Peyğəmbərin bayrağı, köynəyi və qılıncı onunla yanaşıdır; o, nişanələrə, nur və bəyana malikdir. İşa namazını qıldıqdan sonra uca və aşkar səslə buyurar: "Ey insanlar! Allahı sizə xatırladıram! Siz hal-hazırda Allahın hüzurunda dayanmışsınız. O, Öz höccətini seçmiş, peyğəmbərləri göndərmiş... Asimani Kitabı nazil etmiş və sizə əmr etmişdir: Heç bir şeyi Ona şərik qoşmayın, Allahın və Onun Rəsulunun fərmanlarına itaət edin, Qur'anın diri saxladığı şeyi diri saxlayıb, öldürdüyü şeyi öldürün (Qur'anın qadağan etdiyi şeyləri tərk edin), düzlük və hidayət tərəfdarı, təqvaya arxa olun, çünki dünyanın məhv olub zavala uğraması yaxınlaşıbdır, artıq o, vidalaşmanı e'lan etmişdir... Mən sizi Allaha, Onun Rəsuluna itaət və Allahın Kitabına əməl və batil işləri tərk etməyə, Peyğəmbər sünnəsini dirçəltməyə də'vət edirəm. (Sonra 313 nəfərlə – Bədr müharibəsindəki cəngavərlərin sayı qədər adamla – və əvvəlcədən qərar qoyulmadan zühur edər. Onun köməkçiləri payız buludları*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.307.

*kimi pərakəndədir; onlar gecənin zahidləri, gündüzün şirləridir. Allah Hicazı Məhdi üçün fəth edər. O, zindanda olan hər bir Bəni-Haşimi azad edər. Bundan sonra Kufədə qara bayraqlar sancılar, həzrət Məhdi (ələyhis-salam)-la bey'ət etmək üçün bir qrup adam göndərərlər. O həzrət öz əsgərlərini dünyanın müxtəlif yerlərinə göndərər, zülmü, haqsızlığı və zalımları aradan qaldırar, onun vasitəsilə ölkələrdə haqq-ədalət və düzlük hakim olar."*[1]

Bu rəvayətdəki *"payız buludları"* tə'birindən məqsəd budur ki, payız buludları asimanda pərakəndə vəziyyətdə olur, sonra bir-birinə birləşir. Həzrət Məhdi (ruhum ona fidah)-ın köməkçilərinin bir yerə yığışması barəsində bu təşbihi ilk dəfə Əmirəl-mö'minin Əli (ələyhis-salam) işlətmişdir ("Nəhcül-bəlağə"nin 166-cı xütbəsində və 1 nömrəli qəribə kəlmələrində). Bəlkə də bu tə'biri Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-dən əxz etmişdir. Ehtimal verilir ki, həzrət Məhdi (ələyhis-salam)-ın zühuru və onun köməkçilərinin Məkkədə bir yerə yığışması, əvvəldə işarə edildiyi kimi, yayın axırlarında və payız fəslində baş verəcəkdir. Əbu Xalid Kabuli nəql edir ki, İmam Baqir (ələyhis-salam) belə buyurdu: *"Allaha and olsun, sanki Qaimimizi görürəm ki, Həcərül-əsvədə söykənmişdir, sonra mütəal Allahı Öz haqqına and verib deyir: Ey camaat, hər kəs Allah barəsində mənimlə münaqişə etsə, (onda bilməlidir ki,) mən camaat arasında Allaha ən yaxın olan adamam. Ey insanlar, hər kəs Adəm barəsində mənimlə münaqişə etsə, (bilməlidir ki,) mən Adəmə qarşı camaatın arasında ən yaxınam. Ey camaat! Hər kəs Nuh barəsində mənimlə münaqişə etsə, (bilməlidir ki,) mən camaat arasında ona ən yaxın olanıyam. Ey insanlar! Hər kəs İbrahim barəsində mənimlə münaqişə etsə, (bilməlidir ki,) mən İbrahimə ən yaxın olan adamam. Ey insanlar! Hər kəs Musa barəsində mənimlə münaqişə etsə, (bilməlidir ki,) mən camaat arasında Musaya ən yaxın olanam. Ey camaat! Hər kəs İsa barəsində mənimlə münaqişə etsə, (bilməlidir ki,) camaat arasında ona ən yaxın olan mənəm. Ey camaat! Hər kəs Mühəmməd (səlləllahu ələyhi və alihi və səlləm) barəsində mənimlə münaqişə etsə, (bilməlidir ki,) mən camaat arasında ona ən yaxın olanam. Ey camaat hər kəs Allahın Kitabı barəsində mənimlə münaqişə etsə, (bilməlidir ki,) mən camaat arasında Allahın Kitabına ən yaxşı agah olan şəxsəm... Sonra Məqami-İbrahimə gedərək iki rək'ət namaz qılar."*[2]

---

[1] "İbni Həmmadın əlyazması", səh.95.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.315.

Digər rəvayətdə bə'zi kəlmələr də əlavə olunmuşdur. O cümlədən: *"Ey insanlar, biz Allahı köməyə çağırırıq. Sizdən hansı biriniz bizim də'vətimizə müsbət cavab verər?! Biz sizin Peyğəmbəriniz həzrət Məhəmməd (səllallahu əleyhi və alihi və səlləm)-in Əhli-beyti və camaat arasında ona ən yaxınlarıq... Mən Adəmin canişini və varisi, Nuhun zəxirəsi, İbrahim sülaləsindən və Məhəmməd xanədanından seçilmişəm... Agah olun, hər kəs Peyğəmbər sünnəsində mənimlə münaqişəyə qalxsa, (bilməlidir ki,) mən Peyğəmbər sünnəsinə hər kəsdən artıq agah və yaxınam... Allah 313 nəfər köməkçisini əvvəlcədən qərar olmadan bir yerə toplayar... Onlar Rükn ilə Məqam arasında o həzrətlə bey'ət edərlər. Onun yanında ata-babalarının Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-dən irs apardığı bir əhdnamə vardır."*[1]

Bə'zi rəvayətlərdə buyurulduğuna əsasən, həzrətin köməkçilərindən biri Məscidül-Həramda ayağa qalxaraq, əvvəlcə o həzrəti camaata təqdim edəcək, sonra isə onları İmamın sözlərini eşidib dinləməyə və qəbul etməyə çağıracaqdır. Bundan sonra İmam (əleyhis-salam) ayağa qalxaraq söhbətə başlayacaq.

İmam Zeynul-abidin (əleyhis-salam) buyurur: *"Ona bağlı olan bir şəxs ayağa qalxaraq uca səslə deyər: "Ey camaat, bu sizin istədiyiniz şəxsdir ki, indi sizin yanınıza gəlmişdir. O sizi elə Peyğəmbəri-Əkrəmin də'vət etdiyi işlərə çağırır." Bu zaman camaat ayağa qalxar, İmam da ayağa qalxaraq söhbətə başlayar və deyər: "Ey camaat, mən filankəsin oğlu filankəs və Peyğəmbəri-Əkrəmin övladıyam. Sizi Allahın Peyğəmbərinin də'vət etdiyi şeylərə də'vət edirəm." Bu zaman camaat ayağa qalxaraq onu öldürmək istəyər. Amma o həzrətin 313 nəfər köməkçisi bu hadisənin qarşısını alarlar."*[2]

*"Ona bağlı olan bir nəfər"* ifadəsinin mə'nası "onun sülaləsindən olan bir şəxs"dir. *"Ayağa qalxarlar"* dedikdə ehtimal üzrə məqsəd budur ki, onlar hakim rejimin qorxusundan ayağa qalxıb, camaatın dillər əzbəri olan və intizarı çəkilən Məhdidən üz döndərib qayıtmaq istəyərlər. İmam (əleyhis-salam)-a hücum edib onu öldürmək istəyənlər, şübhəsiz, Hicaz rejiminin xəfiyyə mə'murlarıdır. Rəvayət dəqiq şəkildə çatdırır ki, müsəlmanlar vəsfə sığmaz bir şövq ilə o həzrəti axtarır, eyni zamanda hökumət tərəfindən də qorxu hissi keçirirlər.

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.338-339.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.306.

Diqqət yetirmək lazımdır ki, Məkkə və Hərəmi azad etməkdə İmam (əleyhis-salam)-ın xüsusi köməkçilərinin – özü də rəvayətdə qeyd olunan irticaçı bir şəraitdə – kifayət olmaları uzaq ehtimaldır. Bu mətləbi Nəfsi-Zəkiyyənin *"mən Məhdinin göndərdiyi adamam"* – dediyinə və İmamın sözlərinin bə'zi hissələrini oxuduğuna görə faciəli şəkildə qətlə yetirilməsindən başa düşə bilərik. Şübhəsiz, İmam Məhdi (əleyhis-salam) Allahın qeybi vasitələrindən istifadə etməkdən əlavə, təbii vasitələrdən də istifadə edərək özünün ilk çıxış mərasimini çox gözəl və kamil şəkildə bərqərar edəcəkdir. Bundan sonra onun köməkçiləri şərif Hərəmə və daha sonra Məkkəyə hakim olacaqlar. Bu da o həzrətin Yəmən, İran, Hicaz və hətta Məkkənin özündə və əksəriyyəti həzrətlə bey'ət etmiş olan yüzlərlə, minlərlə köməkçisinin vasitəsilə olacaqdır. Onlar həzrətin müqəddəs hərəkatının qələbə çalması üçün tədarük görülmüş hərbi qüvvələrdir və çox mühüm və zəruri işləri yerinə yetirmiş olacaqlar. Onlar Məkkənin idarə olunmasını öz əllərinə alacaqlar. Camaatın kütləvi şəkildə o həzrətə arxa durmaları təkamül tapmış bir inqilab səviyyəsinə gəlib çıxacaqdır. Eləcə də o həzrət özünün üç yüz on üç nəfərdən ibarət olan xas köməkçilərinə istiqamət verməkdə və fəaliyyət göstərmələrində rəhbərlik edəcəkdir. Bu o deməkdeyildir ki, həzrətin zühur hərəkatı çox qanlı bir hərəkatdır. Çünki rəvayətlərdə Məscidül-Həramda və hətta Məkkədə hər hansı qanlı çarpışma bəyan edilmir. Bir alimdən eşitmişəm ki, Məhdi (əleyhis-salam)-ın köməkçiləri Məscidül-Həramın pişnamazını elə o gecədə həlak edərlər. Lakin mən bu barədə heç bir rəvayət tapmamışam. Əldə etdiyim son mətləb "İlzamun-nasib" kitabında (2-ci cild, səh.166) bir alimin dilindən belə nəql olunur: "Həzrət Höccət məhərrəmin 10-cu günündə xüruc edəcək, səkkiz arıq çəpişi öz önündə aparan bir halda Məscidül-Hərama daxil olacaq, onların xətibini qətlə yetirəcək. Bu zaman Kə'bədə camaatın gözündən qaib olacaq. Şənbə günü Kə'bənin damına çıxacaq və özünün üç yüz on üç nəfər köməkçisini çağıracaq. Onlar yerin şərqindən və qərbindən gəlib bir yerə toplaşacaq, şənbə günü sübh çağı camaatı özü ilə bey'ət etməyə çağıracaqdır."

Amma bu söz, rəvayət olmamaqdan əlavə, mətni də çox zəifdir. Buna əsasən yaxşı olar ki, belə deyək: O həzrətin zühuru qan axıdılmadan baş verən bir hərəkatdır. Çünki İmam (əleyhis-salam)-ın istifadə etdiyi qeybi imdadlar Allah düşmənlərin qəlbinə qorxu və vəhşət

salacaq. Çünki xalq kütlələri o həzrətə qoşulmaq üçün onu axtarmaqda olacaq, Hərəmi, qüdrət mərkəzlərini və Məkkənin həssas yerlərini qan axıdılmadan ələ keçirmək məqsədilə möhkəm və dəqiq planlar nəzərdə tutulmuş olacaqdır. Bu əməliyyatların müqəddəs Hərəmin və Məkkənin hörmətini qoruyub saxlamaq üçün o həzrətin tərəfindən töküldüyü də ehtimal verilir.

... O gecə Məkkə tam asudə nəfəs çəkəcək. Həzrət Məhdi (əleyhis-salam)-ın bayrağı Məkkənin yüksəkliklərində yellənəcək, onun nuru hər yerə saçılacaqdır. Düşmənlər və onların dünya səviyyəsində olan müxbirləri isə o həzrətin müqəddəs hərəkatının qələbə xəbərini gizlətmək istəyəcək və onun tə'xirə düşdüyünü e'lan edəcəklər, əgər vaxtından əvvəl aşkar olarsa, onu məhdilik iddiasında olan ifratçı şəxslər tərəfindən başlanan bir hərəkat kimi qiymətləndirəcəklər. (Belə ki, əvvəllər onlardan bir neçəsi Məkkədə və başqa yerlərdə bu iddianı etmiş və məhv edilmişdir.) Digər tərəfdən də Məkkə daxilində öz casusluq fəaliyyətlərini gücləndirəcəklər ki, hərəkatın rəhbəri, onun qüvvələri və onlarda olan zəif cəhətlərdən mə'lumat toplayıb bu xəbərləri Süfyani qüvvələrinə çatdırsınlar və onun göstərişi ilə ən qısa müddətdə onu Məkkədən çıxartsınlar.

Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) öz hərəkatının dünya səviyyəli olmasına tə'kid etmək üçün şənbə günü (rəvayətlərin dediyinə görə Aşura günü olacaq) Məkkəyə daxil olacaq, bütün müsəlmanlara və dünya xalqlarına, onların öz dillərində xitab edəcək və onları kafirlər və zalımların əleyhinə qiyama səsləyəcəkdir. İmam Baqir (əleyhis-salam) buyurmuşdur: *"Qaim şənbə günü, İmam Hüseynin şəhadətə çatdığı gün (Aşura günü) zühur edəcəkdir."*[1]

Halbuki əvvəlki rəvayət o həzrətin cümə günü, işa namazından sonra zühur edəcəyini bəyan etmişdir. Bu iki rəvayətin arasındakı ziddiyyəti aradan qaldırmaq üçün belə demək olar ki, İmam (əleyhis-salam)-ın zühuru iki mərhələdə yerinə yetiriləcəkdir, İmamın Hərəmə və Məkkəyə hakim olması Məhərrəmin 10-da, o həzrətin zühurunun dünyaya e'lan olunması isə şənbə günündə – Aşura günü – baş verəcəkdir.

Şübhəsiz, bu məsələ dünya dövlətləri üçün böyük əhəmiyyət daşıyacaq və müsəlman xalqları arasında ciddi əksül-əməllərə səbəb olacaqdır. Xüsusilə, İmam (əccəlallahu təala fərəcəhuş-şərif) onları və'də verilmiş mö'cüzədən – əziz cəddi Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in dilindən

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.285.

bəyan olunan bir mö'cüzədən – xəbərdar edəcəkdir: Süfyani ordusu o həzrətin hərəkatını məhv etmək üçün Suriyadan Məkkəyə gəldiyi zaman yolda yerə batacaqdır.

O həzrətin Məkkədə neçə gün qalacağı və orada görəcəyi tədbirlər barəsində çoxlu rəvayət mövcuddur. O cümlədən: *"İmam Məkkədə Allahın istədiyi və iradə etdiyi bir vaxta qədər qalacaqdır."*[1]

Digər bir rəvayətdə deyilir ki, İmam Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) şərif Kə'bənin yolkəsənlərinə şər'i hədd cari edəcəkdir (cəzalandıracaqdır). Yolkəsənlər dedikdə bəlkə də məqsəd o həzrətdən qabaqkı Hicaz hakimləridir... Şübhəsiz, o həzrətin tədbirlərindən biri də İslami millətlər üçün xitabə söyləmək və özünün dünya səviyyəsindəki siyasi mövqeyini e'lan etmək olacaqdır. Rəvayətlərə əsasən, İmam (əleyhis-salam) Məkkədən yalnız Süfyani ordusunun yerə batması mö'cüzəsi baş verdikdən sonra çıxacaqdır. Amma belə nəzərə çarpır ki, bu ordu İmamın hərəkatı aşkar olduqdan sonra onu məhv etmək məqsədilə sür'ətlə Məkkəyə doğru hərəkət edəcək və Məkkəyə çatmazdan qabaq Allah-taala onları yerə batıracaqdır. Bəli, qərbin və şərqin küfr başçıları İmam (əleyhis-salam)-ın qələbəsi müqabilində çox şiddətli əksül-əməl göstərəcəklər. Elə qəzəblənəcəklər ki, öz əsəblərini belə ələ ala bilməyəcəklər. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Haqq bayrağı aşkar olan zaman şərq və qərb əhli ona nifrin edərlər."* Soruşuldu ki, nə üçün? Buyurdu: *"Bəni-Haşimdən gördükləri müsibətlərə görə."* Digər bir rəvayətdə isə: *"ondan qabaq, onun Əhli-beytindən qabaq gördüyü şeylər səbəbilə".*[2]

Bu rəvayət göstərir ki, o həzrətdən qabaq zühura şərait yaradan bir neçə hərəkat da baş verəcəkdir ki, onların əksəriyyətinin rəhbərliyini Bəni-Haşim seyidləri öhdəsinə alacaqlar, dünya kafirləri də onların İslami hərəkatları və İslamçılıq dalğaları sarıdan çoxlu çətinliklərlə qarşılaşacaqlar.

Rəvayətlərə əsasən, İmam Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) Məkkə şəhərinə hakim tə'yin etdikdən sonra on min, yaxud daha artıq əsgərdən ibarət olan bir qoşunla Mədinəyə yola düşəcəkdir. İmam Baqir (əleyhis-salam) buyurur: *"Qaimlə Allahın Kitabı və Peyğəmbərin sünnəsi əsasında Məkkədə bey'ət alınacaq. İmam Məkkədə öz tərəfindən bir hakim tə'yin edəcək və bundan sonra Mədinəyə yollanacaq, yol əsnasında ona xəbər*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.334.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.363.

*veriləcəkdir ki, onun nümayəndəsini qətlə yetirmişlər. İmam yenidən Məkkəyə qayıdacaq, yalnız onun qatillərini qətlə yetirəcəkdir."*[1]

İmam Sadiq (əleyhis-salam) buyurur: *"O, Məkkə əhlini hikmət və gözəl moizələrlə haqqa də'vət edəcək, onlar da itaət edəcəklər. Sonra öz xanədanından olan bir kişini onlara özünün nümayəndəsi tə'yin edərək Mədinəyə yola düşəcəkdir. İmam Məkkədən çıxdığı zaman onun nümayəndəsinə hücum edəcəklər. Buna görə də İmam onlara doğru qayıdacaq, onlar xəcalətli, ah-nalə edən bir halda İmama tərəf gələrək deyərlər: Ey Ali-Mühəmmədin Məhdisi, tövbə-tövbə!! (Öz əməlimizdən peşmanıq, bizə güzəştə get)! Bu zaman İmam onlara moizə və nəsihət edər, təhlükənin baş verdiyini bildirər və onları baş verən yaramaz işdən çəkindirər, digər bir nümayəndəni onların arasında seçər və bundan sonra Mədinəyə qayıdar."*[2]

Bu rəvayət Məkkədə İmamla çarpışanların hərəkatına işarə etmir və birinci rəvayətdə deyilən "qatilləri qətlə yetirəcəkdir" sözündən məqsəd, bəlkə də onun Məkkədəki nümayəndəsini öldürənləri qətlə yetirməsidir. İmam (əleyhis-salam) Mədinəyə hərəkət etdiyi zaman Süfyani ordusunun yerə batdığı yerdən keçəcəkdir. "Təfsiri Əyyaşi"də İmam Baqir (əleyhis-salam)-dan belə nəql olunur: *"Onlardan (Ali-Mühəmməddən) olan bir kişi 313 nəfərlə birlikdə yola düşər, onlar Mədinəyə doğru gedərək Peyğəmbərin bayrağını özləri ilə apararlar, nəhayət (bir yerə çatarlar ki, orada) İmam buyurar: Bura qoşunların Allahın əmri ilə yerə batdığı yerdir və Allah-taala bu ayəni onların barəsində nazil etmişdir: "Məkr, hiylə və pislik edənlər yerin onları udacağından, yaxud bilmədikləri yerdən onlara əzab gələcəyindən, yaxud onları əhatə edəcəyindən və gediş-gəliş etdikləri zamanda onları aciz edəcəklərindən amandadırlarmı?!"*[3]

## MƏDİNƏNİN VƏ HİCAZIN AZAD EDİLMƏSİ

Rəvayətlərdə deyilir ki, həzrət Məhdi (əccəlallahu taala fərəcəhuş-şərif) Məkkədə baş verənlərin əksinə olaraq Mədinədə bir neçə müharibə aparacaqdır. İmam Baqir (əleyhis-salam)-dan uzun bir hədisdə belə nəql olunur: *"Mədinəyə varid olan zaman Qüreyş onlardan qaçıb gizlənər. Bu da Əli (əleyhis-salam)-ın onların barəsində buyurduğu bu kəlamdır: "Allaha and olsun, Qüreyş istəyər ki, mən, hətta bir dişi dəvənin öldürülməsi zamanı qədər*

[1] "Biharul-ənvar", 52-ci cild, səh.308.
[2] "Biharul-ənvar", 53-cü cildi, səh.11.
[3] "Nəhl" surəsi, 46-47-ci ayələr.

*belə – bütün var-dövlətləri və günəşin saçdığı şeylər müqabilində – onların yanında olaydım! Sonra İmam bə'zi işlər görəcək və müəyyən hadisələr vücuda gətirəcəkdir. Bu hadisələr baş verəndə Qüreyş deyər: "Bizi bu tüğyançının yanına aparın, Allaha and olsun, əgər o, Məhəmmədi, Ələvi və Fatimi olsaydı, bu işlərə əl atmazdı!" Sonra Allah qüreyşliləri o həzrətə təslim edər, həzrət də qatillərin özlərini həlak edər və onlara bağlı olanların hamısını əsir tutar, sonra hərəkət edib Şəqrədə (Hicazın İran-İraq səmtindəki yol üzərində yerləşən bir məntəqədir) düşərgə salar. Orada xəbər verərlər ki, onun nümayəndəsini qətlə yetirmişlər. Yenidən oraya qayıdar, elə bir qırğın törədər ki, ondan əvvəlki Hirrə qırğını əhəmiyyətsiz görünər. Sonra gedib camaatı Allahın Kitabına və Peyğəmbərin sünnəsinə də'vət edər."*[1]

Bu rəvayət Mədinədə iki müharibənin baş verəcəyini göstərir ki, birincisi Qüreyşin və başqalarının xoşlamadığı hadisələrdən sonra həzrətin əli ilə baş verəcək. O hadisə Peyğəmbər məscidinin uçurulması, o həzrətin pak qəbrinin yenidən qurulmasıdır. (Digər rəvayətlərdə də bu mə'na bəyan olunmuşdur.) Düşmənləri bu hadisəni bəhanə edərək o həzrətin əleyhinə mübarizəyə başlayacaqlar. Həzrət onlarla müharibəyə qalxacaq və onlardan yüzlərlə adamı həlak edəcək. Məhz bu zaman qüreyşlilər (Qüreyş qəbiləsinə bağlı olanlar) arzu edərək deyəcəklər ki, "kaş, Əmirəl-mö'minin hətta dişi dəvənin kəsilməsi zamanı qədər belə, burada olaydı və bizi Məhdinin əlindən xilas edəydi!" Çünki Əli (əleyhis-salam) onların barəsində güzəştə getmək və səbir etmək əsasında rəftar edirdi.

İkinci müharibə isə İmamın bu müxalif hərəkata son qoymasından, Mədinəyə hakim tə'yin etdikdən və o həzrətin İraqa, yaxud İrana doğru yola düşməsindən və Şəqrə (yaxud Şəqratda) düşərgə salmasından sonra olacaqdır. Belə ki, Mədinə əhalisi yenidən müxalifətə başlayacaq və İmamın tə'yin etdiyi nümayəndəni qətlə yetirəcəkdir, İmam da oraya qayıdacaq və Əməvi ordusunun məşhur Hirrə hadisəsində qırdığı əhalidən artıq camaatı orada öldürəcək və yenidən Mədinəni öz hakimiyyəti altına keçirəcəkdir. Bunu da nəzərə alaq ki, Hirrə əhlinin İmam Hüseyn (əleyhis-salam)-ın qiyamından sonra Yezid ibni Müaviyəyə qarşı qiyamı haqq və qanuni bir inqilab idi. Amma Mədinə əhlinin İmam Məhdi (ərvahuna fidak)-ın əleyhinə aparacaqları tüğyan-

[1] "Biharul-ənvar", 52-ci cild, səh.342, "Təfsiri Əyyaşi"dən nəqlən.

çılıq hərəkətləri bunun tamamilə ziddinədir. İmam (əleyhis-salam)-ın Mədinə əhli ilə edəcəyi rəftarla Yezidin Hirrə əhlinə qarşı rəva gördüyü əməl sadəcə olaraq öldürülənlərin sayında bir-birinə təşbeh edilmişdir.

"Yovmul-xəlas" kitabının 265-ci səhifəsində ("Təfsiri Əyyaşi"dən nəqlən) qeyd edilən rəvayətdən mə'lum olur ki, həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) Mədinəyə daxil olarkən çoxlu müharibə aparacaqdır. Halbuki, bu rəvayət İmam (əleyhis-salam)-ın Mədinəyə daxil olduqdan sonra iki müharibə aparacağını bəyan edir. "Yovmul-xəlas" kitabındakı rəvayətlərdə – mənbə baxımından – ümumi şəkildə diqqət və araşdırmalar aparılmasına ehtiyac duyulur. Çünki onun müəllifi rəvayətləri hissə-hissə etmiş, bir rəvayətin bə'zi hissələrini başqa bir rəvayətin bir hissəsinə birləşdirmiş və bundan sonra tərkib tapınış rəvayəti müəyyən bir mənbəyə nisbət vermişdir.

Bəlkə də həzrət Məhdi (əleyhis-salam) öz ordusunu Mədinəyə daxil edib yerli hökumətin, yaxud Süfyani ordusunun tör-töküntüləri ilə qarşılaşan zaman onlar müqavimət göstərəcəklər, yaxud onların arasında müharibə baş verəcək və İmam onlara qələbə çalacaqdır. Amma mən bu mə'nanı çatdıran heç bir rəvayət görmədim, lakin Mədinə əhlinin həzrət Məhdi (ərvahuna fidah)-a razı olmalarına və müqavimət göstərməmələrinə təkcə bir rəvayət dəlalət edir. "Kafi" kitabında İmam Sadiq (əleyhis-salam)-dan belə nəql olunur: *"O gündə Mədinədə olan Ələvilər Məkkəyə qaçarlar ki, orada bu əmrin sahibinə qoşulsunlar. Bu əmrin sahibi də ora gedərək Mədinəyə bir qoşun göndərəcəkdir ki, oranın əhalisinin təhlükəsizliyini tə'min etsin və camaat yenidən Mədinəyə qayıtsın."*[1]

Bu rəvayətin məzmununu qüvvətləndirən məsələ Süfyani ordusunun mö'cüzəli şəkildə yerə batmasını, bundan sonra da Hicaz hökumətinin zəifləyib süqut etməsini və ümumxalq kütlələrinin Məhdi (əleyhis-salam)-a arxa durmalarını gördükləri zaman hamıdan artıq Mədinə əhlinin sevinc hissi keçirmələridir ki, İmamın onların özlərindən olduğunu görəcəklər.

Bu rəvayət göstərir ki, o dövrdə İmam (əleyhis-salam) şəxsən Mədinəyə gəlməyəcək, əksinə bir ordunu oraya göndərəcəkdir. Bu ehtimal həqiqətə daha yaxın və digər nəzərlərdən üstündür.

---

[1] "Kafi", 8-ci cild, səh.224.

Mümkündür ki, İmam (əleyhis-salam) tərəfindən tə'yin olunan hakimin qətlə yetirilməsi ilə nəticələnən müxalif hərəkatlar çox da qısa olmayan bir müddətdən – o həzrətin Mədinəyə və Hicaza hakim olmasından bir müddət sonra baş vermiş olsun.

Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-in şərif qəbrinin və Peyğəmbər məscidinin tə'mir olunub yenidən işlənməsi, Kə'bə və Məscidül-Həramın binasının yeniləşdirilməsinə gəldikdə isə, bu barədə düzgün nəzər budur ki, bu tədbirlər ölkələrin biri digərindən sonra azad edilməsi və bu yolda aparılan müharibələrin sona çatmasından ibarət olan səkkiz aydan sonra baş verəcəkdir. Həm də mümkündür ki, bu kimi işlər Qüdsün azad edilməsi və İslam ölkələrinin o həzrətin hakimiyyəti altına keçməsindən sonra baş versin.

Hər bir halda, rəvayətlərdə deyilir ki, Allah-taala Hicazı o həzrətin qüdrətli əlləri ilə azad edəcəkdir ki, bu da həqiqətdə Hicazın zəifləmiş hökumətinin tör-töküntüləri və Süfyani qüvvələrinin qalıqlarının süqut etməsindən ibarətdir. Belə bir ehtimal da verilir ki, Hicazın azad edilməsi və oranın əhalisinin həzrətlə bey'ət etməsi İmamın Məkkəni ələ keçirməsindən və Süfyani ordusunun mö'cüzəli şəkildə yerə batmasından sonra olsun.

Hicazın o həzrətin hakimiyyəti altına keçməsi ilə onun hakimiyyət hüdudları – İraqda müxaliflərin varlığı ilə belə – Yəmən, Hicaz, İran və İraqa şamil olacaq və güclü ehtimala görə cənubi Yəmən də o həzrətin hakimiyyəti altına keçəcəkdir. Bu məsələnin İmamın yəmənliköməkçilərinin inqilabı zamanı baş verməsi də mümkündür. Həmçinin Fars körfəzində olan kiçik dövlətlər bir tərəfdən İmamın Hicaza hakim olması, digər tərəfdən də öz millətlərinin köməyi, habelə yəmənli və iranlı köməkçilərinin fədakarlığı nəticəsində o həzrətin hakimiyyəti altına keçəcəkdir.

Təbiidir ki, İmamın rəhbərliyi ilə belə geniş səviyyəli bir hökumətin təşkil olunması şərqdə və qərbdə kəskin əksül-əmələ səbəb olacaqdır. Çünki həzrət Məhdi (əleyhis-salam)-ın hökumətinin hüdudları Babulməndəb boğazından Hürmüz boğazına və Fars körfəzinə qədər olduğu üçün böyük dövlətlər üçün iqtisadi və strateji təhlükə hesab olunacaqdır. Bundan əlavə, mütərəqqi İslam mədəniyyətinin genişlənib yayılması da onlar üçün ciddi bir təhlükə sayılır ki, şərqin, qərbin və yəhudilərin varlığını təhlükəyə salacaqdır. İmam Sadiq (əleyhis-salam)-dan nəql olunan bir rəvayətdə deyilir ki, "şərq-qərb həzrət Məhdi (əleyhis-salam)-ın

bayrağına, yə'ni onun inqilab və hökumətinə qarğış edəcəklər". Onlar azad olunmuş məntəqələrdə bütün nüfuzlarını əldən verəcək və bu xəsarəti aradan qaldırmaq üçün özlərinin hərbi dəniz donanmalarını Fars körfəzinə və məntəqə ilə qonşu olan sair yerlərə gətirəcəklər. Çünki onlar üçün dəniz və hava donanması ilə təhdid etməkdən başqa bir çıxış yolu qalmayacaqdır. Bəsrədə və Ağ dağdakı müharibə odunu da məhz onlar şiddətləndirəcəklər.

## HƏZRƏT MƏHDİ İRANDA VƏ İRAQDA

Həzrət Məhdi (əleyhis-salam)-ın Hicazdan hərəkətə başlaması ilə əlaqədar rəvayətlərdə çoxlu təfavütlər gözə dəyir. Şiə mənbələrindəki rəvayətlərdə ümumi şəkildə deyilir ki, İmam (əleyhis-salam) Hicazdan birbaşa İraqa yola düşəcək, bə'zi rəvayətlərdə də deyilir ki, birbaşa Məkkədən oraya varid olacaqdır. Bu mətləbi "Rövzeyi-kafi" kitabından nəql olunan hədis dəstəkləyir. Orada deyilir ki, İmam (ərvahuna fidah) Mədinəyə doğru bir qoşun göndərəcəkdir.

Amma sünnü mənbələrindəki rəvayətlərin ümumi bəyanı bundan ibarətdir ki, o həzrət Məkkədən Şama və Qüdsə gedəcək, bə'zi rəvayətlərdə də deyilir ki, o həzrət əvvəlcə İraqa, sonra Şama və Qüdsə doğru hərəkət edəcəkdir. Yalnız İbni Həmmadın kitabında gələn bir neçə rəvayətdə deyilir: İmam (əleyhis-salam) əvvəlcə İranın cənubuna gələcək, bu zaman iranlılar və onların Xorasanlı rəhbəri, eləcə də ordu sərkərdəsi Şüeyb ibni Saleh o həzrətlə bey'ət edəcək, sonra iranlılarla birlikdə Bəsrədə Süfyaninin əleyhinə müharibə aparacaq, daha sonra İraqa daxil olacaqlar. Rəvayətlərin məcmusundan mə'lum olur ki, İmamın zühur hərəkatının başlanğıcı Məkkə, onun son hədəfi isə Qüdsdür. Bu arada isə o həzrət bir müddət İraqda yaranmış vəziyyəti sahmana salmaq və Qüdsə doğru hərəkət etmək üçün ordu tədarükü görməklə məşğul olacaqdır.

Aydındır ki, səhabə və tabeinlərin Peyğəmbər və İmamlardan nəql etdikləri rəvayətlər İmamın fəaliyyət və tədbirlərinin hamısını yox, əsas hadisələri bəyan etmək istəyir ki, bu da İmamın tutduğu yola heç bir xələl gətirmir, müsəlmanların qəlbində ümid şövqünü canlandırır, zühur dövründə müsəlmanların imanlarının İlahi mö'cüzə vasitəsilə gücləndirilməsinə və onların o həzrətə kömək etmələrinə səbəb olur. Güclü ehtimala görə İmam (ərvahuna fidah) bu müddət ərzində – məsləhətin tələbi ilə əlaqədar – Hicaz, İraq, İran və Yəmən arasında müəyyən fəaliyyətlər göstərəcəkdir. O həzrət öz ordusunun

apardığı müharibələrdə yalnız zəruri hallarda şəxsən iştirak edəcəkdir.

İranla əlaqədar bölmədə bir neçə rəvayəti seçmişəm ki, bir neçə cəhətdən o həzrətin İranın cənubuna gəlişini göstərən rəvayətlərdən üstündür. Şiə-sünnü mənbələrindəki rəvayətlərdə Hicazın azad edilməsindən sonra ağır və müqəddəratı həll edən Bəsrə müharibəsi qeyd edilir. Digər məsələ də bundan ibarətdir ki, İmamın heç olmazsa, o məntəqədəki ordusunun əksəriyyətini iranlılar təşkil edəcəklər. Buna əsasən, Bəsrədə və Fars körfəzi məntəqəsində aparılan müharibəyə hazırlıq işləri görmək üçün İmamın İrana gəlişi təbii bir iş olacaqdır. İbni Həmmad özünün əlyazmasında Vəlid ibni Müslümdən, o da Rüşd ibni Sə'ddən, o da Əbu Rummandan, o da Əmirəl-mö'minin Əli (əleyhis-salam)-dan belə nəql edir: *"Süvarilərinin Kufəyə doğru gəldiyi zaman Süfyani bir qrupu xorasanlıları tə'qib etmək üçün göndərəcək. Bu halda Xorasan əhli də Məhdini tapmaq üçün çölə çıxacaqlar. Bu zaman İmamla, qarşısında Şüeyb ibni Saleh gedən qara bayraqlıların rəhbəri Haşimi arasında görüş keçiriləcəkdir. Nəhayət İmam və Süfyaninin tərəfdarları İstəxr darvazasında qarşılaşacaqlar, onların arasında ağır müharibə başlanacaq, sonra qara bayraqlılar qələbə çalacaq, süfyanilər isə döyüş səhnəsindən qaçacaqlar. Bu zaman camaat həzrət Məhdi ilə görüş arzusu edər və onu axtararlar."*

Səid Əbu Osman, Cabirdən nəql edir ki, İmam Baqir (əleyhis-salam) belə buyurdu: *"Süfyani Kufəyə və Bağdada daxil olduqdan bir gün sonra öz qoşununu dünyanın hər yerinə yayacaq və bu həssas dövrdə Mavəraun-nəhr (Mesapatomiya) və Xorasan əhalisi nahiyəsindən ona qorxu və vəhşət çatacaq. Çünki məşriq əhli onları həlak etmək üçün yürüş edəcəklər. Bu xəbər Süfyaniyə çatanda bir qoşunu – Bəni-Üməyyədən olan bir kişinin rəhbərliyi ilə – İstəxrə göndərəcəkdir. Reyin Quməs və Dulat nahiyəsində, eləcə də Zər sərhədlərində onların arasında ağır müharibələr başlanacaq, Süfyani Kufə və Mədinə əhalisini kütləvi şəkildə qırmağa dair hökm verəcəkdir. Həmin zaman qara bayraqlılar irəliləyəcəkdir ki, camaatın hamısının önündə Bəni-Haşimdən olan bir cavan bayrağı sağ əlində tutacaqdır. Allah bütün işləri və yolları onlara asan edəcəkdir. Xorasan sərhədlərində bir toqquşma baş verəcək və Haşimi Reyə gedərkən öz yolu üzərində Bəni-Təmimdən olan bir kişini – məvalidən olan Şüeyb ibni Salehi Süfyani ilə qarşılaşmaq üçün*

*İstəxrə çağıracaqdır. O, Məhdi və Haşimi Beyzai-istəxrdə bir-biri ilə görüş keçirəcəklər. Sonra onlarla Süfyani arasında elə ağır bir müharibə baş verəcək ki, qan atların dizinə qalxacaqdır. Bu zaman Sistan nahiyəsindən – Bəni-Üdey tayfasından olan bir nəfərin rəhbərliyi ilə oraya çoxlu qüvvə gələcək və beləliklə də Allah-taala onun köməkçilərini və ordusunu qalib edəcəkdir. Rey məntəqəsindəki iki çarpışmadan sonra Mədaində də çarpışmalar baş verəcəkdir. Seyləmiyyə müharibəsi Aqir-Qufa məntəqəsində baş verəcəkdir ki, hər kəs canını ondan qurtarsa, bu xəbəri başqalarına çatdıracaqdır. Bundan sonra Bakulda böyük bir qırğın, eləcə də Nəsibeyndə böyük bir müharibə baş verəcəkdir. Sonra onların içərisindən ümumi şəkildə Kufə və Bəsrə əhli olan bir qövm Əxvəsə qarşı qiyam, nəhayət Kufə əsirlərini onların əlindən xilas edəcəklər."*

Bu iki rəvayətin sənədi zəifdir və mətnində də müəyyən anlaşılmazlıq nəzərə çarpır. Digər tərəfdən ikinci rəvayətdə qeyd olunan hadisə və müharibələr zəif rəvayətdən başqasında gözə dəymir. Amma bütün bunlarla belə, İraqla əlaqədar fəsildə qeyd olunan Bəsrə müharibəsini təsdiqləyir, həmçinin şərq və qərbin həzrət Məhdi (əleyhis-salam)-ın qələbəsi müqabilində ciddi şəkildə əksül-əməl göstərməsindən hekayət edir. Belə ki, həzrət Məhdi və onun köməkçilərinin qarşısında dayananlar incillərə tabe olan qərblilərdir və İbni Həmmadın rəvayətinə əsasən Süfyani ordusu da bu qərb qoşunları ilə qarşılaşacaqdır. Əli (əleyhis-salam) Bəsrə ilə əlaqədar müfəssəl bir xütbədə belə buyurmuşdur: *"Bəsrə əhalisindən Əbülləh şəhidlərinin sayı qədər adam onun ardınca gedər ki, sinələrində İncil vardır."*[1]

Əgər bu rəvayət səhih olsa və ondan Bəsrə və Fars körfəzi müharibəsi nəzərdə tutulsa, İbni Həmmadın "zühur hərəkatında" bəyan etdiyi rəvayətin özü də onun əhəmiyyət və əzəmətinə bir dəlil olacaqdır. Belə ki, sonralar camaat üçün aydın olacaqdır ki, qüvvələrin müvazinəti Məhdi (ərvahuna fidah)-ın xeyrinə və məsləhətinədir. İbni Həmmadın dediyinə görə *"o zaman hamı həzrət Məhdini axtarar və onu görməyi arzu edər."*

Əslini mö'təbər mənbələrdə tapa bilmədiyim bir rəvayətdə belə deyilir: *"İmam Məhdi (əleyhis-salam) nurdan olan 7 kəcavə ilə İraqa daxil olacaqdır."* İmam Baqir (əleyhis-salam) *"ya mə'şərəl-cinni vəl-insi inistətə'tum..."* ayəsinin təfsirində buyurmuşdur: *"Qaim yerin titrədiyi gündə nurdan*

---

[1] "Nəhcül-bəlağənin şərhi", İbni Beysəm Bəhrani.

*olan yeddi kəcavə arasında İraqa daxil olacaqdır. Belə ki, İmamın onların hansı birində olduğu mə'lum olmayacaq və nəhayət o, Kufəyə daxil olacaqdır."*[1]

Mümkündür ki, bu hadisə həzrət Məhdi (əleyhis-salam)-la əlaqədar İlahi bir kəramət olsun, yaxud da İmamın İraqa bir təyyarə skadrası, yaxud ona oxşar vasitələrlə gəlib çatması kimi tə'bir olunsun ki, rəvayətlərdə "nur qübbələri" deyilmişdir. Hər bir halda, bu mətləbin şərif ayənin təfsirində qeyd olunması buna kömək edir.

İmam (əleyhis-salam)-ın İraqda görəcəyi tədbirlərlə əlaqədar çoxlu rəvayət nəql olunmuşdur ki, onların bə'zilərini İraqla əlaqədar hadisələrdə qeyd etdik, qalanlarını da burada xülasə şəkildə gətirəcəyik.

(İraqın daxili vəziyyətinin İmamın əli ilə sahmana salınması və qiyamçı qrupların dağıdılması ilə əlaqədar çoxlu rəvayətlər nəql olunmuşdur ki, yuxarıda qeyd olundu.)

O tədbirlərdən biri İmam (əleyhis-salam)-ın Kufə, Nəcəf və Kərbəlaya daxil olması, Kufəni özünün paytaxtı və qərargahı seçməsi, Kufə yaxınlığında dünya səviyyəli və min qapısı olan bir Cümə məscidinin tikilməsidir. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Bizim Qaimimiz qiyam edən zaman yer üzü Allahın nuru ilə aydın olub parlayar. Belə ki, camaat Günəşin nurundan ehtiyacsız olarlar. Onun hökuməti dövründə insanların ömrü bir neçə qat artacaq, hər bir şəxsin min oğlan uşağı dünyaya gələcəkdir. O, Nəcəfdə min qapısı olan bir məscid tikəcəkdir, Kufənin evləri Kərbəla çayına və Hiyrəyə birləşəcəkdir. Nəhayət əgər bir şəxs cümə günü orada cümə namazı qılmaq üçün yorğa yerişli bir qatıra minib həmin diyara gəlsə, buna müvəffəq ola bilməyəcəkdir."*[2]

İmam Baqir (əleyhis-salam) buyurur: *"İkinci cümə gəlib çatanda camaat deyər: "Ey Peyğəmbər övladı, sizin İmamətinizlə qılınan cümə namazı Peyğəmbərin arxasında qılınan namaza bərabərdir. Bu məscid bizim üçün kifayət etmir." Sonra İmam bir məscidin layihəsini çəkər ki, onun min qapısı olar və camaatı özündə yerləşdirər."*[3]

Bəlkə də "min qapı" – deyə zikr olunması o məscidin genişliyinə dəlalət edir. Çünki dünyanın hər tərəfindən o həzrətin İmaməti ilə qılınan cümə namazında iştirak etmək üçün müsəlmanların oraya gəlmələri – vağzalların və aeroportların mövcud olmasını nəzərə

---

[1] "Yovmul-xəlas", səh.267. (mənbə qeyd olunmayıb.)

[2] "Biharul-ənvar", 52-ci cild, səh.330.

[3] "Biharul-ənvar", 52-ci cild səh.331.

almaqla onun Kufə-Kərbəla arasındakı təqribən 80 km-lik bir sahədə olmasına dəlalət edir.

O həzrətin gördüyü tədbirlərdən biri də Kərbəlanı dünya səviyyəli bir qərargah e'lan etməklə onun məqamını yüksəltmək, əziz babası Seyyidüş-şühəda İmam Hüseyn (əleyhis-salam)-ın məqamını əzizləməkdir. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Allah Kərbəlanı səngər və qərargah qərar vermişdir, ora mələklərin və mö'minlərin gediş-gəliş yeri olacaq, özünün ən yüksək məqam və mərtəbəsinə çatacaqdır."*[1]

Digər bir mö'cüzə də Nəcəfdə o həzrətdən zahir olan bir işdir. Belə ki, o həzrət öz cəddi Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in zirehli paltarını geyinib onun xüsusi miniyinə minəcək və dünyanı öz nuru ilə işıqlandıracaqdır. Camaat hər yerdə olsalar, o həzrəti görəcəklər, halbuki İmam öz yerində qərarlaşmış olacaqdır. Bu barədə İmam Sadiq (əleyhis-salam)-dan belə nəql olunur: *"Sanki mən Qaimi Nəcəfdə müşahidə edirəm: O, Peyğəmbərin zirehli paltarını geymişdir, bu paltar onun bədəninə (ağırlıq edib) təzyiq göstərir və onu yerindən hərəkət etdirir. Zireh onun bədənində genişlənir, nəhayət zirehi istəbrəqdən olan paltarla örtər, sonra iki gözünün arasından nur parlayan Əbləq atına minib onu hərəkətə gətirər. Elə bir ölkənin əhalisi yoxdur ki, bu nurun saçdığı işıq onlara çatmasın. Bu da onlar üçün bir nişanə və əlamətdir. Sonra Peyğəmbərin bayrağını qaldırar, bu zaman dünyanın şərqi-qərbi onun nuruna qərq olar."*[2]

Həmin mənbədə Əli (əleyhis-salam)-dan belə nəql olunur: *"Sanki mən onu görürəm; halbuki ayağı ağ olan və alnından nur saçan bəzənmiş bir ata minmişdir. O, Vadiyüs-səlamdan keçir, Səhlə çayına tərəf irəliləyir və öz duasında belə deyir:*

لاَ اِلٰهَ اِلَّا اللهُ حَقًّا حَقًّا لاَ اِلٰهَ اِلَّا اللهُ تَعَبُّدًا وَ رِقًّا اَللَّهُمَّ مُعِزَّ كُلِّ مُؤْمِنٍ وَحِيدٍ وَ مُذِلَّ كُلِّ جَبَّارٍ عَنِيدٍ اَنْتَ كَنَفِي حِينَ تُعْيِينِي الْمَذَاهِبُ وَ تَضِيقُ عَلَيَّ الاَرْضُ بِمَا رَحُبَتْ اَللَّهُمَّ خَلَقْتَنِي وَ كُنْتَ غَنِيّاً عَنْ خَلْقِي وَ لَوْ لاَ نَصْرُكَ اِيّايَ لَكُنْتُ مِنَ الْمَغْلُوبِينَ يا مُنْشِرَ الرَّحْمَةِ مِنْ مَواضِعِها وَ مُخْرِجَ الْبَرَكَاتِ مِنْ مَعادِنِهاَ وَ يَا مَنْ خَصَّ نَفْسَهُ بِشُمُوخِ الرِّفْعَةِ فَاَوْلِيَاؤُهُ بِعِزِّهِ يَتَعَزَّزُونَ يا مَنْ وَضَعَتْ لَهُ الْمُلُوكُ نَيْرَ الْمَذَلَّةِ عَلَي اَعْناقِهِمْ فَهُمْ مِنْ سَطْوَتِهِ خائِفُونَ...

Rəvayətlərdə qeyd olunur ki, İmam (əleyhis-salam) Qostəntəniyyəyə (Konstantinopola), Deyləm dağlarına və Çinə bir qoşun göndərəcəkdir. Rəva-

---

[1] "Biharul-ənvar", 53-cü cild, səh.13.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.391.

yətlərin məcmusundan aydın olur ki, İmam İraqda əsaslı işlər görəcək, ölkənin daxili vəziyyətini sahmana salacaq, möhkəmləndirəcək, onun təhlükəsizliyini şərqdə – Rusiya və Çin sərhədlərində tə'min edəcək, sonra Qüdsün azad olunması üçün böyük hərbi və siyasi səfərbərlik üçün tədbir keçirəcəkdir.

## QÜDSƏ TƏRƏF HƏRƏKƏT

Bə'zi rəvayətlərdə deyildiyi kimi, həzrət Məhdi rumlularla müharibə aparmaq üçün Antakiyaya – İmamın köməkçilərindən bə'zilərinin də iştirak etdiyi – bir ordu göndərəcəkdir. Sonra içində Tövratın və İncilin əsl nüsxələri mövcud olan müqəddəs sandığı Antakiya mağarasından çıxaracaqdır.[1] Əlbəttə, "Yovmul-xəlas" kitabı onu "Biharul-ənvar"a və "Müntəxəbul-əsər"ə nisbət vermişdir, amma mən onu bu iki kitabda görməmişəm. Belə nəzərə çarpır ki, bu mö'cüzənin qərblilər üçün aşkar olması onların Antakiya sahillərində döyüşə hazırlaşmaqda olan qüvvələrini Qüdsün azad olunması üçün aparılan müharibədə iştirak etməkdən saxlayacaqdır. Rəvayətlərdə qeyd olunur ki, bu qüvvələr Ramazan ayındakı asimani nidanın ardınca həmin məntəqədə düşərgə salacaqlar və Allah-taala bir mö'cüzə olaraq Əshabi-kəhfi onlar üçün aşkar edəcəkdir. Əli -ın belə buyurduğu nəql olunur: *"Rumlular Əshabi-kəhf mağarasının yaxınlığında olan dəryanın sahilinə gələcəklər və Allah o cavanları itləri ilə birlikdə mağaradan dirildəcək. Onlardan iki nəfər Məlixa və Xəmlahadır ki, hər ikisi Qaimin əmrinə tabe olacaqdır."*[2]

Sonuncu ibarənin mə'nası bu ola bilər ki, Məlixa və Xəmlaha həzrət Məhdi -ın yanına gəlib onunla bey'ət edəcək, yaxud Əshabi-kəhfin özü ilə apardığı mirası o həzrətə təqdim edəcəklər.

Buna əsasən, qeybi imdadlar qərbliləri, yəhudilərə və Süfyaniyə tərəfdarlıq etmək və İmamın əleyhinə müharibə aparmaqda şəkk-şübhəyə salacaqdır. Birinci mö'cüzənin (Əshabi-kəhfin zahir olması) və ikinci mö'cüzənin (müqəddəs sandığın və Tövratla İncilin əsl nüsxələrinin Antakiya mağarasından çıxması) baş verməsindən sonra həzrət Məhdi ın köməkçiləri onlara bu yolla dəlil-sübut gətirəcəklər. Belə nəzərə çarpır ki, Antakiyada onlarla həzrət Məhdi -ın arasında çarpışmalar olacaqdır. Onların qüvvələrinin Türkiyənin daxilində deyil, sahildə enməsi göstərir ki, bu ölkə onların nüfuzları

[1] "İbni Həmmadın əlyazması", səh.98.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.275.

dairəsindən xaricdə olmalıdır. Çünki bu ölkə həmin dövrdə yerli əhalinin qiyamı, yaxud həzrət Məhdi (əleyhis-salam)-ın ordusunun vasitəsilə azad olacaqdır. Rumlu qüvvələr (qərblilər) isə Fələstinin sahilində yerləşən Rəmlədə düşərgə salmış olacaqlar. (Bu qüvvələr bə'zi rəvayətlərdə "Rum qiyamçıları" kimi vəsf edilmişdir.) Ehtimal üzrə, onlar Qüds müharibəsində yəhudilərin və Süfyaninin xeyrinə iştirak edəcəklər.

Bə'zi rəvayətlərdə qeyd olunur ki, həzrət Məhdi (əleyhis-salam) öz ordusunu Qüdsdə baş verən müharibəyə girişmək üçün Şama tərəf göndərəcəkdir. Bir ehtimal da var ki, o həzrət bu müharibədə şəxsən iştirak etməsin və düşmənlər məğlub olduqdan sonra Qüdsə daxil olsun. Lakin rəvayətlərin çoxu göstərir ki, İmam (əleyhis-salam) öz ordusu ilə birlikdə yola düşəcək, Dəməşqin yaxınlığında yerləşən Mərəci-əzrada düşərgə salacaqdır. İmam Baqir (əleyhis-salam) buyurur: *"Bu zaman o (İmam), Kufəyə gələcək və Allahın istədiyi vaxta qədər orada qalacaq, nəhayət oranı öz ixtiyarına keçirəcək, sonra öz köməkçiləri ilə birlikdə Mərəci-əzraya gələcək. Camaatdan bir çox qrupu o həzrətə qoşulacaqdır. Bu günlərdə Süfyani Rəmlə vadisində olacaqdır. Nəhayət, yer dəyişdirilən günlərdə onlar bir-biri ilə qarşılaşacaqlar. Süfyani ilə birlikdə olduqları halda Ali-Peyğəmbər ardıcıllarından bir qrupu və özlərini Ali-Peyğəmbərin ardıcılları sırasına vuran Süfyaninin tərəfdarlarından bir qrupu öz yerlərini boşaldıb çıxacaq və hər iki dəstə öz ordusuna və bayrağına qovuşacaqlar. O gün yer-dəyişmə günüdür. Əli (əleyhis-salam) buyurmuşdur: O gündə Süfyani və onunla olan hər kəs öldürüləcək, onlardan hətta bir nəfər xəbər verən belə qalmayacaqdır. O gündə naümid və ziyankar o kəsdir ki, süfyanilərin qənimətlərindən məhrum olsun."*[1]

Bu rəvayətdə bir neçə məsələ, o cümlədən camaata hakim olan ümumi vəziyyət bəyan edilir və deyilir ki, onlar İmama arxa olacaqlar, çünki həzrətin ordularının Suriya torpağına daxil olduğu zaman heç bir müqavimətlə qarşılaşmadan Dəməşqin otuz kilometrliyində düşərgə salacaqdır. (Bu mətləbi Süfyaninin hərəkatında axıra kimi qeyd etmişik.)

Məntəqənin siyasi vəziyyəti rəvayətlərdə bəyan olunduğu kimi, Qüds müharibəsindən əvvəl belə olacaqdır: Qərblilər Yəmən, İraq və Hicazda həzrət Məhdi (ərvahuna fidah)-ın özünün və köməkçilərinin heyrətli qələbələrini müşahidə etdiklərinə görə onlarla qarşılaşmaqdan çəkinəcək, hətta o həzrətin Fars körfəzində onlara qələbə çalması, eləcə

[1] "Biharul-ənvar", 52-ci cild, səh.224.

də müsəlman millətlərin, xüsusilə məntəqədəki müsəlman xalqlarının o həzrətin xeyrinə hərəkətə gəlmələrinə görə qorxu və nigaranlıq hissi keçirəcəklər. Şübhəsiz, həzrətin zühurundan qabaq, yaxud onunla eyni zamanda İlahi mö'cüzə və nişanələrin görünməsi də qərb millətlərinə çox tə'sir qoyacaq, onların hökumətlərinin qarışıq vəziyyətlərini daha da ağır vəziyyətə salacaqdır. Onlar öz qüvvələrini Antakiyaya və Fələstindəki Rəmləyə, yaxud Misrə göndərməkdən başqa bir iş görməyəcəklər. Bu müharibədə qərblilərin ifa etdiyi rol ümumi şəkildə öz yəhudi həmpeymanları və Süfyaniyə arxa durmaqdan ibarətdir.

Amma yəhudilərin vəziyyətinə gəldikdə isə, onlar çox vəhşətli və iztirablı olacaqdır. Çünki müharibə onların müqəddəratını tə'yin edəcəkdir. Buna görə də qərara gələcəklər ki, İmamın ordusu ilə birbaşa müharibəyə girişməsinlər; əksinə Süfyaninin sərkərdəliyi ilə təşkil olunmuş "ərəb müdafiə xətti"nin vasitəsilə bu tədbirə əl atacaqlar. Allah-taalanın tüğyançı və əyyaş millətlər, eybəcər hökumətlər üçün ümumi qanunu belədir ki, onlar həmişə bir milləti, yaxud hərbi qüdrəti ələ alaraq onların tərəfindən nümayəndə ünvanı ilə müharibəyə girişir, özləri isə onların arxasında ikinci, yaxud üçüncü müdafiə xəttində qalırlar. Bu da hal-hazırda qərb aləmində və yəhudilər arasında ümumi şəkildə müşahidə olunur.

Məntəqə əhalisinin ümumi vəziyyətinə gəldikdə isə, onlar İmam (əleyhis-salam)-a arxa durmaq və onu himayə etmək fikrində olacaqlar. Belə ki, əgər qərblilər və yəhudilər Süfyanini və onun ordusunu himayə etməsələr, bu insani qüvvələr Süfyanini məhv etməyə və Şamı o həzrətin hökumətinə birləşdirməyə qadir olacaqlar. Belə bir ehtimal da var ki, Süfyaninin Dəməşqdən Fələstindəki Rəmləyə doğru geri çəkilməsi ilə eyni zamanda (qərb qüvvələri həmin məntəqədə yerləşmiş olacaqlar) onun hərbi qüvvələri də həzrətin ordusunun müqabilində geriyə çəkilsin, Şam ölkəsi İsraillə müqabil olan sərhəd xəttindən başqa bir növ hərbi və siyasi boşluqda qərar tutsun.

İbni Həmmad özünün əlyazmasında "Məhdi (əleyhis-salam)-ın Məkkədən Beytül-müqəddəsə doğru xürucu" adı altında 20 rəvayət nəql etmişdir ki, onların bə'ziləri bizim mənbələrdə də mövcuddur. O cümlədən: İbni Zərrin Qafiqi Əli (əleyhis-salam)-ın belə buyurduğunu deyir: *"O, aşağısı on iki min, yuxarısı on beş min nəfərdən ibarət olan bir qoşunla xüruc edəcək, onun irəliləməsindən yaranan qorxu (düşmənlərin qəlbinə) oturacaqdır. Hər düşmən onunla qarşılaşsa, Allahın fərmanı ilə onu məhv edəcəkdir. Onların şüarları "öldür, öldür!" olacaq, Allah yolunda*

*məzəmmət edən heç kəsin məzəmmətindən qorxmayacaqlar. Bu zaman Şamdan yeddi ordu onlara doğru hücum edəcək, İmam onların hamısını məhv edəcək və onları əsarətə alacaq. Onların məhəbbət, ne'mət, "qassə" və "bəzarələri" müsəlmanlara qaytarılacaqdır. Onlardan sonra Dəccalın xürucundan başqa heç bir hadisə baş verməyəcəkdir."* Soruşdular: Qassə və bəzarə nədir? Həzrət buyurdu: *"İmam hökumətin idarə olunmasını öz əlinə alacaqdır, belə ki, hər kəs hər nə istəsə deyəcək və heç bir şeydən qorxmayacaq."*[1]

Həmin mənbədə yenə deyilir: *"Məhdi hərəkət edərək Beytülmüqəddəsə çatacaqdır, xəzinələri onun yanına gətirəcəklər. Ərəb və qeyri-ərəb, müharibəni törədənlər və rumlular (qərblilər) və başqaları hamılıqla onun itaətinə keçəcəkdir."*

Bu mənbənin digər bir yerində deyilir: *"Məhdi deyəcək: "Mənim əmi oğlumu (Süfyanini) gətirin, onunla danışım." Onu İmamın yanına gətirərlər və onunla söhbət edər, nəhayət o, İmamın əmrinə təslim olaraq onunla bey'ət edər. Amma Süfyani Bəni-Kəlbdən olan öz köməkçilərinin yanına qayıtdığı zaman onu öz işindən peşman etdirərlər. O, İmamın yanına gələrək bey'ətini geri götürər. Həzrət onun bey'ətini qüvvədən salar, sonra İmamla Süfyaninin ordusu arasında yeddi qrup və dəstə ilə müharibə başlanar. Hər dəstənin sərkərdəsi rəhbərliyi öhdəsinə almaq istəyərsə İmam onları məğlub edər."*[2]

Yenə deyilir: *"Süfyani İmama etdiyi bey'əti geri götürər və İmam onu qüvvədən salınmış e'lan edər. Sonra o həzrətlə mübarizə aparmaq üçün öz ordularını səfərbər edər, İmam onu məğlubiyyətə uğradar və Allah-taala rumluları (qərbliləri) də o həzrətin əli ilə məğlub edər."*

Məl'un Süfyani İmam Məhdi (əleyhis-salam)-ın əmi oğlusu sayılır. Çünki məşhur bir məsələdir ki, Üməyyə və Haşim iki qardaş idilər. Bu rəvayətin düzgün olduğu təqdirdə İmam (ərvahuna fidah) bu hikmətli siyasəti və gözəl əxlaqı ilə onu mümkün qədər azğınlıqdan saxlamaq istəyər, yaxud daha artıq höccəti tamamlamaq fikrində olar. Süfyani həzrət Məhdi (əleyhis-salam)-ın şəxsiyyətindən müvəqqəti olaraq tə'sirlənər, amma bir tərəfdən onun Bəni-Kəlb qəbiləsindən olan qohum-əqrəbaları və yaxın adamları (onlar yeddi ordunun rəisləridir və Süfyani həqiqətdə onların hamısının rəhbərliyini öhdəsinə almışdır), digər tərəfdən də, yəhudi və qərbi ərbabları onu bu işdən daşındırarlar.

---

[1] "İbni Həmmadın əlyazması", səh.96.
[2] "İbni Həmmadın əlyazması", səh.97.

"Məlahim və fitən" kitabında Əli (əleyhis-salam)-dan bu müharibənin vəsfində belə nəql olunur: *"Allah Süfyaniyə qəzəb edər, Allahın bəndələri də İlahi qəzəb səbəbi ilə ona qəzəblənərlər. Quşlar öz qanadları, dağlar öz daşları, mələklər öz səsləri ilə onlara xəsarət vurarlar. Bir saat keçməz ki, Allah Süfyaninin bütün köməkçilərini həlak edər və ondan (Süfyanidən) başqa, düşmənlərdən bir kəsi yer üzündə saxlamaz. İmam Məhdi (əleyhis-salam) onu tutaraq şaxələri "Təbəriyyə" gölünə doğru olan bir ağacın altında qətlə yetirər."*.

"İlzamun-nasib"də (2-ci cild, səh.104) belə qeyd olunur: *"Məhdi (əleyhis-salam)-ın ordu sərkərdələrindən biri olan Səyyah özünü Süfyaniyə çatdıraraq onu tutar və işa namazı zamanı onu Məhdi (əleyhis-salam)-ın yanına gətirər. Həzrət onun barəsində öz köməkçiləri ilə məşvərət edər və onlar Süfyaninin qətlini məsləhət görərlər. Bundan sonra şaxələri sallanmış olan bir ağacın altında qoyun kimi onun başını kəsərlər."*[1]

Bə'zi rəvayətlərdə bu müharibə müsəlmanlar üçün qeybi yardımlardan digər biri kimi vəsf edilir: *"O gündə asimandan bir səda eşidilər, münadi nida edərək deyər: "Agah olun, Allah övliyaları – Məhdinin köməkçiləridir, məğlubiyyət və bədbəxtçilik Süfyaninin köməkçilərinə məxsusdur." Sonra onlar elə şəkildə öldürülər ki, avara və fərarilərindən başqa heç kəs onlardan salamat qalmaz."*[2]

Zahirən, şiə və sünnü mənbələrində mövcud olan rəvayətlərdə müsəlmanların axirəz-zamanda yəhudilərlə apardıqları müharibədən məqsəd həmin müharibədir – həm onların məzmun və tə'birlərində oxşarlığın olduğuna, həm də *"bəəsna ələykum ibadən ləna uli bə'sin şədid"* ayəsinin təfsirində varid olan rəvayətlərə görə. Belə ki, onlar İmam Məhdi (əleyhis-salam) və onun köməkçilərinə tə'bir olunmuşdur. (Bunu əvvəldə İranla əlaqədar bölmədə qeyd etdik.)

Bu rəvayətin oxşarını Müslüm və Termizi "Fitən" kitabında, Buxari isə "Mənaqib" kitabında Peyğəmbəri (səllallahu əleyhi və alihi və səlləm)-dən belə nəql edir: *"Yəhudilər sizinlə müharibəyə qalxacaqlar, lakin siz onlara qalib gələcəksiniz."*

Çünki həzrət Məhdi (ərvahuna fidah)-ın müqəddəs sandığı çölə çıxarması, asimani (əsl) Tövratın bə'zi hissələrinin vasitəsi ilə yəhudilərə dəlil-sübut gətirməsi ilə əlaqədar şiə və sünnülərin tərəfindən çoxlu rəvayətlər vardır. Belə nəzərə çarpır ki, bu hadisələr İmam (əleyhis-salam)-ın onlara

---

[1] "Məlahim və fitən", səh.123.
[2] "İbni Həmmadın əlyazması", səh.97.

qələbə çalıb Qüdsə daxil olmasından sonra baş verəcəkdir. Mən bu müharibədə iştirak edəcək qüvvələrin dəqiq sayı barəsində – nə həzrət Məhdi -la yanaşı olan müsəlman qüvvələr, nə də Süfyani, yəhudi və qərbi qüvvələrin sayı barəsində heç bir rəvayət görməmişəm. Əlbəttə, bə'zi rəvayətlərdə Süfyaninin "Təbəriyyə" gölünün sahilində yerləşən qüvvələrinin sayı 170 min nəfər qeyd olunmuşdur. Amma bə'zi me'yarlar var ki, (o cümlədən, yuxarıdakı rəvayət) döyüşən tərəflərin qüvvələrini çox böyük rəqəmlə qeyd etmişdir. İmam Baqir buyurmuşdur: *"Camaatın böyük bir qismi ona qoşulacaqdır."*

Digər məsələ isə, döyüş cəbhəsinin geniş miqyaslı olmasıdır ki, Təbəriyyədən Qüdsə qədər uzanacaqdır. Bə'zi rəvayətlərə əsasən, Mərəci-əkka, Sur və Dəməşq də bu müharibə səhnəsinə daxildir.

Bə'zi rəvayətlərdə həzrət Məhdi -ın ordusunun sayı bir neçə on min nəfər qeyd olunmuş və deyilmişdir ki, həzrət onu Məkkədən oraya göndərəcəkdir. Amma bə'zi ravilər bu ordunun sayı ilə İmam -ın İraqdan Qüdsə göndərdiyi ordunun sayı arasında səhvə yol vermişlər. Halbuki bu ordunun – iranlı qüvvələrin sərkərdəsi Şüeyb ibni Salehdir və onda bir milyondan artıq əsgərin iştirak edəcəyi qeyd olunmuşdur. Çünki bu ordu iranlı, yəmənli, iraqlı və s.-dən təşkil olunmuş bir qüvvədir. Bundan əlavə, Şamdan və ehtimal üzrə dünyanın müxtəlif yerlərindən də oraya gəlib qoşulanlar olacaqdır. Qeyd edək ki, İbni Həmmad öz kitabında (95-ci səhifədən sonra) həzrət Məhdi -ın Qüdsə doğru hərəkət edən bir neçə on min nəfərlik qoşunundan söhbət açmış, amma 106-cı səhifəsində isə demişdir: *"İmamın keşikçiləri Qüdsə daxil olan zaman (əsgərlərinin sayı) 12 min nəfər olacaqdır." "Bəni-Haşimdən bir kişi Beytül-müqəddəsə varid olacaqdır ki, onun keşikçiləri 12 min nəfərdən ibarətdir."*

O kitabın 107-ci səhifəsində isə belə deyilir: *"Onun keşikçilərinin sayı 36 min nəfərdir. Beytül-müqəddəsə gedib çatan hər yolun üzərində on iki min nəfər hazır olacaqdır."*

(Bu da həzrət Məhdi -ın ordusundakı əsgərlərin sayının həddindən artıq çox olduğunu göstərir.)

İbni Həmmad öz kitabının 110-cu səhifəsində Qüdsün İmam Məhdi tərəfindən yenidən bina olunması ilə əlaqədar belə bir rəvayət nəql edir: *"Bəni-Haşimdən olan bir xəlifə orada düşərgə salacaq, dünyanı haqq-ədalətlə dolduracaq və Beytül-müqəddəs imarətini elə şəkildə quracaqdır ki, onun oxşarı heç vaxt tikilməmişdir."*

Təbiidir ki, İmam (əleyhis-salam)-ın mö'cüzəli şəkildə və qəti qələbə çalaraq şərif Qüdsə daxil olması sanki asimani bir ildırım kimi qərblilərin başına enəcək, onların yəhudi həmpeymanlarının məğlubiyyətə uğradığı, varlıqlarının puça çıxdığı üçün divanə bir halətə düşəcək, su və quru yollarından İmam (əleyhis-salam) və onun köməkçilərinə qarşı hücuma keçəcək, hətta ən çox təhlükəli kimyəvi və atom bombalarından belə istifadə edəcəklər.

Amma rəvayətlərdən aydın olur ki, o dövrdə xatircəmlik gətirən bir neçə amil olacaqdır, bəlkə də onların ən mühümü həzrət İsa (əleyhis-salam)-ın asimandan Qüdsə nazil olmasıdır. Bundan sonra isə qərblilərin həzrət Məhdi (əleyhis-salam)-la qarşılaşarkən öz daxillərində hiss edəcəkləri qorxu və iztirab halətidir. İmam (əleyhis-salam)-ın öz hərəkatında istifadə etdiyi qeybi köməklər isə ayrıca bir bölmədə araşdırılmalıdır.

Baxmayaraq ki, onların tə'sir qoyması təqribən qərb millətlərinə məxsusdur və onların hökumətləri ilə əlaqədar zəif, yaxud əhəmiyyətsiz cilvələnir, amma o həzrətin də ixtiyarında çox inkişaf etmiş döyüş texnikası olacaqdır ki, qərblilərin müharibə texnikası ilə rəqabət edəcək və ya onlardan üstün olacaqdır.

## HƏZRƏT İSANIN YER ÜZÜNƏ NAZİL OLMASI

Müsəlmanlar zəmanənin axırında İsa (əleyhis-salam)-ın asimandan yerə nazil olması barəsində fikir birliyindədirlər. Təfsirçilərin əksəriyyəti *"kitab əhlindən elə birisi yoxdur ki, ölümdən qabaq ona (İsaya) iman gətirməmiş olsun və Qiyamət günündə o, onların yaxşı və pisliklərinə şahid olacaqdır"*[1] – ayəsinin təfsirində həmin mə'nanı qeyd etmişlər. "Məcməül-bəyan"ın müəllifi bu təfsiri İbni Abbasdan, Əbu Malikdən, Qütadədən, İbni Zeyddən və Bəlxidən nəql etmişdir. O deyir ki, Təbəri də bu nəzəri bəyənmişdir. Məclisi onu "Biharul-ənvar"da İmam Baqir (əleyhis-salam)-dan nəqlən həmin mə'naya təfsir edərək deyir: *"Qiyamətdən qabaq (İsa) dünyaya nazil olacaq, yəhudi və məsihilərdən elə birisi qalmayacaq ki, ölümdən qabaq ona iman gətirməmiş olsun. O, həzrət Məhdinin arxasında namaz qılacaqdır."*

Şiə-sünnü mənbələrində həzrət İsa (əleyhis-salam)-ın nazil olması ilə əlaqədar nəql olunan rəvayətlər olduqca çoxdur. O cümlədən, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunan bu rəvayət: *"Vəziyyətiniz necə olar, o zaman ki, İsa ibni Məryəm sizin aranıza nazil olar, sizin rəhbəriniz isə özünüzdən olacaq?!"*[2]

Bu rəvayəti Buxari və başqaları da İsanın nazil olması bölməsində qeyd etmişlər.[3]

İbni Həmmad öz kitabında (səh.159-162) "İsa ibni Məryəm (əleyhimas-salam)-ın nazil olması və onun tutduğu üslub", eləcə də "İsa (əleyhis-salam)-ın nazil olmasından sonra həyat müddəti" adı altında təqribən otuz rəvayət qeyd etmişdir. "Sihah" və "Biharul-ənvar" kitablarında Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə bir hədis nəql olunur: *"Canım əlində olan Allaha and olsun ki, o yəqin şəkildə İsa ibni Məryəmdir, ədalətli bir qazi ünvanında sizin aranıza nazil olacaq, xaçı sındıracaq, donuzu öldürəcək, maliyyəti (cizyəni) qoyacaq və o qədər mal-dövlət bağışlayacaqdır ki, artıq heç kim qəbul etməyəcəkdir."*

Həmin mənbədə yenə deyilir: *"Peyğəmbərlər müxtəlif səbəblərə görə bir-birləri ilə qardaşdırlar. Onların ayinləri bir, anaları isə müxtəlifdir. Onların mənə ən yaxın və layiqli olanı İsa ibni Məryəmdir. Çünki mənimlə onun arasında başqa bir peyğəmbər yoxdur. O sizin aranıza nazil olacaqdır, sonra onu tanıyacaqsınız. O, enlikürək, böyük*

---

[1] "Nisa" surəsi, 159-cu ayə.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.383.
[3] "Səhihi Buxari", 2-ci cild, səh.256.

*bədənli, al-qırmızı yanaqlıdır. Donuzu öldürəcək, xaçı sındıracaq, maliyyət qoyacaq və İslamdan başqa heç birini qəbul etməyəcəkdir. Onun də'vəti bir istiqamətlidir – yalnız aləmlərin Rəbbinə doğrudur."*

İbni Həmmadın rəvayətlərində qeyd olunur ki, İsa (əleyhissalam) Qüdsdə nazil olacaqdır. Bə'zi rəvayətlərdə Dəməşq darvazasının üzərindəki ağ körpüdə, bə'zi rəvayətlərdə Dəməşqin şərq darvazasında bir minarənin yanında, bə'zi rəvayətlərdə isə Fələstindəki Lüddə olacağı deyilir. Əlbəttə mümkündür ki, əvvəlcə Qüdsə nazil olsun, sonra isə Şama və digər məntəqələrə getsin.

Bə'zi rəvayətlərdə qeyd olunur ki, o, İmam Məhdi (əleyhissalam)-a iqtida edərək namaz qılacaq və hər il həccə gedəcəkdir. Müsəlmanlar onunla birlikdə yəhudilərlə, Rum və Dəccalla müharibə aparacaqlar. O həzrət qırx il ömür sürəcək, sonra Allah onun canını alacaq və müsəlmanlar onun müqəddəs vücudunu dəfn edəcəklər.

Əhli-beyt (əleyhimussalam) rəvayətlərində deyilir ki, Məhdi (əleyhissalam) onun dəfn mərasimini aşkar şəkildə və camaatın gözü önündə bərqərar edəcəkdir ki, məsihilər əvvəlki sözlərini bir daha təkrar etməsinlər. Onun cəsədini anası həzrət Məryəm tərəfindən toxunan bir parça ilə kəfənə bükəcək və anasının qəbrinin kənarında – Qüdsdə dəfn edəcəkdir.

İsa (əleyhissalam)-ın nazil olması ilə əlaqədar *"kitab əhlindən elə bir kəs yoxdur ki, ölümündən qabaq ona iman gətirməsin"* – ayəsi barəsində demək olar ki, bütün məsihi və yəhudilər ona iman gətirəcəklər. Onun asimana üruc etməsi və ömrünün uzun olmasının səbəbi budur ki, Allah-taala onu həzrət Məhdi (əleyhissalam)-ın zühur edəcəyi həssas bir dövrdə və məsihilərin dünyanın böyük qüdrətlərini təşkil etdiyi zaman – bunun özü də İslam nurunun dünya xalqlarına çatmasında, onun İlahi mədəniyyət və hökumətinin bərqərar olunmasında böyük bir maneədir – tarixi rol ifa etməsi üçün zəxirə etmişdir (ehtiyat saxlamışdır).

Buna görə də ümumi şəkildə nümayişlər və sevinc hisləri dünya məsihilərinə hakim kəsiləcəkdir. Çünki onlar həzrət Məhdi (əleyhissalam)-ın zühuru müqabilində həzrət İsanın nazil olmasını həm özləri, həm də müsəlmanlar üçün böyük bir ne'mət hesab edəcəklər. Təbiidir ki, həzrət İsa (əleyhissalam) müxtəlif ölkələrdə onlarla görüşlər keçirəcəkdir, Allah da müxtəlif mö'cüzə və nişanələri onun əli ilə aşkar edəcək, məsihilərin tədrici olaraq İslama doğru hidayət olunması üçün uzun müddətli tədbirlər görəcəkdir. O həzrətin yer üzünə nazil olmasının ilkin siyasi səmərəsi qərb dövlətlərinin İslama və müsəlmanlara qarşı düşmən-

çiliklərinin bir qədər azalmasıdır. Rəvayətlərə əsasən, onlarla həzrət Məhdi (ərvahuna fidah)-ın arasında sülh müqaviləsi – atəşkəs olacaqdır.

Rəvayətlərin dediyi kimi, mümkündür ki, həzrət Məhdi (əleyhis-salam)-ın arxasında namaz qılanlar atəşkəsin yəhudilər tərəfindən pozulması və müharibə tədbirlərinin keçirmələri ardınca məntəqədə böyük bir qoşun təşkil etsinlər ki, bu zaman həzrət İsa (əleyhis-salam) müsəlmanlara tərəfdarlıq barəsində özünün aşkar mövqeyini e'lan edəcək və həzrət Məhdi (əleyhis-salam)-ın arxasında namaz qılacaqdır.

Xaçın sındırılması və donuzun öldürülməsinə gəldikdə isə, bu işlərin qərblilərlə müharibədən və onların bu böyük müharibədə həzrət Məhdi (əleyhis-salam)-ın əli ilə məğlub olmasından sonra baş verməsi mümkündür. Eləcə də yaxşı olar ki, qərbdə həzrət İsanın tərəfdarı olan insani dalğaları da hesaba alaq ki, qərblilərin həzrət Məhdi (əleyhis-salam)-la apardığı böyük müharibədən əvvəl və ondan sonra qərb hökumətlərinə ciddi tə'sir göstərəcəkdir.

Dəccalın zahir olması ilə əlaqədar rəvayətlərə diqqət yetirməklə güclü ehtimal verilir ki, o, çox da qısa olmayan müddətdən sonra – Məhdi (əleyhis-salam)-ın dünya səviyyəli hökuməti bərqərar olunduqdan, müxtəlif dünya xalqlarının ümumi rifah və firavanlıqda olmasından, elm və texnikanın heyrətli dərəcədə inkişafından sonra baş verəcək bir hərəkatdır.

Dəccalın xürucu yəhudilərdən nəş'ət tapacaq, eləcə də qərblilərin "hipilik" cərəyanına oxşayır ki, eyş-işrətdən və əyyaşlıqdan irəli gələcəkdir. Bir gözlü Dəccalın hərəkatı çox irəliləyəcək və geniş əqidəvi-siyasi yönlərə malik olacaqdır. O, öz təbliğatında bütün elmi vasitələrdən istifadə edəcəkdir. Əslində onun dayağı olan yəhudilər də ona tabe olacaq, cavan qızları və oğlanları aldatmaqla onları istismar edəcək və bir sözlə, onun yaratdığı fitnə-fəsadlar müsəlmanlar üçün çox ağır və acınacaqlı olacaqdır.

Bə'zi rəvayətlərdə deyilən *"Məsih Dəccalı öldürəcək"* – sözündə diqqət yetirmək və onu dərindən araşdırmaq lazımdır. Çünki bu, məsihilərin incillərdə qeyd olunan əqidəsidir, halbuki dünyəvi hökumətin başçısı, bütün müsəlmanların fikir birliyinə əsasən həzrət Məhdi (ərvahuna fidah)-dır, İsa (əleyhis-salam) isə onun müavini və köməkçisi ünvanını daşıyır. Əhli-beyt (əleyhimus-salam)-ın rəvayətlərində qeyd olunur ki, müsəlmanlar həzrət Məhdi (əleyhis-salam)-ın rəhbərliyi ilə Dəccalı qətlə yetirəcəklər.

## İMAM MƏHDİ İLƏ QƏRBLİLƏR ARASINDA SÜLH MÜQAVİLƏSİ VƏ ATƏŞKƏS

Bu sülh müqaviləsi ilə əlaqədar nəql olunan çoxlu rəvayətlər göstərir ki, o, dinc yanaşı yaşamaq əsasında bağlanan bir müqavilə olacaqdır. Bəlkə də bu müqavilədən İmam (ruhuna fidah)-ın məqsədi həzrət İsa (aleyhis-salam) üçün münasib fürsət və zəmin yaratmaqdır ki, qərb millətlərini təbii minvalla hidayət etsin, onların siyasət və əqidələrində dərin və əsaslı dəyişikliklər yarada bilsin və bu fürsətdən istifadə edərək hökumətlərin mədəni azğınlıq və pozuntularını aşkara çıxarsın. Bu barədə nəql olunan rəvayətləri mülahizə etdikdə görürük ki, bu sülh ilə Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in Hüdeybiyyədə Qüreyşlə bağladığı sülh arasında çoxlu oxşar cəhətlər vardır. Hüdeybiyyədə tərəflər arasında on il müddətində müharibənin tərk olunması ilə əlaqədar müqavilə bağlanmış, Allah-taala da onu "fəthi mübin" (aşkar zəfər) adlandırmışdı. Amma Qüreyşin zalım rəhbərləri bu müqaviləni birtərəfli olaraq pozdular və özlərinin mənfur niyyətlərini aşkar etdilər. Onların bu əməli də xalq kütlələrinin İslama üz gətirmələrinə səbəb, müşriklər və kafir başçılarını məhv etmək üçün bir icazə oldu. Bu sülhdə də qərblilər müsəlmanlarla bağladığı əhd-peymanı pozacaq, özlərinin tüğyançılıq və təcavüzkarlıq xislətlərini aşkar edəcəklər. Rəvayətlərin dediyinə əsasən, onlar təqribən bir milyon əsgərlə məntəqəni iğtişaşa çəkəcək, böyük bir müharibə yaranacaqdır ki, bu müharibə Qüdsün azad olunması üçün aparılan müharibədən qat-qat böyükdür. Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in belə buyurduğu nəql olunur: *"Sizinlə Rum arasında dörd dəfə sülh müqaviləsi bağlanacaqdır ki, onların dördüncüsü Herqel sülaləsindən olan bir kişinin vasitəsilə olacaq və bir neçə (iki) il davam edəcək."* Əbdül-qeys qəbiləsindən olan Su'dəd ibni Qeylan soruşdu: "O gündə camaata kim rəhbərlik edəcəkdir?" Həzrət buyurdu: *"Mənim övladlarımdan olan Məhdi."*[1]

Bu, Hafiz Əbu Nəimin həzrət Məhdi (əccələllahu təala fərəcəhuş şərif) barəsində nəql etdiyi qırx rəvayətin on ikincisidir. Hüzeyfə ibni Yəman nəql edir ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu: *"Sizinlə Bəni-əsfər (sarı dərililər) arasında sülh bağlanacaqdır ki, onlar qadının hamiləlik müddətindən (doqquz aydan) sonra sizə xəyanət edəcək, hər birində on iki min nəfər olan səksən qoşunla quru və dənizdən sizə hücum edəcəklər. Onlar Yafa və Əkka arasında düşərgə salacaqlar. Onların rəhbərləri öz gəmilərini*

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.89.

*yandıracaq və öz köməkçilərinə göstəriş verəcəklər ki, öz ölkə və vətəninizi müdafiə edin. Bu zaman hər iki tərəfdən müharibə odu şö'lələnər. Ordular və əsgərlər bir-birinin köməyinə tələsər, hətta Yəməndəki Həzrə-movtda olanlar belə, sizin köməyinizə gələrlər. O gündə Allah-taala Özünün nizə-qılıncı və orduları ilə onlara zərbə vurub xəsarət yetirəcək və bu səbəblə onların arasında böyük bir qırğın başlanacaqdır."*[1]

Başqa yerdə deyilir: *"Rumluların gəmiləri Sur-Əkka arasında ləngər salacaq, orada böyük bir müharibəyə hazırlıq görəcəklər."*[2] Həmçinin qeyd olunur ki, Allah-taala məsihilərin arasına iki cür ölüm göndərəcəkdir ki, onlardan biri keçmişdir, digəri isə qalır.[3]

Bu hədisdəki *"Allah Öz nizəsi ilə... Onlara xəsarət vuracaqdır"* – sözünün mə'nası budur ki, Allah-taala Özünün mələkləri və qeybi kömək vasitəsilə müsəlmanlara (düşmənlərin əleyhinə) kömək çatdıracaqdır. Başqa bir hədisdə deyilir: *"O zaman Allah-taala küləkləri və quşları rumluların canına müsəllət edər. Quşlar da öz qanadları ilə onların üzlərinə elə çırpar ki, gözləri hədəqəsindən çıxar, yer onların səbəbi ilə yarılar, bundan sonra asimani saiqəyə (ildırım və zəlzələyə) düçar olar, dərələrə və uçurumlara yuvarlanarlar. Allah səbir edənlərə kömək edər və onlara gözəl mükafat verər, necə ki, Peyğəmbərin köməkçilərinə mükafat vermiş, onların qəlblərini şücaət və qüvvətlə doldurmuş idi."*[4]

Belə nəzərə çarpır ki, onların öz qüvvələrini Yafa-Əkka, yaxud Sur-Əkka arasında yerləşdirməkdə əsas məqsədləri, bu iki rəvayətdə də göründüyü kimi, Fələstini geri almaq və onu yenidən yəhudilərə vermək olacaqdır ki, həqiqətdə Qüds onların hərbi-strateji hədəfi və onların hücumları üçün bir işarədir. Sonrakı rəvayətdə qeyd olunur ki, onlar öz qüvvələrini Misirin Əriş sahillərindən Türkiyədəki Antakiyaya qədər olan bir məsafədə yerləşdirərlər. Hüzeyfə ibni Yəmandan belə nəql olunur: Allahın Peyğəmbərinə elə bir qələbə və fəth nəsib oldu ki, onun oxşarı be'sətdən bu tərəfə baş verməmişdi. Ərz etdim: "Ey Allahın Rəsulu! Bu fəth və qələbə sizə mübarək olsun, bu qələbə ilə müharibə sona yetdimi?" Buyurdu: *"Heç vaxt, heç vaxt! Canım əlində olan Allaha and olsun, ey Hüzeyfə! Ondan öncə altı*

[1] "İbni Həmmadın əlyazması", səh.141.
[2] Yenə orada, səh.142.
[3] Yenə orada, səh.115.
[4] Yenə orada, səh.124.

*xüsusiyyət vardır... Axırıncı müharibə rumluların fitnəsidir ki, onda müsəlmanlara xəyanət edib sülh müqaviləsini pozar və 80 qoşunu Antakiya-Əriş arasındakı məsafədə yerləşdirərlər."*[1]

Həzrət İsa (əleyhis-salam)-ın nazil olması ilə əlaqədar rəvayətlərdə deyilir ki, o zaman müharibə qurtaracaqdır. Bu mətləbi bizim qərblilərlə apardığımız müharibələrin həqiqəti təsdiqləyir ki, hələ də sona çatmamışdır və həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) zühur etməyincə, İsa asimandan nazil olmayınca sona çatmayacaqdır. Biz dünya səviyyəsində tüğyan etdikləri mərhələdə onlara qalib gələcəyik.

Digər rəvayətdə deyilir: *"Fələstində rumlularla iki çarpışma baş verəcəkdir ki, onlardan biri "seçmək", digəri isə "biçmək" adlandırılır."*[2] Yə'ni ikincisi birincisindən daha çox məhv edəndir.

Sonrakı rəvayətdə bu mə'naya işarə olunmuşdur ki, həzrət Məhdi (əleyhis-salam)-ın qərblilərlə apardığı müharibə bərabər olmayan bir müharibədir və əlbəttə, zahirdə qüdrətin müvazinəti onların xeyrinə olacaqdır. Buna görə də bə'zi qorxaq ərəblər onlara qoşulacaq, qalanları da bitərəf mövqe seçəcəklər. İbni Həmmad Məhəmməd ibni Kə'bdən *"siz tezliklə çox qüdrətli bir qövmə doğru çağırılacaqsınız"* – ayəsinin təfsirində belə nəql edir: Rumlularla böyük bir döyüş günü vardır. (Sonra dedi:) Allah İslamın əvvəllərində ərəbləri kafirlərlə müharibəyə də'vət etdikdə hamılıqla dedilər: "Bizim mal-dövlətimiz, arvad-uşaqlarımız başımızı qatmışdır." Sonra buyurdu: Siz çox güclü bir qövmə doğru çağırılacaqsınız. Müharibə günü onlar yenə də İslamın əvvəllərində dedikləri sözləri deyəcəklər. Bu ayə də onların barəsində həyata keçəcəkdir: *"Allah-taala sizi dərdli əzabla cəzalandıracaqdır."* Səfvan dedi: "Ustadımız dedi ki, o gündə ərəblərin bə'ziləri dindən çıxaraq mürtəd olacaq, bə'ziləri də şəkk-şübhəyə düçar olaraq İslama və onun ordusuna kömək etməkdən çəkinəcəklər."

Dindən dönən və mürtəd olanlar romalıları himayə edənlər, İslamın köməkçilərindən üz döndərənlər isə bitərəf mövqe seçənlərdir. Onlar həzrət Məhdi (əleyhis-salam)-ın qüdrətli əli ilə romalılara qələbə çaldıqdan sonra dərdli əzaba giriftar olacaqlar. İbni Həmmad bir rəvayətdə nəql etmişdir ki, bu müharibədəki şəhidlərin savabı Bədrdə Peyğəmbərin kənarında şəhid olanların savabı ilə eynidir. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu: *"Xilqətin əvvəlindən indiyə qədər bu asimanın altında qətlə*

---

[1] Yenə orada, səh.118.
[2] Yenə orada, səh.136.

*yetirilən ən yaxşı şəxslər bunlardır: Birincisi Habildir ki, məl'un Qabilin əli ilə məzlumcasına qətlə yetirildi. Ondan sonra öz ümmətləri tərəfindən şəhid olunan peyğəmbərlərdir, halbuki onlar ümmətlərini hidayət etmək üçün məb'us olunmuşdular, onlar "bizim Pərvərdigarımız Allahdır" – deyərək camaatı haqqa də'vət edərdilər. Onlardan sonra Ali-Fir'onun mö'mini, ondan sonra Yasinin sahibi, ondan sonra Həmzə ibni Əbdül-müttəlib, ondan sonra Ühüd döyüşündə şəhid olanlar, daha sonra Hüdeybiyyədə şəhid olanlar, ondan sonra Əhzab müharibəsində şəhid olanlar, ondan sonra Hüneyndə şəhid olanlar və ondan sonra da, məndən sonra gələn və alçaq fitrətli xəvaricin əli ilə qətlə yetirilənlər, onlardan sonra Allah yolunun mücahidləridir... Nəhayət rumlularla böyük müharibə baş verər ki, onun öldürülənləri Bədr müharibəsinin şəhidləri kimi olacaqdır."*[1]

Bəlkə də rəvayətdəki "Hüdeybiyyədə öldürülənlər" sözü səhvən deyilmiş, yaxud ona əlavə edilmiş olsun, çünki tarixi mənbələrdə nə bu müharibənin baş verməsi, nə də onda qan axıdılması qeyd olunmamışdır.

Şiə mənbələrində Əhli-beyt (əleyhimus-salam)-dan nəqlən qeyd olunur ki, Allah dərgahında şəhidlərin ən fəzilətlisi İmam Hüseyn (əleyhis-salam)-ın köməkçiləri və İmam Məhdi (ərvahına fidah)-ın köməkçilərindən olan şəhidlərdir.

İslam ölkələrinə axırıncı hücumun baş vermə zamanına gəldikdə isə, rəvayətlərdə qərblilərlə bağlanan müqavilənin müddəti yeddi il qeyd olunur. Amma onlar bu müddətin iki ili (bə'zi rəvayətlərdə isə üç ili) keçdikdən sonra xəyanət edərək müqaviləni pozacaqlar. İbni Həmmadın əlyazmasında Ərtatdan belə nəql olunur: *"Süfyaninin öldürülməsindən və Kəlb qəbiləsinin varlığının qənimət alınmasından sonra Məhdi ilə tüğyançı rum rəhbərləri arasında sülh bərqərar olunacaqdır. Belə ki, həm sizin, həm də onların ticarətçiləri bir-birinin ölkələrinə gediş-gəliş edərlər. Onlar üç il müddətində özləri üçün gəmi hazırlayarlar (öz dəniz donanmalarını gücləndirərlər), nəhayət rumluların gəmiləri Sur-Əkka sahillərində lövbər salar və ora müharibə səhnəsinə çevrilər."*[2]

Bu rəvayət qadının hamiləlik dövründən, yə'ni müqavilənin imzalanmasından doqquz ay sonra – onların tərəfindən xəyanət edilərək pozulacağını göstərir. Vəllahul-alim!

---

[1] Yenə orada, səh.131.
[2] Yenə orada, səh.142.

## QƏRBLİLƏRİN İSLAMA ÜZ GƏTİRMƏSİ

Qərb qüvvələrinin Fələstində və Şamda həzrət Məhdi (ə)-ın əli ilə məğlubiyyətə uğramaları qərb millətlərində və onların gələcəyində dərin tə'sirlər buraxacaqdır. Sözsüz ki, qərbdə kəlmə və qüdrətin nüfuzu həzrət İsa, Məhdi (ə) və onları müdafiə edən xalq kütlələrinə məxsus olacaq, bu insani dalğalar özlərinin kafir və zalım hökumətlərinin devrilməsində həzrət Məhdi (ə)-ın dövləti ilə həmrə'ylik e'lan edəcəklər.

Sünnü və şiə mənbələrindəki rəvayətlərə əsasən, həzrət Məhdi (ə) qərbə yola düşərək öz köməkçiləri ilə böyük şəhər olan Rumu və sair şəhərləri fəth edəcəkdir. Bə'zi rəvayətlərdə deyilir ki, o, öz köməkçiləri ilə təkbir deyərək oranı fəth edəcəkdir. *"Qostəntəniyyə, Rum və Çini fəth edəcəkdir."*[1] Başqa bir rəvayətdə: *"O, Ruma yola düşəcək və öz köməkçiləri ilə birlikdə böyük Rum şəhərini azad edəcəkdir."*[2] Digər bir rəvayətdə də: *"Məhdinin fəth etdiyi Rum şəhəri zahirdə Rumun mərkəzi və paytaxtıdır."*[3]

İmam Sadiq (ə) buyurur: *"O zaman rumlular o həzrətin əli ilə İslamı qəbul edər və İmam onlar üçün bir məscid tikər, öz köməkçilərindən bir nəfəri özünün canişin və nümayəndəsi tə'yin edib qayıdar."*[4]

Əkrəmə və Səid ibni Cübeyrdən *"ləhum fid-dünya xizyun"* – ayəsinin təfsirində belə nəql olunur: *"Bu, Romada olan bir şəhərdir ki, azad olunacaqdır."*[5] Başqa rəvayətdə deyilir: *"(O) bir Rum şəhərini təkbirlə və müsəlmanlardan 70 min nəfərlə azad edəcəkdir."*[6]

## İMAM MƏHDİNİN DÜNYƏVİ HÖKUMƏTİNİN SİMASI

İmam Məhdi (ə)-ın zühurunu müjdə verən ayə və rəvayətlər göstərir ki, o həzrətin İlahi mə'muriyyəti olduqca geniş səviyyəli, müxtəlif yönlü olub çox yüksək hədəflərə malikdir, elə geniş bir tədbirdir ki, bəşəriyyətin yer üzündəki həyatını tamamilə dəyişdirəcək, insaniyyətin üzünə tam mə'nada yeni bir fəsil açacaqdır.

Hətta o həzrətin mə'muriyyəti İslamı yenidən dirçəltmək, ədalət əsasında mədəniyyət qurmaq və onun nurunu dünyaya saçmaqdan ibarət olsa da belə, o həzrət bütün bunlardan əlavə öz əsrində və ondan

---

[1] "Bişarətul-İslam", səh.258. Tusinin "Qeybət" kitabından nəqlən.
[2] "Ilzamun-nasib", 2-ci cild, səh.22[illegible].
[3] "Məlahim və fitən", səh.64.
[4] "Bişarətul-İslam", səh.351, "Biharul-ənvar" kitabından nəqlən.
[5] "İbni Həmmadın əlyazması". səh.136.
[6] "Bişarətul-İslam", səh.297 ("Fütuhati Məkiyyə" kitabından nəqlən).

sonrakı dövrlərdə bəşər həyatının maddi təkamül və tərəqqisini elə şəraitdə tə'min edəcəkdir ki, keçmiş mərhələlərlə nə qədər inkişaf etmiş və mütərəqqi olsa da belə, onunla müqayisə oluna bilməyəcəkdir.

Həmçinin, o həzrətin İlahi vəzifələrindən biri də varlıq aləminin ənginliklərinə, yuxarı aləmlərə yol tapmaqdan və onun əhli ilə əlaqə yaratmaqdan ibarətdir. Bunun özü də təkamül üçün bir yoldur və Qiyamətin bərqərar olunması ilə, qeybət aləmi ilə şühud aləmi arasında hakim olacaq bir bağlılığa müqəddimədir.

İndi bu İlahi vəzifələrin bir qismini – bu kitabın həcminə uyğun şəkildə – bəyan edirik:

**YER ÜZÜNÜN ZÜLM VƏ ZÜLMKARLARDAN TƏMİZLƏNMƏSİ**

İlk baxışda belə nəzərə çarpır ki, yer üzünü zalımların, tağutçuların və zülmün mənfur simasından təmizləmək qeyri-mümkün olan bir işdir və sanki yer üzü məzlumların nalə və fəryadı ilə ünsiyyət tapmışdır, onların heç bir köməyə çatanı olmayacaqdır, dünya zalımların iyrənc vücudlarına dözməyə adət etmişdir; hətta belə təsəvvür olunur ki, zalımların vücudundan yer üzünün təmizləndiyi belə bir dövr gəlməyəcəkdir. Çünki onlar sanki cəmiyyətdə möhkəm köklər atmış mənfur və faydasız bir ağaca bənzəyirlər ki, əgər onun köklərindən biri kəsilsə, onun yerinə on qat artığı əmələ gələr və əgər zalımlar bir nəsildə məhv olsalar da, digər nəsillərdə dəstə-dəstə yaranmış olarlar.

Lakin hikmət sahibi olan Allah belə məsləhət görmüşdür ki, bəşər həyatı haqla-batilin, xeyirlə-şərin qarşılıqlı çarpışması əsasında bərqərar olsun və O, hər bir şey üçün müəyyən hədd-hüdud, hər bir əsr və zaman üçün müəyyən tale, nəhayət zülm və haqsızlıq üçün də müəyyən bir vaxt tə'yin etmiş olsun. *"O gün bəd əməl sahibləri öz üzləri ilə tanınar, sonra onların alın tüklərindən və ayaqlarından tutularlar"*[1] – ayəsi barəsində İmam Sadiq (əleyhis-salam)-dan belə nəql olunur: *"Allah-taala onları həmişə tanıyır, lakin bu ayə Qaim barəsində nazil olmuşdur. O, müqəssirləri və zalımları üzlərindən tanıyar, öz köməkçilərinin qılıncları ilə onları möhkəm tənbeh edər."*[2]

Əli (əleyhis-salam) buyurur: *"Allah-taala gözlənilmədən Əhli-beytdən olan bir kişinin vasitəsilə müsəlmanlar üçün qurtuluş vücuda gətirər. Atam ən yaxşı kənizin övladı olan o şəxsə fəda olsun! Və yalnız odur ki, (düş-*

[1] "Ər-rəhman" surəsi, 41-ci ayə.
[2] "Qeybəti Nö'mani", səh.127.

*mənlər) səkkiz ay müddətində ondan qılınc və qətldən başqa bir şey görməzlər."*[1]

İmam Baqir (əleyhis-salam)-dan belə nəql olunur: *"Allahın Peyğəmbəri (səllallahu əleyhi və alihi və səlləm) ümməti arasında mülayimliklə, yaxşılıqla rəftar edir və camaatla ünsiyyətdə olurdu. Qaim (düşmənləri) qətlə yetirməklə rəftar edəcək və heç kəsin tövbəsi qəbul olunmayacaqdır. Onun (əlində) bir əhdnamə vardır ki, bu işə mə'mur olunmuşdur. Vay olsun o kəsə ki, onunla düşmənçilik edə!"*[2]

Bu əhdnamədən məqsəd Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-dən yadigar qalmış əhd-peymandır. Qeyd olunduğu kimi, həmin məktubda bu cümlələr vardır: *"Öldür, yenə də öldür, bir kəsin tövbəsini qəbul etmə!"* Yə'ni heç bir cinayətkarın və zalımın tövbəsini qəbul etmə.

İmam Baqir (əleyhis-salam)-dan belə rəvayət olunmuşdur: *"Məhdi (əleyhis-salam)-ın öz cəddi Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm)-ə oxşaması – onun qılıncla qiyam və zühur etməsi, Allahın və Onun Peyğəmbərinin düşmənlərini, zalımları və tağutları qətlə yetirməsidir. O, düşmənlərin qəlbinə qılınc vasitəsilə qorxu salıb qələbə çalacaqdır – onun ordusu məğlubedilməzdir."*[3]

İmam Cavad (əleyhis-salam) belə buyurur: *"O, Allah düşmənlərini Allah-taala razı olana qədər öldürər. Allahın razı olmasından o zaman agah olar ki, öz qəlbində rəhm və ürəyi yananlıq hissi keçirər."*[4]

Həmin mənbədəki başqa bir rəvayətdə o həzrət belə buyurur: *"Onun (Məhdinin) ordusunun sayı tə'yin olunmuş həddə – yə'ni on iki min nəfərə çatan zaman Allahın əmri ilə qiyam edəcək, Allah düşmənlərini qılıncdan keçirəcək, nəhayət Allah ondan razı olacaqdır."* Soruşdum: Allahın razılığından necə agah olacaqdır? Buyurdu: *"Allah (razı olduğu zaman) onun qəlbinə mehr-məhəbbət salacaqdır."*

Hətta rəvayətlərdə qeyd olunduğu kimi, o həzrətin köməkçilərindən bə'ziləri zalımların onun əli ilə (belə kütləvi şəkildə) qətlə yetirilməsindən şəkk-şübhəyə düşəcək, ona e'tiraz edəcəklər. İmam Baqir (əleyhis-salam)-dan belə rəvayət olunur: *"O (Məhdi), Sə'ləbiyyəyə çatdıqda onun qohumları içərisində – həzrət Məhdidən əlavə – şücaət və cismi baxımdan ən güclü olan bir şəxs ayağa qalxıb deyəcək: "Ey filankəs! Nə edirsən?! Allaha and olsun, sən camaatı öz qabağında qoyunlar kimi qovursan (yə'ni çoban kimi qoyunları öz qabağına qatıb*

---

[1] "Nəhcül-bəlağə"nin şərhi, 3-cü cild, səh.176.
[2] "Qeybəti nö'mani", səh.121.
[3] "Biharul-ənvar", 51-ci cild, səh.218.
[4] "Biharul-ənvar", 51-ci cild, səh.157.

*qovursan)! De görüm, Peyğəmbərdən sənin yanında (bu işinə dair) əhd-peyman, yaxud başqa bir şey vardırmı?" Bu zaman camaatdan İmama bey'ət almağı öz öhdəsinə alan şəxs deyər: "Sakit ol, əks halda boynunu vuraram!" Sonra Qaim buyurar: "Ey filankəs, sakit ol! Allaha and olsun ki, Peyğəmbərdən (mənə çatan) yazılı bir əhdnaməni özümlə gətirmişəm. (Sonra köməkçilərinə deyər:) O sandıqçanı gətirin." Sandığı onun yanına gətirərlər. İmam Peyğəmbərin yazdığını oxuyar, bu zaman e'tiraz edən şəxs deyər: "Sənə fəda olum, icazə ver alnından öpüm." İmam başını qabağa əyər və o, İmamın iki gözünün arasından öpüb, yenə deyər: "Allah məni sənə fəda etsin. Mənimlə yenidən bey'ət et." İmam da yenidən onunla bey'ət edər."*[1]

Şübhəsiz, İmamın köməkçiləri müəyyən əlamət və nişanələrin vasitəsilə həmin yazının Peybəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in yazdığı məşhur kağız olduğunu başa düşəcəklər. Yenidən bey'ət etmək istəmələrinin səbəbi budur ki, onların irad və e'tirazları bir növ bey'ətdə xələl hesab olunur (buna görə də yenidən bey'ət etmək istəyərlər.)

Bə'ziləri İmam (əleyhis-salam)-ın zalımları qətlə yetirməsi, cəzalandırması və məhv etməsini bir növ daşürəklilik və qətldə ifratçılıq hesab edə bilərlər. Amma həqiqətdə bu iş bir növ İslam və sair dünya cəmiyyətlərinin inadkarların və zalımların mənfur vücudlarından təmizlənməsi üçün zəruri olan cərrahiyyə əməliyyatına bənzəyir və bu iş olmadan heç vaxt zülmün büsatı yığışdırıla, ədalət hakim ola bilməz. Əgər İmam onlarla mülayimlik və güzəşt əsasında rəftar edərsə, zalımların yeni-yeni hiyləgərlik planları (onların həyatları bu planların davam etdirilməsinə bağlıdır) heç vaxt aradan qalxmayacaqdır. Çünki hazırkı cəmiyyətlərdə mövcud olan zalımlar ağacın qurumuş budaqlarına, yaxud bir növ xərçəng virusuna bənzəyirlər ki, o xəstəliyi cəmiyyətdən yığışdırmaq üçün, hətta çətin də olsa belə, kökdən kəsmək lazımdır,.

Bu siyasətdə şəkk edənlərə xatircəmlik gətirən şey o həzrətin, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) tərəfindən yazılan bir əhdnaməni özü ilə gətirməsidir, bundan əlavə, mütəal Allah o həzrətə, camaat və onların şəxsiyyətləri ilə əlaqədar elm və agahlıq inayət edəcəkdir. O, ayrı-ayrı şəxslərə İlahi nur sayəsində baxacaq, onları tanıyacaq və dərdlərinə əlac edəcəkdir. Buna görə də vücudlarında hidayət ümidi olan şəxslərin İmamın əli ilə qətlə yetirilməsi qorxusu əsla yoxdur. (Həzrət Xızr və Musa (əleyhiməs-salam)-ın

[1] "Biharul-ənvar", 53-cü cild, səh.343.

arasında baş verən hadisələrdə deyildiyi kimi, həzrət Xızr bir cavanı qətlə yetirir ki, öz ata-anasını üsyankarlığa və küfrə çəkməsin.) Əksinə rəvayətlər bu mə'nanı çatdırır ki, həzrət Xızr həzrət Məhdi (ərvahuna fidah)-la birlikdə zahir olacaq və o həzrətin köməkçilərindən olacaqdır. Zahirən o həzrət mö'minlərdə yaxşı xislətlərin vücuda gətirilməsi, pis və şər işlərin dəf edilməsi və fitnə-fəsadın kökünün kəsilməsi üçün özünün *"Biz ona Öz tərəfimizdən rəhmət bağışladıq və Öz tərəfimizdən ona elm öyrətdik"*[1] – ayəsində deyilən *"lədünni"* elmindən istifadə edir ki, fəsad ağacı böyüyüb boya-başa çatmamışdan qabaq bu işlər görül-məlidir. Güclü ehtimala əsasən, həzrət Xızrın və həzrət Məhdi (ələyhis-salam)-ın hökumətindəki sair köməkçilərin fəaliyyətləri aşkardır və bu böyük şəxsiyyətlər camaat üzərində vilayət haqqına və həmin hökumətdə zahiri qayda-qanunları pozma haqqına malikdirlər. Rəvayətlərdə qeyd olunur ki, həzrət Məhdi (ələyhis-salam) camaat arasında Allahın ona əta etdiyi həqiqi hökmlər əsasında mühakimə yürüdəcək və buna görə də heç kəsdən şahid və dəlil-sübut istəməyəcək, zalımları və fitnə-fəsad əhlini qətlə yetirməkdə Allah-taalanın ona əta etdiyi lədünni və gerçək elmdən istifadə edəcəkdir. Bə'zən onun köməkçiləri də zalımları qətlə yetirməkdə o həzrətin üslubundan istifadə, amma sair işlərdə camaatla zahiri qanunlar əsasında rəftar edəcəklər. Lakin həzrət Xızr və onun köməkçiləri özünə xas xüsusiyyət və səlahiyyətlərə malikdirlər.

**İSLAMIN DÜNYA SƏVİYYƏSİNDƏ YENİDƏN DİRÇƏLDİLMƏSİ**

*"O həmin Allahdır ki, Öz Rəsulunu haqq dinlə (camaatın hidayəti üçün) göndərdi ki, bütün aləm dinlərinə hakim edib üstünlük versin, hərçənd kafirlər narazı və müxalif olsalar da belə"*[2] – ayəsinin təfsirində Əli (ələyhis-salam)-dan belə nəql olunmuşdur: *"Məgər Allah bu ayənin nümunəsini indi aşkar edibdirmi? Əsla! Canım əlində olan kəsə and olsun, (bu ayənin nümunəsi aşkar olanda) elə bir abadlıq qalmayacaqdır ki, hər sübh və axşam onda Allahın vəhdaniyyətinə və Mühəmmədin risalətinə şəhadət verilməmiş olsun."*[3]

İbni Abbas belə rəvayət edir: *"Heç bir yəhudi və məsihi, yaxud sair din ardıcılı qalmaz ki, İslama üz gətirməmiş olsun. Nəhayət cizyə (adam başına olan maliyyət) aradan qaldırılar, xaç sındırılar, donuz öldürülər. Allah-taalanın buyurduğu "İslamı bütün dünya dinlərinə*

---

[1] "Kəhf" surəsi, 65-ci ayə.
[2] "Tövbə" surəsi, 33-cü ayə.
[3] "Mühəccət" Bəhrani, səh.86.

*qalib edəcək, hətta kafirlər narazı və müxalif olsalar da belə" – ayəsinin xarici nümunəsi Qaimin qiyamı dövründə vücuda gələcəkdir."*[1]

"Cizyənin götürülməsi" dedikdə məqsəd budur ki, Kitab əhlindən İslamdan başqa bir şey qəbul olunmayacaqdır. Əbu Bəsir deyir: İmam Sadiq (əleyhis-salam)-dan *"O həmin Allahdır ki, Öz Rəsulunu haqq dinlə (camaatın hidayəti üçün) göndərdi ki, İslamı bütün dünya dinlərinə qalib etsin, hətta kafirlərin xoşuna gəlməsə də belə"* – ayəsinin təfsiri barəsində soruşduqda həzrət buyurdu: *"Allaha and olsun, bu ayənin təfsiri hələ gerçəkləşməmişdir."* Ərz etdim: "Sənə fəda olum, bəs nə vaxt həyata keçəcəkdir?"

İmam Baqir (əleyhis-salam) belə buyurur: *"Qaim (düşmənlərin qəlbində) qorxu yaradılması səbəbi ilə qələbə çalacaq, Allah tərəfindən bir köməklə qüvvətləndiriləcək, yer onun üçün "teyy" olunacaq (teyyül-ərz edəcək). Yerdəki xəzinələr onun üçün aşkar olacaq, onun hakimiyyət və səltənəti dünyanın şərqini və qərbini əhatə edəcək. Allah Öz dinini onun vasitəsilə bütün dünya dinlərinə qalib edəcək, hətta müşriklərin xoşuna gəlməsə və onlar müxalifət etsələr də belə. Yerin viranlıqları abad olunacaq, Allahın ruhu İsa yer üzünə nazil olacaq və o həzrətin arxasında namaz qılacaqdır."*[2]

O həzrətdən yuxarıdakı ayənin təfsirində belə nəql olunur: *"Elə bir kəs qalmayacaqdır ki, həzrət Mühəmməd (səllallahu əleyhi və alihi və səlləm)-in risalətinə iqrar və e'tiraf etməmiş olsun."*[3]

İmam Sadiq (əleyhis-salam) buyurmuşdur: *"Bu ayə barəsində atamdan (İmam Baqir (əleyhis-salam)-dan) soruşduqda buyurdu: (Onun mə'nası budur ki,) bütün müşriklərlə mübarizə edin, necə ki, onlar hamılıqla sizinlə mübarizəyə qalxmışlar. Nəhayət yer üzündə heç bir fitnə qalmasın və din Allaha məxsus olsun." Sonra buyurdu: "Bu ayənin təfsiri hələ gerçəkləşməmişdir. Qaim qiyam edən zaman onu görənlər bu ayənin necə təfsir olunmasını biləcəklər və nəhayət, Allah-taalanın buyurduğu kimi, Mühəmmədin ayini gecənin sonu kimi sadiq sübhlə aydın olacaq, yer üzündə şirkdən heç bir əsər-əlamət qalmayacaqdır."*[4]

---

[1] Yenə orada, səh.87.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.191.
[3] "Təfsiri Əyyaşi", 2-ci cild, səh.87.
[4] "Təfsiri Əyyaşi", 2-ci cild, səh.56.

İmam Baqir (əleyhis-salam) *"Bu, yalnız dünya əhli üçün bir xatırlatmadır və şübhəsiz, onun xəbərini o zamandan sonra biləcəklər"* – ayəsinin[1] təfsirində buyurur: *"O, Qaimin qiyam etdiyi zaman olacaqdır."*[2]

Həmçinin, *"Tezliklə Öz nişanələrimizi asimanlarda və yerdə onlara göstərəcəyik ki, Onun haqq olması onlar üçün aşkar olsun"*[3] – ayəsinin təfsirində İmam Baqir (əleyhis-salam)-dan belə nəql olunur: *"Allah onların məsx olunmasını (donuz və meymun şəklinə düşmələrini) onların özlərinə göstərəcək; həmçinin asiman üfüqlərinin tökülməsini və şəhərlərin iztirablı olmasını onlara göstərəcək, onlar Allahın qüdrətini öz vücudlarında və dünyanın başdan-başında hiss edəcəklər. Allah-taalanın buyurduğu "Onun haqq olması onlar üçün aşkar olsun" – dedikdə məqsəd Qaimin qiyamıdır ki, Allah tərəfindən olan bir haqdır və bu insanlar hökmən onu görəcəklər."*[4]

Rəvayətlərdə qeyd olunur ki, həzrət Məhdi (ərvahuna fidah)-la müxalif olan kafir və münafiqlərin bə'ziləri birdən-birə meymun və donuz surətinə düşəcəklər. Üfüqlərin tökülməsi dedikdə məqsəd şəhərlərin iğtişaşlı olması və millətlərin öz hakimlərinə qarşı çıxıb qiyam etmələridir. Asimanın üfüqlərinin tökülməsi dedikdə isə, onlar üçün müəyyən əlamət və nişanələrin aşkar olunmasıdır.

Hədislərdə buyrulan "azı çoxaltmağın" bir nümunəsi o həzrətin mö'cüzəli informasiya vasitələrinin bütün dünyaya hakim olmasıdır. Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə rəvayət olunur: *"Əgər dünyanın axırına bir gündən artıq qalmasa belə, Allah-taala adı mənim adımla eyni, əxlaqı mənimlə eyni və künyəsi Əbu Əbdillah olan bir şəxsi göndərəcək, camaat Rüknlə Məqam arasında onunla bey'ət edəcək, ona çoxlu fəthlər nəsib olacaq və bütün yer əhli "la ilahə illəllah" deyəcəklər."* Bu zaman Salman Farsi ayağa qalxıb dedi: Ey Rəsuləllah! (Bu kişi) sizin hansı övladınızın nəslindəndir? Həzrət, İmam Hüseyn (əleyhis-salam)-a işarə edərək *"bu oğlumun övladlarındandır"* – deyə buyurdu.[5]

Amma sünnü və şiələrin nəzərində mö'təbər olan rəvayət budur ki, o həzrətin künyəsi, eynilə Peyğəmbərin künyəsi kimi Əbul-Qasimdir. Peyğəmbərin belə buyurduğu nəql olunmuşdur: *"Məhdi mənim xanə-*

---

[1] "Təfsiri Əyyaşi", səh.88.
[2] "Rovzeyi-Kafi", səh.287.
[3] "Səcdə" surəsi, 53-cü ayə.
[4] "Qeybəti Nö'mani", səh.243.
[5] "Bəyani Şafei", səh.129.

*danımdan, Fatimənin övladlarındandır. O, mənim üslubum əsasında mübarizə edər, necə ki, mən vəhy əsasında mübarizə edirdim."*[1]

Başqa rəvayətdə isə belə buyurur: *"O, axirəz-zamanda İslam dinini bərpa etmək üçün qiyam edər, necə ki, mən İslamın əvvəlində onu bərpa etmək üçün qiyam etmişdim."*[2]

Digər rəvayətdə buyurur: *"Dünyada İslam hakimindən başqa heç bir hakim olmayacaq və yer üzü gümüş lövhə kimi olacaqdır."*[3] Yə'ni xalis gümüş parladığı kimi, yer üzü də küfr və nifaqın iyrənc simalarından paklanaraq tərtəmiz olacaq. Əli (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Başqaları Qur'anı öz rə'y və düşüncələri əsasında açdıqları zaman o (Qaim) rə'y və nəzərini Qur'andan əxz edər, ədalət üslubunu onlara göstərər, Kitab və Sünnəni – artıq tərk olunduğu bir halda – yenidən dirildər."*[4]

Yə'ni Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) Qur'ana itaət edər və yolunu azanlar kimi, təhrif əsasında onu təfsir etməyəcəkdir.

İmam Baqir (əleyhis-salam) buyurur: *"Sanki sizin dininizi tutularaq öz qanına qəltan olan bir quş kimi görürəm. Onu sizə yalnız biz Əhli-beytdən olan bir kişi qaytaracaqdır. Həmin zamanda o, sizə ildə iki dəfə bəxşiş, ayda iki dəfə ehsan edəcəkdir. Onun dövründə hikmətə yol tapacaqsınız, hətta, qadın öz evində Allahın Kitabı və Peyğəmbərin sünnəsi əsasında hökm edəcəkdir."*[5]

İmamın buyurduğu *"tutulan və öz qanına qəltan olan bir quş kimi"* – ifadəsi İslamın mövcud vəziyyəti barədə dəqiq bir təşbehdir. Belə ki, hal-hazırda bu din yaralı bir quş kimi öz qanadlarını açır, zalımların vurduğu zərbə və xəsarətlərdən öz qanına qəltan olur. Yə'ni İslamı təhrif edərək müsəlmanları ondan uzaqlaşdırarlar, nəhayət həzrət Məhdi (əleyhis-salam) onu xilas edib canlandırar və yenidən onlara qaytarar.

*"İldə iki dəfə sizə bəxşiş və ayda iki gün ehsan edər"* – cümləsindən məqsəd budur ki, o həzrət hər altı ayda bir dəfə beytül-maldan bəxşiş edər, yeyinti məhsullarını hər iki həftədən bir bölüşdürər. İmam Sadiq (əleyhis-salam) buyurur: *"İslam xar olduqdan sonra Allah onun (Qaimin) vasitəsilə ona izzət bağışlayacaq, tərk olunmuş bir halda qaldıqdan sonra onu yenidən canlandıracaq, cizyə (illik vergi) qərar verəcək və*

---

[1] Yenə orada, səh.63.
[2] "Biharul-ənvar", 51-ci cild, səh.78.
[3] "Məlahim və fitən", səh.66.
[4] "Nəhcül-bəlağənin şərhi", 4-cü cild, səh.36.
[5] "Biharul-ənvar", 52-ci cild, səh.352.

*(kafir və münkirləri) qılıncla Allaha doğru də'vət edəcəkdir. Hər kəs inadkarlıq göstərib imtina etsə, qətlə yetiriləcək, hər kəs onunla qarşılaşmaq istəsə, xar və biçarə olacaqdır."*[1]

Həmçinin, buyurur: *"Allah onun vasitəsilə hər növ bid'əti aradan qaldıracaq, hər növ azğınçılığı məhv edəcək və hər növ sünnəni dirçəldəcəkdir."*[2]

İmam Baqir (ələyhis-salam) buyurur: *"Yer üzündə elə bir viranlıq olmaz ki, abad olunmamış qalsın. Allahdan başqa heç bir mə'bud və büt qalmaz, bunların hamısı oda düçar olub yanar."*[3]

Təbiidir ki, əgər bir insan "Həzrət Məhdi (əccələllahu təala fərəcəhuş şərif) İslamı bu qədər qeyri-müsəlman dövlətləri arasında necə yaya biləcək, halbuki onların hamısı maddi həyata qurşanmış, iman və mə'nəvi dəyərlərdən tamamilə uzaq düşmüş, İslam və müsəlmanlara qarşı tam mə'nada bədbindirlər?!" - deyə təəccüblə sual etsə, onda (o həzrətin zühur hərəkatında qeyd olunan bə'zi) e'tiqadi, siyasi və iqtisadi amillərə diqqət yetirmək lazımdır. O cümlədən, bunu qeyd etmək olar ki, dünya xalqları dindən heç bir xəbər olmayan maddi həyatı təcrübədən keçirmiş, onun insan vicdanını və insaniyyəti qane edə bilmədiyini əməli olaraq hiss etmişlər. O amillərdən biri də İslamın fitri bir din olmasıdır ki, əgər tağutçu rəhbərlər imkan versə və bu dinin nuru alimlərin, həqiqi mö'minlərin vasitəsilə bütün millətlərə çatsa, onlar İslam nuruna aşiq olacaq və dəstə-dəstə İslama qovuşacaqlar. Digəri isə o həzrətin vasitəsilə bütün dünya millətlərinə göstərilən mö'cüzə və qeyri-adi işlərin baş verməsidir. Onların ən bariz nümunəsi asimani bir nidadır ki, əvvəldə qeyd olundu. Bu mö'cüzələrin zalım hakimlərə qoyduğu tə'sirin ötəri və zəif, yaxud ümumiyyətlə tə'sirsiz olmasına baxmayaraq, onların millətlərinə müxtəlif yönlərdə tə'sir qoyacaqdır. Bəlkə də bu, o həzrətin ardıcıl qələbələrində ən mühüm amil sayılır. Çünki qərb millətləri təbii olaraq qalib qüvvələri – hətta onların düşməni olsa belə – sevir və tə'rifləyirlər.

Digər bir amil də həzrət İsa (ələyhis-salam)-ın yer üzünə nazil olması, Allah-taalanın onun qüdrətli əlləri ilə qərb millətlərinə və dünya xalqlarına aşkar etdiyi mö'cüzə və nişanələrdir. Hətta həzrət İsa (ələyhis-salam) əsas e'tibarı ilə qərb millətləri arasında fəaliyyət edəcək və təbiidir ki, qərb millətləri və onların hakimləri əvvəldə onun varlığı ilə sevinəcək və

---

[1] "Bişarətul-İslam", səh.297.
[2] "Kafi", 1-ci cild, səh.412.
[3] "Kəmaluddin", Səduq, səh.331.

ona iman gətirəcəklər. Amma onun Həzrət Məhdi (əleyhis-salam)-a və İslama meyl etdiyini gördükləri zaman qərb dövlətləri şəkk-şübhəyə düçar olacaq, onu hərtərəfli himayə etmələri nisbətən azalacaqdır. Lakin bu zaman onun qərb millətlərindən çoxlu köməkçiləri və havadarları olacaq, onlarda dərin e'tiqadi və siyasi dəyişikliklər vücuda gələcək və nəticədə öz ölkələrində çox güclü hərəkatlar yaradacaqlar.

Amillərdən biri də iqtisadi yönə malikdir: İslam dünyasında Həzrət Məhdi (əleyhis-salam)-ın vasitəsilə bütün rifah və firavanlıq vasitələri, maddi imkanlar münasib şəkildə tə'min olunacaqdır. Rəvayətlərin dediyinə əsasən, o həzrətin əsrində müsəlmanlar dünya və onun millətlərinin tarixində misli görünməmiş naz-ne'mətə qərq olacaqlar. Bunun müqabilində də qeyri-İslami dövlətlərdə siyasi və iqtisadi böhranlar yaranacaqdır. Aydındır ki, belə bir vəziyyət və şərait qərb millətlərinə həddindən artıq güclü tə'sir qoyacaqdır.

## MADDİ HƏYATDA DƏRİN DƏYİŞİKLİKLƏR VƏ FİRAVANLIQLARIN YARADILMASI

Həzrət Məhdi (əleyhissalam)-la əlaqədar rəvayətlərdə deyilən ən bariz məsələlərdən biri də o həzrətin dünya səviyyəli hökumətində iqtisadi firavanlıq və texnologiyanın sür'ətlə inkişafıdır. Xüsusilə, nəzərə alaq ki, bu rəvayətlər Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) dövründən hazırkı əsrə qədər – təbii elmlərin inkişafından əsrlər öncə – nəql olunmuşdur. Buna diqqət yetirməklə bilməliyik ki, maddi həyat bəşəriyyəti elə ümumi bir mərhələdə qərar vermişdir ki, gündəlik həyat hadisələrinin çoxunda, ictimai həyatda, beynəlxalq şəraitdə əvvəlki dövrlərə nisbətən çoxlu fərqlərə malikdir. Bundan əlavə, İmam Zaman (əleyhissalam)-ın əsrində maddi həyatdan söhbət açan rəvayətlərdən mə'lum olur ki, onlar bizim öz əsrimizdə tanıdığımız şeylərdən çox-çox artıq olacaqdır. Bizi firavanlığa çatdıran şeylər adi bəşərin sə'yi və fəaliyyətləri ilə əldə olan elmi dəyişikliklər və inkişaflardır. İndi isə bu barədə nəql olunan rəvayətlərdən bir qismini qeyd edirik:

## YERALTI XƏZİNƏLƏRİN ÇIXARILMASI VƏ CAMAAT ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in belə buyurduğu nəql olunur: *"Yer öz xəzinələrini onun üçün xaric edəcək, o, hədsiz miqdarda malı və sərmayəni camaatın arasında paylayacaqdır."*[1]

Digər rəvayətdə deyilir: *"Belə ki, o, yerdən qızıl sütun kimi bir şey çıxaracaqdır."*

Başqa bir rəvayətdə deyilir: *"O, saysız-hesabsız mal-dövlət və sərvəti camaata əta edəcəkdir."*

Şiə-sünnü mənbələrində məşhur olan bu rəvayətlər misli görünməmiş firavanlıqdan söhbət açır, o həzrətin insanlara qarşı səxavət və məhəbbət ruhiyyəsini bəyan edir. İmam Baqir (əleyhissalam) belə buyurur: *"Əhli-beytin Qaimi qiyam edən zaman (imkanatları) bərabər şəkildə bölüşdürəcək və rəiyyət arasında ədaləti bərqərar edəcəkdir. Hər kəs ona itaət etsə, Allaha itaət etmiş olacaq, hər kəs ona qarşı üsyan etsə, Allaha qarşı üsyan etmiş olacaqdır. Tövratı və digər səmavi kitabları Antakiyadakı mağaradan çıxaracaq və yəhudilərə Tövrat əsasında, məsihilərə İncil əsasında, Zəbur əhlinə onun göstərişləri, müsəlmanlara isə Qur'an ayələri əsasında hökm edəcəkdir. Dünya sərvətləri və*

---

[1] "Biharul-ənvar", 61-ci cild, səh.68

*mal-dövlətləri yerin daxil və xaricindən gəlib onun yanında toplanacaq və camaata deyəcək: "Gəlin o şeyə tərəf ki, onun xatirinə bir-birilə qohumluq əlaqələrini kəsib haram qanları axıtmış və Allahın haram buyurduğu şeylərə mürtəkib olmuşdunuz..." Hər kəsə o qədər mal-dövlət əta edər ki, ondan qabaq heç kəs o miqdarda əta etməmişdir, yer üzünü zülm, haqsızlıq və şərlə dolduğu kimi, haqq-ədalətlə dolduracaqdır."*[1]

## İSLAM ÜMMƏTİNİN NE'MƏTLƏRDƏN BƏHRƏLƏNMƏSİ VƏ YER ÜZÜNÜN ABADLAŞMASI

Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: *"Məhdinin dövründə mənim ümmətim elə ne'mətlərdən bəhrələnəcəklər ki, onun kimi heç vaxt bəhrələnməmişlər. Səma öz yağışını onlara nazil edəcək, yer üzərində cücərməmiş heç bir bitki qalmayacaqdır."*[2]

Başqa bir rəvayətdə buyurur: *"Ümməti onun yanına elə sığınacaqlar ki, sanki bal arısı ana arının yanına yığışmışlar. O, yer üzünü, zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə dolduracaqdır. Belə ki, insanlar ilk cəmiyyətdəki kimi olacaqlar – o, yatmış adamı oyatmayacaq, qan axıtmayacaq."*[3]

Bəlkə də, *"insanlar ilk cəmiyyətdəki kimi"* sözünün mə'nası budur ki, bəşər, ilk cəmiyyətində vahid ümmət kimi səfa-səmimiyyətdə, insani fitrət əsasında yaşadıqları, aralarında ixtilaf olmadığı kimi olacaqdır. Necə ki, Qur'anda *"Camaat vahid bir ümmət idi."* –deyə buyurulur.[4]

Bu da bə'zi rəvayətlərdə deyilən nəzəriyyəni təsdiqləyir, yəni bəşər cəmiyyəti Məhdi (əleyhis-salam)-ın dövründə heç bir fəqirlik olmayan ehtiyacsız bir cəmiyyət olacaqdır. Hamı eşq-məhəbbət, dostluq şəraitində yaşayacaq, ixtilaf və çəkişmələrdən uzaqda olacaq, məhkəməyə ehtiyac duyulmayacaq, sonrakı mərhələdə isə alverlər pulsuz olaraq yerinə yetiriləcəkdir. Belə ki, insanlar *"qürbətən iləllah"* niyyəti ilə bir-birinə xidmət edəcək, öz ehtiyaclarını bir-birinə hədiyyə verməklə, Peyğəmbərə salavat göndərməklə aradan qaldıracaqlar.

Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: *"Asimanın və yerin sakinləri ondan razı olacaq, asiman bir damlanı belə yağdırmaqda, yer*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.351.
[2] "İbni Həmmadın əlyazması", səh.98.
[3] Yenə orada, səh.98.
[4] "Bəqərə" surəsi, 213.

*öz bitkilərini cücərtməkdə heç nəyi əsirgəməyəcək. Belə ki, dirilər arzu edərək deyərlər ki, kaş ölülər də diriləydilər"*[1] ki, bütün bu ne'mətlərdən bəhrələnə bilsinlər.

İmam Baqir (əleyhis-salam) buyurur: *"Mütəal Allah Öz dinini, hərçənd müşriklərin xoşuna gəlməsə belə, onun vasitəsilə aşkar edəcək, yerin bütün viranlıqları abadlaşacaq."*[2]

İmam Sadiq (əleyhis-salam) buyurur: *"Məhdi insanların qəlbində sevilir. Allah-taala onun vasitəsilə xoşagəlməz fitnə atəşini söndürəcəkdir."*[3]

O həzrətdən "müdhammətan" ayəsinin təfsirində belə nəql olunmuşdur: *"Məkkə-Mədinə arasındakı fasilə xurma ağaclarının vasitəsilə bir-birinə birləşəcək."*[4]

Səid ibni Cübeyr belə nəql edir: *"Qaim qiyam etdiyi ildə yer üzünə iyirmi dörd dəfə yağış yağacaq və onun xeyir-bərəkəti görünəcəkdir."*[5]

İbni Həmmad belə qeyd edir: *"Məhdinin nişanəsi – öz məs'ul işçilərinə qarşı ciddi tələbkarlıq, fəqir-füqəraya isə ürəyiyananlıq və mal-dövlət əta etməkdir."* Həmçinin, *"Məhdi sanki biçarələrin ağzına kərə yağı qoyur."*[6]

## TƏBİİ ELMLƏRDƏ VƏ MƏİŞƏT VASİTƏLƏRİNDƏ BAŞ VERƏN DƏYİŞİKLİKLƏR

Həzrət Məhdi (ərvahuna-fidah)-la əlaqədar rəvayətlərdə həm keçmiş, həm də müasir nəsillər üçün kütləvi informasiya vasitələri, radio-televiziya, iqtisadi, təhqiqat və müharibə texnikaları, hökumət, qəzavət və digər şeylərdə qeyri-adi olan bir çox işlər qeyd edilir ki, zahirən onlardan bə'ziləri kəramət və mö'cüzə sayılır və Allah-taala bunları o həzrətin və köməkçilərinin əli ilə həyata keçirəcəkdir. Lakin onların çoxu yerdə və göylərdə olan maddələr surətində insanın ixtiyarına verilən təbii elmlərdə dərin irəliləyiş, İlahi ne'mət və qanunlardan bəhrələnmək sayəsində olacaqdır. Çoxlu rəvayətlərdə deyilir ki, həzrət Məhdi (əleyhis-salam)-ın vasitəsilə təbii elmlərdə dərin dəyişikliklər icad olunan zaman bəşəriyyətin yer üzərindəki həyatının bütün yönlərində sıçrayışlı inkişaf baş verəcəkdir. İmam Sadiq (əleyhis-salam) buyurur: *"Elm iyirmi yeddi hərfdən (şö'bə və şaxədən) ibarətdir. Peyğəmbərlərin gətirdiklərinin*

---

[1] "İbni Həmmadın əlyazması", səh.99.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.191.
[3] "Bişarətul-İslam", səh.185.
[4] "Biharul-ənvar", 56-cı cild, səh.49.
[5] "Kəşfül-ğümmə", 3-cü cild, səh.250.
[6] "İbni Həmmadın əlyazması", səh.98.

*məcmusu iki hərfdir, camaat o günə qədər iki hərfdən başqa bir şey bilməyəcəklər. Qaim qiyam edən zaman yerdə qalan iyirmi beş hərf də aşkar olacaq və camaatın arasında yayılacaq. Beləliklə də, elmin iyirmi yeddi hissəsi məcmu halında yayılacaqdır."*[1]

Bu rəvayət Allahı tanımaq, Onun risaləti və axirətə adi olan İlahi kəlamları gətirən elmlər barəsində olsa da, təbii elmlərə də diqqət yetirir ki, rəvayətlərə əsasən, həmin elmlərin bə'zilərinin əsaslarını da peyğəmbərlər insanlara öyrətmiş, onun pəncərələrindən cüz'i bir hissəsini onların üzünə açmışlar. Misal üçün, həzrət İdrisin vasitəsilə dərziliyin, həzrət Nuhun vasitəsilə gəmi qayırma və dülgərliyin, Həzrət Davud və həzrət Süleymanın vasitəsilə zireh hazırlanması və sairəni göstərmək olar. Ehtimal verilir ki, bu rəvayətdə elm dedikdə, həm dini, həm də təbii elmlər nəzərdə tutulsun, yə'ni camaatın ixtiyarında olan elmlərlə nisbətdə həzrət Məhdi (ərvahuna fidah)-ın onlara öyrətdiyi elm iyirmi beşdə iki faiz təşkil edir.

İmam Baqir (əleyhis-salam)-dan belə bir rəvayət nəql olunur: *"Bilin ki, Zülqərneyn iki buludu: ram olunmuş və inadkar buludu seçməkdə ixtiyar sahibi edildikdə o, ram olunmuş buludu seçdi, inadkar bulud isə sizin sevimliniz (Məhdi) üçün ehtiyat saxlandı."* Ravi deyir: "Soruşdum ki, inadkar bulud hansıdır?" Həzrət buyurdu: *"O buluddur ki, onda şimşək və ildırım vardır və sizin sevimliniz onun üzərinə minəcəkdir. O, buludun üzərində hərəkət edəcək və bu vasitələrlə yuxarılara gedəcəkdir. Bunlar yeddilik təşkil edən göylərin və yerin vasitələridir ki, onun beş təbəqəsi abad, yerdə qalan ikisi isə virandır."*[2]

İmam Sadiq (əleyhis-salam) belə buyurmuşdur: *"Qaimin dövründə məşriqdə yaşayan mö'min bir şəxs məğribdə yaşayan mö'min qardaşını, məğribdə olan şəxs də məşriqdə olan din qardaşını görəcəkdir."*[3]

Yenə buyurur: *"Qaimimiz qiyam edən zaman Allah-taala şiələrimizin qulaq və gözlərini o qədər iti edəcəkdir ki, onlarla Məhdi arasında heç bir poçt olmayacaqdır. Belə ki, İmam onlarla danışdığı zaman onlar eşidəcək və onu görəcəklər, halbuki İmam öz yerində olacaqdır."*[4]

Başqa bir hədisdə isə belə buyurur: *"İşlər Sahibul-əmrin ixtiyarında qərar tutan zaman mütəal Allah yerin alçaqlıqlarını*

---

[1] "Biharul-ənvar", 52-ci cild, səh.336.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.321.
[3] "Biharul-ənvar", 52-ci cild, səh.391.
[4] "Biharul-ənvar", 52-ci cild, səh.363.

*yüksəldəcək, yüksəkliklərini düzəldəcək, belə ki, dünya onun nəzərində əlin içi kimi olacaqdır. Sizdən hər hansı biriniz əlinizin içində olan bir tükü görməzmi?!"*

Həmçinin rəvayət olunmuşdur ki, onun üçün nurdan olan bir sütun yerdən səmaya tərəf qaldırılacaqdır, o, Allah bəndələrinin əməllərini orada görəcəkdir. Misir ehramlarındakı bir daşın altında onun üçün bir elm zəxirə olunmuşdur ki, ondan qabaq heç kəsin əli ona çatmayacaq.[1]

Çoxlu rəvayətlər də var ki, onları tam şəkildə araşdırıb izah etməyə macal yoxdur. Misal üçün, onlardan bə'ziləri ümumi şəkildə elmdə irəliləyişləri, mö'minlərin zehinlərini və xüsusi vasitələrin inkişafını bəyan edir, bə'ziləri də İmam (ə)-ın özü və onun köməkçilərinin kəramət və vasitələrindən söhbət açır. Misal üçün, İmam Baqir (ə)-ın buyurduğu bu rəvayəti qeyd etmək olar: *"Sanki mən Qaimin köməkçilərini görürəm, onlar dünyanın şərqinə və qərbinə əhatə tapmışlar, hər bir şey onların fərmanı altındadır, hətta yer üzünün yırtıcıları və göylərin şikarçı quşları da onların razılığı ardınca olacaqdır. Hər bir şey, hətta yerin bir nöqtəsi digər bir nöqtəsinə fəxr edərək deyəcəkdir ki, bu gün Qaimin köməkçilərindən biri mənim üstümə qədəm qoyaraq buradan keçdi."*[2]

Başqa rəvayətdə isə belə buyurur: *"Qaim qiyam edən zaman yer üzünün hər bir məntəqəsinə (nümayəndə ünvanı ilə) bir nəfər göndərəcək və deyəcəkdir ki, sənə veriləcək göstərişlər öz əlindədir, əgər başa düşmədiyin və hökmünü bilmədiyin bir məsələ qarşıya çıxsa, öz əlinin içinə bax və onda olanlara əsasən əməl et."*[3]

Bu rəvayət "Yovmul-xəlas" kitabında bə'zi mənbələrə nisbət verilmişdir ki, onu kitablarda tapa bilmədim. Mümkündür ki, bu hadisə onlar üçün mö'cüzəli və kəramət şəklində baş versin və çox inkişaf etmiş elmi vasitə və qanunlar əsasında həyata keçmiş olsun.

## SÜLEYMAN VƏ ZÜL-QƏRNEYNİN SƏLTƏNƏTİNDƏN DƏ BÖYÜK OLAN BİR HÖKUMƏT

Həzrət Məhdi (ə)-la əlaqədar rəvayətlərdən mə'lum olur ki, o həzrətin təşkil edəcəyi dünya səviyyəli İslam hökuməti Süleyman və Zülqərneynin hakimiyyətlərindən də daha əzəmətli və şövkətli olacaqdır. Bə'zi rəvayətlərdə bu mövzu aşkar şəkildə qeyd olunmuşdur. O

[1] "Kəmaluddini Səduq", səh.565.
[2] "Biharul-ənvar", 52-ci cild, səh.327.
[3] "Qeybəti Nö'mani", səh.319.

cümlədən, İmam Baqir (əleyhis-salam)-ın belə buyurduğu nəql olunur: *"Bizim hakimiyyət sərhədlərimiz Süleyman ibni Davudun ölkə sərhədlərindən, hökumət və səltənətimiz isə onun səltənətindən böyükdür."*

Sonrakı rəvayət göstərir ki, Zül-qərneynin ixtiyarında olmayan vasitələr həzrət Məhdi (əleyhis-salam)-ın ixtiyarında olacaqdır. Bə'zi rəvayətlərdə deyilir ki, peyğəmbərlərin, o cümlədən Süleymanın mirası o həzrətin ixtiyarında olacaq, dünya onun nəzərində sanki əlin içi qədər görünəcəkdir. Çünki rəvayətlərin dediyinə görə, həzrət Süleymanın hakimiyyət dairəsi Fələstin və Şamdan ibarət idi, amma Misirə və ondan aşağı tərəflərə, yə'ni Afrika qitəsinə qədər gedib çatmırdı, Yəməndən-Hindistana, Çinə qədər ərazilər və digər ölkələr də onun ixtiyarında olmamışdır, hətta İranın cənubundakı İstəxr şəhəri də o həzrətin hakimiyyətindən kənarda idi. Halbuki rəvayətlərə əsasən, həzrət Məhdi (ərvahuna fidah)-ın hakimiyyəti bütün dünyanı əhatə edəcək, elə bir abadlıq qalmayacaqdır ki, orada Allahın yeganəliyinə, Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in risalətinə şəhadət verilməsin; habelə yer üzündə abad olunmamış bir virançılıq qalmayacaqdır.

Digər tərəfdən, o həzrətin ixtiyarında olan imkanlar – istər mö'cüzəli şəkildə və Allahın inayəti ilə onun ixtiyarında qoyulan şeylər olsun, istərsə də elmi inkişaf və təbii vasitələrdən istifadə etmək baxımından – həzrət Süleymana verilən imkanlardan artıq olacaqdır. zaman baxımından isə, rəvayətlərin və tarixçilərin dediyinə əsasən, Süleyman peyğəmbərin hakimiyyət dövrü yarım əsr davam etmiş və miladdan əvvəl 931-ci ildə vəfat etməsindən sonra onun dinində azğınlıq və inhiraflar yaranmış, nəticədə dövləti süqut etmişdir. Bundan sonra iki ölkə olan Qüds və Nablos arasında müharibə başlanmışdır.

Həzrət Məhdi (əleyhis-salam)-ın hakimiyyət dövrü ilə əlaqədar – onun həyatında və ondan sonra – rəvayətlərin müxtəlif olmasına baxmayaraq, bizim nəzərimizdə üstün sayılan budur ki, o həzrətin dünya səviyyəli hökuməti dünyanın axırına qədər davam edəcək və onun özündən sonra o həzrətin yolunu davam edəcək övladları hakimiyyətə çatacaqlar. Daha sonra peyğəmbərlərdən və Əhli-beyt İmamlarından bə'ziləri dünyaya qayıdacaq və dünyanın axırına qədər hakimiyyətdə olacaqlar.

**YUXARI ALƏMLƏRLƏ ƏLAQƏ YARADILMASI**

İmam Sadiq (əleyhis-salam)-dan belə nəql olunur: *"Allah-taala Zül-qərneyni iki (ram və inadkar) buludun seçilməsində azad qoydu, o isə ram olmuş buludu seçdi ki, onda ildırım və şimşək yox idi. Əgər inadkar buludu*

*seçsəydi, onun haqqı olmayacaqdı, çünki Allah onu Qaim üçün ehtiyat saxlamışdır."*[1]

Bu rəvayət göstərir ki, o həzrət göylərə getmək, göyün ulduzları arasında hərəkət etmək və yüksək aləmlərə doğru seyr etməkdə göylərin və yerin müxtəlif vasitələrindən istifadə edəcək, ildırım və şimşəyə malik olan bir buludun vasitəsilə gedəcəkdir.

Həmçinin İmam yeddilik təşkil edən göy aləmlərində bizim yaşadığımız Yerdən başqa altı kürəyə də səfər edəcəkdir. Bu o demək deyildir ki, bu kimi fəza vasitələrindən, göy miniklərindən yalnız o istifadə edəcəkdir, əksinə o həzrətin dövründə vəziyyət elə olacaqdır ki, digər planetlərə səyahət etmək, hazırkı dövrdə bir materikdən digər materikə səyahət kimi asan olacaqdır.

Həmçinin, İmam-ın sözü göstərir ki, beş yer kürəsi, yaxud beş abad göy məskunlaşmış yerlərdir və onların cəmiyyətləri ilə əlaqə tez bir zamanda yaradılacaqdır. Bir çox rəvayətə əsasən, göylərdə abadlıqlara malik olan çoxlu planet vardır, onlarda insan, mələk və cin növündən tamamilə başqa olan müxtəlif məxluqlar yaşayır. Əllamə Məclisi bu rəvayətlər məcmuəsini "Biharul-ənvar"da qeyd etmişdir. Bundan əlavə, bir çox ayələr, o cümlədən aşağıdakı ayə qeyd olunan mətləbə işarə edir: *"Ey cinlər və insanlar! Əgər asimanlara və yerin dərinliklərinə getmək istəsəniz, bu işi görün, lakin bu səfərlərə yalnız təsəllüt və hakimiyyətlə malik ola bilərsiniz."*[2]

Yə'ni həzrət Məhdi-ın dövründə yer üzərindəki həyat yeni bir mərhələyə daxil olacaq və əvvəlki həyatla tamamilə fərqlənəcəkdir.

### AXİRƏT ALƏMİ VƏ BEHİŞTLƏ ƏLAQƏ YARADILMASI

Bizim bu zəmanədə malik olduğumuz ən bariz işlərdən biri maddi aləmdən qeyb aləminə, yaxud əksinə olan əlaqələrin qurulmasıdır ki, Qur'an və İslam onu aşkar şəkildə bəyan etmiş, bu məsələyə əhəmiyyət verməklə onunla həmahəng olmağa tə kid etmişdir. Bu da insanın Allaha doğru seyr hərəkəti, Onunla mə'nəvi görüşü, yaxud Mələkuti-ə'laya – axirət aləminə səfərindən ibarətdir.

Dünya səviyyəsində buna görə olacaqdır ki, bizimlə "Qiyamət" – deyə qeyd edilən qeyb aləmi arasında – gözlərimizdən qeybdə olduğu bir halda – sıx vəhdət hakimdir. Bu hərəkətin son nöqtəsi insan ölümü ilə əlaqədardır. Ölüm İslam nəzərindən əbədi, sona yetməz, tükənməz

[1] "Biharul-ənvar", 52-ci cild, səh.321.
[2] "Ər-Rəhman" surəsi, 23-24-cü ayə.

və daha geniş olan bir həyata daxil olmaqdan ibarətdir. Orada yoxluq və zaval təsəvvür oluna bilməz. Onun varlıq aləmi ilə əlaqədar ən yüksək zirvəsi Qiyamətdən, maddi və qeyb aləminin birləşməsindən ibarətdir.

Qur'an və sünnədə qeyd olunur ki, Qiyamətin müqəddimə işləri və nişanələri vardır ki, yerdə, asimanda və bəşər cəmiyyətlərində bir-birinin ardınca vücuda gələcəkdir. Bə'zi rəvayətlərdən mə'lum olur ki, həzrət Məhdi (əleyhis-salam)-ın hökuməti Qiyamətin nişanələrindən biridir. Hamının fikir birliyində olduğu məsələ budur ki, Qiyamətin əlamətləri o həzrətin hökumətindən sonra başlanıb aşkar olacaqdır. İndi isə Qiyamətin necə başlanacağını qeyd edirik:

Rəvayətlərdə söhbət açılan və həzrət Məhdi (əleyhis-salam)-ın dövründə baş verəcək bu məsələ – yüksək aləmlərə yol tapılması daha geniş bir aləmə, axirət və behiştə yol tapmağın müqəddimə işlərindən biridir. Buna əsasən rəc'ət, yə'ni peyğəmbərlərdən və İmamlardan bə'zilərinin bu dünyaya qayıdaraq həzrət Məhdi (əleyhis-salam)-dan sonra hökmranlıq etməsi, (bu, rəvayətlərin çoxunda rəc'ət kimi təfsir olunur) həmin mərhələdədir. Rəc'ətə e'tiqad bəsləmək İslam və şiə məzhəbinin zəruri məsələlərindən olmasa da (yə'ni ona e'tiqad bəsləməmək insanı Əhli-beyt (əleyhimus-salam) məzhəbindən və İslamdan xaric etmir) amma onunla əlaqədar rəvayətlər o qədər çoxdur ki, bu barədə xatircəmlik hasil olur.

Bə'zi rəvayətlərdə deyilir ki, rəc'ət həzrət Məhdi (ərvahuna fidah)-ın hökumətindən, yaxud o həzrətin özündən sonra gələcək on bir Məhdidən sonra başlanacaqdır. İmam Sadiq (əleyhis-salam) bu barədə buyurur: *"Həqiqətən, Qaimdən sonra Hüseynin övladlarından (və) biz Əhli-beytdən on bir Məhdi olacaqdır."*[1]

İndi rəc'ətlə əlaqədar bir neçə rəvayəti qeyd edirik:

İmam Zeynül-abidin (əleyhis-salam) *"o Allah ki, Qur'anı sənə fərz etmişdir, əlbəttə, səni öz yerinə qaytaracaqdır"* – ayəsinin təfsirində buyurmuşdur: *"Peyğəmbəriniz rəc'ət edib sizə doğru qayıdacaqdır."*[2]

Əbu Bəsir deyir ki, İmam Baqir (əleyhis-salam) buyurdu: *"Məgər İraq əhli rəc'əti inkar edir?"* Dedim: "Bəli." Həzrət buyurdu: *"Məgər Qur'an oxumurlarmı: Və o gün ki, hər ümmətdən bir dəstəni dirildərik."?*[3]

---

[1] "Qeybəti Tusi", səh.229.
[2] "Biharul-ənvar", 53-cü cild, səh.56.
[3] "Biharul-ənvar", 53-cü cild, səh.40.

Başqa bir rəvayətdə deyilir ki, yuxarıdakı ayə barəsində İmam Sadiq (əleyhis-salam)-dan soruşduqda, həzrət buyurdu: *"Camaat onun barəsində nə deyirlər?"* "Onlar deyirlər ki, Qiyamətlə əlaqədardır" - deyə cavab verdilər, həzrət buyurdu: *"Məgər Allah Qiyamət günündə hər ümmətdən yalnız bir dəstəni diriltdib qalanlarını öz başına boşlayacaqdır?! Bu ayə, şübhəsiz olaraq rəc'ət barəsindədir və Qiyamətlə əlaqədar ayə budur: "Onların hamısını məhşur edərik, heç bir şəxsi yenidən diriltməmiş qoymarıq...""*[1]

Zürarə deyir: İmam Sadiq (əleyhis-salam)-dan rəc'ətin mühüm işləri və s. barəsində soruşduqda buyurdu: *"Məndən soruşduğunuz şeyin vaxtı hələ çatmamışdır. Əksinə, onlar elmi əhatələri olmadıqları və tə'vilinə çatmadıqları şeyi təkzib etdilər."*[2]

Bə'zi rəvayətlərdə deyilir ki, Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) İmamlardan sonra rəc'ət edəcəkdir. İmamlardan dünyaya qayıdan ilk şəxs İmam Hüseyn (əleyhis-salam)-dır. Belə ki, İmam Sadiq (əleyhis-salam) buyurmuşdur: *"Dünyaya qayıdan ilk şəxs Hüseyn ibni Əlidir. O qədər hakimiyyətdə olacaqdır ki, (qocalıq nəticəsində) qaşlarının tükləri gözlərinin üstünə töküləcəkdir."*[3]

Başqa bir rəvayətdə isə belə deyilir: *"Rəc'ət ümumi və hamıya aid olan bir iş deyildir, əksinə xüsusi bir qrupa məxsusdur. Çünki dünyaya yalnız həqiqi və xalis mö'minlər, yaxud yüz faiz müşrik olan kafirlər qayıdacaqlar.*[4]

---

[1] "Biharul-ənvar", 53-cü cild, səh.50.
[2] "Biharul-ənvar", 53-cü cild, səh.40.
[3] "Biharul-ənvar", 53-cü cild, səh.46.
[4] "Biharul-ənvar", 53-cü cild, səh.29.

## HƏZRƏT MƏHDİ ŞİƏ NƏZƏRİNDƏN

Bizim məzhəbin əsas prinsiplərindən biri Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) xanədanından olan on iki şəxsin İmamətinə e'tiqaddır. Məhz buna görə də bizim məzhəbimizi "İmamiyyə", yaxud "şiə", yaxud da "Əhli-beyt" məzhəbi adlandırırlar. Bu əqidə ardıcılları "İmami", yaxud "Şiə", yaxud da "Əhli-beyt ardıcılı" adlandırılır.

Bizim e'tiqadımıza əsasən, mə'sum İmamların birincisi Əmirəl-mö'minin Əliyyibni Əbi Talib (əleyhis-salam), sonuncusu isə gözlənilən Məhdi – Mühəmməd ibni Həsən Əsgəri (əleyhis-salam)-dır. O, 255-ci hicri ilində Samirra-da dünyaya gəlmişdir. Allah onun ömrünü uzun etmişdir və və'dəsi qəti olan bir günə qədər onu diri saxlayacaqdır. Və'dəsi verilən dövrdə zahir olacaq və Allah onun vasitəsilə İslam dinini bütün dinlərə qalib edərək dünyanı haqq-ədalətlə dolduracaqdır.

Bu əqidə, yə'ni həzrət Məhdi (əleyhis-salam)-ın on ikinci İmam olub, hal-hazırda yaşaması və qeybdə olmasına inam bizim məzhəbimizin ayrılmaz bir hissəsidir, bu əqidə olmadan heç bir müsəlmanı on iki İmamçı şiə – hətta sünnü bir müsəlman, yaxud zeydi və ismaili belə – adlandırmaq olmaz.

Əlbəttə, bə'zi din qardaşlarımız bizim mə'sum İmamların İmaməti və həzrət Məhdi (ərvahuna fidah)-ın qeybəti ilə əlaqədar əqidəmiz barəsində təəc-cübə gəlirlər. Halbuki, mümkün olan işlərdə əsas me'yar onun çox uzaq nəzərə çarpması, yaxud yaxşı hesab edilməsi deyil, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) tərəfindən aşkar bir rəvayətin nəql olunmasıdır. Biz inanırıq ki, həzrət Məhdi (əleyhis-salam)-ın İmamət və qeybətinə dəlalət edən aşkar hədislər mütəvatir və qətidir. Əgər bir nəss sübuta yetər və ona dəlil gətirilərsə, müsəlman şəxsə vacibdir ki, onu qəbul etsin və iman gətirsin; bu zaman başqaları da onu üzrlü hesab etməli, yaxud qane etməlidirlər.

Sünnü qardaşlarımız və'dəsi verilən Məhdinin İmam Mühəmməd ibni Həsən Əsgəri (əleyhis-salam)-a tətbiq edilməsində bizimlə ixtilafda olma-larına baxmayaraq, onun barəsində nəql olunan bütün rəvayətlərdə, o cümlədən, onun vücudu, hərəkat və zühuruna müjdə verilməsi, onun əli ilə İslamın dünya səviyyəsində yeniləşdirilməsi və hökumətinin dünya səviyyəsində olması və s. kimi əqidələrdə bizimlə müvafiq və yekdil nəzərdədirlər. Belə ki, sonrakı fəsildə o həzrətlə əlaqədar rəvayətlərin şiə və sünnü mənbələrində eyni səviyyədə, yaxud çox oxşar olduğunu mülahizə edəcəksiniz.

Sünnü alimlərindən bə'ziləri, o cümlədən, İbni Ərəbi, Şə'rani və başqaları bizimlə eyni əqidədədirlər. Onlar həzrət Məhdinin elə Mühəmməd ibni Həsən Əsgəri olduğunu, eləcə də o həzrətin adı və nəsəbini aşkar şəkildə demiş, onun diri olduğuna və qeybə çəkildiyinə inanmışlar. "Məhdiye mov'ud" kitabının müəllifi onlardan bir çoxunun adını qeyd etmişdir.

İslam alimləri və İslami hərəkatların rəhbərləri həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) barəsindəki əqidə müştərəkliyindən – bu əqidə bütün müsəlmanlar arasında mövcuddur – layiqincə istifadə etməlidirlər. Çünki bu inanc müsəlman kütlələrinin qeyb, İlahi kömək və'dəsinə və s. olan iman səviyyəsinin yuxarı qaldırılmasında həyati bir tə'sirə malikdir. Bu əqidə onların əhval-ruhiyyələrini möhkəmləndirməkdə, İslam düşmənlərinin qarşısında sazişçiliyə yol verməməkdə, eləcə də və'dəsi verilmiş rəhbərlərinə kömək etmək üçün hazırlaşmalarında tə'sirli rol ifa edə bilər.

Və'dəsi verilən Məhdinin həzrət İmam Mühəmməd ibni Həsən Əsgəri (əleyhis-salam)-a uyğun gəlməsi – sünnü qardaşlarımızın nəzərində bu uyğunluq hələ də sübuta yetməmişdir – bu əqidə ardıcılları və onu Allah dərgahına yaxınlaşmaq üçün bir vasitə seçənləri tənqid atəşinə tutmalarına səbəb olmamalıdır.

Əlbəttə, bizim burada əsas məqsədimiz şiələrin həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) barəsində olan əqidələrini araşdırmaq deyil, əksinə onların yığıncaqlarda ünsiyyət tapdıqları yüksək ruhiyyədən söhbət açmaqdır, belə ki, bu əqidə onların ruhuna hopmuş, nəsillər boyu davam etmiş, övladlarını bu əqidə ilə tərbiyə etmiş, nəticədə onun zühuruna intizar, özünə də ehtiram və məhəbbətə dair böyük bir xəzinəni vücuda gətirmişlər.

Buna görə də Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) yer üzərində Allahın – Peyğəmbər və İmamların xanədanından olan höccəti, Qur'an və vəhy sərhədlərinin keşikçisi, Allah nurunun yer üzərində saçma yeri hesab olunur. Bütün İslami dəyər və nümunələr onun müqəddəs şəxsiyyətində cilvələnir. Bu da nübüvvət və risalət nurunun bir növ davamıdır.

Onun qeybətində İlahi sirlər və hikmət, həmçinin peyğəmbərlərin və Əhli-beyt İmamlarının, sair Allah övliyalarının və mö'minlərin məzlumiyyəti kimi böyük məqsədlər gizlənmişdir. Peyğəmbərin verdiyi və'də əsasında mö'minlərin qəlbində onun müqəddəs zühuruna ümidləri daha da qüvvətlənib rövnəqlənir, qəmli qəlbləri həyəcana

gəlir – müxaliflərin tünd yelləri əssə də və yollar uzun olsa da belə – İslam bayrağını tam qüdrətlə yelləndirir. Onlar bu bayrağın sahibi ilə əhd-peyman bağlamışlar.

Şiələrin öz mə'nəvi həyat sərmayələri ilə – peyğəmbərlər və onların xanədanları ilə əlaqə quraraq bununla məşhurlaşmasının səbəbi budur ki, İmam Məhdi (əleyhis-salam)-ın şəxsiyyəti və və'dəsi verilmiş mə'muriyyəti onların ruhunun eşq və ümidlə sirab edilməsində xüsusi cazibədarlığa malikdir. Bə'ziləri şiələrin öz alimlərinə dərin ehtiram göstərmələrini tənqid atəşinə tutur, bə'ziləri isə bunu tə'rifləyir və təqdirəlayiq bir iş hesab edirlər. Tənqidlər şiələrin öz mərcəyi-təqlidlərinə, başqa sözlə, İmam Məhdi (əleyhis-salam)-ın naiblərinə ehtiram qoyduqlarını və onların fətvasına əməl etməyə iltizamlı olduqlarını gördükləri zaman daha da artmağa başlayır. Amma mə'sum İmamlara olan məhəbbətin şiddətinə gəlincə isə, bir qrup bizi ifratçılıqda müttəhim edirlər. Onlardan bə'ziləri töhmət vurmaqda da hədlərini aşaraq deyirlər ki, nəuzu billah, şiələr Peyğəmbəri, İmamları və mərcəyi-təqlidləri İlahiləşdirərək onlara pərəstiş edirlər!

Halbuki, əsas məsələ yalnız şiələrin rəbbani və mə'sum rəhbərlərə dərin ehtiram göstərib onlara itaət etmələri və məqamlarını müqəddəs saymaları deyil, həqiqətdə müsəlmanların insanın rəftar və davranışı ilə əlaqədar İslami dünyagörüşdən uzaq düşmələrinə dəlalət edir.

Qur'ani-Kərimdə insanın dəyəri ilə əlaqədar üç üslub bəyan edilir: Birincisi, ərəblər və Peyğəmbər (səllallahu ələyhi və alihi və səlləm)-i hücrələrin arxasından səsləyənlərlə əlaqədar cahiliyyət üslubdur. İkincisi, peyğəmbərlərin düşmənləri, dinsiz və maddi (materialist) mədəniyyət sahibləri ilə əlaqədar olan ayələrdir. Üçüncüsü isə İslamın tutduğu üslubdur ki, bu üslub insana ehtiram qoymağı, onun əqli, mə'nəvi və əməli bir aləmə diqqət yetirməsini tə'rifləyərək diqqət mərkəzində saxlamışdır.

Yaşadığımız hazırkı dünyada bizim İlahi övliyalar, mə'nəvi rəhbərlər, peyğəmbərlər, şəhidlər və mö'minlərə qarşı, eləcə də İslami kütlələrlə, hətta özümüzlə əlaqədar olan dünya görüşümüzdə qərbin maddəçilik (materialist) və cahiliyyət üslublarının tə'sirlərini müşahidə edə bilərik.

Qərbin maddi mədəniyyətinin mə'nəviyyətsizliyə uğraması və bizim cəmiyyətlərə hakim kəsilməsi siyasi, iqtisadi və ictimai cəhətdən çox ağır şəraitlər yaratmışdır. Onların varlığı ilə müsəlman şəxsin həyatına ehtiram qoyulmur, belə olan surətdə necə ola bilər ki, onun

varlığının digər yönlərinə hörmət qoyulsun?! Qərbin maddi mədəniyyəti bizim təfəkkürlərimizi daim məntiqi məfhumda olan sadəlik, səhvlərin cəm və tərkibi, inad və düşmənçiliyi ilə yanaşı olan cahiliyyət əsrinin zehninə döndərmişdir. Buna görə də, misal üçün, müəyyən bir işi yalnız bir yöndən tanıyıb araşdırmaq istəyirik, onun müxtəlif yönlərini isə əsla araşdırmaq fikrində deyilik. Öz qəlbimizdə müəyyən bir həssas məsələyə diqqət yetirir, onun digər yönlərini araşdırıb dərk etmək fikrinə düşmürük. Övliyalar, mə'sum rəhbərlər və İlahi peyğəmbərlər barəsində də elə eynilə; işlərin yalnız zahirini mülahizə edirik, amma onların yüksək mə'nəvi kamal mərtəbəsi və əqli aləmlərindən qafilik. Əgər bir şəxs məsələlərə bu cür nəzər salsa, deyəcəyik ki, dində həddini aşmışdır və əgər əqli və qəlbi o həzrətin fikrində olsa, onu dəli və yolunu azmış hesab edəcəyik.

Bu məsələ o zaman ən təhlükəli nöqtəyə çatır ki, biz ona din donu geyindirək, İlahi övliyalar, İmamlar və peyğəmbərlərə ehtiram qoyulub müqəddəsləşdirilməsi müqabilində dayanaq və "bu, Allah-taalanın müqəddəs zatına və tovhidə ehtiram qoymaqla ziddir" - deyə bəhanə gətirək. Sanki "onlar da bizim kimi bəşərdir" – dedikdə onların çölün bir ovuc torpağı kimi olub səhranın daşları və asimanla müqayisə olunması və üçüncü bir yönün nəzərə alınmaması nəzərdə tutulur. Sanki bu cəmiyyət səhrasında dağlar, bostanlar, çaylar, arxlar, qüllələr və zirvələrin heç biri mövcud deyildir. Sanki "Nur" surəsində buyurulan *"məsəlu nurihi kəmişkatin fiha misbahun"* – ayəsindəki İlahi nur yer kürəsindən başqa yerdə – peyğəmbərlər, İmamlar və İlahi övliyalardan başqa varlıqlarda – cilvələnmişdir.

Mən əminəm ki, bu İslami ayıqlıq, müsəlman ümmətinin İslama doğru hərəkəti və düşmənlərin müqabilində dayanıb müqavimət göstərməsi həmin yoldan ibarətdir ki, biz İslami varlığımıza və insanın varlığına əl tapmalı, əziz İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alihi və səlləm) nurunu tanımalı, öz rəhbər və alimlərimizi dərk edərək onların şə'n və kamil şəxsiyyətinə layiq olan bir tərzdə rəftar etməli, yenidən qəlblərimizi onlara qarşı pak eşq və məhəbbətlə doldurmalıyıq ki, bu eşq-məhəbbət də bizi daha yüksək olan bir eşqə, yə'ni aləmlərin Rəbbi olan Allaha eşq bəsləməyə doğru sövq etdirsin.

Bir ağacı müşahidə etməsi onun meşəni görməsinə mane olan şəxs həmin ağacı meşə, dağ və asimanla birlikdə görən şəxs onu üzrlü hesab etməlidir. Həmçinin din alimlərinin, övliyaların, İmamların və

peyğəmbərlərin ehtiram və müqəddəsliyini qoruyub saxlamağı, onların aləmində yaşamağı tovhidə və Allahın müqəddəsliyinə mane hesab edən adam bu ehtiramları bir növ İslam şüarları hesab edən şəxsi üzrlü hesab etməlidir, halbuki bu şüarları İslam şəriəti bir adət olaraq qərar vermişdir ki, həyat onların vasitəsilə sahmana düşsün, bizim Allah-taalanı zikr etmək və Onun qarşısında ehtiram və tə'zim etməyimizə səbəb olsun.

Deməli, əgər bir kəsin təfəkkür və qəlbinin tutumu məhduddursa, qəlblərində müxtəlif yönlü tərkib və cəmlər yerləşən dərya qəlbli insanları, görkəmli əql sahiblərini, eləcə də yerin, üfüqlərin zirvələrini dərk etməyə qadir olan şəxsləri üzrlü saymalıdır.

### MƏHDİNİN ALLAH DƏRGAHINDAKI MƏQAMI

Bizim həzrət Məhdi (əleyhis-salam)-a əqidə və mehr-məhəbbətimizin göstəricisi olan rəvayət, dua və ziyarətlərdən bir qismini qeyd etməzdən əvvəl, o həzrətin Allah dərgahındakı məqam və mənzilətini bəyan edən rəvayətlərdən bə'zilərini qeyd etməyi münasib görürük. Sünnü-şiə mənbələrində qeyd olunur ki, o həzrət Allah dərgahında yüksək məqam və mənzilət sahibidir, o həzrət dünya və axirətdə alicənab bir şəxsiyyət, behişt əhlinin sərvərlərindən biri, cənnət əhlinin tavusudur. O həzrət peyğəmbər olmasa da, İlahi nurdan parlayan paltarlar geymiş, Allah tərəfindən ilham alıb hidayət olunmuşdur. Mütəal Allah onun əli ilə çoxlu kəramətli işləri və mö'cüzələri icra edəcəkdir. Sünnü və şiə mənbələrində nəql olunmuş məşhur rəvayətlər göstərir ki, o həzrət peyğəmbərlərin və rəsulların cərgəsindədir. Peyğəmbəri-Əkrəm (səllallahu əleyhi və alihi və səlləm) buyurmuşdur: *"Biz – Əbdül-Müttəlib övladları behişt əhlinin sərvərləriyik: Mən, Həmzə, Əli, Həsən, Hüseyn və Məhdi."*[1]

Şiə mənbələrində mə'sum İmamların fəziləti və Allah dərgahında malik olduqları yüksək məqamlarını göstərən çoxlu rəvayətlər vardır. O cümlədən, rəvayətlərdə deyilir ki, o, Allahın yer üzündəki nuru, itaət olunmasının vacibliyində Qur'anın şəriki, İlahi elmlərin mə'dəni, Allah sirlərinin xəzinəsidir. Alimlər öz əqaid, hədis və təfsir kitablarında bu məsələni təfsilatı ilə qeyd etmiş və rəvayət əsasında həzrət Məhdiyə, Əmirəl-mö'minin Əli, Həsən və Hüseyn (əleyhimus-salam)-dan sonra sair İmamlardan üstünlük vermişlər.

---

[1] "Qeybəti Tusi", səh.13; "Səvaiqi İbni Həcər", səh.158.

Sünnü mənbələrində də onun Əbu Bəkr və Ömərdən üstün olması barədə hədis nəql olunur. İbni Sirindən soruşdular: "Məhdi üstündür, yoxsa Əbu Bəkr və Ömər?" O dedi: "(Məhdi) o ikisindən qat-qat yaxşıdır və o, peyğəmbər və nəbi ilə eyni səviyyədədir."[1]

## İMAMLARIN MƏHDİ BARƏSİNDƏKİ SÖZLƏRİ

Rəvayətlərdə İmamların həzrət Məhdi (ərvahuna fidah)-a olan eşqlərinin şahidi oluruq. Onlar Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm)-in verdiyi və'dəyə iman gətirmişlər və həzrət Məhdi (ələyhis-salam)-ın təvəllüdündən qabaq gələcəkdə onun əli ilə baş verəcək işlərə agah imişlər. İndi isə Əmirəl-mö'minin Əli və İmam Sadiq (ələyhis-salam)-ın bu barədə buyurduqlarını qeyd edirik:

Həzrət Əli (ələyhis-salam) buyurur: *"Bilin və agah olun ki, həzrət Mühəmməd (səllallahu əleyhi və alihi və səlləm)-in Əhli-beytinin məsəli asimanın ulduzları kimidir: hərgah bir ulduz qürub edərsə, digər bir ulduz çıxar. Sanki İlahi ne'mətlərin Peyğəmbər xanədanı sayəsində sizə tamamlandığını, sizin öz arzularınıza çatdığınızı görürəm."*[2]

Yenə buyurur: *"Öz Peyğəmbərinizin Əhli-beytinə baxın: əgər sükut etsələr, siz də sükut edin, əgər sizdən kömək istəsələr, onlara kömək edin. Allah biz Əhli-beytdən olan bir kişinin vasitəsilə gözlənilmədən qurtuluş yaradacaqdır. Atam ən yaxşı kənizlərin oğluna qurban olsun! O, onlara (düşmənlərə) qılıncdan başqa bir şey əta etməz, onları məhv edib aradan aparar, silahı səkkiz ay müddətində çiynində olar (mübarizə edər), nəhayət qüreyşlilər deyər ki, "əgər bu şəxs Fatimə övladlarından olsaydı, bizə rəhm edərdi." Başqaları öz həvayi-nəfslərini İlahi hidayətdən irəli keçirdikləri zaman, o, İlahi hidayəti öz nəfsani istəklərinə hakim edər, başqaları Qur'anı öz nəzər və rə'ylərinə əsasən təfsir edəndə, o, əməl və təfəkküründə Qur'anı me'yar qərar verər. Yer öz qəlbinin parçalarını (mə'dən və xəzinələrini) onun üçün xaric edər, açarlarını ona təslim edər. Bu zaman o, Peyğəmbərin tutduğu üslubu – ədalət üslubunu sizə göstərər, ondan qabaq unudulmaqda olan Kitab və sünnəni yenidən dirildər."*[3]

Başqa hədisdə buyurur: *"Hikmət zirehini geyər, onu dinin bütün qayda-qanunları, agahlıq və ciddiyyətlə əxz edər. Çünki hikmət onun itiyidir və o da hikməti axtarır; (hikmət) onun ehtiyac duyduğu şeydir və onu istəyir. İslam, yorğunluqdan dizlərini qatlayan və boynunu*

---

[1] "İbni Həmmadın əlyazması", səh.98.
[2] "Nəhcül-bəlağə", xütbə: 100.
[3] "Nəhcül-bəlağə", xütbə: 138.

*yerə qoyan bir dəvə kimi qərib olanda, o da gözlərdən pünhan olar. O, Allahın yer üzündə saxlanmış höccəti, Peyğəmbər canişinlərindən olan bir canişindir."*[1]

Südeyr Seyrəfi deyir: Mən, Müfəzzəl ibni Ömər, Əbu Bəsir və Əban ibni Təğlib İmam Sadiq (əleyhis-salam)-ın hüzuruna getdik. O həzrət xeybəri paltarı geyərək yerdə oturmuşdu. Pərişan və ürəyi yanan halda ağlayırdı və üzündən dərin kədər və qəm-qüssə sezilirdi. O deyirdi: *"Ey mənim sərvərim, sənin qeybətin yuxunu məndən almış, yer öz döşəyini mənim üçün daraltmış, qəlbimin aramlığını aparmışdır. Ey mənim sərvərim, sənin qeybətin mənim müsibət və giriftarçılıqlarımı əbədi müsibətlərə qovuşdurmuşdur ki, birini digərindən sonra əldən vermək bizim say və cəmiyyətimizin məhv olmasına səbəb olur. Heç hiss etmirəm ki, gözlərimin yaşları quruya, sinəmin naləsi sönə və aram ola..."*

O həzrətdən belə bir hövlnak haləti müşahidə etmək və xoşagəlməz hadisəni eşitməklə ağlımız başımızdan çıxdı, qəlbimiz kövrəldi və fikirləşdik ki, bu vəziyyət təhlükəli bəla, yaxud ruzigardan ona çatan bir bəla əlamətidir. Ona görə də dedik: "Ey Allahın ən yaxşı bəndəsinin övladı! Allah gözlərinizi heç vaxt yaşlı etməsin! Hansı hadisəyə görə bu qədər ağlayırsınız?! Hansı hadisə sizi matəmə qərq etmişdir?!"

Bu zaman İmam (əleyhis-salam) xovfun şiddətini göstərən dərdli bir ah çəkdi, sonra buyurdu: "Vay olsun sizə! Bu gün sübh Cə'fərin kitabında gördüm. O bir kitabdır ki, ölümlər, bəlalar və müsibətlər barədə, keçmişdəki və Qiyamətə qədər olacaq elmlərdən ibarətdir. Allah bu kitabı Mühəmmədə və ondan sonrakı İmamlara məxsus etmişdir. Bu kitabda biz Əhli-beytin Qaiminin təvəllüdü, uzun ömrü, uzun müddətli qeybə çəkilməsi və o dövrdə mö'minlərin çətinliyə düşməsi, onun uzun müddət qeybdə olması nəticəsində qəlblərdə şəkk-şübhənin yaranması və camaatın əksəriyyətinin İslamdan çıxmasıdır. Belə ki, Allah-taala buyurur: *"Biz hər bir insanın yaxşı və pis əməlinin nəticəsini və təqdirini onun boynuna atmışıq."* Bunu mütaliə edirdim ki, qəlbim yandı, qəm-qüssə mənə hakim kəsildi."

Ərz etdik: "Yəbnə Rəsulillah! Bildiyiniz şeylərdən bizim üçün də bir az buyurun." Həzrət buyurdu: "Allah-taala üç peyğəmbərin barəsində icra etdiyi bir şeyi bizim Qaimimiz barəsində icra edəcək:

---

[1] "Nəhcül-bəlağə", xütbə: 182.

Onun təvəllüdü həzrət Musa (əleyhis-salam)-ın təvəllüdü kimi məxfi olacaq, həzrət İsa (əleyhis-salam) kimi qeybə çəkiləcək, ömrü də həzrət Nuh (əleyhis-salam)-ın ömrü kimi müqəddər olunmuşdur. Bundan sonra Özünün layiqli bəndəsinin – həzrət Xızr (əleyhis-salam)-ın ömrünü onun ömrünün (uzun olmasına) bir dəlil qərar vermişdir."

Biz dedik: "Yəbnə Rəsulillah! Bu mətləbi bizim üçün şərh edin."

Həzrət buyurdu: "Fir'on öz hakimiyyətinin həzrət Musanın əli ilə məhv olacağını bildikdə münəccimləri çağırdı. Onlar həzrət Musanın əsil-nəsəbini və Bəni-İsrail nəslindən olacağını Fir'ona dedilər. O öz mə'murlarına göstəriş verdi ki, Bəni-İsrailin hamilə qadınlarının qarnını yırtsınlar (və bu təvəllüdün gerçəkləşməsinə mane olsunlar). Beləliklə 20 mindən artıq körpənin başını kəsdilər. Allah-taala onun hifz olmasını iradə etdiyi üçün onu tapıb öldürə bilmədilər. Bəni-Üməyyə və Bəni-Abbas da özlərinin zalım və istismarçı hakimiyyətlərinin Qaimin əli ilə məhv olacağını bildikdə, bizimlə düşmənçiliyə qalxdılar, Peyğəmbər Əhli-beytinin üzünə qılınc çəkdilər və Məhdi (əleyhis-salam)-ı tutub öldürmək ümidi ilə Peyğəmbər övladlarını kütləvi şəkildə qırmağa başladılar. Lakin Allah-taala icazə vermədi ki, onun əmri zalımlara aşkar olsun, nəhayət müşriklərin xoşuna gəlməsə də belə Öz nurunu kamil etdi.

Amma İsa (əleyhis-salam)-ın qeybə çəkilməsinə gəldikdə isə, yəhudilər və məsihilər hamılıqla onun qətlə yetirilməsinə inanırlar, lakin Allah-taala onların sözünü təkzib edərək buyurur: *"Onlar onu (İsanı) nə öldürdülər, nə də dara çəkdilər, əksinə bu barədə şübhəyə düşdülər."*[1] Qaimin qeybəti də eynilə belə olacaqdır: İslam ümməti qeybət dövrünün uzun olduğuna görə onu inkar edərlər.

Nuh (əleyhis-salam)-ın ömrünün uzun olmasına gəldikdə isə, o öz qövmü üçün səmavi əzab istədiyi zaman Allah Cəbraili yeddi xurma dənəsi ilə onun yanına göndərdi. Cəbrail dedi: *"Ey Allahın Peyğəmbəri! Mütəal Allah buyurur ki, bu camaat Mənim yaratdığım bəndələrdir, Mən onları yalnız höccət tamam olduqdan, də'vət çatdırıldıqdan sonra səmavi ildırım vasitəsilə aradan apararam. Belə isə, yenidən ümmətini (haqqa) də'vət etmək üçün qayıt, çünki Mən onun səbəbi ilə sənə mükafat verəcəyəm. Bu xurma dənələrini ək, cücərib böyüdükdən sonra sən qurtuluşa və nicata nail olacaqsan. Öz mö'min ardıcıllarını bu işlə müjdələ."*

---

[1] "Nisa" surəsi, 156-cı ayə.

Xurma ağacları cücərib boy atdıqdan və uzun müddət keçdikdən sonra səmərə verdilər. Nuh Allahdan istədi ki, Öz və'dəsinə əməl etsin, amma Allah-taala bir daha ona əmr etdi ki, həmin xurma ağaclarının dənələrini yenidən əkib gözləsin və dəlil və höccəti camaata tamamlasın. Ona iman gətirənlərdən üç yüz nəfəri hadisədən xəbərdar olduqda mürtəd olaraq dedilər: "Əgər Nuhun iddiası və də'vəti düz olsaydı, Pərvərdigarı Öz və'dəsinə xilaf çıxmazdı!" Beləliklə, mütəal Allah 7 dəfə ardıcıl olaraq ona xurma dənələrini əkməyə və ağaclar böyüyənə qədər gözləməyə əmr etdi. Hər dəfə də öz ardıcıllarından bir qrupu dindən çıxdılar, nəhayət onun ardıcılları yetmiş nəfərə kimi azaldı. Bu zaman ona belə vəhy olundu: *"Ey Nuh, gecənin zülməti aydın sübhə çevrildi, haqq-həqiqət aşkar oldu, iman zülalı küfrün kin-küdurətindən seçildi..."*

İmam Sadiq (əleyhis-salam) axırda buyurdu: *"Qaimin uzun qeybəti dövründə də belə olacaqdır ki, haqq tamamilə aydın olsun, imanın səfası zülmətlərdən seçilib ayrılsın."*[1]

## HƏZRƏT MƏHDİNİN DUA VƏ ZİYARƏTLƏRİNDƏN BƏ'Zİ NÜMUNƏLƏR

اَللَّهُمَّ كُنْ لِوَلِيِّكَ الْحُجَّةِ بْنِ الْحَسَنِ صَلَواتُكَ عَلَيْهِ وَعَلي أبائِهِ في هَذِهِ السَّاعَةِ وَفي كُلِّ ساعَةٍ وَلِيًّا وَحافِظًا وَقائِدًا وَناصِرًا وَدَليلًا وَعَيْنًا حَتَّي تُسْكِنَهُ اَرْضَكَ طَوْعًا وَتُمَتِّعَهُ فيها طَويلاً

*Pərvərdigara! Sən Öz vəlin – Höccət ibnil-Həsən üçün (Sənin salam və salavatın ona və onun ata-babalarına olsun!) bu saatda və bütün anlarda vəli, köməkçi, keşikçi və yolgöstərən ol, nəhayət onu yer üzündə itaət olunan bir halda məskunlaşdır və onu yer üzündə uzun müddət bəhrələndir!*

اَللَّهُمَّ وَصَلِّ عَلي وَلِيِّ اَمْرِكَ الْقائِمِ الْمُؤَمَّلِ،وَالْعَدْلِ الْمُنْتَظَرِ،وَحُفَّهُ بِمَلائِكَتِكَ الْمُقَرَّبينَ، وَ اَيِّدْهُ بِرُوحِ الْقُدُسِ يا رَبَّ الْعالَمينَ،

*Pərvərdigara, Sənin vəliyyi əmrinə – Qiyam edən ümid bəslənən, intizarı çəkilən adil bəndənə salavat göndər. Onu Öz müqərrəb mələklərinlə əhatə et, Ruhul-qudusla onu dəstəklə, ey aləmlərin Rəbbi!*

اَللَّهمَّ اجْعَلْهُ الدّاعِيَ الي كِتابِكَ، وَالْقائِمَ بِدينِكَ اسْتَخْلِفْهُ فِي الْاَرْضِ،كَما اسْتَخْلَفْتَ الَّذينَ مِنْ قَبْلِه، مَكِّنْ لَهُ دينَهُ الَّذي ارْتَضَيْتَهُ لَهُ، اَبْدِلْهُ مِنْ بَعْدِ خَوْفِه اَمْنًا،يَعْبُدُكَ لا يُشْرِكُ بِكَ شَيْئًا،

---

[1] "Biharul-ənvar", 51-ci cild, səh.219-222.

*Pərvərdigara, onu (bəndələrə) Öz kitabına də'vət edən, dinini bərqərar edən qərar ver. Ondan qabaqdakıları yer üzündə xəlifə qərar verdiyin kimi, onu da yer üzünün xəlifəsi qərar ver. Onun üçün razı olub bəyəndiyin dini sabit et. Onu qorxulu dövrandan sonra əmin-amanlığa çıxart, halbuki o Sənə ibadət edir və heç bir şeyi Sənə şərik qoşmur.*

اَللّٰهُمَّ اَعِزَّهُ وَ اَعْزِزْ بِهِ، وَانْصُرْهُ وَانْتَصِرْ بِهِ، وَانْصُرْهُ نَصْرًا عَزِيزًا، وَافْتَحْ لَهُ فَتْحًا يَسِيرًا، وَاجْعَلْ لَهُ مِنْ لَدُنْكَ
سُلْطَانًا نَصِيرًا،

*Pərvərdigara, onu möhkəm, izzətli et və ona kömək et, izzətli bir kömək et. Onun üçün asan yolla (dünya) fəth et, Öz tərəfindən onun üçün nüsrətli bir dəlil-sübut (yaxud səltənət) qərar ver.*

اَللّٰهُمَّ اَظْهِرْ بِهِ دِينَكَ وَ سُنَّةَ نَبِيِّكَ، حَتّٰى لَا يَسْتَخْفِيَ بِشَيْءٍ مِنَ الْحَقِّ مَخَافَةَ اَحَدٍ مِنَ الْخَلْقِ

*Pərvərdigara, onun vasitəsi ilə Öz dinini və Peyğəmbərlərin sünnəsini (o qədər) qüvvətli et ki, camaatın (hətta) birinin qorxusundan belə heç bir şey gizli qalmasın.*

اَللّٰهُمَّ اِنَّا نَرْغَبُ اِلَيْكَ فِي دَوْلَةٍ كَرِيمَةٍ، تُعِزُّ بِهَا الْاِسْلَامَ وَ اَهْلَهُ، وَ تُذِلُّ بِهَا النِّفَاقَ وَ اَهْلَهُ، وَ تَجْعَلُنَا فِيهَا
مِنَ الدُّعَاةِ اِلٰى طَاعَتِكَ، وَ الْقَادَةِ اِلٰى سَبِيلِكَ، وَ تَرْزُقُنَا بِهَا كَرَامَةَ الدُّنْيَا وَ الْاٰخِرَةِ،

*Pərvərdigara, biz Səndən kəramətli bir dövlət istəyirik ki, onda İslamı və onun əhlini izzətli edəsən, nifaqı və onun əhlini zəlil edəsən. Onda bizi, (camaatı) Sənə itaət etməyə çağıranlardan, bu işin rəhbərlərindən qərar verəsən, Onun vasitəsi ilə dünya və axirət kəramətini bizə nəsib edəsən.*

اَللّٰهُمَّ مَا عَرَّفْتَنَا مِنَ الْحَقِّ فَحَمِّلْنَاهُ، وَمَا قَصُرْنَا عَنْهُ فَبَلِّغْنَاهُ، اَللّٰهُمَّ الْمُمْ بِهِ شَعَثَنَا، وَ اشْعَبْ بِهِ صَدْعَنَا، وَارْتُقْ
بِهِ فَتْقَنَا، وَكَثِّرْ بِهِ قِلَّتَنَا، وَاَعْزِزْ بِهِ ذِلَّتَنَا، وَاَغْنِ بِهِ عَائِلَنَا، وَ اقْضِ بِهِ عَنْ مَغْرَمِنَا، وَاجْبُرْ بِهِ فَقْرَنَا، وَ سُدَّ بِهِ خَلَّتَنَا، وَ
يَسِّرْ بِهِ عُسْرَنَا، وَ بَيِّضْ بِهِ وُجُوهَنَا، وَ فُكَّ بِهِ اَسْرَنَا، وَ اَنْجِحْ بِهِ طَلِبَتَنَا، وَ اَنْجِزْ بِهِ مَوَاعِيدَنَا، وَاسْتَجِبْ بِهِ
دَعْوَتَنَا، وَ اَعْطِنَا بِهِ سُؤْلَنَا، وَ بَلِّغْنَا بِهِ مِنَ الدُّنْيَا وَ الْاٰخِرَةِ اٰمَالَنَا، وَ اَعْطِنَا بِهِ فَوْقَ رَغْبَتِنَا،

*Pərvərdigara, tanıtdırdığın haqqı daşımağı bizə mükəlləf et, (yerinə yetirməyə) aciz olduğumuz şeyləri bizə çatdır. İlahi, onun əli ilə -bizim pərakəndəliyimizi birləşdir, ayrılıqlarımızı onunla cəm et, yarıqlarımızı onunla islah et, azımızı (sayımızı) onun vasitəsi ilə artır, zillətimizi onun vasitəsi ilə izzətli et, kasıblığımızı onunla zənginləşdir, borclarımızı onun vasitəsi ilə əda et, fəqirliyimizi onun vasitəsi ilə bərpa et, parçalanmalarımızı onun vasitəsilə birləşdir, çətinliklərimizi onun vasitəsi ilə asanlaşdır, üzlərimizi onunla ağ et, əsirlərimizi onun vasitəsi ilə azad et. İstəklərimizi onun vasitəsi ilə rəva qıl, və'də-*

*lərimizi gerçəkləşdir, onun vasitəsi ilə dualarımızı müstəcab et, istədiyimiz şeyləri onun vasitəsi ilə əta et, dünya və axirətdə bizi onunla arzularımıza çatdır, istəyimizdən artığını onunla əta et,*

يا خير المسؤولين واوسع المعطين، اشف به صدورنا، واذهب به غيظ قلوبنا، واهدنا به لما اختلف فيه من الحق باذنك، انك تهدي من تشاء الى صراط مستقيم، وانصرنا به على عدوك وعدونا، اله الحق امين،

*Ey istənilənlərin ən yaxşısı, ey əta edənlərin ən çox əta edəni! Onun vasitəsi ilə qəlblərimizə şəfa ver, qəlblərimizin qəzəbini apar, ixtilaf olunan şeylərdə Sənin iznin və onun vasitəsi ilə bizi hidayət et. Həqiqətən Sən istədiyin şəxsləri düz yola hidayət edirsən. Onun vasitəsi ilə bizi öz düşmənlərimizə və Sənin düşmənlərinə qalib et, ey haqq olan İlahi, amin!...*

اللهم انا نشكو اليك فقد نبينا صلواتك عليه و اله، وغيبة ولينا، و كثرة عدونا، و قلة عددنا، وشدة الفتن بنا، و تظاهر الزمان علينا، فصل على محمد و اله، و اعنا على ذلك بفتح منك تعجله، وبضر تكشفه، ونصر تعزه، وسلطان حق تظهره، ورحمة منك تجللناها، وعافية منك تلبسناها، برحمتك، يا ارحم الراحمين.

*Pərvərdigara, biz Səni Peyğəmbərimizin (hali-həyatda) olmamağından (Sənin salavatının ona və onun Əhli-beytinə olsun!) Vəlimizin (İmamımızın) qeybdə olmasından, düşmənlərimizin çoxluğundan, sayımızın azlığından, bizə fitnələrin şiddətlənməsindən, zəmanənin bizim əleyhimizə təzahür etməyindən Sənə şikayət edirik. Sən Məhəmməd və Ali-Məhəmmədə salavat göndər, bu işlərə Sənin tərəfindən olan tə'cili bir fəth ilə bədhallığımızı (xəstəliyi, ağrıları) aradan qaldır, gücləndirdiyin nüsrəti, izhar (qalib) etdiyin bir sultanla (səltənətlə), bizi əhatə edib bürüyəcək bir rəhmət ilə, bizə geyindirəcəyin salamatlıq paltarı ilə kömək et, ey rəhm edənlərin ən rəhimlisi!*

اللهم لك الحمد على ما جرى به قضائك في اوليائك الذين استخلصتهم لنفسك و دينك، إذ اخترت لهم جزيل ما عندك من النعيم المقيم، الذي لا زوال له و لا اضمحلال، بعد أن شرطت عليهم الزهد في درجات هذه الدنيا الدنية و زخرفها و زبرجها، فشرطوا لك ذلك و علمت منهم الوفاء به فقبلتهم و قربتهم و قدمت لهم الذكر العلي، و الثناء الجلي، و أهبطت عليهم ملائكتك، و كرمتهم بوحيك، ورفدتهم بعلمك، و جعلتهم الذريعة إليك و الوسيلة إلى رضوانك، فبعض أسكنته جنتك إلى أن أخرجته منها، وبعض حملته في فلكك، ونجيته ومن امن معه من الهلكة برحمتك، و بعض اتخذته لنفسك خليلا، وسئلك لسان صدق في الاخرين، فأجبته و جعلت ذلك عليا، و بعض كلمته من شجرة تكليما، و جعلت له من أخيه ردءا و وزيرا، وبعض أولدته من غير أب، واتيته البينات و أيدته بروح القدس، وكل

شَرَعْتَ لَهُ شَرِيعَةً،وَنَهَجْتَ لَهُ مِنْهاجًا،وَ تَخَيَّرْتَ لَهُ أَوْصِياءَ مُسْتَحْفِظًا بَعْدَ مُسْتَحْفِظ، مِنْ مُدَّة إِلَي مُدَّة، إِقامَةً لِدينِكَ، وَ حُجَّةً عَلَي عِبادِكَ، وَ لِئَلّا يَزُولَ الْحَقُّ عَنْ مَقَرِّه، وَ يَغْلِبَ الْباطِلُ عَلَي أَهْلِه، وَ لا يَقُولَ أَحَدٌ لَوْ لا أَرْسَلْتَ إِلَيْنا رَسُولاً مُنْذِرًا، وَ أَقَمْتَ لَنا عَلَمًا هادِيًا فَنَتَّبِعَ اياتِكَ مِنْ قَبْلِ أَنْ نَذِلَّ وَ نَخْزي إِلَي أَنِ انْتَهَيْتَ بِالْأَمْرِ إِلَي حَبِيبِكَ وَ نَجِيبِكَ مُحَمَّد صَلَّي اللّه عَلَيْهِ وَآله، فَكانَ كَما انْتَجَبْتَهُ سَيِّدَ مَنْ خَلَقْتَهُ، وَصَفْوَةَ مَنِ اصْطَفَيْتَهُ، وَأَفْضَلَ مَنِ اجْتَبَيْتَهُ،وَ أَكْرَمَ مَنِ اعْتَمَدْتَهُ، قَدَّمْتَهُ عَلَي أَنْبِيائِكَ، وَبَعَثْتَهُ إِلَي الثَّقَلَيْنِ مِنْ عِبادِكَ، وَأَوْطَأْتَهُ مَشارِقَكَ وَ مَغارِبَكَ، وَسَخَّرْتَ لَهُ الْبُراقَ، وَ عَرَجْتَ بِرُوحِه إِلَي سَمائِكَ، وَأَوْدَعْتَهُ عِلْمَ ما كانَ وَما يَكُونُ إِلَي انْقِضاءِ خَلْقِكَ،

*İlahi, övliyaların barədə cərəyan edən hadisələr barədə Sənə həmd olsun! Elə övliyaların ki, onları Özün və dinin üçün xalisləşdirmisən. Çünki onlara Öz yanında olan elə ne'mətlər bəxş etmisən ki, o ne'mətlər əbədidir. Heç vaxt zail olub aradan getməz, məhv olmaz. (Bu ne'mətləri) bu alçaq təbiətli dünyanın bər-bəzəkli, zər-zivərli dərəcələrində zöhdü onlar üçün şərt etdikdən, onların da bu şərti qəbul edib əhdlərinə vəfalı olduqlarını bildikdən sonra (əta etdin və onları Öz dərgahına) qəbul və müqərrəb etdin, yüksək zikri, aşkar sənanı (tə'rif və mədhi) onlar üçün təqdim etdin, mələk nazil edib Öz vəhyinlə onları əzizlədin, Öz elminlə onlara yardım (əta) etdin. Onları Özünə doğru şəfaətçi, razılığına çatmaq üçün vasitə qərar verdin. Sonra onların bə'zilərini (Həzrəti Adəmi) cənnətdən çıxarana qədər orada məskunlaşdırdın. Bə'zilərini isə (Həzrəti Nuhu) Öz nicat gəminə mindirib onu və onunla birlikdə iman gətirənləri, Öz rəhmətinlə həlak olmaqdan nicat verdin. Bə'zilərini isə (Həzrəti İbrahimi) Özün üçün xəlil (dost) seçdin, o da sonrakı ümmətlər içrə Səndən sadiq bir dil istədi. Sən də onun istəyini qəbul və onları uca məqamlı etdin. Bə'ziləri (Həzrəti Musa) ilə ağac vasitəsi ilə danışdın və onun üçün qardaşından (Harundan) arxa, gömək və vəzir qərar verdin. Bə'zilərini isə (Həzrəti İsa) atasız olaraq dünyaya gətirdin və ona aşkar mö'cüzələr əta edib Ruhul-qudusla onu tə'yid etdin (qüvvətləndirdin). Bunların hər biri üçün şəriət, yol müəyyən etdin, onlar üçün canişinlər seçdin ki, hər biri, digərindən sonra, müəyyən müddətdə dini hifz etsinlər. Təki, onlar Sənin dinini bərqərar edənlər, dirçəldənlər, Sənin bəndələrinə höccət və dəlil olsunlar ki, haqq Öz qərargahından məhv olub aradan getməsin və nəticədə batil əhli haqq əhlinə qələbə çalmasın, həmçinin bir kəs "ey Rəbbimiz, əgər Sən bizə (İlahi əzabdan) qorxudan bir rəsul göndərib (onları) hidayətçi, əlamət*

*qərar versəydin, biz də zəlil və xar olmamış, işimizin Sənin həbibin və nəcib bəndən Muhəmməd (səllallahu əleyhi və alihi və səlləm)-ə çatmamış Sənin mö'cüzələrinə tabe olardıq" deməsin və o, (Həzrəti Muhəmməd (səllallahu əleyhi və alihi və səlləm)) Sənin seçdiyin kimi, məxluqlarının ağası, seçdiyin bəndələrin seçilmişi, onların əfzəli, e'timad etdiyin bəndələrin ən kəramətlisi oldu. Sən onu Öz peyğəmbərlərindən öncəyə keçirib bəndələrindən olan səqəleynə (cinlərə və insanlara) Peyğəmbər seçdin, Öz məğrib və məşriqlərini onun ayaqları altından keçirtdin. Büraqı onun üçün müsəxxər (ram) etdin, onun ruhunu Öz asimanına doğru pərvaz etdirdin, xilqətin vaxtı qurtarana kimi olmuş və olacaq hər bir şeyin elmini onda əmanət qərar verdin,*

فَعَلَى الْأَطَائِبِ مِنْ أَهْلِ بَيْتِ مُحَمَّدٍ وَ عَلِيٍّ صَلَّى اللّهُ عَلَيْهِمَا وَآلِهِمَا فَلْيَبْكِ الْبَاكُونَ، وَإِيَّاهُمْ فَلْيَنْدُبِ
النَّادِبُونَ، وَلِمِثْلِهِمْ فَلْتُذْرَفِ الدُّمُوعُ، وَ لْيَصْرُخِ الصَّارِخُونَ، وَيَضِجَّ الضَّاجُّونَ، وَيَعِجَّ الْعَاجُّونَ،أَيْنَ الْحَسَنُ
أَيْنَ الْحُسَيْنُ. أَيْنَ أَبْنَاءُ الْحُسَيْنِ صَالِحٌ بَعْدَ صَالِحٍ،وَصَادِقٌ بَعْدَ صَادِقٍ، أَيْنَ السَّبِيلُ بَعْدَ السَّبِيلِ، أَيْنَ الْخِيَرَةُ
بَعْدَ الْخِيَرَةِ، أَيْنَ الشُّمُوسُ الطَّالِعَةُ، أَيْنَ الْأَقْمَارُ الْمُنِيرَةُ، أَيْنَ الْأَنْجُمُ الزَّاهِرَةُ، أَيْنَ أَعْلَامُ الدِّينِ وَ قَوَاعِدُ
الْعِلْمِ، أَيْنَ بَقِيَّةُ اللّهِ الَّتِي لَا تَخْلُو مِنَ الْعِتْرَةِ الْهَادِيَةِ، أَيْنَ الْمُعَدُّ لِقَطْعِ دَابِرِ الظَّلَمَةِ، أَيْنَ الْمُنْتَظَرُ لِإِقَامَةِ الْأَمْتِ
وَ الْعِوَجِ، أَيْنَ الْمُرْتَجَى لِإِزَالَةِ الْجَوْرِ وَ الْعُدْوَانِ، أَيْنَ الْمُدَّخَرُ لِتَجْدِيدِ الْفَرَائِضِ وَ السُّنَنِ، أَيْنَ الْمُتَخَيَّرُ
لِإِعَادَةِ الْمِلَّةِ وَ الشَّرِيعَةِ، أَيْنَ الْمُؤَمَّلُ لِإِحْيَاءِ الْكِتَابِ وَ حُدُودِهِ، أَيْنَ مُحْيِي مَعَالِمِ الدِّينِ وَأَهْلِهِ، أَيْنَ قَاصِمُ
شَوْكَةِ الْمُعْتَدِينَ، أَيْنَ هَادِمُ أَبْنِيَةِ الشِّرْكِ وَ النِّفَاقِ

*Həzrəti Muhəmmədin (səllallahu əleyhi və alihi və səlləm) pak və mə'sum Əhli-beytinin müsibətlərinə gərək bütün ağlayanlar ağlasın; bütün ahü-fəğan edənlər yalnız onların halına ahü-fəğan etsinlər. Gözlər yalnız onlar kimilərə gərək yaş axıtsın. Bütün şivən edənlər (yalnız onların halına) şivən etsin. Bütün nalə edənlər (onların müsibətlərinə) nalə etsinlər. Ürəkləri yananlar gərək onların halına ürək yanğısı keçirsinlər. Hardadır Həsən, hardadır Hüseyn, hardadır Hüseynin oğlanları? Salehdən sonrakı Saleh, Sadiqdən sonrakı Sadiq? Hardadır düz yoldan sonrakı düz yol? Hardadır yaxşı insanlardan sonrakı yaxşı insanlar? Hardadır nur saçan günəşlər? Hardadır nur verən aylar? Hardadır parlaq ulduzlar? Hardadır dinin nişanələri, elmin sütunları? Hardadır Allahın yer üzündə saxladığı Bəqiyyətullah? Elə bir şəxs ki, Peyğəmbərin pak Əhli-beytindən kənarda deyil. Hardadır zülmkarların kökünü kəsmək üçün saxlanmış şəxs? Hardadır əyrilikləri, nadürüstlükləri düzəltmək üçün intizarı çəkilən şəxs? Hardadır zülm və ədavəti məhv etmək üçün ümid yeri olan şəxs?*

*Hardadır fərizə və sünnətləri yeniləşdirmək üçün ehtiyat (zəxirə) edilmiş şəxs? Hardadır din və şəriəti öz əslinə qaytarmaq üçün ixtiyar verilmiş şəxs? Hardadır Allahın Kitabı və onun hədd-hüdudunu (qanunlarını) dirçəltmək üçün arzu olunan şəxs? Hardadır din nişanələrini və din əhlini dirildən şəxs? Hardadır həddini aşanların izzət və şövkətini tar-mar edən? Hardadır şirk və nifaqın bünövrələrini sarsıdıb məhv edən şəxs? Hardadır fisq, üsyan, tüğyan əhlini həlak edən şəxs? Hardadır azğınlıq və ixtilaf şaxələrini kəsən? Hardadır həvayi-nəfsə (nəfsani ehtiraslara) pərəstişin, əyriliklərin əsər-əlamətlərini məhv edən? Hardadır yalan, iftira zəncirlərini kəsib doğrayan? Hardadır təkəbbürləri, inadkarları məhv edən? Hardadır inadçıların və zəlalətə salanların, küfr əhlinin kökünü kəsən?*

أَيْنَ مُعِزُّ الْاَوْلِيٰاءِ وَمُذِلُّ الْاَعْدٰاءِ، أَيْنَ جٰامِعُ الْكَلِمَةِ عَلَي التَّقْوٰي، أَيْنَ بٰابُ اللّٰهِ الَّذي مِنْهُ يُؤْتٰي، أَيْنَ وَجْهُ اللّٰهِ الَّذي إِلَيْهِ يَتَوَجَّهُ الْاَوْلِيٰاءُ، أَيْنَ السَّبَبُ الْمُتَّصِلُ بَيْنَ الْاَرْضِ وَ السَّمٰاءِ، أَيْنَ صٰاحِبُ يَوْمِ الْفَتْحِ وَ نٰاشِرُ رٰايَةِ الْهُدٰي، أَيْنَ مُؤَلِّفُ شَمْلِ الصَّلٰاحِ وَ الرِّضٰا، أَيْنَ الطّٰالِبُ بِذُحُولِ الْاَنْبِيٰاءِ وَ أَبْنٰاءِ الْاَنْبِيٰاءِ، أَيْنَ الطّٰالِبُ بِدَمِ الْمَقْتُولِ بِكَرْبَلٰاءَ،

*Hardadır Allah övliyalarına izzət bəxş edib onların düşmənlərini zəlil edən? Hardadır təqva kəlmələrini cəm edən? Hardadır ne'mətlərin əta olunduğu Allah qapısı? Hardadır Allah övliyalarının üz çevirdikləri Allah vəchi? Hardadır yerlə səma arasındakı əlaqə (ittisal) səbəbi? Hardadır fəth gününün sahibi və hidayət bayrağını yayan? Hardadır peyğəmbərlər və onların övladlarının intiqamını alan? Hardadır Kərbəlada qətlə yetirilənin qanının intiqamını alan?*

بِأَبِي أَنْتَ وَ أُمّي وَ نَفْسي لَكَ الْوِقٰاءُ وَ الْحِمٰي، يَابْنَ السّٰادَةِ الْمُقَرَّبينَ، يَابْنَ النُّجَبٰاءِ الْاَكْرَمينَ، يَابْنَ الْهُدٰاةِ الْمَهْدِيّينَ، يَابْنَ الْخِيَرَةِ الْمُهَذَّبينَ،

*Atam-anam və özüm sənə fəda, sənə gələn bəlalara biz sipər, qalxan olaq. Ey (Allah dərgahına) müqərrəb olan sərvərlərin övladı, Ey (Allah yanında) ən kərim, əziz olan nəciblərin övladı, ey özləri (Allah tərəfindən) hidayət olunan və xalqa yol göstərən rəhbərlərin oğlu, nəfsləri saflaşdırılmış (mühəzzəb) xeyirxah insanların övladı?*

عَزيزٌ عَلَيَّ أَنْ أَرَي الْخَلْقَ وَلٰا تُرٰي، وَلٰا أَسْمَعُ لَكَ حَسيسًا وَلٰا نَجْوٰي، عَزيزٌ عَلَيَّ أَنْ تُحيطَ بِكَ دُونِيَ الْبَلْوٰي، وَلٰا يَنٰالُكَ مِنّي ضَجيجٌ وَلٰا شَكْوٰي، بِنَفْسي أَنْتَ مِنْ مُغَيَّبٍ لَمْ يَخْلُ مِنّٰا، بِنَفْسي أَنْتَ مِنْ نٰازِحٍ مٰا نَزَحَ عَنّٰا،

*Mənə çox ağırdır ki, xalqın hamısını görəm, amma sən görünməyəsən və sənə mənim həzin səsim və gizli pıçıltım çatmasın. Mənə çox*

*çətindir ki, mən salamat olduğum halda səni bəlalar (imtahanlar) əhatə etsin və mənim ahü-naləm, şikayətim sənə çatmasın. Canım sənə fəda olsun, ey elə bir qaib şəxs ki, bizdən uzaqda deyilsən. Canım fəda olsun sənə, ey uzaqda olan şəxs ki, bizdən uzaqda deyilsən.*

إِلـٰي مَتٰي أَحٰارُ فِيكَ يٰا مَوْلـٰايَ، وَإِلـٰي مَتٰي وَأَيَّ خِطـٰابٍ أَصِفُ فِيكَ وَأَيَّ نَجْوٰي، عَزِيزٌ عَلَيَّ أَنْ أُجٰابَ دُونَكَ وَأُنٰاغـٰي، عَزِيزٌ عَلَيَّ أَنْ أَبْكِيَكَ وَيَخْذُلَكَ الْوَرٰي، عَزِيزٌ عَلَيَّ أَنْ يَجْرِيَ عَلَيْكَ دُونَهُمْ مٰا جَرٰي، هَلْ مِنْ مُعِينٍ فَأُطِيلَ مَعَهُ الْعَوِيلَ وَالْبُكٰاءَ، هَلْ مِنْ جَزُوعٍ فَأُسٰاعِدَ جَزَعَهُ إِذٰا خَلـٰا، هَلْ قَذِيَتْ عَيْنٌ فَسٰاعَدَتْهٰا عَيْنِي عَلَي الْقَذٰي، هَلْ إِلَيْكَ يَابْنَ أَحْمَدَ سَبِيلٌ فَتُلْقٰي، هَلْ يَتَّصِلُ يَوْمُنٰا مِنْكَ بِعِدَةٍ فَنَحْظـٰي، مَتٰي نَرِدُ مَنٰاهِلَكَ الرَّوِيَّةَ فَنَرْوٰي، مَتٰي نَنْتَقِعُ مِنْ عَذْبِ مٰائِكَ فَقَدْ طـٰالَ الصَّدٰي، مَتٰي نُغٰادِيكَ وَ نُرٰاوِحُكَ فَنَقِرُّ عَيْنًا. مَتٰي تَرٰانٰا وَنَرٰاكَ وَ قَدْ نَشَرْتَ لِوٰاءَ النَّصْرِ تُرٰي، أَتَرٰانٰا نَحُفُّ بِكَ وَأَنْتَ تَأُمُّ الْمَلَأَ وَ قَدْ مَلَأْتَ الْأَرْضَ عَدْلاً، وَأَذَقْتَ أَعْدٰائَكَ هَوٰانًا وَعِقٰابًا، وَأَبَرْتَ الْعُتـٰاةَ وَجَحَدَةَ الْحَقِّ، وَقَطَعْتَ دٰابِرَ الْمُتَكَبِّرِينَ، وَاجْتَثَثْتَ أُصُولَ الظّـٰالِمِينَ، وَنَحْنُ نَقُولُ اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعٰالَمِينَ. اَللّٰهُمَّ أَنْتَ كَشّـٰافُ الْكُرَبِ وَالْبَلْوٰي، وَ إِلَيْكَ أَسْتَعْدِي فَعِنْدَكَ الْعَدْوٰي، وَأَنْتَ رَبُّ الْـٰاخِرَةِ وَ الدُّنْيٰا، فَأَغِثْ يٰا غِيٰاثَ الْمُسْتَغِيثِينَ عُبَيْدَكَ الْمُبْتَلـٰي، وَأَرِهِ سَيِّدَهُ يٰا شَدِيدَ الْقُوٰي، وَ أَزِلْ عَنْهُ بِهِ الْأَسٰي وَ الْجَوٰي، وَ بَرِّدْ غَلِيلَهُ يٰا مَنْ عَلَي الْعَرْشِ اسْتَوٰي، وَمَنْ إِلَيْهِ الرُّجْعٰي وَالْمُنْتَهٰي. اَللّٰهُمَّ وَنَحْنُ عَبِيدُكَ التّٰائِقُونَ إِلـٰي وَلِيِّكَ الْمُذَكِّرِ بِكَ وَبِنَبِيِّكَ، خَلَقْتَهُ لَنٰا عِصْمَةً وَمَلـٰاذًا، وَ أَقَمْتَهُ لَنٰا قِوٰامًا وَ مَعٰاذًا، وَجَعَلْتَهُ لِلْمُؤْمِنِينَ مِنّٰا إِمٰامًا، فَبَلِّغْهُ مِنّٰا تَحِيَّةً وَ سَلـٰامًا

*Nə vaxta qədər səni axtarmaqda sərgərdan qalacağam, ey mənim mövlam? Nə vaxta qədər və hansı sözlərlə, hansı minacatla səni vəsf edim? Mənə çox çətindir ki, sənsiz mənə cavab verilib xoş sözlər deyilsin. Mənə çox çətindir ki, mən sənin (hicranın) üçün ağlayım, başqaları isə səni tərk etsinlər. Mənə çox çətindir ki, hadisələr onlara yox, sənə baş versin. Aya bir köməkçi varmı ki, onunla ah-naləmi, ağlamağı ucaldam? Bir ah-nalə edən, fəryad qoparan varmı ki, gizlində onun ah-fəryadından qüvvə alam? Çöp düşən (qan ağlayan) bir göz varmı ki, (qan ağlayan) o gözlər mənim gözümdən çöpləri çıxartmaqda (qan ağlamaqda) kömək olsun? Ey Əhməd (səlləllahu əleyhi və alihi və səlləm)-in oğlu, görəsən sənə tərəf bir yol varmı ki, səninlə görüşək? Görəsən bir sabah, günümüz sənin gününlə birləşəcək və biz səndən bəhrələncəyikmi? Nə vaxt sənin içməli axar çaylarına daxil olub sirab olacağıq? Nə vaxt sənin güvara, sərin suyundan içəcəyik, halbuki, səs-sədamız uzun-uzadı oldu? Nə vaxt olacaq ki, sübh-axşam sənin yanında olacağıq və gözlərimizin yaşı quruyacaq (şad olacağıq)? Nə vaxt sən bizi görəcəksən və biz də səni görəcəyik, sən də aşkar görünən (zəfər) bayrağını yer üzünün hər*

*yerinə sancacaqsan? Nə vaxt biz sənin ətrafına yığışacağıq və sən zalımların canına qəsd edəcək, yer üzünü ədalətlə dolduracaq, öz düşmənlərinə xarlıq və zilləti dadızdıraraq cəzalandıracaqsan, Haqqa təcavüz edənləri, haqq qarşısında inadkarlıq edənləri və haqqı inkar edənləri həlak edəcəksən, təkəbbürlülərin, zalımların kökünü kəsəcəksən? Və (o vaxt) biz də deyəcəyik ki, aləmlərin Rəbbi olan Allaha şükür olsun. İlahi, sən girifdarçılıqları, müsibətləri aradan qaldıransan. Mən yalnız Səndən kömək istəyirəm, kömək də yalnız Sənin yanındadır. Sən dünya və axirətin Rəbbisən, onda imtahan olunmuş, bəlalara mübtəla olan həqir bəndənin fəryadına çat, ey fəryad edənlərin dadına çatan; və ona öz ağasını göstər, ey qüvvəsi şiddətli olan; və o Həzrətin səbəbi ilə bəndəndən qəm-qüssəni yu, kədəri apar, ürək yanğısını sərinləşdir., ey ərşə hakim kəsilən, ey Ona tərəf qayıdacağımız və ey (arzularımızın) Ona tərəf olduğu Kəs! İlahi, biz Sənin və Sənin Peyğəmbərini yad edən, vəli və dostunu arzulayan bəndələrinik. Sən o vəlini bizə keşikçi və pənahgah yaratdın, onu bizdən olan mö'minlər üçün İmam qərar verdin. Belə isə, bizdən ona salam və təhiyyət göndər.*

اَللّٰهُمَّ وَأَقِمْ بِهِ الْحَقَّ، وَأَدْحِضْ بِهِ الْباطِلَ، وَأَدِلْ بِهِ أَوْلِيائَكَ، وَأَذْلِلْ بِهِ أَعْدائَكَ، وَصِلِ اَللّٰهُمَّ بَيْنَنا وَ بَيْنَهُ وُصْلَةً تُؤَدِّي إِلـٰي مُرافَقَةِ سَلَفِهِ، وَاجْعَلْنا مِمَّنْ يَأْخُذُ بِحُجْزَتِهِمْ، وَيَمْكُثُ فِي ظِلِّهِمْ، وَأَعِنّـا عَلـٰي تَأْدِيَةِ حُقُوقِهِ إِلَيْهِ،وَالْاِجْتِهادِ فِي طـاعَتِهِ، وَاجْتِنابِ مَعْصِيَتِهِ،وَامْنُنْ عَلَيْنا بِرِضاهُ،وَهَبْ لَنا رَأْفَتَهُ وَرَحْمَتَهُ وَدُعائَهُ وَخَيْرَهُ ما نَنالُ بِهِ سَعَةً مِنْ رَحْمَتِكَ،وَفَوْزًا عِنْدَكَ،وَاجْعَلْ صَلوتَنا بِهِ مَقْبُولَةً،وَذُنُوبَنابِهِ مَغْفُورَةً،وَدُعائَنا بِهِ مُسْتَجابًا، وَاجْعَلْ أَرْزاقَنا بِهِ مَبْسُوطَةً،وَ هُمُومَنا بِهِ مَكْفِيَّةً، وَحَوائِجَنا بِهِ مَقْضِيَّةً،وَأَقْبِلْ إِلَيْنا بِوَجْهِكَ الْكَرِيمِ، وَاقْبَلْ تَقَرُّبَنا إِلَيْكَ، وَانْظُرْ إِلَيْنا نَظْرَةً رَحِيمَةً نَسْتَكْمِلُ بِهَا الْكَرامَةَ عِنْدَكَ، ثُمَّ لـا تَصْرِفْها عَنّـا بِجُودِكَ،وَاسْقِنا مِنْ حَوْضِ جَدِّهِ صَلَّي اللّهُ عَلَيْهِ وَآلِهِ بِكَأْسِهِ وَ بِيَدِهِ رَيّاً رَوِيّاً هَنِيئًا سائِغًا لـا ظَمَأَ بَعْدَهُ، يا أَرْحَمَ الرّاحِمِينَ.

*İlahi, onun vasitəsi ilə haqqı bərqarar, batili məhv et. Öz övliyalarını onun vasitəsiilə qalib, düşmənlərini isə zəlil et, bizimlə onun arasında vüsal bərqərar et, elə bir vüsal ki, bizi onun sələfləri (İmamlar və peyğəmbərlər) ilə yoldaş olmağa aparıb çıxarar. Bizi onun kəmərindən yapışıb, kölgəsində qərar tutanlardan et, onun haqlarını özünə qaytarmaqda bizə kömək et. Onun itaətində olmağa çalışmaqda, ona qarşı üsyan etməkdən çəkinməkdə bizə kömək et. Onun bizdən razı olması ilə bizə minnət qoy. Onun rə'fət, rəhmət, dua və xeyir-bərəkətini bizə əta et, belə ki, biz onun səbəbinə Sənin rəhmət və kamının (fövz) genişliyinə çataq. Namazlarımızı onun xatirinə*

*məqbul, günahlarımızı onun xatirinə bağışlanmış, dualarımızı onun xatirinə müstəcab olunmuş qərar ver; ruzilərimizi onun xatirinə bol, firavan, qəm-qüssələrimizi onun xatirinə aradan qaldırılmış, ehtiyaclarımızı onun xatirinə tə'min olunmuş qərar ver. Öz kərim vəchinlə bizə doğru nəzər et, Sənə doğru yaxınlaşmaq (niyyətimizi) qəbul et. Bizə rəhmət nəzəri ilə nəzər et, belə ki, o rəhmət səbəbi ilə Sənin yanından gələn kəraməti kamil surətdə əldə edək; daha sonra o rəhməti Öz ehsanınla bizdən başqa tərəfə çevirmə (bizdən alma). Onun cəddi ((səlləllahu əleyhi və alihi və səlləm))-in hovuzunda ("Kövsər") bizi o Həzrətin (İmam Zamanın) camları ilə çoxlu sirab edən, canımıza nuş olan, zəhmətsiz su verməklə sirab et; elə sirab et ki, ondan sonra heç vaxt susamayaq. Ey rəhm edənlərin ən rəhimlisi!*

## MƏHDİ – SÜNNÜLƏRİN NƏZƏRİNDƏ

Bə'ziləri gözlənilən Məhdiyə e'tiqadın şiələrə məxsus olduğunu təsəvvür edirlər, halbuki bu e'tiqadın əsası ilə əlaqədar sünnülər də şiələrlə eyni nəzərdədir və bu iki firqə arasında Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) tərəfindən zühuruna dair verilən müjdələr, o həzrətin dünya səviyyəli mə'muriyyəti, müqəddəs və görkəmli şəxsiyyəti və hətta zühurunun əlamətləri və inqilabının xüsusiyyətləri barəsində heç bir fərq yoxdur. Bu barədə yeganə fərq bundan ibarətdir ki, şiələr onu on ikinci İmam hesab edir, adının isə Mühəmməd ibni Həsən Əsgəri olduğunu, 255-ci hicri ilində dünyaya gəldiyini deyir və inanırlar ki, Allah-taala onun ömrünü həzrət Xızrın ömrü kimi uzun etmişdir, hal-hazırda diridir, qeybdə yaşayır və Allahın iradə etdiyi vaxt zühur edəcək. Amma sünnü alimlərinin əksəriyyəti deyirlər ki, o, hələ dünyaya gəlməmiş və qeybə də çəkilməmişdir. Əksinə, tezliklə dünyaya gələcək və Peyğəmbərin və'də verdiklərini həyata keçirəcəkdir. Onların az bir qismi o həzrətin təvəllüdü və qeybəti ilə əlaqədar şiələrlə eyni əqidədədirlər.

Sünnülərin əsl e'tiqadi və rəvayət kitablarında, alimlərinin fətva və rə'ylərində, elmi, tarixi və siyasi kitablarında Həzrət Məhdi (əryahuna fidah)-a əqidənin əsli ilə əlaqədar və bu əqidəyə dəlalət edən çoxlu rəvayətlər nəql olunmuşdur. Buna əsasən, sünnü cəmiyyətlərində "Məhdilik" iddiası ilə çıxış edənlər, o cümlədən, keçən (19-cu) əsrdə sudanlı Məhdinin hərəkatı, 20-ci əvvəllərində Məkkədə baş verən hərəkat, məhdilik təfəkkürünü aşkar şəkildə göstərən sair hərəkatlar, o cümlədən Misirdə "Cihad" və "Hicrət" hərəkatı və digər ölkələrdə buna oxşar

hərəkatları qeyd etmək olar ki, şiə təfəkküründən tə'sirlənməsinə, yaxud öz əqidələrində fikri və ideoloji boşluğun yaranmasına görə həzrət Məhdi (əleyhis-salam)-ın barəsində qeyd olunan təsəvvürlər yaratmışlar.

Həzrət Məhdi (əccəlallahu təala fərəcəhuş-şərif) barəsində sünnülərin səhabə və tabeindən nəql etdikləri rəvayətlərin sayı şiələrin nəql etdikləri rəvayətlərin sayı ilə təqribən eynidir, onların bə'ziləri bu rəvayətləri üsul kitablarında və hədis məcmuələrində bir yerə yığan, bu barədə xüsusi kitab yazan şəxslərdir.

Sünnülərdən Məhdi (əleyhis-salam) barəsində bizim əlimizə gəlib çatan ən qədim kitab, bəlkə də Hafiz Nəim ibni Həmmad Mərvəzinin "Fitən və məlahim" kitabıdır (h.q. 227-ci ildə vəfat etmişdir). O, altılıq təşkil edən "Sihah" müəlliflərindən biri olan Buxarinin və başqalarının müəllimidir. Bu kitabın bir nüsxəsi Hindistanın Heydərabad şəhərində "Dairətül-məarifi Osmani" adlı kitabxanada 83-3184 nömrədə, biri isə Dəməşqin "Zahiriyyə" kitabxanasında "62-ədəb" bölməsində mövcuddur. İngiltərənin kitab muzeyində də təqribən 200 səhifədən ibarət olan və 706-cı hicri ilində yazılan bir nüsxə vardır. Onun bə'zi səhifələrinin üzərində "Hüseyn Əfəndinin vəqfidir" cümləsi qeyd olunur ki, bu da həmin nüsxənin Türkiyə Vəqflər İdarəsindən olduğunu göstərir ki, 1924-cü ildə Britaniyanın kitabxanasında qeydə alınmışdır. Bizim bu kitabda əsas mənbə olaraq seçdiyimiz də həmin kitabdır. Amma sünnülərin sair e'tiqadi və rəvayət mənbələrində Məhdi (ərvahuna fidah)-la əlaqədar söhbət edən, yaxud öz kitablarının bir qismini bu mövzuya həsr edənlər əllidən artıq mənbəyə çatır ki, "Sihah" kitabları da onların arasındadır. Bu barədə yazılan kitablar, risalələr, təhqiqatlar təqribən həmin mənbələrin sayı qədərdir.

Həzrət Məhdi (əleyhis-salam)-a əqidə ilə əlaqədar ən qədim şiə kitabı Nəim ibni Həmmadla müasir olan Fəzl ibni Şazan Nişapurinin "Qeybət", yaxud "Qaim" adlı kitabıdır. O öz kitabını həzrət Məhdi (əleyhis-salam)-ın təvəllüdündən və qeybətindən qabaq qələmə almışdır.

Bu kitabın nüsxələri keçən əsrlərdə bizim alimlərin əlində olmuş, lakin çox təəssüflər olsun ki, bu əsrdə ondan əsər-əlamət qalmamışdır, yalnız onun müəyyən hissələri o kitabdan istifadə edən alimlərin kitablarında qalmışdır. Əllamə Məclisi onun özünü "Biharul-ənvar" kitabında nəql etmişdir.

Zamanın keçməsi ilə həzrət Məhdi (ərvahuna fidah)-a əqidə sabit İslami əqidələrdən biri olmuşdur. Sünnü alimləri və ümumxalq kütlələr bu

əqidədə o qədər həmahəng və müvafiq idilər ki, əgər bir nəfər müxalif tapılsaydı və onu inkar etsəydi, yaxud bu barədə şəkk-şübhə yaratsaydı, alimlər və mühəqqiqlər onunla müxalifətə qalxıb lazımi cavab verirdilər. Çünki o şəxs həqiqətdə İslamın danılmaz əqidələrindən birini – rəvayətlərdə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən təvatür həddində nəql olunduğu halda – şəkk-şübhə yaratmış olurdu.

Bu əqidədə şübhə yaradan və cavabı sünnü alimləri tərəfindən verilənlərdən ikisini qeyd edirik:

Birincisi, 8-ci hicri əsrinin alimlərindən olan və məşhur "Tarix" kitabının müəllifi İbni Xəldundur. O, öz tarixinin müqəddiməsində ("Daru ehyait-turasil-ərəbiyy" çapı, səh.311) deyir: "Bil ki, bütün müsəlmanların arasında belə bir məşhur əqidə vardır: Hökmən axirəz-zamanda Əhli-beytdən olan bir kişi zühur edəcək, dinə kömək edib ədaləti yayacaq, müsəlmanlar da ona itaət edəcəklər, o, bütün İslam ölkələrinə hakim olacaq. Onun adı Məhdi olacaqdır. Dəccalın xürucu və ondan sonra baş verəcək hadisələr də Qiyamətin danılmaz əlamətləri olduğu halda, onun zühurundan sonra baş verəcəkdir. İsa ondan sonra yer üzünə nazil olaraq Dəccalı qətlə yetirəcək, yaxud Məhdinin zühuru ilə eyni zamanda nazil olacaq, Dəccalı öldürməkdə ona kömək edəcək və namazda Məhdiyə iqtida edəcəkdir."[1]

İbni Xəldun daha sonra həzrət Məhdi (əccələllahu təala fərəcəhuş-şərif) barəsində nəql olunan 27 hədisi araşdırır, bə'zi raviləri tənqid edir və öz münaqişələrinin sonunda deyir: "Məhdi və onun axirəz-zamanda zühur etməsi ilə əlaqədar rəvayətlərin hamısı bunlardan ibarətdir. Gördüyünüz kimi, azacıq miqdar istisna olmaqla, yerdə qalanlar barədə tənqid və mülahizələrə yer vardır."[2]

Bundan sonra sufilərin Məhdi barəsindəki bə'zi nəzərlərini tənqid etmiş, axırda sözünü belə yekunlaşdırmışdır: "Qeyd olunası həqiqət budur ki, din və hökumətlə əlaqədar elə bir də'vət yoxdur ki, onu müdafiə edən qəbiləvi himayə və qüdrətsiz kamil olsun ki, nəhayət Allahın əmri onda aşkar olsun. Bu mətləbi əvvəldə bəyan etmiş, qəti bürhan və dəlillərlə göstərmişdik ki, fatimilərin, hətta Qüreyşin də dünyanın hər yerindəki bağlılıqları tamamilə aradan getmiş, Qüreyşdən artıq təəssübə malik olan digər millətlər yaranmışdır. Yalnız talibilərdən bir qrupu, o cümlədən, Bəni-Həsən, Bəni-Hüseyn,

---

[1] "İbni Xəldunun müqəddiməsi", səh.311.
[2] Yenə orada, səh.322.

Bəni-Cə'fər qalmışdır, onlar da Məkkə və Mədinənin Yənbu əyalətində qalmış, oradakı şəhərlərə dağılmış və o məntəqələrə qalib gəlmişlər. Onlar vətən, hökumət, rə'y və əqidə baxımından pərakəndə vəziyyətdə keçinən dəstələrdir. Onların sayı minlərləyə çatır. Buna əsasən, əgər Məhdinin zühur məsələsi səhih olsa, onun zühuruna və də'vətinə dair bir dəlil olmayacaq; yalnız bu dəlil ola bilər ki, o onların özündən olsun, Allah onların qəlblərini ona itaət etməkdə bir-birləri ilə ülfətli etsin ki, tam qüdrət və kamil himayə ilə öz də'vətinə başlasın, camaatı onu qəbul etməyə vadar etsin. Amma bu üslubdan qeyrisində, o cümlədən, dünyanın hər hansı bir nöqtəsində Fatimi bir şəxs fatimilərin arxası və himayəsi olmadan, qüvvət və qüdrəti ələ keçirmədən, sadəcə Əhli-beytə mənsub olması səbəbilə belə bir də'vətə başlayarsa, müvəffəq ola bilməz."[1]

İbni Xəldun həzrət Məhdi (əleyhis-salam)-a olan e'tiqadı qəti şəkildə rədd etməmiş, onu çox uzaq ehtimal kimi qəbul və onunla əlaqədar rəvayətlərin bir çoxunda münaqişə etmişdir. Alimlər onun bu barədəki nəzərlərini, eləcə də müstəfiz və mütəvatir olan rəvayətlərlə İslami əqidə olan bu e'tiqada qarşı gördüyü işini yersiz və haqdan inhiraf hesab etmiş və onu məzəmmət edərək demişlər ki, o, bir tarixçidir və rəvayət elmində heç bir ixtisası yoxdur ki, rəvayətləri araşdırıb zəif və ya düzgün olduğunu deyə və ictihadı ilə bu işi görə bilsin. Onun cavabında deyilən ən güclü tənqid mühəddis və alim Əhməd ibni Siddiq Məğribinin yazdığı 150 səhifəlik "Əl-vəhmul-məknun min kəlami İbni Xəldun" kitabındadır. Müəllif özü kitaba geniş bir müqəddimə yazmış, hədis ravilərinin həzrət Məhdi (əleyhis-salam)-la əlaqədar rəvayətlərin düzgün və təvatürlüyündəki nəzərlərini müqəddimədə qeyd etmiş, sonra İbni Xəldun tərəfindən onun qeyd etdiyi 28 rəvayətin sənədində yaradılan şübhələri bir-bir araşdırıb cavabını vermiş, onları əsassız və zəif hesab etmiş, daha sonra həzrət Məhdi (əleyhis-salam)-la əlaqədar rəvayətləri yüzə qədər artırıb tamamlamışdır.

İkinci nümunə isə, Şeyx Əbdüllah Məhmudun (o, Qatar əmirliklərinin şəriət hakimidir) yazdığı "La Məhdiyə yuntəzəru bə'dər-Rəsul xeyril-bəşər" (Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən sonra intizarı çəkilən heç bir Məhdi yoxdur) kitabıdır. Bu kitabı, Məhəmməd Əbdüllah Qürəşinin Məscidül-Həramda Məhdilik iddiası ilə çıxış etməsindən sonra yazmışdır. Hicaz alimlərindən bir qrupu müxalifətə

[1] Yenə orada, səh.327.

qalxaraq ona cavab yazmışlar. Onun cavabını mühəddis alim, ustad Əbdül-Möhsin Əbbad (Mədinənin "İslam" universitetinin müəllimidir) 1400-cü h.q. ilində "Əl-camiətul-İslam" adlı jurnalının 45-ci nömrəsində kamil şəkildə və "Ər-rəddu əla mən kəzzəbə bil-əhadisis-səhihətil-varidəti fil-Məhdi" ünvanı ilə (50 səhifədən artıq) yazmışdır. Həmin jurnalın müqəddiməsində belə deyilir: "Hər bir müsəlmanın qəlbini ağrıdan (...) bu hadisənin ardınca Məhdinin zühuru barəsində "bu barədəki Nəbəvi hədislərdən nə miqdarı səhihdir?" - deyə bə'zi suallar irəli çəkilir. Buna görə də alimlərdən bə'ziləri radio və qəzetlərdə Peyğəmbərdən bu barədə nəql olunan rəvayətlərin çoxunun düzgünlüyü barədə izahlar vermişlər. O cümlədən, "Elmi təhqiqat, təbliğat və irşad idarəsi"nin rəisi Şeyx Əbdül-Əziz ibni Əbdüllah Ben-bazz kütləvi informasiya vasitələri ilə izahlar vermiş, radio və bə'zi qəzetlər də onu qeydə almışdır. O, Peyğəmbərdən nəql olunan müstəfiz və səhih rəvayətləri bəyan və bu azğın qrupun Beytüllahil-Hərama qarşı axmaqcasına təcavüz və hörmətsizliyini qəbahətli iş hesab etmişdir. Digəri isə "Peyğəmbər" məscidinin xətibi və pişnamazı Şeyx Əbdül-Əziz ibni Salehdir ki, cümə namazının xütbələrinin birində bu xatakar və zalım qrupun Məkkədə Hərəmə təcavüzünü çirkin bir iş kimi qeyd edərək, əlavə etmişdir ki, onlar və onu Məhdi hesab edənlərlə, rəvayətlərdə zikr olunan Məhdi (əccəlallahu təala fərəcəhuş şərif) arasında aşkar fərqlər vardır.

Onun müqabilində isə Qatar dövlətinin şəriət məhkəməsinin rəisi Şeyx Əbdüllah ibni Zeyd Məhmud 14-cü əsrin bə'zi yazıçılarına – halbuki onlar Peyğəmbər (səllallahu əleyhi və alihi və səlləm) hədisləri barədə mə'rifətə malik deyildirlər, hədislərin səhih və ya qeyri-səhih olması barəsində də heç bir ixtisasları yoxdur – təqlid edərək "La Məhdiyə yuntəzər bə'dər-Rəsuli xeyril-bəşər" adlı kitabçanı yaymış və orada əqli şübhələrə istinad edərək Məhdi barəsində nəql olunan rəvayətlərin hamısını təkzib etmiş, onların dedikləri sözləri təkrarlamışdır...

Mən bu barədə bir neçə sətir yazaraq o kitabçada buraxılan xataları və xəyalpərəstlikləri aşkar etməyi, Məhdinin axirəz-zamanda zühur edəcəyinə e'tiqadın səhih rəvayətlər əsasında olmasını və sünnü alimlərinin keçmişdəki və hal-hazırdakı rəvayətlər içində – azacıq miqdar istisna olmaqla – bu barədə yekdil fikrə malik olduqlarını bəyan etməyi məsləhət görürəm. Qeyd edim ki, mən əvvəllər "Əqidətu əhli-sünnə vəl-əsər fil-Məhdil-müntəzər" ünvanlı bir

təhqiqat yazmışdım. Bu məqalə Mədinədə nəşr edilən "Əl-camiətul-İslamiyyə" jurnalının 1388-ci ilin zil-qə'də ayındakı 3-cü nömrəsində çap edilmişdi. Həmin məqalə aşağıdakı on hissədən ibarətdir:

1-Peyğəmbərdən Məhdi ilə əlaqədar rəvayətləri nəql edən səhabələrin adları;

2-Məhdi barəsindəki rəvayətləri öz kitablarında bir yerə yığan sünnü alimlərinin adları;

3-Məhdi barəsində ayrılıqda kitab yazan alimlərin adları;

4-Məhdi barəsindəki hədislərin təvatür həddində olmasına hökm edən alimlər;

5-"Səhihi Buxari" və "Səhihi Müslüm"də Məhdi barəsindəki bə'zi rəvayətlərin bəyanı;

6-Qeyd olunan bu iki kitabdan başqa sair kitablarda Məhdi barəsində gələn rəvayətlərin – sənədlərini zikr etməklə – bəyanı;

7-Məhdi ilə əlaqədar rəvayətlərə e'tiraz edən alimlərin adları;

8-Məhdi ilə əlaqədar rəvayətləri inkar edən, yaxud onda şəkk-şübhə yaradanların adları ki, onların sözləri də müxtəsər şəkildə bəyan olunur;

9-Məhdi ilə əlaqədar rəvayətlərin arasında ziddiyyətin varlığı təsəvvür olunan mətləblərin bəyanı və onların cavabı;

10-Məhdinin axirəz-zamanda zühur etməsinə e'tiqadın elə qeybə e'tiqad olması, eləcə də əhli-sünnənin Məhdiyə e'tiqadının şiəlikdəki e'tiqaddan tə'sirlənməməsi və bunların arasında heç bir əlaqənin olmaması barəsində yekun sözümüz."

Həqiqətdə İbni Siddiq Məğribinin, İbni Xəlduna verdiyi cavab və onun Şeyx Əbbada iki tənqidi rəvayət baxımından əhli-sünnənin həzrət Məhdi (əleyhis-salam) barəsindəki e'tiqadlarına ən zəngin bir təhqiqatdır. Biz istərdik ki, onun bə'zi hissələrini, digər alimlərin rə'ylərini gətirməklə, nəql edək. Bunun "Əl-İmamul-Məhdi ində əhlis-sünnə" kitabından gətirilməsi daha məqsədəuyğundur. Bu kitab son zamanlar İsfahanda "Əmirəl-mö'minin" adlı kitabxana tərəfindən çap edilərək yayılmışdır və həzrət Məhdi (əleyhis-salam)-la əlaqədar 50-dən artıq sünnü alimi və mühəqqiqi tərəfindən yazılan təhqiqatları, ayrı-ayrılıqda yazılmış risalələri və hədis kitablarından müəyyən fəsilləri ehtiva edir. Həmin kitabxana və'd etmişdir ki, sair əlyazma mənbələrini ayrıca bir kitabda nəşr edəcək.

## İBNİ QƏYYUM COVZİ

O, "Əl-mənarul-munif fis-səhihi vəz-zəif" kitabında Məhdi (ərvahına fidak)-la əlaqədar rəvayətlərin bir qismini nəql etdikdən sonra deyir: "Bu rəvayətlər dörd qisimdir: səhih, həsən[1], qərib[2], movzu.[3] Camaat Məhdi barəsində bir-biri ilə fərqli olan dörd nəzərə malikdir:

1-İsa ibni Məryəm həqiqətdə elə həmin Məhdidir. Bu nəzər Məhəmməd ibni Xalid Cündinin nəql etdiyi "La Məhdiyə illa İsa" hədisindən əxz edilmişdir ki, yuxarıda bunun dəlilləri bəyan edildi. Biz onun necəliyini bəyan etmiş və demişik ki, o düzgün deyildir. Əgər düzgün olsa da, həmin müddəaya dəlil olmayacaq, çünki İsa peyğəmbərlər arasında Qiyamətə qədər ən böyük Məhdidir.

2-İkinci nəzər budur ki, Məhdi, Abbasi xəlifəsi olan Məhdidir ki, xilafətə çatıb hakimiyyəti süquta uğramışdır. Bu nəzərin ardıcılları da Əhmədin "Müsnəd" kitabında qeyd etdiyi bu rəvayətə istinad edirlər: "Xorasandan gələn qara bayraqlıları müşahidə etdiyiniz zaman, hətta qarın üzərində sürünməklə olsa belə, onlara doğru tələsin, çünki Məhdi onların arasındadır və Allahın xəlifəsidir.

...İbni Macənin "Sünən" kitabında Əbdüllah ibni Məs'uddan belə nəql olunur: "Biz Peyğəmbərin yanında idik ki, Bəni-Haşimdən olan cavanlar ora gəldilər. Peyğəmbər onları görən kimi gözlərindən yaş axmağa başladı və rəngi dəyişildi. Soruşduq: "Biz sizdə elə bir haləti müşahidə edirik ki, narahat oluruq!" Peyğəmbər buyurdu: *"Allah biz Əhli-beyt üçün axirəti dünyadan üstün etmişdir. Əlbəttə, tezliklə bəla, müsibət və sərgərdanlığa düçar olacaqlar, nəhayət məşriqdən qara bayraqlara malik olan bir qövm gələrək haqqı tələb edəcəklər, lakin haqları onlara verilməyəcək. Sonra mübarizəyə qalxaraq qələbə çalacaqlar. Bu zaman onların istəkləri həyata keçəcəkdir, lakin bu dəfə özləri qəbul etməyəcək, nəhayət bayraqlarını mənim xanədanımdan olan bir kişiyə həvalə edəcəklər. O, yer üzünü əvvəllər zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə dolduracaqdır. Belə isə, hər kəs o zamanı görsə, hətta qarın üzərində sürünməklə olsa belə, onların yanına tələsməlidir."*

...Bu və bundan əvvəlki hal, əgər səhih olsa, onda Abbasi xəlifəsi Məhdinin (və'dəsi verilən və) axirəz-zamanda zühur edəcək həmin

---

[1] Şiə və tə'riflənmiş ravi tərəfindən nəql olunan, ədalətinə isə nəzər yetirilməyən və rəvayəti də mə'suma gedib çatan rəvayətə deyilir.

[2] Yalnız bir ravinin nəql etdiyi rəvayətə deyilir, ona "şazz" da deyilir.

[3] Saxta rəvayətə deyilir. Səhih rəvayətin mə'nası isə əvvəldə qeyd olundu.

Məhdi olmasına dair bir dəlil deyildir, əksinə o, digər məhdilər kimi adi bir Məhdi olmuşdur. Ömər ibni Əbdül-Əziz də Məhdi idi, hətta demək olar ki, o, bu ada Məhdi Abbasidən daha layiqli idi.

...Amma Məhdi (əleyhis-salam) həmişə xeyir və hidayət üzərində olmuşdur. Bunun müqabilində isə Dəccal həmişə şər və azğınlıq cəhətində olacaqdır. Xariqul-adə işlərə malik olan böyük Dəccaldan qabaq yalançı dəccallar, eləcə də və'dəsi verilən Məhdidən qabaq da çoxlu saleh və hidayətçi məhdilər zahir olacaqdır.

3-Üçüncü nəzər budur ki, o, Peyğəmbər xanədanından, Həsən ibni Əlinin övladlarındandır və axirəz-zamanda, yer üzü zülm və haqsızlıqla dolduğu zaman zühur edəcək, dünyanı haqq-ədalətlə dolduracaqdır. Rəvayətlərdən çoxu bu məsələyə dəlalət edir. Onun Həsənin övladlarından olmasına gəldikdə isə, bu da lətif bir sirdir, çünki Həsən Allah xatirinə xilafətdən əl çəkdi, Allah da onun övladlarından birini haqq olaraq xəlifə tə'yin etdi ki, yer üzünü haqq-ədalətlə doldursun. Bu, Allahın keçmişlərin arasında da olan sünnəsidir: hər kəs bir şeyi Allah xatirinə tərk edərsə, Allah ona, yaxud onun övladlarına ondan yaxşısını əta edər..."[1]

**İBNİ HƏCƏR HEYSƏMİ**

O, "Əs-səvaiqul-muhriqə" kitabında yazır: "Müqatil ibni Süleyman və onun ardıcılı olan təfsirçilər demişlər ki, *"və innəhu lə elmun lissaəh..."* – ayəsi Məhdi barəsində nazil olmuşdur... Onun Peyğəmbər xanədanından olduğunu aşkar şəkildə göstərən rəvayətlər tezliklə qeyd olunacaqdır. Bu surətdə şərif ayə Fatimə və Əli övladlarının bərəkətinə dəlalət edir. Allah-taala onlardan pak və layiqli övladlar dünyaya gətirəcək, onların nəslini hikmət açarları və rəhmət mə'dənləri qərar verəcək. Səbəbi də budur ki, Peyğəmbər öz zürriyyəsini qovulmuş Şeytanın şərrindən Allahın pənahına vermiş, Əli üçün də belə dua etmişdir ki, bunların hamısının şərhi onunla əlaqədar rəvayətlərin düzümündən aydın olur."[2]

Mənim nəzərimcə, şərif ayə Məhdi ilə İsanın hər ikisinə təfsir oluna bilər. Çünki İsa (əleyhis-salam) həzrət Məhdi (əleyhis-salam)-ın dövründə nazil olacaq, onunla həmkarlıq edəcək və Qiyamətin haqq olma əlamətləri də o ikisinin vasitəsilə olacaqdır.

---

[1] "Əl-imamül-Məhdi İndə əhlis-sünnə", 1-ci cild, səh.289.

[2] Yenə orada, 1-ci cild, səh.420.

İbni Həcər "La Məhdiyə illa İsəbni Məryəm" rəvayətin haşiyəsində həzrət Məhdi (ərvahuna fidah)-la əlaqədar rəvayətlər məcmuəsini qeyd edərək demişdir: "Deməli, bu təfsir – yə'ni İsadan başqa heç bir Məhdi yoxdur – şübhəsiz, onun (Məhdinin) sübuta yetməsini qəbul etdiyimiz təqdirdədir. Əks halda, Hakim demişdir: "Mən onu dəlil-sübut ünvanı ilə deyil, təəccüb ünvanı ilə gətirmişəm." Beyhəqi demişdir: "Yalnız Məhəmməd ibni Xalid onu nəql etmişdir." Hakim demişdir ki, o, məchuldur və onun sənədində ixtilaf mövcuddur. Nəsai onu aşkar şəkildə məchul və namə'lum hesab etmişdir. Digər rəvayət hafizləri də qəti şəkildə bildirmişlər ki, ondan əvvəlki rəvayətlər, yə'ni Məhdinin Fatimə övladlarından olmasını aşkar şəkildə göstərən rəvayətlər sənəd baxımından daha səhihdir."[1]

Sonra isə Məhdi (əleyhis-salam)-la əlaqədar digər rəvayətlər məcmuəsini nəql edir.

**ƏBU FİDA İBNİ KƏSİR**

O, "Nihayə" kitabında yazır: "Bu, axirəz-zamanda zühur edəcək Məhdinin zikri ilə əlaqədar fəsildir. O, Peyğəmbərin həqiqi canişinlərindən və hidayət rəhbərlərindən biridir ki, Nəbəvi hədisləri onun barəsində danışmış və onun axirəz-zamanda olacağını göstərmişdir." O, *"Xorasandan qara bayraqlılar xüruc edəcək və onların qayıtmasına heç bir şey mane olmayacaq, nəhayət bayraqlarını İylada sancacaqlar"* rəvayəti barəsində deyir: "Bu bayraqlılar Əbu Müslüm Xorasaninin hərəkətə gətirdiyi və 132-ci ildə Bəni-Üməyyə hakimiyyətini devirənlər deyildir, əksinə digər bayraqlardır ki, Məhdinin köməkçiləri onu hərəkətə gətirəcəklər. O, Məhəmməd ibni Əbdüllah Ələvi Fatimi Həsənidir ki, Allah-taala bir gecədə ona ləyaqət bağışlayacaq, yə'ni onun tövbəsini qəbul və ona ilham edəcək, sonra onu düz yola istiqamətləndirəcək. Halbuki əvvəllər belə olmamışdır. Şərq əhlindən bir qrupu ona kömək edəcək, onun hökumətini bərqərar edəcək, dövlətinin sütunlarını möhkəmlədəcəkdir. Onların bayraqları qaradır və onda vüqar əlaməti olan müəyyən nişanələr vardır. Çünki Peyğəmbərin bayrağı qara idi və "Üqab" adlandırılırdı."

"...Hər bir halda, rəvayətlərdən bə'zisinə əsasən axirəz-zamanda zühur etməsinə və'də verilən Məhdi, şərqdən zühur edəcək, Allah

[1] Yenə orada, 1-ci cild, səh.433.

Evinin kənarında ondan bey'ət alınacaqdır. Mən Məhdi barəsində ayrıca bir fəsil gətirmişəm."[1]

**CƏLALƏDDİN SÜYUTİ**

O, özünün "Əlhavi lil-fətavi" adlı kitabında yazır: "İbni Cərir öz təfsirində Sədidən *"və mən əzləmu mimmən mənəə məsacidəllah"* – ayəsinin təfsirində belə nəql edir: Onlar Beytül-müqəddəsin xarab edilməsində Buxtun-Nəsri himayə edən rumlulardır. *"Ulaikə ma kanə ləhum ən yədxuluha illa xaifin"* – ayəsinin barəsində isə demişdir: *"O gündə yer üzərində ora daxil olacaq elə bir rumlu yoxdur ki, boynunun vurulmasından qorxmasın, yaxud cizyə verməkdən vəhşət hissi keçirməsin. "Ləhum fid-dünya xizyun" – ayəsinin barəsində demişdir: Bu dünyadakı zillət və xarlığa gəldikdə isə, Məhdi qiyam edib Fələstini azad etdiyi zaman onları qılıncdan keçirəcək, bu da xarlıq və zillətdir."*[2]

O, "la Məhdiyə illa İsəbni Məryəm" rəvayətinin haşiyəsində deyir: Qurtubi "Təzkirə" kitabında demişdir: "Bu rəvayətin sənədi zəifdir, halbuki Məhdinin xürucu, onun Peyğəmbər xanədanından və Fatimə övladlarından olması barəsində Nəbəvi hədislərinin tam aşkar bəyanı sübuta yetmişdir və bu hədisdən daha səhihdir. Deməli, onun əsasında hökm etmək batildir."

Əbul-Həsən Məhəmməd ibni Hüseyn ibni İbrahim ibni Asim Səhəri deyir: "Məhdinin gəlişi barəsindəki rəvayətlər mütəvatirdir, onun Peyğəmbərdən nəql olunması istifazə həddinə çatır. Bu da göstərir ki, Məhdi Əhli-beytdəndir. O, yeddi il hökmranlıq edəcək, yer üzünü haqq-ədalətlə dolduracaq. İsa onunla eyni zamanda qiyam edəcək, Dəccalın Fələstindəki "Lüd" darvazasında qətlə yetirilməsində ona kömək edəcək. O, bu ümmətə İmamət edəcək, İsa da onun arxasında bütün hakimiyyətlik dövründə namaz qılacaqdır."[3]

**İBNİ ƏBİL-HƏDİD MÖ'TƏZİLİ**

O, "Nəhcül-bəlağə"yə yazdığı şərhində İmam Əli (əleyhis-salam)-ın *"və bina yəxtətimu la bikum"* kəlamının təfsirində yazır: "Bu söz axirəz-zamanda zühur edəcək Məhdiyə işarədir. Mühəddislərin əksəriyyəti inanırlar ki, o, Fatimənin övladlarındandır. Mö'təzilə ardıcılları bu nəzəriyyəni inkar etmirlər, əksinə onu öz kitablarında aşkar şəkildə

---

[1] Yenə orada, 1-ci cild, səh.296, 301, 302.
[2] "Əl-İmamul-Məhdi ində əhlis-sünnə", 1-ci cild, səh.354.
[3] Yenə orada, 1-ci cild, səh.369.

bəyan və onların böyük şəxsiyyətləri və ustadları da bu məsələni e'tiraf etmişlər. Yeganə fərq bundadır ki, bizim e'tiqadımıza əsasən o, hələ yaradılmayıb və sonradan xəlq ediləcəkdir. Hədis rəhbərləri də bu əqidəyə meyl etmişlər."[1]

O, İmam Əli (əleyhis-salam)-ın buyurduğu *"lətə'tiffənnəd-dünya ələyna bə'də şəmasiha ətfəz-zərusi əla vələdiha..."* sözünün şərhində və onun ardınca buyurduğu *"və nuridu ən nəmunnə ələlləzinə..."* ayəsinin təfsirində demişdir: "İmamiyyə firqəsi inanır ki, bu və'də axirəz-zamanda zühur edib yer üzünə hakim olacaq Qaim İmamla əlaqədardır. Bizim din ardıcılları (mö'təziləçilər) deyirlər: "Şübhəsiz, bu və'də elə bir İmamla əlaqədardır ki, yer üzündə hakimiyyətdə olaraq bütün ölkələrə istila tapacaq, lakin onun hal-hazırda hökmən mövcud olması vacib deyildir..." Zeydilər deyirlər: "Şübhəsiz, yer üzünə hakim olacaq şəxs Fatimə övladlarından olacaqdır. Zeydiyyə məzhəbində olan Fatimilər də, hal-hazırda onlardan bir kəs qalmasa belə, ona tabe olurlar."[2]

O, Həzrət Əli (əleyhis-salam)-ın buyurduğu *"atam ən yaxşı kənizlərin övladına fəda olsun!"* sözünün izahında yazır: "İmamiyyə şiələri inanırlar ki, onların 12-ci İmamı Nərcis adlı bir kənizin övladıdır. Lakin mö'təziləçilər deyirlər ki, o, Fatimə övladlarındandır və gələcəkdə bir kənizdən dünyaya gələcəkdir, amma hal-hazırda doğulmamışdır... O, yer üzünü haqsızlıq və zülm ilə dolduğu kimi, haqq-ədalətlə dolduracaq, zalımlardan intiqam alacaq və onları ən şiddətli şəkildə cəzalandıracaqdır."[3]

Amma əgər, misal üçün, bizim əsrimizdə dünyaya gəlsə, onda belə sual yaranır ki, indi ki, kəniz yoxdur, onda "ən yaxşı kənizlərin övladı"nın nə mə'nası vardır? İbni Əbil-Hədid belə deyir: İmamın buyurduğu *"camaatdan gizlində yaşayır"* cümləsi qeyd olunan şəxsə işarədir və bu sözün şiə məzhəbində onlara heç bir faydası yoxdur, hətta İmamın onların nəzərini bəyan etməsi təsəvvür olunsa da. Çünki caizdir ki, Allah-taala bu İmamı axirəz-zamanda yaratsın, o da bir müddət camaatın arasında gizli şəkildə qalsın; onun elə mübəlliğləri ola bilər ki, onun əmr və də'vətini yerinə yetirsinlər, özü də gizləndikdən sonra zühur etsin, bütün ölkələrə hakim olsun, dövlətləri istilası altına keçirsin və yer üzünün hakimi olsun."[4]

---

[1] Yenə orada, 1-ci cild, səh.164.
[2] Yenə orada, 1-ci cild, səh.174.
[3] Yenə orada, 1-ci cild, səh.152.
[4] Yenə orada, 1-ci cild, səh.164.

### "FEYZÜL-QƏDİR" KİTABININ MÜƏLLİFİ ƏLLAMƏ MƏNAVİ

O, *"Məhdi mənim övladlarımdan olan bir kişidir, onun üzü ulduz kimi parlayır"* hədisinin şərhində yazır: "Qeyd etmişlər ki, o, bu ümmət arasında elə bir xəlifədir ki, Əbu Bəkr ondan üstün deyildir və... Məhdi ilə əlaqədar rəvayətlər olduqca çox və məşhurdur, bə'ziləri onları bir yerə toplamışlar."

### SƏMHUDİ DEYİR:

"Onun barəsində sübuta yetən xəbərlərdən mə'lum olur ki, o, Fatimənin övladlarındandır. Əbu Davudun "Sünən"ində deyilir ki, o, Həsənin övladlarındandır və səbəbi də budur ki, Həsən xilafəti Allahın razılığı və camaata tərəhhüm üzündən boşladığı üçün Qaim onun övladlarından olacaq, yer üzü haqsızlıq və zülm ilə dolduğu bir zaman xilafətə çatacaq. Bu da Allahın bəndələr arasında mövcud olan qanunudur ki, hər kəs Onun xatirinə bir şeydən əl çəksə, ondan daha yaxşısını ona, yaxud onun övladlarına əta edər."

O sonra deyir: "Məhdi ilə əlaqədar rəvayətlərin "la Məhdiyə illa İsəbnə Məryəm" – hədisi ilə heç bir ziddiyyəti yoxdur. Çünki ondan məqsəd, Qurtubinin dediyi kimi, kamil və günahlardan uzaq olan İsadan başqa bir Məhdinin olmamasıdır. Ru'yani öz "Müsnəd"ində Hüzeyfədən nəql edir ki, İbni Covzi və İbni Əhməd Razi demişlər: "Bu rəvayət batildir." Həmin kitabda qeyd olunur ki, Məhəmməd iibni İbrahim Suri belə demişdir: "Mizan" kitabında İbni Cəllabdan rəvayət olunur ki, o, Məhdi barəsində batil və məchul rəvayəti Rəvaddan nəql etmişdir. Sonra bu rəvayəti davam etdirərək "bu rəvayət batildir" – demişdir.[1]

### ƏLLAMƏ XEYRUDDİN ALUSİ

O, "Ğaliyətul-məvaiz" kitabında yazır: "Əksər alimlərin nəzərinə və ən düzgün sözlərə əsasən Məhdinin zühuru Qiyamətin əlamətlərindən biridir. Onun gəlişini inkar edən bə'zi fəzilət əhlinin nəzəri... bunlar da e'tibarsız və dəyərsiz sayılır."

O, Məhdi (əleyhis-salam)-la əlaqədar rəvayətlərin bir qismini araşdırıb təhqiq etdikdən sonra deyir: "Məhdi barəsində bəyan etdiyimiz mətləblər əhli-sünnə və camaatın nəzərində səhih olanıdır."[2]

---

[1] Yenə orada, səh.54.

[2] Yenə orada, 2-ci cild, səh.158 və 160.

## ŞEYX MƏHƏMMƏD XIZR HÜSEYN (ƏL-ƏZHƏR UNİVERSİTETİNİN USTADI)

O, "İslam mədəniyyəti" jurnalında "Məhdi ilə əlaqədar rəvayətlərə bir baxış" ünvanlı bir məqalədə yazır: "Vahid xəbərə istinad etməyin düzgünlüyünə gəldikdə isə, o mətləblər əməliyyə hökmlərinə mülhəq olur, şəriət sahibi onlara xəbər verib ki, camaat onun barəsində agahlıq tapsınlar. Amma imanlarının səhihliyi ona agahlıqla şərtlənmir. Məhdi ilə əlaqədar rəvayətlər də bu qəbildəndir. Axirəz-Zamanda belə bir işin baş verəcəyi Peyğəmbərdən nəql olunduğu halda, onun vasitəsilə elm və agahlıq əldə olunur və hədisin ravilərinin çoxluğu və özünün təvatür həddinə çatması lazım deyildir. Bu halda həmin hədisə əməl etmək lazımdır. "Səhihi Buxari"də Məhdi barəsində hədis gəlməmişdir, amma "Səhihi Müslüm"də çoxlu rəvayətlər vardır ki, o həzrətin adı aşkar şəkildə qeyd edilməsə də, bə'zilərində deyilir ki, məqsəd Məhdidir. Lakin həmin rəvayətlərdə onun bə'zi xüsusiyyətlərinə işarə olunmuşdur. Sair hədis kitablarının müəllifləri: İmam Əhməd ibni Hənbəl, Əbu Davud, Termizi, İbni Macə, Təbərani, Əbu Nəim, İbni Əbi Şeybə, Əbu Yə'la, Dar Qutni, Beyhəqi, Nəim ibni Həmmad və başqaları bu rəvayətləri nəql etmişlər, hətta o rəvayətlər ayrıca risalələr şəklində bir yerə toplanmışdır. O cümlədən, Molla Əli Qarinin "Əl-urful-vərdi fi həqiqətil-Məhdi" və Şovkaninin "Əttovzihu fi təvaturi ma caə fil-Müntəzər vəd-Dəccal vəl-Məsih" kitabını qeyd etmək olar. Məhdi ilə əlaqədar rəvayətlərdə münaqişə yaradan ilk şəxs İbni Xəldundur. O da sonradan e'tiraf etmişdir ki, o rəvayətlərdən bə'ziləri tənqid oluna bilmir... Buna görə də deyirik ki, bu rəvayətlərdən birinin düzgünlüyü sübuta yetərsə və onda heç bir eyb və irad olmazsa, onun axirəz-zamanda bir şəxsin zühur edərək camaatı şəriətə də'vət etməsi və ədalət əsasında mühakimə yürütməsi ilə tanışlıq kifayətdir.

...Məhdi barəsindəki rəvayətləri nəql edən səhabələr 27 nəfərdir. Həqiqətdə əgər bu barədə olan rəvayətlər saxta və zəiflərdən təmizlənsə, heç bir mühəqqiq və nəzər sahibi onlardan keçə bilməz."

Şovkani, əvvəldə də qeyd edildiyi kimi, öz risaləsində aşkar şəkildə deyir: "Bu rəvayətlər təvatür həddinə çatmışdır.... Məhdi barəsində nəql olunan əlli hədis səhih, həsən və zəif olmaqla cübran oluna bilər ki, onlar da, şübhəsiz, mütəvatirdir. Hətta üsul elmində olan istilahların hamısına əsasən, təvatür sifəti bunlardan aşağı həddə olanlara da aid edilir."

"Məhdi barəsində nəql olunan rəvayətlərin hamısını inkar edənlərin bə'ziləri "bu rəvayətləri şiələr düzəltmişdir" - deyirlər, lakin o rəvayətlər öz sənədləri ilə nəql olunduğuna görə bu nəzər rədd olunur. Biz "rical" elmində şəxsiyyətlərin vəziyyətini araşdırarkən onların sənədində ətraflı təhqiqat apardıq və onların ədalətdə məşhur şəxslər olduğunu gördük. Hətta "cərh və tə'dil" müəlliflərindən heç biri, "rical" elmində münaqişə etdiklərinə baxmayaraq o raviləri şiəçilikdə müttəhim etməmişlər."

"...Dövlət başçılarının əksəriyyəti öz hədəflərinə çatmaq və camaatı öz ətraflarına toplamaq üçün bu məsələni bir vasitə kimi seçmiş və məhdilik iddiası etmişlər. Misal üçün, "Fatimilər dövləti" məhz bu də'vət əsasında qurulmuşdu. Onun banisi Übeydullah özünü Məhdi kimi qələmə vermişdi. "Müvəhhidlər dövləti" də bu iddia əsasında qurulmuşdu. Onun banisi Məhəmməd ibni Tumut öz hökumətini bu də'vət əsasında möhkəmlətdi. Fars əyalətində Məriniyyənin hakimiyyəti zamanı zahir olan Turdu adlı bir nəfər Sənhacə başçılarını bir yerə topladı və Müsamitəni həlak etdi. 690-cı ildə Məğribin kəndlərindən birində Abbas adlı bir şəxs qiyam edərək özünü Məhdi adlandırdı və bir dəstə adam ona tabe oldu, lakin axırda qətlə yetirildi və hərəkatı natamam qaldı. Misirdə ərəblərin qiyamından sonra Sudanda Məhəmməd Əhməd adlı bir şəxs məhdilik iddiası etdi, Cühəniyyə qəbiləsinə bağlı olan Bəqqarə qəbiləsi onun Məhdi olmasını təsəvvür edərək 1300-cü h.q ilində ona tabe oldular və Bəqqarə qəbiləsinin başçılarından biri olan Təayişi onun ölümündən sonra onun canişini oldu.

"...Camaatın Nəbəvi rəvayəti pis başa düşdükləri, yaxud onu düzgün şəkildə uyğunlaşdırmadıqları üçün müəyyən fəsadlar yaranmışdır. Deməli, bu, rəvayətin səhihliyində şəkk-tərəddüdün yaranmasına, yaxud onun inkar olunmasına səbəb olmamalıdır. Çünki nübüvvət də şəkk-şübhə olmayan bir həqiqət idi, amma bə'ziləri yalandan peyğəmbərlik iddiası edərək camaatı azınlığa çəkirdilər. "Qadiyaniyyə" firqəsi də hal-hazırda belə iddialara malikdir. Onlar öz başçılarını İlahiləşdirmiş və demişlər ki, Allah-taala onlarda hülul etmişdir. Bu əsrdəki "Bəhaiyyə" firqəsini də qeyd etmək olar. Deməli, batil mətləbin yol tapdığına sadəcə ehtimal verməklə haqqı inkar etmək olmaz."[1]

---

[1] Yenə orada, 2-ci cild, səh.210-214.

O, "İslam mədəniyyəti" jurnalında Məhdi ilə əlaqədar bir məqalədə deyir: "Məhdi məsələsinə gəldikdə isə, bilməliyik ki, onun zühuru barəsində çoxlu rəvayətlər mövcuddur ki, onların ümdə hissəsinin sənədləri səhihdir. Mən burada onlardan bir neçə nümunəni qeyd, sonra isə tənqidçilərin və şübhə yaradanların sözlərini rədd edəcəyəm." Bundan sonra onların bə'zilərini qeyd etmiş, onların mütəvatir olması barəsindəki alimlərin nəzərlərini demiş və sonra əlavə etmişdir: "Həqiqətən, Rəşid Rza və başqaları kimi adamlar Məhdi ilə əlaqədar rəvayətlərin hamısında ayrı-ayrılıqda təhqiqat aparmamış, hər rəvayətin sənədində təhqiq etməmişlər. Çünki onların bə'zilərində höccət vardır... Rəşid Rza iddia edərək Məhdi ilə əlaqədar rəvayətlərin sənədlərində şiə raviləri olmasını deyir, halbuki ümumiyyətlə belə deyildir, çünki onun özünün gətirdiyi dörd rəvayətin də sənədində şiəlikdə məşhur olan bir şəxs gözə dəymir. Halbuki əgər bu iddia səhih olsaydı belə, yenə də rəvayətlərin düzgünlüyünə xələl yetirməzdi. Çünki rəvayətin düzgün və e'tibarlı olmasında əsas me'yar, rəvayətşünaslıq elmində bəyan olunduğu kimi, ravinin diqqətli və sədaqətli olmasıdır və onlarda məzhəb ixtilafı şərt deyildir. Buna görə də (mülahizə etdiyiniz kimi) Müslüm və Buxari öz kitablarında həm şiələrdən, həm də müxaliflərin çoxundan rəvayət nəql və hətta belə rəvayətlər əsasında istidlal da etmişlər.

Rəşid Rza həm də rəvayətlər arasında ziddiyyət olduğunu iddia etmişdir ki, o da rədd olunur. Çünki ziddiyyətin şərti qüvvət və sübutun bərabər səviyyədə olmasıdır. Buna əsasən, heç bir ağıllı və insaflı şəxs zəif rəvayətlərlə güclü rəvayətlər arasında ziddiyyəti caiz bilməz. Onun iddia etdiyi ziddiyyət də həmin qəbildəndir. Bir sözlə, Məhdinin zühuruna dair əqidənin Peyğəmbərdən nəql olunması mütəvatir şəkildə sübuta yetmişdir. Bu da qeybi işlərdən olduğuna görə ona iman gətirmək vacibdir və ona e'tiqad bəsləmək müttəqilərin sifətlərindəndir. Belə ki, Qur'anda buyurulur: *"Əlif, lam, mim! Zalikəl-kitabu la rəybə fihi hudən lil-muttəqin."* Onu da cahil və inadkar adamlardan başqası inkar etməz. Allahdan istəyirəm ki, bizi ona imanla, Allahın kitabı və Peyğəmbərin sünnəsində gələnlərə e'tiqad əsasında da dünyadan aparsın."[1]

[1] Yenə orada, 2-ci cild, səh.228-291.

## KƏTTANİ MALİKİ

O, özünün "Nəzmül-mütənasir minəl-hədisil-mütəvatir" adlı kitabında Məhdi (ələyhis-salam) ilə əlaqədar rəvayətləri nəql edən səhabələrdən 20 nəfərin adını sadaladıqdan sonra deyir: "Bə'ziləri o rəvayətlərin mütəvatir olmasını Hafiz Səxavidən nəql etmişlər. Səxavi bu mətləbi "Fəthul-muğis" kitabında Əbul-Həsən A iridən nəql etmişdir ki, onun rəvayəti kitabın əvvəlində qe d olundu. Ə ul-Əla İdris Hüseyn Əraqinin kitabında da Məhdi barəsində belə de ilir: "Şübhəsiz, onun rəvayətləri mütəvatirdir, yaxud təvatürə axın bir vəziyyətdədir." Sonra deyir ki, hədis hafizlərindən və tən id ilərdən bə'ziləri onun birinci hissəsinin mütəvatir olması barəsində qəti nəzər vermişlər."

Şeyx Cuşun "Şərhu risalə' kitabında de : "Məhdi ilə əlaqədar rəvayət Səxavinin rəvayətlərində də qeyd olunmuş və təvatür həddinə çatmışdır." Əbul-Həsən Abirinin "Şərhu-mə ahib" kitabında – "Mənaqibu Şafei" kitabından nəqlən – deyilir: "Mütəvatir rəvayətlərə əsasən, Məhdi bu ümmətdən olacaq və İsa onun arxasında namaz qılacaqdır." Bu mətləbi İbni Macənin "la Məhdiyə illa İsa" rəvayətinə cavab olaraq gətirmişdir.

Şeyx Həsən Abiri "Məğanil-vəfa bi məanil-iktifa" kitabında yazır: "Məhdinin gəlişi, 7 il hakimiyyətdə olması və yer üzünü haqq-ədalətlə doldurması barəsində Peyğəmbərdən nəql olunan hədislər ravilərin çoxluğu baxımından müstəfiz, hətta təvatür həddindədir. Şeyx Məhəmməd ibni Əhməd Səfarini, Hənbəlinin əqidəsinin şərhində belə deyir: "Məhdinin zühuru barəsində gələn çoxlu rəvayət mə'nəvi təvatür həddindədir. Bu mətləb sünnü alimləri arasında geniş yayılmış və onların əqidələrindən biri hesab olunur." O, bu barədə varid olan rəvayətlərdən bir qismini səhabələrin bir qrupundan nəql etmiş və demişdir: "(Bu barədə) səhabələrdən və tabeindən çoxlu rəvayətlər – istər adları qeyd olunsun, istərsə də qeyd olunmasın – nəql olunmuşdur ki, üst-üstə yəqinə səbəb olur. Buna əsasən, əgər elm və fəzilət əhlinin yanında sübuta yetsə və əhli-sünnə ilə camaatın e'tiqadlarından hesab olunsa, onun zühuruna e'tiqad və iman vacib olar."[1]

## ƏDVİ MİSRİ

O, "Məşariqul-ənvar" adlı kitabında yazır: "Rəvayətlərdə qeyd olunur ki, o zühur etdiyi zaman başının üzərində bir mələk dayanıb

[1] Yenə orada, səh.3-cü cild, 194-195.

belə nida edər: “Bu Məhdi, Allahın xəlifəsidir, ona itaət edin!” Camaat ona üz gətirər, ona eşq-məhəbbət qəlblərdə özünə yer açar. O, yer üzünün şərqinə-qərbinə hökmranlıq edər. Rüknlə Məqam arasında onunla bey’ət edənlər Bədr cəngavərlərinin sayı qədərdir. Sonra Şamdan həqiqi mö’minlər, Misirdən layiqli şəxslər, şərqdən müxtəlif qruplar və onların oxşarları onun yanına gələr. Allah ona kömək etmək üçün Xorasandan qara bayraqlıları qiyam etdirər, sonra Şama və başqa rəvayətdə Kufəyə üz gətirərlər ki, hər iki rəvayətin düzgünlüyünə hökm etmək mümkündür. Allah 3 min mələklə ona kömək edər, “Əshabi-Kəhf” onun köməkçilərindən olar. Süyuti deyir: Onların (Əshabi-Kəhfin) bu vaxta qədər tə’xirə düşmələrinin səbəbi budur ki, Allah-taala bu izzət və şərafəti onlara əta etmişdir ki, bu ümmətə daxil olub Allahın yer üzündəki xəlifəsinə kömək etsinlər. Cəbrail onun ordusunun qarşısında, Mikail isə arxasında olacaqdır.”[1]

## SƏ’DUDDİN TƏFTAZANİ

O, “Şərhul-məqasid” kitabında deyir: “Yekun bəhs Məhdinin qiyamı və İsanın nazil olması ilə əlaqədardır və hər ikisi Qiyamətin əlamətlərindəndir. Bu barədə hətta xəbəri-vahid də olsa da, çoxlu səhih rəvayətlər nəql olunmuşdur... Əbu Səid Xudri nəql edir ki, Peyğəmbəri-Əkrəm buyurdu: *“Bu ümmətə elə bir bəla və müsibət baş verər ki, heç kəsin zülm və haqsızlıqdan sığınacaq yeri olmaz. Sonra Allah-taala mənim xanədanımdan olan bir kişini seçər ki, yer üzünü, zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə doldursun.”* Sünnü alimləri inanırlar ki, o, Fatimə övladlarından olan adil bir rəhbərdir ki, Allah-taala hər vaxt istəsə, onu yaradacaq, dininə kömək etmək üçün onu seçəcək. Amma şiələr inanırlar ki, “o, Mühəmməd ibni Həsən Əsgəridir ki, düşmənlərin qorxusundan məxfi şəkildə yaşayır; onun ömrünün həzrət Nuh, Loğman və Xızrın ömrü kimi uzun olması da qeyri-mümkün deyildir.” Sair firqələr isə bu mətləbi inkar edirlər, çünki onu nəzərə çox uzaq gələn bir məsələ kimi cilvələndirir və deyirlər ki, belə bir uzun ömrə malik olmaq bu ümmətdə dəlilsiz və qərinəsizdir və misli görünməmişdir.”[2]

---

[1] Yenə orada, səh.2-ci cild, səh.62.
[2] Yenə orada, 1-ci cild, səh.214.

## QİRMANİ DƏMƏŞQİ

O, özünün "Əxbarud-duvəl və asarul-uvəl" adlı kitabında yazır: "Alimlər Məhdinin axirəz-zamanda qiyam edəcək həmin şəxs olmasını və onun zühur xəbərlərini təsdiqləmiş və onun nurunun yer üzünə saçmasında eyni fikir söyləmişlər. Onun zühuru ilə ruzigarın zülmətləri nura çevriləcək, onun üzünü görməklə gecənin qaranlıqları öz yerini həqiqi sübhə verəcəkdir. Onun ədaləti dünyanın hər yerinə sayə salacaq, o, bədrlənmiş aydan da çox nur saçacaqdır."[1]

## MÜHYİDDİN ƏRƏBİ

O, özünün "Əl-fütuhatul-Məkkiyyə" kitabında belə yazır: "Agah ol, yer üzü zülm və haqsızlıqla dolan zaman Allah-taalanın bir xəlifəsi zühur etdikdə Allah bizə kömək etsin! O, yer üzünü haqq-ədalətlə doldurar. Əgər dünyanın axırına yalnız bir gün qalmış olsa belə, Allah həmin günü o qədər uzadacaqdır ki, Peyğəmbər xanədanından, Fatimə övladlarından və Peyğəmərlə eyni adda olan xəlifə (dünyaya) hökmranlıq etsin." "...O, Mərəc-əkkada, "Allahın qonaqlığı" olan böyük bir müharibədə zülmü və zalımları məhv edəcək, dini bərərar edəcək, İslamın köksünə yeni canlanma verəcək, İslam xarlıq dövründən sonra onun vasitəsilə əziz olacaq, guşəneşinlikdən sonra yenidən canlanacaq. O, maliyyət və cizyə qoyacaq, (düşmənləri) Allaha doğru də'vət edəcəkdir. Hər kəs qəbul etməsə, qətlə yetiriəcək, hər kəs onunla mübarizəyə qalxsa, xar və zəlil olacaqdır. Din məsələlərində eynilə Allahın Peyğəmbəri kimi əməl edəcək, batil məzhəblərin kökünü kəsəcək, həqiqi və pak İslamdan başqa heç bir din qalmayacaqdır.

Onun düşmənləri ictihada (şəxsi rə'yə) malik olan fəqihlərin müqəllidləridir və onlar hökmlərin öz rəhbərlərinin hökmlərinin əksinə olduğunu gördükdə, çarəsiz olaraq qılınc qorxusundan və onun heybətindən, yaxud ixtiyarında olan məziyyətlərə şövq üzündən onun hakimiyyəti altına keçəcəkdir. Ümum müsəlmanlar onun vücudu ilə xüsusilərdən çox şad olacaq, İlahi mə'rifət sayəsində həqiqətlərin kəşf və şühud məqamına çatacaq və həqiqət əhli olan ariflər onunla bey'ət edəcəklər. Onun yanında olan İlahi şəxsiyyətlər dövlət qurmaqda ona kömək edəcəklər, onun vəzirləri və müavinləri kimi ölkənin ağır məs'uliyyətli işlərini öhdələrinə alaraq İlahi mə'muriyyətində ona kömək göstərəcəklər."

---

[1] Yenə orada, 1-ci cild, səh.463.

“...Onun önündə şəhid olanlar şəhidlərin ən yaxşısı, onun əmanətdarları ən yaxşı əmanətdarlardır. Həqiqətən, Allah-taala pərdə arxasında gizlətdiyi şəxsləri ona kömək etmək üçün seçəcək, onları kəşf-şühud yolu ilə həqiqətlərə agah edəcəkdir. Onlar onun Allah bəndələrinə qarşı İlahi vəzifələrini yerinə yetirəcəklər, o da onlarla məşvərət edərək işləri həll edəcəkdir. Onlar bütün məsələlərə agahdırlar və orada nə olduğunu bilirlər.

Amma onun özünə gəldikdə isə, o, haqq qılıncıdır, ölkə idarə etməkdə düzgün siyasətə malikdir, elm və agahlığı ona Allah tərəfindən, şə’n və məqamına layiq olan qədər əta edilmişdir. Çünki o, həqiqi xəlifədir, heyvanların dilini bilir, cin və insanların arasında ədaləti icra edir... Mütəal Allah onun vəzirlərini ona köməkçi və vəzir ünvanı ilə seçmişdir ki, bu da bu ayədə buyurulanların xarici nümunəsidir: *“İman gətirənlərə kömək etmək Bizim haqqımızdır.”* Onlar böyük şəxsiyyətlər olub səhabələr cərgəsindədirlər və Allahla bağladıqları əhd-peyman üzərində möhkəm dayanarlar. Onlar əcəmlərdəndir və onların arasında ərəb yoxdur, lakin ərəb dilindən başqa dildə danışmazlar. Onların keşikçisi vardır, lakin öz növlərindən deyildir. Allaha qarşı heç vaxt itaətsizlik etməzlər, onlar ən xüsusi vəzirlər və ən fəzilətli əmanətdarlar hesab olunur.[1]

**ŞƏRİF BƏRZƏNGİ**

O, “Əl-işaəh fi əşratis-saəh”kitabında yazır: “Məhdi ilə əlaqədar rəvayətlər, aralarında ixtilafın varlığı ilə belə, məhdud və müxtəsər deyildir. Məhəmməd ibni Həsən Dəsturi “Mənaqibu Şafei” kitabında deyir: “Peyğəmbərdən, Məhdinin onun öz xanədanından olduğunu göstərən rəvayətlər təvatür həddindədir.”

...İbni Sirin deyir ki, Məhdi Əbu Bəkr və Ömərdən daha yaxşıdır. Ondan “(O,) Əbu Bəkrdən və Ömərdən üstündürmü?” - deyə soruşulduqda, belə cavab verdi: “Əlbəttə, o, bə’zi peyğəmbərlərdən belə üstündür.” Onun belə dediyi nəql olunmuşdur: “Əbu Bəkr və Ömər ondan fəzilətli deyildirlər.” Süyuti “Əl-ürfül-vərdi” adlı kitabında deyir: “Bu, səhih sənəddir və birinci kəlmədən daha xəfifdir.” Həmçinin demişdir: “Mənim əqidəmə görə, ən yaxşı yol budur ki, Məhdinin dövründə baş verən ağır fitnələrə görə, bu rəvayətin

[1] Yenə orada, 1-ci cild, səh.106-107.

məzmununa iki ibarə tə'vil edilsin: "Hətta sizlərdən əlli nəfərdən belə (üstündür)."

Mənim əqidəmə görə, haqq mətləb budur ki, üstünlük və fəzilət yönləri bir-birilə fərqlidir, bir kəsin başqa bir kəsə mütləq şəkildə üstünlük verilməsi yalnız o zaman rəva olar ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) ona üstünlük vermiş olsun. Çünki aşağı səviyyəli olan bir şəxsdə elə bir imtiyaz ola bilər ki, o, yuxarı rütbədə olanda mövcud olmasın. "Fütuhatul-Məkkiyyə" kitabında Şeyx Muhyiddin Ərəbidən nəql olunduğu kimi, o həzrət mə'sumdur və Peyğəmbərin sirə və sünnəsinə əməl edir, heç vaxt xətaya yol vermir. Şübhəsiz, bu xislət Əbu Bəkr və Ömərdə olmamışdır. Yuxarıda qeyd olunan 9 xüsusiyyət ondan qabaqkı din rəhbərlərinin heç birində bir yerə yığışmamışdır. Bu cəhətlərə diqqət yetirməklə, onu bu iki şəxsdən – onların Peyğəmbərlə oturub-durmalarına, vəhyi müşahidə etmələrinə və İslamda müəyyən rol oynamalarına baxmayaraq – üstün hesab etmək olar. Şeyx Əli Qari "Əl-məşrəbul-vərdi fi məzhəbil-Məhdi" kitabında yazır: "Məhdinin üstünlüyünün dəlillərindən biri də budur ki, Peyğəmbər onu Allahın xəlifəsi adlandırmışdır, lakin Əbu Bəkrə Peyğəmbərin xəlifəsi ünvanından başqa bir şey deyilməmişdir.[1]

---

[1] Yenə orada, 1-ci cild, səh.480-506.

MÜNDƏRİCAT


MÜQƏDDİMƏ ........................................ 3
BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM ........................................ 3
ZÜHUR DÖVRANININ ÜMUMİ SİMASI ........................................ 8
ŞƏRQLƏ-QƏRBİN MÜSƏLMANLARIN ƏLEYHİNƏ ƏLBİR OLMASI ........................................ 19
RUMLULARIN ZÜHUR DÖVRÜNDƏ İFA ETDİYİ ROL ........................................ 30
AZƏRBAYCANIN ZÜHUR ƏSRİNDƏ ROLU ........................................ 36
YƏHUDİLƏR VƏ ONLARIN ZÜHUR DÖVRÜNDƏ İFA ETDİKLƏRİ ROL ........................................ 38
YƏHUDİLƏRİN MƏHV OLMASI BARƏSİNDƏ VERİLƏN İLAHİ VƏ'DƏ ........................................ 39
ALLAH-TAALANIN, YƏHUDİLƏRƏ HƏMİŞƏLİK HAKİM KƏSİLMƏK BARƏDƏ VERDİYİ VƏ'DƏ ........................................ 43
YƏHUDİLƏRİN TÖRƏTDİYİ MÜHARİBƏ ODUNUN SÖNDÜRÜLMƏSİ BARƏSİNDƏ ALLAHIN VƏ'DƏSİ ........................................ 45
YƏHUDİLƏRİN TARİXİ (QISA ŞƏKİLDƏ) ........................................ 50
HƏZRƏT MUSA VƏ YUŞE (ƏLEYHİMƏS-SALAM)-IN DÖVRANI ........................................ 51
HAKİMLƏRİN İŞ ÜSTÜNƏ GƏLMƏSİ ........................................ 52
PƏRİŞANLIQ VƏ YERLİ HAKİMLƏRİN İSTİLAÇILIQ DÖVRÜ ........................................ 52
DAVUD VƏ SÜLEYMAN (ƏLEYHİMƏS-SALAM)-IN DÖVRÜ 53
DAXİLİ ÇƏKİŞMƏLƏR VƏ PARÇALANMALAR DÖVRÜ ........................................ 54
AŞURİLƏRİN İSTİLAÇILIQ DÖVRÜ ........................................ 56
BABİLLİLƏRİN HAKİMİYYƏT DÖVRÜ ........................................ 57
İRANLILARIN İSTİLAÇILIQ DÖVRÜ ........................................ 58
YUNANLARIN İSTİLAÇILIQ DÖVRÜ ........................................ 58
ROMALILARIN İSTİLAÇILIQ DÖVRÜ ........................................ 59
ƏRƏBLƏR VƏ ONLARIN ZÜHUR ƏSRİNDƏ İFA ETDİKLƏRİ ROL ........................................ 62
ŞAM DİYARI VƏ SÜFYANİNİN HƏRƏKATI ........................................ 65
SÜFYANİNİN QİYAMINDAN QABAQ BAŞ VERƏÇƏK ŞAM HADİSƏLƏRİ ........................................ 66
ÜMUMİ FİTNƏ VƏ ŞAMIN FİTNƏSİ ........................................ 67
DƏMƏŞQ VƏ ONUN ƏTRAFINDA BAŞ VERƏN ZƏLZƏLƏLƏR ........................................ 70

İRAN ORDUSUNUN VƏ MƏĞRİBLİLƏRİN ŞAMA DAXİL OLMASI ........ 72
HAKİMİYYƏT UĞRUNDA ƏSHƏB VƏ ƏBQƏ ARASINDA ÇƏKİŞMƏLƏR ........ 74
SÜFYANİNİN HƏRƏKATI ........ 77
SÜFYANİNİN TƏRCÜMEYİ-HALI ........ 77
SÜFYANİNİN ÇİRKİNLİYİ VƏ İNADKARLIĞI ........ 78
SÜFYANİNİN SİYASİ NƏZƏRLƏRİ VƏ MƏDƏNİYYƏTİ ........ 79
SÜFYANİNİN ÖZ HƏRƏKATINI DINI QƏLƏMƏ VERMƏK ÜÇÜN GÖSTƏRDİYİ SƏ'YLƏR ........ 81
SÜFYANİNİN ƏHLİ-BEYT (ƏLEYHİMUS-SALAM)-A VƏ ŞİƏLƏRƏ QARŞI ƏDAVƏT VƏ KİN-KÜDURƏTİ ........ 81
SÜFYANİNİN QIRMIZI BAYRAĞI ........ 82
SÜFYANİ BİR NƏFƏRDİR, YOXSA BİR NEÇƏ NƏFƏR? ........ 83
SÜFYANİ HƏRƏKATININ BAŞLANMASI VƏ ONUN MƏRHƏLƏLƏRİ ........ 83
YABİS VADİSİNDƏN (QURU DƏRƏDƏN) DƏMƏŞQƏ QƏDƏR ........ 86
QİRQİSİYADA QANLI MÜHARİBƏ ........ 88
SÜFYANİ TƏRƏFİNDƏN İRAQIN İŞĞAL OLUNMASI ........ 92
SÜFYANİ ORDUSUNUN HİCAZA DOĞRU HƏRƏKƏTİ (YERƏ BATAN QOŞUN) ........ 100
SÜFYANİNİN GERİ ÇƏKİLMƏSİ ........ 106
ƏHVAZ DÖYÜŞÜ ........ 107
SÜFYANİ VƏ QÜDSÜN FƏTH OLUNMASI UĞRUNDA APARILAN MÜHARİBƏ ........ 109
YƏMƏN VƏ ZÜHUR DÖVRÜNDƏ ONUN İFA ETDİYİ ROL ........ 112
ZÜHUR DÖVRÜNDƏ MİSİRDƏ BAŞ VERƏN HADİSƏLƏR ........ 117
MƏĞRİBDƏKİ İSLAM ÖLKƏSİ VƏ ZÜHUR DÖVRÜNDƏ ORADA BAŞ VERƏN HADİSƏLƏR ........ 122
İRAQ VƏ ONUN ZÜHUR DÖVRÜNDƏ İFA ETDİYİ ROL ........ 124
BİRİNCİ VƏ İKİNCİ MƏRHƏLƏ ........ 125
HƏSƏNİ, ŞEYSBANİ, OVF SƏLƏMİ ........ 134
ÜÇÜNCÜ MƏRHƏLƏ: SÜFYANİNİN QOŞUN YERİTMƏSİ VƏ BƏSRƏNİN DAĞILMASI ........ 137
DÖRDÜNCÜ MƏRHƏLƏ: İRAQİN HƏZRƏT MƏHDİNİN ƏLİ İLƏ AZAD EDİLMƏSİ ........ 144
ZÜHUR DÖVRÜNDƏ DÜNYA MÜHARİBƏSİ ........ 151

İRANLİLAR VƏ ONLARIN ZÜHUR DÖVRÜNDƏ İFA ETDİKLƏRİ ROL ........ 156
İRANLILARIN TƏ'RİFİNDƏ NAZİL OLAN AYƏ VƏ NƏQL OLUNAN RƏVAYƏTLƏR ........ 158
VƏ AXƏRİNƏ MİNHUM LƏMMA YƏLHƏQU BİHİM AYƏSİNİN TƏFSİRİNDƏ ........ 160
BƏƏSNA ƏLƏYKUM İBADƏN LƏNA ULİ BƏ'SİN ŞƏDİD AYƏSİNİN TƏFSİRİ ........ 161
MEYDANDAN QAÇMAYAN ŞİRLƏR RƏVAYƏTİ ........ 164
QARA VƏ AĞ QOYUNLAR RƏVAYƏTİ ........ 165
İRANLILAR ƏHLİ-BEYT (ƏLEYHİMUS-SALAM) TƏRƏFDARIDIR RƏVAYƏTİ ........ 165
ƏCƏMLƏR PEYĞƏMBƏR (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH)-IN E'TİMAD ETDİYİ ŞƏXSLƏRDİR RƏVAYƏTİ ........ 166
İNSANLAR FARSLARDAN VƏ RUMLULARDAN BAŞQADIRMI? RƏVAYƏTİ ........ 166
İRANLILAR VƏ HƏZRƏT MƏHDİNİN ZÜHURUNA ŞƏRAİT YARADILMASININ BAŞLANMASI ........ 166
HƏZRƏT MƏHDİNİN HÖKUMƏTİ İRANDAN BAŞLANACAQDIR - RƏVAYƏTİ ........ 170
HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİH)-İN ÜMMƏTİ VƏ ƏHLİ-BEYTDƏN OLAN BİR ŞƏXSİN HÖKUMƏTİ - RƏVAYƏTİ ........ 171
QUMLA ƏLAQƏDAR RƏVAYƏTLƏR VƏ BU ŞƏHƏRDƏ VƏ'DƏSİ VERİLƏN ŞƏXSİN QİYAMI ........ 173
ŞƏRQ ƏHLİ VƏ QARA BAYRAQLILAR - RƏVAYƏTİ ........ 182
XORASANDAN GƏLƏN BAYRAQLILAR – QÜDSƏ QƏDƏR RƏVAYƏTİ ........ 190
TALİQAN RƏVAYƏTİ ........ 194
ZƏMİNƏ YARADANLAR LA ƏLAQƏDAR OLAN RƏVAYƏTLƏR ZÜHUR DÖVRÜNÜN BAŞLANĞICINA DƏLALƏT EDİRMİ? ........ 196
İRANDA XORASANİNİN VƏ ŞÜEYBİN ZAHİR OLMASI ........ 201
MÜQƏDDƏS ZÜHUR HƏRƏKATI ........ 208
HİCAZDA HAKİMİYYƏT BÖHRANI ........ 221
İMAMIN İZTİRAB VƏ NİGARANÇILIQLA MƏDİNƏDƏN XARİC OLMASI ........ 227
KÖMƏKÇİLƏRİN TOPLANMASI ........ 232

İMTAHAN HƏRƏKƏTİ – NƏFSİ-ZƏKİYYƏNİN QƏTLƏ YETİRİLMƏSİ .......... 237
EY PEYĞƏMBƏR! DE: HAQQ GƏLDİ VƏ BATİL MƏHV OLDU .......... 240
MƏDİNƏNİN VƏ HİCAZIN AZAD EDİLMƏSİ .......... 249
HƏZRƏT MƏHDİ İRANDA VƏ İRAQDA .......... 253
QÜDSƏ TƏRƏF HƏRƏKƏT .......... 258
HƏZRƏT İSANIN YER ÜZÜNƏ NAZİL OLMASI .......... 264
İMAM MƏHDİ İLƏ QƏRBLİLƏR ARASINDA SÜLH MÜQAVİLƏSİ VƏ ATƏŞKƏS .......... 268
QƏRBLİLƏRİN İSLAMA ÜZ GƏTİRMƏSİ .......... 272
İMAM MƏHDİNİN DÜNYƏVİ HÖKUMƏTİNİN SİMASI .......... 272
YER ÜZÜNÜN ZÜLM VƏ ZÜLMKARLARDAN TƏMİZLƏNMƏSİ .......... 273
İSLAMIN DÜNYA SƏVİYYƏSİNDƏ YENİDƏN DİRÇƏLDİLMƏSİ .......... 276
MADDİ HƏYATDA DƏRİN DƏYİŞİKLİKLƏR VƏ FİRAVANLIQLARIN YARADILMASI .......... 281
YERALTI XƏZİNƏLƏRİN ÇIXARILMASI VƏ CAMAAT ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ .......... 282
İSLAM ÜMMƏTİNİN NE'MƏTLƏRDƏN BƏHRƏLƏNMƏSİ VƏ YER ÜZÜNÜN ABADLAŞMASI .......... 283
TƏBİİ ELMLƏRDƏ VƏ MƏİŞƏT VASİTƏLƏRİNDƏ BAŞ VERƏN DƏYİŞİKLİKLƏR .......... 284
SÜLEYMAN VƏ ZÜL-QƏRNEYNİN SƏLTƏNƏTİNDƏN DƏ BÖYÜK OLAN BİR HÖKUMƏT .......... 286
YUXARI ALƏMLƏRLƏ ƏLAQƏ YARADILMASI .......... 287
AXİRƏT ALƏMİ VƏ BEHİŞTLƏ ƏLAQƏ YARADILMASI .......... 288
HƏZRƏT MƏHDİ ŞİƏ NƏZƏRİNDƏN .......... 291
MƏHDİNİN ALLAH DƏRGAHINDAKI MƏQAMI .......... 295
İMAMLARIN MƏHDİ BARƏSİNDƏKİ SÖZLƏRİ .......... 296
HƏZRƏT MƏHDİNİN DUA VƏ ZİYARƏTLƏRİNDƏN BƏ'Zİ NÜMUNƏLƏR .......... 299
MƏHDİ – SÜNNÜLƏRİN NƏZƏRİNDƏ .......... 307
İBNİ QƏYYUM COVZİ .......... 313
İBNİ HƏCƏR HEYSƏMİ .......... 314
ƏBU FİDA İBNİ KƏSİR .......... 315
CƏLALƏDDİN SÜYUTİ .......... 316

İBNİ ƏBİL-HƏDİD MÖ'TƏZİLİ....................................................316
"FEYZÜL-QƏDİR" KİTABININ MÜƏLLİFİ ƏLLAMƏ MƏNAVİ
....................................................................................318
SƏMHUDİ DEYİR: ............................................................318
ƏLLAMƏ XEYRUDDİN ALUSİ..................................................318
ŞEYX MƏHƏMMƏD XIZR HÜSEYN (ƏL-ƏZHƏR
UNİVERSİTETİNİN USTADI)..................................................319
ŞEYX NASİRƏDDİN ƏLBANİ ..................................................321
KƏTTANİ MALİKİ ..............................................................322
ƏDVİ MİSRİ .....................................................................322
SƏ'DUDDİN TƏFTAZANİ.......................................................323
QİRMANİ DƏMƏŞQİ ...........................................................324
MÜHYİDDİN ƏRƏBİ ............................................................324
ŞƏRİF BƏRZƏNGİ ...............................................................325

# ƏHD DUASI

İmam Sadiq (əleyhis-salam)-dan nəql olunub ki, hər kəs ardıcıl olaraq 40 gün sübh bu duanı oxusca, İmam Zaman (ərvahuna fidah)-ın köməkçilərindən olar, əgər o Həzrətin zühurundan qabaq vəfat edərsə, zühur vaxtı Allah onu qəbirdən dirildər ki, o həzrətin hüzurunda olsun. Allah Taala bu duanın hər kəlməsinə min həsənə (savab) yazar, min günahını əfv edər.

اَللّٰهُمَّ رَبَّ النُّورِ الْعَظيمِ وَرَبَّ الْكُرْسِيِّ الرَّفيعِ وَرَبَّ الْبَحْرِ الْمَسْجُورِ وَمُنْزِلَ التَّوْراٰةِ وَالْاِنْجيلِ وَالزَّبُورِ
وَرَبَّ الظِّلِّ وَالْحَرُورِ وَمُنْزِلَ الْقُرْآنِ الْعَظيمِ وَرَبَّ الْمَلاٰئِكَةِ الْمُقَرَّبينَ وَالْاَنْبِياءِ وَالْمُرْسَلينَ. اَللّٰهُمَّ اِنّي
اَسْاَلُكَ بِوَجْهِكَ الْكَريمِ وَبِنُورِ وَجْهِكَ الْمُنيرِ وَمُلْكِكَ الْقَديمِ ياحَيُّ ياقَيُّومُ اَسْاَلُكَ بِاسْمِكَ الَّذي
اَشْرَقَتْ بِهِ السَّماٰواٰتُ وَالْاَرَضُونَ وَبِاسْمِكَ الَّذي يَصْلَحُ بِهِ الْاَوَّلُونَ وَالْاٰخِرُونَ ياحَيًّا قَبْلَ كُلِّ حَيٍّ
وَيا حَيًّا بَعْدَ كُلِّ حَيٍّ وَياحَيًّا حينَ لاٰحَيَّ يامُحْيِيَ الْمَوْتٰي وَمُميتَ الْاَحْياٰ ياحَيُّ لاٰ اِلٰهَ اِلّاٰ اَنْتَ. اَللّٰهُمَّ بَلِّغْ
مَوْلاٰنَا الْاِماٰمَ الْهادِيَ الْمَهْدِيَّ الْقاٰئِمَ بِاَمْرِكَ صَلَواٰتُ اللهِ عَلَيْهِ وَعَلٰي آباٰئِهِ الطّاٰهِرينَ عَنْ جَميعِ
الْمُؤْمِنينَ وَالْمُؤْمِناٰتِ في مَشاٰرِقِ الْاَرْضِ وَمَغاٰرِبِها سَهْلِها وَجَبَلِها وَبَرِّها وَبَحْرِها وَعَنّي وَعَنْ واٰلِدَيَّ
مِنَ الصَّلَواٰتِ زِنَةَ عَرْشِ اللهِ وَمِداٰدَ كَلِماٰتِهِ وَماٰ اَحْصاٰهُ عِلْمُهُ وَاَحاٰطَ بِهِ كِتاٰبُهُ. اَللّٰهُمَّ اِنّي اُجَدِّدُ لَهُ في
صَبيحَةِ يَوْمي هٰذاٰ وَماٰ عِشْتُ مِنْ اَيّاٰمي عَهْدًا وَعَقْدًا وَبَيْعَةً لَهُ في عُنُقي لاٰ اَحُولُ عَنْها وَلاٰ اَزُولُ
اَبَدًا. اَللّٰهُمَّ اجْعَلْني مِنْ اَنْصاٰرِهِ وَاَعْواٰنِهِ وَ الذّاٰبّينَ عَنْهُ وَالْمُساٰرِعينَ اِلَيْهِ في قَضاٰءِ حَواٰئِجِهِ وَالْمُمْتَثِلينَ
لِاَواٰمِرِهِ وَالْمُحاٰمينَ عَنْهُ وَالسّاٰبِقينَ اِلٰي اِراٰدَتِهِ وَالْمُسْتَشْهَدينَ بَيْنَ يَدَيْهِ. اَللّٰهُمَّ اِنْ حاٰلَ بَيْني وَبَيْنَهُ
الْمَوْتُ الَّذي جَعَلْتَهُ عَلٰي عِباٰدِكَ حَتْمًا مَقْضِيًّا فَاَخْرِجْني مِنْ قَبْري مُؤْتَزِرًا كَفَني شاٰهِرًا سَيْفي مُجَرِّدًا
قَناٰتي مُلَبِّيًا دَعْوَةَ الدّاٰعي فِي الْحاٰضِرِ وَالْباٰدِ. اَللّٰهُمَّ اَرِنِي الطَّلْعَةَ الرَّشيدَةَ وَالْغُرَّةَ الْحَميدَةَ وَاكْحُلْ
ناٰظِري بِنَظْرَةٍ مِنّي اِلَيْهِ وَعَجِّلْ فَرَجَهُ وَسَهِّلْ مَخْرَجَهُ وَاَوْسِعْ مَنْهَجَهُ وَاسْلُكْ بي مَحَجَّتَهُ وَاَنْفِذْ اَمْرَهُ
وَاشْدُدْ اَزْرَهُ وَاعْمُرِ اللّٰهُمَّ بِهِ بِلاٰدَكَ وَاَحْيِ بِهِ عِباٰدَكَ فَاِنَّكَ قُلْتَ وَقَوْلُكَ الْحَقُّ ﴿ظَهَرَ الْفَساٰدُ فِي الْبَرِّ
وَالْبَحْرِ بِماٰ كَسَبَتْ اَيْدِي النّاٰسِ﴾ فَاَظْهِرِ اللّٰهُمَّ لَناٰ وَلِيَّكَ وَابْنَ بِنْتِ نَبِيِّكَ الْمُسَمّٰي بِاسْمِ رَسُولِكَ حَتّٰي
لاٰ يَظْفَرَ بِشَيْءٍ مِنَ الْباٰطِلِ اِلّاٰ مَزَّقَهُ وَيُحِقَّ الْحَقَّ وَ يُحَقِّقَهُ وَاجْعَلْهُ اللّٰهُمَّ مَفْزَعًا لِمَظْلُومِ عِباٰدِكَ وَناٰصِرًا
لِمَنْ لاٰ يَجِدُ لَهُ ناٰصِرًا غَيْرَكَ وَمُجَدِّدًا لِماٰ عُطِّلَ مِنْ اَحْكاٰمِ كِتاٰبِكَ وَ مُشَيِّدًا لِماٰ وَرَدَ مِنْ اَعْلاٰمِ دينِكَ
وَ سُنَنِ نَبِيِّكَ صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ وَاجْعَلْهُ اللّٰهُمَّ مِمَّنْ حَصَّنْتَهُ مِنْ بَأْسِ الْمُعْتَدينَ. اَللّٰهُمَّ وَسُرَّ نَبِيَّكَ
مُحَمَّدًا صَلَّي اللهُ عَلَيْهِ وَآلِهِ بِرُؤْيَتِهِ وَمَنْ تَبِعَهُ عَلٰي دَعْوَتِهِ وَارْحَمِ اسْتِكاٰنَتَناٰ بَعْدَهُ. اَللّٰهُمَّ اكْشِفْ هٰذِهِ
الْغُمَّةَ عَنْ هٰذِهِ الْاُمَّةِ بِحُضُورِهِ وَعَجِّلْ لَناٰ ظُهُورَهُ ﴿اِنَّهُمْ يَرَوْنَهُ بَعيدًا وَنَراٰهُ قَريبًا﴾ (سَنْراٰ اِجْ دُفْعَهْ النَّبي

سَاغْ بُودُونا وُورُوبْ هَرْ دَفْعَه سِنْدَه بُو سُوْزْلَرِى دِه) اَلْعَجَلَ اَلْعَجَلَ يَا مَوْلَايَ يَا صَاحِبَ الزَّمَانِ اَلْعَجَلَ اَلْعَجَلَ يَا مَوْلَايَ يَا صَاحِبَ الزَّمَانِ اَلْعَجَلَ اَلْعَجَلَ يَا مَوْلَايَ يَا صَاحِبَ الزَّمَانِ.

*Bismillahir-rəhmanir-rəhim*

Əllahummə Rəbbən-nuril-əzim, və Rəbbəl-kursiyyir-rəfi', və Rəbbəl-bəhril-məscur, və munzilət-tovrati vəl-incili vəz-zəbur, və Rəbbəz-zilli vəl-hərur, və munziləl-Qur'anil-əzim, və Rəbbəl-məlaikətil-muqərrəbin, vəl-ənbiyai vəl-mursəlin. Allahummə inni əs'əlukə bivəchikəl-kərim, və binuri vəchikəl-munir, və mulkikəl-qədim, ya Həyyu ya Qəyyum, əs'əlukə bismikəl-ləzi əşrəqət bihis-səmavatu vəl-ərəzun, və bismikəl-ləzi yəsləhu bihil-əvvəlunə vəl-axirun, ya həyyən qəblə kulli həyy, və ya həyyən bə'də kulli həyy, və ya həyyən hiynə la həyy, ya muhyiyəl-movta və mumitəl-əhya, ya həyyu la ilahə illa ənt. Allahummə bəlliğ movlanəl-İmaməl-Hadiyəl-Məhdiyyəl-Qaimə bi əmrik, sələvatullahi ələyhi və əla abaihit-tahirin, ən cəmiil-mu'mininə vəl-mu'minat, fi məşariqil-ərzi və məğaribiha, səhliha və cəbəliha və bərriha və bəhriha və ənni və ən validəyyə minəs-sələvati zinətə ərşillah, və midadə kəlimatihi və ma əhsahu ilmuh, və əhatə bihi kitabuh. Allahummə inni ucəddidu ləhu fi səbihəti yovmi haza və ma iştu min əyyami əhdən və əqdən və bəy'ətən ləhu fi unuqi, la əhulu ənha və la əzulu əbədа. Allahumməcə'lni min ənsarihi və ə'vanih, vəz-zabbinə ənhu vəl-musariinə iləyhi fi qəzai həvaicih, vəl-mumtəsilinə li əvamirih, vəl-muhaminə ənh, vəs-sabiqinə ila iradətih, vəl-mustəşhədinə bəynə yədəyh. Allahummə in halə bəyni və bəynəhul-movtul-ləzi cəəltəhu əla ibadikə hətmən məqziyya, fəəxricni min qəbri mu'təzirən kəfəni, şahirən səyfi, mucərridən qənati, muləbbiyən də'vətəd-dai' fil-haziri vəl-badi. Əllahummə ərinit-təl'ətər-rəşidətə vəl-ğurrətəl-həmidəh, vəkhul naziri bi nəzrətin minni iləyh, və əccil fərəcəhu və səhhil məxrəcəh, və ovsi' mənhəcəhu vəsluk bi məhəccətəh, və ənfiz əmrəhu vəşdud əzrəh, və'murillahummə bihi biladəkə və əhyi bihi ibadək, fə innəkə qultə və qovlukəl-həqq: *"zəhərəl-fəsadu fil-bərri vəl-bəhri bima kəsəbət əydin-nas"* fəəzhirillahummə ləna vəliyyəkə vəbnə binti Nəbiyyik, əl-musəmma bismi Rəsulik, hətta la yəzfərə bişəy'in minəl-batili illa məzzəqəh, və yuhiqqəl-həqqə və yuhəqqiqəh, vəc'əlhullahummə məfzəən liməzlumi ibadik, və nasirən limən la yəcidu ləhu nasirən ğəyrək, və mucəddidən lima uttilə min əhkami kitabik, və muşəyyidən

lima vərədə min ə'lami dinikə və sunəni Nəbiyyik, səlləllahu ələyhi və alih, vəc'əlhullahummə mimmən həssəntəhu min bə'sil-mu'tədin. Əllahummə və surrə Nəbiyyəkə Muhəmmədən səlləllahu ələyhi və alih, bi ru'yətihi və mən təbiəhu əla də'vətih, vərhəmistikanətəna bə'dəh. Əllahumməkşif hazihil-ğummətə ən hazihil-umməti bi huzurih, və əccil ləna zuhurəh, *"innəhum yərovnəhu bəidən və nərahu qəriba"*, birəhmətikə ya ərhəmər-rahimin. (Sonra 3 dəfə əlini sağ buduna vurub hər dəfəsində bu sözləri de:) Əl-əcələl-əcələ ya Movlayə, ya Sahibəz-zəman. Əl-əcələl-əcələ ya Movlayə, ya Sahibəz-Zəman, Əl-əcələl-əcələ ya Movlayə, ya Sahibəz-Zəman"

*TƏRCÜMƏSİ*

İlahi, ey əzəmətli nurun Rəbbi, ey uca kürsünün Rəbbi, ey təlatümlü dəryanın Rəbbi, ey Tövratı, İncili və Zəburu nazil edən, ey sərin kölgəliyin və yandırıcı küləyin Rəbbi, ey əzəmətli Qur'anı nazil edən, ey müqərrəb mələklərin, mürsəllərin və peyğəmbərlərin Rəbbi! İlahi, Səndən istəyir və Səni and verirəm Öz kəramətli vəchinə, Öz nurlu vəchinin nuruna, əzəli mülkünə (səltənətinə), ey Həyy, ey Qəyyum. Səni and verirəm o adına ki, asimanlar və yerlər onun səbəbi ilə işıqlanmışdır; and verirəm o adına ki, onun səbəbi ilə əvvəldəkilər və axırdakılar islah olar. Ey hər bir diridən öncə diri olan, ey hər bir diridən sonra diri qalan, ey heç bir diri olmayan vaxt diri olan, ey ölüləri dirildən, ey diriləri öldürən, ey diri, ey o kəs ki, Səndən başqa bir tanrı yoxdur. İlahi, mövlamıza, bizi hidayət edən, özü də hidayət olunmuş, Sənin əmrinlə (haqq-ədalətin) bərqərar olması üçün qiyam edən İmama, (Sənin salavatın ona və onun mə'sum ata-babalarına olsun!) yer üzünün şərq və qərbində, səhra və dağlarında, quruda və dənizində olan bütün mö'min kişi və qadınlar tərəfindən Allah ərşinin vəzni, kəlmələrinin qədəri, elmini saydığı kitabının əhatə etdiyi qədər salavat göndər. İlahi, bu günün sübhündə, yaşadığım günlərdə onunla bağladığım əhdi, boynumda olan bey'ətini təzələyirəm və heç vaxt o bey'ətdən əl çəkmərəm. İlahi, məni o Həzrətin köməkçilərindən, onu müdafiə edənlərdən, ona lazım olan köməklərə tələsənlərdən, əmrlərini yerinə yetirənlərdən, onu himayə edənlərdən, onun istəklərinə doğru öndə olanlardan və onun gözü önündə şəhid olanlardan qərar ver. İlahi, əgər ölüm hökmü – bəndələrin üçün labüd və qaçılmaz qərar verdiyin hökm – mənimlə o Həzrətin arasında ayrılıq salsa, məni (İmamın zühurunda) kəfən geydiyim, qılıncımı siyirib nizəmi ələ aldığım, kənd və şəhərlərdə (qiyama) də'vət edən carçının də'vətinə ləbbeyk ("qəbul etdim") deyən halda qəbirimdən çıxart. İlahi, rəşid (parlaq) sima (haqq və düz yola hidayət edən) nuru, bəyənilmiş gözəl alnı mənə göstər, ona nəzər etməklə gözümə şəfa ver! Onun fərəcini sür'ətləndir, zühurunu

asanlaşdır, yolunu genişləndir, məni onun yolu ilə apar, əmrini nüfuzlu et, arxasını möhkəmlət. İlahi, onun səbəbi ilə bizim ölkələri abadlaşdırıb bəndələrinin (mə'nəviyyatını) dirilt. Çünki Sən buyurmusan və Sözün də haqqdır: *"Fəsad quruda və dəryada, camaatın kəsb etdikləri pis əməllərə görə zahir oldu."* İlahi, bizim üçün Öz vəlini – Sənin Rəsulunun adı ilə eyni adda olan, Rəsulunun qızının oğlunu zahir et ki, batildən bir şey qalmasın və Həzrət onu tar-mar etsin, haqqı bərqərar edib möhkəmlətsin. İlahi, onu məzlum bəndələrin üçün sığınacaq, Səndən başqa bir köməkçi tapmayanlar üçün bir köməkçi, Kitabının icra olunmayan qanunlarını yeniləşdirən, Sənin dininin, Rəsulunun (səlləllahu əleyhi və alihi və səlləm) sünnələrindən gəlib çatan hökmlərini dirçəldən qərar ver. İlahi, onu, zalimlərin törədə biləcəyi təhlükələrdən amanda saxla. İlahi, onun görünməsi və ona də'vətində tabe olanların vasitəsilə Öz peyğəmbərin Mühəmmədi (səlləllahu əleyhi və alihi və səlləm)-i sevindir, ondan sonra bizim çarəsizliyimizə rəhm et! Onun zühur edib hazır olması ilə bu ümmətin müşkül və giriftarçılıqlarını aradan qaldır, bizim üçün onun zühurunu tezləşdir. *"Həqiqətən onlar bunu (zühuru) uzaq, biz isə yaxın görürük."* Səni and verirəm Öz rəhmətinə, ey rəhm edənlərin ən rəhimlisi! Tələs, tələs, ey Mövlam, ey Sahibəz-Zaman!

## DİLŞİKƏSTƏLƏRİN PƏNAHI

*Hamı dilşikəstələrin qanın Daş ürəklilərdən alan gələr*
*Gecə-gündüz ağlarıq istərik Ki haçan İmami Zaman gələr?*

***

Hamı şiələr səni səsləyər, Gözünün yaşın ələr ağlayar.
Hanı müntəqim, hanı dadirəs?![1] Necə gör dili deyər ağlayar,
Çəkib intizar "ağa gəl!" deyər, İli, ayı sərbəsər ağlayar.
Dilimizdə əzbər olub adın Deyirik: qana qan alan gələr

***

Sənin eşqin ilə hamı gəlib, Adıva necə edir iftixar.
O müqəddəs ismivə eyləyir, Hamı aşıqan canını nisar[2],
Necə vəhşətə salıb aləmin Hərə bir cinayətin aşikar
"Ağa ya İmami Zaman" adın Eləyib dilində rəvan gələr

***

Necə gör şərəflidi ümmətin, Əl-ələ verib hamı can be kəf[3].
Yerin üstə fitnə tapılmasa, Ölə öldürə tanınıb hədəf.
Eləyib baş ilə canın fəda, Qala bu şəriət ilə şərəf.
Ağa aşiqindi deyər müdam, Başım üstə sayə salan gələr.

***

Hamı göz tikib yoluva ağa, Bu Çox ümidilər sənə bağlanıb.
şəriətə görə ümmətin, Babavın Ürəyi yanıb necə dağlanıb.
ziyarətinin yolu, Necə şiələrivə bağlanıb.
Bu ümid ilə hamı səsləyər, Belə bağlı yollar açan gələr.

***

Necə gör “Təhuri” gecə-günüz, Yoluva ağa baxar ağlayar.
Qələm əldə vəsfivi hey yazar, Gözünün yaşı axar ağlayar.
Oxuyanda nohəvi bərmə la [4], Dili yandırıb yaxar ağlayar.
Buna e`tiqad eləyib yazar, Hamıya deyər: qan alan gələr!

***

---

[1] Müntəqim İntiqam alan, dadirəs – köməyə yetən
[2] Aşiqan – aşiqlər, nisar – fəda
[3] Can be kəf – canını fəda etməyə hazır
[4] Bərməla – aşkar